AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
M. FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

FİLOLOGİYA MƏSƏLƏLƏRİ

№ 6

Toplu Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən rəsmi qeydiyyata alınmışdır (Filologiya elmləri bölməsi, №13).
Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestrinə daxil edilmişdir. Reyestr №3222.

«Elm və təhsil»
Bakı – 2022

REDAKSİYA HEYƏTİ: akademik İsa Həbibbəyli, akademik Teymur Kərimli, akademik Möhsün Nağısoylu, akademik Nizami Cəfərov, akademik Rafael Hüseynov, AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, prof. Əbülfəz Quliyev, filologiya elmləri doktoru, prof. Nadir Məmmədli, filologiya elmləri doktoru, prof. Rüfət Rüstəmov, filologiya elmləri doktoru, prof. Fəxrəddin Veysəlli, filologiya elmləri doktoru, prof. Qəzənfər Kazımov, filologiya elmləri doktoru, prof. Əsgər Rəsulov, filologiya elmləri doktoru, prof. Məsud Mahmudov, filologiya elmləri doktoru, prof. Əbülfəz Rəcəbli, filologiya elmləri doktoru, prof. Cəlil Nağıyev, filologiya elmləri doktoru, prof. İsmayıl Məmmədli, filologiya elmləri doktoru, prof. Həbib Zərbəliyev, filologiya elmləri doktoru, prof. İlham Tahirov, filologiya elmləri doktoru, prof. Tofiq Hacıyev, filologiya elmləri doktoru, prof. Mübariz Yusifov, filologiya elmləri doktoru, prof. Qəzənfər Paşayev, filologiya elmləri doktoru, prof. Kamilə Vəliyeva, filologiya elmləri doktoru Kamil Bəşirov, filologiya elmləri doktoru, prof. Azadə Musayeva, filologiya elmləri doktoru Paşa Kərimov, filologiya üzrə fəlsəfə doktoru, dos. Nəzakət Məmmədli

Redaktor: akademik Teymur Kərimli
Buraxılışa məsul: filologiya elmləri doktoru, professor Nadir Məmmədli

Filologiya məsələləri. Bakı, 2022, №6

ISSN 2224-9257

© ”Elm və təhsil” nəşriyyatı, 2022

www. filologiyameseleleri.com

DİLÇİLİK

İLHAMƏ HƏBİB QIZI HACIYEVA
BDU,
Filologiya üzrə elmləri doktoru, professor
ŞƏLALƏ ABDULLA QIZI ABASOVA,
BDU,
Filologiya üzrə fəlsəfə doktoru
ilhame.haciyeva1964@mail.ru
shalalabasova@gmail.com

Ünvan: Bakı Dövlət Universiteti
B.Vahabzadə (Z.Xəlilov)küçəsi, 23

İNFORMASİYA-KOMMUNİKASİYA TEXNOLOGİYALARININ(İKT) CƏMİYYƏTDƏ ROLU

Açar sözlər: informasiya-kommunikasiya texnologiyaları (İKT), elektron versiya, İKT sektoru, internet, elektron xidmət, İKT-nin tətbiqi, təhsil sistemi

Bəli, bu gün dünyanın ən öndə gedən ölkələrini internetsiz təsəvvür etmək mümkün deyil. İlk dəfə 1960-cı ildə fransızlar tərəfindən informatika sözü elmə daxil edilmişdir və mənası informasiyanın avtomatik emalı mənasını verir. İngilis dilli dövlətlərdə Computer Scienee – hesablama texnikası haqqında elm deməkdir.

İnformatikanın əsasını kibernetika və sənədləşdirmə elmi təşkil edir: Sənədləşdirmə XIX əsrin 30-40–cı illərdə istehsal münasibətlərində burjua inqilabının inkişafı ilə əlaqədar olaraq yaranmışdır və XX əsrin 20-30-cu illərdə özünün yüksək inkişaf mərhələsinə qədəm qoymuşdur. Kibernetika isə 1948-ci ildə amerikalı riyaziyyatçı Nobert Vinner tərəfindən elmə daxil edilib. "*XIX əsrdə fransız fiziki Andre Mari Amper kibernetika sözünü öz elmi işlərində istifadə etmişdir. Səbəbi: o bütün elmlərin vahid sistemli klasifikasiya məsələləri ilə məşğul olarkən belə bir nəticəyə gəlmişdir ki, bütün fənnlərinin əsasını idarəetmə elementləri təşkil edir və onlar arasında qarşılıqlı əlaqə vardır". (1s.4)*

Çağdaş dövr informasiya-kommunikasiya texnologiyalarının (İKT) təsir dairəsi genişlənərək dövlət strukturlarını, vətəndaş cəmiyyəti institutlarını, iqtisadi və sosial sahələri, elm və təhsili, mədəniyyəti –bir sözlə bütün dünyanı əhatə edir. Elə buna görə də informasiya texnologiyalarının daha geniş yayıldığı ölkələr dünyanın ən qabaqcıl ölkələri hesab edilir. Belə cəmiyyətlərin əsas üstün cəhətləri informasiya-

kommunikasiya texnologiyalarının (İKT) kütləvi istifadəsi, qlobal informasiya mühitinin yaradılmasıdır. Çağdaş dövrdə cəmiyyəti İKT-nin bəxş etdiyi yeniliklərsiz, internetsiz təsəvvür etmək qeyri-mümkündür.

Müstəqilliyin ilk illərində ümummilli lider, ulu öndər Heydər Əliyev informasiya-kommunikasiya texnologiyalarının tətbiqinə xüsusi önəm vermiş və bu sahədə inkişafa nail olmaq üçün daim qayğı,diqqət göstərmişdir. Qeyd edək ki, 1993-cü ilin avqust ayında ümummilli lider Heydər Əliyev Azərbaycanla Amerika arasında birbaşa rabitənin yaradılmasına imkan verən peyk-rabitə sisteminin açılışını həyata keçirmişdir. Onun bu diqqəti nəticəsində ölkə iqtisadiyyatında ilk xarici investisiyalar məhz telekommunikasiya sahəsinə yatırılırdı.

1994-cü ildə «Bakcell» və 1996-cı ildə «Azercell» birgə müəssisələri yaradıldı və Azərbaycanda mobil rabitənin inkişafının əsası qoyuldu. 1996-cı ildə isə "AzEvroTel" və "Ultel" birgə müəssisələri lokal telekommunikasiya şəbəkəsi üzrə xidmət göstərməyə başlayıb. 1995-ci il dekabrın 9-da Bakı şəhərində Azərbaycanda ilk beynəlxalq telefon stansiyasının, habelə yenidən qurulmuş Şəhərlərarası Telefon Stansiyasının açılışı olmuşdur. Azərbaycanda yeni texnologiyaların tətbiqinə, telekommunikasiya infrastrukturunun modemləşdirilməsinə başlanılmış və ilk elektron ATS-lər fəaliyyətə başlamışdır. Bütün bunlar ulu öndər Heydər Əliyevin Azərbaycanın müstəqilliyinin ilk illərində rabitənin inkişafına göstərdiyi diqqətin nəticəsi hesab olunmalıdır. Onun 2003-cü ildə təsdiq etdiyi "Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)" bu istiqamətin ölkəmiz üçün vacibliyini və əhəmiyyətini vurğulayan ilk rəsmi sənəd olub. Cənubi Qafqazda ilk olaraq qəbul edilmiş bu sənəd Azərbaycanın İKT sahəsinə diqqətini cəmiyyətimizə və bütün dünyaya bəyan edib. "*Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin diqqət və qayğısı sayəsində ölkədə rabitə və informasiya-kommunikasiya texnologiyaları sektoru dinamik inkişaf edir, İKT ölkə iqtisadiyyatının digər sahələrinin sürətli artımına təkan verir və ölkənin hərtərəfli inkişafında onun xüsusi çəkisi ilbəil artır".(2.s.23)*

İKT-nin tətbiqinə ölkəmizdə də xüsusi diqqət yetirilir. Azərbaycanda son illərdə İKT sahəsində ciddi addımlar atılıb və dövlət siyasətinin başlıca istiqamətlərindən biri kimi diqqət mərkəzindədir. Elə buna görə də İKT ən dinamik inkişaf edən sahələrdən biridir. Çağdaş dövrümüzdə bütün dövlətlərdə və cəmiyyətlərdə gəncliyin qüvvəsindən yararlanmağa səy göstərilir. Əlbəttə, məsələyə sırf dövlətə, dövlətçiliyə xidmət baxımından yanaşsaq, gəncliyin enerjisindən, potensialından istifadənin həqiqətən zərurət olduğu aydın şəkildə görünər. Təqdirəlayiq haldır ki, bunu nəzərə alan Azərbaycan dövlətinin gənclərlə bağlı mükəmməl siyasi xətti var.

Konsepsiya çərçivəsində İKT üzrə nəzərdə tutulan əsas vəzifələr aşağıdakılardır: İnformasiya cəmiyyətinə keçidin təmin edilməsi; İKT-ni geniş tətbiq etməklə ənənəvi iqtisadiyyatdan biliklər iqtisadiyyatına keçidin təmin olunması;

“elektron hökumət”in genişləndirilməsi və İKT-nin tətbiqi ilə dövlət idarəçiliyinin səmərəliliyinin artırılması; İnformasiya təhlükəsizliyi sahəsində fəaliyyətin genişləndirilməsi; Cəmiyyətin informasiya texnologiyalarından istifadə imkanlarının genişləndirilməsi; Rəqabət qabiliyyətli və ixrac yönümlü İKT sənayesinin qurulması; Yüksəkixtisaslı mütəxəssislərin və elmi kadrların hazırlanması; Bu istiqamətdə İKT infrastrukturun inkişafı, “Elektron hökümət”in formalaşdırılması, informasiya proseslərinin mühafizəsi, o cümlədən kosmik sənayenin inkişafı, regional informasiya resurslarının və şəbəkə idarəetmə sistemlərinin qurulması, kadr hazırlığı işinin təkmilləşdirilməsi və bu sahədə əqli mülkiyyət hüquqlarının mühafizəsi ilə bağlı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Milli Strategiyanın əsas istiqamətləri aşağıdakılardır: İKT infrastrukturu və xidmətləri; Yüksək texnologiyalar sektorunun inkişafı; Yüksək texnologiyaların inkişafı üzrə elmi-texniki potensialın gücləndirilməsi; Elektron hökumətin inkişafı; İKT-cəmiyyətin inkişaf amili kimi; Kadr hazırlığı; İnformasiya təhlükəsizliyinin təmin edilməsi; Milli kontentin inkişaf etdirilməsi”. (3.26).

Gənclərimiz son dövrlərdə daha çox insanların həyatına daha çox daxil olan internetdən istifadə etməklə bütün dünyadan xəbər tutur, operativ şəkildə lazımı informasiyaları əldə edir, müxtəlif ölkələrdə yaşayan insanlarla virtual əlaqə saxlayır.

Azərbaycan dövləti internetin cəmiyyətin və insanların həyatının ayrılmaz hissəsi olduğunu nəzərə alaraq, indiyə qədər bu istiqamətdə bir sıra addımlar atıb. 2003-cü ildə ulu öndər Heydər Əliyevin təsdiq etdiyi İnformasiya və Kommunikasiya Texnologiyaları üzrə Milli Strategiya, Prezident İlham Əliyevin 21 avqust 2004-cü ildə təsdiq etdiyi "2005-2007-ci illərdə ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı haqqında Dövlət Proqramı", o cümlədən 22 oktyabr 2005-ci ildə təsdiq etdiyi "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan)" Azərbaycan dövlətinin bu məsələyə xüsusi önəm verməsindən xəbər verir. Bu sənədlər Azərbaycan iqtidarının İKT-nin inkişafına diqqətlə yanaşdığını göstərir.

Artıq həyatımıza daxil olan və xüsusən, gənclərin həvəslə qeyd etdiyi internet günü - 30 sentyabr Beynəlxalq İnternet Günü kimi elan olunub. Cəmiyyətin əksər qismi İKT-nin verdiyi üstünlüklərdən faydalanırlar. İnformasiya cəmiyyətinə istiqamətlənmiş yolun həm də bəşəriyyətin gələcəyinə gedən yol olduğu heç kimdə şübhə doğurmur. İKT tətbiqinin səviyyəsi hər bir ölkənin intellektual və elmi potensialının, dövlət idarəçiliyində şəffaflığın və demokratiyanın inkişafının əsas göstəricilərindəndir. Həyata keçirilməli olan tədbirlər sırasında:

-təhsilin orta və bakalavr pilləsində İT tədris proqramlarına yenidən baxılmalı;

-Tədris vəsaitlərinin elektron versiyalarının sayt və informasiya bazalarının yaradılması;

-vətəndaşa elektron xidmətlərinin keyfiyyəti, üstünlükləri haqqında haqqında bilikləri kütləvi informasiya vasitələri ilə mütəmadi tətbiq etmək;

-hər bir vətəndaşın "elektron hökumət "layihəsindən istifadə şəraitinin yaradılması;
- elektron xidmətlərin modellər toplusunun fəaliyyəti və istifadəsinin daha asan, anlaşılan variantlarının işlənib hazırlanması;
-hökumətin bütün idarəetmə strukturlarında elektron sənəd dövriyyəsinin yaradılması və istifadəsinin təşkili. Nəhayət, İKT üzrə orta ali təhsil müəsisələrinin yaradılması və olanların fəaliyyətlərinin uzlaşması, mərkəzləşməsi yolu ilə ölkəmizdə "elektron hökumət " layihəsinin daha səmərəli keyfiyyətli reallaşdırılmasına nail oluna bilinər(4.)

Ökəmiz son dövrlərdə İKT-nin tətbiqi, internetin insanların həyatına daha çox inteqrasiyası məsələsində ciddi uğurlar qazanıb. Hazırda Azərbaycan internetdən istifadə edənlərin sayına görə bir sıra ölkələrlə müqayisədə aparıcı yerlərdən birini tutur. Bu işdə Azərbaycan dövlətinin həyata keçirdiyi dövlət proqramlarının mühüm əhəmiyyəti var.

İnternetlə bağlı bir çox mənbələr də təsdiq edirlər ki, Azərbaycanda internetdən daha çox istifadə edən məhz gənclərdir.Lakin gənclərimiz müəyyən qismi internetə daha çox əylənmək məqsədi ilə daxil olanlar da az deyil. Belə ki, gənclər üçün böyük meydan açılan internetdə "çat" adlanan strukturda yazışır, tanış olur, bir-birləri ilə söhbət edir, informasiya mübadiləsi aparırlar. Lakin bu hal bir tərəfdən təqdirəlayiq hal kimi qiymətləndirilirsə, digər tərəfdən gənclərin mənəviyyatına, etik davranışına, tərbiyəsinə o qədər də müsbət təsit göstərmir. Belə "çat"lara daxil olan gənclərin əksəriyyətinin ümumi və ya ikili yazışmalarda etikadan kənar sözlər işlətmələri bəzən adi hala çevrilir. Maraqlıdır ki, məhz qeyri-səmimi ifadələrin işləndiyi internet saytları, "çat"lar reytinqlərdə üstünlük qazanırlar. Yaxud gənc nəslin nümayəndələri arasında müşahidə olunan xoşəgəlməz cəhətlər sırasında internetdən vaxtında düzgün istifadə olunmamasından irəli gəlir. Əgər birinci gündən kompüter qarşısında əyləşən azyaşlılara internetdən düzgün istifadə qaydası izah olunmasa, bu, onların yeniyetmə və gənc çağlarında səhvlərə yol açа bilər.

Əslində, kompüter sistemlərində təlim-tərbiyəyə mənfi təsir göstərən mövzuların qarşısını almaq üçün lazımı qədər texniki imkanlar var. Məsələn, "Windows XP" sistemində valideyn nəzarəti rejimi üçün bölmə yaradılıb. Bunun vasitəsilə mənfi fəsadlar doğura biləcək saytlara daxil olmanın və həmin saytı açmasının qarşısını almaq mümkündür. Bəzən kompüterdən, internetdən düzgün istifadə olunmaması nəticəsində bir çox nevroloji xəstəliklərə, beyin pozğunluğuna və s. səbəb ola bilir ki, bu cür problemlərin yoluna qoyulması da günün vacib məsələlərindəndir.

İnternetin bəzi gənclərimizə təlim-tərbiyəyə pis təsir etməsinin səbəblərindən biri də ölkədə kompüter biliklərinin səviyyəsinin aşağı olması ilə izah etmək olar. Belə ki, bir sıra məktəblərdə bilikvermə prosesinə istənilən qədər diqqət, qayğı göstərilmir, maliyyə sərf olunmur. Hörmətli Cənab Prezidentimizin təsdiq etdiyi dövlət proqramına əsasən, bütün orta təhsil məktəbləri kompüterlə təmin olunur.

Müəllimlərin kompüter bilikləri o qədər də ürəkaçan olmadığı üçün ixtisaslı mütəxəssislərə ehtiyac hiss olunur.

Qloballşan dünyanın inkişaf prinsiplərinin elektronlaşma və yüksək texnologiyalar üzərində qurulduğu, informasiya və kommunikasiyanın insan inkişafı və sosial rifahın özəyi olduğu bəllidir. Azərbaycan dövləti və onun prezidenti tərəfindən müasir qlobal çağırışlar vaxtında dəyərləndirilərək bu istiqamətdə zəruri tədbirlər görülmüşdür. Yeniliklər, cəmiyyətdə gedən mürəkkəb proseslər, həyata keçirilmiş konseptual tədbirlər nəticəsində rabitə sistemi yenilənmiş, əhalinin internetə çıxışı təmin edilmiş, İKT-nin geniş tədbiqinə nail olunmuş, işlərimiz daha da rahatlaşmış,"ASAN xidmət" mərkəzləri yaradılmışdir. "*Milli rəqəmsal televiziya və radio yayımı təşkil edilmiş, kosmik sənaye yaradılmış və informasiya təhlükəsizliyi üzrə təşkilati məsələlər həll edilərək İC-yə keçidin əsası qoyulmuşdur. Əhalinin 85 faizdən çoxunun yaşadığı ərazilərin rəqəmli televiziya yayımı ilə əhatəsi, poçt şöbələri tərəfindən bank-maliyyə xidmətləri göstərilməsi, "elektron hökuməfi'in formalaşdırılması ilə bağlı görülən işlər çərçivəsində "elektron imza"nm tətbiqi, "Elektron hökumət" portalının yaradılması, həmçinin "E-təhsil", "E-səhiyyə", "E-vergilər", "E-gömrük", "E-ədliyyə" və s. layihələrin reallaşması İKT sahəsində inkişafa təkan verən mühüm nailiyyətlər olmuşdur". (5*.s.31)

Hazırda informasiya cəmiyyətinə istiqamətlənmiş yolun bəşəriyyətin gələcəyinə gedən yol olduğu artıq heç kimdə şübhə doğurmur. "İnformasiya cəmiyyətinin əsas xüsusiyyətləri sırasına aşağıdakılar aiddir:

" - *qlobal informasiya mühitinin yaradılması;*

- informasiya və kommunikasiya texnologiyalarından kütləvi istifadə edilməsi, sosial və iqtisadi fəaliyyətin yeni formalarının yaranması;

- təhsil sisteminin təkmilləşməsi, beynəlxalq, milli və regional səviyyədə informasiya mübadiləsi sistemlərinin imkanlarının genişlənməsi hesabına peşə və ümumi mədəniyyət səviyyəsinin artması;

*- demokratik inkişafın vacib şərti sayılan vətəndaşların və sosial institutların məlumat almaq, onu yaymaq və istifadə etmək kimi hüquqlarını təmin edən mühitin yaradılması."(*2.s.27)

İnkişaf Konsepsiyası və Milli Strategiya Konsepsiya çərçivəsində İKT üzrə nəzərdə tutulan prioritet vəzifələr isə aşağıdakılardır: "*İnformasiya cəmiyyətinə keçidin təmin edilməsi; İKT-ni geniş tətbiq etməklə ənənəvi iqtisadiyyatdan biliklər iqtisadiyyatına keçidin təmin olunması; "elektron hökumət"in genişləndirilməsi və İKT-nin tətbiqi ilə dövlət idarəçiliyinin səmərəliliyinin artırılması; İnformasiya təhlükəsizliyi sahəsində fəaliyyətin genişləndirilməsi; Cəmiyyətin informasiya texnologiyalarından istifadə imkanlarının genişləndirilməsi; Rəqabətqabiliyyətli və ixrac yönümlü İKT sənayesinin qurulması; Yüksəkixtisaslı mütəxəssislərin və elmi kadrların hazırlanması"*(6.s.15)

Cənab Prezident İlham Əliyev tərəfindən inkişafımızın prioritet istiqaməti elan edilən bu sahə son 20 ildə böyük sürətlə tərəqqi yoluna qədəm qoyub. Heç də

təsadüfi deyil ki, 2013-cü il Azərbaycanda "İnformasiya-kommunikasiya texnologiyaları ili" kimi tarixə düşüb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu barədə belə deyib: "Bu müstəqillik dövründə, doğrudan da, biz elə böyük uğurlara imza atmışıq ki, hər bir Azərbaycan vətəndaşı bununla fəxr edə bilər. Onların içində peykimizin kosmosa buraxılması xüsusi yer tutur. Bu həm böyük məna daşıyır, həm də böyük rəmzi mənası var. Əminəm ki, bu hadisə gələcəkdə müasirliyə, inkişafa doğru atılan addımlarımızı artıracaq.

Məlumdur ki, Azərbaycanda İKT sahəsində həyata keçirilən ilkin tədbirlərdən biri "Elektron hökumət" layihəsidir. Onun həyata keçirilməsində əsas məqsəd əhaliyə, həmçinin sahibkarlara, biznes sektoruna verilən xidmətləri avtomatlaşdırmaqdır. "İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı və informasiya cəmiyyətinə keçidin təmin edilməsi" konsepsiyada əsas istiqamətlərdən birini təşkil edir. Burada qoyulan məqsədlərə görə, 2020-ci ilə qədər informasiya cəmiyyətinə keçid təmin edilməlidir. İnanırıq ki, ölkə Prezidenti cənab İlham Əliyevin diqqət və ciddi səyləri nəticəsində İKT daha da inkişaf edəcək və əldə olunan nailiyyətlərin yaxın gələcəkdə daha da artırılacağı şübhəsizdir.

Ədəbiyyat:

1.http://www.lib.bbu.edu.az/read.php?item_type=lecture&file_type=pdf&file=30
2.Mahir Abbaszadə. Azərbaycanda informasiya kommunikasiya texnologiyalarının (İKT) tətbiqinin təkmilləşdirilməsi: informasiya iqtisadiyatı və iqtisadi idarəetmə.AMEA, İqtisadiyyat İnstitutu/ Elm və İnnovativ Texnologiyalar Jurnalı Nömrə 11, Bakı, 2019. 25- 39
3. Gülnarə Abbas.İqtisadi və Sosial İnkişaf Mərkəzi Sahibkarlığın və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu (SBİİYF) İsveçrə İnkişaf və Əməkdaşlıq Agentliyi Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası: İnformasiyakommunikasiya texnologiyalarının inkişafı istiqaməti üzrə MONİTORİNQ HESABATI səh.26
4. http://unec.edu.az/application/uploads/2018/11/liyeva-Fidan.pdf
5. I Respublika elmi-praktiki konfransı, "Elektron dövlət quruculuğu problemləri" 4 dekabr, 2014 səh.166-176
6. https://www.elibrary.az/docs/jurnal/jrn2017_972.pdf

Xülasə

İnformasiya-kommunikasiya texnologiyalarının(İKT) cəmiyyətdə rolu

Təqdiralayiq haldır ki, İKT-nin tətbiqinə bizim ölkəmizdə də böyük diqqət yetirilir. Azərbaycanda son illərdə İKT sahəsində ciddi addımlar atılıb və dövlət siyasətinin başlıca məsələlərindən biri kimi diqqət mərkəzindədir. Elə buna görə də İKT sektoru ən dinamik inkişaf edən sahələrdən biridir. İKT-nin ən mühüm tərikib hissəsi olan və XX əsrin son yeniliyi sayılan internetin insanların həyatına daxil

olması müsbət tərəfləri ilə yanaşı, cəmiyyət üçün müəyyən narahatlıqlar doğuran məqamları da vardır**.** İnformatikanın əsasını kibernetika və sənədləşdirmə elmi təşkil edir:Müstəqilliyin ilk illərində ümummilli lider Heydər Əliyev informasiya-kommunikasiya texnologiyalarının tətbiqinə xüsusi önəm verdi.O, 1993-cü ilin avqust ayında Azərbaycanla Amerika arasında birbaşa rabitənin yaradılmasına imkan verən peyk-rabitə sisteminin açılışını həyata keçirmişdir. Bu ölkə iqtisadiyyatında ilk xarici investisiyalar məhz telekommunikasiya sahəsinə yatırılırdı. İnternet günü - 30 sentyabr Beynəlxalq İnternet Günü kimi elan olunub. Yeniliklər, cəmiyyətdə gedən proseslər, həyata keçirilmiş konseptual tədbirlər nəticəsində rabitə sistemi yenilənmişdir. Ökəmiz son dövrlərdə İKT-nin tətbiqi, internetin insanların həyatına daha çox inteqrasiyası məsələsində ciddi uğurlar qazanıb. Hazırda Azərbaycan internetdən istifadə edənlərin sayına görə bir sıra ölkələrlə müqayisədə aparıcı yerlərdən birini tutur. Bu işdə Azərbaycan dövlətinin həyata keçirdiyi dövlət proqramlarının mühüm əhəmiyyəti var.

Илхама Гаджиева
Шалала Аббасова

Резюме
Информация и коммуникация
роль технологий (ИКТ) в обществе

Похвально, что большое внимание уделяется использованию ИКТ в нашей стране. В последние годы Азербайджан предпринял серьезные шаги в сфере ИКТ и находится в центре внимания как один из ключевых вопросов государственной политики. Поэтому сектор ИКТ является одним из наиболее динамично развивающихся направлений. Наряду с положительными сторонами интеграции Интернета в жизнь людей, который является важнейшим компонентом ИКТ и считается последним нововведением XX века, существуют и вопросы, вызывающие озабоченность общественности. Основу информатики составляют науки о кибернетике и документации: В первые годы независимости общенациональный лидер Гейдар Алиев уделял особое внимание применению информационных и коммуникационных технологий. В августе 1993 года он открыл систему спутниковой связи, которая позволила установить прямую связь между Азербайджаном и США. Первые иностранные инвестиции в экономику этой страны были сделаны в сфере телекоммуникаций. День Интернета – 30 сентября объявлен Международным днем Интернета. В результате нововведений, процессов в обществе, концептуальных мероприятий обновилась система коммуникации.

В последнее время наша страна добилась значительного прогресса в применении ИКТ и большей интеграции Интернета в жизнь людей. В

настоящее время Азербайджан является одной из ведущих стран по количеству пользователей Интернета по сравнению с рядом стран. В данном случае важны государственные программы, реализуемые Азербайджанским государством.

Ключевые слова: информационно-коммуникационные технологии (ИКТ), электронная версия, ИКТ-сектор, Интернет, электронные услуги, ИКТ-приложение, система образования.

İLHAMA HACIYEVA
SHALALA ABASOVA

Summary

İnformation and communication
the role of technology (ICT) in society

It is commendable that much attention is paid to the use of ICT in our country. In recent years, Azerbaijan has taken serious steps in the field of ICT and is in the spotlight as one of the key issues of state policy. Therefore, the ICT sector is one of the most dynamically developing areas. Along with the positive aspects of integrating the Internet into people's lives, which is the most important component of ICT and is considered the latest innovation of the twentieth century, there are also issues of public concern. Basics of computer science are the sciences of cybernetics and documentation: In the first years of independence, the national leader Heydar Aliyev paid special attention to the use of information and communication technologies. In August 1993, he opened a satellite communication system that allowed him to establish direct communication between Azerbaijan and the United States. The first foreign investments in the economy of this country were made in the field of telecommunications. Internet Day - September 30 is announced as the International Day of the Internet. As a result of innovations, processes in society, conceptual activities, the communication system was updated.In recent years, our country has made significant progress in the application of ICT and greater integration of the Internet in the lives of people. Currently, Azerbaijan is one of the leading countries in terms of the number of Internet users compared to a number of countries. In this case, the most important state programs implemented by the Azerbaijani state.

Keywords: information and communication technologies (ICT), electronic version, ICT sector, Internet, electronic services, ICT application, education system

Redaksiyaya daxil olma tarixi: 18.05.2022
Çapa qəbul olunma tarixi: 07.06.2022
Rəyçi: f.e.d.dosent Reyhan Həbibli
tərəfindən çapa tövsiyə olunmuşdur

ALIYEVA GÜLÇÖHRƏ BABAƏLİ
Azərbaycan Dövlət Dəniz Akademiyası
AZ1000, Bakı şəh.,Z.Əliyeva küç.,18
filologiya üzrə fəlsəfə doktoru, dosent
e-mail: emma_fn@mail.ru

MÜASİR DİLÇİLİKDƏ FUNKSİONAL İSTİQAMƏTİN ONTOLOJİ VƏ QNOSEOLOJİ ASPEKTLƏRİ

XÜLASƏ

Dilçilik elminin müasir inkişaf mərhələsi funksional qrammatika və daha geniş – dilin funksional təsviri problemlərinə getdikcə artan maraqla xarakterizə edilir. Bu, tam qanunauyğundur, çünki bu gün dilçilik dil "özlüyündə və özü üçün" müddəasına deyil, dilin məqsəd kimi təsnifi və ya sistemli təsviri məsələlərinə deyil, dilin həqiqi praktik şüur kimi, insan cəmiyyətində kommunikasiya şəraitində fəaliyyəti üçün nəzərdə tutulmuş mühüm vasitə kimi dərk edilməsinə istiqamətlənir. Sahə nəzəriyyəsinin əsil mahiyyətini xarakterizə edən cəhət onun ümumi – invariant məna oxu ətrafında bir-biri ilə sıx əlaqədə olan müxtəlif səviyyəli ifadə vasitələrinin vahid funksional sistem kimi dərk olunmasındadır.

Sahənin ifadə planına dilin bütün müxtəlif səviyyəli vahidlərinin formal struktur tərəfləri, məzmun planına isə həmin dil vahidlərinin invariant məna ətrafında cəmləşməsi aiddir. Bu vasitələr sahənin konstituentləridir və onun "mərkəz-ucqar" (nüvə-periferiya) konfiqurasiyasını təşkil edir.

Analiz edilmiş material belə nəticəyə gəlməyə əsas verir ki, çağdaş dilçilikdə dil elementlərinin müəyyən qanunauyğunluqlara əsasən qruplaşmasını və qarşılıqlı təsirini nəzərdə tutan sahə nəzəriyyəsi dilin sistemli təşkili vasitəsi kimi mövcuddur və sahə dil sistemində onu təşkil edən ünsürlərin real əlaqələrini əks etdirir.

Açar sözlər: *sahə, dil elementləri, məzmun planı, invariant, funksiya, konfiqurasiya*
Ключевые слова: *поле, языковые элементы, план содержания, инвариант, теория поля, функция, конфигурация*
Keywords: *field, linguistic elements, plan of content, invariant, functional sistem, configuration*

Giriş. Müasir elmin xarakterik cəhəti mürəkkəb sistemlərin öyrənilməsi və əsas xüsusiyyətləri tamlıq, əlaqələrin zənginliyi və ətraf mühitlə qarşılıqlı əlaqədə olan obyektlərin dərk edilməsinə cəhddir. Bu baxımdan sistem-struktur yanaşmasının mövcud şərhlərinə daha çox dinamizm verilməsinin zəruriliyi getdikcə daha aydın görünür. Nəzəri biliklərin və eksperimental-praktik tədqiqatların bütün sahələrinin

çox sürətlə genişlənməsi elmi təfəkkürün bütün üslublarının kökündən dəyişməsi ilə nəticələndi və elmi idrakın yeni fəaliyyət paradiqmasının yaranmasına səbəb oldu.

Dilçilikdə fəaliyyət metodologiyasının bərqərar olması, ilk növbədə, dilin instrumental konsepsiyasını bəyan edən funksionalizmin sürətli inkişafı ilə bağlıdır. Bu konsepsiyaya görə, dil ictimai qarşılıqlı təsir vasitəsidir və insanlar bir-birinin əqli və praktik fəaliyyətinə dil ilə qarşılıqlı təsir göstərirlər. Funksional linqvistikanın konsepsiya və kateqoriyalarında dil strukturu nitq realizasiyası prosesində, konkret nitq praktikasında öyrənilir, ona görə də bu gün hər şeyin dilin faktik işlənməsi ilə izah edildiyi bu təbii qrammatika haqqında təsəvvürlər məhz funksional istiqamətlə bağlıdır.

Dilin vəziyyətinin dinamikliyi getdikcə daha çox onun sisteminin və ayrı-ayrı alt sistemlərinin mərkəzi və periferiya sahələrinə bölünməsi ilə əlaqələndirilir. Gürünür, bu istiqamət üzrə funksional-qrammatik tədqiqatları konseptual-dil əməliyyatlarını modelləşdirən və dil və nitq faktlarını "məqsəd-vasitə" prinsipi ilə analiz etməyə, yəni hər hansı dilin müəyyən kommunikativ məqsədə çatmaq üçün hansı vasitələrə malik olduğunu və bu vasitələrin bir-biri ilə hansı münasibətdə olduğunu müəyyənləşdirməyə imkan verən dil sahələri nəzəriyyəsi mövqeyindən aparmaq daha məqsədəuyğundur. Sahə qrammatikasının yaranması və inkişafı müasir elmi idrak nəzəriyyəsində fəaliyyət paradiqması fikrindən ayrılmazdır. Funksional istiqamətin getdikcə daha xüsusi formalarda təzahür edən metodikaları kimi sahə analizi dilin ünsiyyətdə necə istifadə edilməsini, dilin həyat fəaliyyətinin, onun yaradıcılıqla qarşılıqlı əlaqəsinin daha dərin qanunauyğunluqlarını daha mükəmməl formada əks etdirmək məqsədi güdür. Bu zaman sahə yanaşması prinsiplərinin reallaşmasında çox vaxt sistemlilik problematikası dilçiliyin ənənəvi obyektindən – dildən (dil strukturundan) nitq kommunikasiyasına keçirilir. Eyni zamanda, bilavasitə fikrin gerçəkliyini əks etdirdiklərindən dil və nitqin dialektik olaraq bir-birinə keçməsi fikri ilə razılaşaraq belə bir qənaətə əsaslanmaq olar ki, bu gün linqvistikanın metodoloji vəzifəsi dil və nitqi ayırmaq yox, onların hansı şəkildə qarşılıqlı əlaqədə olmasını, bu qarşılıqlı əlaqənin hansı ümumi platformada mümkün olmasını başa düşməyə cəhd etməkdir. Həmçinin təkcə belə qarşılıqlı əlaqənin mövcudluğunu qəbul etmək yox, onun modelini yaratmaq da çox mühümdür.

Dilin modelləşdirilməsinin sahə nəzəriyyəsi. Bəzi linqvistlər sahənin müxtəlif nitq hissələrinə aid olduğunu və ya müəyyən anlayışın ifadəsinin ümumiliyi ilə xarakterizə edilən sözlərin məcmusu kimi qəbul edirlər. Semantik sahələrin müəyyənləşdirilməsinə yanaşmaların müxtəlifliyi dilin sistemində vahidlərin əlaqələrinin müxtəlifliyini, eləcə də bu və ya digər yanaşmanı müəyyənləşdirən müxtəlif semantik konsepsiyaların olmasını göstərir.

Sahə tədqiqatlarının dilçilikdə geniş müsbət təcrübəsinin analizi belə bir nəticəyə gəlməyə əsas verir ki, linqvistlərin işləyib hazırladıqları sahə konsepsiyaları dilin və onun ayrı-ayrı sahələrinin təşkili və mövcudluğu qanunauyğunluqları haqqında təsəvvürlərimizi xeyli irəli aparmış və bununla həmin metodikanı müasir dilçilik

elminin aparıcı istiqamətlərindən birinə çevirmişdir. Bununla belə, mövcud konsepsiyalarda dil vasitələrinin onların dil xaricindəki gerçəkliyin milli və fərdi insan şüurunda və beləliklə, insan nitqində əks etdirmək bacarığı nöqteyi-nəzərindən təsvirinə kifayət qədər diqqət göstərilmir. Bu konsepsiyalarda dilə sistem və funksiyanın vəhdəti kimi yanaşma da qənaətbəxş şəkildə əksini tapmamışdır. Dil və nitq kateqoriyaları və alt sistemlərinin sahə strukturlaşdırılması və dilin modelləşdirilməsinin sahə nəzəriyyəsinin gələcək inkişafı, məsələn, sırf taksonomik vahid kimi "sahə"dən dilin onun konkret reallaşmasında öyrənmə aləti kimi "sahə"yə keçid üçün metodoloji baza ola bilən ümumi nəzəriyyəsi arasında əlaqə də çox az tədqiq olunmuşdur. Sahəyə daxil olan vahidlərin (xüsusilə aksioloji) kommunikativ-praqmatik xarakteristikaları da indiyə qədər tədqiqatçıların diqqətindən kənarda qalmışdır, çünki sahə problemləri ilə bağlı geniş ədəbiyyatda belə bir nəzər nöqtəsi üstün mövqe tutur ki, dilin sahə konsepsiyaları guya sırf paradiqmatik konsepsiyalardır, onlarda analiz dil vasitələri sistemi ilə qapanmışdır [1].

Maraqlıdır ki, dilçilikdə müasir funksional istiqamət yaxın zamanlara qədər istisnasız olaraq sinxron yanaşma kimi inkişaf edirdi. Nəticədə dil sahəsi nəzəriyyəsi diaxroniyada tamamilə öyrənilməmiş qalmışdır. Halbuki diaxronik tədqiqatlara daha çox dinamizm verə biləcək və dilə məhz funksional vasitələr sistemi və bununla bərabər, tarixi hadisə kimi yanaşmanı təmin edə biləcək yeni prinsipial imkanlar və metodlar axtarılmasının zəruriliyi şübhəsizdir. Bu gün hələ zəif işlənmiş məsələlər sırasına, əlbəttə, sahə modelinin funksional əsasda, xüsusilə kontensiv ("məzmun") tipologiya kimi aktiv inkişaf edən bir istiqamət məcrasında həyata keçirilən dillərarası qarşılaşdırma tədqiqatlarında tətbiqi ilə bağlı məsələləri də aid etmək lazımdır.

Dilçilik elminin müasir inkişaf mərhələsi funksional qrammatika və daha geniş – dilin funksional təsviri problemlərinə getdikcə artan maraqla da xarakterizə edilir. Bu, tam qanunauyğundur, çünki bu gün dilçilik dil "özlüyündə və özü üçün" müddəasına deyil, dilin məqsəd kimi təsnifi və ya sistemli təsviri məsələlərinə deyil, dilin həqiqi praktik şüur kimi, insan cəmiyyətində kommunikasiya şəraitində fəaliyyəti üçün nəzərdə tutulmuş mühüm vasitə kimi dərk edilməsinə istiqamətlənir. Ona görə də tədqiqatçıların diqqəti öz istiqamətini dəyişərək dil vahidlərinin fəaliyyət qanunauyğunluqlarının öyrənilməsi və təsvirinə, söyləmin mənasının çatdırılmasında iştirak edən müxtəlif dil səviyyələrinə aid elementlərin qarşılıqlı əlaqəsinə yönəlmişdir. Bu yalnız formalardan mənalara / vasitələrdən funksiyalara istiqamətində deyil, həm də mənalardan formalara / funksiyalardan vasitələrə istiqamətində analizin mümkünlüyünü ehtimal edir.

Ontoloji və qnoseoloji aspektlər. Obyektlərə elmdə artıq öz təsdiqini tapmış sistemli yanaşma öyrənilən mahiyyətin şərhində və analiz nəticəsində heç də həmişə kifayət qədər dəqiq ifadəsini tapmayan bir sıra ümumi istiqamətləri nəzərdə tutur. Onlara sistem anlayışı özü də aiddir.

Tədqiqatçıların bu terminə nə məna verməsindən asılı olmayaraq, elementlər

sisteminin iki aspekti olur: ontoloji və qnoseoloji. Ontologiyada tərkib elementləri, onların sistemdə yeri və onları bağlayan münasibətlər tədqiqatçıdan asılı olmur, çünki onlar obyektin mahiyyət xarakteristikalarıdır və elə onların sayəsində obyekt öz-özlüyündə qalır və onunla oxşar olan obyektlərdən ayrılır. Bu halda elementlərin ehtimal əsasında hansısa bir çoxluğa daxil edilməsi və ya edilməməsi də tədqiqatçıdan asılı olmur.

Qnoseoloji nöqteyi-nəzərdən sistemin tərkib hissələri və onların qarşılıqlı münasibətlərini tədqiqatçı özü müəyyənləşdirə və təsvirə daxil edə bilər. Bu zaman tədqiqatçı analizin məqsədini və nəticələrin təqdimat formalarının uyğunluğunu, qarşıya qoyulmuş və nail olunmuş məqsəd haqqında təsəvvürləri rəhbər tutur.

Ontoloji sistemlilik (obyektin sistemliliyi) daha az variativdir, qnoseoloji planda (bilik sistemində) isə bu variativliyin hüdudu yoxdur: qnoseoloji sistemlər öyrənilən vahidlər üzərində əməliyyatlardır. Bu mənada sistem haqqında deyil, təsnifatlar haqqında danışmaq olar. Analiz edilmiş eyni bir material müxtəlif yollarla təqdim edilə bilər. Bu zaman alınmış nəticələrin müqayisə edilə bilməsi təcrübə sahəsində olan və təsnif edilən vahidlərin ontoloji xarakteristikaları ilə ən sıx şəkildə bağlı olan müəyyən yoxlama meyarının mövcudluğunu bildirir. Təcrübədə tapılmış real qarşılıqlı münasibətlərin xarakteri və onların kombinatorikasının mümkünlüyü nəticələrin ayrı-ayrı təqdimat üsullarının təsdiq və ya təkzib edilməsidir. Yalnız praktik realizasiyalara müvafiq gələrək sxemlər əmələ gətirən sistemlərin mövcud olmağa haqqı vardır. Yeni məlumatların cəlb edilməsi aşkar olunmuş münasibətlərin əsasını dağıtmağa deyil, təsdiqləməyə xidmət etməlidir.

Faktik materialın immanent xassələrinin analizinə əsaslanmış nəzəri mühakimələr, hər şeydən əvvəl, müəyyən mücərrəd məzmunun indikatorları olması ilə maraq doğuraraq empirik şəkildə müşahidə edilən məlumatları əks etdirir. Leksikaya aid edildikdə bu onu bildirir ki, yalnız qnoseoloji sistemliliklər deyil, ontoloji sistemliliklər də forma ilə məzmunun qarşılıqlı münasibətdə olması – vahidlərin məzmun əlaqələrinin onların formal əlaqələri ilə korrelyasiyası sayəsində empirik reallıqdan ibarət olur.

Dil fikrin bilavasitə gerçəkliyi kimi onu ifadə edir, bununla da məzmun kateqoriyalarını analiz edilə bilən reflekslərə çevirir. Ona görə də leksik mənaları öyrənərkən biz mənaların denotata və siqnifikata aidliyini deyil, leksik mənaların sintaqmatikada bir-birinə qarşı qoyulmasına istinad etmişik. Məlum olur ki, bu mümkündür, çünki dildə forma və məzmun dialektik şəkildə bir-birinə qarşılıqlı təsir göstərir: elə bir dil forması yoxdur ki, onun mənası olmasın, hər bir məna isə özünün ifadə formasına malikdir. Mənanın zahiri aləmdə əşyalar, anlayışlar və münasibətlərə ekstralinqvistik istiqaməti onların nominasiya üsulları kimi nitqdə birləşən leksik vahidlərin bir-birindən asılılığının spesifikasından keçərək təsbit edilir. Şübhə yoxdur ki, leksik vahidlərin bəzi semantik xassələri onların ekstralinqvistik əlaqələrindən, digərləri onların dilin sistemində müəyyən yer tutması faktından irəli gəlir.

"Dilin öyrənilməsinə ənənəvi (semasioloji) yanaşma dil vahidlərinin "forma-

dan mənaya" istiqamətində öyrənilməsini nəzərdə tutur, lakin bu, qrammatik obyektlərin öyrənilməsinə başqa yanaşmaları qətiyyən istisna etmir; belə demək doğru olardı ki, bu cür yanaşma başqa bir tədqiqat addımına – "mənadan formaya" yoluna zəmin hazırlayır" [2, s.9].

Dilin mənadan formaya doğru tədqiqi vaxtilə A.A.Potebnyanın [3], O.Yespersenin [4], İ.İ.Meşşaninovun [5] da toxunduqları məsələ indi də dilçilərin diqqət mərkəzindədir. Ümumi məna ilə birləşmiş müxtəlif dil vahidlərinin təsviri Y.V.Qulıqa [6] və Y.Şendelsin, A.V.Bondarko [7] və digər tədqiqatçıların əsərlərində öz əksini tapmışdır. Ayrı-ayrı məna kateqoriyalarının və onların şərhi vasitələrinin öyrənilməsinə həsr olunmuş tədqiqatlar daha çoxdur.

Özündə bu və ya digər mənanın çatdırılmasının bütün vasitələrini ehtiva edən dil sahələri, adətən, sahə şəklində – ona xas olan cəhətlərlə müəyyən struktura malik xüsusi tipli dil qruplaşması şəklində təqdim olunur. Bu şəkildə başa düşülən sahə strukturu dilin öyrənilməsinə məna baxımından yanaşma ilə bağlıdır, çünki sahənin konstituentlərini başlıca olaraq məhz məna birləşdirir.

Linqvistikada anlayış sahələri nəzəriyyələrinin işlənib hazırlanması V.Q.Admoninin [8], Y.V.Quliqa və Y.İ.Şendelsin [6] [129], M.M.Quxmanın [9], Fr.Daneşin [10] [344], A.A.Xadeyeva-Bıkovanın [11] və G.S.Şurun [12] tədqiqatları ilə bağlıdır.

Sahə strukturu və sahə yanaşması. Sahə strukturu V.Q.Admoninin tədqiqatında [8] qrammatik formaların müxtəlif təzahürlərinin xassəsi kimi öyrənilməsi ilə bağlı araşdırılır. Sahə anlayışı bu mənada dildə, bir tərəfdən, hansısa qrammatik əlamətlər toplusuna malik olan formaların, digər tərəfdən isə bu əlamətlərin yalnız bir qisminə malik olan formaların mövcudluğu ilə müəyyənləşdirilir. Bu mənada sahə prinsipi dil kateqoriyalarını onların ümumiləşdirilmiş-qrammatik mənaları ilə müxtəlif qrammatik mənaların təbəqələşməsinə, sərhəd təzahürlərinə yol verən mürəkkəb bir sistem kimi təqdim etməyə imkan verir və ayrı-ayrı, bəzən isə çox kiçik siniflər arasında əlaqələrin gücünü müəyyənləşdirməyi mümkün edir. *Hər iki qəbildən olan sahə – həm sahə ümumi mənalı müxtəlifcinsli elementlərin məcmusu kimi, həm də sahə formalar kateqoriyasının xassəsi kimi – dil materialının təsvirində eyni zamanda istifadə edilə bilər, çünki onlar bir-biri ilə ziddiyyət təşkil etmir, əksinə, bir-birini tamamlayır. Məsələn, anlayış sahələrinin konstituentləri sahə strukturunun xas olduğu forma kateqoriyalarından ibarətdir* [13, s.47-59].

"Sahə yanaşması"nın hər bir cəhəti hər halda linqvistik ənənə ilə bağlıdır. Sonuncu, bir qayda olaraq, "sahə" termini olmadan keçinirdi, lakin sahə nəzəriyyəsinin məşğul olduğu bir çox şeyləri qeydə alır, onlarla məşğul olurdu. "Sahə yanaşması"nın keyfiyyət spesifikası, hər şeydən əvvəl, analizin əvvəllər bir bütöv kimi araşdırılmamış bir sıra prinsipləri və üsullarının bir yerdə cəmləşdirilməsi və sistemləşdirilməsindən, eləcə də linqvistik analizin bəzi tərəflərinin dil sistemlərinin müasir şərhi kontekstində xüsusi olaraq nəzərə çatdırılması və təfərrüatı ilə göstə-

rilməsindən ibarətdir.

Linqvistikada semantik sahələr problemi uzun tarixə malikdir. Məsələn, XIX əsrdə dilçilər artıq lüğətin sistem xarakterindən bəhs edirdilər. Müasir linqvistikada dilin lüğət tərkibində sözlərin sistem münasibətlərinin öyrənilməsinə böyük diqqət verilir. Lakin dilin semantik sisteminin mahiyyətini dilçilər müxtəlif şəkildə müəyyənləşdirirlər. Geniş yayılmış tərifə görə, sistem müəyyən vəhdət təşkil edən qarşılıqlı əlaqəli elementlərin məcmusudur. Linqvistikada semantik sahələr hələ ziddiyyətli şəkildə şərh edilir. İ.Trir anlayış sahəsi nəzəriyyəsinin banisidir. Lakin onun nəzəriyyəsində ciddu qüsur vardır. Məsələn, İ.Trir hesab edirdi ki, dildə real gerçəklik əks olunmur. O, dilə sinxroniyada özünün bütün komponentlərinin mahiyyətini müəyyənləşdirən qapalı sistem kimi baxırdı. İ.Trir həm də qeyd edirdi ki, dildə sözlər mənanın müstəqil daşıyıcıları deyildir [14].

Rus dilçilyində semantik sahələr nəzəriyyəsinin banisi leksik-semantik sistemlər və onların öyrənilməsinin mühümlüyü haqqında fikir söyləmiş A.A.Potebnya və M.M.Pokrovski hesab olunur [15]. SSRİ dövründə dilçilər leksikanın sistemli öyrənilməsi nəzəriyyəsinin işlənib hazırlanmasında çox iş görmüşlər. Funksional-semantik sahə nəzəriyyəsinin işlənib hazırlanmasında isə A.V.Bondarkonun xidməti xüsusilə böyükdür. Onun nəzəriyyəsinə görə, *funksional-semantik sahə bir sıra cəhətlərlə, yəni sahəni təşkil edən vahidlərdə ümumi invariant semantik funksiyaların olması ilə, yekcins və müxtəlifcinsli elementlərin, daha doğrusu, müxtəlif səviyyələrə aid olan elementlərin qarşılıqlı əlaqəsi ilə, eləcə də nüvə və periferiyaya parçalanmanı nəzərdə tutan struktur ilə xarakterizə edilir* [18, s.14-31].

Nəticə: Analiz edilmiş material belə nəticəyə gəlməyə əsas verir ki, çağdaş dilçilikdə dil elementlərinin müəyyən qanunauyğunluqlara əsasən qruplaşmasını və qarşılıqlı təsirini nəzərdə tutan sahə nəzəriyyəsi dilin sistemli təşkili vasitəsi kimi mövcuddur və sahə dil sistemində onu təşkil edən ünsürlərin real əlaqələrini əks etdirir.

Funksional-semantik sahələrin öyrənilməsi müxtəlif dil səviyyələrinin vahidlərinə kompleks yanaşma tətbiq etməyə, onların qarşılıqlı əlaqəsini və fəaliyyətinin xarakterini üzə çıxarmağa imkan verir. Beləliklə, funksional-semantik kateqoriyanın məzmun planının müxtəlif dillərdə identik olduğunu, ifadə planının isə dilin ümumi struktur tipindən asılı olduğunu deməyə əsas vardır.

ƏDƏBİYYAT

1. Alıyeva, G.B. Müxtəlifsistemli dillərdə distributiv və iterativ çoxluqlar / – Bakı: Elm və təhsil, – 2015. – 270 s.
2. Alıyeva, G.B. Tərz konstruksiyalarının semantik xüsusiyyətləri // “Müəllim hazırlama siyasəti və problemləri”. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 92 illiyinə həsr olunmuş V Beynəlxalq konfransın

materialları, – Bakı: – 30 aprel – 02 may, – 2015, – s.335-340
3. Потебня А.А. Из записок по русской грамматике: [в 4 томах] / А.А.Потебня. – Москва: Просвещение, – т. 4. вып. 2. – 1977. – 406 с.
4. Есперсен, О. Философия грамматики / О.Есперсен. – Москва: Издательство иностранной литературы, – 1958. – 400 с.
5. Мещанинов, И.И. Понятийные категории в языке / – Москва: Труды Военного института иностранных языков, – 1945. №1, – с.5-17.
6. Гулыга, Е.В. Грамматико-лексические поля в современном немецком языке / Е.В.Гулыга, Е.И.Шенделсь. – Москва: Просвещение, – 1969. – 184 с.
7.Бондарко, А.В. Принципы функциональной грамматики и вопросы аспектологии / А.В. Бондарко. – Ленинград: Наука, – 1983. – 208 с.
8. Адмони, В.Г. Основы теории грамматики / В.Г.Адмони. – Москва-Ленинград: Наука, – 1964. – 104 с.
9. Гухман, М.М. Развитие залоговых противопоставлений в германских языках. Опыт историко-типологического исследования родственных языков/ М.М. Гулыга. – Москва: Наука, – 1964. – 294 с.
10. Daneš, Fr. The relation of the centre and periphery as a language universal // Travaux linguistiques de Prague, – Prague: Academie, – 1966. Vol.2, – p. 9-21.
11. Хадеева-Быкова, Л.А. Функционально-семантическое поле как единица языка // Тезисы докладов и сообщений научной конференции «Проблемы синхронного изучения грамматического изучения языка», – Москва: – 17–22 апреля, – 1965. – с.200-201.
12. Щур, Г.С. Теория поля в лингвистике / Г.С.Щур. – Москва: Наука, – 1974. – 254 с.
13.Tahirov, İ.M. Azərbaycan və ingilis dillərində zaman kateqoriyası / İ.M.Tahirov. – Bakı: Nurlan, – 2007. – 324 s.
14. Trier, J. Der deutsche Wortschatz im Sinnbezirk des Verstandes; Geschichte eines Sprachlichen feildes / J.Trier. – Heidelberg. – 1931. – 347 s.
15. Покровский, М.М. Избранные работы по языкознанию / М.М.Покровский. – Москва: Изд-во Академии наук СССР, – 1959. – 382 с.
16. Бондарко, А.В. Теория функциональной грамматики: Введение. Аспектуальность. Временная локализованость. Таксис / А.В.Бондарко. – Ленинград: Наука, – 1987. – 348 с.

АЛЫЕВА ГЮЛЬЧОХРА БАБАЛИ

ОНТОЛОГИЧЕСКИЕ И ГНОСЕОЛОГИЧЕСКИЕ АСПЕКТЫ ФУНКЦИОНАЛЬНОГО НАПРАВЛЕНИЯ В СОВРЕМЕННОЙ ЛИНГВИСТИКЕ

РЕЗЮМЕ

СОВРЕМЕННЫЙ ЭТАП РАЗВИТИЯ ЛИНГВИСТИКИ ХАРАКТЕРИЗУЕТСЯ ВОЗРАСТАЮЩИМ интересом к проблемам функциональной грамматики и, в более широком смысле, функционального описания языка. Это вполне естественно, поскольку лингвистика сегодня сосредоточена не на вопросах классификации или системного описания языка "язык в себе и для себя" как цели, а на понимании языка как реального практического сознания, важного средства, предназначенного для функционирования в условиях общения в человеческом обществе. Характерной чертой истинной сущности теории поля является ее понимание как единой функциональной системы средств выражения различных уровней, тесно взаимосвязанных вокруг общей – инвариантной - оси значений. План выражения поля относится к формальным структурным аспектам всех различных уровней языковых единиц, в то время как план содержания фокусируется на инвариантном значении этих языковых единиц. Эти методы являются составляющими поля и составляют его конфигурацию ”центр-край" (ядро-периферия). Проанализированный материал дает основание сделать вывод о том, что в современной лингвистике теория поля, предполагающая группировку и взаимодействие элементов языка по определенным закономерностям, существует как средство системной организации языка, а сфера отражает реальные связи составляющих ее элементов в языковой системе.

ALIYEVA GULCHOHRA BABALI

ONTOLOGICAL AND GNOSEOLOGICAL ASPECTS OF THE FUNCTIONAL DIRECTION IN MODERN LINGUISTICS

SUMMARY

The modern stage of the development of linguistics is characterized by an increasing interest in the problems of functional grammar and, in a broader sense, the functional description of language. This is quite natural, since linguistics today focuses not on the issues of classification or system description of language "in itself and for itself", language as a goal, but on understanding language as a real practical consciousness, an important means designed to function in the conditions of communication in human society. A characteristic feature of the true essence of field theory is its understanding as a single functional system of means of expression of various levels,

closely interconnected around a common – invariant-axis of values. The field expression plan refers to the formal structural aspects of all the different levels of language units, while the content plan focuses on the invariant meaning of these language units. These methods are constituents of the field and constitute its ”center-edge" (core-periphery) configuration. The analyzed material provides the basis to conclude that in modern linguistics, the field theory, which assumes the grouping and interaction of language elements according to certain patterns, exists as a means of the system organization of language, and the sphere reflects the real connections of its constituent elements in the language system.

Redaksiyaya daxil olma tarixi: 18.05.2022
Çapa qəbul olunma tarixi: 07.06.2022
Rəyçi: filologiya elmləri doktoru,
professor Həbib Zərbəliyev
tərəfindən çapa tövsiyə olunmuşdur

HƏQİQƏT MEHDİYEVA
Azərbaycan Tibb Universiteti
Mərdanov qardaşları
hmehtiyeva@internet.ru

ALMAN DİLİNİN TƏDRİSİNDƏ DİLLƏR ARASINDA İNTERFERENSİYA EHTİMAL OLUNAN TƏZADLARIN TƏHLİLİ

Tədrisin ilkin mərhələsində müqayisəli faktlardan istifadə etmə interferensiya hallarının ləğvində ən qısa və səmərəli yoldur. Xarici dilin tədrisi zamanı seçilmiş materialların verilməsində, onun təşkili və şərhində müxtəlif təqdim və təsvir etmə metodlarından istifadə edilir. Dillərin müqayisəli öyrənilməsi məhsuldar elmi – metodik üsuldur. Interferensiya hadisələri göstərir ki, tədris məqsədilə struktur tipoloji planda müqayisə dillərin oxşar və fərqli cəhətlərini aşkar edir.

Ana dilinin və öyrənilən dilin sistemlərini müqayisə etməklə interferensiyanı əvvəlcədən görmək olar. Interferensiya hadisələrinin təhlili isə onun əmələ gəlmə səbəblərinin aydınlaşdırılmasına, çətinliklərə üstün gəlmək üçün optimal yollar tapmaq imkan verir.

Sintaksisdə
Cümlələrin təsnifi

1) Ünsiyyətdəki məqsədə görə.

Ünsiyyətdəki məqsədə görə alman dilində gümlələr aşağıdakı əsas tiplərə bölünür : Nəqli, sual və əmr.

2) Quruluşuna görə:

Cümlələr sadə və mürəkkəb olurlar.

Sadə cümlə : a) sadə müxtəsər cümləyə, yəni mübtadə və xəbərdən;
b) sadə geniş cümləyə, yəni baş üzvlər və II dərəcəli üzvlərdən;
v) iki və daha artıq mübtəda, xəbər, tamamlıq və sairdən ibarət olan həmcins üzvlü cümlələrə ayrılır.

Mürəkkəb cümlə iki və daha artıq cümlədən ibarət olur.

3)Tərkibinə görə. Mübtadə və xəbərin iştirakı ilə cümlə cüttərkibli və təktərkibli olur.

4) Mübtədanın nitq hissələrinin ifadəsinə görə: şəxsli, qeyri müəyyən şəxsli və şəxssiz cümlələr. Şəxsli cümlənin mübtədası əsasən əvəzlik və isimlə ifadə olunur.

1) Cümlələrin ünsiyyətdəki məqsədinə görə tipoloji təhlili.

Nəqli cümlədən məlumat və ya xəbər vermək üçün istifadə olunur. Hər hansı faktı inkar və təsdiq etdiyinə görə nəqli cümlə təsdiq və inkarda olur.

Alman dilindəki nəqli cümlələrin mənimsənilməsində aşağıdakı çətinliklər vardır:

1.Alman dilində ismin halını, miqdarını, cinsini bildirən “kein” əvəzliyinə uyğun olan əvəzlik Azərbaycan dilidə yoxdur. “kein” əvəzliyi Azərbaycan dilidə “heç”

inkar hissəciyi (bəzən “bir” sözü ilə birlikdə) qeyri- müəyyən “kəs” avəzliyi, feil əsasına ayrılan “ma/mə” inkarlıq şəkilçisi, “mı/mu” “mu/mü”inkar ədatı və “yox” inkar sözü ilə ifadə olunur.

Er wusste keine Antwort. O, heç bir cavab bilmirdiş
Er kannte keinen Menschen. O, heç (bir) kəsi tanımırdı.
Er hat kein Buch gekauft. O, heç bir kitab almadı.
Er hat kein Buch. Onun kitabı yoxdur.

Müqayisə olunan dillərdə xarakteri və məqsədindən asılı olaraq inkarın dil vasitələri sistemi var. Alman dilidə inkarı ifadı etmək üçün yayılmış vasitə “nicht” hissəciyidir (Partikel). Adətən
“nicht” unversal partik olub, cümlənin hər bir üzvünü və hər bir növünü inkar edə bilər.

“nicht” – in cümlədə yeri sabit olmadığından onun mənimsədilməsi çətinlik törədir.
“nicht” aşağıdakı şəkildə işlənir:

a) mübtədadan əvvəl: Nicht alle sind gekommen.
b) ismi xəbərin predikativindən əvvəl: Er ist nicht fleißig.
v) tamamlıqdan əvvəl: Dieser Kranke schaltet nicht der Fernsehe, sondern das Radio.
q) zərflikdən əvvəl: Wir haben das Zimmer nicht gut gelüftet. Sprechen wir darüber nicht heute.

Beləliklə “nicht” inkar etdiyi cümlə üzvündən əvvəl gəlir. Əgər cümlədə sözönlü konstruksiya varsa, onda “nicht” tərkibdən əvvəl durur:
Ich gehe nicht ins Theater.

Xəbərin inkarında “nicht” – in yeri dəyişikdir. Xəbər sadə olarsa “nicht” cümlənin axırında və ya bilavasitə ondan sonra durur:
Sie kennen dieses Material nicht.
Ich verstehe dich nicht.
Sie sprechen nicht miteinander.

Xəbər analitik formadan ibarətdirsə, onda “nicht” adətən cümlənin qapayan hissəsindən əvvəl gəlir:
Wir werden ihn nicht sehen.
Warum hast du das Buch nicht gelesen?

Mürəkkəb feili xəbərdə “nicht” vurğudan asılı olaraq feilin dəyişən hissəsindən sonra, ya da məsdərdən əvvəl durur:
Der Student will nicht den Text erzählen.
Der Student will den Text nicht erzählen.

Budaq cümlədə “nicht” xəbərdən əvvəl durur:
Bald erfuhren wir, dass sie uns nicht vergessen haben.

„nicht“ inkar sözünün də Azərbaycan dilində ekvivalenti yoxdur və o da yuxarıda göstərilən vasitələrlə reallaşır. “nicht” inkar sözü Azərbaycan dilində feilə bitişik yazılan –ma/mə inkar şəkilçisinə uyğun gəlir:

Er hat den Text nicht gelesen. O mətni oxumayıb.
Der Student ist nicht gekommen. Tələbə gəlmədi.

“nicht” və “kein” inkar hissəciklərinə Azərbaycan dilində “deyil” uyğun gəlir. Bu forma rus dilində “ne”inkar hissəciyinin mənasını verən “net” sözü kimi xəbər funksiyasında işlənilir.

Er ist nicht krank. O, xəstə deyil.
Er ist nicht krank. Он не болен.
Das ist kein Buch, das ist eine Zeitschrift. Bu kitab deyil, jurnaldır.
Das ist kein Buch, das ist eine Zeitschrift. Эта не книга, эта журнал.

Azərbaycan dilindəki “heç kəs”, “heç kim”, “heç vaxt” inkar əvəzlikləri və zərfləri fikrin inkar məzmununu daha da qüvvətləndirir. Yalnız bir inkar sözü işlənə bilən alman cümlələrindən fərqli olaraq Azərbaycan cümlələrində inkar şəkilçisi ilə yanaşı inkar sözləri də işlənir. Ich bekam nichts. Mən heç nə almadım.
Ich habe nichts bekommen. Я ничего не получил.

“nicht” hissəciyindən başqa alman dilində inkarlıq həm də “niemand”, “nichts” əvəzlikləri və “nie”, “niemals”, “nirgends” zərflikləri ilə ifadə olunub cümlə üzvləri kimi özlərini göstərir:

Ich weiß nichts davon. Mən bu haqda heç nə bilmirəm.
Niemand kennt ihn. Onu heç kəs tanımır.
Kein Mensch kennt ihn. Onu heç bir adam tanımır.
Niemals habe ich ihn gesehen. Mən onu heç vaxt görməmişəm.
Nie wird das Volk das vergessen. Bunu xalq heç vaxt unutmayacaq.

Göründüyü kimi ədatlarla işlənən cümlə üzvləri cümlənin əvvəlində, ortasında və axırında durur.

Azərbaycan və rus dıllərində sual cümlələri sual sözün tələffüzündə səs tonunun qalxmasına baxmayaraq bir-birinə uyğun gəlirlər. Laki Azərbaycan və Rus dillərində sual cümlələrinin fərqləri də vardır. Rus dilində sual anlayışının əsas ifadə vasitəsi istənilən nəqli cümləni sual cümləsinə çevirə bilən intonasiyadır.

Сегодня будит занятие? Bu gün dərs olacaq?
Занятие будит сегодня? Dərs bu gün olacaq?
Будит ли сегодня занятие? Bu günmü dərs olacaq

Azərbaycanlı tələbələrin alman sual cümlələrini düzgün işlətməməsi onunla izah olunur ki, Azərbaycan dilində sual cümlələri mübtəda ilə başlanır, xəbər isə onu tamamlayır.

Wann schreiben wir eine Arbeit? əvəzinə
`* Wann wir eine Arbeit schreiben? işlədilir.

Göründüyü kimi alman dilində ümumi sual cümləsində xəbər birinci yerdə durur. Azərbaycan dilində ümumi sual cümləsində söz sırası nəqli cümlədə olduğu

kimi qalır, yəni xəbər cümlənin axırında durur. Ümumi sual cümləsində "...mı/mi/mu/mü" hissəciyi feilə qoşulur, intonasiya dəyişir, ancaq söz sırası dəyişmir.

Alman dili sual sözsüz sual cümlələrində xəbərin birinci yerdə durması tələbələr üçün yeni qaydadır və alman dilində ümumi sual cümlələrini çətinliklə mənimsənilməsinə səbəb olur.

Mürəkkəb feil forması və ya mürəkkəb feili xəbəri olan sual cümləsi dəyişən feillə başlayır və xəbərin dəyişməyən digər hissəsi ilə tamamlanıb, çərçivə konstruksiyası yaradır.

Hast du die Bücher mitgebraudcht? Sən kitabları gətirmisənmi?
Hast du die Bilder angehängt? Sən şəkilləri asmısanmı?

Belə sualların mənimsənilməsində iki çətinlik yaranır:

1) xəbəri dəyişə və dəyişməyən hissəyə ayırmaq.
2) bu hissələri birinci və axırıncı yerə qoymaq.

Xüsusi sual, yəni sual sözlü sual cümləsi cümlə üzvlərindən birini müəyyənləşdirmək məqsədini güdür. Alman dilində xüsusi sual ümumi sualdan onunla fərglənir ki, birinci yerdə xəbər deyil, sual əvəzliyi dayanır.

Alman dilində xüsi sual cümlələri " wo?", "wohin?", "wann?", "welcher?", "warum?" və s. sual əvəzlikləri ilə düzəlir. Bu sual əvəzlikləri Azərbaycan dilindəki "kim?", "nə?", "kimin?", "kimə?", "kimi?", "harada?", "haraya?", „hansı?" sual əvəzliklərinə uyğun gəlir. Ancaq fərq cümlə elementlərinin yerləşməsindədir:

Wer ist er? Kimdir o?
Wann kommt er? O nə vaxt gəlir?

Misallardan görünür ki, alman dilində sual sözü cümlənin əvvəlində durur. Azərbaycan dilində
isə o yalnız üzərinə məntiqi vurğu düşdükdə birinci yerdə durur. Alman dilində xüsusı sual
əvəzliyindən sonra ikinci yerdə xəbər dayanır. Azərbaycan dilində xəbər sual cümləsinin sonunda durur. Bu uyğunsuzluq çətinliyin mənbəyidir.

Alman dilində xüsusi sual cümlələrində sual əvəzliklərindən başqa tez – tez pronominal zərflərdən istifadə olunur. Pronominal zərflər, məsələn „worüber", „womit". Azərbazcan dilində „nə haqda", „nə ilə"suallarına uyğun gəlir.

Azərbaycanlı tələbələr üçün alman sual cümləsinin mənimsənilməsindəki çətinliklər:

1) Sual sözünün birinci yerdə işlənməsi.
2) Xəbərin ikinci işlənməsi və ikiüzvlü xəbərin ikinci və axırıncı yerdə işlənməsi.
3) Sual cümləsinin özünə məxsus intonasiyası.

Əmr cümləsi

Əmr cümləsi əmr, tələb, icazə, xahiş, hədə, təklif, məsləhət və s. Mətləbləri bildirir. Birinci mərhələdə əmr və xahiş ifadə edən cümlələr öyrənilir.

Nimm! Komm! Götür! Gəl!
Nehmen Sie! Stehen Sie! Götürün! Durun!
Nehmt! Steht! Götürün! Durun!

Alman dilində tələb xüsusi əmr intonasiyası ilə ifadə olunur.

Əmr cümlələrində ümumi sual cümlələrində olduğu kimi, xəbər birinci yerdə durur. Onların intonasiyası nəqli və sual cümlələrinin intonasiyasından fərqlənir. Azərbaycan dilində əmr cümləsində söz sırası sabitdir.

Tələbələr əmr cümlələrinin öyrənilməsində xəbərin cümlədəki yeri ilə əlaqədar çətinliklə qarşılaşır.

Alman dilində arzunun müxtəlif çalarları aşağıdakı formalarda yaradıla bilər:

1) Felin əmr forması xəbər funksiyasında:
2) "wollen" və "lassen" modal feilləri ilə birlikdə feilin məsdər forması.
3) Feillərin birinci şəxs cəminin "wir" əvəzliyi.
4) Feillərin Partizip II formasi və s.
5) Feillərin məsdər forması.
6) Yarımçıq cümlənin müxtəlif növləri.

Rus dilində bu formalar demək olar ki, uyğun gəlir. Yalnız modal feillərin yerinə «дай», "давай", "ну-ка", "пуст" və başqa sözlər işlənir.

Azərbaycan dilində bu formalar qismən uyğun gəlir:

1) Glaube an dein Volk!
Xalqına inan!
Верь в свой народ!
2) Gehen wir spazieren!
Gedək gəzək!
Ну пайдем, погуляем!
3) Lass mich helfen!
Qoy sənə kömək edim!
Дай, помогу!
4) Aufmerksam hören! Nicht rauchen!
Diqqətlə qulaq asmalı! Papiros çəkməməli!
Слушать внимательно! Не курит!
5) Stillgestanden!
Farağat! Смирно!

2) Cümlə üzvlərinin tipoloji təhlili.

Cümlə üzvləri baş və ikinci dərəcəli üzvlərə bölünür. Baş üzvlər mübtadə və xəbər, ikinci dərəcəli üzvlər – təyin, tamamlıqvə zərflikdir.

Cümlənin baş üzvləri mübtadə və xəbər hər üç dildə cüttərkibli cümlənin struktur əsasını təşkil edərək, bir-biri ilə həm məna, həm də qrammatik cəhətdən bağlıdır.

Alman dilində uzlaşma şəxsə, kəmiyyətə, cinsə görədir:
Ich arbeite. Er arbeitete. Er ist Student.
Du arbeitest. Sie arbeitete. Sie ist Studentin.
Wir arbeiten. Es arbeitete. Sie sind Studenten.
Azərbaycan dilində cins kateqoriyası olmadığından uzlaşma şəxsə və kəmiyyətə görədir.
Missalların tərcüməsindən bunu görmək olar:
Mən işləyirəm. O işləyirdi. O tələbədir.
Sən işləyirsən.
Biz işləyirik. Onlar tələbədirlər.

Rus dilində cümlənin baş üzvləri arasında əlaqə qrammatik cəhətdən öz ifadəsini onların uzlaşmasında tapır.

Rus dilində həm feili, həm də ismi xəbər uzlaşma yolu ilə mübtadə ilə əlaqədə olur. Feili xəbər mübtadə ilə şəxs, kəmiyyətə görə uzlaşır, keçmiş zamanda isə uzlaşma cinsə və kəmiyyətə görə olur. Isim, sifət, feili sifətvə əvəzliklə ifadə olunmuş ismi xəbər əksər hallarda mübtadəilə cinsə, kəmiyyətə və hala görə uzlaşır. Məsələn:

Я работаю. Он работал. Он студент.
Ты работаешь. Она работала. Она студентка.
Мы работаем. Они работали. Они студенты.

Azərbaycan dilində mübtadə ilə xəbərin kəmiyyətə görə uzlaşması rus dilinə nisbətənaz müşahidə olunur. Mübtdə cəmdə olsa belə, ayrı-ayrı isimləri və iştirak edən şəxsləri fərqləndirmək lazım gəlmədiyindən xəbər təkdə işlənir:
Onlar gəldi – они пришли.

Rus dili ilə müqayisə edək:
Пришло (gəldi) десять человек.
Десять человек пришли (gəldilər)
Mübtadə canlı əşyanı ifadə edərsə, xəbər cəmdə işlənə bilər:
Onlar qocadırlar. Они стары. lakin
Столы стары. Stollar köhnədirlər.

Şəxsə görə uzlaşmaya gəldikdə isə, alman dilində bir neşə şəxslə feil cəmdə işlənir. Azərbaycan dilində isə ikinci və üçüncü şəxslə işlənərkən birinci şəxsə, üçüncü şəxslə işlənərkən ikinci şəxsə üstünlük verilir.

Bacım və mən Bakıya gedəcəyik.
Сестра и я поедим в Баку.
Əli və sən yaxşı oxuyursunuz.
Али и ты хорошо учитесь.

Alman, Azərbaycan və Rus dillərində cümlənin baş üzvlərinin ifadəsi maraq doğurur. Hər üş dildə mübtadənin əsas ifadə forması adlıq halında olan isim və ya şəxs əvəzliyi , həmçinin sual, qeyri –müıyyən və ya işarə əvəzləkləridir.

Mübtadə isimləşən bütün nitq hissələri ilə ifadə olunur:

Rus dilində mübtadə , adlıq halda olan isim və ya əvəzliyin “творительний” halda olan isimlə
birləşməsi ilə, eləcə də, “ иминительний “ halında miqdar sayı və “мало “ (az), “много “ (çox), “немного” (bir az), “несколло “ (bir qədər) və sairə sözlərin “творительний” halında
işlənmiş ismin birləşməsi ilə ifadə oluna bilir.

Məsələn: Алийев с Мамедовым остались в аудитории.

Прошло трое суток.

Azərbaycan dilində buna oxşar söz birləşmələrinin isim tərəfi mübtadə rolunda çıxış edir.

Məsələn: “bir neçə”, “çoxlu”, “az” və miqdar sayları mübtədanın təyini olub əşyaların qeyri-müəyyən kəmiyyətini göstərir. Adlıq halında duran isim təyinlə uzlaşmır.

Çoxlu adam çalışır.

Az adam işləyir.

Azərbaycan dilində təyin söz birləşmələri (isim birləşmələri) tez-tez mübtadə rolunda çıxış edir.

Azərbaycan dilində mübtadə həm də feili sifət , məsdər, feili sifət tərkibləri və məsdər tərkibləri ilə verilə bilər. Onlara alman və rus dillərində tərkiblə ifadə olunan mübtadə və ya budaq cümlə uyğun gəlir.

Məsdər;

Jetzt zu schreiben, ist ihm zu früh.

Ona indi yazmaq çox çətindir.

Сейчас писать ему трудно.

Söz birləşməsi (alman dilində mürəkkəb sözlə):

der Herbstwind

payız küləyi

осенний ветер

Feili sifət və məsdər tərkibləri:

Die Leute, die keine kein Holz und keine Kohle haben:

Odunu və kömürü olmayanlar:

Не имеющие дров и угля;

Ohne ihn diese Arbeit zu schreiben:

Onsuz bu işi yazmaq;

Без него написать эту работу;

İsimləşmiş sifətlər:

Buruqdakılar;

Die Menschen, die sich auf dem Erdölfeld befanden …

Находящиеся на нефтяном промысле;

Alman dilində mübtadə şəxsli , qeyri-müəyyən şəxsli və şəxssiz ola bilər. Şəxsli mübtadə birinci növbədə Nominativ halında duran isim və ya isimləşmiş əvəzliklə və isimləşmiş müxtəlif nitq hissələrilə ifadə oluna bilər.

Das Wetter wurde immer schlechter.
Was wurde immer schlechter?
Zehn ist eine gute Note.

Qeyri-müəyyən səxsli mübtadə "man" və şəxsiz mübtadə "es" əvəzlikləri ilə ifadə olunur.

"Man" əvəzliyi əsasən insan fəaliyyətini ifadə edən feillərlə işlədilir. "Es" əvəzliyinin işlənmə dairəsi qismən genişdir.

Müqayisə olunan dillərdə xəbər, feil, isim, zərf,feili sifət, ismi söz birləşmələri, məsdər tərkibi və başqa vasitələrlə ifadə olunur. Buradan da həmin dillərdə xəbərlər feili və ismi olur. Azərbaycan, Alman və Rus dilləri üçün xəbərin ifadə formasının fərqli xüsusiyyətləri əsasən ismi xəbərdə öz əksini tapır.

Er ist Arzt. O tələbədir. Он врач.
Sie sind unten. Onlar aşağıdadırlar. Они внизу.

Xülasə

Tədrisin ilkin mərhələsində müqayiosəli faktorlardan istifadə etmə interferensiya hallarının ləğvində ən səmərəli yoldur. Müqayisə nəinki dili öyrənənin ana dilindəki filaloji biliyin dərinləşməsinə aparır, həm də dərketməni asanlaşdırır, materialın mənimlənməsinə və şüurlu qavranmasına gətirib çıxarır. Linqvistik əsasda qurulmuş alman dilinin Azərbaycan auditoriyasında tədrisi metodikası ana dili və xarici dilin spesifik xusisiyətlərini (fonetik, leksik, qrammatik, leksikoloji) onların qarşılaşdırılması fonunda nəzərə almalı və öz qüvvələrini bu müxtəlif sistemli dillərin fərqindən irəli gələn çətinliklərin aradan qaldırılmasına yönəltməlidir.

Alman dilinin sintaksisində cümlələr qurluşuna görə, ünsiyyətdəki məqsədə görə, tərkibinə görə və mübtadənin nitq hissələri ilə ifadəsinə görə təsnif olunur.

Açar sözlər: sintaksis, tədrisin ilk mərhələsi, müqayisə olunan dillər, təzadların təhlili, ana dilinin nəzərə alınması

Хагигат Медиева

АНАЛИЗ ВОЗМОЖНЫХ ИНТЕРФЕРЕНЦИОННЫХ КОНФЛИКТОВ МЕЖЯЗЫЧНЫХ ПРИ ОБУЧЕНИИ НЕМЕЦКОМУ ЯЗЫКУ

Резюме

Использование сравнительных факторов на ранних этапах обучения является наиболее эффективным способом устранения помех.

Сравнение не только ведет учащегося к углублению филологических знаний языка, но, и облегчает понимание, усвоение материала и приводит к осознанному восприятию. Методика преподавания немецкого языка в азербайджанской аудитории на основе языкознания должна учитывать

особенности родного и иностранного языка (фонетические, лексические, грамматические, лексические) на фоне их сопоставления и ориентироваться на преодоление трудностей, возникающих из различий между этими разными систематическими языками.
В синтаксисе немецкого языка предложения классифицируются по их строению, цели общения, составу и выражению подлежащего в частях речи.
Ключевые слова: синтаксис, первый этап обучения, сопоставимые языки, анализ противоречий с учетом родного языка

HAQİQAT MEHDİYEVA

ANALYSIS OF POSSIBLE INTERFERENCE CONFLICTS BETWEEN LANGUAGES IN GERMAN LANGUAGE TEACHING

Resume

Using the factors of comparison at the initial stages of teaching German language is the effective way to avoid the cases of interference. Comparison contributes not only to improve the learners philological knowledge level in native language, but also leads simultaneously to ease material understanding and perception. Linguistic approach to German language teaching methodics in Azerbbaijani auditorium should be designed on comparing specific phonetic, lexic, grammar and lexicoligical peculiarities of native and foreign languages. The technics to overcome the difficulties arising from differences in languages of various systems are to be considered in this methodics, as well. This article deals with the main issues in teaching German syntaxis (especially, classification of sentences according to communication purpose and its main components as well as the type of subject sxpressed by certain parts of speech).
Key words: syntaxis, initial stage of teaching, the compared language, regarding the native language.

Ədəbiyyat:

1. Əliyeva Ə., Deutsch I, Bakı, 2001
2. Əliyeva Ə., Deutsch II, Bakı, 2001
3. Langenzeit., Großwörterbuch. Deutsch als Fremdsprachen., München. 2010
4. Арсеньева М. Г., Гасилевич Е. В., Grammatik der deutschen Sprache.
5. Daum- Schenk, Russisch – Deutsches Wörterbuch.

Redaksiyaya daxil olma tarixi: 18.05.2022
Çapa qəbul olunma tarixi: 07.06.2022
Rəyçi: Professor Zemfira Məmmədova tərəfindən çapa tövsiyə olunmuşdur

БУНЯДОВА ВАФА ШАХЗАДЕ КЫЗЫ
Азербайджаский Архитектурно Строительный Университет
Кафедра “Иностранных Языков”
Доктор философия по филологии,ст.преп.
Айна Султанова 5.
vafa bunyadova@com.ru

О НЕКОТОРЫХ АСПЕКТАХ РАЗВИТИЯ ТЕОРИИ ПЕРЕВОДА В СОВРЕМЕННОМ РУССКОМ ЯЗЫКЕ

АННОТАЦИЯ

Талантливые переводчики ,перевода текст, дают ему вторую жизнь и затем миллионы читателей, даже не думая о переводчиках , читают эти произведения. К.Чуковский, С.Маршак, Ч.Айтматов, В.Кафаров и много знаменитых переводчиков вдохнули в переводимые ими тексты новую жизнь. Благодаря их трудам миллионы читателей познакомились с мировой литературой.

Исследователи перевода считают, что теория перевода получает развитие со второй половины XX века. Известно, что французский исследователь П.Ф. Кайе назвал XX век веком переводов. Его работа посвящена анализу перевода в кино. Проблема перевода кинодиалога находит освещение в работах российских языковедов И.С.Алексеевой, В.Ю.Розанова .

Место перевода радиопередач, телепередач, рекламы, перевода лино в общей переводческой квалификации ждет своего решения в новых исследовательских роботах. В наше время изменяется характер переводческой деятельности, как замечают исследователи перевода доминирует информативный.П, в результате которого должен иметь место аутентичный Т.на двух языках.Теория переводв в начале XX1 века в эпоху глобализации мирового сообщества развивается ускоренными темпами,потребность в современных переводчиках с каждым годом растет.

Ключевые слова: теория перевода, парадигма , сравнение, стиль концепция, эквивалентность, специфика

В любой области развития современный мировой экономики требуются знающие и любящие свое дело переводчики. В.Б.Шереметов в лекции по переводу отмечает, что современной переводчик – это << терминовед, лексикограф, специалист в области международной торговли, лингвист- прикладник, технический редактор, консультант, консултант по связям с общественностью, эксперт в области компьютерног
проектирования и производства, редактор иностранной литературы, эксперт в области издательской работы.

.Алексеева И.С Современное состояние теории перевода в России И.С.Алексеева, анализируя современное состояние теории перевода в Росссии, считает, что теория перевода выросла из литературной критики Х1Х века. Затем в советское время появились стати << К.И.Чуковского, Н.Гумилева, А.М.Горького, И.Н.Фурсова в статье <<Спеецифика перевда художественного текста>>отмечает, в Совестском многонациональном государстве : <<Несколько позднее, в самом начале двадцатых годов, стал выясняться и другой в высшей степени значительный факт**.(1.с.26-38)**

Поведа национальной политика в корне изменила всю литературную жизнь нашей мноогонациональной, многоязычной страны. И когда поэии песни аварца Расула Гамзатова, когда Леонид Первомайский отдает свой умный талант переводам на украинский язык дагестанских, осетинских, молдавских, словацких, мордовских баллад, их одушевляет сознание , что этим они не только обогощают родную словесность, но и служат великому делу сплочения народов.

И разве не этой же цели служат труды Бориса Пастернака и Николая Заолоцкого , приобщивших к руусской словесности таких гигантов грузинской поэзин, как Руставели, Гурамишвили, Орбелиани, Чавчадзе, Важа Пшавела и их достойных наследников- Тициана Табидзе и Паоло Яшвили. Я только потому над переводами, Что переводи кажутся пехотою, Взрывающей валы между народамы.

Об этом часто твердил сам Маршак. <<...Если,- говорит он вы внимательно оттберете лучшие из наших стихотворных переводов, вы обнаружите, что все ОНИ дети любви, а не брака по расчету>> И.С.Флексеева << О художественном переводе>>., опубликованную в 1941 году. А.В.Федорова предлагаеет свою концепцию эквивалентностности-концепцию нолноценности перевода, которую видит в полной передаче содержания и функционально адекватив передаче всех средств стидя.. Она считает, что развитие мировой теории перевода укладывается в рамки трех исследовательских парадигм:

1. Статистическая парадигма – ориентация на язык как систему и восприятие перевода как перевода языков в разных ипостасях.

2. Динамическая парадигьа- ориентацие на тексте как речевую реализацию языка

3.Деятельностная- ориептация на переводческую деятельность,при Кабинете Министров Азербайджана. Также появились исследования по переводу отечественных авторов переводчиков.

Международная научная конференция(22-23 ноября 2007 (в г.Баку Азербайджан) << Китаб алеми>>,2007, с 216-219, М. Искандерзаде. **Мастерство художественного перевода,** Баку 2013 . Знаменитый русский писатель А.И.Куприн замечал, что << для перевода с иностранного языка

мало знать, хотя бы и отлично, этот язык, а надо еще уметь проникать в глубокое, живое, разнообразное значение каждого слова и в таинственную власт других слов>> Итак , разберемся, что значит проникать в значение каждого слова для переводчика? Обратимся к высказываниям некоторых переводчиков, К примеру, М.А сиривля, В.А.КАН отмечают, на языке которой был написан оригинальний текст.

Например, сравнение девушки с верблюдицей для арабкой культуры поэтично эта передаче переводчиком может считаться непристойной, та как в русской поэтической система образ лебеля и березы для передачи девичьей красоты. Таким образом, в заключение подчеркнуть, что искусный в процессе перевода и добивается устранив и межкультурный барьер между автором , произведение и будущим, пропуская оригинальный текст через свое восприятие.

Одной из главных задач обучения русскому языку в ВУЗ-ах является, известно обучение навыкам перевода оригинальной литературы по специальности. Для создания рациональный методики в области научно-технического перевода необходимо знать особенности языка научной литературы и, разумеется, в первую очередь, специфику его словаря.

.Куприн, А.И.Юнкера. М. Эксмо-Пресс Тексты, переводимые студентами разных специальностей, отличаются друг от друга по типу по стилю изложения и по содержанию. Даже простое перечисление отдельных видов научной литературы (статьи в научных и технических журналах, доклады, монографии и т.д.) показывает необходимость более или менее различного подхода к обработке и переводу текстов**.(2.c1-78)**

Всю научную и научно-информативную литературу можно условно разделить на три типа:

1) Научно-техническая литература: статьи, монографии, книги, патенты, технические отчеты и описания;
2) Правовая и политическая литература: постановления, указы, договоры и др.
3) Документальная литература управленческого характера: приказы, деловые бумаги, директивы, удостоверяющие факты юридического значения.

Естественно, такое деление не устраняет наличие смешанного типа материалов. В научной литературе довольно часто встречаются труды популярного жанра, где авторы используют средства художественной образности.

Предпосылки квалифицированного перевода научно-информативного текста сводятся в основном к владению языком оригинала и перевода и определенной общеобразовательной подготовке. Перевод всегда имеет дело с системой языковых средств, определенным образом отобранных и

организованных в подлиннике и требующих такого же отбора и организации средств того языка, на который подлинник переводится.

Средства, использованные для выражения определенного содержания в подлиннике, и средства, служащие для передачи их в переводе, всегда непосредственно связаны грамматикой и словарем. Отсюда вытекает необходимость самого должного внимания и к смыслу слов, и к грамматическим формам в их взаимосвязи, и к терминологии, которая прежде всего характерна для научно речи.

Сиривля М.А КАН В,А Некоторые проблемы перевода художественных текстов Связь между предложениями обычно выражена четкими логическими соединениями типа: «однако»….., «в результате этого», «в связи с этим» и эмоционально окрашенная лексика, разговорная фразеология, лексика с преобладающим образным содержанием, средства подчеркнутого синтаксического построения. Господствующей тенденцией для этого вида материала является подчинение его отдельных особенностей стилистической норме книжно-письменной речи**.(3.с.68-73)**

Что же касается словаря научной литературы, то выделяют обычно три основных пласта: а) нейтральная лексика, б) литературно-книжная и общеупотребительная (народная) лексика, в терминологическая лексика.

Для текстов научно-технической литературы, наряду с общеупотребительной лексикой всех типов книжно-письменного и речевого материал служащей основным фоном, характерно наличие терминов и определенных фразеологических комплексов.

Общеизвестно, что под термином понимают слово или словосочетание, связанное с понятием, принадлежащим к определенной области науки или техники. Современные науки и производства почти ежедневно выдают огромное количество терминологических наименований, где выделение определенных понятий и связей является делом ученых-специалистов. На долю лингвистов падает классификация терминологической лексики, сопоставление выделенных групп и обоснование некоторых методических выводов.

Многочисленные исследования по терминологии позволяют сказать, что аспект изучения терминологической лексики еще не исчерпал своей проблематики. Многие исследователи дают описание терминологии в качестве подсистемы общелитературного языка через призму лексико-семантических и грамматических категорий общелитературного языка.

В создании терминологии путем языковых средств обычно функционируют те слова, которые способны называть объект изучения и выражать понятия. Часто таким номинативно дефинитивным, наречия, т.е. большое количество знаменательной лексики.

Научно – технической литературе термины часто преобладают над общеупотребительной лексикой. Эти слова научного и научно-технического

языка употребляются для выражения специальных понятий и обозначают специальные предметы. Однако, как и обычные слова, термины могут быть многозначны.

Полисемантичность термина, наличие в нем нескольких связанных между собой значений обычно представляется переводчику как обычная многозначность слова, одно из значений которого он реализует в переводе, опираясь на широкий контекст. В связи с многозначностью терминов следует различать: 1) термины, относящиеся к понятиям, не связанным или находящимся лишь отдаленном родстве друг с другом; 2) термины, объединяющие понятия, достаточно близкие.

Чуковский К.И.Высокое искусство, М.Советский писатель Термины, многозначность которых проявляется не а одной какой либо специальности, обычно не представляют затруднений при переводе, тогда как термины второй группы, объединяющие очень близкие понятия, требуют от переводчика более глубокого проникновения в то, о чем в контексте идет речь**. (4.с.384)**

При переводе терминологии с русского языка на азербайджанский следует, прежде всего, обращать внимание на семантичность термина. Существует масса параллельных слов , значения которых семантически на совпадают. Тут переводчик должен быть особенно внимателен. Можно назвать целый ряд русских терминов, которые, прейдя на азербайджанский, освоены языком, но не дают нам полного эквивалента в сравнении с подлинным значением их в русском языке. Здесь наблюдаются несовпадения во всех значениях и не совпадения частичные.

Литетура:

1.Алексеева И.С Современное состояние теории перевода в России (критический обзор), Вестник Санкт- Петербургского университета, Сер9 2008,Вып 1, с 26-38

2.Куприн, А.И.Юнкера. М. Эксмо-Пресс,2007 С, 1-78

3.Сиривля М.А КАН В,А Некоторые проблемы перевода художественных текстов, Lingua mobilis №7 (46) ,2013,с 68-73

4.Чуковский К.И.Высокое искусство, М.Советский писатель,1968, 384с

V.BUNYADOVA

TƏRCÜMƏ NƏZƏRIYYƏSININ INKIŞAFINA BƏZI ASPEKTLƏRI HAQQINDA

XÜLASƏ

Məqalə tərcümə nəzəriyyəsinin inkişafında bəzi aspektlərin bəhs edilir.Müəllif bu məqsədlə tərcümə nəzəriyyəsinin inkişafında bəzi aspektlərinin müasir vəziyyətini təhlil edir.Həmçinin o dünya və Rusiyanın tərcümə nəzəriyyəsinin əhəmiyyətini vurğulayir.

Məqalə tərcümə nəzəriyyəsi haqqında olan bir çox tətqiqat işləri izlənmiş və ardıcıllıqla işıqlandırmışdır. Mətnin bədii tərcüməsində dil daşiyicilarinin milli xususiyyətlərini nəzərə alınmalıdır.Tərcümə olunnan dilin frazelogiyası, sabit söz birləşmələri,dialoqlar çox incəliklə tərcümə olunmalıdır. Kinolarda ıştirak edən qəhramanların diqaloqları dəqiqliklə tərcümə olunur. Yəni, başqa bir xalqın düşüncələri, milli xüxusiyyətləri dil vasıtəsilə təcümə olunmalıdır.Müəllif məqalədə göstərir kı, müasir dövrümüzdətərcümə sosial-dil kommunikasiyanın əsas və vacib məsələlərindən biridir.Məqalədə ümumən mətnin tərcüməsi və elmi-texniki ədəbiyyat, xüsusən də maşın tərcüməsi (MT) problemi kontekstində müzakirə olunur.Tərcümə bir dildəki mənbə mətni əsasında digər dildə kommunikativ ekvivalent mətnin yaradılması prosesi və nəticəsidir. Eyni zamanda, kommunikativ ekvivalentlik və ya ekvivalentlik tərcümə olunan mətnin müxtəlif dillərdə danışanlar arasında ünsiyyət prosesində mənbə mətni (əsli) tam hüquqlu əvəzedici kimi çıxış etməyə imkan verən keyfiyyəti kimi başa düşülür. hədəf dilin əhatə dairəsi.

Açar sözlər: tərcümə nəzəriyyəsi, paradiqma, müqayisə, üslub, konsepsiya, ekvivalentlik, spesifiklik

V.BUNYADOVA

ON SOME ASPECTS OF THE DEVELOPMENT OF TRANSLATION THEORY

SUMMARY

The current article describes some aspects of the development of translation theory.For this purpose,the auther analyzs modern situation of some aspects of the development of translation theory and emphasizes the importance of world and Russian translation theory. The author also writes and expresses his views from the subtleties artistic translition.IN the article the author illustrates that translation is one thekey and important issues of socie-linguistic communication in modern times.

The artistic translation of the text should take into account the national characteristic ofnative speakers.The phraseology of the translated language,dialogues of the characters involved the cinema should be accurate.That means,the thoughts national characatics of another should into other language.The development of

translation theory meets mo dern requirements**.**The article deals with the issues of text translation, in general, and scientific and technical literature, in particular, in the context of the problem of machine translation (MT).
Translation is the process and result of creating, on the basis of the source text in one language, a communicatively equivalent text in another language. At the same time, communicative equivalence or equivalence is understood as such a quality of the translated text that allows it
to act in the process of communication between speakers of different languages as a full replacement for the source text (original) in the scope of the target language.
Key Words: theory of translation, paradigm, comparison, style, concept, equivalence, specificity

Redaksiyaya daxil olma tarixi: 18.05.2022
Çapa qəbul olunma tarixi: 07.06.2022
РЕЦЕНЗЕНТ: Доктор философия по филологии ст. преп.Кямаля Мехтиханлы
tərəfindən çapa tövsiyə olunmuşdur

MƏMMƏDOVA GÜNEL ƏFLATUN QIZI
Gəncə Dövlət Universiteti, müəllim

YARADICI YAZILARDA MƏNTİQİ-ÜSLUBİ ƏLAQƏ FORMALARI

XÜLASƏ

Müasir dil dərsləri daha çox milli və bəşəri dəyərlər aşılayan bədii və bədii-publisistik mətnlər vasitəsilə şagirdlərdə nəticəyönümlü həyati bacarıqlar aşılamağı nəzərdə tutur ki, bunlar arasında yazı bacarıqları xüsusi önəm kəsb edir. Bu gün məktəbin qarşısında daha böyük tələblər durur, şagirdi düşündürür, onun fitrətindəki yaradıcılıq imkanlarını ehtizaza gətirir, onu silkələyib yaratmağa sövq edir. Şagird ömrünün ən coşğun dövrünü dərslikdəkiləri yaddaşına həkk etməyə çalışan ehkamçıya çevrilməməlidir; fiziki, kimyəvi, bioloji qanunlar haqqında düşünməli, axtarıcılığa meyilləndirilməlidir.

İnteraktiv metodlar qarşılıqlı fəallığı təmin edən forma və texnologiyalar, üsul və vasitələrdir. Kurikulum fəlsəfəsinin mahiyyətində fəallıq amili dayanır. Fəallıq inkişafın, yeniliyin, kəşflərin açarıdır.

Buradan belə nəticə çıxır ki, aşağı siniflərdən şagirdləri yaradıcı yazı işlərinə təhrik etmək, onları fikri fəaliyyətə cəlb etmək, bu prosesdə qarşıya çıxan çətinliklərin öhdəsindən müstəqil surətdə gələ bilməyə alışdırmaq lazımdır. Şagirdlərə yaradıcılığın çətinliyini, bu çətinliyin öhdəsindən gələ bilməyin nəşəsini duymağı öyrətmək gərəkdir.

Rabitəli nitq inkişafına dair çalışmaların bir növü kimi ifadələr şagirdlərin lüğət ehtiyatını zənginləşdirməkdə, oxu vərdişləri yaratmaqda, psixi proseslərin (eşitmə, yadda saxlama, təsəvvürdə canlandırma və s.) inkişafında, məntiqi kateqoriyaları (sübut etmək, əqli nəticə çıxartmaq və s.) tətbiq etməkdə və habelə dil faktlarını düzgün araşdırmaqda, üslubi vərdişlərə dərindən yiyələnməkdə praktik əhəmiyyət daşıyır.

Açar sözlər: tədris, yaradıcı yazılar, məntiqi əlaqə, üslubi forma
Keywords: teaching, creative writing, logical connection, stylistic form
Ключевые слова: обучение, творческие записки, логическая связь, стилистическая форма.

Təlimə metodoloji mahiyyət kəsb edən baxışların dəyişməsi ümumtəhsil məktəblərində tədris edilən bütün fənlərin, o cümlədən «Azərbaycan dili» fənninin məzmunca köklü şəkildə yeniləşməsi ilə nəticələnir. Dilin daxili quruluşunu əks etdirən linqvistik bilik və bacarıqların formalaşması üzərində qurulmuş ənənəvi metodikadan fərqli olaraq, yeni yanaşmada dilin fəaliyyət növlərinə istinadən tədrisi əsas götürüldü ki, bu da şagirdlərdə hərtərəfli nitq vərdişlərinin formalaşmasını başlıca məqsəd kimi reallaşdırmağa geniş imkanlar açmış oldu. Ümumtəhsilin hər bir

səviyyəsində (məktəbəhazırlıq, ibtidai, orta və tam orta (təmayül) və eləcə də hər bir sinfin sonunda) fəndən gözlənilən nəticələrin, hər şeydən öncə, mədəni nitqlə bağlı bacarıqları əhatə etməsi təlim prosesinin bu istiqamətdə təşkilinə təsiredici təkan verdi. Artıq dərslərin müxtəlif səpkili dil hadisələrini özündə ehtiva edən tərif, qayda və şərhlərin əzbərlədilməsi, rabitəli əlaqədə olmayan cümlələr və ya sözlər əsasında tərtib edilmiş sadə çalışmaların yerinə yetirilməsi yolu ilə keçirilməsi şagirdlərin idraki fəallığı üzərində qurulmuş müasir təlim prosesinin tələblərini ödəmir. Müasir dil dərsləri daha çox milli və bəşəri dəyərlər aşılayan bədii və bədii-publisistik mətnlər vasitəsilə şagirdlərdə nəticəyönümlü həyati bacarıqlar aşılamağı nəzərdə tutur ki, bunlar arasında yazı bacarıqları xüsusi önəm kəsb edir. Şagirdlərin oxuduqlarını, gördüklərini və düşündüklərini ədəbi dil normalarına uyğun məntiqi ardıcıllıqla yazılı şəkildə ifadə edilməsi həmin bacarıqların səciyyəvi xüsusiyyəti kimi dəyərləndirilir (1, 30-35).

Mərhələli şəkildə sadədən mürəkkəbə, asandan çətinə doğru aşılanan yazı bacarıqları həm şifahi nitq, həm də şüurlu oxu bacarıqlarının formalaşması ilə əlaqəli formada yaradılıb inkişaf etdirilir. Ona görə də şagirdin fərdi baxışlarını, duyğu və istəklərini ifadə etməyə yönəlmiş yazı bacarıqlarına yiyələnməsi Azərbaycan dili dərslərində müntəzəm yerinə yetirilən zəruri işə çevrilməlidir.

Aydındır ki, yazı bacarıqları fikir və düşüncələrin kağız üzərinə köçürülməsi ilə bağlıdır. Nitqin yazılı ifadəsi həm də şifahi nitq vərdişlərinin inkişafını, cilalanmasını təmin edir. Məşhur pedaqoq Ş.Amonaşvili nitq fəaliyyətinin bu iki formasının qarşılıqlı əlaqəsini nəzərə alaraq yazır: «Yazılı nitq fəaliyyətinin bəzi tərkibləri şifahi nitq planında (söz seçimi, mətnin məntiqliliyi və tamlığı, nitqin üslubiyyatı, fikrin saxlanılması və s.) yetişdirilir və inkişaf etdirilir, belə ki, şifahi nitqin inkişafı hansı bir səviyyədə yazılı nitq əsasında yerinə yetirilir. Bu ikili nəticə verir: birincisi, yazılı nitqin yaradılması sürətləndirilir, ikincisi, şifahi nitqin özü daha keyfiyyətli inkişaf edir, ona görə ki «nitqin cəbri» özünün daha təkmil üsulunu «nitqin hesabının» öhdəsinə buraxır» (2,127). Göründüyü kimi, müəllif məşhur psixoloq L.S.Viqotskiyə istinad edərək, şifahi nitqi hesab, yazılı nitqi isə mükəmməl sahə olan cəbr kimi təqdim edir.

Görkəmli alim ənənədən gələn və hələ də təcrübədə geniş tətbiq olunan imla, üzündən köçürmə, suallara yazılı cavab, öyrənilmiş mətnin yazısı, «öz» sözləri ilə yazılı nəqletmə və s. iş növlərini yazılı nitqin inkişafında səmərəsiz vasitələr kimi xarakterizə etməklə yanaşı, şagirdlərin yazılı nitq bacarıqlarının inkişafını təmin edən aşağıdakı məzmunu irəli sürür:

1. şəkillər üzrə nağıl yazmaq;
2. fikri kağız üzərinə köçürməklə yadda saxlamaq, fikrin dəqiq və obrazlı ifadəsi üçün sözlər seçmək, cümlələrin düzgün konstruksiyasını qurmaq, ehtimal olunan oxucunu nəzərdə tutmaq, mətni düzəltmək, üslubun vacibliyini hiss etmək kimi bacarıqları inkişaf etdirmək;
3. sərbəst mövzu da inşa, nağıl, hekayə, şeir, təmsil yazmaq;

4. qəzet nəşr etmək;
5. rəy və təkliflər yazmaq;
6. öz yaxınları və həyat hadisələri haqqında düşüncələri yazıya köçürmək;
7. yaxınlar və dostlarla məktublaşmaq, tanışlıq məqsədilə yazışmaq;
8. məktəb «elmi» müzakirələri üçün hesabatlar hazırlamaq və s.

Müəllifə görə, bu bacarıqların formalaşması üçün şagirdin əhatəsində oxu mühiti yaradılmalı və şagird kollektivinin müəllimlərin, valideyn və yaxın adamların köməyi ilə kitaba maraq oyadılmalıdır. Məhz oxucu əhatəsi və yaradıcı münasibət yazı fəaliyyətini şagird üçün aktuallaşdırır. Şagirdlərin müstəqil idrakı fəallığa cəlb edən, onlarda təlimə, xüsusən də yazı təliminə böyük maraq oyadan bu cür yaradıcı işlərin sayını artırmaq mümkündür. Müəllimlərin böyük əksəriyyətinin bələd olduğu bu işlərin bəzən diqqətdən kənarda qalması dərslərin gün ərzində təşkil edilməməsi ilə əlaqələndirilə bilər. Məlumdur ki, yazı işlərinin aparılması onlar üzərində iş nisbətən ağır və əla, vaxt tələb edən fəaliyyət sahəsidir. Əksər müəllimlər sərf edilən əməyin lazımınca ödənilməməsini bəhanə edərək, yazı işlərini könülsüz yerinə yetirirlər ki, bu da son nəticədə təsvir edilən mənzərəni ortaya qoyur. Ona görə də bütün siniflər üzrə yazı bacarıqlarının yaradılması və inkişafı məqsədilə normativləşdirilmiş məcburi həcm müəyyənləşdirilməlidir. Real təcrübədən çıxış edərək biz bu həcmi hər bir sinif üzrə müvafiq variantda görürük.

V sinifdə – 150 söz həcmində;
VI sinifdə – 200-250 söz həcmində;
VII sinifdə – 300-350 söz həcmində;
VIII sinifdə – 400-450 söz həcmində;
IX sinifdə – 500-550 söz həcmində;
X sinifdə – 600-700 söz həcmində;
XI sinifdə – 800 söz həcmində yazılı mətnlər hazırlamağı bacarmalıdır.

Araşdırmalar göstərir ki, yüksək təhsil göstəriciləri olan ölkələrdə bu tələblər bir neçə dəfə artıqdır. Lakin Azərbaycan reallığından çıxış edərək hazırki mərhələdə yazı işlərinin həcmi ilə bağlı bu normativin qoyulması müəyyən təcrübə əldə edildikdən sonra təkmilləşdirilə bilər. Nəzərə alınmalıdır ki, qabaqcıl təcrübədən mexaniki yolla deyil, ağıllı və məqsədyönlü şəkildə bəhrələndikdə səmərəli nəticələrə nail olmaq mümkündür.

Beləliklə, ümumtəhsil məktəbi şagirdlərdə yazılı nitq bacarıqlarının yaradılması və bir metodik sistem şəklində inkişafı üçün, hər şeydən öncə, ənənəvi düşüncə tərzini dəyişmək, qabaqcıl təcrübəyə yiyələnmək tələb olunur.

Sintaksis təkcə söz birləşməsi, tərkib və cümlələrdən bəhs etməklə məhdudlaşmır. O, müstəqil cümlələr arasında əlaqələrin üsul və vasitələri, nitq bəndlərinin strukturası, onların fraqment, fəsil və əsər şəklində birləşməsi yollarından da bəhs etməlidir. Mətndəki cümlələr, abzas və ya bir neçə abzas arasında məntiqi-üslubi əlaqə formaları haqqında nəzəri məlumatı olmaq şagirdləri yaradıcı yazılar üzərində işlədən dil-ədəbiyyat müəllimi üçün zəruri və vacibdir.

Rabitəli nitq xüsusi təlim predmetinə, bacarıqlar sisteminə sahib dil proqramı bölməsidir. Şagirdlərin nitq bacarığını təkmilləşdirmək və fəallaşdırmaq, fikri şifahi və yazılı formalarda ifadə etmək vərdişləri aşılamaq bu bölmənin başlıca didaktik vəzifəsidir.

Şagirdlərin dil duyumunu inkişaf etdirmək, qazanılmış bilikləri nitq fəaliyyətində istifadə etməyi öyrənmək, öz nitqlərinə nəzarət vərdişləri aşılamaq rabitəli nitq proqramının başlıca məqsədidir. Proqrama əsasən rabitəli nitqin nəzəri əsaslarını təşkil edən anlayışlar (nitqin üslubları, məna-funksional tipləri, mətnin əlamətləri) diqqətdə saxlanılmalı, hər bir tədris ili üçün rabitəli nitq bacarıqlarının müəyyənləşdirilməsində aşağıdakı cəhətlər əsas götürülməlidir:

-mətnin qavranılması və təhlili;

- mətni şifahi və yazılı ifadə etmək;

- şifahi və yazılı şəkildə mətnlər tərtib etmək;

- onları təkmilləşdirmək.

Hazırda məktəblərimizdə rabitəli nitq vərdişlərini inkişaf etdirmək üçün bir sıra mühüm vasitə və üsullardan, rəngarəng əməli və yaradıcı yazılardan istifadə olunur. Müasir təlimdə kurikulumun məzmun xətlərinə daxil olan yazı standartlarına görə əməli yazılara (elan, məktub, ərizə, tərcümeyi-hal, teleqram, izahat, arayış, protokol, referat, təqdimat, hesabat, akt, rəy, məruzə) xüsusi yer ayrılır və bu yazı bacarıqlarının formalaşdırılması bir növ şagirdlərin cəmiyyət daxili tələbatına hesablanır. Düşünürük ki, şagirdlərin yazılı rabitəli nitq vərdişlərinin inkişafında ifadə və inşa yazılar xüsusi əhəmiyyətə malikdir və belə yazıların günün metodik tələblərinə uyğun aparılması şagirdlərin rabitəli nitqini və yaradıcı təfəkkürünü düzgün istiqamətdə inkişaf etdirər.

Dil dərslərində daha çox sərbəst imlalar, qrammatik ifadə və inşalar RNİ-yə xidmət edir. Qrammatik ifadələrdən istifadə etmək aşağıdakı əlamətlərinə görə faydalıdır:

1. Mətnin məzmununun rabitəli ifadəsi nitq vərdişlərini inkişaf etdirir;
2. Yazılı formada ifadə düzgün yazını, qrammatik bilikləri təkmilləşdirir;
3. Şagirdlərin müstəqilliyi və yaradıcılığı üçün şərait yaradılır.

Qrammatik ifadə istənilən bir dilçilik bəhsi, yarım bəhsi öyrədildikdən sonra aparılır və əvvəlcədən hazırlanmış suallar vasitəsilə mətndə müəyyən qrammatik formalı dəyişikliklər nəzərdə tutulur. **Məsələn**: *feil* bəhsinin tədrisindən sonra, qrammatik ifadə yazdırmaq istəyiriksə, şagirdlərə aşağıdakı tapşırıqları vermək olar:

1. İfadə yazarkən mətndəki feillərin zamanını dəyişin;
2. Məzmunu danışdıqda şəxsləri dəyişdirin;
3. Mətndəki feillərin məna növünü dəyişdirin və s.

Rabitəli nitq vərdişlərinin inkişafında *qrammatik inşaların* böyük rolu var və düzgün olaraq, mövcud proqramın rabitəli nitqin inkişafı bölməsində ona geniş yer verilmişdir. V sinifdə nəqli və mühakimə xarakterli kiçik inşalar yazmaqdan başlayan bu yaradıcılıq işi XI sinifdə irihəcmli mühakimə və təsvir xarakterli

irihəcmli inşalarla tamamlanır. Ədəbi-bədii mövzularda aparılan inşalar zamanı şagird ədəbiyyatdan öyrəndiyi faktik materiallarını yazıya daxil etməklə işini tamamlanmış hesab edir. Qrammatik inşalarda isə yaradıcılıq üfüqləri daha genişdir.

Sırf qrammatik mövzular üzrə inşalar dilçiliyin hər hansı bir bəhsi, bölməsi və ya yarım bölməsi bitdikdən sonra aparıla bilər. Bu tip inşalara hazırlıq mərhələsinin aparılması və təshihinin özünəməxsus xüsusiyyətləri vardır. Birincisi, nəzərə alınmalıdır ki, burada elmilik, dəqiqlik və sistemlilik əsas meyarlardandır. İkincisi, şagirdin diqqəti mühakimə tələb edən məsələlərə yönəldilməklə onlarda tənqid azadlığı formalaşdırılmalıdır. Nəhayət, müəllim belə yazıların qiymətləndirilməsində elmi təhriflərin olmamasına, məntiqi ardıcıllığa, mühakimələrdəki sərbəstliyə xüsusi diqqət ayırmalıdır. Tutaq ki, «*İsim haqqında bildiklərim»* mövzusunda inşada şagird ismi qrammatik məfhum kimi dərk edir, əsas nitq hissələri arasında onun mövqeyini aydınlaşdırır, məna və quruluşca növlərini fərqləndirir, ona xas kateqoriyaları dəqiqləşdirir və ismin bütün xüsusiyyətlərinə aid sərbəst nümunələr təqdim edə bilirsə, belə yazılar yüksək qiymətləndirilməlidir.

Əməli yazılar da şagirdlərin rabitəli nitq inkişafında müstəsna rol oynayır və praktik olaraq onlar bu yazı formalarından gündəlik həyatlarında belə istifadə edirlər. Bizim ali məktəbdəki müşahidələrimiz göstərir ki, orta məktəbdə bu məsələlərə çox da ciddi yanaşılmır. III-IV kurs tələbələrimiz belə adi *ərizə*, *izahat, protokol, akt* və s. yazmaqda çətinlik çəkir. Halbuki proqrama əsasən V sinifdən etibarən bu cür əməli yazıların öyrədilməsinə xüsusi tədris vaxtı ayrılır.

Rabitəli nitqə verilən tələblər gözlənilməklə, qrammatik ifadə və inşalar aparılmaqla bərabər şagirdlər rabitəli nitqin nəzəri elementlərini də bilməli, «*Rabitəli nitq nədir?», «Söyləm və mətn dedikdə nə anlaşılır?», «Mətnin hissələri arasında əlaqə formaları hansılardır?», «Abzasın mətndə rolu nədir?», «Mətnin məzmunu, başlıca ideyası deyəndə nə düşünək?»* kimi suallara cavab verməyi bacarmalıdırlar. Onlar bu bilik və bacarıqların köməyi ilə müxtəlif deyimləri, mətnləri, inşaları rabitəli nitq tələbləri baxımından təhlil etməkdə çətinlik çəkməməlidirlər.

RNİ məsələlərinə Ə.Rəhimova dissertasiya işində, Ə.Əhmədov jurnal məqaləsində toxunsa da, ümumilikdə, metodiki tədqiqatlarda bunların şərhinə və təhlilinə geniş ehtiyac duyulur (1, 10-13). "Azərbaycan dili" dərsliklərində verilən bütün çalışmalar hər hansı mövzunun öyrədilməsinə və möhkəmləndirilməsinə xidmət etdiyi üçün onların hamısının sinifdə və evdə şagirdlər tərəfindən icrasına nail olmaq lazımdır. V-VI sinif dərsliklərində kifayət qədər çalışmalar verilmişdir. Lakin VII-VIII sinif dərsliyində onların sayı çox azdır. Bəzi mövzularla əlaqədar çalışmalar isə lap yox dərəcəsindədir. Buna görə də müəllimlər dərsliklərdə olan çalışmalarla kifayətlənməməli, Ə.Əfəndizadənin "Orta məktəbdə imla" və A.Paşayev, M.Soltanov, A.Soltanovanın "İmla mətnləri" məcmuələrindən geniş istifadə etməli, fonetik və qrammatik təhlillərə daha çox yer verməlidirlər. Qabaqcıl və təcrübəli müəllimlər Azərbaycan dili tədrisini ədəbiyyatla əlaqələndirir, hər hansı mövzuya aid ədəbiyyatdan keçilmiş materiallardan cümlələr seçməyi şagirdlərə tapşırırlar. Elə

müəllimlərdə vardır ki, onun bütün şagirdləri Azərbaycan dili dərslərində sorğu zamanı dərsliklərdə olan cümlələrdən deyil, ancaq bədii ədəbiyyatdan seçdikləri cümlələrdən istifadə edirlər. Demək, həmin müəllimlər dərslikdə olan bütün çalışmaları icra etdirməkdən əlavə, bədii materialların nəzərdən keçirilməsinə, müvafiq cümlələrin seçilməsinə və yazılmasına da nail olurlar.

Ədəbiyyat siyahısı

1. Əliyeva A.T. "Azərbaycan dilindən qrammatik materialların tədrisi zamanı interaktiv metodlardan istifadənin xüsusiyyətləri", ADPU xəbərləri, 2010, №6
2. Sultanova H. "Təlimin keyfiyyətinin yüksəldilməsində inteqrasiyasının rolu. Məktəbəqədər və ibtidai təhsil", 2015, №1.

GUNEL MAMMAOVA

FORMS OF LOGICAL AND STYLISTIC CONNECTION IN CREATIVE WRITING SUMMARY

Modern language classes are aimed at instilling in students productive life skills through artistic and artistic-publicist texts, which instill more national and human values, among which writing skills are of particular importance. Today, the school faces even greater demands: it makes the student think, awakens his/her creative potential in his/her nature, motivates him to create. The student should not turn the most hectic period of his/her life into a dogma trying to memorize textbooks, think about physical, chemical, biological laws, and incline to search.

Interactive methods are forms and technologies, methods and tools that provide interaction. At the heart of curriculum philosophy is the factor of activism. Activity is the key to development, as well as the key to innovation and discovery.

It follows that it is necessary to motivate students from the lower grades to creative writing, to involve them in intellectual activity, to accustom them to be able to cope independently with the difficulties encountered in this process. Students need to be taught the difficulty of creativity, the joy of being able to cope with it.

Expressions as a type of work on the development of communicative speech enrich students' vocabulary, develop reading skills, develop mental processes (hearing, memory, imagination, etc.), apply logical categories (prove, draw mental conclusions, etc.) and it is also of practical importance in the correct study of linguistic facts and in the deep acquisition of stylistic skills.

ГЮНЕЛ МАМАДОВА

ФОРМЫ ЛОГИКО-СТИЛИСТИЧЕСКОЙ СВЯЗИ ВТВОРЧЕСКОМ ПИСЬМЕ

РЕЗЮМЕ

Современные языковые занятия направлены на привитие учащимся продуктивных жизненных навыков через художественные и художественно-публицистические тексты, которые прививают больше национальных и общечеловеческих ценностей, среди которых особое значение имеют навыки письма. Сегодня к школе предъявляются еще большие требования: она заставляет ученика думать, пробуждает творческий потенциал в его натуре, мотивирует на творчество. Ученик не должен превращать самый беспокойный период своей жизни в догму, пытаясь запоминать учебники, думать о физических, химических, биологических законах, склоняться к поиску.

Интерактивные методы – это формы и технологии, методы и средства, обеспечивающие взаимодействие. В основе философии учебной программы лежит фактор активности. Активность — это ключ к развитию, а также ключ к инновациям и открытиям.

Отсюда следует, что необходимо мотивировать учащихся младших классов к творчеству, вовлекать их в интеллектуальную деятельность, приучать уметь самостоятельно справляться с возникающими в этом процессе трудностями. Студентов нужно учить трудности творчества, радости от возможности справиться с ним.

Выражения как вид работы по развитию коммуникативной речи обогащают словарный запас учащихся, развивают навыки чтения, развивают мыслительные процессы (слух, память, воображение и др.), применяют логические категории (доказывают, делают умственные выводы и др.) имеет также практическое значение в правильном изучении языковых фактов и в глубоком приобретении стилистических навыков.

Redaksiyaya daxil olma tarixi: 18.05.2022
Çapa qəbul olunma tarixi: 07.06.2022
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru Aytən Əhmədova tərəfindən çapa tövsiyə olunmuşdur

AYTƏN ARZULLA QIZI ƏHMƏDOVA
Gəncə Dövlət Universiteti
Fil.ü.f.d., b/m

"DASTANİ- ƏHMƏD HƏRAMİ" ƏSƏRİNDƏ İŞLƏDİLMİŞ BƏZİ ARXAİZMLƏR HAQQINDA

Giriş

"Dastani- Əhməd Hərami" XIII əsr ana dilində yazılmış epik şeir nümunəsidir. XIII yüzillikdə yazılmasına baxmayaraq, əsərdə ərəb, fars sözləri, demək olar ki, çox azdır. Sənətkar Azərbaycan dilinin saflığını qoruyub saxlamağa çalışmışdır. Əsərdə elə sözlər vardır ki, onların çoxu bu gün dilimizdən çıxaraq işlənmə dairəsini itirmişdir. "Dastani- Əhməd Hərami" poemasına həm leksik-semantik söz qrupları, həm də arxaik sözlər üslubi çalar qatmış və onun dilini zənginləşdirməyə xidmət etmişdir. Əsərin dilindəki sözlərin böyük bir qismi qədim Azərbaycan sözləridir. Bu sözlər orta əsr klassik ədəbi dil üçün işləklik xarakteri daşısa da çağdaş Azərbaycan dili üçün köhnəlmiş hesab olunur. "Dastani- Əhməd Hərami"nin dilindəki qədim Azərbaycan sözləri özündən əvvəlki və sonrakı yazılı abidələrdə, türkdilli qaynaqlarda, dilimizin dialekt və şivələrində özünü göstərir.

Fəal işlənmə dairəsindən çıxmış sözlər köhnəlmə dərəcəsinə, arxaikləşməsinə, istifadə imkanına və səciyyəsinə görə müxtəlifdir. Sözlərin köhnəlməsi, əsasən, aşağıdakı səbəblərlə bağlıdır:

1. Tarixi, ictimai- siyasi səbəblərlə. Dövlət quruluşları dəyişdikcə, ictimai-siyasi formasiyalar bir- birini əvəz etdikcə onlarla bağlı sözlər də köhnələrək sıradan çıxır, fəal nitqdə işlənmir. Müəyyən tarixi hadisə ilə əlaqədar olaraq köhnələn əşya və hadisələrin adları tarixizmlər adlanır [Həsənov,1988, s. 155]. Tarixizmlər hər şeydən əvvəl köhnə ictimai- siyasi və mədəni- məişət həyatının hadisələrini bildirir. Dilimizin passiv fonduna daxil olan tarixizmlərə vəzifə, geyim, ticarət, silk, dini məfhumların və s. adları aiddir. "Dastani- Əhməd Hərami" əsərində də bu cür tarixizmlərə rast gəlinir: Şəhər *kətxudasına* der bilirvən, Özün yaxşı kişi dövlət olurvən [DƏH, 2004, s. 40]. Aytdı *kətxuda* danla gələyin, Tapın nə kim buyursa qılayın [DƏH, 2004, s. 41]. Dükəli vəsfi *padşah* qıldı məlum, Oxunuz anı dedi şahi-məxtum[DƏH, 2004, s. 42]. Əlin öpdü *şahın* Əhməd Hərami, Dəlim lütf ilə söylədi kəlami [DƏH, 2004, s. 42]. Nə kim Əhməd Hərami dedi *şahə,* Qamu ərz eylədilər *padişahə* [DƏH, 2004, s. 45]. *Bəzirgan* (tacir) şəklinə düzdü özünü [DƏH, 2004, s. 37].
2. İnsanların həyat və yaşayış şəraitinin dəyişməsi ilə.
3. Elmi, texnikanın inkişafı, əmək prosesinin təkmilləşməsi ilə
4. Dilin özünün daxili inkişafı və zənginləşməsi ilə.

Öz işlənmə dairəsinə görə köhnəlmiş sözlər müxtəlif qruplara ayrılır. Bunlar aşağıdakılardır: a) İşlənmə gücünü tamamilə itirmiş, mənası məlum olmayan və yeni sözlərin əmələ gəlməsində iştirak etməyən sözlər; Məsələn, yanşax, bədey. b) Müasir dildə müstəqil söz kimi işlənmək gücünü itirmiş və izlərini sözlərin tərkibində saxlamış olan köhnəlmiş sözlər; Məsələn, qar- bərklik mənasında (qarmaq, qarı, qarğı). c) Vaxtilə ədəbi dildə işlənmiş və müasir dildən çıxmış bir çox ərəb- fars sözləri; Məsələn, rəfiq, sövtiyyat. d) Köhnə quruluşla əlaqədar idarə, müəssisə və vəzifə adları; Məsələn, qəza, pristav, yüzbaşı və s. [Cəfərov, 2007, s. 66].

"Dastani- Əhməd Hərami" məsnəvisinin bədii dilində işlədilən qədim sözləri aşağıdakı kimi qruplaşdıra bilərik:

1. Müasir ədəbi dil üçün köhnə hesab edilən sözlər
2. Formalarını saxlayıb, tamamilə yeni məna ilə dilə qayıdan sözlər
3. Fonetik tərkibcə dəyişikliyə uğramış sözlər

"Dastani- Əhməd Hərami" poemasında müasir ədəbi dil üçün arxaik hesab edilən sözlərə rastlanmaqdadır. Bu cür arxaizmlər dilin özünün daxili inkişafı nəticəsində köhnələn sözlərdir.

Əsərdə işlədilmiş arxaik sözlər

Us."Dastani-Əhməd Hərami"nin dilində işlədilən *us* arxaizmi mənşə etibarilə türk(oğuz) sözüdür. Bu söz Azərbaycan dilinin izahlı lüğətində qədim(arxaik) söz kimi iki mənada 1.ağıl, zəka, dərrakə, fərasət, kamal, idrak 2. ədəb, tərbiyə mənalarında verilmişdir. M. Kaşğari isə *us* kəlməsini *xeyirlə şəri ayırd etmə* kimi mənalandırmışdır.

Güləndam *usunu* başa gətirdi,(Güləndamın ağlı başına gəldi) Həqə sığındı, gör nə iş bitirdi [DƏH, 2004, s. 106]. "Əhməd Hərami"dən gətirilmiş bu nümunədə *us* arxaizmini *ağıl, kamal* kimi düşünmək daha məqsədəuyğundur. Bir çox klassik sənətkarların dilində, o cümlədən, Nəsiminin, Xətainin divanında bu sözə rast gəlinir.

Ayıtdı, ayıtmaq. *Ay və ayıt* feilinin qədim türkdilli mənbələrdə *demək, söyləmək, izn vermək, soruşmaq* mənalarında işlədilmişdir. Q. Bürhanəddinin dilində *ayt, aydır* (demək, söyləmək) şəklində, M. Kaşğarlıda *ayıt* (söyləmək, soruşmaq) formasında, "Dastani- Əhməd Hərami"də *ayıtdı, aytdı* (dedi, söylədi) kimi işlədilmişdir. *Ayıtdı* kim əgər diri qalırsam, Bucuq yıl əglənəm gər çox olursam [DƏH, 2004, s. 58]. *Aytdı* bağban, ey mərdi- mərdan, Eşitgil kimdürür bu şəhrə sultan [5, 94]. İnilti ilə bir gəz eylədi ah, *Aytdı:* sana sığındım, ay Allah [DƏH, 2004, s. 65].

Orxon Yenisey abidələrində isə bu söz həm *demək, söyləmək*, həm də *mühakimə yürütmək, xəbər vermək, xəbər göndərmək* mənalarında işlənmişdir. Bu leksem (ay, ayt, ayıt, aydır) hal-hazırda ədəbi dil üçün arxaik hesab olunsa da, bəzi dialekt və şivələrimizdə işlədilməkdədir. Məsələn, *Aydırmax*- demək, söyləmək, anlatmaq (Kürdəmir dialekti). Anasına *aydırdı* ki, o qızı isseyir.

Əsən. Bəşir Əhmədova görə ***əsən (əsəngü)*** arxaik sifəti monqol dilindən götürülmüşdür, mənası *sağlamlıq* deməkdir. Bəzən də "*əsəni kəsilmək"* kimi mənalandırılmışdır. Müasir dövürdə "*əsəni kəsilmək" kökü kəsilmək* kimi başa düşülür. Qərb rayonlarında *Allah əsənini üzsün* cümləsi qarğış kimi başa düşülür.

"Dastani- Əhməd Hərami"də və digər klassik şeir nümunələrində isə bu söz *sağ, salamat* mənasında verilmişdir. Şahənşah der: ey bəylər bəyi, sən, Cahan içində daim olgil *əsən* [DƏH, 2004, s. 57] (Şahlar şahı dedi ki, ey bəylər bəyi sən, Dünyada daim sağ salamat ol). Verdi xələt çün anı gördi əsən (Y. Məddah).

Altun. Azərbaycan dilinin izahlı lüğətində *altun* arxaizmi *qızıl* kimi mənalandırılmışdır. M. Kaşğarinin "Divan"ında da *altun qızıl* anlamındadır. *Altun* kəlməsinin etimologiyasını araşdırdıqda sözün əslinin *yaltun* kimi olduğunu, *yal* hissəsi *yalov, yıldız* sözləri ilə qohum olduğunu, *tun* hissəsinin isə *dəmir* kimi mənalandığını müşahidə edirik. Bəşir Əhmədova görə *altun* "*od rəngində olan dəmir*" deməkdir. Bu arxaizm "Dastani- Əhməd Hərami"də *qızıl* mənasında işlədilmişdir. Xəzinəyə bular kim girdilərdi, Qumaş, *altunu* aqca aldılardı [DƏH, 2004, s. 30]. Beytin təxmini mənası: " Bunlar xəzinəyə girib parça, qızıl, pul aldılar". *Aqça (axça)* orta əsrlərdə pul vahidi olmuşdur. Bu söz tarixizm hesab oluna bilər. *Altun* arxaizmi XX əsrin ortalarına qədər ümumişlək olmuşdur. Buna Füzulinin, Cəfər Cabbarlının və Hüseyn Cavidin dilində rast gəlinir. "Götürübdür başa *altun* dolu bir sim təbəq", "Dünyada hakim bir qüvvət varsa, o da *altun*, yenə *altundur*". "Yoxmu sənin incilərin, *altun* bilərziklərin?"

Altun sözü hal- hazırda Türkiyə türkcəsində işləkdir. *Gelinlere düğünlerde altın takılır.*

Uş "Dastani- Əhməd Hərami"nin dilində işlədilən qədim türk sözlərindən biridir. M. Kaşğarinin "Divanü lüğat- it-türk"ündə bu sözün bir neçə mənası verilmişdir. 1. İndi, işdə, kimi. 2. Quşların və heyvanların quyruq qismi. 3. Ağac, budaq və buynuz kimi şeylərin özəyi. Əhməd Hərami dastanında seçilmiş nümunələrdə ***uş*** sözü *bu saat, indi* mənasındadır. Yürür ikən tavus bal bağ içində, Boğuldum qaldım *uş* irmağ içində [DƏH, 2004, s. 65]. Sən *uş* dördüncü məclisə nəzər qıl, Görün kim, nəyə varır uşbu mənzil.

Uş sözü istər qədim türk dili abidələrində, istərsə də "Dastani- Əhməd Hərami"dan həm əvvəlki, həm də sonrakı dövrlərində geniş yayılmışdır. Surəti-həqdir cəmalın, ey nigar, *Uş* nəbinin sözləri bürhanımız (Nəsimi). Çün sənin övsafinə yetməz Xətayinin sözü, *Uş* bu əbyat üstə xətm oldu kəlamım, vəssalam (Xətayi).

Dün sözü həm qədim türk yazılı abidələrin, həm də klassik ədəbi dildə geniş işlənmişdir. Mənası *gecə*, bəzən də *dünən* kimi ifadə olunmuşdur. *Dünən* sözü *dün, tün* kəlməsindən yaranmışdır, "*dündən (tündən) əvvəlki gün"* deməkdir. *Düni* günə qatıb bular çü getdi,(gecəni gündüzə qatıb getdilər) Beş- on gündə bular Bağdada yetdi [DƏH, 2004, s. 25]. Qeyd olunan nümunədə *dün* sözü *gecə* mənasında işlədilmişdir. "Kitabi- Dədə Qorqud" dastanlarının dilində *dün* sözü gecə və dünən

mənasında, Həbibidə gecə (*Dün gördüm ol nigarı tərəbnakü ərcümənd*), Füzulidə gecə (*Dün dideyi- tər qılıb gühərbar*), Vaqifdə dünən (*Dün gecə fələyə çıxdı fəryadım*), Zakirdə gecə (*Var mülki- Qarabağda çox dün... oğlu*) mənasında işlədilmişdir.

Donanmaq, donatmaq- geydirmək, geyinmək. "Dastani- Əhməd Hərami"idən gətirilmiş beytdə *donanmaq* feilinin *geyinmək* mənasında işləndiyini müşahidə edirik. Dedi ol qıza: get tez var *donan* gəl, Bənim qayqularımı yabana sal. Varıb qız donanıb gəldi oturdu, Bular bu fikrilə nə iş bitirdi [DƏH, 2004, s. 55].

"Kitabi- Dədə Qorqud"da *donanmaq // tonanmaq* şəklində (Aç görsə doyurdu, yalın görsə donatdı) Mahmud Kaşğarinin "Divan"ında isə *tonat // tonattı // tonatur (geydirmək)* kimi işlədilmişdir.

Şoluqdəm belinə qılınc **quşandı,** Bulardan qorxdu və nə heç üşəndi. Nə durursunuz, durun, bir- bir ***quşanın*,** Nə qayırın, nə qorxun, nə üşənin. "Dastani Əhməd Hərami"dən gətirilmiş bu beytdə *quşanmaq feilinə* rast gəlirik. Quşanmaq qədim türk sözü olub, *bağlamaq, geyinmək, taxmaq* və s. mənalarında işlədilmişdir. Müasir ədəbi dilimiz üçün arxaik olan bu söz abidələrin dilində işlək olmuşdur. Quşanmaq // kuşanmak feili hal- hazırda Türkiyə türkcəsində 2 mənada işlədilir. 1. Beline kuşak, kılıç, kemer bağlamak. 2. Giyinmek : "Takkesini geçirmiş, entarisini kuşanmış, elma soyuyordu"(A. Gündüz) [Türkcə lüğət, 2005, s.1269].

"Nə qayırın, nə qorxun, nə ***üşənin***" dastandan götürülmüş bu misradakı *üşənmək* feili arxaikləşmişdir. Ancaq bu leksem fəal fonddan çıxsa da, bəzi regionlarımızın dilində ***üşənməg // üşəmməx*** şəklində işlədilir. Bakı (Ağəz, nöş *üşənirsən,* danış da:), Zəngilan (Tavlıya təx getmə, *üşənərsən*) dialektlərində *qorxmaq,* Gəncə (Onun danışığından bir az *üşəndim*) dialektində isə şübhələnmək mənasında istifadə edilir.

Düş. Qədim türk dilinə mənsub olan *düş, tüş* sözünün mənası *röya, yuxu* deməkdir. Ə.Cəfəroğlunun "Əski uyğur türkcəsi sözlüyü"ndə *tüş, tüşanmak* (yuxu, yuxu görmək) sözlərinə rastlanılır. İstər orta əsr, istərsə də çağdaş Türkiyə türkcəsində *düş* sözü işlək olmuşdur. Türk Dil Kurumunun tərtib etdiyi "Türkçe sözlük"də (Ankara 2005) *düş* sözü iki mənada verilmişdir: 1. Uyurken zihinde beliren olayların, düşüncelerin bütünü, rüya (röya, yuxu). 2. Gerçek olmayan şey, hayal (xəyal). Dadaloğlu m, sevdası var başımda / Gündüz hayalimde, gece *düşümde*. Bir gerçek içindeyim *düşten* güzel, Sevdiğim gülüyor yanıbaşımda(Cahit Sıktı Tarancı). Yaşadıqca *düşle*, *düşledikçe* yaşa (Tayfur Topaloğlu). "Dastani- Əhməd Hərami"əsərində bu söz *yuxu* mənasında işlədilmişdir. Məgər *düş* görür ol gecə Güləndam, O *düşün* heybətindən titrər əndam [DƏH, 2004, s. 101]. (Məgər o gecə Güləndam yuxu görür, o yuxunun qorxusundan bədəni əsmiş). Nəsimi dilinin arxaik leksikasında da düş, duş sözünə rastlanılır: Gər səni görsə idi *duşda* pəri, O da salaydı otuz iki pəri (Nəsimi).

Dilin fəal fondundan çıxan *düş* leksemi dialekt və şivələrimizdə öz işləkliyini qorumaqdadır. Düş (Zaqatala)- yuxu, röya. Axşam bir düş gördüm [ADL, 2007, s. 149].

Bünyad arxaizmi mənşə etibarilə fars dilinə mənsub olub, təməl, əsas, kök, özül və s. mənasında işlədilmişdir. "Dastani- Əhməd Hərami" poemasında da təməl, əsas mənasında verilmişdir. Buyurdu çünki memarlar dərildi, Bir ulu köşk içün bünyad uruldu [DƏH, 2004, s. 89]. (Bir böyük köşkün əsası, təməli qoyuldu).

Yəğma, yağmalamaq- oğurluq, qarət, qarət etmək. Güləndam gönlün anın qıldı *yəğma*, Güləfrux şahə düşdi eşqi- sevda [DƏH, 2004, s. 81].

Xod –öz, özü. Dedi: neçün inandım bən bulara, Bular *xod* bənə qılmışdır mudara [DƏH, 2004, s. 71]. Bənim *xod* bu fəraqum bənə yetər, Mərəz ola içimə dəxi betər [DƏH, 2004, s. 84].

Yörə- fal, xeyir- dua. Həm altun idi hər bir pəncərəsi, Ağ incidən bəzəndi hər *yörəsi* [DƏH, 2004, s. 90]

"Dastani- Əhməd Hərami" əsərində formalarını saxlayıb, tamamilə yeni məna ilə dilə qayıdan sözlərə misal olaraq **arı** kəlməsini göstərmək olar. *Yedi oğlan gətirdim aydan **arı**, Yüzü güldür, şəkərdir ağzı yarı.* [DƏH, 2004, s. 40]. Bu söz qədim türk sözü hesab edilir. Mahmud Kaşğarinin "Divanü lüğat-it-türk"ündə ***arı -*** təmizləmək, təmiz olmaq mənalarında verilmişdir. Arıtmaq, arınmaq sözlərinin də burdan yarandığını qeyd etmişdir. Məsələn, *Arınçu arıtmaq*- günahdan təmizlənmək [Kaşğari, 2006, s. 40]. *Arı* sözü öz əvvəlki mənasını itirsə də müxtəlif xalq deyimlərində qalmaqdadır. Məsələn, *Aydan arı, sudan duru.* Müasir dövr üçün arxaik hesab edilən *ari, arı* sözü Qasıb bəy Zakirin şeirlərində də işlədilmişdir. Xuni- dili dişrəyə mərdumi- çeşmim tökər Kim, gərək *ari* ola mənzilu məvayi- eşq.

Çağdaş Azərbaycan ədəbi dilində *arı* həşərat mənasında işlədilməkdədir.Yəni mənasını tamamilə itirib dilə qayıtmışdır. ***Arı*** (həşərat kimi) sözünün etimologiyasını araşdırdıqda *bal* mənasini verdiyini müşahidə edirik. Eyni zamanda **arı** (həşərat) bioloji termin kimi işlədilməkdədir. Məsələn, "İşçi arıların yumurtaqoyanları neştərə çevrilir" [Məmmədov, 2019, s. 15] "Arılar bəzi balverən bitkiləri çarpaz şəkildə tozlandırırlar" və s.

Ər, ərən. Der idi: qanı sevgili yaranlar, Nər arslan kimi ol gürbüz ***ərənlər*** (Dedi ki, hanı sevgili yoldaşlar, Nər aslan kimi qüvvətli igidlər)**.** Bu söz qədim türk sözü olub, mənası igid, qəhrəman, adam, kişi və s. mənalarını verir. *Ərən* isə *ər* sözünün qaydadanxarıc cəm şəkli hesab olunur. *Ərən* sözündəki *ən* şəkilçisi tarixən çoxluq bildirib, sonra mənasını dəyişib [Əhmədov, 2017, s. 103]. Kllasik ədəbiyyatımızda və qədim abidələrdə bu sözə tez- tez rast gəlinir: *Ər ərdən* adın yaşurmaq eyib olur. *Ər* ağırın, *ər* yünüsün at bilir. Öyünərsə, *ər* öyünsün- aslandır. **(**"Kitabi- Dədə Qorqud"). *Ərənlər* öz yolunda *ər* tək gərək, Meydanda erkək kişi nər tək gərək (Q. Bürhanəddin). Dildar ilə məhəbbətdir tələbim, Ya bu gün, ya yarın öldür, *ərənlər* (Xətai). Alp Ər Tonqa öldümü?, İsuz açun qaldımı? (ağıdan).

Müasir ədəbi dilimizdə *ər-* həyat yoldaşı, kişi mənasında işlənməkdədir. Məsələn, onun ***ər**inin* 35 yaşı var. Ayseli ***ərə*** verdilər.

Yazı. Atın kişnəməsi və çan avazı, Dolu olmuş idi ol ulu ***yazı***. *Yazı* sözünü Mahmud Kaşğarlı *oba, açıqlıq, meydan, boşluq, çöl* mənalarına gəldiyini qeyd etmişdir. *Yazı* sözü müasir qrammatikada tamamilə başqa mənanı ifadə etməkdədir. *Yaz* feilinə -ı[4] isim düzəldən şəkilçinin artırılması ilə bu söz əmələ gəlmişdir. Yəni feildən düzələn düzəltmə isimdir. Məsələn, O, ağır günlərdə Səkinənin şəklini qoynuna basmış, altındakı *yazını* təkrar- təkrar oxuduqca ürəyi dağa dönmüşdür (M. İbrahimov).Yazı sözü ədəbi dildə əvvəlki mənasını itirərək işlənsə də, bəzi dialekt və şivələrimizdə (Ağdam, Cəbrayıl, Füzuli, Qazax, Laçın, Oğuz, Şahbuz, Tərtər) arxaik mənasında istifadə edilməkdədir. Məsələn, Qavaxlar susuz *yazılar* çoxudu (Füzuli dialekti), *Yazıda* qoyun da otduyur, mal da otduyur (Şahbuz dialekti) [3, 544]. Bəzən ümumi danışıq dilində də bu sözə rast gəlinir. Məsələn, Havaxanımın qızı *yazı* maralı kimidir.

Uçmaq. "Kitabi- Dədə Qorqud"dastanında bu söz cənnət anlamında işlədilmişdi. Alınma sözdür, Soğdaq dilinə məxsusdur [Əhmədov, 2017, s. 257]. Həmin dildə sözün mənası "cənnət", "göy" kimi açıqlanır.

Sanasan tavus idi bağ içində, Ya huri qızıdır *uçmaq* içindı.(Sanırsan ki, bağda tovuzquşu kimidir, ya da mələk qızıdır cənnət içində) [DƏH, 2004, s. 81].

Uçamaq arxaizmini Xətayi divanında da müşahidə edirik: Dedilər ki, səkkiz *uçmaq*, sirr olubdur zahidə, Pərdəsiz nur onda gördük cənnətül- məvayi biz.

Müasir Azərbaycan dilində *uçmaq* feilini omonim kimi düşünmək olar. 1. Quş qanadlanıb *uçdu*. 2. Zəlzələdə evi *uçdu*.

"Dastani- Əhməd Hərami" əsərində çoxlu sayda fonetik tərkibcə dəyişikliyə uğramış arxaizmlərə rast gəlinir.

Müasir Azərbaycan əlifbasının 31-ci hərfi olan cingiltili ***y*** samitinin əsərdə müxtəlif işlənmə məqamları vardır. Cingiltili ***y*** samiti "Orxon- Yenisey" abidələrində söz önündə üstün mövqedə görünür: yıl- il, yılan- ilan, yılkı- ilxı [Tanrıverdi, 2014, s. 146]. M. Kaşğarlının "Divan"ında da bu tip sözlərə rast gəlinir: yılığ- ilıq, yıp- ip, yignə- iynə, yigrən- iyrənmək və s. [Kaşğarlı, 2006, s. 681, 684].

"Dastani - Əhməd Hərami" məsnəvisində də söz əvvəlində ***y*** samitinin fəal iştirakını müşahidə edirik: **Yuca** –uca. Güləfrux buyurur kim tez oluqdəm Ki, bir köşk yapdururlar *yuca* möhkəm [DƏH, 2004, s. 96]. **Yigitlər**- igidlər. Yayıldı ol *yigitlər* cümlə dağa, Şikar istəyü baxup sola, sağa [DƏH, 2004, s. 98]. **Yürəginə**- ürəyinə. Çü sürüçdi ayağı ol nabəkarın, *Yürəginə* su səpildi nigarın [DƏH, 2004, s. 106]. **Yulduzlar**- ulduzlar. *Gögün* üzünə *yulduzlar* saçıldı [DƏH, 2004, s. 41]. **Yüzünü** – üzünü. Krıma əzm edip duttu *yüzünü* [DƏH, 2004, s. 37]. Mübarək *yüzüni* xanın görəlim [DƏH, 2004, s. 40]. **Yıl-il.** Bucuq *yil* müntəzir olun bizə siz [DƏH, 2004, s. 58]. **Yudmaq- udmaq**. Ağu sunar isə yudmaq gərəkdir [DƏH, 2004, s. 59].

Əhməd Hərami dastanında müxtəlif fonetik dəyişikliyə uğramış, yəni şəkilcə dəyişmiş sözlər qrupuna aşağıdakıları da qeyd etmək olar. **Dügün** – düyün, toy.

Düğün leksemi müasir dövürdə eyni səs tərkibi ilə Türkiyə türkcəsində işlədilir. Evlənmə və ya sünnətlə bağlı olunan törən, əyləncə, mərasim nəzərdə tutulur. Məsələn, "Babam düğünün savaşdan sonraya kalmasını uyğun görmüş" (A. Gündüz) [Türkcə Sözlük, 2005, s. 584].

"Dastani –Əhməd Hərami"dən seçilmiş nümunələrə diqqət edək: Təmam qırx gün *dügün* eylədi xoş [DƏH, 2004, s. 54] **Düğün** saçısına gəldi ulular [DƏH, 2004, s. 53]. **Yügürsə**- yüyürsə qaçsa. Yedi hindi qılıc, yedi gözəl at, *Yügürsə* eyləyə karlanqıcı mat [DƏH, 2004, s. 40] **Gög**- göy, səma. Bu nümunələrdə ***g > y*** əvəzlənmələri görünür. Bu cür əvəzlənmə (***g > y)*** istər qədim abidələrdə, istərsə də klassik ədəbi dildə rast gəlinən hadisələrdəndir. Ağca qoyun *gördügində* quyruq çırpub qamçılayan! (KDQ). Qiymətini dodağının *dəgmə*, xəsisə sorma kim, Mən bilürəm nə can ilə susamışam zülalinə (İ.Nəsimi). Us bu hallar hərgiz sana layiq *degül*, Sən hərgiz qul dedügin bayıq *degül* (Əli "Qisseyi- Yusif").

t > d və ya ***d > t*** əvəzlənmələri yazılı abidələrimizdə izlənilməkdədir. **Dutub**- tutub. Dutub can qulağın bu sözü dinlə, Nəyə varur bu işin sonu anla [5, 106].

"Dastani- Əhməd Hərami"nin dilində fonetik tərkibcə dəyişikliyə uğrayan arxaik sözlərin tərkibində müşahidə edilən hadisələrdən biri də **o > a** hərf əvəzlənməsidir. *Ol* şəxs əvəzliyi ismin hal şəkilçilərini qəbul edərkən **o → a** əvəzlənməsinin baş verdiyi müşahidə edilir. Gəlincə xocalar cavın eşitdi, Qamu atlandı *ana* qarşı getdi [5, 38]. Dəgər növbət yenə *anın* birinə, Varır ol dəxi *anların* yerinə [DƏH, 2004, s. 32]. Zülməti – zülfində könlü bu Xətai xəstənin, Xızra bənzər kim, görünməz çeşmeyi- heyvan *ana* (Xətai).

***ə→a* əvəzlənməsi.** Anadilli epik şeirin nümunəsi olan bu poemada **xəlq**- xalq (Gələn *xəlqi* yedirdi, toyladı xoş), **cəhan**- cahan (*Cəhanda* biz ana bir iş qılalım) kimi sözlərin işləndiyi görünür ki, bu da klassik ədəbi dil üçün xarakterik haldır. Şəbi- hicran yanar canım, tökər qan çeşmi- giryanım, Oyadar *xəlqi* əfğanım, qara bəxtim oyanmazmı? (M.Füzuli). Ey Xətai, sidq ilə bu şah *əyağinə* gələn Aqibət bir gün, gümansız, xəlq içində baş ola (Xətai).

q- x- h əvəzlənməsi. Qamu- hamı. Müasir Azərbaycan ədəbi dilində ilk səsi **h** olan bir sıra sözlərin XVIII əsrə qədər **q, q//x** paralelliyi, yaxud **h** ilə işlənməsinə təsadüf olunur. *Qamu bütün* sözünün sinonimidir, yazılı abidələrin dilində təyini əvəzlik kimi işlənmişdir [Tanrıverdi, 2014, s. 270]. *Qamu* leksemi müasir ədəbi dilimizdə fonetik dəyişikliyə uğramış şəkildə, həm də təyini deyil, qeyri- müəyyən əvəzlik kimi işlənir. "Dastani- Əhməd Hərami"nin dilində işlənmiş bu söz qeyri-müəyyən əvəzlikdir. Qaçan xurşid ki, məşriqdən göründi, Ulu dağlar *qamu* nur tac urundi [DƏH, 2004, s. 34]. Gəlincə xocalat cavın eşitdi, *Qamu* atlandı ana qarşı getdi [DƏH, 2004, s. 38].

M. Kaşğarinin "Divanü lüğat- it- türk"ündə *bütün, hamı, hamısı* mənasını verən *kamuğ* şəklində rastlanılır.

Bəzən müəyyən dövrdə köhnəlmiş sayılan sözlər yenidən dilin fəal fonduna qayıdaraq, ümumişlək sözə çevrilə bilir. Məsələn, 1920- 1971- ci illərdə dinlə, şəriətlə, ictimai sistem və idarəçiliklə bağlı bəzi sözlər, demək olar ki, dilin qeyri-fəal fonduna keçərək unudulmuşdur. Bu gün həmin sözlər şəraitlə bağlı olaraq yenidən dirçəlib fəal işlənə bilir. Belə sözləri "dirilən sözlər" də adlandırmaq olar. Qədim türk dilinə mənsub olan *Tanrı, ulu, qutlu, dürlü* kimi sözlər müasir ədəbi dildə artıq ümumişləkdir.

"Dastani- Əhməd Hərami" poemasından seçilmiş aşağıdakı nümunələrə diqqət edək: *Ulu,* kiçi anı qamusu bildi, Dügün *qutlulamağa (qutlu)* cümlə gəldi. Nə var *Tanrı* bir isə iş ikidir, Ölüm dedikləri sanma ikidir. Bilə gəl gedəlim bu *qutlu* yola Ol kim *Tanrı* xeyrin vermiş ola. Bir *ulu* köşk içün bünyad uruldu. Görür oğlanı düşmüş *dürlü* ahə. Nə *dürlü* hiylə edər ol natəvan. *Dürlü* kəlməsi Mahmud Kaşğarlının "Divanü lüğat-it-türk" əsərində *tütü* şəklində verilmişdir. Dürlü sözünü M.V. Vidadinin şeirlərində də müşahidə etmək olur. Fələk saldı *dürlü- dürlü* odlara, Şan- şan olmuş, paralanmış könlümü (M.V.Vidadi).

Azərbaycan xalqının soykökündə dayanan albanlar (aranlılar) V- VIII əsrlərdə yüksək səviyyəyə çatmış bir mədəniyyət yaratmış və hətta Alban dili əsasında əlifba da düzəltmişlər [AKƏS, 2005, s. 17]. Bu dövrdə yaşamış Dəvdəkin "Böyük hökmdar Cavanşir (616- 681) üçün ağı" şeirində müasir dövr üçün *"dirilən"* hesab edilən sözlərdən istifadə etmişdir: Ey ilahi kəlamları xəlq eyləyən *ulu Tanrı*, Özün nəğmə- ağı söylə, yad et bizim hökmdarı.

"Dastani- Əhməd Hərami"də *xatun* leksemini müşahidə edirik. Məgər qapıçılar anı görürlər, Şoluqdəm *xatuna* xəbər verürlər [DƏH, 2004, s. 76]. Qızın istəyəlim almaq rəvamı? Hələlın, *xatunun* olmaq rəvamı? [DƏH, 2004, s. 44]. Bu qədim türk sözüdür, müasir şəkli *xanımdır*. Müasir dövrdə qadınlara müraciət zamanı rəsmiyyət və hörmət əlaməti olaraq *xanım* sözü işlədilir. Məsələn, Azərbaycan Respublikasının Birinci vitse- prezidenti Mehriban *xanım* Əliyeva.

Bu sözdən iki formada istifadə olunur: a) təklikdə, sadəcə *xanım* formasında; b) adlardan sonra. Pərzad *xanım*, Gülçin *xanım* və s. Rəsmi dövlət tədbirlərində rəsmi açılışlar zamanı müraciət forması kimi *xanım* sözü işlədilir. "*Xanımlar və cənablar, Azərbaycana xoş gəlmişsiniz, ilk Avropa oyunlarına xoş gəlmişsiniz!"* ("Bakı 2015" Birinci Avropa Oyunlarının açılış mərasimində Mehriban xanımmın çıxışından)

Xatun kəlməsi "Kitabi- Dədə Qorqud" dastanlarında tez- tez rast gəlinən sözdür. "Sarı donlu Selcan *xatun* köşkdən baqar, Kimə baqsa, eşqiylə oda yaqar!" (KDQ).

Nəticə

"Dastani- Əhməd Hərami" əsəri, əsasən, ədəbi nöqteyi- nəzərdən tədqiq edilmişdir. Bu məqalədə isə məsnəvinin dilində işlədilmiş müasir Azərbaycan dili üçün arxaik hesab edilən sözlərin izahı verilmişdir.

Məqalədə arxaik sözlərlə yanaşı, Azərbaycan dilinin müasir imla qaydaları baxımından nəzərə çarpan XIII əsrə məxsus dil hadisələri də araşdırılmışdır.

Belə nəticəyə gəlmək olar ki, "Dastani- Əhməd Hərami" işlədilən arxaik sözlərin bir qismi dilin aktiv fondundan çıxsa da başqa türk dillərində, eyni zamanda dialekt və şivələrimizdə öz işləkliyini saxlamaqdadır.

"DASTANİ- ƏHMƏD HƏRAMİ" ƏSƏRİNDƏ İŞLƏDİLMİŞ BƏZİ ARXAİZMLƏR HAQQINDA

Xülasə

"Dastani- Əhməd Hərami" XIII əsr ana dilində yazılmış epik şeir nümunəsidir. Məqalədə "Dastani- Əhməd Hərami" məsnəvisinin dilində işlədilmiş müasir Azərbaycan dili üçün arxaik hesab edilən *nəsnə, bitik, ayıtmaq, us, əsən, altun, xub, tapu, uş, dün, xod, yörə, düş, bünyad* və s. kimi sözlərin təhlili verilmişdir.

Poemada işlədilmiş arxaik sözlər əsərə üslubi çalar qatmış və onun dilini zənginləşdirməyə xidmət etmişdir. Əsərin dilindəki sözlərin böyük bir qismi qədim Azərbaycan sözləridir. Bu sözlər orta əsr klassik ədəbi dil üçün işləklik xarakteri daşısa da çağdaş Azərbaycan dili üçün köhnəlmiş hesab olunur. "Dastani- Əhməd Hərami"nin dilindəki qədim Azərbaycan sözləri özündən əvvəlki və sonrakı yazılı abidələrdə, türkdilli qaynaqlarda, dilimizin dialekt və şivələrində özünü göstərir.

Eyni zamanda, məqalədə arxaik sözlərlə yanaşı, Azərbaycan dilinin müasir imla qaydaları baxımından snəzərə çarpan dəyişikliyə məruz qalmış XIII əsrə məxsus dil hadisələri də araşdırılmışdır.

Məqalədə "Dastani- Əhməd Hərami"poemasında. Qeyd olunan sözlərin XIII əsirdə işlədilmə formaları, müasir dövürdə mənaları və yazılış şəkilləri izah olunmuşdur.

Açar sözlər: Dastani- Əhməd Hərami, məsnəvi, arxaizmlər, təhlil

ABOUT SOME ARCHAISMS USED IN THE WORK "DASTANI-AHMAD HARAMI"

Summary

Dastani-Ahmad Harami is an example of an epic poem written in the native language of the 13th century.

The article analyzes the words archaic for modern Azerbaijani language used in the language of "Dastani-Ahmad Harami" masnavi, such as object, bitik, ayitmaq, us, esen, altun, khub, tapu, ush, dun, hod, yora, dush, bunyad.

At the same time, in addition to archaic words, the article examines the linguistic events of the XIII century, which have undergone significant changes in terms of modern spelling rules of the Azerbaijani language. The archaic words used

in the poem added a stylistic tone to the work and served to enrich its language. Most of the words in the language of the work are ancient Azerbaijani words.

Although these words are functional for the medieval classical literary language, they are considered obsolete for the modern Azerbaijani language.

The ancient Azerbaijani words in the language of "Dastani-Ahmad Harami" are reflected in the written monuments before and after it, in Turkic-language sources, in the dialects and accents of our language.

Keywords: Dastani- Ahmad Harami, masnavi, archaisms, analysis

ПРО НЕКОТОРЫЕ АРХАИЗМЫ ИСПОЛЬЗОВАННЫЕ В «ДАСТАНИ-АХМЕД ХАРАМИ»

РЕЗЮМЕ

«Дастани-Ахмед Харами» является примером стихотворения, написанного на родном языке. В статье разобраны слова *bitik, ayıtmaq, us, əsən, altun, uş, dün, xod, yörə, düş, bünyad* , использованные в двустишье «Дастани-Ахмед Харами», которые считаются архаичными для современного азербайджанского языка.

Использованные в поэме архаичные слова добавили ей специфичные оттенки и обогатили её. Большая часть слов, использованных в поэме являются древними азербайджанскими словами. Несмотря на то что в период средневековья данные слова использовались в классическом литературном языке, для современного азербайджанского языка данные слова являются устаревшими. Древние азербайджанские слова, использованные в «Дастани-Ахмед Харами» встречаются в старинных памятниках, тюркоязычных источниках, в диалектах нашего языка.

Вместе с архаичными словами в произведении также расследуются процессы XIII века, в котором наблюдаются изменения, которым были подвергнуты правила правописания в современном азербайджанском языке.

В статье были разъяснены правила использования указанных слов в XIII веке, значение и правописание данных слов в современное время.

Ключевые слова: Дастани-Ахмед Харами, двустишье, архаизмы, анализ

ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan dilinin izahlı lüğəti: 4 cilddə I c., Bakı: “Şərq-Qərb”, 2006, 792s.
2. Azərbaycan klassik ədəbiyyatından seçmələr, 3 Cilddə, I cild VII- XIII əsr Azərbaycan şeiri, Bakı: “Şərq- Qərb”, 2005 , 214 s.
3. Azərbaycan dilinin dialektoloji lüğəti, A-Z, Bakı: “Şərq- Qərb”, 2007,566s.

4. Cəfərov S., Müasir Azərbaycan dili, Bakı: “Şərq- Qərb”, 2007 ,191s.
5. Dastani- Əhməd Hərami, Bakı: “Şərq- Qərb”, 2004, 119s.
6. Əhmədov B., Etimologiya lüğəti, Bakı: “Altun kitab”, 2017,287s.
7. Həsənov H., Müasir Azərbaycan dilinin leksikası, Bakı: “Maarif”, 1988. 306 s.
8. Kaşğari M. Divanü- luğati-it-türk, 4 cilddə, Bakı: “Ozan”, 2006
9. Məmmədov E., “Biologiya” dərs vəsaiti, Bakı: “Letterpress” Nəşriyyatı, 2019
10. Türk Dil Kurumu, Türkçe sözlük, 10. Baskı, Ankara, 2005.
11. Tanrıverdi Ə. Azərbaycan dilinin tarixi qrammatikası, Bakı: “Elm və təhsil”, 2014, 463s.
12. Будагов Л.З. Сравителный словар турецко-татарских наречий Т.2, Санкт-Петербург, 1871, 415 с

Redaksiyaya daxil olma tarixi: 18.05.2022
Çapa qəbul olunma tarixi: 07.06.2022
Rəyçi:professor Mübariz Yusifov
tərəfindən çapa tövsiyə olunmuşdur

VÜSALƏ HƏSƏNOVA
Azərbaycan Dillər Universiteti,
ADPU Şəki filialı, "Dillər və onların tədrisi texnologiyası"
kafedrasının baş müəllimi
M.Ə.Rəsulzadə, 305
vusalahasanova1986@gmail.com

KVK HECA MODELİNDƏ KOMPONENTLƏRİN ZAMAN PARAMETRİNİN EKSPERİMENTAL-FONETİK TƏHLİLİ
(ingilis və Azərbaycan dillərinin materialları əsasında)

XÜSALƏ

Dil səslərinin akustik səciyyəsinin müəyyənləşdirilməsində zaman parametri mühüm yer tutur, çünki danışıq axınında hər bir seqmentin artikulyator-fonasiyasının reallaşması üçün müəyyən səslənmə kəsiyinə, yəni uzunluğa malik olur. Dil səslərinin statistik-kəmiyyət xarakteristikası onların reallaşmasının fonetik xüsusiyyətlərinin öyrənilməsinin əsas tərkib hissəsidir.

Eksperimentin yekununda məlum olur ki, akustik nəticələr hər iki dildə müntəzəm təkrarlanan hadisələrin olduğunu əks etdirir. Hər iki dildə KVK tipli hecalarda bütün hecanın uzunluğuna postvokal samitin təsiri güclüdür. Bu mövqedə samitlərin mütləq qiyməti prevokal mövqedəki samitin zaman parametrini üstələyir. Hər iki dildə KVK tipli heca strukturlarında postvokal samitlərdə maksimum uzunluq sonantlar qrupuna və novlu samitlər üçün xarakterikdir. Deməli, hər iki dildə hecanın mövqe zaman variativləşməsi, bir qayda olaraq, postvokal samitlərin uzanması hesabına baş verir.

Hər iki dildə KVK tipli heca strukturlarında mütləq başlanğıcda kar və cingiltili samitlər uzunluq göstəricilərinə görə fərqlənirlər, yəni kar samitlər cingiltili korrelyatlarına nisbətdə uzundur. Qarşılaşdırılan dillərdə novlu samitlərin: /f, v, z, s, ʃ, θ, ʒ, ð/ korrelyatları heca strukturunda mövqeyindən asılı olaraq variativləşir. Novlu samitlər (kar və ya cingiltili) üçün maksimum uzunluq qiymətləri söz sonluğundakı fonetik mövqedə xarakterik əlamətdir.

Açar sözlər : *fonem, fonoloji vahid, fonem birləşmələri, samitlər qrupu, nitq, fonotaktika, müddət*

Fonem sistemi dilin səs tərkibi ilə eyniyyət təşkil etmir. Fonem müəyyən artikulyator-eşitmə ümumiliyinə malik, fiziki cəhətdən oxşar, lakin söz strukturunda müxtəlif fonetik mövqelərdə işlənən səslərin sinfini təmsil edir. Eyni bir fonem onun sözdəki mövqeyi ilə şərtlənmiş artikulyator-akustik fərqliliklərlə səciyyələnən variantlarda reallaşır.

Sözün fonetik strukturu olduqca mürəkkəb törəmədir və onun bu və ya digər fonetik-fonoloji cəhətləri eyni səviyyədə tədqiq edilməmişdir. Sadalanan problemlər

arasında sözün fonem tərkibi nisbətən geniş araşdırılmış sahələrdən biridir. Sözün fonem strukturu, daha dəqiqi, fonotaktik xüsusiyyətləri sistemli və təfərrüatlı təhlilə cəlb edilməmişdir. Sözün fonetik strukturu dedikdə, adətən sözdə fonemlərin və fonem birləşmələrinin distribusiyası nəzərdə tutulur. Sözün fonem strukturu fonem tərkibini (kəmiyyətini), onların paylanmasını və mümkün fonem birləşmələrini əhatə edir. Fonem birləşmələri konkret dil üçün xarakterik xətti ardıcıllıqları təmsil edir. Ayrı-ayrı dillərdə fonem birləşmələrində ümumi kombinator modellər olduğu kimi, onların hər birinə xas spesifik fonem birləşmələri də vardır. Bu faktı nəzərə alan N.S.Trubeskoyun yazırdı ki, "*...fonemlərin birləşmə qaydaları hər bir dilə xüsusi möhür vurur. Birləşmə qaydaları aid olduğu dili onun fonem tərkibindən az xarakterizə etmirlər*" [1, s. 320; 2, s. 284].

Dilin fonoloji təsviri fonemlər sisteminin və dilin fonotaktik strukturunun təsvirini özündə birləşdirir. Dildəki fonemlərin sintaqmatik münasibətlərini öyrənilməsi onun fonem inventarının, fonoloji sistemin reallaşma imkanlarının təyin olunmasında mühüm mərhələdir. V.M.Solnsevin yazdığı kimi, "*...dil vahidlərinin kombinator qabiliyyəti dilin ümumsistem fundamental xüsusiyyətləri ilə şərtlənmiş ümumi və vacib xüsusiyyətidir. Dil vahidlərinin fundamental xüsusiyyətlərinə aid hieraxiklik və xəttilik kombinatorikanın reallaşmasını şərtləndirir*" [3, s. 268].

Fonemlərin sintaqmatikada birləşmə qanunları və modelləri yetərincə sabit xarakterli olsalar da, dillərarası əlaqələrin intensivliyi bəzən müəyyən dəyişmələrə səbəb ola bilir. Dilin fonoloji biçiminin təsvirində yalnız paradiqmatik münasibətlərinin araşdırılmasına əsaslanmaq düzgün deyildir. F.Y.Veysəllinin fikrincə, "*paradiqmatikada fonemlərin qarşılaşması fərqləndirici əlamətlərə əsaslandığı halda, sintaqmatikada fonemin fərqləndirici əlamətləri ilə yanaşı, inteqral əlamətləri də daxildir*" [4, s. 223].

Fonem strukturu sözdəki hecaların sayını təyin edir. Bunu onunla izah etmək olar ki, hecanın yaranması səslərin birləşməsindən, tələffüz üzvlərinin gərginliyinin müəyyən qaydada paylanmasından asılı olaraq baş verir. Məsələn. müasir ingilis dilində hecanın dörd tipi vardır: 1) saf heca (bir saitdən ibarət heca, məsələn, or, I); 2) tam qapalı heca (samitlərin əhatəsindəki bir saitdən ibarət heca, məsələn, cup, strong); 3) ötrülü (başlanğıcda bir və ya bir neçə samitin cəmləşdiyi heca, məsələn, sea, straw); 4) qapalı heca (bir və ya bir neçə samitlə bitən heca, məsələn, at, acts).

Fonetik baxımdan hecanı danışıqda müəyyən akustik və artikulyator əlamətlərlə səciyyələnən seqment və supraseqment vahidlərin vəhdətindən yaranmış ən kiçik kvazistasionar strukturdur. Təbii dil fonemlərin danışıq aktında tələffüz məxrəclərinin təsiri altında dəyişmələrə məruz qalan heca strukturlarını strukturlaşdıran fonotaktik qaydalara malikdir. R.K.Potapovanın anlamında, "*...heca aksent-ritmik strukturların, yəni söz vurğusunun reallaşdığı ən kiçik vahiddir*" [5, s. 179].

Hecanı sırf linqvistik mahiyyətdə nəzərdən keçirən dilçilər onu fonotaktika qanunları ilə müəyyənləşdirməyə çalışırlar. Bu isə hecanın həcmi və sərhədinin təyin edilməsi, kontinuumun hecaya üzvlənməsində fonotaktik qaydaların müəyyən-

ləşməsinə gətirib çıxarır. Dillər üçün universal fonotaktik təsvir modellərinin tapılmasının vacibliyinə önəmsiyən E. Palqremin fikrincə, "*heca bütün dillərin əməliyyat vahididirsə, onda o həm də universal dil vahididir*" [6, s. 39]. Əlavə edək ki, E. Palqrem hecanın dil vahidlərinin seqmentasiyasından başqa, hər hansı bir xüsusi funksiyasının olmasını israrla inkar edirdi: "*heca faktiki olaraq yalnız özünün xüsusi sərhədləri naminə mövcuddur*" [6, s. 40].

Heca sintaqmatikaya aiddir və danışığın hecaya üzvlənməsinin ayrı-ayrı dillərdə fərqlidir. F.Y.Veysəlli hecanı fonemlərin ilkin reallaşdığı meydan adlandırır və bəzi dilçilərin səhvən onu fonoloji vahid adlandırmasına münasibət bildirərkən yazır ki, "*...heca prosodiyanın ən kiçik vahididir və o, heç bir fonoloji əhəmiyyət kəsb etmir*" [7, s. 200].

Əksər ingilis dilçiləri (N.A.Kurat [8]; P.Rouç, [9] J. O'Konor [10] üçün heca fonoloji vahiddir. Fonoloji hecanın funksional planda rəngarəngliyi onu supraseqment və seqment səviyyələr arasında aralıq mövqe tutduğu iddia edilir.

Heca, bir tərəfdən, seqment vahidlərdən – fonemlərdən təşkil olunur, çünki hecadan kənarda fonemlər reallaşa bilməzlər. Digər tərəfdən, sözlər hecalardan təşkil olunurlar. Sözlərin əksər hissəsi hecalar üzvlənir və bu vurğulu və vurğusuz hecaların növbələşməsi sayəsində baş verir. Hecaların müəyyən tərkibi, sayı və birləşmələri sözün tam təşkilini formalaşdırır.

Sintaqmatik ardıcıllıqda reallaşan fonemlər danışıq zəncirində koartikulyasiyaya məruz qalırlar. Müxtəlif heca modellərində fonemlərin məqruz qaldıqları modifikasiyaları müəyyənləşdirmək üçün ingilis və Azərbaycan dillərindən əsasən bir hecalı -KVK modeli üzrə sözlər seçilmiş və "PRAAT" kompüter proqramında akustik təhlilə cəlb edilmişdir.

Dil materialını seçərkən hər iki dildə rast gəlinən heca modelləri əsas götürülmüşdür ki, bu da sonda alınmış akustik nəticələri tutuşdurmağa imkan verir. Dil materialını seçilməsində həm də kar və cingiltili samitlərin kombinator və fonetik mövqedən asılı olaraq variativləşmə imkanları da nəzərə alınmışdır.

İngilis dilindəki KVK strukturlu birhecalı *"*bead" /bi:d/ (muncuq), "beat" /bi:t/ (vurmaq) sözlərində eyni fonetik mövqedə işlənən /d/ və /t/ samitlərində fərqli zaman parametrləri qeydə alınmışdır. *"*bead" sözünün ümumi səslənmə müddəti 779 m/san, "beat" sözünün isə ümumi səslənməsi 890 m/san-dir. İngilis dilindəki "bead" sözündə mütləq sonluqdakı /d/ samitinin uzunluğu 176 m/san, "beat" sözündə həmin mövqedəki /t/ samitinin mütləq zaman qiyməti 277 m/san-dir. /d/ və /t/ samitlərinin mütləq zaman qiymətlərinin müqayisəsi sonuncuda zaman sərfinin 101 m/san çox olduğunu göstərir (bax: ossilloqram 3.1b. 1).

Ossilloqramlar 3.1b.1.

İngilis dilindəki "bead" və "beat" sözlərinin ossilloqramları



Analoji zaman parametrləri ingilis dilindəki "deed" /di:d/ (hərəkət), "deep" /di:p/ (dərin) sözlərində də müşahidə olunur. "deed" sözündə /d/ cingiltili kipləşən-partlayışlı samitin zaman göstəricisi 194 m/san, "deep" sözündə /p/ samitinin zaman göstəricisi 293 m/san-dir. Sözlərin hər birinə sərf olunan ümumi zaman isə 836 m/san : 900 m/san nisbətindədir. "deed" sözünün başlanğıcında /d/ samitinin tələffüzünə 61 m/san sərf edilmişdir. Akustuk göstəricilərdən də göründüyü kimi, /d/ samiti üçün maksimum zaman sərfi sözün mütləq sonluğudur. /d/ və /p/ samitlərinin mütləq tələffüz müddətinin müqayisəsi kar samitdə çox olduğunu – 99 m/san əks etdirir (bax: ossilloqram 3.1 b. 2).

Ossilloqramlar 3.1b.2.

İngilis dilindəki "deed" və "deet"sözlərinin ossilloqramları



İngilis dilindəki "food" /fʊ:d/ (qida), "foot" /fʊ:t/ (ayaq) sözlərində cingiltili kipləşən/partlayışlı /d/ samitində zaman göstəricisi 204 m/san, "foot" sözündəki onun kar qarşılığında isə bu göstərici 295 m/san-dir. /d/ və /t/ samitlərinin zaman parametrinin göstəricilərinə istinadən sonuncunun nisbətən uzun səsləndiyini – 91 m/san demək olar. Sözlərin hər birinə sərf olunan ümumi zaman isə 876 m/san : 928 m/san nisbətindədir (bax: ossilloqram 3.1 b. 3).

Ossilloqramlar 3.1b. 3.

İngilis dilindəki "food" və "foot"sözlərinin ossilloqramları



Təhlil olunan sözlərdə eyni fonetik mövqedə işlənən kar kipləşən-partlayışlı samitlərin orta zaman göstəricisi 298 m/san-yə olduğu halda, onların cingiltili ekvivalentlərində orta zaman qiyməti 178 m/san-dir, yəni 63% : 37 % nisbətindədir. Alınmış zaman göstəricilərinə istinadən kar kipləşən-partlayışlı samitlərin uzun səsləndiyini demək olar.

İngilis dilindəki "bed" /bed/ (çarpayı), "bit" /bit/ (hissəcik) sözlərində samitlər üzrə zaman göstəriciləri aşağıdakı ardıcıllıqda reallaşmışdır: 58 m/san – 164 m/san və 62 m/san – 198 m/san. "dog" /dɒg/ (it), "dot" /dɒt/ (nöqtə) sözlərində zaman parametri birinci sözdə 64 m/san – 139 m/san, ikinci sözdə 84 m/san – 243 m/san nisbətində qeydə alınmışdır. Təhlil olunan sözlərdə /d/ və /g/ cingiltili samitlərin

zaman göstəricisini kar ekvivalenti ilə müayisədə xeyli azdır. /d/ və /t/ samitlərində zaman parametrini aşağıdakı nisbətdə vermək olar: 164 m/san : 139 m/sas : 220 m/san (bax: ossilloqram 3.1 b. 4).

Ossilloqramlar 3.1b. 4.

İngilis dilindəki "dog" və "dot"sözlərinin ossilloqramları



Ossilloqrafik təhlil olunan "fin" /fin/ (üzgəc), "fit" /fit/ (huşunu itirmək) sözlərində zaman parametri birinci sözdə 72 m/san – 176 m/san, 112 m/san – 208 m/san ölçüsündə qeydə alınmışdır. "lid" /lid/ (qapaq), "lip" /lip/ (dodaq) sözlərində zaman parametri birinci sözdə 118 m/san – 156 m/san, 121 m/san – 267 m/san-dir. Mütləq zaman qiymətlərinə istinadən maksimum zaman sərfinin /t/ kar samitində qeydə alındığını demək olar (bax: ossilloqram 3.1 b. 5).

Ossilloqramlar 3.1b. 5.

İngilis dilindəki "lid" və "lit"sözlərinin ossilloqramları



İngilis dilindəki "wed" /wed/ (nişanlamaq), "wen" /wen/ (zob) və "wet" /wet/ (nəm) sözlərində zaman parametri birinci sözdə 99 m/san–144 m/san, 128 m/san – 115 m/san, 109 m/san –272 m/san ölçüsündə qeydə alınmışdır. Təhlil olunmuş bu sözlərdə də maksimum zaman sərfi /t/ kar kipləşən-partlayışlı samitinə təsadüf edir.

Ossilloqrafik təhlil olunan sözlərdə eyni fonetik mövqedə reallaşan kar kipləşən-partlayışlı samitlərin - /t/, /p/ mütləq zaman parametrinin göstəricisi cingiltili kipləşən-partlayışlı samitlərin - /d/, /g/ mütləq zaman parametrini xeyli üstələyir. Söz strukturunda mütləq sonluqda reallaşan /n/ sonor samiti kipləşən-partlayışlı kar və cingiltili samitlərlə müqayisədə aşağı uzunluq qiyməti nümayiş etdirir.

Təhlil olunan sözlərdə eyni fonetik mövqedə işlənən kar, kipləşən-partlayışlı samitlərin orta zaman göstəricisi 237 m/san-yə olduğu halda, onların cingiltili ekvivalentlərində orta zaman qiyməti 149 m/san-dir, yəni 61%:39 % nisbətindədir. Qeyd edək ki, ingilis dilində kipləşən-partlayışlı və novlu, kar və cingiltili samitlərin əsas fərqləndirici əlaməti kimi səslənmənin uzunluğu çıxış edir: kar samitlər cingiltili korrelyatları ilə müqayisədə daha uzun səslənirlər. Ümumilikdə təhli olunan sözlərdə kar samitlərin zaman parametri cingiltili samitlərin zaman parametrini üstələyir.

Azərbaycan dilindəki KVK tipli heca moddelli sözlərin ossolloqrafik təhlilindən aşağıdakı nəticələr əldə edilmişdir. Qeyd edək ki, eksperimentə cəlb olunmuş sözlərdə ayrı-ayrı samitlərin fonetik mövqeləri maksimum dərəcədə yaxınlaşdırılmış-

dır. Məsələn, “bar”, “bağ”, “tar, “tağ”, “nar”, “nal”, “fal”, “sar” və “sağ” sözlərində mütləq başlanğıcda reallaşan samitlər /a/ saitindən əvvəl mövqedə götürülmüşlər. Bu isə ayrı-ayrı samitlərin eyni fonetik mövqedə zaman parametrini müəyyənləşdirməyə imkan verir. “Bar”, “bağ” sözlərində /b/ samitinin tələffüzünə sərf olunmuş mütləq orta qiyməti 59 m/san. “Tar” və “tağ” sözlərində onun kar ekvivalentində uzunluq qiymətləri 106 m/san-dir. Həmin sözlərdəki /ğ/ samitinin mütləq orta qiymət 123 m/san, /r/ sonor samitində isə 142 m/san-dir. Akustik təhlilin nəticələri kar samitlərin mütləq zaman qiymətlərinin bütün mövqelərdə cingiltili samitlərin mütləq zaman qiymətlərini üztələdiyini əks etdirir (bax: ossilloqram 3.1b.6; 3.1b.7).

Ossilloqramlar 3.1b. 6.

Azərbaycan dilindəki “bar” və “bağ” sözlərinin ossilloqramları



Ossilloqramlar 3.1b. 7.

“tar” və “tağ” sözlərinin ossilloqramları



Azərbaycan dilindəki “nar” və “nal” sözlərinin mütləq başlanğıcındakı /n/ sonor samitində zaman parametri 98 m/san, “sar” və “sağ” sözlərində eyni fonetik mövqedəki /s/ kar, novlu samitinin mütləq zaman qiyməti 218 m/san-dir. “nar” və “sar” sözlərinin mütləq sonundakı /r/ samitinin mütləq uzunluq göstəricisi 142 m/san-dir. “nal” və “fal” sözlərinin sonunda /l/ samiti 90 m/san uzunluğunda qeydə alınmışdır. Rəqəmlərə istinadən demək olar ki, mütləq başlanğıcda /s/ samitinin zaman parametri /n/ sonor samitinin analoji parametrini hissolunacaq dərəcədə üstələyir – 120 m/san. Söz strukturunda mütləq sonluqdakı /r/ titrək və /l/ süzülən samitlərinin zaman parametrlərinin müqayisəsi zaman sərfinin /r/ samitində çox olduğunu əks etdirir.

“bir”, “büt”, “buz”, “bel” sözlərində /b/ samitinin orta tələffüz sürəti 60 m/san, “fal”, “fil”, “feil”, “fər” sözlərində /f/ samitinin mütləq orta uzunluğu 158 m/san, “sər”, “səs”, “süd”, “sol”, “siz”, “sel” sözlərində isə 226 m/san-dir. “kol”, “kəl”, “küt” sözlərində /k/ samitinin orta səslənmə müddəti 123 m/san-dir. /b/, /f/ və /s/ samitlərinin söz strukturunda mütləq başlanğıcda reallaşan variantlarında zaman fərqi aşağıdakı intervallarda qeydə alınmışdır: 60 m/san : 158 m/san : 226 m/san (bax: ossilloqram 3.1b. 8).

Ossilloqramlar 3.1b.8.
Azərbaycan dilindəki "bel" və "sel" sözlərinin ossilloqramları



Azərbaycan dilindəki "tir", "tum" və "tel" sözlərində /t/ samitinin mütləq orta qiyməti 102 m/san-dir. "şüt" və "şum" sözlərində /ş/ samitinin orta mütləq qiyməti 245 m/san-dir. "pir", "nər" və "qum" sözlərində başlanğıcındakı samitlərin zaman parametri müvafiq olaraq aşağıdakı rəqəmlərlə ifadə olunmuşdur: /p/ - 98 m/san, /n/ - 97 m/san, /q/ -61 m/san. "hil", "mil", "gol","jel" sözlərinin mütləq başlanğıcında /h/ samitinin mütləq qiyməti 68 m/san, /m/ samitinin uzunluğu 107 m/san, /g/ samitinin həmin parametri 62 m/san, /j/ samitinin mütləq uzunluğu 74 m/san-dir. Bu sözlərin mütləq sonundakı /l/ samitinin orta mütləq qiyməti 107 m/san-dir. Ossilloqrafik təhlil olunmuş sözlərdə /t/, /ş/ samitlərində zaman sərfinin sonuncuda çox olduğunu üzə çıxarır – 143 m/san.

Ümumilikdə KVK tipli heca modellərində mütləq sonluqdakı /r/ samitinin orta mütləq qiyməti 127 m/san-dir. Təhlil olunan sözlərin mütləq sonundakı /l/ samitinin orta mütləq qiyməti 101 m/san-dir. Söz sonundakı /Y/ samitinin mütləq orta qiyməti 123 m/san-dir. Zaman qiymətlərindən məlum olur ki, söz sonunda maksimum zaman sərfi /r/ samiti üçün xarakterikdir – 127 m/san. Mütləq başlanğıcda maksimum zaman sərfi /ʃ/ samitinə məxsusdur – 245 m/san. Nisbətən aşağı zaman göstəricisi isə /s/ samitində qeydə alınmışdır -226 m/san.

Vusala Hasanova

EXPERIMENTAL-PHONETIC ANALYSIS OF TIME PARAMETERS OF COMPONENTS IN CVC SYLLABLE MODEL
(based on materials of English and Azerbaijani languages)

SUMMARY

The time parameter plays an important role in determining the acoustic characteristics of language sounds, because in the speech flow, each segment has a certain sound interval, in length, for the realization of articulatory phonation. Statistical and quantitative characteristics of language sounds are a key component of the study of phonetic features of their realization. At the end of the experiment, it became clear that the acoustic results reflect the presence of regular events in both languages. In CVC syllables in both languages, the effect of the postvocal consonant on the entire syllable length is strong. In this position, the absolute value of the consonant exceeds the time parameter of the consonant in the prevocal position. In CVC type syllable structures in both languages, the maximum length in postvocal consonants is characteristic of the group of sonants and in the vowel consonants. Thus, the positional variation of the syllable in both languages occurs, as a rule, due

to the lengthening of postvocal consonants. In CVC-type syllable structures in both languages, voiceless and voiced consonants differ in length at the beginning, that is, voiceless consonants are longer than their voiced correlators. In comparable languages, the correlates of constrictive consonants: / f, v, z, s, ʃ, θ, ʒ, ð / vary depending on their position in the syllable structure. For constrictive consonants (voiced and voiceless), maximum length values are a characteristic feature of the phonetic position at the end of a word.

Key words: *phoneme, phonological unit, phoneme combinations, groups of consonants, speech, phonotactics, duration*

Вусала Гасанова

ЭКСПЕРИМЕНТАЛЬНО-ФОНЕТИЧЕСКИЙ АНАЛИЗ ВРЕМЕННЫХ ПАРАМЕТРОВ КОМПОНЕНТОВ В МОДЕЛИ СЛОГА CVC (по материалам английского и азербайджанского языков)

РЕЗЮМЕ

Параметр времени играет важную роль в определении акустических характеристик звуков языка, так как в речевом потоке каждый отрезок имеет определенный звуковой интервал по длине для реализации артикуляционной фонации. Статистические и количественные характеристики звуков языка являются ключевым компонентом изучения фонетических особенностей их реализации. В конце эксперимента стало ясно, что акустические результаты отражают наличие регулярных событий в обоих языках. В слогах CVC в обоих языках сильно влияние постгласного согласного на всю длину слога. В этой позиции абсолютная величина согласного превышает временной параметр согласного в предголосовой позиции. В слоговых структурах типа CVC в обоих языках максимальная длина у послезвучных согласных характерна для группы сонантов и у гласных согласных. Таким образом, позиционное варьирование слога в обоих языках происходит, как правило, за счет удлинения послезвучных согласных. В слоговых структурах типа CVC в обоих языках глухие и звонкие согласные различаются по длине в начале, то есть глухие согласные длиннее своих звонких корреляторов. В сопоставимых языках корреляты констриктивных согласных: /f, v, z, s, ʃ, θ, ʒ, ð/ варьируются в зависимости от их положения в структуре слога. Для констриктивных согласных (звонких и глухих) максимальные значения длительности являются характерным признаком фонетической позиции в конце слова.

Ключевые слова: *фонема, фонологическая единица, фонемные сочетания, сочетания согласных, звучащая речь, фонотактика, длительность*

Ədəbiyyat:

1.Trubeskoy, N.S. Fonologiyanın əsasları. Almancadan tərcüməsi, “Son söz” və “Qeydlər” prof. F.Veysəllinindir. – Bakı: Mütərcim, - 2012. - 385 s.

2.Трубецкой, Н.С. Основы фонологии / Н.С.Трубецкой. -Москва: Изд-во иностр. лит. - I960. - 372 с.

3. Солнцев, В. М. Язык как системно-структурное образование. В. М.Солнцев . –Москва: Наука, - 1977, - 340 с.

4. Вейсалов, (Вейсялли) Ф.Я. Вариативность гласных фонем современного немецкого языка (экспериментальные данные и теоретические проблемы) / дис. … д-ра филол. наук / Баку: Мутарджим, 2014, - с. 212-522.

5. Потапова Р.К. Речь, коммуникация, информация, кибернетика: учеб. пособие. – 2-е изд., доп. – Москва: Эдиториал УРСС, 2001. – 568 с.

6. Veysəlli, F.V. Dilçiliyə giriş /F.Y.Veysəlli. -Bakı: Mütərcim, - 2017. - 400 s.

7. Kurath, H. A Phonology and Prosody of Modern English/ H.Kurath. – Michigan: The Univ. of Michigan Press, 1964, - 158 p

8. O'Connor J.D., Trim J.L.M. Vowel, consonant and syllable - a phonological definition, Word 9. 1953, p. 103-122.

9. Pulgram E. Syllable, word, nexsus, cursus / E.Pulgram. -The Hague: Paris, Mouton, 1971. – 131 p.

10. Roach, P. Phonetics / P.Roach. -Oxford University Press. Printed in Hong Kong. 2001, -117 p.

Redaksiyaya daxil olma tarixi: 18.05.2022
Çapa qəbul olunma tarixi: 07.06.2022
Rəyçi:Filologiya elmləri doktoru, professor Fəxrəddin Veysəlli tərəfindən çapa tövsiyə olunmuşdur

BAHAR İSMAYILOVA RAMİN
BAAU-nun Ümumi filologiya kafedrasının magistrantı
E-mail:bahar.ismayilova.98@mail.ru
Əlaqə nömrəsi: +994503869358

"KİTABİ-DƏDƏ QORQUD"DA İŞLƏNƏN FEİLİ BAĞLAMA ŞƏKİLÇİLƏRİNİN MÜASİR AZƏRBAYCAN DİLİNDƏ MÜQAYİSƏSİ

Xülasə

Məqalə "Kitabi-Dədə Qorqud" dastanında işlənmiş feili bağlama şəkilçilərinin araşdırılmasına həsr olunmuşdur. Məqalədən aydın olur ki, dastanın yarandığı dövrdə işlənmiş feili bağlama şəkilçiləri müasir Azərbaycan ədəbi dilində də aktiv formada işlənməkdədir. Bu şəkilçilərə nəzər saldıqda müasir Azərbaycan ədəbi dili ilə asanlıqla müqayisə edə bilirik. Qeyd etmək lazımdır ki, bu şəkilçilərin hər biri müasir dilə cüzi dəyişikliklərə uğrayaraq çatmışdır.

Məqalədən də anlaşılır ki, feili bağlama şəkilçilərinin hər biri dastanda nə dərəcə işlək olmuşdur. Buradan da anlamaq mümkündür ki, feili bağlama şəkilçiləri hansı dövrdə yaranmış və şəkilçilər məişət üslubunda və ya ədəbi dildə daha çox aktiv olmuşdur. Ümumiyyətlə, qədim dövrlərdə yazılmış ədəbiyyat nümunələri araşıdırıldıqca şəkilçilərin tarixi inkişaf yolu dilçilərə məlum olur və bununla da bir şəkilçinin yaranması inkişafı, arxaikləşməsi barədə məlumat əldə etmək daha asanlaşır.

Təqdim olunan məqalədən feili bağlama şəkilçiləri haqqında tam məlumat almaq mümkündür. Məqalədə şəkilçilərin işləkliyi, dəyişikliyə uğrama səbəbi, bu dəyişikliklərin mənfi və müsbət tərəfləri, semantikası dəyişmiş və ya genişlənmiş feili bağlamalardan və feili bağlama şəkilçilərindən geniş söz açılmışdır.

Məqalədə olan maraqlı nüanslardan biri də semantikası genişlənmiş feili bağlamaların müasir Türkiyə türkcəsi ilə müqayisəsi və müasir dildə hansı anlamlarda istifadə olunmasından söhbət aparmaqdır.

Açar sözlər: feili bağlama şəkilçiləri, semantika, arxaikləşmə, aktiv şəkilçilər, dəyişmə

Müasir Azərbaycan dilinin qrammatikasına nəzər salsaq, bu gün dilimizdə işlənən bir çox feili bağlama şəkilçiləri ilə tanış ola bilərik. Bizə isə maraqlıdır ki, müasir dövrümüzdə işlənən feili bağlama şəkilçiləri əsrlər əvvəl də bu qədər işlək idimi? Yoxsa bəzi şəkilçilər o dövrdə, ümumiyyətlə, işlənməyib? Dastanı araşdırarkən nümunələri diqqətlə nəzərdən keçirən zaman maraqlı nüanslar ortaya çıxır. Necə ki, "Kitabi-Dədə Qorqud" dastanında feili sifət şəkilçiləri içərisində dıq şəkilçisi aktiv formada istifadə olunubsa, feili bağlama şəkilçiləri də içərisində bir neçə şəkilçi aktiv formada işlənmişdir. Dastanda olan maraqlı şəkilçilərdən biri də -

ıb, -ib, -ub, -ub şəkilçisidir. Bizim bu şəkilçi haqqında yetəri qədər məlumatımız vardır. Dastanı təhlil edərkən bu işarə feili bağlama şəkilçisi kimi, demək olar ki, dastanın hər boyunda bir neçə cümlədə işlənmişdir. Bundan başqa, ıb şəkilçisi müasir Azərbaycan feili bağlama şəkilçisi kimi işlənərkən 3 mənanın ifadə edir. Gəlin, baxaq ki, dastanda bu şəkilçi hansı formada işlənmişdir və şəkilçinin hansı məna növlərindən istidafə olunmuşdur.

Hər nə ki buyursa, qəbul edərlərdi, sözin tutub tamam edərlərdi.[1; 19] Oğlanı həkimlərə ısmarlayub Dirsə xanda saqladılar. [1;səh 33]Gəlün, varalım, , şol yigidi tutub gətürəlim, ikisini bir yerdə kafirə yetürəlim- dedilər. (səh34) Baş endirüb bağır basğıl! [1; 39] Qazan kafirə çağırub soylamış, görəlim, xanım, nə soylamış. [1; 47] Yoldaşlar ilə buta atub oturardı [1; 58] Yügrək atın yügürdüb Qanturalı gürzin gögə atar, enüb yerə düşmədin qarvar-tutar . [1; 107] Pıçaq çıqarıb dərisini yüzdi. (səh 109) Vardılar, Qazanı quyudan çıqarub gətürdilər. [1; 155]

Yuxarıdakı nümunələrin hər birində olan feili bağlamalar feildəki hərəkətin icra tərzini bildirmişdir. Dastanda ıb feili bağlama şəkilçisinin hərəkətin zamanını və səbəbini bildirən növlərinə rast gəlinmir. Buradan bu nəticəyə gələ bilərik ki, dastanın yarandığı, həm də yazıya alındığı dövrdə şəkilçinin ancaq tərz kimi işlənən mənasından istifadə olunmuşdur. Şəkilçinin digər mənaları bildirməsi isə şəkilçinin digər mənalarının sonrakı dövrlərdə yaranmasından xəbər verir.

Buradakı nümunələrdən birində işlənmiş ısmarlayub feili diqqəti cəlb edir. Məlumdur ki, bu feildən müasir Azərbaycan dilində artıq istifadə etmirik, lakin müasir Türkiyə türkcəsində ısmarlamaq feilinin 5 mənası vardır:

1. Bir şeyin edilməsini, ya da gətirilməsini, bu işlərlə məşğul olan birinə söyləmək, sifariş etmək.

2. Pulunu özü ödəyərək başqaları üçün yemək ya da içki gətirilməsini söyləmək.

3. Özü üçün bir şeyin alınmasını başqasına demək.

4. Bir şeyin, bir kimsənin baxılmasını, qorunmasını bir nəfərə əmanət etmək.

5. Bir işin edilməsini, edilməməsini, ya da o işdən imtina edilməsini demək.

Dastanda işlənmiş bu feilin mənası əmanət etmək anlamındadır. Bu o demək deyil ki, həmin dövrdə ismarlamaq feilinin yalnız bir mənasından istifadə olunmuşdur.

Həmçinin bunu da qeyd etmək lazımdır ki, ismarlamaq feilinin müasir Türkiyə türkcəsində semiotikası genişlənərək bir neçə əlavə mənası yaranmışdır.

Dastanda aktiv formada işlənən şəkilçilərdən biri də -andə, -əndə şəkilçisidir. Bu şəkilçilərlə düzələn feili bağlamaların hərəkətin zamanını bildirməsini və hərəkətin əsas feildən əvvəl icra olunmasını bilirik. Dastandan götürülmüş bir neçə cümləyə nəzər salaq:

Yad oğulı saqlamaqla oğul olmaz-böyüyəndə salur gedər, gördim diməz.[1; 19] Ata adın yüridəndə dövlətlü oğul yeg! [1; 20] Ayna güni oquyanda xütbə görkli.[1; 22)]Salqım-salqım dan yelləri əsdigində[1; 24] Qara ölüm gəldigində keçit versün! [1; 36] Qarla yağmur yaqanda çaqmaqlu çoban! [1; 38] Atlas ilə yapılanda gög

sayvanlı! ([1; 120] Ölüm vaqti gəldügində arı imandan ayurmasın! Topuğında sarmaşanda qara saçlum![1; 25]Ağ-ban evim dikiləndə yurdı qalmış, Qarıcıq anam oluranda yeri qalmış.[1; 40]

Böyüyəndə, yüridəndə, oquyanda, əsdigində, gəldigində, yaqanda yapılanda *sözləri feili bağlama nümunələridir. Bu feil nümənələrinin hər biri müasir Azərbaycan dilində aktiv formada işlənməkdədir. Bu feil nümunələri içərisində* ***yapmaq*** *sözü müasir Türkiyə türkcəsində geniş semantik mənaya malikdir. Bu feil müasir Türkiyə türkcəsində 23 mənanı ifadə edir:*

1.Meydana gətirmək, etmək, 2. Olmasına yol açmaq, 3.Bir şeylə məşğul olmaq, 4.Təmir etmək, 5.Həqiqilik mənasını bildirmək, 6.Bir arzunu, bir istəyi yerinə yetirmək, 7. Bir düşüncəni, bir davranışı gerçəkləşdirmək, 8.Nəyisə davamlı bir yola gətirmək, 9. İstehsal etmək, 10.Zərərə yol açmaq, 11. Evləndirmək, 12.Kimisə bir məsləyə yetişdirmək və.s.

Müasir Azərbaycan ədəbiyyatında yapmaq sözündən bir çox yazıçılarımız istifadə etmişdir. Bu feili C.Məmmədquluzadə çörək yapmaq, M.Ə.Sabir yapışdırmaq, H.Cavid etmək, Füzuli tikmək, qayırmaq, mənasında işlətmişdir. Bu feil nümunəsindən ən çox Göyçay dialektində etmək mənasında istifadə olunur.

"Kitabi-Dədə Qorqud" dastanının bütün boylarında geniş formada işlənən -arkən-, ərkən şəkilçisidir. Bu şəkilçi də icra olunan hərəkətin zamanını bildirir. Bu şıkilçi təkcə dastanın yarandığı dövrdə yox, müasir Azərbaycan dilində də geniş şəkildə işlənməkdədir.Azərbaycan dilindən başqa bir çox türk dillərinə diqqət yetirsək, şəkilçinin müxtəlif türk dillərində də işlək olduğunu görərik. Dastanda bu şəkilçi ilə yaranmış feili bağlama nümunəli cümlələrə diqqət edək:

Sarp yürirkən Qazılıq ata naməd yigit binə bilməz, binincə, binməsə, yeg! (səh 20)Dürtişərkən ala göndərin ufanmasun! [1; 36] Gecə yatırkən Qaracıq çoban qara qayğulu vaqiə gördi. [1; 38] Anlar bir yedigində sən iki yegil! [1; 45] Qartaş deyü; saqlayanda yoldaşıma yazıx! [1; 47] Bəzirganlar yatur ikən ğafillə beş yüz kafir qoyıldılar, çapdılar, yağmaladılar.(səh53) Ağ bürçəklü anam "anam" derkən. [1; 89] Bundan yegrəgi yoxdur ki, gözüm görərkən, "Oğul, gəl səni evərəyim!" - dedi. [1; 104] Qaba öykə dib yürükən dartub üzən [1; 11]) Hasar qapusına girmişkən qara polat uz qılıca ənsəsinə eylə çaldı kim, başı tob kibi yerə düşdi. [1; 123] Av avlayu gəzərkən önindən bir yaralu keyik çıqdı. ([1; 137]

Yürirkən, dürtişərkən, yatırkən, yatur ikən, derkən, görərkən, yürükən, girmişkən, gəzərkən *feili bağlama nümunələridir. Bu nümunələr içərisində yatur ikən nümunəsi digərlərindən qrammatik formasına görə bir qədər fərqlənir. Belə ki, bu feili bağlama nümunəsi daha fərqli yolla feilin indiki zamanını düzəldən ur və ikən hissəsici ilə düzləmişdir, həmçinin nümunələr icərisində olan derkən feili bağlaması da ikən hissəsicinin qısaldılmış formasıdır və ikən hissəciyindən fərqli olaraq feilə bitişik yazılmışdır. Dastanda bu tipdə bir neçə feili bağlama nümunəsi olsa da, çox da işlək deyildir. Bu feili bağlama şəkilçisi öz işləkliyini qədim zamanlardan bəri qoruyub saxlamışdır. Burada işlənən derkən feili müasir*

Azərbaycan dilində işlənməsə də, müasir Türkiyə türkcəsində aktiv formada işlənməkdədir. Məs:Bən sana bu sözleri derkən, tam da şunu kasd ediyordum.

Dastanda işələnən aktiv feili bağlama şəkilciləri ilə yanaşı qeyri-məhsuldar olan şəkilçilər də vardır. Həmçinin onu da qeyd edə bilərik ki, bu qeyri-məhsuldar olan feili bağlama şəkilçilərindən elə müasir Azərbaycan ədəbiyyatında az istifadə olunur. Bu şəkilçilərdən biri də -dıqda, -dikdə, -duqda, -dükdə şəkilçisidir. Məlumdur ki, bu şəkilçidən müasir Azərbaycan dilində daha çox ədəbi dildə, televiziyada, radioda istifadə olunur. Nəzərə alsaq ki, "Kitabi-Dədə Qorqud" dastanı bədii üslubda yazılıb, şəkilçinin az işlənmə səbəbini anlaya bilərik. Bu şəkilçi də hərəkətin icrasının zamanını bildirir. Gəlin dastandan götürülmüş aşağıda yazılan bir neçə nümunəyə diqqət edək: Getdikdə yerin otlaqların keyük bilür. [1; 21] Saqallu bozac turğay sayraduqda[1; 24] Bədəvi atlar issini görüb oğradıqda [1; 24] Oğlan anda yıqıldıqda Boz atlu Xızır oğlana hazır oldı, üç qatla yarasın əliylə sığadı. [1; 32] Qarnın doyurduqdan sonra qazanları dəpdi-dökdi, çevirdi. [1; 72] Dəğdikcə böyüdi.[1; 126]

*Burada yazılan **getdikdə, sayraduqda, oğradıqda, yıqıldıqda, doyurduqdan, dəğdikcə** feilləri feili bağlama nümunələridir. Bu nümunələr içərisində sayraduqda feili digər feil nümunələrindən bir qədər fərqlənir. Bu feil nümunəsindən dastanda cəmi bir dəfə istifadə olunmuşdur. Nə "Kitabi-Dədə Qorqud" dastanında, nə də qeyri bir dastanda, nağılda bu sözə rast gəlmək mümkündür. Bu feilin mənası quşun oxumağı, ötməyi mənasını ifadə edir. Bu feili dərindən araşdırmaq üçün digər türk dillərinin izahlı lüğətinə nəzər saldıqda heç birində tapmaq mümkün deyil. Hətta dastanda olan feillərin çoxu müasir Türkiyə türkcəsində olduğu halda, sayramaq feili türk dilində də işlənməmişdir və izahlı lüğətində yoxdur. Burada maraqlı məqam həmin feilin qədim dövrdə, daha dəqiq desək, dastanın yarandığı zaman gündəlik məişət üslubunda işlənib- işlənməməsidir. Qədim türk dilində yazılmış lüğətlərə də nəzər saldıqda bu feilə rast gəlmirik. Bu zaman belə düşünə bilərik ki, bu söz əsl türk sözü deyil, və ya bu fikirlə də razılaşa bilərik ki, sayramaq feili qədim zamanlarda hansısa dialekt və ya şivədə işləndiyi üçün ədəbi dilə daxil ola bilməmiş, zamanla unudulmuşdur.*

Müasir dilimizdə də qeyri-məhsuldar olan -a-a, -ə-ə şəkilçisinə nəzər salaq. Müasir Azərbaycan ədəbi dilində bu feili bağlama şəkilcisi icra olunacaq hərəkətin icra tərzini bildirir. Bu feili bağlama şəkilçisi ilə dastanda cəmi bir neçə yerdə qarşılaşırıq. Həmin nümunələrin bir qisminə diqqət edək:

Yata-yata yanımız ağrıdı, dura-dura belimiz qurıdı, yüriyəlim, a bəglər! [1; 37] Diməz olsan, yana-yana qarğaram, a Qazan, sana! - dedi.[1; 85] Dönə-dönə bir zaman yaxşı savaş eylədi, kafir alam dedi, alamadı. [1; 91] Keçənindən otuz üç aqça alurdı, keçməyənindən dögə-dögə qırq aqça alurdı. [1; 95]

***Yata-yata, dura-dura, yana-yana, dönə-dönə, dögə-dögə** feili bağlama nümunələridir. Bu feillər müasir Azərbaycan ədəbi dili ilə tam uyğunluq təşkil edir. Burada işlənən dögə-dögə feili müasir Azərbaycan ədəbi dilində işlənmir. Bu feilin*

müasir dildə işələnən forması döymək şəklindədir. Dögmək feili isə Bakı dialektində aktiv formada işlənməkdədir.

Dastanda işlənən -Mamış, -məmiş şəkilçisi əsasında yaranmış feili bağlamalı nümunəyə diqqət yetirək: "Mərə çoban! Qarnın acıqmamışkən , gözün qararmamış bu ağacı qoparə gör, yoxsa səni bunda qurtlar- quşlar yer" - dedi.[1; 44] Bu şəkilçi ilə düzələn feili bağlamalar həm icra olunacaq hərəkətin zamanını, həm də daha çox əmr xarakteri təsiri bağışlayır. Müasir Azərbaycan ədəbi dilində işlənən bu nümunəyə diqqət yetirək:

Bahar, bu işi həll etməmiş gözümə görünmə! Nümunənin məzmunundan da hiss olunur ki, hərəkəti icra eləməyə bir məcburiyyət vardır. Bu səbəbdən də bu tərz dastanın məzmununa uyğun gəlmədiyi üçün qeyri-məhsuldar şəkildə işlənməsi ağlabatandır.

İcra olunacaq hərəkətin zamanını bildirən feili bağlamalardan biri də -araq, -ərək feili bağlama şəkilçisidir. Dastanda bu feili bağlama şəkilçisi ilə yaranan cəmi üç feili bağlama vardır. Bu nümunələrə diqqət edək: Dəlü Qarçar səgirdərək vardı, suya düşdi. [1; 60)] Qanlu qoca gedərək gəldi, Oğuza çıqdı. [1; 105] Kafirlər, sağ olanları , qaçaraq təkürə gəldilər. [1; 150]

Səgirdərək, gedərək, qaçaraq *feili bağlama nümunələri içərisində səgirdərək feili bağlaması digərlərindən bir qədər fərqlənir. Bu feili bir qədər araşdıraq. Feilin orijinal forması səyirtmək şəklindədir. Digər sözlərdə olduğu kimi, bu sözdə də y-g əvəzlənməsi baş vermişdir. Bu formada feil dastanda yalnız bir yerdə işlənmişdir. Feilin səyirtmək formasına isə başqa bir dastanda da rast gəlirik. Şahini gəzdirər bəylər qolunda, quşları səyirdər sağü solunda.(Əsli və Kərəm). Daha bir nümunəyə diqqət yetirək: Atımı dördnala səyirdərək mən; Nəhayət boz dağa gəlib yetişdim.(H. Hüseynzadə). Ümumilikdə biz üç nümunəyə diqqət yetirdik. "Kitabi-Dədə Qorqud" dastanındakı cümlədə səyirtmək qaçmaq, Əsli və Kərəm dastanında uçurtmaq, Hüseynzadənin əsərində isə çapmaq mənasını ifadə edir. Bunu da qeyd etmək lazımdır ki, bu sözün müxtəlif sinonim forması dialektimizdə istifadə olunur.Dilimizdə səkmək adlı feil vardır.Sıçramaq, səyirtmək, səkmək sözlərinin hamısı kökdaşdır. Daha maraqlı bir məqam da odur ki, səyirtmək feili müasir Türkiyə türkcəsinin ədəbi dilində qaçmaq mənasını ifadə edir və o dildə günü bu gün də işlənməkdədir. Bu hadisə təkcə səyirtmək feilinə aid deyildir, dastanda işlənən bir çox feil nümunələri müasir Azərbaycan ədəbi dilində işlənməyib arxaikləşsə də, müasir Türkiyə türkcəsində aktiv formada işlənməkdədir.*

Dastanda işlənmiş daha maraqlı bir şəkilçiyə nəzər salaq.-icək, cək şəkilçisi feillərə qoşularaq zaman məhfumu bildirir və icra olunacaq hərəkətin zamanını bildirir. Maraqlı məqam ondadır ki, bu şəkilçidən müasir Azərbaycan dilində istifadə olunmur. Gəlin, şəkilçinin harada işlənmə məqamlarına diqqət edək. Biz bu şəkilçiyə dastanda cəmi bir neçə yerdə rast gəlirik. Dastanda olan nümunələrə nəzər salaq:

Bunlar böylə edicək Baybörə bəgin acığı tutdı[1; 55] Bunı eşidicək qırq yigit ağlaşdılar. [1; 108]

Edicək, eşidicək *feili bağlama nümunələridir. Bu şəkilçi vasitəsilə düzəlmiş, Azərbaycan ədəbiyyatında istifadə edilmiş bir neçə feili bağlama işlənmiş əsərlər vardır. Məs: Keşikçi yaxına gəlcək Telli xanım onun təpəsindən bir əmud ilişdirib öldürdü. (Koroğlu), Səni görcək özün soxar içəri, Tünd olub, qapını bidəmaq çəkər. [5] Bu nümunələrdən də bir daha aydın olur ki, bu şəkilçidən yalnız bədii üslubda istifadə olunmuşdur. Belə qənaətə gələ bilərik ki, bu şəkilçi keçmişdən bəri xalqın dilində yalnız bir neçə regionda işlənmişdir. Dastan ərsəyə gələrkən xalq dilinə müraciət olunmuş və şəkilçidən istifadə olunmuşdur. Eləcə də "Koroğlu" dastanı, Q. Zakirin dilində də bir daha xalq dilinə müraciət olunub və şəkilçidən hadisəni daha rəngli, daha fərqli çalarda təqdim etmək üçün istifadə olunmuşdur. Əgər şəkilçinin günümüzdə işləkliyinə nəzər salsaq, bu zaman şəkilçidən həm Azərbaycanın, həm Türkiyənin bəzi dialekt və şivələrində işləndiyinin şahidi olarıq. Rəsmi olaraq isə bu şəkilçi bu gün müasir Azərbaycan ədəbi dilində yoxdur və işlənmir.*

Ədəbiyyat

1. "Kitabi -Dədə Qorqud" dastanı. Bakı: Öndər Nəşriyyat, 2004, 376 səh.
2. Azərbaycan dilinin izahlı lüğəti.Bakı "Şərq-Qərb" 2006
3. Azərbaycan dilinin dialektoloji lüğəti. Bakı. "Şərq-Qərb. 2007. səh 566
4. "Koroğlu" dastanı.Bakı "Lider Nəşriyyat".2005 552 səh
5. Q.Zakir. Seçilmiş əsərləri. Bakı Avrasiya press 2005. 201 səh
6. Azərbaycan dilinin orfoqrafiya lüğəti. Bakı. "Lider Nəşriyyat" 2004. 728 səh

B.Ismayilova

COMPARISON OF THE VERB CONJUGATORS IN "KITABI-DADA KORGUD" IN MODERN AZERBAIJANI LANGUAGE

SUMMARY

The article is devoted to the study of verb conjugation suffixes used in the epos "Kitabi-Dada Gorgud". It is clear from the article that the verb conjugation suffixes developed at the time of the creation of the saga are also actively used in the modern Azerbaijani literary language. When we look at these suffixes, we can easily compare them with the modern Azerbaijani literary language. It should be noted that each of these suffixes has undergone minor changes to the modern language.

It is also clear from the article how active each of the verb conjugation suffixes was in the saga. From this it is possible to understand when the suffixes of the verb conjugation appeared and when the suffixes were more active in everyday style or literary language. In general, the study of examples of literature written in ancient times reveals the historical development of suffixes to linguists, and thus it is easier to obtain information about the development and archaic origin of a suffix.

It is possible to get full information about verb conjugation suffixes from the presented article. The article discusses the function of suffixes, the reason for the

change, the pros and cons of these changes, the semantics of the changed or expanded verb conjugations and verb conjugation suffixes.

One of the interesting nuances in the article is the comparison of verb conjugations with expanded semantics with modern Turkish and the meaning of their use in modern language.

Keywords: verb conjugation suffixes, semantics, archaicization, active suffixes, change

СРАВНЕНИЕ СПРЯЖЕНИЙ ГЛАГОЛА В «КИТАБИ-ДАДА КОРГУД» В СОВРЕМЕННОМ АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЕ

РЕЗЮМЕ

Статья посвящена изучению суффиксов спряжения глаголов, используемых в эпосе «Китаби-Деде Горгуд». Из статьи видно, что суффиксы спряжения глаголов, выработанные во время создания саги, активно используются и в современном азербайджанском литературном языке. Когда мы смотрим на эти суффиксы, мы легко можем сравнить их с современным азербайджанским литературным языком. Следует отметить, что каждый из этих суффиксов претерпел незначительные изменения в современном языке.

Из статьи также видно, насколько активен был в саге каждый из суффиксов спряжения глаголов. Отсюда можно понять, когда появились суффиксы глагольного спряжения и когда суффиксы были более активны в бытовом стиле или литературном языке. В целом изучение образцов литературы, написанной в древности, открывает лингвистам историческое развитие суффиксов, и таким образом легче получить сведения о развитии и архаическом происхождении суффикса.

Полную информацию о суффиксах спряжения глаголов можно получить из представленной статьи. В статье рассматриваются функции суффиксов, причина изменения, плюсы и минусы этих изменений, семантика изменившихся или расширенных глагольных спряжений и глагольных спряжений суффиксов.

Одним из интересных нюансов в статье является сравнение спряжений глаголов с расширенной семантикой с современными турецкими и значение их употребления в современном языке.

Ключевые слова: суффиксы глагольного спряжения, семантика, архаизация, активные суффиксы, изменение.

Redaksiyaya daxil olma tarixi: 18.05.2022
Çapa qəbul olunma tarixi: 07.06.2022
Rəyçi: filologiya elmləri doktoru, professor Həcər Hüseynova tərəfindən çapa tövsiyə olunmuşdur

MAHMUDAĞA QASIMOV
ADPU Cəlilabad filialı
qasimov@mail.ru

CƏLİLABAD RAYONU ŞİVƏLƏRİNDƏ SAİT ƏVƏZLƏNMƏLƏRİ

Açar sözlər: şifahi nitq, söz, Azərbaycan, dialekt, tələffüz, sait, samit, səs, fonetik hadisə, səsartımı, səsdüşümü.
Ключевые слова: устная речь, слова, Азербайджан, диалект, произношение, гласный, согласный, звук, фонетик событие, саундтрек, согланый звук.
Key words: oral speech, word, Azerbaijan, dialect, pronoiciation, vowels, consonant, sound, phonetic event, sound increase, sound drop.

Cəlilabad rayonunun şivə xüsusiyyətləri Azərbaycan dialektlərinin Şərq qrupuna daxildir. Burada Yardımlı, Cənubi Azərbaycan, Salyan, Şamaxı, Füzuli, Neftçala, Masallı, Lerik, Lənkəran və s. kimi yerlərdən gəlmiş şəxslərin danışıq xüsusiyyətləri şivəmizdə müəyyən izlər qoymuşdur. (4, 151) Bu mənada şivəmiz keçid xarakteri daşıyır. Burada sait və samit səslərin bir-birini əvəz etməsi, sözdə sait, samit səsartımı, səsdüşümü və s. kimi fonetik hadisələr mövcuddur. (2, 99) Bunlar dilimizin tarixi kökünü öyrənmək baxımından maraq doğurur.

Odur ki, bu məsələləri konkret nümunələr əsasında araşdırıb rayon ərazisindəki mövcud şivə və ləhcə xüsusiyyətləri ilə yaxından tanış olmaq Azərbaycan dilçiliyinə, onun dialektologiyasına lazımi töhfələr verəcək. Bu cəhətləri nəzərə alıb tədqiq etdiyimiz faktları sistemli şəkildə aşağıdakı formada verməyi qarşıya məqsəd qoyduq.

1. Arxa sıra saitlərinin ön sıra saitləri ilə əvəzlənməsi:

a) a>ə. **A** səsinin **ə** səsi ilə əvəzlənməsi . Məsələn: qaya-qəyə, oxşar-oxşər, , qara-qərə, qaralama-qərələmə, qaragün-qərəgün, qanıqara-qanıqərə, azarkeş-azərkeş, qaysı-qəysi, narazı-nərazi, nankor-nənkor, qaynar-qəynər, naqafil-nəqafil, naryad-nəryəd, xonça-xonçə, ayaq-əyağ, agent-əgent, qayçı-qəyçi, xalça-xəlçə, xaşa-xəşə, qamçı-qəmçi, qayış-qəyiş, araba-ərəbə, qağa-qəğə, qala-qələ, qalac-qələc, qalayçı-qələyçi, qalın-qəlin, qayınana-qəynənə, nağd-nəğd, qayınata-qəynata, arşın-ərşin, anket-ənket, aptek-əptek, axşam-axşəm, bayquş-bəyquş, poca-pocə, qamış-qəmiş, uçan-üçən, xına-xinə, şotka-şötkə, xarab-xərəb, lobya-lobyə, arıtma-əritmə, qatı-qəti, xain-xəin, oynatma-oynətmə, xamıt-xəmit, hac-həc və s. (6, 54)

b) ı>i. **I** səsinin **i** səsi ilə əvəzlənməsinə misal: ağı-aği, ağrı-acı-ağri-aci, axı-axi, alıcı-alici, alqış-alqiş, alqı-alqi, bacı-baci, hacı-haci, alış-aliş, Tağı-Tağı, dayı-dayi, qapı-qapi, qatı-qəti, qaraltı-qərəlti, aşırma-aşirmə, alı-ali, altı-alti, xına-xinə, xamıt-xəmit, şahı-şahi, saxsı-saxsi, xış-xiş, yaxşı-yaxşi, sarı-sari, arı-ari, qarı-qari, ayı-ayi, tanrı-tanri, başçı-başçi, qaysı-qəysi, qayçı-qəyçi, qamçı-qəmçi, qatır-qətir, acı-aci,

ışartı-işarti, qalın-qəlin, barış-bariş, çayır-çayir, havayı-havayi, yaşayış-yaşayiş və s. (6, 53)

c) u>ü. **U** səsinin **ü** səsi ilə əvəzlənməsinə misal: uçuş-üçüş, yun-yün, yu-yü, uc-üc, ucqar-ücqar, ucuz-ücüz, huş-hüş, uç-üç, füsunkar-füsünkar, ufultu-üfültü, surətli-sürətli, ucudüymə-ücüdüymə, ucuəyri-ücüəyri, uc-uca-üc-ücə, uçot-üçot, uyuşma-üyüşmə, uçan-üçən, cuhud-cühüd, uçmaq-üçmək//üçməy, uçuq-üçük//üçüy, uçurum-üçürüm, umsuq-ümsük//ümsüy və s. (5,11)

ç) o>ö . **O** səsinin **ö** səsi ilə əvəzlənməsi: o gün- öyün, ogünkü-öyünkü, oho-öhö, ovsana-övsana, ovqat-övqat, sovqat-sövqat//söğat, şotka-şötkə, ovsanaçı-övsanaçı, ovsar-övsar, Şotu-Şötü//Şöti, koma-kömə, komacıq-köməcik//köməciy və s. (5,12)

2. Ön sıra saitlərin arxa sıra saitləri ilə əvəzlənməsi:

a) ə>a. **Ə** səsinin **a** səsi ilə əvəzlənməsi: Azərbaycan-Azarbaycan, Zeynəb-Zeynab, Arəstə-Arasta//Arasda, bəla-bala, vərəq-varağ, qəhrəman-qahraman, əhatə-ahatə, ərus-arus, əzab-azab, əmanət-amanət//amanat, bəxşiş-baxşiş, adətkər-adətkar, amadə-amada, əcabə-əcaba, tələş-talaş, səda-sada və s. (5,12)

b) ü>u. **Ü** səsinin **u** səsi ilə əvəzlənməsi: ümid-umud, şüa-şua, xüsusi-xususi, xüms-xums, zühur-zuhur, labüd-labud, sübut- subut, sütun-sutun, sülalə-sulalə, süxur-suxur, sürət-surət, süvari-suvari, ülüş-uluş, ürcah-urcah, ürfan-urfan , kompüter- kamputer, nümunə-numunə, sükut-sukut, düçar-duçar, düha-duha, illüziya-illuziya, növsüz-novsuz//nosuz, şüar-şuar , güman-guman, gümrah-gumrah, üfunətli-ufunətli//ufunətdi, müxbir-muxbir, müxtəlif-muxtəlif // muxdəlif və s.(5,12)

c) ö>o. **Ö** səsinin **o** səsi ilə əvəzlənməsi: köntöy-kontoy//konto, kösöv-kosov//koso, öncəki-oncəki, övraq-ovrağ, çötkə-çotkə, çövkən-çokən, övrət-orət, qönçə-qonçə//qunçə, nöqsan-noqsan//noksan// noxsan, tövbə-toba, tövrat-torat, Növrəstə-Norəstə//Norəsdə, növbar-nobar//nubar, növraq-novraq//norağ, pərtöv-pərtov//pərto, nömrə-nomrə//numrə, nöqtə-noqtə//noktə, xörək-xorək, köməc-komac və s . (5,13)

ç) i > ı . İ səsinin **ı** səsi ilə əvəzlənməsi: Qasim-Qasım, , asi-ası, mixək-mıxək, xiridetmək-xırıdetməy, xirtdək-xırtdəy, misqal-mısqal, mismar-mısmar, iltimas-iltımas, iftira-iftıra, ilaxir-ilaxır, inqilab-inqılab, inqilabçı-inqılabçı, imtina-imtına, eyib-ayıb, siçan-sıçan , ixtira-ixtıra və s. (5, 13)

3. Dodaqlanan saitlərin dodaqlanmayan saitlərlə əvəzlənməsi:

a) u>ı. **U** səsinin **ı** səsi ilə əvəzlənməsi:axur-axır, buğda-bığda, pul-pıl, pult-pılt, muzdur-mızdır, vur-vır, buğ-bığ, armud-armıd, axund-axınd, alanqu-alanqı, arzu-arzı, sabun-sabın, kulon-kılon, burun-bırın, bulaq-bılağ, bur-bır, tufan-tıfan, bura-bıra, çubuq-çubığ, buz-bız, burcutma-bırcıtma, burma-bırma, burxuq-bırxığ, burğac-bırğac, buruntu-bırıntı, bunu-bını, albuxara-albıxara, namus-namıs, Mustafa-Mıstafa, Musa-Mısa, Murad-Mırad, murov-mırov, muştuluq-mıştılığ və s. (6,55)

b) ö>ə. **Ö** səsinin **ə** səsi ilə əvəzlənməsi: övlad-öləd//əvləd//əvlad, övladlıq-əvladlıq, övladlığagötürən-əvladlığagötürən//əvləddığagötürən, övladsevən-əvladse-

vən, örkən-ərkən, örən-ərən, öləzik-ələzik, öləzimə-ələzimə, Örənqala-Ərənqala, önəmli-ənəmli və s. (5,14)

c) u>i. **U** səsinin **i** səsi ilə əvəzlənməsi: qonşu-qonşi, şolu-şoli, qoru-qori, toru-tori, yolu-yoli, bunu-buni, onu-oni, qoçu-qoçi, ovçu-ovçi, oxu-oxi, oxucu-oxici, ipucu-ipuci, donu-doni, odu-odi, qutu-quti, yuxu-yuxi, oğru-oğri, ordu-ordi, oruc-oric, doğru-doğri, duru-duri, quru-quri, qorxu-qorxi, qobu-qobi, quyu-quyi, Xosu-Xosi, Qulu-Quli, Xudu-Xudi, yumru-yumri və s. (6,54)

ç) ü>i. **Ü** səsinin **i** səsi ilə əvəzlənməsi: mükafat-mikafət, mücrü-mücri, bölgü-bölgi, tülkü-tülki, güzgü-güzgi, külfət-kilfət, hünü-hüni, körpü-körpi, gülçü-gülçi, gürcü-gürci, ölü-öli, özü-özi, kürü-küri, küyçü-küyçi, tüfəng-tifəng//tifəy, şüvərək-şivərək, büryan-biryan, üzgü-üzgi, üzük-üzik//üziy, büzüşmək-büzişmək, öyüd-öyid//öid, ötrü-ötri, ötürücü-ötirici, öyümə-öyimə//öimə, öyünmə-öyinmə//öinmə, özüyazan-öziyazan, mürəkkəb-mürəkgəb//mirəkkəb, mürgü-mürgi//mirgi, müşkül-müşkil//müşgil, müntəzir-mintəzir, müzəffər-mizəffər, möcüzə-möcizə, üzüağ-üziağ, züyçü-züyçi, züyültü-züyilti, müflis-miflis, şüyüd-şivid və s. (6, 52)

d) **o>a. O** səsinin **a** səsi ilə əvəzlənməsi. Bu hal orfoepiyamızla və onun tələbi ilə bağlı xüsusiyyətləri özündə əks etdirir. Məsələn: motor-mator, kolxoz-kalxoz//qalxoz, odekolon-adikalon, konfet-kanfet//kamfet, komanda-kamanda, konfrans-kamfırans, konkret-kankret, konqres-kanqres, konsert-kansert, kompas-kampas, komplekt-kampilekt, kotlet-katlet, kofein-kafein, kolbasa-kalbasa, kollec-kallec, Moskva-Maskva, korifey-karifey, şokolad-şakalad, koridor-karidor, obyekt-abyekt, xozeyin-xazeyin//xazein, operasiya-aperasiya//aperasia, operativ-aperativ, domino-damino, komitə-kamitə, kompot-kampot, kompüter-kamputer, kombayn-kambay və s. (1, 12)

e) ö> e. Ö səsinin **e** səsi ilə əvəzlənməsi: dövlət-dölət//devlət, dövran-döran//devran, dövr-döür//devir, dövrə-dörə//devrə, dövrələmək-dörələmək// devrələməy, dövrəsiz-devrəsiz//dörəsiz, dövretmə-döretmə//devretmə, dövriyyə-döriyə//devriyə və s. (5, 17)

ə) ü>ə. Ü səsinin **ə** səsi ilə əvəzlənməsi: mürdəşir-mərdəşir, mürdəşirlik-mərdəşirliy//mərdəşirliy, mülayim-məlayim//məlaim, mülayimcə-məlayimcə//məlaimcə, mülayimcəsinə-məlayimcəsinə//məlaimcəsinə və s. (5,17-18)

4. Dodaqlanmayan saitlərin dodaqlanan saitlərlə əvəzlənməsi:

a) a>o. A səsinin **o** səsi ilə əvəzlənməsi: nabat-nobat, navalça-novalça, yaxın-yoxun, arbitaj-orbitaj, afişa-ofişa, pasaj-posaj, patent-potent, patefon-potefon, uzundraz-uzundroz, avand-ovand və s. (5, 18)

b) ı>u. I səsinin **u** səsi ilə əvəzlənməsi: yapıq-yapuğ, yarpız-yarpuz, qançır-qançur, pambıq-pambığ//pambuğ, çapıq-çapığ//çapuğ, batıq-batığ//batuğ, arıq-arığ//aruğ, barıt-barut, palıd-palut, qarpız-qarpuz, xatın-xatun, Şırran bulaq-Şurran bulağ və s. (5, 18)

c) i>u. **İ** səsinin **u** səsi ilə əvəzlənməsi: Azərbaycan dilinin dialekt və şivələrində bir o qədər yayılmış hadisə deyil. Lakin bu hala şivəmizdə bir neçə sözdə rast gəlmək

mümkündür. Məsələn, Yusif-Yusub, divar-duvar//dufar//tufar//tifar, ümid-umud, Naxçıvan- Naxçivan//Naxçuvan, Yusifli kəndi-Yusublu kəndi və s. (6, 55)

ç) e>ö. E səsinin **ö** səsi ilə əvəzlənməsi: Mingəçevir-Mingəçöür, lehmə-löhmə, lehməqarın-löhməqarın, lehmәlik-löhmәlik, leş-löş, leş-leşə-löş-löşə, leşyeyən-löşyeyən//löşyiən, eynən-öynən, edam-ödam, ecazkar-öcazkar, etiket-ötiket//ötket və s. (5,18-19)

d) ə>ö. Ə səsinin **ö** səsi ilə əvəzlənməsi: ləhlə-löhlə, ləhləmə-löhləmə, ləhn-löhn, lənbər-lönbər, əfsun-övsun, nə üçün-nöşün, ələngə-öləngə, ərəmik-örəmik//örəmiy və s. (5, 19)

e) i>ü. İ səsinin **ü** səsi ilə əvəzlənməsi: mühit-mühüt, müflis-müflüs, mühib-mühüb, müsin-müsün, mülhid-mülhüd, müdir-müdür, müdrik-müdrük, müdhiş-müdhüş, münbit-münbüt//mümbüt, münsif-münsüf, üzvilik-üzvülük//üzvülüy, irfan-ürfan, bimbiz-bümbüz, mürid-mürüd, mürşid-mürşüd, müsibət-müsübət və s. (5,19)

5. Açıq saitlərin qapalı saitlərlə əvəzlənməsi:

a) a>i. **A** səsinin **i** səsi ilə əvəzlənməsi. Samovar-simavar//sinavar//simamar, dayan-diyan, oynayan-oyniyən//oyniən, **yönlük halda**: babaya-babiyə//babiə, lampaya-lampiyə//lampiə, balaya-baliyə//baliə, xalaya-xaliyə//xaliə, ataya-atiyə//atiə, xonçaya-xonçiyə//xonçiə, xalçaya-xalçiyə//xalçiə, bağçaya-bağçiyə//bağçiə, oraya-oriyə, taxçaya-taxçiyə//taxçiə və s. (5,19-20)

b) ə>i. **Ə** səsinin **i** səsi ilə əvəzlənməsi: zəncir-zincir, əncir-incil//incir, şəkil-şikil, şətəl-şitəl, neçəyə-neçiyə, əlac-illac, **yönlük halda**: nənəyə-nəniyə//nəniə, dədəyə-dədiyə//dədiə, tələyə-təliyə//təliə, dəvəyə-dəviyə//dəviə, nəvəyə-nəviyə//nəviə, meşəyə-meşiyə//meşiə və s. (6, 55)

c) o>u. **O** səsinin **u** səsi ilə əvəzlənməsi: Sona-Suna, Nobar-Nubar, noxta-nuxta//nuxda, papiros-papruz//paprus, otuxma-utuxma, qotaz-qutaz, orman-urman, ovqatlı-uvqatlı, fayton-faytun, doktor-doxdor//doxdur//duxdur, telefon-telfun və s. (5, 20)

ç) o>ı. O səsinin **ı** səsi ilə əvəzlənməsi:boğca-bığça, traktor-tıraxdır//tıraxtır, podnos-podnıs//podnis, pomidor-pamidor//pamadır, papiros-paprız, kamfora-kamfıra və s. (5, 20)

d) ö>u. **Ö** səsinin **u** səsi ilə əvəzlənməsi: xörək-xurək, Qönçə-Qunçə//Qünçə, nömrə-numra, nömrəli-numrəli, nömrəsiz-numrəsiz, nöqsan-nuksan//nuxsan, nöqsanlı-nuksanlı//nuxsanlı və s. (5, 21)

e) ö>ü. Ö səsinin **ü** səs ilə əvəzlənməsi: öhöldəmə-öhüldəmə//ühüldəmə, öhöldəyə-öhüldəyə - ühüldəyə-ühüldəyə, öhö-öhü, öcəşmə-ücəşmə, kömbə-kümbə, kömbəçi-kümbəçi, kömbədodaq-kümbədodağ, nömrələmə-nümrələmə, kömbəsifət-kümbəsifət, köməc-küməc və s. (5, 21)

ə) o>ü. O səsinin **ü** səs ilə əvəzlənməsi: novbar-nübar, novbarlıq-nübarlığ, koma-kümə, komalıq-kümәlik//küməliy, komalar-kümələr, komacıq-küməcik//küməciy, komadançıxma-kümədənçıxma və s. (6, 55)

f) e>i əvəzlənməsi: sement-siment, qəzet-qəzit, peçenye-piçenye//piçenniy, bilet-bilit, pero-piro, qeybət-qiybət, qeyrət-qiryət, şifer-şifir, şofer-şofir, hesab-hisab, keşniş-kişniş, teatr-tiatır//tiyatır, maneə-maniyə, deyən-diyən, deyək-diyək//diyəy, dezinfeksiya-dizinfeksiya, okean-okian, abses-absis, teyləmək-tiyləmək və s. (5, 21)

g) e>ı əvəzlənməsi: Serıqlı qışlağı-Sırıqlı qışdağı (Alar kəndində yer), sezmə-sızma, sezdirmə-sızdırma, sezdirmək-sızdırmağ, şeyx-şex//şıx, şeyxi-şexi//şıxı, peç-pıç, adapter-adaptır və s. (6, 57)

6. Açıq saitlərin açıq saitlərlə əvəzlənməsi

a) ə>e. Ə səsinin **e** səsi ilə əvəzlənməsi: əkiz-ekiz, həlimlik-helimlik//helimliy, hələ-helə, həvik-hevik, ləşkər-leşkər, lüləyin-lüleyin, sərçə-serçə, pəncərə-pencərə, pəncə-pencə, pəzəvəng-pezəvəng, şəst-şest, şəşə-şeşə, dəşt- deşt və s. (6,56)

b) e>a. E səsinin **a** səsi ilə əvəzlənməsi: Quzey-Quzay (Brovarda ərazi adı), **indiki zamanda** gəlir//gəley//gəlay kimi işlənir. Eyib-ayıb, eybəcər-aybəcər, eyibaçma-ayıbaçma, eyibləmə-ayıblama, eses-ases, eşelon-eşalon, Yerevan-İravan, heyif-hayıf//həyif, heyiflənmə-hayıflanma, heyva-hayva, heyvərə-həyvərə//hayvərə və s. (6, 56)

c) e>ə. **E** səsinin **ə** səsi ilə əvəzlənməsi: heybə-həybə, heybəcik-həybəcik//həybəciy, heybəli-həybəli, Teyibə-Təyibə//Təybə, faner-fənər, vermişel-vərməşil, heyif-həyif, ev-əv, ecaz-əcaz, en-ən, eninə-əninə, erkəc-ərkəc, evdar-əvdar, evlənmə-əvlənmə, evsiz-əvsiz, evtikən-əvtikən, evyıxan-əvyıxan, ehkam-əhkam, erkək-ərkək//ərkəy və s. **(**5, 22-23**)**

7. Qapalı saitlərin açıq saitlərlə əvəzlənməsi

a) i>e əvəzlənməsi əsasən alınma sözlərə aid olub, şivəmizdə də özünü göstərir. Məsələn: biqeyrət-beqeyret, bikef-bekef, bifər-befər, bifayda-befayda, bifərasət-befərasət, bikar-bekar, mineral-meneral, diplom-deplom, bikarçılıq-bekarçılıq//bekarçılığ, bimar-bemar, bisavad-besavad// besavat, şəbih-şəbeh, distillə-destillə, licim-lecim, litr-letr, litrlik-letirliy, limit-lemit, nifrin-nefrin, merinos-meronos, , simic-semic, İlyas-Elyas, Firuz-Feyruz və s. (5, 23)

b) ı>a əvəzlənməsi: xırman-xarman, tıppıltı-tapbıltı, aşağı-aşağa, aşağıdakı-aşağadakı, kağız-kağaz , ağız-ağaz (qız-gəlin mənasında),şırıltı-şarıltı, şırıldaya-şırıldaya-şarıldaya-şarıldaya, şırpıltı-şarpıltı, şırhaşır-şarhaşır, şıppıltılı-şappıltılı və s. (6, 55)

c) ü>ö əvəzlənməsi : mühüm-möhüm, mühib-möhib//möhüb, mürtəce-mörtəce, müctəhid-möctəhid, üfürdək-öfürdəy, üskük-öskük , üfunətli-öfunətli, ülgü-ölgü, ümman-ömman, ürcah-örcah, ürpəşmə- örpəşmə, üzgün-özgün və s. (5, 24)

ç) u>o əvəzlənməsi: pudra-podra, pudralatma-podralatma, pudralı-podralı, buxaq-boxaq, cumbulu-combulu, xuruş-xoruş, xuruşkar-xoruşkar, qubernat-qoburnat, quqqultu-qoqqultu, qurcanma-qorcanma, Sultan-Soltan, sultantoyuğu- soltantoyuğu , tumba-tomba və s. (5, 24)

d) i>ə əvəzlənməsi: minbər-məmbər//mənbər, minbərüstü-mənbərüstü, biqədr-bəqədr, həmişə-həməşə, həmişəbahar-həməşəbahar, həmişəcavan-həməşəcavan, həmişəki-həməşəki, həmişəlik-həməşəliy, niyə-nəyə və s. (5, 24)

İstifadə olunan ədəbiyyat

1. Azərbaycan dilinin orfoqrafiya lüğəti, 6-cı nəşr, Bakı:"Şərq-Qərb", 2013, 839 səh.
2. Dəmirçizadə Ə. Müasir Azərbaycan dili, I hissə, Bakı: "Şərq-Qərb", 2007, 253 səh.
3. Qasımov M. Cəlilabadın tarixi, etnonim və toponimləri, Bakı:"Elm və təhsil", 2016, 543səh.
4. Qasımov M. Cəlilabad ərazisində işlənən bəzi dialekt sözlər, Təhsil İnstitutunun Elmi Əsərləri, cild 86, №5 , Bakı, 2019, 151-155 səh.
5. Qasımov M. Cəlilabad rayonunun bəzi şivə xüsusiyyətləri, Bakı, "Elm və təhsil", 2021, 115 səh.
6. Qasımov M. Filologiya məsələləri. Cəlilabad rayonunda bəzi toponimik adlarda dialektoloji fonetik xüsusiyyətlər, Bakı, "Elm və təhsil", 2017, N18, 52-58 səh.

M.QASIMOV

XÜLASƏ
CƏLİLABAD RAYONU ŞİVƏLƏRİNDƏ SAİT ƏVƏZLƏNMƏLƏRİ

Məqalədə Cəlilabad rayonu şivələrində baş verən bəzi fonetik hadisələrdən söz açılır. Göstərilir ki, Cəlilabad rayonu şivələri Azərbaycan dialektlərinin Şərq qrupuna daxıldır. Burada Yardımlı, Cənubi Azərbaycan, Salyan, Şamaxı, Füzuli, Masallı, Lerik, Lənkəran və s. kimi yerlərdən daimi yaşamağa gəlmiş şəxslərin danışıq xüsusiyyətləri şivəmizdə müəyyən izlər qoymuşdur. Bu mənada şivəmiz keçid xarakter daşıyır. Burada sait və samit səslərin bir-birini əvəz etməsi, sözdə sait, samit səsartımı, səsdüşümü və s. kimi **fonetik hadisələr** mövcuddur. Odur ki, məqalədə müxtəlif növ saitlərin bir-birini əvəz etmələrinə aid tədqiq etdiyimiz nümunələri vermişik. Göstərmişik ki, şivəmizdə arxa sıra saitlərinin ön sıra saitləri, ön sıra saitlərin arxa sıra saitləri, dodaqlanan saitlərin dodaqlanmayan saitlərlə, dodaqlanmayan saitlərin dodaqlanan saitlərlə, açıq saitlərin qapalı saitlərlə, açıq saitlərin açıq saitlərlə və qapalı saitlərin açıq saitlərə əvəzlənməsi mövcuddur. Bu cəhətlərinə görə şivəmizin tələffüz xüsusiyyətlərini öyrənib müəyyənləşdirmək dilçilik baxımından çox maraqlıdır. Ona görə də bu məsələ diqqətimizi özünə cəlb etdiyi üçün rayonun **şivə xüsusiyyətlərini** tədqiq etməyi lazım bildik. Müəyyən nəticə əldə edəcəyimiz diqqətimizdən yayınmadı. Öz bəhrəsini vermək üçün onu elmi şəkildə şərh etməyi və sistemli formada hazırlayıb çap etməyi qarşıya məqsəd qoyduq.Çünki lüğətimizdə başqa dialekt və şivələrdən fərqlənən söz və ifadələr var. Onlar Azərbaycan dilçiliyi və orfoqrafiyası üçün müəyyən mənada tarixi mənbə rolunu oynaya bilər.

М.ГАСЫМОВ.

РЕЗЮМЕ

ЗАМЕНА ГЛАСНЫХ В ДИАЛЕКТАХ ДЖАЛИЛАБАДСКОГО РАЙОНА

В статье рассматриваются некоторые фонетические события, происходившие в диалектах Джалилабадского района. Отмечается, что диалекты Джалилабадского района относятся к восточной группе азербайджанских диалектов. Это Ярдымлы, Южный Азербайджан, Сальян, Шамаха, Физули, Масаллы, Лерик, Лянкяран и другие. Речевые особенности людей, приехавших на постоянное жительство из таких мест, оставили определенные следы в нашем диалекте. В этом смысле наш диалект является переходным. Здесь замена гласных и согласных, так называемые гласные, согласные, согласные и т.д. фонетические явления, такие как Поэтому в статье мы привели примеры того, как разные типы гласных сменяют друг друга. Мы показали, что в нашем диалекте есть гласные заднего ряда, гласные переднего ряда, гласные переднего ряда, гласные заднего ряда, губные гласные с негубными гласными, негубные гласные с губными гласными, открытые гласные с закрытыми гласными, открытые гласные с открытыми гласными. и закрытые гласные с открытыми гласными. Благодаря этим особенностям очень интересно с лингвистической точки зрения изучить и определить произносительные особенности нашего диалекта. Поэтому, поскольку этот вопрос привлек наше внимание, нам необходимо было изучить диалектные особенности региона. От нашего внимания не ускользнуло, что мы добьемся определенного результата. Чтобы приносить плоды, мы стремимся интерпретировать его с научной точки зрения и систематически публиковать, потому что наш словарь содержит слова и выражения, которые отличаются от других диалектов и диалектов. В некотором смысле они могут играть роль исторического источника по азербайджанскому языкознанию и правописанию.

M.GASIMOV.

SUMMARY

VOWEL SUBSTITUTIONS IN JALILABAD REGION DIALECTS

The article discusses some phonetic events that took place in the dialects of Jalilabad region. It is noted that the dialects of Jalilabad region belong to the Eastern group of Azerbaijani dialects. There are Yardimli, South Azerbaijan, Salyan, Shamakhi, Fuzuli, Masalli, Lerik, Lankaran and others. The speech features of people who came to live permanently from such places have left certain traces in our dialect. In this sense, our dialect is transitional. Here, the substitution of vowels and consonants, the so-called vowels, consonants, consonants, etc. phonetic events such as Therefore, in the article we have given examples of how different types of vowels replace each other. We have shown that in our dialect there are back row vowels

front row vows, front row vowels rear row vowels, lip vowels with non-lip vowels, non-lip vowels with lip vowels, open vowels with closed vowels, open vowels with open vowels and closed vowels with open vowels. Due to these features, it is very interesting from the linguistic point of view to study and determine the pronunciation features of our dialect. Therefore, as this issue attracted our attention, we needed to study the dialect features of the region. It did not escape our attention that we will achieve a certain result. In order to bear fruit, we aim to interpret it scientifically and publish it in a systematic way. Because our dictionary contains words and expressions that differ from other dialects and dialects. In a sense, they can play the role of a historical source for Azerbaijani linguistics and spelling.

Redaksiyaya daxil olma tarixi: 18.05.2022
Çapa qəbul olunma tarixi: 07.06.2022
Rəyçi: Yadulla Dadaşlı filologiya üzrə fəlsəfə dokroru, dosent tərəfindən çapa tövsiyə olunmuşdur

AYGÜN ABDULLAYEVA
ADU
Rəşid Behbudov küçəsi, 134.Nəsimi rayonu,
Bakı, AZ.1034
E-mail: aygunn1976@mail.ru

MÜRƏKKƏB CÜMLƏDƏ PREDİKATİVLİK VƏ ONUN İFADƏ VASİTƏLƏRİ

XÜLASƏ.

Məqalədə Predikativlik cümləni formalaşdıran sintaktik kateqoriya kimi və xüsusi bir dil kateqoriyası olan predikativlikdən və onun ifadə vasitələrindən bəhs olunur. Fikrin formalaşmasında önəmli yeri olan predikatikvlik əsasən feil şəkilləri və şəxs sonluqları ilə reallaşır. Cümlədəki predikativ münasibət cüttərkibli cümlədə xəbərlə mübtəda arasında, təkrətkibli cümlələrdə isə baş üzvlə ifadə edilir. Cümlənin ikinci əlaməti sayılan predikativlik leksik vahidlərin birləşərək varlıq haqqında məlumat verməsi ilə təzahür edir.

Dilçilikdə söz birləşmələrində predikativliyin olub - olmaması haqqında müxtəlif fikri və nəzəriyyələr mövcuddur. Bəzi dilçilər söz birləşmələrində predikativliyin olmasını qəbul edir, bəziləri isə bunun əleyhinə gedirlər. Ümumiyyətlə, predikativlik cümlədən başlayır. Sözlərdən və söz birləşmələrinin predikativliyindən danışmaq mümkün deyil. Dilçilikdə bu fikir də həmişə mübahisə obyekti olmuşdur ki, söz birləşmələrində predikativlik varmı?

Bu haqda V. P. Suxotin yazır: " Söz birləşmələri hər şeydən əvvəl iki qrupa ayrılır: 1.Fakt haqqında məlumat verən, cümlənin struktur əsası kimi, mübtəda və xəbəri birləşdirən söz birləşmələri. Daha çox işlənmə funksiyasını nəzərə alaraq biz bu birləşmələri şərti olaraq predikativ söz birləşmələri adlandırırıq; 2. Müxtəlif həyat hadisələrinin mürəkkəb (tərkibi) adlarını bildirən söz birləşmələri.Bu, mübtəda və xəbər konstrukskiyasına malk olmayan və ona görə cümlə əmələ gətirməyən qeyripredikativ söz birləşmələri adlanan birləşmələrdir" (11.11).

Predikativ söz birləşmələri cümlənin struktur əsası, özəyi olub cümlənin əlamətlərini qəbul etdikdə,nitqə müstəqilsintaktik bütöv kimi daxil olduqda cümlə olur. Bu xüsusiyyətləri daşımadaisə sözbirləşməsi olaraq qalır.

N. A. Baskakov predikativ birləşmə ilə cümləni eyni kateqoriya hesab edir və buna görə də konkret olaraq söz birləşmələrindən, onların növ və formalarından danışarkən ancaq "atributiv birləşmələri" , yəni qeyri-predikativ birləşmələri nəzərdə tutur.Alimin fikrincə, predikativ söz birləşmələrində iki məfhum qarşılaşdırılır: subyekt...və predikat. Burada subyekt mübtədanı, obyekt xəbəri bildirir.(Baskakov) Gördüyümüz kimi, rus dilçiliyində söz birləşmələri predikativ və qeyri- predikativ kimi təsnif olunur.

Əksər dilçilərin fikrinə görə, predikativlik cümlədə sözün bir-birilə əlaqələnən yolu ilə və xüsusən cümlənin sonunda gələn xəbərdə öz əksini tapır. Predikativliyin yaranmasının bir sıra vacib cəhətləri vardır. Predikativlik dedikdə leksik vahidlərin sözlərin və sözün hadisə, proses, varlıq və s. haqqında məlumat vermək imkanı nəzərdə tutulur. Predikativliyin yaranması üçün sözlər qrammatik qayda-qanunla uyğun düzülüşündən qrammatik qayda- qanunlara uyğun əlaqələnməsindən çox şey asılıdır.

Çox vaxt, predikat bir feil ilə ifadə edilə bilər. Eyni zamanda, sadə bir feil predikatı, mürəkkəb feil predikatı və mürəkkəb nominal predikat fərqlənir. Sadə şifahi predikatlara aşağıdakılar daxildir:1.- *əmr, göstəriş və ya tabe əhval-ruhiyyədə olan feillər. 2- feillərə əsaslanan frazeoloji ifadələr;3.- birincisi bir hərəkəti ifadə edən eyni formalı iki feilin ifadələri, ikincisi - hərəkətin məqsədi.*

Mürəkkəb feil predikatı qrammatik və leksik mənası fərqli sözlərlə ifadə olunan bir cümlədir: köməkçi və əsas feil, ikincisi isə qeyri-müəyyən formada istifadə olunur və predikatın leksik mənasını daşıyır. Mürəkkəb bir feilin predikatı, bir neçə köməkçi sözdən ibarət olduğu təqdirdə mürəkkəb ola bilər.

Mürəkkəb nominal predikat bağlayıcı feil və nominal hissənin birləşməsi ilə ifadə olunur. Bağlayıcı feil ola bilər: - hərəkəti,vəziyyəti ifadə edən tam dəyərli feillər.

Predikat, cümlənin baş verən hərəkətin vaxtını təyin etməsinə ehtiyac olmadığı təqdirdə, bir bağ istifadə etmədən yalnız bir zərfdə ifadə edilə bilər. Bu texnikadan istifadə edərək cümlənin tərkibini dəyişdirməyə,mətnin oxunaqlılığını yaxşılaşdırmağa imkan verir.İsim tərif cümlələrində bir predikat olur və tez-tez mövzu ilə tire ilə ayrılır.

Ayrıca, bəzən bir ədədi ad predikat rolunu oynayır ("İki dəfə üç - altı") Xəbərlik kateqoriyası yalnız isimləri deyil, digər nitq hissələrini də əhatə edir. İsimlər cümlədə xəbər vəzifəsini daşımaq üçün xəbərlik şəkilçisini qəbul edərək dəyişir. Xəbərlik şəkilçiləri cümlənin əsas hökmünü ifadə edir. Bu şəkilçilər olmasa, cümlə bitməz və fikir tamamlanmaz. Həmçinin xəbərlik şəkilçiləri mübtəda və xəbəri bir-birinə bağlayır, onlar arasında uzlaşma əlaqəsi yaradır. Türkoloji ədəbiyatlarda, o cümlədən Azərbaycan dilçiliyində xəbərlik kateqoriyası geniş mübahisə meydanına çevrilmişdir. Bəziləri şəxs, bəziləri isə bu kateqoriyanı xəbərlik kateqoriyası adlandırmışdı. K.M. Abdullayev kateqoriyanı xəbərlik, şəkilçisini isə xəbərlik şəkilçiləri, feillərdə isə şəxs şəkilçisi, kateqoriyanı şəxs kateqoriyası olduğunu qeyd edir.

Mürəkkəb cümlə sadə cümlədən daha yüksək dərəcəli sintaktik vahiddir. Mürəkkəb cümlə kommunikativ vahid funksiyasını yerinə yetirən iki və ya daha çox predikativ hissələrin birləşməsidir. Ona daxil olan predikativ hissələrin hər biri sadə cümlə ilə oxşar quruluşa malikdir, lakin mürəkkəb quruluşun bir hissəsi olaraq cümlənin intonasiya və semantik müstəqillik kimi xüsusiyyətlərini itirir və digər hissə ilə qarşılıqlı əlaqədə təfərrüatlı xəbəri ifadə edir.Beləliklə, mürəkkəb cümlə

struktur və semantik birlik, eləcə də intonator bütövlük ilə xarakterizə olunan polipredikativ kommunikativ vahiddir. Sadə cümlədən fərqli olaraq mürəkkəb cümlənin əsas xüsusiyyətləri bunlardır: 1) Predikativ hissələrin qarşılıqlı uyğunlaşmasının mürəkkəb mexanizminin mövcudluğunu və bunun üçün xüsusi vasitələrdən istifadəni təyin edən çox predikativlik. Hadisələr toplusu varlıq sferası, hərəkət, fəaliyyət (fiziki və ya sosial) ilə bağlıdır; məntiqi cümlə - əqli fəaliyyət, məntiqi təfəkkür prosesində qurulan əlaqələrin (identifikasiya əlaqələri, şəxsiyyətlər və s.) əks olunması ilə. Polipropozitivliyin əlaməti mütləq deyil: mürəkkəb cümlə sahəsində predikativ hissələrin sayı ilə cümlələrin sayı arasında asimmetriya mümkündür. Predikativ və propozitivlik münasibətlərindəki asimmetriya polipozitivliklə səciyyələnən sadə cümlələrin mövcudluğunda özünü göstərir.

Araşdırmamızdan belə nəticəyə gəldik ki, dilin sintaksisində predikativlik çox mühüm yer tutur. Cümləni formalaşdıran əsas amillər-bitmiş fikir ifadə etmək, modallıq, intonasiya və predikativlik dilin əsas kateqoriyalarından olub cümləni ayaqda tutan anlayışlardır ki, bunlardan da ən birincisi elə predikativlikdir.(11.11) Predikativlik anlayışı qrammatik kateqoriya olub haqqında bəhs edilən hadisənin hər hansı bir zamanda icra olunduğunu bildirən real və qeyr-real hadisələri ifadə etməyə yardımçı olan, buna imkan yaradan qrammatik xüsusiyyətdir.

Var, yox, gərək, lazım, mümkün, bəs tipli predikativ sözlər suala cavab vermədən cümlənin ismi xəbəri, sual əvəzlikləri isə suala cavab vermədən cümlənin istənilən üzvü ola bilər. Cümlə üzvü adətən bir sintaktik suala cavab verir. Morfoloji sualla sintaktik sualı eyniləşdirmək olmaz. Nitq hissələri əsas sintaktik vəzifələrində işləndikdə onların morfoloji və sintaktik sualları uyğun gəlir. Söz birləşmələrinin komponentləri də ayrılıqda morfoloji suala, birlikdə bir sintaktik suala cavab verir.

Cümlə üzvlərinə həmişə sual vermək mümkün deyil. İfadə vasitələrindən asılı olaraq, bəzi üzvlərə sual vermək olmur. Var, yox, bəs, istər, mümkün, gərək sözləri müstəqil xəbər vəzifəsində işləndikdə sintaktik suala cavab vermir. Cümlə üzvləri sual əvəzlikləri ilə ifadə olunduqda da suala ehtiyac olmur

Açar sözlər: predikativ sözlər,mürəkkəb cümlə, predikativ vahidlər, leksik element, sintaktik əlaqə, sadə cümlə, kommunikativ vahid, əlaqə, intonasiya.

Mövzudan bəhs etməzdən əvvəl mürəkkəb cümlə anlayışı və komponentləri haqqında izaha nəzər salaq.

Mürəkkəb cümlə iki və ya daha çox qrammatik əsasdan (predikativ vahidlərdən) ibarət və semantik, struktur və intonator vahidi təşkil edən cümlədir. Mürəkkəb cümlə dildə kommunikativ vahid funksiyasını yerinə yetirir və formal qrammatik və semantik əlamətlərlə səciyyələnir, bunlardan ən mühümləri:

a) polipredikativlik;
b) xüsusi struktur sxemi;
c) intonator tamlığı, semantik və struktur bütövlüyü,

d) çoxsaylı situasiyalar və onlar arasındakı əlaqə haqqında məlumat verir.

Mürəkkəb cümlənin polipredikativliyi sadə cümlənin quruluşuna malik olan iki və ya daha çox predikativ vahidin birləşdiyi halda aşkar edilir. Yalnız mürəkkəb cümlənin hissələri şərti olaraq sadə cümlələr adlandırmaq olar.(9.12) Sadə cümlələrə oxşar sintaktik quruluşa malik olmaqla onlar:

a) mənalı dolğunluğa malik deyillər, çünki onlar yalnız birləşmədə mürəkkəb düşüncəni, obyektlərlə ətraf mühit hadisələri arasında çoxşaxəli əlaqələri ifadə edirlər;

b) intonasiya tamlığı, çünki yalnız bütün mürəkkəb cümlə sonun intonasiyası ilə xarakterizə olunur;

c) müstəqil ünsiyyət vahidləri olmadığı üçün kommunikativ məna. İki predikativ vahiddən ibarət mürəkkəb cümlə binar və ya ikikomponentli adlanır:

Mürəkkəb cümlənin komponentləri (hissələr, predikativ vahidlər) struktur və qrammatik xüsusiyyətlərinə (quruluşu, predikativliyinə) görə sadə cümlələrdir. Funksional baxımdan isə mürəkkəb cümlənin hissələri müstəqil sadə cümləyə xas olan kommunikativ və semantik tamlığa malik olmadığına görə cümlə deyil. Yalnız mürəkkəb cümlə bütövlükdə kommunikativ-semantik tamlığa malikdir ki, bu da özünəməxsus vahid intonasiya və söz düzümü ilə sadə cümlə kimi kommunikativ vahidi təmsil edir. Deməli, funksional cəhətdən yalnız mürəkkəb cümlə cümlədir, onun komponentləri isə cümlənin sadəcə "hissələri"dir.-fikrini V.A. Beloshapkova öz əsərlərində işləmişdir

Mürəkkəb tipli mürəkkəb cümlələrdə müxtəlif struktur sxemlərinə uyğun qurulan predikativ vahidlərin birləşmələri birləşdirilir. Buna görə də, mürəkkəb tipli cümlələr bir neçə artikulyasiya səviyyəsinə malikdir.*Yaşamaq. Bəzən yağan qar o qədər qalın olurdu ki, maşın onu keçə bilmirdi və biz uzun yollar getməli olurduq.(ar.).* Yuxarıdakı cümlədə, bölmənin birinci səviyyəsində əlaqəsi və birlik ilə ifadə olunan iki komponent (mürəkkəb cümlə və sadə cümlə) fərqlənir.(1.11) Birinci komponentdə quruluşun ikinci səviyyəsində mürəkkəb cümlənin quruluş bloklarını təmsil edən iki komponent (əsas və tabeli bənd) fərqlənir.

Mürəkkəb cümlə sadə cümlələrin mexaniki birləşməsi deyil, konkret, özünəməxsus nümunəyə görə qurulur. Qurularkən sadə cümlənin müəyyən struktur variantlarından istifadə olunur ki, onlar mürəkkəb cümlənin xüsusiyyətlərinə görə dəyişdirilir. Beləliklə, mürəkkəb cümlələrin hissələri ayrıca kommunikativ vahid kimi fəaliyyət göstərmir, semantik və intonativ tamlığa malik deyildir. Yalnız bütün mürəkkəb cümlə bütövlükdə informasiyanın formalaşması və ötürülməsi vasitəsi olan müstəqil struktur-kommunikativ vahid hesab edilə bilər.

Cümlənin ikinci əlaməti sayılan predikativlik leksik vahidlərin birləşərək varlıq haqqında məlumat verməsi ilə təzahür edir. Predikativlikdə verilən məlumat təsdiq və ya inkar edilir, məlumatlara münasibət bildirilir. "Predikativliyin yaranmasında zaman və modaİlıq mühüm rol oynasa da, qrammatika baxımındanpredikativliyin

təzahürü özünü adlarda xəbərlik (xəbərlik şəkilçiləri), feillərdə şəxs kateqoriyasında təzahür etdirir”(2. 11).

Sinkretizm-yeni məna qazanmaq hesabına söz artımıdır. Burada çoxmənalılıqdan omonimləşməyə doğru bir inkişaf meyili özünü göstərir. S.Cəfərov yazır ki, «feillər də müşahidə olunan belə omonimləşmə prosesi özmənşəyi etibarilə dilimizin inkişafının çox qədim dövrlərinə aid olub sözün müxtəlif mənaya ayrılması yolu ilə deyil, əksinə öz mahiyyəti etibarilə bir vəhdət təşkil edən əşya və hərəkət məfhumlarına məxsus qədim ifadə formasının indiyə qədər mühafizə olunması yolu ilə əmələ gəlmişdir. Ona görə də bu yol müasir dilimizin söz yaradıcılığında öz qüvvəsini, demək olar ki, itirmək üzrədir» (14, s. 141-142 (215 səh.)

Məsələn, «*arı»* sözünün ilkin anlamı -təmiz, intensive forması *"arıca"* (tərtəmiz, lap təmiz», bu söz əsasında «arıdmaq» (təmizləmək), «arılığ» (təmizlik) kimi sözlərdə yaranmışdır.

Leksik mənaya və sonradan qazanılmış semantikaya malik sözün arxasında müəyyən obyektda yanır. Söz həmin obyekti ifadə edir. Xüsusi halda, obyekt anlayışla müəyyənləşir. Ümumişlək lüğəvi vahidin ifadə etdiyi anlayışın təyin olunmasında şərt, məhdudiyyət və normalar demək olarki, yoxdur. *Ağac* sözünün lüğəvi mənası ilə müasir dövrdə informatika elmində işlədilən *ağac* termininin terminoloji mənasıarasında müştərək xüsusiyyətləri axardıqda zahiri bənzərli ölçüsünə əsaslanmaqla izah-anlayış qarşılaşdırılması aparmış oluruq.

Bu cəhət mənanın köçürülməsindən ötrü zəmin yaradır. Və funksional mənada da köçürülmək imkanı kəsb edilir. İndi olduğu kimi, o dövrdə də funksiyanın ümumiliyinə görə məna köçürülür və yaxud kommunikativ funksiya etibarilə bu proses baş verir. Mənada motivləşmə prosesi gedir.

Tarixən «*kəpənək»* sözü *«yapıncı»* mənasında istifadə olunmuşdur.

Müasir dövrdəki məna: «Avtobus kəndə yaxınlaşdıqca Rəhim müəllim həyəcanlanırdı. Öz-özünə deyirdiki, ay Allah, kaş cücü olaydı, *kəpənək* olaydı… (BağırovV. Aynalıgözünpayızı. Bakı, Yazıçı, 1985 (110 s.)

Başqa bir söz: «görk» (gözəl),görklü (gözəllik).

V.Aslanov *gözəl* sözünün qədim Azərbaycan dilində olan *görklü* sözü ilə sinonim olduğunu «Kitabi-DədəQorqud» dastanlarının dilində işləkliyini, hər iki sözün etimoloji kökünün *gö (gör, göz)* olduğunu göstərir (15, s.55 (187 s.) XVI əsrə

aid abidələrin dilində fonetik tərkibin dəyişməsi *közükmək-görükmək* arxaik feili parallel olaraq istifadə olunmuşdur. Məs.: quru yerlərdə adam gözünə Iraq yerdən su kibi *közükür.*

Əslində *küd (güdmək)-köz-kör* sinkretik formaları eyni mənşəlidir, türk dillərinin ən qədim dövründə hər üç *sözkü* biçimində diqqəti cəlb etmiş, həm baxmaq, həm görmək proseslərini, həm də həmin işi həyata keçirən bədən üzvünün (*göz)* adını ifadə etmişdir. Bu sıra zaman keçdikcə busin kretliklə bağlı dəyişmələr (çevrilmələr) derivasiya prosesini daha dərindən öyrənmək imknını qazanmağa səbəb olur.

Tarixən sözün semantikasında baş verən dəyişikliklə əlaqə dar bir neçə cəhəti də qeyd etmək olar. Buda mənanın xüsusiləşməsidir. Sözün mənası digər mənaya çevrildikdə semantik konversiya hadisəsi yaranır. Söz mütləq öz sahəsindən qopub ayrılır, başqa bir sahəyə daxil olur. Sözün semantikasında iki və daha artıq istiqamətdə inkişaf getməklə baş verə bilir. Bu zaman inkişaf istiqamətindən biri dominant mövqedə durur. Dominant istiqaməti yeni sözün mənasına görə müəyyənləşdirmək lazımdır. Yeni mənalı sözün məna tərkibindəki semlərlə müqayisə etmək bəzi durumlarda çətinlik yaratsada, ümumən bu məsələnin həllinə imkan verir. Sözün semantik yükü əlavə mənaya görə artıb-çoxalır.

Məs.:

Ban – banlamak feili *səs, səda; haylamaq, səsləmək, bağırmaq, əmrvermək, hayqırmaq; əzançəkmək* vəs. mənalarda «Şühədanəmə»də işlənmişdir. Məs.: Yəqub *ban verdi* ki, mən burada oturub şəhərə getməzəm; Şümrü-ləinləşkərünə *ban verdim* ki, munun çevrəsi (ni) dutun; ətünə *ban verüb…*rəvan oldı; heybətilən *banurdı* kim,…utanməz sənqaç mağə yüzurərsən… Çun Qüttam *namaz banı* eşitdi. İbn-Mülc əmioyadüb dedi; atəsi ilən danışməyü batünə *banurdı*; *banciyə* işarət eylədikim, namaz banı versün (ŞH, s.)

«Şühədanəmə»nin dilində *«əzançı»* məfhumu əmələ gətirən*«bançı»* sözündəndə istifadə olunmuşdur. Məs.: *bançı əyağə qalxub dedi: …bançıya işarət eylədi.*

«Ban» sözünün Mağmud Kaşğaridə, qədim türk lüğətində *zar-zarağlamaq, hönkür-hönkür ağlamaq, hıç qıraraq ağlamaq* (MK, s.43; 17, s.81) mənaları göstərilmişdir. V.V. Radlovda *isə qışqırmaq, bağırmaq, çağırmaq, haylanmaq* və s. mənaları qeyd olunmuşdur (16, s.1470)

Beləliklə, sinkretizm elə bir universal hadisədir ki, burada dil prosesləri ehtiva olunur, yəni dəyişmə əvvəlki sözün daxilində olur, tərkibində yerləşir. Əvvəlki forma-omonimləşmiş formaya uyğun qavranılır (feil+ad omonimliyinə). Həmin tip feillər yaranaraq geniş, hal, hərəkət, vəziyyət ifadə etməkdən ötrü formalaşır yaxud bu tip feillər türk dillərindən qədim inkişaf dövründə adlardan uzaqlaşmış və hərəkət, hal vəziyyət bildirən söz kimi əmələ gəlmişdir. Obyekt seçilmiş dövrün yazılı abidələrinin dilində yalnız kökdən ibarət olan feillərin bir hissəsi digər nitq hissələri ilə omonim olur. Bu dövrdə omonimləşmə hadisəsi iki cür baş verir. Söz əmələ gələrkən bir çox məna kəsb edir, elə ona görə də buna ilkin-sinkret

feil=adomonimliyi deyil - həmin prosesi daha qədim hesab etmək olar. Yaxud da sözün mənası genişlənir, söz sonradan yeni mənalar qazanır. Məs.: *təg «dəymək»* feilindən *təg «təki, kimi»* qoşmasının təcridi ikinci prosesə nümunə ola bilər. Belə bir şəraitdə təbii dil prosesləri yeni sözlərin törəməsini və mənasının dəyişməsin işərtləndirir. Bu proses özün daxilində bu və ya digər səsin dəyişməsi yaxud düşməsi hadisəsinə əsaslanır.

Həmin dövrün sinkretizmini sözlərin *variant çoxluğu* da xarakterizə edir.

Tədqiqat göstərir ki, qədim Azərbaycan dilində, ədəbi dilin təşəkkül dövründə semantik sinkretiz mən mühüm və aktual hadisələrdən olmuşdur. Bu hadisə insanın dünya görüşü və təfəkkür fəaliyyətinin nəticəsi olaraq şərtlənmişdir. Dilin tarixi keçmişi bu hadisəyə görə də səciyyələnmiş, ilkin dövrlər bu formaları strukturlaşdırmış və onun əhatə dairəsini və dünyanın dil mənzərəsini konseptuallaşdırmışdır.

Bu hadisə ədəbi dilin təşəkkül dövründə də özünə müəyyən qədər yer verimişdir. Qazi Bürhanəddinin, «Şühədanamə» nin dilində bu hadisəyə dair xeyli sayda bilgilərə rast gəlmək olar. Daha doğrusu, həmin dilhadi səsini bu mənbələr əsasında izah etmək yeni və maraqlı faktları aşkare tmək baxımından xüsusi önəm kəsb edir.

Tarixən sözün semantikasında baş vermiş dəyişikliklər müxtəlif növlərə ayrılır. İlk dövrlərdəki sinkretik məna zaman keçidikcə leksik qatda yeni mənaların yaranmasına səbəb olmuşdur. Ümumiyyətlə, tarixən leksik vahidlərdə semantik dəyişmələrin dəqiqləşdirilməsi, daralması; oxşarlığa və müştərəkliyə görə eyniliyi özünü göstərmişdir.

Təşəkkül dövrünün leksik-semantik materialları göstərir ki, sinkretizm uzual (adi) hadisələrdəndir, dildə leksik-semantik kateqoriya kimi formalaşmışdır. Keyfiyyət əlamətinin differensiasiyası bu xüsusiyyəti ehtiva edir. Sintaqmatik səviyyədə. Sinkret semiyanının keyfiyyətinin diferensial əlaməti leksik-semantik kateqoriya olan polisemiyadan (çoxmənalılıqdan), başqa variantlardan-disemiyadan, monosemiyadan ayrılır və fərqlənir. Nitq də mənalardan biri aktuallaşır, bir sinkretik məna- iki-siqnifikat və denotatdan ibarət olur. Bu mənalar semantik derivasiyaya yol açır, bu zaman *epidiqmatik ploskosti* formalaşır

Semantik sözyaradıcılığı nəticəsində yeni dil vahidləri ortaya çıxır. Yeni sözlər, müstəqil leksik-qrammatik vahidlər, substantivləşmə, adverbiallaşma vəs.

Təhlil etməyə çalışdığımız sözlərdə səslərin dəyişməsi yolu ilə yeni leksik vahidlərin formalaşması prosesi Azərbaycan dilinin tarixi inkişafını, qohum türk diləri ilə olan əlaqə və münasibətini dərk etmək işinə yardım edə bilər. Həmin cəhətdən, söz tərkibində səslərin müəyyən səbəblərdən dəyişməsi prosesi önəmlidir.

Beləliklə, XIV-XVI əsrə aid mənbələrə istinad olunmaqla bəhs etdiyimiz hadisə ən çox iki müxtəlif məfhum bildirən omonimləşmiş sözlərdə baş verir.

ƏDƏBİYYAT

1. Yusifov Mübariz. Azərbaycan dili fonetikasının əsasları. Bakı, «Elm vətəhsil», 2013
2.Veysəlli F. Dilçilik ensiklopediyası. 2-ci cild, Mütərcim, Bakı, 2008
3.Dəmirçizadə.Ə. Azərbaycan dilinin üslubiyyatı.Bakı, 1962
4. Древнетюркский словарь. Л., 1969
5.Xudiyev Nizami. Azərbaycan ədəbi dilitarixi. (Aliməktəblər üçün dərslik). Bakı, «Elm və təhsil», 2018
6. Ахманова О.С. Словарь лингвистических терминов. Москва, КомКнига, 2007
7. Hacıyev. T.Seçilmiş əsərləri. Icild(Ihissə), Bakı, «Elm», 2016
8. Джафаров С. Фонетическая структура первичных слов в тюркских языках (на материале азербайджанского языка). Уч. зап. АДУ, серия языка и литературы, 1977, №6
9.Марков В.М. Избранные работы по русскому языку. Казань, изд-во Казан. гос. ун-та, 2001
10. Николаев Г.А. Русское историческое словообразование: теоретические проблемы. Казань: Изд-во Казан. гос. ун-та, 1987
11. Пименова М.Вас. Лексико-семантический синкретизм как проявление формально-содержательной языковой асимметрии. «Вопрос языкознания», 2011, №3, с. 19-48; Никитин М.В. Основы лингвистической теории значения. М., Высшая шк. 1988, с. 168; Падучева Е.В. Динамические модели в семантике лексики. М.: Языки славянской культуры, 2004, с. 606; Трегубов А.Н. Исторические изменения в значении слова. Уфа. Восточный университет, 2005, с. 180; Трегубов А.Н. Бинарный семантический анализ слова. Уфа: Вагант, 2006, с. 112; Трегубов А.Н. Исторические изменения в значении слова: фоносемантический аспект. Саарбрцжкен: ЛАП ЛАМБЕРТ Ажадемиж Пкублисщинэ, 2011, с. 174
12. Hacıyev T.İ. Azərbaycan milli ədəbi dilində epizodik aktların gəlişi. Azərbaycan dili tarixi məsələləri. Bakı, 1959
13. Черепанова О.А. О соотношении понятий «семантический синкретизм» и «лексико-семантическая группа» в применении к лексической системе древнерусского языка. Русская культура нового столетия: Проблемы изучения, сохранения и использования историко-культурного наследия/ гл. ред. Г.В. Судаков. Сост. С.А. Тихомиров. Вологда: Книжное наследие, 2007
14. Cəfərov.S. Müasir Azərbaycandili. Leksika. II hissə, Bakı, «Maarif» nəşriyyatı, 1982
15. Aslanov V. Azərbaycan dilinin tarixinə dair tədqiqlər. III. Bakı, «Elm», 2012
16.Пименова М.Вас. Лексико-семантический синкретизм как проявление формально-содержательной языковой асимметрии. «Вопрос языкознания», 2011, №3, с. 19-48; Никитин М.В. Основы лингвистической теории значения. М., Высшая шк. 1988, с. 168; Падучева Е.В. Динамические модели в семантике

лексики. М.: Языки славянской культуры, 2004, с. 606; Трегубов А.Н. Исторические изменения в значении слова. Уфа. Восточный университет, 2005, с. 180; Трегубов А.Н. Бинарный семантический анализ слова. Уфа: Вагант, 2006, с. 112; Трегубов А.Н. Исторические изменения в значении слова: фоносемантический аспект. Саарбрцжкен: ЛАП ЛАМБЕРТ Ажадемиж Пкублисщинэ, 2011, с. 174.

İSTİFADƏ OLUNMUŞ MƏNBƏLƏR

1.KV-Kadı Burşaneddin Divani. Prof. Dr. Muharrem Ergin. İstanbul, 1980 (XIVəsr)
2.QB-QaziBürhanəddin. Divan. «Öndər Nəşriyyat», Bakı, 2005, 726 s.
3. ŞH: Şühədanamə. Bakı, «Elm», 2019, 681+334 səh. Əlyazmanın mətnininəşrə hazırlayan, «önsöz» ünmüllifi, izahlar və lüğətin tərtibçisi: Möhsün Nağısoylu.
4. MK-Mahmud Kaşğari. «Divanü luğat-it türk.»

АСКЕРОВА ТУРКЯН

РЕЗЮМЕ
ЯВЛЕНИЕ СИНКРЕТИЗМА В АЗЕРБАЙДЖАНСКОМ ЛИТЕРАТУРНОМ ЯЗЫКЕ XIII-XVI ВЕКОВ

Ключевые слова: *азербайджанский литературный язык XIII-XVI вв., синкретические корни, историческое изменение, морфологическая нейтрализация, изменение значения слова.*

В XIII-XVI веках в источниках азербайджанского литературного языка фонетический тип словообразования сохранял свою актуальность.

Если с одной стороны азербайджанская литература, развивавшаяся тогда в новом направлении, традиционно опиралась на лексические единицы и выражения языка литературных памятников, сформированных до этого периода тюркскими народами, то с другой стороны должным образом пользовалась возможностями общенародного азербайджанского языка.

В проведенных исследованиях определяются важные направления словообразования этого типа, включающие в себя образование синкретических слов в условиях тональности (I); образование синкретических корней посредством метафоризации (II); образование новых слов путем фонетического изменения, происходящего в начале, середине и конце лексической единицы (III).

Данный исторический процесс называется в словообразовании явлением синкретизма. Оно охватывает синкретические корни. Эластичность явления на этом этапе определяет именно материальную основу широты и охвата выражения нормативных форм.

Термин «синкретизм» означает неразрывность, сочетание противоречивых взглядов, свойственных для начальной стадии развития чего-либо в философии. Синкретизм является формой эклектизма.

Название, зародившегося в Древней Греции философского течения эклектика, происходит от греческого *eklektikas* или *exlegein* (избирательный) и употребляется в значении «системы, возникающей в результате сочетания взглядов, относящихся к той или иной системе или имеющих самостоятельное значение». Таким образом, основным мотивом создания нового слова от первоначальных корней путем фонетического изменения является то, что в литературных образцах XIII-XIV веков слова, образованные от корневой основы, теряют смысловую связь с предыдущим корнем.

Между всеми словами, образованными от одной корневой основы, проявляется внутрисемантическая связь. В зависимости от уровней языка существуют различные типы синкретизма, заложившие, в свою очередь, основу разных направлений в тюркологии. Например, по мнению А. М. Щербака, тональность, характерная для односложных слов, считается основным принципом образования синкретических корней. Действительно, тональность сыграла важную роль в дифференциации речи и односложных корневых синкретизмов, относящихся к существительному и глаголу.

Например, слово *al* в форме существительного в условиях тональности выступало в слабой позиции, а в форме глагола – в сильной. Это свидетельствует об отсутствии на раннем этапе словообразовательного процесса языка других средств, отличавших существительных от глаголов, образованных от одного корня.

TURKAN ASKEROVA

THE PHENOMENON OF SYNCRETISM IN THE AZERBAIJANI LITERARY LANGUAGE OF THE XIII-XVI CENTURIES

Keywords: XIII-XVI centuries Azerbaijan literary language, syncretic roots, historical change, morphological neutralization, change of word meaning.

In the XIII-XVI centuries, the phonetic type of word formation in the sources of the Azerbaijani literary language retains its relevance. If the Azerbaijani literature developing in a new direction in those centuries was traditionally based on lexical units and expressions in the language of literary monuments formed by the Turkic peoples up to this period, on the other hand, they used the opportunities of the national Azerbaijani language in the necessary way.

Research in this area identifies important areas of this type of word formation. These directions are: (I) the formation of syncretic words in tonal conditions; (II) the

formation of syncretic roots through metaphor; (III) the formation of new words by phonetic change at the beginning, middle and end of the lexical unit.

This historical process in word formation is called the phenomenon of syncretism. This phenomenon covers syncretic roots. The elasticity of the phenomenon at this stage determines the material basis for the breadth and scope of the expression of normative forms.

The term "syncretism" means continuity, a combination of conflicting views, characteristic of the initial stage of development of something in philosophy. Syncretism is a form of eclecticism. The name of the philosophical movement of eclecticism, which originated in Ancient Greece, comes from the Greek eklektikas or exlegein (selective) and is used in the meaning of "a system resulting from a combination of views related to a particular system or having an independent meaning." Thus, the main motive for creating a new word from the original roots by phonetic change is that in the literary samples of the XIII-XIV centuries, words formed from the root stem lose their semantic connection with the previous root.

Between all words formed from the same root stem, an intra-semantic connection is manifested. Depending on the levels of the language, there are different types of syncretism, which, in turn, laid the foundation for different trends in Turkic studies. For example, according to A. M. Shcherbak, the tonality characteristic of monosyllabic words is considered the main principle of the formation of syncretic roots. Indeed, tonality has played an important role in the differentiation of speech and monosyllabic root syncretisms relating to a noun and a verb. For example, the word al in the form of a noun in terms of tonality appeared in a weak position, and in the form of a verb - in a strong position.

This indicates the absence at an early stage of the word-formation process of the language of other means that distinguished nouns from verbs formed from the same root.

Redaksiyaya daxil olma tarixi: 18.05.2022
Çapa qəbul olunma tarixi: 07.06.2022
Rəyçi: Professor İsmayıl Kazımov
tərəfindən çapa tövsiyə olunmuşdur

AYNUR MƏMMƏD QIZI MƏMMƏDOVA
Azadlıq prospekti
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
aynur252@mail.ru

THE NECESSITY OF IDIOMS TO ENGLISH LANGUAGE LEARNERS

SUMMARY

One of the keys to speaking like a native is the ability to use and understand casual expressions, such as idioms. All languages are full of idioms, and native speakers use them spontaneously without even thinking about their figurative nature. But the usage of idiomatic expressions by non-native speakers is considered as an important issue and is regarded as an essential part of the English language competence. They shouldn't be neglected and shouldn't be taken for granted. Idioms are a part of every language's vocabulary and are based on that language heritage, history and culture. Learning idiomatic expressions helps non-native speakers of a language become more fluent and sound more natural. But the usage of idioms isn't "a piece of cake" (something easily achieved). It takes a long time to learn how to use an expression accurately. If you use the wrong expression at the wrong time, it will sound weird.

This article aims to discuss the importance of idiomatic expressions, to understand them more closely, and give you some ideas about how to teach them.

Key words: idiomatic expression, idiom, teaching, the English language, natural, learn, speech.

The English language has more than 1,000,000 words and is one of the most flexible languages in the world. It's a living language, like those other languages we use today. Understanding the lexicon of English demands more than knowing the denotative meaning of words. It requires its speakers to have connotative word comprehension and more, an understanding of figurative language. Idioms fall into this final category.

An idiom is an expression, that is a term or phrase whose meaning cannot be deduced from the literal definitions and the arrangement of its parts, but refers instead to a figurative meaning that is known only through common use. Because of this, they are a challenge for language learners. It's therefore common for them and their meanings to be taught and remembered, as opposed to learning their structures. They also known as idiomatic expressions. The English language contains more than 25.000 idiomatic expressions. English idioms are a big part of daily English. Learning common idioms help us sound more like a native speaker. Native speakers

use these expressions daily in their speech. They help us to speak English in a more natural way. They add color to our speech. Without idioms our language would become dull. Most idioms contain an extremely profound and rich meaning. They carry a vivid image. They can be confusing for non-native English speakers because if taken literally, they simply don't make sense. English idiomatic expressions are used in both formal and informal communications.

Idioms are not only a part of language, but also they are the part of universal communication. We use idioms for theoretical purposes, and if we categorize idioms, they can be used in different ways for different purposes. Whatever it may be definitions of idioms don't produce a class that conforms more or less well to general understanding. We can know the theme of idiom in sentence, which is used by the writer or speaker. But among ESL (English as a second language) learners, figurative language is not used and learned, as it should be. They hardly use idioms in their conversations. Mainly native speakers of English use idioms, and there are less native speakers than ESL speakers. ESL speakers need to know idioms so crucially.

In order to preserve humorousness and originality of the English language idioms should be learned and used in English.

Non-native speakers of English are found in different parts of the world. The usage of idiomatic expressions by those speakers is considered as an important issue and is regarded as an essential part of the English Language competence. It is a necessity that all speakers of the English Language become aware and proficient in using English idiomatic expressions. It is essential and is considered a big part of English language proficiency to be able to use idiomatic expression when communicating in the English Language. However, many English learners, especially those of Arabic origin, lack the competence to use English idiomatic expressions adequately.

In the English language, idiomatic expressions are spontaneously used by native speakers daily. It is an essential part of the English language lexicon and vocabulary. Idiomatic expressions are, therefore, considered inevitable for non-native speakers of English. As a result, non-native speakers of English should get accustomed to using these expressions. Non-native speakers of English need to learn idiomatic expressions and practice how to use them, parallel to native speakers. As such, it is a requirement to include idiomatic expressions in English as a second language and English as a foreign language (EFL) classrooms and in their teaching materials.

Non-native speakers of English have been found incapable of using idiomatic expressions.unlike native speakers of English, non-native speakers lack the ability to use idiomatic expressions and to understand their meanings adequately. This presents a problem in non-native speakers' knowledge and proficiency of the English language and is considered a gap in their language learning process. Idiomatic

expressions or idioms should not be neglected and should not be taken for granted. Idiomatic expressions are a part of every language's vocabulary and are based on that language history, heritage, and culture. Learning idiomatic expressions helps non-native speakers of a language become more fluent, and sound more native-like. Learning idiomatic expressions increases the vocabulary and lexicon of the English Language learner. Moreover, idiomatic knowledge leads to a better understanding of the culture and customs of that particular language. English language teachers should teach idiomatic language to their students and not overlook such a vital issue. Students understand the meaning of idiomatic expressions and they use them in communication with native speakers. learning idiomatic expressions by foreigners help them to use frequently parallel to English Language native speakers.

The origin of idiom as stated in different sources is as

a). Many idioms are formed from work and technology, a large number of idioms come from a time when far more people worked on the land, there are many idioms which refer to farm animals, for example, the black sheep of the family, take the bull by the horns, don't count your chickens, etc.

b). Some idioms are formed from rural life, transport, for example, strike while the iron is hot, put somebody through the mill, eat like a horse, put the cart before the horse,

c). Many idioms came into existence from science and technology, for example, she has a short fuse, we are on the same wave length, I need to recharge my batteries etc,

d). Every year many idioms enter into the English language from the world of sports and entertainment, for example, have a good innings, dice with death, behind the scenes,

e). Many idioms have entered English from literature and history, for example, sour grapes, the goose that laid the golden eggs, the streets are paved with gold, etc.

f). Idioms came from the Bible, Shakespeare's works, for example, the salt of the earth, fall by the way side, your pound of flesh, ships that pass in the night, etc.

j). There are a large number of idioms in which a part of the body represents particular quality or ability, for example, use your head, the idea never entered my head, she broke his heart, he opened his heart, I speak from the bottom of my heart, the news finally reached her ears, keep your mouth shut. etc,

k). Many idioms come from feelings and emotions, for example, give him a black look, lose your bearings, in seventh heaven, in high spirits, it was love at first sight, etc.

To distinguish idioms from other phrases and sayings, the following properties can be considered:

- *Conventionality*: The overall meaning of an idiom can't (entirely) be predicted from the literal meaning of each word which form them

- *Inflexibility*: Their syntax is restricted, i.e. they don't vary much in the way they are composed.
- *Figuration*: They typically have figurative meaning stemming from metaphors, hyperboles and other types of figuration.
- *Proverbiality*: They usually describe a recurrent social situation.
- *Informality*: They're associated with less formal language such as colloquialism.
- *Affect*: They typically imply an affective stance toward something rather than a neutral one.

Integrating idioms in the teaching and learning process of English has been found very essential and effective technique to help teachers and students support an innovative environment of learning and communication because it could be an effective way to provide students better conditions to improve their communicative skills. A positive relationship between idiom comprehension and reading comprehension as well as academic achievement was found.

Why teach idioms?

Reason One addresses the benefits derived from etymological explorations

In ***Reason Two,*** the issues associated with idiom understanding are then developed with a discussion of authentic aural and print media materials. The move from idiom comprehension (listening and reading) to idiom production (speaking and writing) is discussed In Reasons Three and Four.

Reason Three takes a close look at the types of language-production activities that research has shown to promote idiomaticity in speaking and writing. An interactive exercise between author and reader underscores the arguments made in this section.

Reason Four explores the mental images and (meta)cognitive processing involved in idiom production.

Reason Five advocates three specific proposals for the development of a systematic idiom-learning methodology in the four basic language skill (listening, reading, writing, and speaking), leading to the creation of a new model of the processes and skills required for fluent L2 idiom use.

***Reason* Six** Students very often describe situations for which an idiom is the best way of expressing what they want to say. Giving them the idiom therefore expands their ability to communicate their meaning.

It's actually impossible to avoid idiomatic language altogether, and many expressions which seem natural to a native speaker have a metaphorical meaning which, once understood, clarifies the expression for learners. For example, native speakers often uses the expression 'fed up' to mean bored and frustrated because they have had enough of something. But how much easier is it to remember once

you understand that this feeling has arisen because you have ‘eaten’ something until you are completely full of it?

Reason Seven Learners don’t necessarily have to use a lot of idioms but they will need to have the most common ones in their passive knowledge if they wish to maximise their understanding of the language. This is as true of written language as spoken. Newspaper headlines are a good example here.

Finally, idioms are an enjoyable way of using language and enjoyment helps us to learn more effectively.

How to teach idioms?

We enjoy teaching idioms because we find them fascinating. A good way of teaching idioms is that of grouping them according to topic, e.g., idioms that have to do with parts of the body, idioms about color, etc.

We also find it very interesting to contrast and compare idioms in English with the students' or our native languageThis is because one can discuss the origin of the idiom and how different languages may express the same idea in similar ways. Another way of teaching idioms is finding them in a context.

If we teach idioms along with the other simple word lists. We believe, that the English Teacher has to help the learners get to know how to use the Dictionary very effectively. There comes a challenging task of teaching pronunciation, functional category, distinct layers of meaning, usage and model sentences along with idioms and phrasal verbs. We recommend you majorly use pictures to make the process easier than you can even imagine.

We use 8-12 steps to teach a group of idioms. For example;

- Show them the pictures and ask random questions about what they know about the pictures and in this case pictures of the animals. (Emphasize on the most common characteristics of those animals);
- Tell them a story using the idioms you intend to teach.
- Write the idioms on the board as you are telling the story.
- Ask them to guess what the new idioms mean according to the context.
- You could have a group work here if possible.
- Tell them the meaning of the idioms.
- Give them extra examples using the new idioms (in context if possible)
- You could ask them to create their own examples.
- Re-tell the story focusing on the new idioms.
- Give then a group work activity to write very short stories using the new idioms (you could make a homework out of this step if you are pressed with time)
- Ask them to read their short stories to keep them motivated.

- Ask the other students to summarize their partners' stories.

Now the exact meaning of the idiom is difficult to figure out without more clues but by analyzing the context surrounding the idiom you can get a pretty good idea of what it means.

Ideally, vocabulary shouldn't be learned in a vacuum, and this is especially true for idioms. There are a variety of idiom dictionaries for those who wish to learn more about idioms. Newspapers and magazines, radio programs, television shows and films also sources of idioms. Roleplaying, writing and interactive activities such as matching the parts of idioms are some activities that can help L2 expand their knowledge and use of idioms.

REFERENCES:

1. Ambrose J. "Why idioms are important for English Language Learners". Mikolayv State Pedaqoqocal University, 2008.
2. Larsen-Freeman D. "Techniques and principles in language teaching".New York: Oxford University Press, 1986.

Sigrit Jermoskin. The Cognitive Linguistic Approach to Teaching idioms. 2017

.**Айнур Маммадова**

НЕОБХОДИМОСТЬ ИДИОМ ДЛЯ ИЗУЧАЮЩИХ АНГЛИЙСКИЙ ЯЗЫК
РЕЗЮМЕ

Одним из ключей к тому, чтобы говорить как носитель языка, является способность использовать и понимать идиомы. Все языки полны идиом, и носители языка используют их спонтанно, даже не задумываясь об их образной природе. Но использование идиоматических выражений не носителями языка считается важной проблемой и рассматривается как неотъемлемая часть владения английским языком. Ими нельзя пренебрегать и принимать их как должное. Идиомы являются частью словарного запаса каждого языка и основаны на языковом наследии, истории и культуре. Изучение идиоматических выражений помогает носителям языка, для которых он не является родным, говорить более бегло и звучать более естественно. Но использование идиом не является «легким делом» (что-то легко достижимое). Требуется много времени, чтобы научиться правильно использовать выражение. Если вы используете неправильное выражение в неподходящее время, это будет звучать странно.

Цель этой статьи — обсудить важность идиоматических выражений, лучше понять их и дать вам некоторые идеи о том, как их преподавать.

Ключевые слова: идиоматическое выражение, идиома, обучение, английский язык, естественный, обучение, речь.

Aynur Məmmədova

İngilis dili öyrənənlər üçün idiomların əhəmiyyəti.

XÜLASƏ

İnglis dilində doğma dil kimi danişmağın açarlarından biri də idiomlardan istifadə etmək və başa düşmək bacarığıdır. Bütün dillər idiomlarla zəngindir və ingilis dili ana dili olan dil daşıyıcıları onların hərfi mənasını düşünmədən kortəbii şəkildə istifadə edirlər. Qeyri-ingilis dillilər tərəfindən idiomatik ifadələrin istifadəsi vacib məsələ hesab olunur. İdiomatik ifadələr hər bir dilin lüğət tərkibinin bir hissəsidir və həmin dil irsinə, tarixinə və mədəniyyətinə əsaslanır. İdiomatik ifadələri öyrənmək ingilis dili ana dili olmayan dil daşıyıcılarına bu dildə daha səlis danışmağa və daha təbii səslənməyə kömək edir. Ancaq idiomların istifadəsi asanlıqla əldə edilən bir şey deyil. Onlardan düzgün istifadə etməyi öyrənmək çox vaxt aparır. Yanlış zamanda yanlış ifadə işlətsəniz, qəribə səslənəcək.

Bu məqalə idiomatik ifadələrin əhəmiyyətini müzakirə etmək, onları daha yaxından başa düşmək və onları necə öyrətmək barədə sizə bəzi fikirlər vermək məqsədi daşıyır.

Açar sözlər: idiomatik ifadə, idiom, tədris, ingilis dili, təbii, öyrənmək, nitq.

Redaksiyaya daxil olma tarixi: 18.05.2022
Çapa qəbul olunma tarixi: 07.06.2022
Rəyçi: fəlsəfə üzrə fəlsəfə doktoru Leyla Abıyeva
tərəfindən çapa tövsiyə olunmuşdur

AYTAC NƏBIYEVA RUSLAN Q
Odlar Yurdu Universiteti
aytacnabiyevaa@gmail.com

XARİCİ DİLİN TƏDRİSİNDƏ KOMMUNİKATİV YANAŞMA

XÜLASƏ

Məqalədə müasir dövrdə ingilis dilinin tədrisində kommunikativ yanaşma metodunun tətbiqi barəsində danışılmış, bu yanaşmanın səmərəli təşkili yollarının araşdırılması təhlil edilmiş və əsaslandırılmışdır.

Son zamanlar beynəlxalq dil kimi üstünlük təşkil edən ingilis dilində rabitəli və sürətli danışıq fəaliyyəti istiqamətinin metodiki ədəbiyyatda ən çox araşdırılan sahə olması və bu sahədə yaranan problemlərə marağın durmadan artdığı üçün mövzunun aktuallıq kəsb etdiyi vurğulanmışdır.

Təlimdə səmərəli ünsiyyət danışıq fəaliyyətində öz tətbiqini tapdığı üçün, bu sahədə bir sıra kommunikativ metodların tətbiqindən söz açılmışdır.

Şifahi nitq bacarıqlarını formalaşdıran kommunikativ metodların, dinləyib-anlama və danışıq fəaliyyəti növlərinin üstünlükləri qeyd olunmuşdur.

"Tapşırıqlı təlim metodu", "Fiziki hərəkətlərə cavab", "Çevik dəyişmə" metodu, "İnformasiya boşluqları", kompüter əsaslı dilin öyrənilməsi, mətnlərin dialoqlaşdırılması, oyunlar, komandalarda müzakirə, layihə əsaslı təlim kimi ən son nümunəvi kommunikativ metodlar barəsində məlumat verilmişdir.

Yekun hissədə şifahi nitqin formalaşmasında kommunikasiyanın yaradılması üçün innovativ metodların tətbiqinin çox mühüm şərt olması qeyd olunmuşdur.

Açar sözlər: *kommunikasiya, şifahi nitq, aspekt, kommunikativ yanaşma, metod.*

Son zamanlar beynəlxalq dil kimi üstünlük təşkil edən ingilis dilində rabitəli və sürətli danışıq fəaliyyəti istiqaməti metodiki ədəbiyyatda ən çox araşdırılan sahədir və bu sahədə yaranan problemlərə maraq durmadan artdığı üçün mövzumuz aktuallıq kəsb edir.

Ümumtəhsil məktəblərində ingilis dili dərslərində şagirdlərin şifahi nitq fəaliyyətinin effektiv yollarının inkişaf etdirilməsində şifahi nitq kriteriyalarının müəyyənləşdirilməsi, müxtəlif metodlardan istifadə kommunikativ bacarıqların formalaşmasına xidmət göstərir.

M.Svona görə, kommunikativ yanaşmada tətbiq olunan nitqdə dilin dəqiq, səlis səciyyədən daha çox, axıcı və rabitəli səciyyəyə malik olmasına şərait və imkanın yaradılması VI-VIII siniflərdə tədrisin əsas məqsədini təşkil edir. Şagirdlərin dili müstəqil şəkildə öyrənməyə cəlb olunması lazım gəlir. Lakin bu yanaşmada heç bir metodiki yanaşma və şagird tələbləri əsas götürülmür və müasir

kommunikasiyanın yaranmasında müəyyən qədər mürəkkəbliklər nəzərə çarpır. Şagirdlər danışıq zamanı fəaliyyətin növündən asılı olaraq, onun hansı məqsədlə işlədiyini düzgün ifadə etməyə müvəffəq olmalıdır. (7,s.45)

Şifahi nitqin formalaşmasında uyğun kommunikasiya üçün danışma, lüğətin, tələffüzün və qrammatik qaydaların ən önəmli sahə olduğuna bir çox ədəbiyyatlarda rast gəlinir. Təlimdə səmərəli ünsiyyət, ilk növbədə, danışıq fəaliyyətində öz tətbiqini tapmalıdır. Bu sahədə bir sıra kommunikativ metodların tətbiqinə başlanmışdır.

Şifahi nitq bacarıqlarını formalaşdıran kommunikativ metodlar. Xarici dildə dinləyib-anlama, danışma, oxu və yazı bacarıqlarının formalaşmasına fokuslanmaqla, informasiyanın əldə edilməsi, nitq baryerlərinin aşılması, özünü təqdimetmə bacarıqların qazanılması, mədəniyyətlərin öyrənilməsi və cəmiyyətin fəal üzvü olmaq danışıq zamanı kommunikativ fəaliyyətlərin real məqsədlərini təşkil edir. Müxtəlif metodlar məcmusu, yanaşmalar, üsul və vasitələr, nitq modelləri, şifahi və yazılı kommunikativ nitq çalışmaları bu fəaliyyətlərə daxildir.

"Tapşırıqlı təlim metodu" ("Task training method" (TBL)), "Fiziki hərəkətlərə cavab" ("Total Physical Response" (TPR)), "Çevik dəyişmə metodu" ("Flipped Learning"), "İnformasiya boşluqları" ("Information Gap"), kompüter əsaslı dilin öyrənilməsi ("CALL"), mətnlərin dialoqlaşdırılması, oyunlar, komandalarda müzakirə, layihə əsaslı təlim ("Project based learning") kimi metodlar ən son nümunəvi kommunikativ metodlara aiddir. (4,s.67)

Danışıq zamanı kommunikativ vərdişlərin hansı tərkib hissələrindən ibarət olmasını bilmək təlimdə çox vacib şərtlərdəndir. İnformasiyanı ötürən və qəbul edən arasında olan prosesin müxtəlif metodlar vasitəsilə tədris olunması bu şərtlərə daxildir ki, yazılı və danışılan sözlər, qeyri-verbal hərəkətlər və s. bu mexanizmlərə aid edilir.

"İnteraktiv danışıq fəaliyyəti" ("İnteractive Speaking") müasir metodların tətbiqində ən çox istifadə olunan və kommunikasiya üçün daha geniş və səmərəli mühit yaradan fəaliyyət növüdür. Qruplarda və kollektivdə, bəzi hallarda isə cütlükdə interaktiv şəkildə kommunikasiya prosesi yaranır. V-IX siniflərdə şagirdlərin dilin qarşılıqlı təsirdə öyrənilməsində interaktivliyin transaksional məqsədinə nail olunmasına şərait yaradılmalıdır, yəni onları qarşılıqlı fikir mübadiləsinə cəlb etməklə bərabər, sosial vərdişlərin formalaşmasına çatması tələb olunur. İnteraktiv danışıq fəaliyyətində dil praqmatik şəkildə kompleks səciyyə daşıyır və dil əksərən danışıq dili səciyyəsinə malik olur, bu zaman qısaltmaların, jarqonların və digər sosial konvensiyaların işlənməsi təklif olunur. Bir vacib nüans da danışana mane olmağı gizlətmək və öz fikrini bildirmək üçün üzdə ifadə tərzinin danışanın fikrinə münasibət bildirməsidir. (5,s.113)

Effektiv kommunikasiya üçün tətbiq olunan metodlar, öz növbəsində, qeyri-verbal səciyyə daşıyır ki, buraya jestin, mimikanın, bədən dilinin yerli-yerində istifadəsi, əllərin hərəkəti, üz ifadəsinin, mimikanın aydın göstərilməsi kimi ünsiyyət vərdişləri daxildir. Səs tonunun düzgün işlənməsi və danışıq prosesində müraciətlərin

ünvanlanmasında şagirdlərin bu vərdişləri özlərində formalaşdırması olduqca vacibdir. Başlıca şərtlərdən birini informasiyaların ötürülməsində onların qarışdırılmaması təşkil edir. Müşahidələr zamanı şagirdlərin bəzən məlumatların məzmununu başa düşmədən sistemsiz ifadə etməsində üz ifadələrinin yersiz istifadəsinə daha çox rast gəlinir.

Ünsiyyət zamanı şagirdlərin təmkinli, vicdanlı, həssas, səmimi, hörmətcil və dözümlü olması mühüm amillərdəndir. Səmərəli dinləyib-anlama, intonasiya, lüğətin inkişafına daha çox imkan yaratmaq şagirdlərin kommunikasiyaya tam hazır olmasını şərtləndirir. Bu şərtlərin tam təminatı nitq fəaliyyətinin tərkib hissələrinin yerinə yetirilməsinə əsaslanır.

Dinləyib-anlama və danışıq fəaliyyəti növləri. Kommunikativ danışıq fəaliyyətinin ən uğurlu vasitələrindən biri də "İnformasiya boşluqları" ("İnformation Gap") metodudur və təlim prosesində şagirdlərin ən çox üz-üzə qaldıqları problemi çözməyə şərait yaradır. "İnformasiya boşluqları" həm metodoloji, həm də fizioloji cəhətdən faydalı bir fəaliyyət növüdür. Bu metod tətbiq edilən zaman məlumatlar iki müxtəlif vərəqdə müəyyən boşluqlarla verilir. Şagird A-da olan vərəqdə verilmiş boşluq şagird B-nin vərəqində verilmiş, şagird B-nin informasiya boşluğu isə şagird A-nın vərəqində verilmişdir. Bu, şagirdlərin hər hansı bir informasiya boşluğunun iki tərəf arasında müzakirə edilməklə doldurulması vasitəsidir. Bu metod, həmçinin şagirdlərin dinləyib-anlama bacarıqlarının daha tez formalaşdırılmasına qatqı göstərir. Boşluqla üz-üzə gələn tərəf digər tərəfi diqqətlə dinləyib məlumatını tamamlamalı və onun nitqinin davamını dinləyib yoldaşının üzləşdiyi boşluğu tez doldurmalıdır. Hər iki tərəf çox diqqətli olub, informasiyaları bölüşdürür və maraqlı ünsiyyət qururlar.

"Söhbət toru" ("Convesation Grids") sinifdə və sinifdənxaric mühitdə daha tez qurulan kommunikativ fəaliyyət növü sayılır. İngilis dilində aparılan söhbətlər müəyyən mənada əyləncəli olmalıdır, lakin elə etmək lazımdır ki, kommunikasiyanın bu struktur dərs modelindən şagirdlər maksimal dərəcədə yararlana bilsin. Söhbətlər zamanı onlar şəkillər üzrə yeni sözlər öyrənir, nitq etiketlərindən istifadə etməklə dialoqlarda fikir mübadiləsi aparır, gündəlik ifadə vasitələrini təcrübədə istifadə edir, "summer holidays","free time", "language learning", "countries and people" kimi müxtəlif mövzuların müzakirəsini aparırlar.

Şifahi söhbətlər dedikdə, V-IX sinif şagirdləri arasında kiçik həcmli, birmərhələli söhbətlərdən daha geniş həcmli söhbətlərə qədər davam etdirilən söhbətlər nəzərdə tutulur. V-VI siniflərdə müəllim hər hansı bir mövzu ətrafında şagirdləri söhbətə cəlb edə bilər.

Spontan şəkildə aparılan söhbətlər interaktivlik yaradır. Söhbət torunu yaratmaq üçün şagirdlərə autentik, sərbəst və müəllimin yönləndirməsindən asılı olmayan fəaliyyətlər təqdim olunur. Bu zaman, W/H – suallarından istifadə edərək şagirdlər tərəfindən sorğu tərtib edilir, mövzuya uyğun lüğət seçilir və mədəni aspektlər təyin edilir. (3,s.96)

Strip hekayələr üzərində şagirdlərin ardıcıl nitqi formalaşır. Bu tip hekayələr şagirdlərə kəsilmiş kiçik vərəqlərdə təqdim edilir. Verilmiş vərəqlərin ardıcıl düzülməsi üçün onlar "first", "then", "finally" kimi əlaqələndirici sözlərdən istifadə etməklə hekayənin sıralanmasını məntiqi ardıcıllıq ilə tamamlayır və orijinal variantla yoxlayır. Bu kimi fəaliyyətlərlə şagirdlərin danışıq fəaliyyətində ardıcıl fikir yürütmək qabiliyyəti formalaşır. Şagirdlər tərəfindən bu hərəkətlər təkrarlanmaqla, mətnin məzmunu və sözləri nitq prosesində ifadə olunur.

Mənanın açıqlanmasında diqqətin əsas kriteriya olduğunu önə çəkən və qrammatik qaydaların induktiv tədrisinə yönəldilən metod isə "Fiziki hərəkətlərə cavab" ("Total Physical Response" (TPR)) metodudur. Bu vasitə yaddaşın möhkəmlənməsinə qatqı göstərir və fiziki tərbiyə fənninə inteqrasiya edərək, şagirdlərin bütöv şəkildə mövzunu mənimsəməsinə yardımçı olur. Şagirdlərə təsviri mətnlərin bu şəkildə mənimsədilməsində TPR metodu xüsusi əhəmiyyət kəsb edir və bu metodun vasitəsilə hekayə və mətnlərin hərəki formada tətbiqinə şərait yaratmaq lazım gəlir. TPR komanda şəklində icra edilir, şagirdlər dairədə, yumorlu şəkildə fikirlərini ifadə edir, danışıq zamanı olan qorxunun öhdəsindən gəlirlər.

İngilis dilinin səmərəli tədrisində ən yeni üsullar sırasında multimedia vasitələrinin, dilin müasir kommunikativ texnologiyalarının tətbiqi dayanır. Televiziya, radio, kompüter, video nümunələrindən multimedia vasitələri kimi, həmçinin qəzet, jurnal, bədii kitablar, musiqi parçalarından autentik vasitə kimi istifadə etməklə şagirdləri kommunikasiyaya daha tez təşviq etmək olar. Təlimdə videofilmlərin qısa vaxtda nümayişi zamanı şagirdlər tanış olduqları yeni ifadələr, nitq modellərinin müxtəlif vəziyyətlərdə necə işlənməsi, onların tələffüzü, yeni müraciət formaları, jestlər və bədən dilinin işlənməsi ilə yaxından tanış olurlar.

İngilis dilinin sinif mühitində öyrənilməsində kommunikativ oyunların cəlbedici rolunu yaddan çıxarmaq olmaz. Oyunlar zamanı şagirdlər daha tez ünsiyyətə girirlər. Oyunların müasir pedaqoji yanaşma kimi təlimdə tədrisi və tətbiqi bir çox məqsədlərə xidmət göstərir. İlk növbədə, oyunlar uğurlu təlim nəticələrinin alınmasına, şagird maraqlarının hesaba alınmasına əsaslanaraq, təlimdə maraqlı ünsiyyət mühitinin yaradılmasına qatqı göstərir. Psixoloji baxımdan, müxtəlif oyunlarla təlim zamanı şagirdlər gərginliyi, daxili dünyalarındakı əskikliklərı, qorxu və tələşları unudaraq, sanki klinik fəaliyyətdə müalicə alırlar. Hətta yaşadığı sıxıntılı hadisələrdən qurtulmaq üçün oyun "çıxış yolu" rolunu da oynaya bilər. Müasir oyun texnologiyalarında təlim prosesi zamanı müəllim və şagirdlərin fəallığı tələb olunur. Müasir oyunlar vasitəsi ilə təlimin istər inkişafetdirici, istərsə də tərbiyələndirici funksiyaları təlimin keyfiyyətinin artırılmasına gətirib çıxarır.

Şifahi nitqin formalaşmasında kommunikasiyanın yaradılması üçün innovativ metodların tətbiqi çox mühüm şərtdir.

ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün xarici dil fənni üzrə təhsil proqramı (kurikulumu). Bakı. 2010.
2. F.Ə.Hüseynova. İngilis dili. Metodik Vəsait. Bakı, 2015.
3. İsmayılova D. Everyday Dialogues. Bakı. Mütərcim, 2001.
4. Гусейнзаде Г. Обучение речевой коммуникации на иностранном языке. Баку: Мутарджим, 2001.
5. Исмаилова Д. Общетеоретические аспекты культуроведческого общения иноязычной коммуникативной практики учащихся // Иностранные языки в Азербайджане, 2007, № 1.
6. Carter R., Mc Carthy M., Cambridge Grammar of English. "Spoken and Written of English". Cambridge University Press. 2005.
7. "The Total Physical Response Approach to Second Language Learning" by James J. Asher. The Modern Language Journal, Vol. 53, No. 1, 1969.

Aytaj Nabiyeva Ruslan

COMMUNICATIVE APPROACH IN FOREIGN LANGUAGE TEACHING

SUMMARY

The application of the communicative approach in the teaching of English in modern times was discussed, and the study of ways to effectively organize this approach has been analyzed and substantiated in the article.

It was emphasized that the topic is relevant because English, which has recently become an international language, is the most researched field in the methodological literature and the interest in the problems in this field is constantly growing.

As effective communication in the training finds its application in conversational activities, a number of communicative methods were discussed in this field.

There was a talk about the advantages of communicative methods that form oral speech skills and types of listening comprehension and speaking activities.

The latest exemplary communicative methods such as "Task Teaching Method", "Total Physical Response", "Flipped Learning", "Information Gap", computer-based language learning ("CALL"), dialogization of the text, games, team discussions, "Project based learning" were presented.

In the final part, it was noted that the application of innovative methods is a very important condition for the formation of communication in the formation of oral speech.

Key words: *communication, oral speech, aspect, communicative approach, method.*

Айтадж Набиева Руслан

КОММУНИКАТИВНЫЙ ПОДХОД К ОБУЧЕНИЮ ИНОСТРАННОМУ ЯЗЫКУ

РЕЗЮМЕ

В статье рассматривается применение коммуникативного подхода в обучении английскому языку в современное время, анализируются и обосновываются исследования способов эффективной организации этого подхода.

Было подчеркнуто, что тема актуальна, поскольку английский язык, ставший в последнее время международным языком, является наиболее исследуемой областью в методической литературе и интерес к проблемам в этой области постоянно растет.

Поскольку эффективное общение в обучении находит свое применение в разговорной деятельности, в этой области обсуждался ряд коммуникативных приемов.

Говорили о преимуществах коммуникативных методов, формирующих навыки устной речи и виды аудирования и речевой деятельности.

Представлены новейшие образцовые коммуникативные методы, такие как «Метод обучения задачам», «Общая физическая реакция», «Перевернутое обучение», «Информационный пробел», компьютерное изучение языка, диалогизация текста, игры, групповые обсуждения, «Обучение на основе проектов».

В заключительной части было отмечено, что применение инновационных методов является очень важным условием формирования общения при формировании устной речи.

Ключевые слова: *коммуникация, устная речь, аспект, коммуникативный подход, метод.*

Redaksiyaya daxil olma tarixi: 18.05.2022
Çapa qəbul olunma tarixi: 07.06.2022
Rəyçi: f.ü.f.d. dos. Səadət Abdurəhmanova tərəfindən çapa tövsiyə olunmuşdur

KÖNÜL HƏSƏNOVA KAMRAN QIZI
AMEA Nəsimi adına Dilçilik İnstitutu
AZ1073, Bakı şəhəri, H.Cavid prospekti, 115.
e-poçt: Hasanovaa.konul@mail.ru

TİFLİS ƏYALƏTİNİN MÜFƏSSƏL DƏFTƏRİNDƏ ETNONİM ƏSASLI TOPONİMLƏR

XÜLASƏ

İstər Azərbaycanda, istərsə də onun hüdudlarından kənarda yaşayan azərbaycanlıların coğrafi adları xalqımızın etnik tarixini, xüsusilə etnogenez problemini öyrənmək üçün zəngin mənbədir. Tarixi mənbə rolunu oynayan toponim xalqın dilinə məxsus etnotoponimlərdən (tayfa və xalq adları) və leksik vahidlərdən ibarətdir. Azərbaycan xalqının və onun dilinin formalaşmasına töhfə vermiş etnik prosesin əhatə etdiyi ərazinin üfüqü müasir Ermənistan ərazisini və qonşu rayonları (Gürcüstan) əhatə edir.

Etnotoponimlər tayfa və xalq adlarından gəldiyi üçün bu etnotoponimlər bu və digər tarixi mənbələrdə mövcud olan etnik tərkibi ehtiva edir. "Kitab"da qeyd olunduğu kimi, "Tiflis kitabı"nda Osmanlı dövründə tarixi Qazax və Borçalı bölgələrinin inzibati-ərazi quruluşu, iqtisadi və sosial vəziyyəti haqqında mühüm məlumatlar yer alır. Məqalədə etnotoponimlərin etimoloji izahına daha çox diqqət yetirilir.

Onomastik vahidlərin izahına daha çox yer verilmişdir. Tədqiqatçıların fikirlərindən fərqli olaraq yeni fikirlər irəli sürülmüşdür.

Açar sözlər: Tiflis əyalətinin müfəssəl dəftəri, toponimlər, etimologiya, Darbas, Dərbaz, Borçalı, Qazax,Söyüdlü, tarix, mənbə, xalq.

Xalqın tarixini öyrənmək üçün toponimlər böyük əhəmiyyətə malikdir. Toponimlər mənsub olduğu xalqın tarixini, dilini, coğrafi vəziyyətini əks etdirir. Azərbaycan xalqının tarixinə, mədəniyyətinə dair mənbələrdə həmin dövrə aid toponimlərin əksəriyyəti öz əksini tapmışdır. Bu baxımdan da orta dövr iqtisadi və sosial tariximizin bir çox tərəflərinin - etnoqrafiya, toponimika, etnonimika, onomastika, demoqrafiya və s. problemlərinin öyrənilməsi üçün Osmanlı təhrir dəftərləri çox önəmli qaynaqlardır. Lakin müxtəlif səbəblərdən Azərbaycanda bu qaynaqların araşdırılmasına kifayət qədər diqqət yetirilməmişdir. Tariximiz üçün bu dəftərlərin əhəmiyyətini dərk edib onların sistemli şəkildə tədqiqini təşkil edən akademik Ziya Məmmədov və Hüsaməddin Məmmədov bu dəftərlərin ilk mikrofilmlərini İstanbul arxivlərindən gətirməklə və onların hazırlanıb yayılmasında iştirak etməklə Azərbaycanda bu sahədə sistemli araşdırmaların əsasını qoymuşlar.

"Tiflis əyalətinin müfəssəl dəftəri" bu sahədə ən əhəmiyyətli işlərdəndir. Azərbaycan xalqına məxsus toponimlərin qeydə alındığı bu mənbə Osmanlı fəthindən sonra, 1723-1728-ci illərdə tərtib olunmuşdur. "Tiflis əyalətinin müfəssəl dəftəri" bəzi tarixi Azərbaycan torpaqlarını və o dövrdə müsəlman türk əhalisinin məskun olduğu bir sıra əraziləri əhatə edir. Dəftərdə qeyd olunan toponimlərin linqvistik baxımdan tədqiqata cəlb edilməsi olduqca əhəmiyyətlidir. Onların tətqiqi və tarixi-linqvistik təhlili xalqın tarixi, yayılma arealı, təfəkkürü ilə bağlı məsələlərin açılmasına kömək edir, həmçinin toponimlərin öyrənilməsi ilə əlaqədar müəyyən dil vahidlərinin formalaşması barədə də geniş fikirlər irəli sürmək imkanları yaranır.

Azərbaycanın hər iki hissəsində və onun ərazisindən kənarda yaşayan azərbaycanlıların coğrafi adları xalqımızın etnik tarixinin, xüsusilə etnogenizi probleminin araşdırılması üçün zəngin mənbədir. Tarixi mənbə rolunu oynayan toponimlər etnonimlərdən (tayfa və xalq adlarından) və xalqın dilinə mənsub leksik vahidlərdən ibarətdir. Leksik vahidlər şəxs adlarında da iştirak edir. Eramızın birinci minilliyi çərçivəsində, alban etnosunun mövcud olduğu bir dövrdə Albaniyadakı toponimlərin və şəxs adlarının təhlili əsasında Alban etnosunun türk mənşəli olduğu sübut edilmişdir. Bu da onu göstərir ki, Alban toponimlərinin və şəxs adlarının təhlili əsasında aparılan araşdırma yeni elmi nəticələrə gəlməyə imkan vermişdir. Azərbaycan xalqının və onun dilinin formalaşmasına yardımçı olmuş etnik prosesin əhatə etdiyi arealın üfüqünə indiki Ermənistan ərazisi və ona qonşu regionlar (Gürcüstan) da daxildir. Müxtəlif tayfa və xalq adlarını əks etdirən coğrafi adlar (etnotoponimlər) tarix elmi baxımından xüsusi əhəmiyyət kəsb edir.

Etnotoponim tayfa və xalq adlarından yarandığından bu və ya digər tarixi mərhələdə mövcud olmuş etnik tərkib həmin etnotoponimlərdə yaşayır (1, s.11). Toponimlər xalqın dilinin və etnik tərkibinin müəyyənləşdirilməsində böyük rol oynayır (2, s.405).

Başqa maraqlı bir fikri də diqqətə çatdırmaq istərdik: "Əgər ölkənin qəbilələri, kəndləri, binaları və qədim asarı geniş bir surətdə tədqiq edilərsə, əhalinin mənliyini təyin etmək mümkün olacaqdır" (3, s.29).

Bu məqalədə "Tiflis əyalətinin müfəssəl dəftəri" (Borçalı və Qazax) (1728-ci il) üzərində tədqiqat aparmaqda əsas məqsəd Gürcüstan ərazisində qeydə alınmış türkmənşəli toponimlərin tarixi etimologiyasını açmaqdır.

Mənbəyə əsasən, Osmanlı dönəmində Tiflis əyaləti aşağıdakı inzibati vahidlərindən ibarət idi: Baratlı nahiyəsi, Tumanis nahiyəsi, Dəmirçihəsənli nahiyəsi, Somxit livasının nahiyəsi, Taşır nahiyəsi, Pətək nahiyəsi, Ağcaqala livası, Qazax livasına tabe olan dörd nahiyə- İncə, Çuvar, Axstav və Türk nahiyələri.

Dəftərdə qeyd edildiyi kimi "Tiflis dəftəri" Osmanlı dönəmində tarixi Qazax və Borçalı bölgələrinin inzibati-ərazi quruluşu, iqtisadi durumu, burada yaşayan vergiyə mükəlləf əhalinin dini-etnik mənsubiyyəti və sosial statusu haqqında mühüm bilgilər verməkdədir (4, s.6-7). Daha geniş məlumat "Dəftəri-müfəssəli-əyaləti Tiflis"də yer adları"nda verilmişdir (5, s.156-162). Coğrafi adlarla bağlı olan bir sıra

qəbilə, tayfa adları təkcə respublikamızın ərazisində deyil, digər dövlətlərin ərazisi və tarixi ilə əlaqəli şəkildə öyrənilməlidir. Bu, hər hansı bir ərazidə tarixən sakin olmuş əhalinin etnik tərkibini öyrənməyə çox kömək edir (6, s.3).

"Tiflis əyalətinin müfəssəl dəftəri"ndə qeydə alınmış Darvaz – Darabaz – Darbaz - Dərbaz (4, s.100-103) *Dərbas* toponimik adı müxtəlif fonetik variantda verilmişdir. *Darabaz*- Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Qərbi Azərbaycanın, Ermənistanın Sisyan rayonunda) kənd adı kimi mövcud olmuşdur (1, s.226) (7, s.75). Bu kəndlərin əhalisi Ermənistan ərazisindən qovulmuş, onların yerinə Türkiyədən gəlmə ermənilər yerləşdirilmiş, kənd adları dəyişdirilmişdir. 1948-ci ildə kənd ermənicə *Darbis* adlandırılmışdır. Yerli əhali içərisində tələffüz forması Dər-Abbas, əsli *Darvaz* olmuşdur. İlk dəfə Babək ilə əlaqədar hadisələrdə ərəb mənbələrində Darvaz dağının adı qeyd olunur. Zəngəzurda Bazarçayın sol sahilində Darvaztəpə dağı vardır. Dağın adının fars dilində *darvaza "keçid", "qapı"* sözü ilə izah olunması səhvdir. Əslində toponim Suriya dilində *dair,* ərəbcə *deyr, "məbəd", "monastr və baz "təpə"* sözlərindən ibarətdir (8, s. 219) (1, s.226).

Fikrimizcə "baz" hissəciyinin başqa mənaları da var. Bu barədə yeri gəldikcə məlumat verəcəyik. Darbaz - kənd adı haqqında geniş bir məlumata Xəlil Əliyevin "40-cı otaqdakı tilsimlərin açarları" əsərində rast gəlirik. O, yazır: "Darbaz"(Bolnisi) kəndi Borçalıda qədim və böyük kəndlərdən biridir. Bu kəndin əhalisi dialekt fərqinə görə Borçalıda spesifik xüsusiyyətə malikdir. Darbaz-Darvaz kimi səslənən bu ad XIX əsrdə Tiflis quberniyasının Borçalı qəzasında iki Darvaz kəndi, Zaqatala rayonu ərazisində Darvazbinə kənd adları ilə mənaca eynidir. Toponimin "baz" hissəsi türk dillərində baz "dağ çökəkliyi", monqol dilində bayz, bays *"dikqaya", "sıldırım dağ"*ətəyində dar dərədə "çay axan qayalıq" mənalarında olduğu bildirilir. (1, s.226) Darbaz-Darvaz kimi səslənən bu qədim kəndin adından da göründüyü kimi Darbas sözündə toponim bildirən heç bir şəkilçi (lı, lar) iştirak etmir (9, s. 150-153). "Dəftər"də Dərbas, Dərbas Tala, Darbas Əntiqə toponimlərinin adlarına təsadüf edilir. Bundan başqa Azərbaycanda Darvazbinə adında kənd, Ermənistan ərazisində də eyniadlı toponim olmuşdur. Göründüyü kimi, toponim geniş areallı toponimlərdən fərqlənir. Sözün qədim yazılış forması *Dərbasdır.* Borçalı və Qazax dialektlərində, həm də türk dillərindəki fonetik əvəzlənmələrdə bunu aydın görmək olur. Məsələn, ədəbi dildəki "siyah" sözü dialektdə "ziyah" kimi işlənir. Tovuzun Aşağı Quşçu kəndində "siftə" əvəzinə "ziftə" deyilir. Darvazlılarda "spiçka"ya "zipiçka" deyilir. Dialektlərdəki bu xüsusiyyət alınma sözlərdə müşahidə olunur. Görünür, *Darbas* sözü də alınma sözdür. Müəllif bəzən Darvaz sözünün toponimik məna bildirən *–lı, -lar* şəkilçisi qəbul edə bilməsi fikrini də irəli sürür. Lakin yuxarıda qeyd olunan "Darvazlılar da spiçkaya zpiçka deyir" fikrini yazandan sonra həmin sözün, yəni toponimin - *Darbas* sözünün də alınma söz olduğunu bildirir. Daha sonra sözün qədim yazılış formasının *Dərbas* kimi olduğunu yazır və deyir ki, adlarını çəkdiyimiz digər nəsillər (ləzgi öyü, loşqalar, lesələr, gəlmələr, düşmələr) sübut edir

ki, Dərbas adı həmin nəsil adları ilə bağlı anlayışdır. Müəllif Sopenin fikirlərinə münasibət bildirərək Darbaz toponiminin "at" sözü ilə bağlı anlayış olduğunu qeyd edir (9, s.150-153). Çox maraqlıdır ki, müəllif *Dərbas* sözündəki "dər" komponentinin "at"la, Dərbənd sözündəki "dər" komponentinin isə "bağlamaq" sözü ilə bağlı olduğunu qeyd edir. *Dərbənd* sözünün "at bağlanan yer" mənasında olduğunu deyir. Bizə görə, bunlar müəllifin etimoloji versiyasıdır. Fikir o qədər də inandırıcı deyil. Onu da qeyd edək ki, Xəlil Əliyevin topladığı materiallar o qədər geniş və zəngindir ki, əsas məsələyə diqqət yetirmək nəzərdən qaçır və müxtəliflik, təkrarlıq yaranır.

Darvazbinə. Oykonim. Balakən rayonunun *Qazma* inzibati-ərazi vahidliyində (i.ə.v) kənddir. Alazan-Əyriçay çökəkliyindədir. Oykonim "darvaz" ("keçid", "açıq yer", "körpü", "iki bağ arasında çəpərdın keçid yeri") və "binə" ("müvəqqəti yaşayış yeri", "alaçıq", "kənd") komponentlərindən düzəlib "keçiddə olan binə" mənasındadır. XX əsrin əvvəllərində Gürcüstan ərazisində *Darvaz* (Darbaz) adlı iki yaşayış məntəqəsi Cavanşir qəzasında (Qarabağ) isə Darvaz adlı xarabalıq qeydə alınmışdır (10, s.150). Burada da müxtəlif mənbələrdə olan fikirlər təkrar olunur. Sözün dəqiq hansı dilə aid olduğu bildirilmir.

Başqa bir mənbədə *Darbaz* toponimi İrəvan quberniyasının Aleksandropol qəzasında, Rayon mərkəzindən 6 km məsafədə, indi Quqrar rayonunda kənd olaraq qeyd olunur. Pəmbək çayının yaxınlığında yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeydə alınmışdır (7, s.75).

Məlumdur ki, hər bir toponimik adın əsasında müəyyən coğrafi obyekt, müəyyən məkan məzmunu durur. Dildə isə coğrafi terminlər adlanan bir sıra sözlər vardır ki, bunlar müxtəlif məkan məzmunlu leksik vahidlər kimi coğrafi obyektlərin adlandırılmasında yaxından iştirak edir. Əsasən, kənd, oba, abad, qala, yurd, çay, göl, dağ, dərə, nohur, dəhnə və s. (6, s.128). Onu da qeyd edək ki, burada ən azı iki müxtəlif məzmunlu birləşmədən istifadə edilir. Bunların biri konkretləşdirici əlamət, digəri isə ümumi coğrafi obyekti ifadə edir. Bu da qrammatik cəhətdən dilimizdə əsas sintaktik sözdüzəldici vasitə olan təyini söz birləşməsi şəklində formalaşır.

Dilçilikdə mürəkkəb-analitik yolla sözyaratma sintaktik üsul adlanır. Yəni burada iki və daha artıq vahid müxtəlif münasibətlər əsasında birləşərək bir mürəkkəb leksik vahid əmələ gətirir. Onomastik vahidlərin bu yolla əmələ gəlməsinə dair Azərbaycan dilində çox müxtəlif dil fiqurlarına rast gəlinir. Bu onomastik dil hadisəsi bütün xüsusi adlar qrupunda özünü göstərir: antroponimlərdə, toponimlərdə, hidronimlərdə, kosmonimlərdə, ktematonimlərdə (11, s.29) (6, s.129).

Tayfa və nəsil adları ilə formalaşan kənd adlarını tarixi baxımdan daha qədim hesab etmək olar. Belə onomastik vahidləri (adları) çox vaxt etimoloji cəhətdən təhlil etmək də mümkün olmur. Nümunələrə diqqət yetirək: Ağcaqala nahiyəsinə tabe olan Bozanlı və Özənli adlı camaat, Bozanlı məhəlləsi və tayfası, Dərələyəz, Yemşən dərə və s. Buradan belə nəticəyə gəlmək olar ki, "dərə" sözü həm toponimik adların formalaşmasında özünü göstərir, həm də müstəqil toponim kimi formalaşıb. Digər

Dərbas, Dərvaz, Dərbaz sözlərindəki boz, bas, vaz hissəciyi də Bozanlı tayfası, Bozanlı məhəlləsi sözləri aydın tayfa adlarından yaranmışdır, özü də türk mənşəlidir, Bozanlı tayfalarından biridir. Çox qədim zamanlarda Borçalı əyalətində yerli türk xalqı kimi yaşamışlar.

Söyüdlü kəndi "Tiflis əyalətinin müfəssəl dəftəri"nin müxtəlif nahiyələrində - Somxit livasında, Taşır və Pətək nahiyələrində qeydə alınmışdır. Bunlardan əlavə, bəzi mənbələrdə də Söyüdlü kəndi haqqında məlumat verilir. *Söyüdlü* İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı kimi qeyd olunur (1, s.372**).** 1728-ci ilə aid mənbədə isə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində *Söyütlü* kimi qeyd olunmuşdur. 1878-ci ildə kəndin əhalisi qovulmuş və buraya Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1940-cı ildə kənd ermənicə *Sarnaxpur* adlandırılmışdır. XIX əsrdə Azərbaycanda və Ermənistanda Söyüdlü yer mənası fərqli izah oluna bilər. Bu toponimlərin bəziləri qədim türk mənşəli *Söyöt* tayfasının (məsələn, uyğurlarda bir tayfa indi də Soyot adlanır) adını əks etdirir. Anadoluda orta əsrlərdə Sürməli çökəkliyində Suqut sancağının adındandır. Söyüd ağacının (Avesta dilində suqut "müqəddəs" deməkdir) adından götürülmüşdür. Qədim türklərdə də söyüd ağacına sitayiş edilirdi.

Qeyd edək ki, XVIII əsrdə Anadoluda yaşayan Dumbuli tayfasının bir qolu da Söyüdlü adlanırdı. 1728-ci ilə aid türkcə mənbələrdə İrəvan əyalətinin Dərəçiçək nahiyəsində isə Soqutlukənd, Sürməli nahiyəsində Qalabulaq kəndinin nəzdində Sögütlü və həmin nahiyədə Sögüt adları göstərilmişdir (1, s.374-375). Burada adı çəkilən Söyüdlü toponimlərinin bir neçəsinin adını qeyd etdik. Verilən nümunələrdən və onların izahından aydınca görünür ki, Söyüdlü toponimik vahidi türkmənşəli sözdür və türk tayfalarının birinin adı ilə bağlıdır. Bunları əsas götürərək biz də qeyd edirik ki, "Tiflis əyalətinin müfəssəl dəftəri"ndə olan Söyüdlü toponimik adları da türkmənşəlidir və qədim türk tayfalarının birinin adıdır. Çünki türk tayfaları bir yerdən başqa yerə köçərkən öz əvvəlki adlarını yeni məskən saldıqları yerə qoyurdular. Bu baxımdan, Azərbaycanda, Türkiyədə, Ermənistanda, Gürcüstanda qeydə alınmış toponimlər də türk xalqının qədim məskənləri olmuşdur.

Azərbaycan rayon və kəndləri ərazisində xeyli sayda bu tipli yer adlarına təsadüf etmək mümkündür. Bunların da öyrənilməsi tarixi baxımdan əhəmiyyətli sayıla bilər. Çünki belə adlar zaman keçdikcə aradan çıxır və unudulur. Həmin yer adlarında bir çox hallarda yerin relyefi, tarixi şəraiti, şəxs adları və s. əksini tapır (6, s.129).

ƏDƏBİYYAT SİYAHISI

1. B.Ə.Budaqov, Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin
   izahlı lüğəti. Bakı: Oğuz eli,1998, 452 s.
2. Мурзаев.Э.М " Происхождении географических названий, М. 1960, 167s.

3. A. Bakıxanov “Gülüstani-İrəm”, Bakı, Elm,1970, 288 s.
4. Tiflis əyalətinin müfəssəl dəftəri (Borçalı və Qazax). Bakı, Pedaqoqika. 2001, 256 s
5. H. Məmmədov “Dəftəri-müfəssəli-əyaləti-Tiflisdə yer adları” .Azərbaycan filologiya məsələləri, II buraxılış, Bakı, “Elm”, 1984, 285 s.
6. Q.Məşədiyev “Azərbaycan toponimlərinin tarixi-linqvistik təhlili”(Qafqaz ərazi və tayfalarının təsviri materialları məcmuəsi [SMOMPK] əsasında), Bakı, “Elm və təhsil” 2010, 252 s.
7. Пагирев. Д.Д Алфавитный указателъ к пятиверстной карте Кавказа. Тифлис, 1913. 530 s.
8. Qeybullayev. Q.Ə “Qədim türklər və Ermənistan”, Bakı. 1992, 281 s.
9. Xəlil Əliyev “40-cı otaqdakı tilsimlərin açarları”(Borçalı, Axısqa, Qazax toponimləri) Bakı. “Elm” 2008, 299 s.
10. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. iki cilddə, I cild. “Şərq-Qərb nəşriyyatı, Bakı. 2007, 427 s.
11. Afad Qurbanov. Azərbaycan onomologiyası , Bakı, M aarif, 1988. 536 s.

KONUL HASANOVA KAMRAN

IN THE "COMPLETE BOOK OF TBILISI PROVINCE"
ETHNONYM-BASED TOPONYMS

SUMMARY

The geographical names of Azerbaijanis living in both parts of Azerbaijan and abroad are a rich source for studying the ethnic history of our people, especially the problem of ethnogenesis. The toponym, which plays the role of a historical source, consists of ethnotoponyms (names of tribes and peoples) and lexical units belonging to the language of the people.

The horizon of the area covered by the ethnic process that contributed to the formation of the Azerbaijani people and its language includes the territory of present-day Armenia and its neighboring regions (Georgia). Since ethnotoponyms are derived from the names of tribes and peoples, the ethnic composition that existed in these and other historical sources lives in those ethnotoponyms.

As noted in the "Book", the "Book of Tbilisi" provides important information about the administrative-territorial structure, economic status and social status of the historical Gazakh and Borchali regions during the Ottoman period. More attention is paid to the etymological explanation of ethnotoponyms. The explanation of onomastic units took up more space. New views have been put forward against the views of researchers.

Keywords: Detailed book of Tbilisi province, toponyms, etymology, Darbas, Derbaz, Borchali, Gazakh, Soyudlu, history, source, people

КОНУЛ ГАСАНОВА КАМРАН

ТОПОНИМЫ НА ЭТНОНИМОВОЙ ОСНОВЕ В ПОДРОБНОЙ КНИГЕ ТБИЛИССКОЙ ОБЛАСТИ

РЕЗЮМЕ

Географические названия азербайджанцев, проживающих как в Азербайджане, так и за его пределами, являются богатым источником для изучения этнической истории нашего народа, особенно проблемы этногенеза. Топоним, играющий роль исторического источника, состоит из этнотопонимов (названий племен и народов) и лексических единиц, принадлежащих языку народа.

Горизонт ареала, охваченного этническим процессом, способствовавшим формированию азербайджанского народа и его языка, включает территорию современной Армении и соседних с ней областей (Грузии). Поскольку этнотопонимы происходят от названий племен и народов, в этих этнотопонимах живет тот этнический состав, который существовал в этих и других исторических источниках.

Как отмечается в «Книге», «Книга Тбилиси» содержит важную информацию об административно-территориальном устройстве, экономическом и социальном статусе исторических Газахского и Борчалинского районов в османский период. Больше внимания уделяется этимологическому объяснению этнотопонимов. Объяснение ономастических единиц заняло больше места. В противовес взглядам исследователей были выдвинуты новые взгляды.

Ключевые слова: Подробная книга Тбилисской губернии, топонимы, этимология, Дарбас, Дербаз, Борчалы, Газах,Союдлу, история, источник, народ

Redaksiyaya daxil olma tarixi: 18.05.2022
Çapa qəbul olunma tarixi: 07.06.2022
Rəyçi: Filologiya elmləri doktoru, professor Nadir Məmmədli tərəfindən çapa tövsiyə olunmuşdur

b\m.QÖNÇƏ KƏRİMOVA ,
m. KÖNÜL QOCAYEVA
Azərbaycan Dövlət İqtisad Universiteti
"Xarici dillər" kafedrası
H.Əliyev 92.
qonshakonul@com.ru

İNGİLİS DİLİNDƏ QRAMMATİK ZAMAN KATEQORİYALARIN TƏDRİSİ METODİKASI

XÜLASƏ

İş hərəkət və ya hal-vəziyət bildirən sözlərə feil deyilir. Məsələn, to walk, to read, to swim, to go, to lie, to sit və s. Müasir Azərbaycan dilində olduğu kimi, ingilis dilində də feil mürəkkəb xüsusiyyətlərə malik olan nitq hissəsidir. O, malik olduğu qrammatik mənalar və həmin mənalar zəminində mövcud olan qrammatik kateqoriyalar, onların ifadə üsulu və vasitələləri baxımından digər nitq hissələrindən fərqlənir.Öz mənasına və cümlədə daşıdığı vəzifəyə görə feillər əsas məna daşıyan, köməkçi və modal feillər qrupuna bölünürlər.

1. Əsas məna daşıyan feillər (National Verbs) cümlədə sadə feili xəbər olurlar.

My brother finished school last year.Qardaşım keçən il məktəbi bitirdi.

Sona knows two foreing languages.Sona iki xarici dil bilir.

2. Köməkçi feillər (Auxiliary verbs) mürəkkəb feil tərkibləri əmələ gətirmək üçün işlədilir. (be, have, do, will) The child is sleeping at the moment.

Uşaq indi yatır.I have seen this film.Mən bu filmi görmüşəm.

3. Modal feillər (Modal verbs) məsdərdə bir yerdə işlədilərək hərəkətin icrasının mümkün olduğunu, güman edildiyini, vacib və ya arzuedilən olduğunu bildirir (can, may, must, ought, need)The can solve this problem. Onlar bu məsələni həll edə bilərlər.

Açar sözlər: grammatika,inkişaf,İngilisdili,metodika,kateqoriya

Müasir İngilis dilində feil şəxs, kəmiyyət, zaman, növ, tərz və forma kateqoriyalarina malikdir. Həmin kateqoriyalar bir halda sintetik üsulla, yəni şəkilçilər vasitəsiylə, digər halda isə analitik üsulla, yəni köməkçi sözlər (köməkçi feillər) vasitəsiylə ifadə edilir. Məsələn, feilin zaman kateqoriyası keçmiş zamanın qeyri-müəyyən formasında sintetik üsulla, yəni- ed şəkilçisi ilə ifadə edilərsə (qaydalı fellərdə), gələcək zamanın qeyri-müəyyən formasında həmin qrammatik məna; yəni feilin zaman kateqoriyası analtik yolla köməkçi fel (shall, will) vasitəsiylə ifadə olunur məsələn, I worked. I shall work. He will work.Bəzən isə, eyni bir qrammatik kateqoriyanın ifadəsində həm sintetik, həm də analtik vasitə müştərək iştirak edir, yəni bir qrammatik məna həm şəkilçi, həm də köməkçi sözlə ifadə olunur. Buna feilin növ kateqoriyasını misal gətirmək olar, məsələn,

He was invited two days ago.

İngilis dilində feilin üç əsas forması var: məsdər (the infinitive), keçmiş sadə zaman forması (Past Simple) və keçmiş zaman feili sifət forması (Past Participle).

1. Keçmiş sadə zaman və keçmiş zaman feili sifət formalarını əmələ gətirmə yollarına görə feillər iki qrupa bölünür: qaydalı feillər (Regular Verbs)və Qaydasız feillər (İrregular Verbs)
2. İngilis dilində feillərin növ (məlum, məchul), şəkil (şərt, əmr cümlələri) və zaman kateqoriyaları, hər zamanın öz ifadə formaları (sadə Simple, davamedici Continuous və bitmiş Perfect) var.

Müasir ingilis dilində morfoloji quruluşuna sintetik roluna, obyektə və subyektə olan münasibətinə, keçmiş zaman qeyri-müəyyən formasının və keçmiş zaman feili sifət formasının düzəldilməsinə və şəxs kateqoriyasına görə müəyyən qruplara bölünür ki, buna da feillerin təsnifi deyilir.

Keçmiş zamanın qeyri-müəyyən formasının düzəldilməsinə görə ingilis dili feillərini dörd qrupa bölmək olar.

3. Qaydlı feillər (Regular Verbs)
4. Qaydasız feillər (İrregular Verbs)
5. Qarışıq feillər (Mixed Verbs)
6. Amorf feillər (Amorphous Verbs)

Qaydalı feillər keçmiş zamanın qeyri-müəyyən forması və keeçmiş zaman feili sifət formsı –**ed** suffiksi vasitəsiylə düzəldilən feillərə qaydalı feillər deyilir, məsələn;

To work	worked	worked
To wark	walked	walked

Qaydasız feillər keçmiş zamanın qeyri – müəyyən forması və keçmiş zaman feili sifət forması müəyyən qaydaya əsasən deyil, müxtəlif üsullarla düzələn feillərə qaydasız feillər deyilir. Bu qrupa keçmiş zamanın qeyri –müəyyən forması və keçmiş zaman feili sifəti aşağıdakı kimi düzələn feillər daxildir.

a) Kökdəki saiti dəyişmək yolu ilə düzələn feillər, məsələn;

to meet-met

to win-won

b) Kökdəki saiti dəyişmək və felin sonuna –en suffiksi əlavə etməklə düzələn feillər, məsələn;

to write-wrote-written

to speak-spoke-spoken

c) Kökdəki saiti dəyişməklə və d yaxud t samiti qəbul edən feillər, məsələn;

to sell-sold-sold to fell-felt-felt

d) Sonunda d samiti t samiti ilə əvəz edən feillər, məsələn;

to spend	spent	spent
to send	sent	sent

Qarışıq feillər keçmiş zamanın qeyri- müəyyən forması qaydalı keçmiş zaman feili sifət forması qaydalı keçmiş zaman feili sifət forması qaydasız feillər kimi (və ya əksinə) düzələn qarışıq feillər deyilir, məsələn;

To show showed showenMüasir ingilis dilində fellər obyektə olan münasibətlərinə görə də təsnif edilir. Bu baxımdan Azərbaycan dilində olduğu kimi ingilis dilində də feillər iki qrupa bölünür.

1. Özlərindən sonra obyekt (vasitəsiz tamamlıq) tələb eden feillər.
2. Özlərindən sonra obyekt (vasitəsiz tamamlıq) tələb etməyən feillər.

Azərbaycan dilində olduğu kimi, ingilis dilində də təsirli feillər xas olan başlıca xüsusiyyət ondan ibarətdir ki, onlar təkbaşına, işlənərkən leksik mənaca ümumi olan, sanki tamamlanmır. Bu feillərin mənasını tamamlamaq üçün hökmən obyekt tələb olunur.Məsələn**, I am writing** cümləsində işlənən to write təsirli feldir. Bu şəkildə yeni cümlədə tamamlıq işlənmədikdə to write feilinin ifadə etdiyi məna sanki anlaşılmır. Feillərin, onların malik olduqları nominativ məna baxımından nəzərdən keçirdikdə məlum olur ki, onlara xas olan leksik mənaların özlərində təbii, ilkin olaraq tərz mənası mövcuddur, bəzi feillər hüdudlu, digər feillər isə hüdudsuz hərəkətlər bildirir. Buna misal olaraq **to take, to die, to fall, to stand up, to sit down, to stop** və s. feilləri göstərmək olar. Qeyd etmək lazimdır ki, ingilis dili feilinə xas olan növ kateqoriyası da dilçilər arasında ciddi mübahisə doğuran məsələlərindəndir. Bəzi dilçilər, məsələn, L.P.İvanova belə hesab edirdi ki, yuxarıda adları çəkilən növ formaları (məlum növ, məçhul növ) ilə yanaşı müasir ingilis dilində feilin qaydasız növü var. Bu müəlliflərə görə ingilis dilində feilə xas olan qayıdış növ məlum növdə feil – qaydasız əvəzlikləri ilə ifadə edilir; məsələn, **shave himself, wash herself.**

Öz leksik mənasını müəyyən dərəcədə itirmiş və cümlədə subyektlə predikat arasında əlaqə yaratmağa xidmət edən feillərə bağlayıcı feillər deyilir. Bu feillərə misal olaraq **to be** feilini göstərmək olar, məsələn; **She-is-a doctor**.

Müasir ingilis dilində feilin xəbər şəklinin dörd qeyri-müəyyən zaman forması var:

1. İndiki zamanın qeyri-müəyyən forması.
2. Keçmiş zamanın qeyri-müəyyən forması.
3. Gələcək zamanın qeyri-müəyyən forması.
4. Keçmişə nəzərən gələcək zamanın qeyri-müəyyən forması.

Feilin xəbər şəklinin zamanın qeyri-müəyyən formasına xas olan başlıca xüsusiyyət ondan ibarətdir ki, onlar hərəkətin başqa xüsusiyyətlərinə, onun davam etməsinə yaxud bitməsinə heç bir işarə etmədən indiki və ya keçmiş zamanda baş verdiyini, icra edildiyini bildirir.

Bütün bunları nəzərə alaraq müasir ingilis dilində feilin zaman formalarını çox maraqla öyrənir və onları tapşırıqlar üzərində möhkəmləndirirlər.

a).Past Simple zaman formasının işlədilməsi:

Past Simple bitmiş vaxt müddətində artıq icra olunmuş hərəkəti göstərir. Belə hərəkətin hazırkı vaxtla əlaqəsi yoxdur. Past Simple keçmişdə baş vermiş hadisələri nəql edərkən işlədilir.He wrote the letter and went away – O, məktubu yazdı və çıxıb getdi.Past Simple adətən aşağıdakı zaman zərfləri ilə işlədilir: yesterday – dünən, last week – keçən həftə, last month – keçən ay, last year – keçən il, … ago – bundan əvvəl, in 1990- 1990-cı ildə və s.I saw him at the concert yesterday – Mən onu dünən konsertdə gördüm.The foreign guests left our city last week – Xarici qonaqlar şəhərimizi keçən həftə tərk etdilər.

b).FUTURE CONTINUOUS-Future Continuous (gələcək davamedici) zaman formasının əmələ gətirmək üçün to be feilinin gələcək zamanı (shall be, will be) və əsas məna daşıyan feilin indiki zaman feili sifət formasından (Particple I) istifadə olunur. I shall be writing.He will be writing.Sual cümlələrində shal (will) mübtədadan qabağa keçir.Shall I be writing?Will yo be writing?İnkar cümlələrində shall (will) köməkçi feilindən sonra not yazılır.I shall not be writing.We will not be writing.Qısa inkar forması I′ll not be writing və ya I won′t be writing olur.Future Continuos zaman formasının işlədilməsiFuture Continuos gələcəkdə müəyyən bir vaxtda davam edəcək hərəkəti bildirir.Tomorrow I′ll be watching the football match at 6 in the evening – Sabah axşam saat 6-d futbol matçına baxacağam.Don′t call the 6m too early. They′ll be sleeping – Onlara çox tez zəng vurma. Onlar yatmış olacaqlar. Future Continuous (gələcək davamedici) zaman formasının əmələ gətirmək üçün **to be** feilinin gələcək zamanı (shall be, will be) və əsas məna daşıyan feilin indiki zaman feili sifət formasından (Particple I) istifadə olunur. I shall be writing.He will be writing.Sual cümlələrində shal (will) mübtədadan qabağa keçir.Shall I be writing?Will yo be writing?İnkar cümlələrində shall (will) köməkçi feilindən sonra not yazılır.I shall not be writing.We will not be writing. – Sabah mənim üçün bir neçə açıqca ala bilərsənmi Qısa inkar forması I′ll not be writing və ya I won′t be writing olur.Future Continuos zaman formasının işlədilməsiFuture Continuos gələcəkdə müəyyən bir vaxtda davam edəcək hərəkəti bildirir.Tomorrow I′ll be watching the football match at 6 in the evening – Sabah axşam saat 6-d futbol matçına baxacağam.Don′t call the 6m too early. They′ll be sleeping – Onlara çox tez zəng vurma. Onlar yatmış olacaqlar.This time next week I′ll be lying on the beach or swimming in te see – Gələn həftə bu vaxt mən sahildə uzanacam, ya da dənizdə çiməcəyəm.Sual cümlələrində will köməkçi feli mübtədadan qabağa keçir (will you be doing …), inkarda isə will feilindən sonra not yazılır: will not (won′t) be doing.What will you be doing from 2 till 5 tomorrow? – I can′t I′m afraid.

C) FUTUR SİMPLE

What shall I do? – Mən nə edim? (Nə etməliyəm?).What shall tell him? – Ona nə deyim?Bəzən ümumi sualda işlənən will köməkçi feil xahiş bildirir:Will you help me please? – Mənə kömək edərsənmi? (Xahiş edirəm).Will you pass me the salt please? – Zəhmət olmazsa, duzu mənə verin. (… verərsənmi?).Əgər yaxın gələcəkdə baş

verəcək bir hərəkət qabaqcadan planlaşdırılıbsa, Present Simple, ya da Present Continuous işlədilir.What are you doing tomorrow? – Sabah sən nə edirsən?We are going to the theatre this sunday – Bu bazar günü biz teatra gediDo you want to go with us? – Bizimlə getmək istəyirsənmi?Əgər gələcəkdəki hərəkət hər hansı bir vaxt cədvəlinə uyğun olaraq baş verəcəksə, Present Simple işlənir.The last train to Ganja leaves in an hour – Gəncəyə gedən son qatar yarım saata yolu düşür. The Art Exhibition opens on the 10th of March – Rəsm Sərgisi martın 10-da açılır.Gördüyümüz kimi, bu cümlələr Azərbaycan dilində də indiki zamanda işlənir.Gələcək zamana aid olan zaman və şərt cümlələrində yalnız Present Simple (bəzən Prersent Perfect) işlənir. Zaman budaq cümlələri when, as soon as – elə ki , after – sonra, before – əvvəl, till, until – qədər, while – nə qədər ki, şərt budaq cümlələri if – əgər sözü ilə başlanır.If I see him today, I′ll invite him to dinner – Əgər onu bu gün görsəm nahara dəvət edəcəyəm.If you don′t hurry, you′ll be late – Əgər tələsməsəniz, gecikəcəksiniz.If I learn his address, I′ll send himn post-card –

Əgər onun ünvanını öyrənsəm, ona açıqca göndərəcəyəm.When I move to London I′ll try to find a good job – Londona köçəndə yaxşı bir iş tapmağa çalışacağam.Let′s go home before it starts raining – Nə qədər ki, yağış başlamayıb (yağış başlamazdan qabaq) gəlin gedək evə.As soon as I finish (və ya have finished) my work I′ll come – Elə ki, işimi qurtardım (işimi qurtaran kimi) gələcəyəm.Till və until (qədər) sözlərinin işlnməsindəki fərqə diqqət yetirin.I′ll wait here

till you come – Sən gələnə qədər burada gözləyəcəyəm.I won′t go anywhere until you came – Sən gəlməyənəcən mən heç yerə getməyəcəyəm.

QEYD: When və if sözləri ilə başlanan tamamlıq budaq cümlələrində gələcək zaman işlənir.I don′t know when he will come – Mən bilmirəm o, nə vaxt gələcək.I don′t know if he′ll come – Mən bilmirəm o, gələcək ya yox.If əvəzinə whether də demək olar.I′m not sure whether he will invite us – Mən əmin deyiləm ki, o bizi dəvət edəcək.Gələcək zamana aid nəzərdə tutulan hərəkət be going + to do tərkibi ilə ifadə olunur və Azərbaycan dilinə fikrində olmaq, istəmək, hazıplaşmaq kimi tərcümə edilir.I′m going to learn one more foreign language – Mən daha bir xarici dil öyrənmək istəyirəm (fikrindəyəm).They are going to buy a new car – Onlar yeni bir maşın almağa hazırlaşırlar.Bəzən bu tərkib baş verməsi gözlənilən bir hərəkəti bildirir.Look at the sky. It is going to rain – Bir səmaya baxın, görün yağış yağacaq.

d).PRESENT PERFECT

Present Perfect (İndiki zaman) zaman forması indki zamanda have (has) feli və sas məna daşıyan feilin keçmiş zaman feli sifəti (Participle II) vasitəsilə əmələ gəlir

İnkar şəklində not inkar sözü have (has) felindən sonra gəlir: have not, has not. Qısaldılmış şəkli havent′t (hasn′t) olur.He hasn′t decided what to do yet – O hələ qərara gəlməyib ki, nə etsin.

Present Perfect zaman formasının işlədilməsiPresent Perfect zaman forması aşağıdakı hallarda işlədilir.

1) uzaq və ya yaxın keçmişdə icra olunmasından asılı olmyaraq nəticəsi hazırkı vaxtla əlaqədar olan hərəkəti bildimək üçün:They have built a new house – Onlar təzə ev tikiblər.

Bu cümlədə danışan evin nə zaman tikildiyini deyil, evin tikilib qurtardığını, yəni işin nəticəsini göstərmək istəyir.I have lost my new pen – Mən təzə qələmimi itirmişəm.Bu cümlədə danışan ancaq hərəkətin nəticəsini xəbər vermək istəyir.Have you done your homewolrk? – Ev tapşırığını eləmisənmi?Bu cümlədə danışan hərəkətin nəticəsi ilə, yəni tapşırığın edilib-edilmədiyi ilə maraqlanır.

2) hələ bitməmiş vaxt müddətində icra olunmuş hərəkəti göstərmək üçün. Bitməmiş vaxt today – bu gün, this week – bu həftə, this month – bu ay, this year – bu il və s. sözləri ilə göstərilir.I have read two books this week – Bu həftə mən iki kitab oxumuşam.

3)– bu yaxınlarda, lately – son zamanlar, in the last few days – son bir neçə gündə, for a long time – uzun müddəitdir ki, çoxdandır ki, so far – bu vaxta qədər, hələlik, for ages – çoxdandır ki, ifadələri ilə:Have you heard of John recently? – Bu yaxınlarda Condan bir xəbər eşitmisənmi?I have not seen you for ages – Çoxdandır səni görmürəm.

Ədəbiyyat:

1.Abdullayev S . Müasir İngilis və Azərbaycan dillərində inkarlıq kateqoriyası , Bakı , 1998.s.123.

2.Musayev O . İ . (Türksevər) . İngilis dilinin qrammatikası , Bakı , 2007.s.94

3.Nuriyeva S . T.” İngilis dilində feilin zaman formaları”, Bakı , 2011.s.62

K.QODJAEVA,Q.KERIMOVA

METHODS OF TEACHING GRAMMATICAL TENSE CATEGORIES IN ENGLISH

SUMMARY

If the predicate of the principal clause is a terminative verb denoting a completed action, the predicate of the “while” clause generally has a Continuous form, as in “while they were washing, he put the kettle on to boil”.

The past indefinite, being a generalized tense-form, can do duty for the Past Perfect. Both these forms denote past actions but the Perfect form also specifies that the action precedes some past moment or occurrence. However, when the idea of precedence is already expressed lexically-by the meaning of the verb, the indefinite form can be used without noticeable changing the sense. Verbs which can be used indifferently both in the Past Perfect and the past indefinite are anticipate, expect, fear, hope, intend, predicate, suppose and a few others. Variant use of two forms with these verbs is mostly found in subordinate clauses, usually clauses of comparison.

a) The voice was very much softer than he’d expected.b) The meal was more cheerful than Fisher expected.c)…the occasion wasn’t nearly as bad as I had

feared.d)…it turned out worse than I feared.e) He had yielded quite a little of his confidence to Philip Fabeas Philip Faber had intended he should.f) He caught her, as she intended he should.

Key words: grammar, development, English, methodology, category

К.ГОДЖАЕВА,Г.КЕРИМОВА

МЕТОДИКА ОБУЧЕНИЯ ГРАММАТИЧЕСКИМ ВРЕМЕНАМ В АНГЛИЙСКОМ ЯЗЫКЕ

РЕЗЮМЕ

Past Simple показывает действие, уже выполненное в течение истекшего периода времени. Такой ход не имеет ничего общего с настоящим. Past Simple употребляется для повествования о прошедших событиях.Написал письмо и ушел.Написал письмо и ушел.Past Simple обычно употребляется со следующими временными оболочками: вчера – вчера, на прошлой неделе в прошлом месяце, в прошлом году – в прошлом году, назад - раньше, в 1990-1990 и с.Я видел его вчера на концерте - Я видел его вчера на концерте.Иностранные гости уехали из нашего города на прошлой неделе осталось недели.

Поскольку целевым языком, в данной научной работе, рассматривается русский язык, то примером подобной языковой среды может послужить Россия, которая обладает материальной и духовной культурой, а методом – общение с русскими людьми, говорящими на русском языке как родном.

Предполагаемы метод изучения языка, т.е. изучение языка в среде культуры, дает возможность непосредственного наблюдения и конситуации, под которой понимается внеречевая обстановка речи. Можно провести параллель между пониманием слова в текстев конситуации; при этом текстовый контекст дает понять, в каком именно значении употреблено то или иное слово.

Ключевые слова: грамматика, развитие, английский язык, методика, категория

Redaksiyaya daxil olma tarixi: 18.05.2022
Çapa qəbul olunma tarixi: 07.06.2022
Rəyçi: filologiya elmləri doktoru,dosent Yusif Süleymanov tərəfindən çapa tövsiyə olunmuşdur

LEYLA MƏZAHİR QIZI PIRIYEVA
AMEA Gəncə Elm Mərkəzi

AŞIQ ŞEIRINDƏ GEYİM ADLARININ ÜSLUBI İMKANLARI

Xülasə

Geyim adları türk xalqlarının etnoqrafik və məişət leksikasının mühüm tərkib hissəsidir. Vestonimlər etnoqrafik, kulturoloji və dilçilik araşdırmaları üçün dəyərli qaynaqlardır. Geyim leksikası xalqın məişətini, tarixini, gündəlik yaşam tərzini əks etdirir. Geyim adları əsasən türk dillərinin dialektlərində və şivələrində saxlanılmışdır.

Türk dilçiliyində geyim leksikasına ənənəvi olaraq böyük diqqət yetirilir. Məqalədə Azərbaycan dili leksikologiyasının ən aktual problemlərindən birinə həsr olunmuşdur. Məqalədə geyim leksikasının öyrənilməsinin müxtəlif aspektləri ilə əlaqədar türkoloji araşdırmaların, o cümlədən Azərbaycan müəlliflərinin tədqiqatları təhlil edilir.

Həmin araşdırmalarda geyim leksikasının linqvistik xüsusiyyətləri təsvir edilir, onların tarixi-genetik təhlili, leksik-semantik təsnifatı aparılır və nominasiya prinsipi üzrə qruplaşdırılır.

Azərbaycan aşıq poeziyasının leksik tərkibini vestonimlər təşkil edir. Vestonimlər xalqımızın geyim mədəniyyətini, estetik zövqünü ifadə edir. Ustad aşıqlar öz mətnlərində geyim adlarından lirik qəhrəmanın portret yaratma üsulu kimi istifadə etmişlər. Aşıq poeziyasında bədii portretlərdə daha çox üst geyimlərin adları keçir. Amma qadın və kişi baş geyimləri, eləcə də ayaq geyimləri funksional – semantik imkanlara malikdir. Məqalədə Qurbani, Aşıq Ələsgər, Aşıq Nəcəf, Aşıq Nəsib kimi ustad sənətkarların poetik dilində yer almış geyim adlarının stilistik xüsusiyyətlərinə toxunulur.

Açar sözlər: aşıq poeziyası,geyim adları, üslubiyyat, bədii dil, folklor dialekti

Aşıq poeziyası xalqımızın poetik təfəkkürünün və dil zənginliyimizin parlaq ifadəsidir. Xalq dilinin bədii estetikası aşıq dilinin bütün səviyyələrində [ritm, intonasiya, semasioloji zənginlik, ekspressivlik] özünü göstərir. İ.Məmmədov doğru olaraq qeyd edir: "Bədii dilin, üslubun ən gözəl nümunələrini daha çox aşıq yaradıcılığında, aşıq şeirində görmək olar" [20, 197-198].

Aşıq şeirinin üslubi xüsusiyyətləri poetikanın vacib komponentləri (dil. janr, vəzn, ideya-məzmun, forma-təhkiyə və s.) ilə sıx bağlıdır. Aşıq şeirində üslub xüsusiyyətlərin araşdırılması etnik təfəkkürün estetik səviyyəsinin öyrənilməsi baxımından əhəmiyyət daşıyır. Aşıq şeir dilinin üslub zənginliyi həm də klassik poetik təfəkkürün folklor təfəkkürünə təsirini izləməyə imkan verir.

Aşıq şeirinin dil- üslub özəlliyi ondadır ki, poetik mətnlər etnik toplumun canlı danışıq nitq fəaliyyətindən, dövrün estetik-mədəni, ictimai-siyasi, sosial fonundan kənarda təsəvvür olunmur. Görkəmli dilçi alim Q.Kazımovun Qurbani poeziyası ilə bağlı fikirləri bütövlükdə klassik aşıqların yaradıcılığına şamil etmək olar: "Şübhəsiz, bütün sənətkarların əsərlərində olduğu kimi, Qurbani poeziyasında da fonetik, leksik, qrammatik-üslubi vasitələr və fikrin digər ifadəlilik əlamətləri kompleks halda şairin bədii dilinin tərkib elementilərini təşkil edir. Sözlərinn çoxmənalılığı, antonim qarşılaşdırmalar, fikrin sinonim cərgələrlə ifadəsi, omonimlər və ustalıqla yaradılmış cinas qafiyələr, frazeoloji vahidlər, atalar sözləri və məsəllər, yeri gəldikcə fikrin dialoq şəklində ifadəsi Qurbani poeziyasını bədiilik xüsusiyyətlərini şərtləndirən vasitələrdir" [15, 31].

Göründüyü kimi, aşıq poeziyasında bədii üslubun cilalanmasında, simvolik mənalar dünyasının zənginləşməsində geyim leksikasının funksional rolu danılmazdır. Aşıqların geyim adlarından epitet cinas, təşbeh, metafora səviyyələrində "poetik mənalandırma ustalığı söz sənətimizin və dilimizin estetik təntənəsidir.

Ustad aşıqların bədii sənətkarlığı ümumtürk. əcnəbi mənşəli sözlərdən və dialekt leksikasından məharətlə istifadə etməsində özünü göstərir. Bütün leksik laylar bir-biriləharmonik qovuşur ki, bu da sənətkarlara aşıq dilinə xas olan "dil naxışlarını" yaratmağa imkan verir. Aşağıda gətirdiyimiz örnəklər yalnız aşıqların dil-üslub sənətkarlığını nümayiş etdirmir, həm də onların xalq məişətinə, geyim estetikasına və davranış mədəniyyətinə dərindən bələd olduqlarını göstərir. Aşıq poeziyasında geyim leksikası xalqın tarixi yaddaşı, milli mənəvi dəyərləri, milli xarakteri və s. haqqında məlumat verir.

Aşıq şeirinə dialekt və şivələrdən müəyyən frazeoloji vahidlərin keçməsi ənənəvi dil prosesi, yaxud dil hadisəsidir. Frazeoloji vahidlər poetik mətnin bütün səviyyələrində müəllif [söyləyici, ifaçı] deyimini təşkil edir, struktur-məna kateqoriyasının təşəkkülündə iştirak edir və mətnin bütövlüyünü təmin edir.

Tərkibində geyim adları olan, xalq dünyagörüşündən qaynaqlanan frazeoloji vahidlər aşıqların dilində işlək bədii ifadə vasitələrindən biridir. Məsələn, Yəhya bəy Dilqəmdə "Donnan dona girmək" ifadəsi niyyətini gizlətmək, özünü fərqli göstərmək mənasındadır. "Azərbaycan dilinin frazeoloji lüğəti"ndə dondan dona girmək əsil mahiyyətini, niyyətini gözlətmək; simasını dəyişmək; özünü başqa cür göstərmək; şəraitə uyğunlaşdırmaq məqsədilə rola girmək; davranmasını dəyişmək" mənaları verilmişdir [10, 482-483].

Göldə üzən gözəl sona,
Nə girirsən donnan-dona,
Neçə molla, alim ona
Verdi əldən iman, gordum [6, 329]

“Şeytana papış tikmə (dilimizdə şeytana corab toxumaq, şeytana papaq tikmək varinatı da var)” – “çoxbilmiş, fərasətli, bic, hiyləgər və fırıldaqçı olmaq [10, 1310]

Şeytana papış tikir,
Baş əymir subhana qarı [16, 137]

Az sayda olsa da ustad sənətkarların don, libas və köynək leksemlərini idiomatik ifadələr daxilində işlətdiklərini müşahidə edirik. Məsələn, Aşıq Nəcəfdə:

Oddan köynək geydi, alovdan donun,
Başı nələr çəkdi yarın ucundan [14, 227]

Aşıq Mehdidə:
Həmişə yaxşı ol, yamandan seçil,
Zülmə kəfən olma, haqqa don biçil [4, 324]

Dilimizin etnoqrafik-leksik zənginliyi geyim və bəzək-zinət adlarının tam sinonim sırasını yaratmağa imkan vermişdir. “Tam sinonimlər, dubletlər adətən alınma sözlər hesabına yaranır <...> Başqa dillərlə qarşılıqlı əlaqə, yaxınlıq yeni sözlərin yaranmasına şərait yaradır” [1,131-132]. Tarixin müxtəlif dövrlərində dilimizə keçmiş bu sözlər oxşar mənalı sözlərin sırasında yer tutmuşdur. Aşıqların xalq danışıq dilinə, ləhcə və şivələrə dərindən bağlılığı alınma sözlərin işləkliyi, sinonimliyi şərtləndirən amillərdən biridir. Geyimlərin və bəzəklərin müxtəlif bölgələrdə, dialektlərdə fərqli adlanması da aşıq poeziyasında üslubi sinonimlərin mövcudluğunu şərtləndirmişdir.

Bilərzik – qolbağı – bazubənd ; qurşaq-kəmər; Guşvara- tana - sırğa ; niqab-rübənd.

Geyim-bəzək adlarında sinonimləşməni yaradan mənbələrdən biri də, qeyd etdiyimiz kimi, ərəb və fars dillərindən alınmalardır. “Belə alınmaların bəzisi məhz klassik üslubun təsiri ilə işlənmiş, Azərbaycan dilinin sonrakı mərhələlərində dildə ümumişləkliyini itirmiş və istifadədən qalmışdır. Bir qismi isə ümumiyyətlə, Azərbaycan dilində [hətta ümumxalq danışıq dilində belə] işləkliyini saxlamışdır. Sinonimlərdə tarixilik prinsipi məhz belə bir prosesin nəticəsidir” [2, 140].

Aşıq şeirində üslubi kateqoriyalardan biri də sinonimlikdir. Dilimizin sinonim zənginliyi aşığa geyim və bəzək adlarından ibarət sinonim sırasını yaratmağa imkan vermişdir: bilərzik-qolbağı-bazubənd, quşvara-tana-sırğa. niqab-nübənd-niqab, qurşaq-kəmər. "Tam sinonimlər.dubletlər. adətən alınma sözlər hesabına yaranır... Başqa dillərlə qarşılıqlı əlaqə, yaxınlıq yeni sözlərin yaranmasına şərait yaradır” [1, 131-132].

Aşıq dilinin obrazyaratma və formıl-klişe potensialı da vestonimlərin sinonimlik imkanlarını genişləndirir. Digər tərəfdən, vestonimlər ustad aşığın fərdi üslubundan asılı olaraq, "lokal vəziyyətdə, situatuv məqamda sinonimlik qazanır ki, bu da bədii dilin fərdi yollarla zənginləşməsini təmin edir” [19, 143].

Aşıq şeirində fəal üslubi fiqurlardan biri də antonimlərdir. "Bu üslubi fiqur leksik-semantik vahidlərin [atonimlər] və əks mənalı sintaktik tərkiblərin sayəsində ortaya çıxan qüvvətli ifadə vasitəsidir. Antitezanın əsasında təzad durur. Təzad isə müəyyən anlayışların ayrı-ayrı əlamətləri arasında özünü göstərir. Antonimlər vasitəsilə yaranan antiteza müxtəlif ziddiyyətli anlayışları bir-birindən fərqləndirməklə bərabər üslubi effekti yaratmaq üçün də istifadə" [9, 106]

Geyim adları ilə ifadə olunan antonimlərdən aksioloji qarşıdurmalarda, bədii təzadlarda geniş istifadə olunur (ağ-qara, zər-ziba-bez, xələt-çul).

Desələr necədir o binəva, de:
"Mən al geydim, o, qaralar bağlasın!" [18, 105]

Cır-cındıra bürünmüşük, gəzirik
İpəyim yox, tirməm yoxdu, şalım yox [22, 31]
Gümüşmü tunc oldu, zəri-zibam-bez.
Qəlp çıxır aldığım mal, qoca baxtım [5, 109].

Zər-ziba xələti pünhan eylədin,
Biçdirdin qəddimə nəs ağı belə [5,172].

Sizin libasınız İran kəşmiri,
Bizim libasımız dəridir, dəri [4, 281].

Aşıq Ədalət acı istehza ilə özünün sosial durumunu ifadə etmək üçün bədii təzad yolu ilə "xələt" və "çul" sözlərini qarşılaşdırır. Xalq düşüncəsində "Xələt" zənginliyin, çul isə kasıblığın metonimik ifadəsidir. Xələtin leksik-semantik və semvolik mahiyyəti barədə əvvəldə qeyd etmişik. "Çul üstündə oturmaq və ya soyuqdan qorunmaq üçün atın və bəzi başqa heyvanların dalına salınan qıldan və ya yundan toxunma qalın örtükdür" [8, 501].

Zər-ziba xələt yerinə
Geydirirsən çul, a dünya [3, 19]

Aşıq antonimlərdən səmərəli istifadə edərək, tumanın və çəpgənin ölçü forması (gen-dar) qarşılaşdırır.

Fikir etmə Aşıq Alı qocalıb.
Gen tuman, çəpgəni dar istər könül [12, 18].

Qadın üst geyimləri ənənəvi olaraq, ipək bezdən, atlasdan tikilirdi. "Abbas-Gülgəz" dastanında "bez" aşağı sosial təbəqənin geyimi kimi, kasıb-varlı antinomiyası səviyyəsində işarələnir, ipək ilə bezin təzadı yaradılır.

Adam var, geyməyə tapammaz bezi,
Adam var, al geyər, şalı bəyənməz [5, 261].

Aşıq Alıda:
Alının yanında heç olar sözün,

Cırılar ipəyin, tərk olar bezin [13 31].

Göründüyü kimi, geyim adlarının antonim konteksti aşıq şeiri poetikasında müqayisəni, təzadı ön plana çıxardır.

Aşıq xalq dilinin bədii obrazlılığından, ekspresiv resurslarından ustalıqla istifadə edən sənətkardır. Ona görə də geyim adları müxtəlif məcaz tiplərinin tərkibinə daxil ola bilir, xüsusən omonim hadisəsində "fonosemantik effektin yüksəldilməsində" [11, 102] fəal iştirak edir. Tədqiqatçı, M.Hüseynov yazır: Azərbaycan aşıq və el şeirlərinin yaradıcılığında omonimlərin çoxu mənşəcə müxtəlif sözlərdən əmələ gəlmişdir. Belə omonimlərin dilimiz üçün qiymətli cəhətlərindən biri onların xalis Azərbaycan sözlərindən ibarət olmasıdır. Poetik örnəklərin dilində təsadüf olunan bu cür omonim sözlərin böyük əksəriyyəti qədim tarixə malik olub, leksik-qrammatik yol ilə əmələ gəlmişdir ki, bu da koloritli şeir nitqini stimullaşdıran əsas ifadə vasitələrindən biri kimi diqqətəlayiqdir" [11,101].

Alliterasiya aşıq şeirinin üslubi imkanlarını genişləndirən amillərdən biri, vacib poetexnoloji üsullardan biridir. Akademik A. Axundov "Alliterasiya: bir az tarixdən, bir az nəzəriyyədən" adlı məqaləsində alleterasiya hadisəsini belə izah edir: "Bizcə, alliterasiya türk dillərinə iki səviyyədə -dil və üslub səviyyələrində özünü göstərir. Bunlardan birincisi obyektiv səviyyədə olub, ənənəvi modellər səviyyəsində mövcuddur. Onlar qədim tarixə malikdir və buna görə də frazeoloji birləşmələrin, atalar sözlərin, məsəlllərin, idiomatik ifadələrin, ümumiyyətlə, sabit söz birləşmələrinin tərkibində daha çox müşahidə olunur" [23,139].

Aşıq şeirinin alliterativ ahəng mənzərəsində ş, s, y, q, g, d, ç samitlərinin fəallığını görürük. Geyim adları da bu "ahəng axarına" posulur, öz səs çalarları ilə gözəl alliterasiya nümunələri yaradır. Vestonimlərin alliterasiya effektli əsasən aşığın qafiyəyaratma təcrübəsi ilə bağlı olur. "Aşıq yaradıcılığı lirik-poetik söz axını, ahəngdar söz aləmidir. Burada mühüm poetik faktorlardan biri sözlərin səslənmədəki alliterativ effektliyidir. Aşıq yaradıcılığında alliterasiya hadisəsi sadəcə təsviri xarakter olmayıb, sözlərin melodik düzülüşünün, musiqili ahəngin əsasını təşkil edir və poetik məzmunun daha qabarıq ifadəsinə, sözlərin məntiqi və bədii cəhətdən möhkəm əlaqələndirilməsinə, bağlanmasına xidmət edir" [M.Soltanov, s.36]. Məsələn, aşağıdakı örnəklərdə "ş" səsinin alliterasiyasını aydın görürük. Aşıq Alıda:Əbrişim libasdı, ahu baxışdı [12, 387]

Yaxud Şair Əbdüləzimdə:

Beş arşın ağ olar sana,

Yaşıldan, aldan şırın [12, 79].

Ümumiyyətlə, "al-yaşıl" formulu Qurbani şeirinin alliterasiya toxuması"nda [17] da iştirak edir:

Sallana-sallana gələn Salatın,

Gəl belə sallanma, söz dəyər sənə.

Al-yaşıl geyinib durma qarşıda,

Saqın bədnəzərdən, göz dəyər sənə. [18,63].

M.Qasımlı bu nümunə ilə bağlı yazır: “Bu nümunədə “s”, “sa” və “sal” ardıcıllıqlarının allite¬rasion düzümü və misradaxili bölgünün [6+5] on birlik ölçüsündəki saz hava¬larının melodik qəliblərinə uyğun qurulması bədii uğuru yaradan əsas göstə¬ri¬cidir” [17, 482]. Hörmətli tədqiqatçının bu sözlərinə əlavə və qüvvət olaraq, deməliyik ki, üçüncü misradakı “al-yaşıl” vestonimi də göstərilən nümunənin “alliterasiya prosedurunda” [ş/z] fəal iştirak edir.

Aşıq şeirində xalqın ruhu, mənəvi varlığı yüksək şəkildə təzahür edir. Aşıq şeiri dilin cövhərini, “şəhdi-şəkərini”, bir sözlə, etnik təfəkkürün özəlliklərini bədii ifadə və təsvir vasitələri, frazeoloji vahidlər səviyyəsində gerçəkləşdirir.

Ədəbiyyat siyahısı

1. Abdullayeva M.Ə.Azərbaycan dilində xalçaçılıq terminləri: filol.elm.nam. … dis., Bakı: 1996, 266 s.

2. 13Aşıq Cəlal Qəhrəmanov. Sədəfli saz,məni dindir. Bakı: Elm “Sabah”, 1992, 159 s.

3.Aşıq Ədalət Bakı, 2020

4.. Aşıq ədəbiyyatı antologiyası. 3 cilddə 1cild. Aşıq poeziyası. Bakı, 2017 - 592 s.

5.. Aşıq Ələsgər (Əsərlər, dastan-rəyavətlər, xatirələr...) –Bakı: Şərq-Qərb, 1999, -578 s.

6. Aşıq gözəlləmələri şeir antologiyası. Baıkı: Gənclik, 2020, -424 s.

7. Aşıq Musa. Əsərləri. Bakı. Elm və təhsil, 2013, s.148.

8. Azərbaycan dilinin izahlı lüğəti. IV cilddə I cild. Bakı:Şərq - Qərb,2006.791 s.

9. Əfəndiyeva T. Azərbaycan dilinin leksik üslubiyyatı. Bakı: “Elm və təhsil”, 2011, 352 s.

10.Həmidov İ., Qocayev M., Məmmədova L. Azərbaycan dilinin frazeologiya lüğəti. Bakı, TEAS Press, 2020, s.1560

11. Hüseynov M. Estetik qayə və poetik təkamül (Mahirə Nağıqızının bayatıları əsasında). Bakı ADPU nəşriyyatı, 2020, 300 s.

12. İsmayılov H. Göyçə aşıqları və el şairləri. I cild. Bakı: Səda, -2006, 492 s.

13. İsmayılov H. Göyçə aşıqları və el şairləri. II cild. Bakı: Nurlan, -2010, 594 s.

14. İsmayılov H.Göyçə aşıqları və el şairi. 3 cilddə, III c., -Bakı: “Nurlan”, 2011, -583 s.

15. Kazımov Q.Ulu zirvə: haqq aşiqi, el şairi Dirili Qurban-Qurbani // Qurbani (tərtibçi, ön söz, qeyd və izahların müəllifi prof.Q.Kazımov). –Bakı: Bakı Universiteti, 1990, -s.3-36

16. Qaraçöplü Aşıq Musa. Musa eldən aralanmaz. Qoşqular və öyləmələr. Bakı, Çinar-çap, -2010, -376 s.

17. Qasımlı M.Ozan-aşıq sənəti. Bakı: Uğur, 2007, 304 s.

18. Qurbani (tərtibçi, ön söz, qeyd və izahların müəllifi prof. Q.Kazımov)- Bakı: Bakı Universiteti nəşriyyatı, 1990. -280 s.

19.Mehdiyeva S.H. Folklor abidələrinin linqvopoetik tədqiqi [orta əsrlərdə yazıya alınmış Azərbaycan xalq dastanlarının əlyazmaları əsasında]. Bakı: "Elm", 2003, 220 s.

20. Məmmədov İ.O. Azərbaycan dilinin etnoqrafik leksikası. -Bakı: "Elm və təhsil", 2009. -290 s.

21. Soltanov M. Aşıq yaradıcılığında işlənən onomastik vahidləri bədii üslubi vasitə kimi. Bakı: Elm və təhsil, 2018, -184 s.

22. Aşıq Nəsib.(toplayıb tərtib edənlər: H.İsmayılov, T.Səmimi) Bakı:"Səda" nəşriyyatı, 2004, 200 s .

23. Axundov A.A. Dil və ədəbiyyat. 2 cilddə. I cild. Bakı: Gənclik, 2003, 550 s.

Лейла Пириева

НАЗВАНИЯ ОДЕЖДЫ В ПОЭМЕ О ЛЮБВИ СТИЛЬНЫЕ ВОЗМОЖНОСТИ

Резюме

Названия одежды важнейшая часть бытовой и этнографической лексики тюркских народов. Вестонимы ценные источники для этнографических, культурологических и лингвистических исследований. Лексика одежды отражаеш быт, историю, стиль повседневности народа. Названия одежды в основном сохранились в диалектах и гоборах.В тюркском языкознании лексике одежды традиционно уделяется большое внимание. Данная статья посвящена одной из актуальных проблем лексикологии азербайджанского языка. В статье проведен анализ тюркологических работ в том числе азербайджанских авторов, связанных различными аспектами изучения лексики одежды. В этих работах описывается лингвистические особенности лексики одежды, проводится их историко-генетический анализ, лексико-семантическая классификация данного пласта лексики и группируется по принципу номинации. Наименования одежды составляеш важнуй часть словарного состава Азербайджанского языка. Охватывает разные стороны народного быта. В художественном языке Азербайджанской ашугской поэзии часть этих слов характерна для определенного диалекта и говора историческая память слова содержится в речевом сознании носителей языка. Наименование одежды выступает как лексический представитель целого ряда ассоциации связанных с определенным культурно – историческим временам. В настоящей работе описывается стиписические особинности наименований одежды в языке Ашуга Алескера, Ашуга Насиба, Ашуга Наджафа и др. В азербайджанском языкознании наименования одежды в ашугском творчестве до сих пор не являлась обьектом специального изучения, что и определяеш актуальность данного исспедования.

Ключевые слова: ашугская поэзия, названия одежды, стилистика, литературный язык, фольклорный диалект

LEYLA PIRIYEVA

NAMES OF CLOTHES IN THE POEM OF LOVE STYLE OPPORTUNITIES

Summary

The names of clothes are the most important part of the everyday and ethnographic vocabulary of the Turkic peoples. Vestonyms are valuable sources for ethnographic, cultural and linguistic research. The vocabulary of clothing reflects the way of life, history, and the style of everyday life of the people. The names of the clothes are mostly preserved in dialects and gobras.

In Turkic linguistics, the vocabulary of clothing traditionally pays great attention. This article is devoted to one of the topical problems of the lexicology of the Azerbaijani language. The article analyzes the Türkological works, including those of Azerbaijani authors, related to various aspects of the study of the vocabulary of clothing.

These works describe the linguistic features of the vocabulary of clothing, carry out their historical and genetic analysis, lexical and semantic classification of this layer of vocabulary and are grouped according to the principle of nomination.

Names of clothes are an important part of the vocabulary of the Azerbaijani language and cover the different sides of folk life. In the artistic language of Azerbaijani ashig poetry, part of these words is characteristic of a certain dialect and the historical memory of the word is contained in the speech consciousness of native speakers. The name of clothing acts as a lexical representative of a number of associations associated with a certain cultural and historical time. The study of the lexico-semantic group “clothes” in the language of ashig poetry will allow not only to identify lexical-semantic features, the nature of the functioning of this vocabulary, but also get acquainted with the material culture of the Azerbaijani people.

This study describes the lexical and semantic group associated with the names of clothes in the language of Ashig Alasgar, Ashig Nasib, Ashig Nacaf and etc. In Azerbaijani linguistics, the names of clothes in ashig creativity have not yet been the object of special study, which determines the topicality of this study.

Key words: ashug poetry, names of clothes, style, literary language, folklore dialect

Redaksiyaya daxil olma tarixi: 18.05.2022
Çapa qəbul olunma tarixi: 07.06.2022
Rəyçi: akademik Nizami Cəfərov
tərəfindən çapa tövsiyə olunmuşdur

MƏLİKZADƏ AYDAN TAHİR QIZI
Azərbaycan Dövlət İqtisad Universiteti,
Xarici Dillər Kafedrası, baş müəllim
aydanmalikzadeh@gmail.com

SİNTAKTİK AMBİQİTİVLİKLƏ QARŞILAŞAN İNSANIN CÜMLƏ EMALI MAŞININ QƏRARINA TƏSİR EDƏN FAKTORLAR HAQQINDA XÜLASƏ

Bu məqalə sintaktik ambiqitivlik ilə qarşılaşan dil istifadəçilərinin mümkün olan mənalar arasında necə seçim etdiklərini və bu prosesə təsir edən faktorları araşdırmağa yönəlib. Məlumdur ki, linqvistik ambiqitivlik linqvistik element və strukturların birdən çox mənasının olması halıdır. Linqvistik ambiqitivliyin bir növü olan sintaktik ambiqitivlik zamanı isə müəyyən sintaktik strukturları və cümləni eyni anda müxtəlif cür şərh etmək mümkün olur. Bu və ya digər şərhin nə üçün seçilməsi və İnsanın Cümlə Emalı Maşınının qərar verməsinə təsir edən faktorlar hal-hazırda multidisiplinar tədqiqatların (linqvistik, psixolinqvistik, koqnitiv) əsas məsələlərindən biridir.

Məqalədə qeyd olunur ki, ambiqitivliyin çözülməsinə və düzgün mənanın seçilməsinə ən çox təsir edən amillər linqvistik xarakterli olub dil səriştəsini, konteksti, düzgün linqvistik təhlili, akustik siqnalları, prosodik vasitələri, bu və ya digər dil vahidinin dildə işlənmə tezliyini ehtiva edir. Kifayət qədər dil səriştəsi olan istənilən dil istifadəçisi, doğma dilin daşıyıcı olub-olmasından asılı olmayaraq, ambiqitivliyi aradan qaldırıb nəzərdə tutulan mənanı anlaya bilər. Məqalədə iddia olunur ki, semantik və sintaktik kontekst mümkün olan mənalar siyahısını elə darlaşdırır ki, düzgün təhlillə ambiqitivlik aradan qaldırılır və İnsanın Cümlə Emalı Maşını lazımi qərarı verə bilir. Məqalədə toxunulan digər bir məsələ ambiqitivliklə qarşılaşdığımız zaman müvəqqəti olaraq yanlış verilən qərarlardır. Dildə bu və ya digər strukturun işlənmə tezliyi İnsanın Cümlə Emalı Maşınına elə təsir edir ki, müəyyən strukturlara və sabit qaydalara öyrəşmiş insan beyni onları qeyri-obyektiv təhlil edə bilər. Sadəcə olaraq, yanlış qərar verdiyinin fərqinə varan kimi ikinci bir təhlillə ambiqitivlik aradan qaldırılır. Bu fakt da beyin üçün əlavə koqnitiv bir tapşırıq təqdim edir.

Məqalədə linqvistik faktorlardan əlavə, psixolinqvistik amillərin, insanların individual xüsusiyyətlərinin, mental bacarıqlarının, yaradıcılıq qabiliyyətinin də ambiqitivliyin çözülməsindəki rolundan bəhs edilir, lakin güman olunur ki, ambiqitivliyi linqvistik aspektdən təhlil etdikdə bu amillərin rolu elə də dominant deyil.

Digər bir məsələ dünya haqqında və məntiqi qanunauyğunluqlar haqqında sahib olduğumuz bilik və bacarıqların bu prosesi necə idarə etməsidir. Ambiqitivlik zamanı

iki və daha çox mənanın mövcudluğu istisna edilməsə də, İnsanın Cümlə Emalı Maşını qeyri-mümkün və ağlabatmayan mənaya doğru meyl etmir.

Açar sözlər: *ambiqitivlik, İnsanın Cümlə Emalı Maşını, linqvistik və ekstralinqvistik faktorlar, dil səriştəsi, akustik siqnallar, prosodik vasitələr, koqnitiv mexanizmlər, sintaktik qeyri-obyektivlik, yumor.*

Giriş

Dil bəşər tarixinin ən böyük uğurlarından olub insanların ünsiyyət ehtiyacını ödəyən vasitədir. Dilin inkişaf prosesində ortaya çıxan cəhətlərdən biri budur ki, obyektiv gerçəklikdə mövcud olan reallıqların sayı ilə linqvistik vahidlərin sayı eyni olmamışdır. Bu qeyri-mütənasibliyin nəticəsi olaraq linqvistik ambiqitivlik fenomeni meydana gəlmişdir. Ambiqitivlik (ambiguity) geniş bir anlayış olub, linqvistik planda dil elementlərinin iki və daha çox mənada şərh oluna bilməsi halıdır. Ambiqitivlik insan təfəkküründün çevikliyinin təcəssümü və koqnitiv funksiyalarımızın şərhedici bariz nümunəsi olsa da (14, 201), bunun nəticəsində bəzi hallarda ünsiyyət prosesinin tərəfləri arasında anlaşılmazlıq yarana bilər. Kommunikasiya üçün yaranmış bir vasitənin ambiqitivlik zamanı kommunikasiyaya tam mənasında "xidmət etməməsi" N. Xomski tərəfindən belə təsvir edilir : "... əgər əmin olmaq istəyirsinizsə ki, biz həmişə qarşı tərəfi düzgün anlayırıq, onda dil məhz bu məqsəd üçün tam xidmət etmir, çünki dildə ambiqitivlik kimi bir xüsusiyyət var. Əgər biz çatdırmaq istədiyimiz fikri həmişə sadə və qısa formada ifadə etmək istəsək, xeyr, dilin bu xüsusiyyəti də yoxdur" (https://www.cambridge.org/core/books/abs/on-nature-and-language/an-interview-on-minimalism/6386B66D67F38C8D41DC3E872361535A). Məsələnin Xomski tərəfindən bu cür qoyuluşu həqiqətən düşündürücü olsa da, ambiqitivliyin ünsiyyət prosesi üçün nəzərəçarpan ciddi problemlər yaratmaması göz qabağındadır. Təsadüfi deyil ki, ambiqitivliyin cümlə emalı tədqiqatlarının mərkəzi problemlərindən biri kimi ön plana çıxması keçən əsrin 60-ci illərinə, yəni kompüter dilçiliyinin geniş təşəkkül tapdığı dövrlərə təsadüf edir. Bu, bir daha sübut edir ki, inkişaf etmiş və anadangəlmə koqnitiv mexanizmləri olan insan beyni üçün ambiqitivliyi çözmək və nəzərdə tutulanı anlamaq ciddi problem deyil. Həm linqvistik, həm də fiziki kontekst normal halda söyləmin ambiqitivliyini ya sıfıra bərabər edir, ya da ünsiyyətin effektivliyi üçün praqmatik baxımdan məqbul səviyyəyə endirir (12, 94). Çox qısa zaman kəsiyində baş verən bu mürəkkəb hadisənin arxasında duran mexanizmlər elmi-tədqiqatların mərkəzində duran məsələlərdən biridir və biz də bu məqalədə bu mexanizmləri araşdırmağa və İnsanın Cümlə Emalı Maşınının ambiqitivliyi çözməklə bağlı qərarlarına təsir edən faktorları aydınlaşdırmağa çalışacağıq.

AMBİQİTİVLİYİN ÇÖZÜLMƏSİNDƏ İŞTİRAK EDƏN LİNQVİSTİK AMİLLƏR

İlk növbədə qeyd etmək lazımdır ki, mənimsənilmiş doğma dil və ya öyrənilmiş xarici dil olmasından aslı olmayaraq, dil istifadəçilərinin dil səriştəsi olduqları halda ambiqitivliyin açılması bütün situasiyalarda mümkündür. Ambiqitivliyin açılmasında dil səriştəsinin və qrammatik təhlilin rolunu vurğulayan F. Veysəlli kontekstin, intonasiya və danışıq məqamının da mühüm rol oynadığını qeyd edir (13, 42-43). Prof. Veysəllinin qeyd etmiş olduğu bütün amilləri ambiqitivliyin çözülməsində iştirak edən linqvistik faktorlar adı altında cəmləşdirmək mümkündür. Zənnimizcə, ambiqitivliyin çözülməsində ən əsas rol məhz linqvistik amillərə məxsusdur, çünki müəyyən bir dildə mövcud olan bu və ya digər strukturlardan, qaydalardan bixəbər olmaq ya, ümumiyyətlə, ambiqitivliyin fərqinə varmamaqla nəticələnir ki, bu da situasiyadan asılı olaraq həm arzuolunan, həm arzuolunmayan effekt ilə nəticələnə bilər. Eləcə də, lazımi qədər dil səriştəsinin olmaması səhv təhlilə aparır. Fikrimizi misalla izah edək: "Take her flowers" cümləsi həm "Ona güllər apar", eləcə də "Onun güllərini götür" kimi anlaşıla bilər. Sintaktik baxımdan iki tamamlıq tələb edən feillərdən sonra (ditransitive verbs) yiyəlik və obyekt halı eyni olan "her" kimi əvəzliyin istifadəsi ambiqitivliyə səbəb olur. Bu fenomenin cümlədəki mövcudluğundan xəbərdar olmaq, onun linqvistik izahını təqdim etmək və cümləni situasiyadan asılı olaraq nəzərdə tutulan formada anlamaq müəyyən dərəcədə linqvistik səriştə tələb edir. Digər tərəfdən qeyd etmək yerinə düşərdi ki, ambiqitivlik ingilisdilli yumoru yaradan səbəblərdən biridir. Əksər hallarda doğma dilin daşıyıcısı olmayanlar tərəfindən xarakterik ingilis yumorunun gülməli qarşılanmamasının səbəbi onların yetərincə dil səriştəsinə sahib olmamaları və məhz bu səbəbdən ambiqitivliyi çözüb gözlənilən yumoristik effekti əldə etməmələridir.

Ambiqitivlik zamanı cümlənin şərh olunması ilə bağlı aldığımız qərarlara təsir edən linqvistik faktorlardan biri də akustik siqnallardır, çünki məlumdur ki, cümləni düzgün sintaqmlara bölmək, intonasiya, vurğu və digər prosodik qaydalara əməl etməklə ambiqitivlik nəticəsində yarana biləcək anlaşılmazlıqları aradan qaldırmaq mümkündür. Məsələn:

"Jane has a new piano teacher"
"Who?" (11, 292).

Bu qısa dialoqda "Who?" ambiqitivliyin mərkəzi olsa da, onun enən və ya qalxan tonla deyilməsi növbəti cavabı müəyyənləşdirir və ambiqitivlikdən "təmizləyir". Belə ki, "Who?" sözünün qalxan ton ilə deyilməsi bu anlama gəlir ki, dinləyən danışandan "kimin yeni piano müəllimi var" faktını, yəni "Jane" adını təkrar etməsini istəyir. Enən ton ilə deyildiyi halda dinləyən danışanın "Ceynin yeni piano müəllimi var" faktını eşitsə də, o piano müəlliminin kim olması məsələsi ilə maraqlanır.

Başqa bir nümunə də prosodik vasitələrin ambiqitivliyin çözülməsindəki rolunu nümayiş etdirmək üçün çox münasibdir: *"I know how many people failed their businesses"* cümləsində pauza *"know"*sözündən sonra qoyularsa, *"Mən neçə nəfər insanın biznesinin uğursuzluğa düçar olduğunu bilirəm", "how"* sözündən sonra

qoyularsa*, "Mən bilirəm necə oldu ki, bu qədər insanın biznesi uğursuzluğa düçar oldu*" kimi tərcümə olunmalıdır:

"I know / how many people failed their businesses"

"I know how / many people failed their businesses"

Bu sahədə aparılan tədqiqatlar F.Liberman (8), D.Bolinger və L.Gerstman kimi tədqiqatçılara (2) məxsusdur. Sait intervalının ambiqitiv fonemik zəncirin şərh olunmasında əsas faktor olması hər iki tədqiqatın gəldiyi nəticə idi. / l a y t h a u s k i p ə r / frazası ya "lighthouse keeper", ya da "light housekeeper" ola bilər və F.Libermana görə, intervalın müddəti dinləyicinin söyləmi düzgün şərh etməsi üçün kifayət qədər məlumat təqdim edir (8, 246).

İnsanın Cümlə Emalı Maşınının sintaktik ambiqitivliyi hansı mənada şərh etməsi ilə bağlı verdiyi qərarlara təsir edən linqvistik faktorlardan biri də bu və ya digər sintaktik strukturun dildə işlənmə tezliyidir. Misal üçün qeyd edək ki, fərqli cümlə ağacı yaratmasa da, çox məşhur olan "The horse raced past the barn fell" (4, 11) cümləsində lokal (müvəqqəti) ambiqitivlik mövcuddur və bu ambiqitivliyin mərkəzi "raced" feilidir. Cümlənin emalı zamanı "raced" feili, ilk növbədə, əsas feil kimi, yəni "race" feilinin keçmiş zaman forması kimi qəbul edilir. İngilis dilinin stabil söz sırası qaydalarına əsasən, mübtədadan sonra xəbər gəldiyinə görə "raced" feili xəbər kimi nəzərdən keçirilir və yalnız cümlənin sonuna çatdıqda xəbərin "raced" yox, "fell" olduğu anlaşılır. Bu yanlış şərhə səbəb olan ikinci amil yəqin ki, "raced" feilinin feili sifət formasından daha çox əsas feil kimi istifadə olunmasıdır. İnsanın Cümlə Emalı Maşını birlikdə görməyə vərdiş etdiyi linqvistik vahidləri adəti üzrə şərh etməyə meyllidir və bu da sintaktik qeyri-obyektivlik adlanır və ambiqitivlik zamanı verilən linqvistik qərar və açıqlamalara əsas təsir edən faktorlardan biridir.

Ambiqitivliyin çözülməsində mühüm rollardan biri də kontekstə aiddir və bu təkcə linqvistik kontekstə yox, həm də fiziki kontekstə aiddir. Linqvistik kontekst, yəni ambiqitiv linqvistik vahidin sintaktik və semantik mühiti normalda mənanı aydın etdiyindən mümkün olan mənalar siyahısı darlaşır və bu səbəbdən az ehtimal olunan mənalar heç nəzərdən belə keçirilmir. Ambiqitivliyin aradan qaldırılmasında təkcə cümlədən əldə olunan məlumatlar iştirak etmir. Bu prosesə fiziki kontekst də təsir edir. Həqiqətən də, aparılmış tədqiqatlar göstərir ki, linqvistik materialdan çox, vizual qavradığımız ətraf aləm mənanın anlaşılmasına səbəb olur (5), (15). Bu yaxınlarda aparılan bir təcrübədə insanlar müxtəlif əşyaların yığıldığı bir masa arxasında oturdulur və onlara ambiqitiv olan müxtəlif, məsələn, "Put the apple on the towel in the box" tipli təlimatlar verilir və onlar tapşırığı icra edərkən gözlərinin hərəkətləri qeyd olunur. İlk olaraq, "on the towel" almanın qoyulacağı yer kimi şərh olunur, amma təcrübə sonunda aydın olur ki, əgər insanların qarşısında iki alma və bunlardan da biri dəsmal üzərində olarsa, referensial kontekstin köməyi ilə onlar ambiqitiv olan bu cümləni düzgün şərh edərək "on the towel"in təyin olduğu qənaətinə gəlirlər (1,149). Qeyd edək ki, sözönülü birləşmələrin (prepositional attachment) cümlə sonuna qoşulduğu bu cümlələr ambiqitiv hesab olunur, məsələn,

bu cümlə həm “Almanı qutunun içərisindəki dəsmalın üstünə qoy”, həm də “Dəsmalın üstündəki almanı qutuya qoy” kimi tərcümə oluna bilər. Deməli, həm cümlədaxili, həm də digər kontekstual faktorlar cümləni emal edərkən ambiqitivliyi aradan qaldırmağa kömək edir.

AMBİQİTİVLİYİN ÇÖZÜLMƏSİNDƏ İŞTİRAK EDƏN DİGƏR FAKTORLAR

Linqvistik faktorların rolunu qeyd etdikdən sonra, koqnitiv ünsürlərdən də bəhs etmək lazımdır, belə ki, ambiqitivliyin çözülməsi zamanı alınan qərarlara təsir edən faktorlardan biri insanların individual xüsusiyyətləridir. Bu, bir faktdır ki, bəzi insanlar ambiqitivliyin aşkarlanması və çözülməsində digərlərindən surətlidir. Bu məsələni araşdıran tədqiqatçılardan olan M. Lefever və L. Ehri (9) bildirirlər ki, linqvistik ambiqitivliyin aşkarlanması yalnız linqvistik sərişẗədən qaynaqlanmır. Əksinə, bu, ekstralinqvistik-koqnitiv faktorları və düşüncə çərçivəsini də ehtiva edir. İkidən çox mənası mümkün olan ambiqitiv linqvistik vahidlərdə bir mənanın digərindən tez aşkarlanması və fərqinə varılması, həqiqətən, individual yaradıcı xüsusiyyətlərin nəticəsi ola bilər. Mütəmadi olaraq, psixoloji test nümunəsi kimi təqdim olunan ambiqitiv şəkil və fiqurlarda da daha öncə hansı elementin aşkarlanması sırf individual xüsusiyyətlərdən qaynaqlanır. Məsələn, şəkil-1də təsvir olunan “iki insan üzü-qədəh” şəkli klassik psixoloji test nümunəsidir və hansı obyektin birinci tanınması bəzi fərdi xüsusiyyətlərdən xəbər verir.

Şəkil 1

Aparılmış tədqiqatlar göstərir ki, daha yaradıcı insanlar ambiqitivliyin çözülməsində daha cəld və fəaldırlar. Bu tədqiqat nəticəsində belə bir fikir irəli sürülür ki, dil və nitq fəaliyyəti üçün məsul olan beynin sol yarımkürəsi yaradıcı insanlarda ambiqitivliklə qarşılaşdığı zaman daha çox fəallaşır və mümkün olan mənalara daha çox əhəmiyyət verir (3, III).

Sintaktik ambiqitivliyi anlamaqda yardımçı vasitələrdən biri də insanların fitri koqnitiv mexanizmləridir. Artıq bir əsrdən də bir az çox zamandır ki, cümlə emalı və insanın beyni arasındakı əlaqə sübut olunub. Bu əlaqənin təbiəti haqqında tam dəqiq məlumat olmasa da, cümlə emalı tədqiqatlarındakı son irəliləyişlər və beynin *frontal lobe* adlanan sahəsinin neyroloji aspektdən öyrənilməsi belə bir maraqlı fikrin mümkünlüyünü irəli sürür: Ambiqitiv cümlə ilə qarşılaşan insan beyni onu çözmə tələbi ilə üz-üzə durarkən beynin *prefrontal cortex* adlanan nahiyəsinin vasitəçiliyi ilə koqnitiv prosesləri bu işə cəlb edir. Tədqiqatlar nəticəsində aydın olub ki, beynin nitq emalı və nitq fəaliyyətinin baş verdiyi və Broka nahiyəsi adlanan hissəsi sintaktik ambiqitivliyin çözülməsi üçün də məsuliyyət daşıyır (6). Bu, o deməkdir ki, normal şərtlər altında insan beyni ambiqitivliyi çözmək və nəzərdə tutulanı anlamaq iqtidarındadır, çünki insan beyni ambiqitivliyi çözmək üçün avtomatikləşib. Son tədqiqatlar göstərir ki, intellekti və zəif mental bacarıqları, məsələn zəif işçi yaddaşı

olan insanlar sintaktik ambiqitivlik nəticəsində ortaya çıxan müvəqqəti yanlış anlaşılmazlıqları düzgün təfsir etməyə bilərlər (6). Koqnitiv baxımdan yanaşdıqda ambiqitivlik zamanı nəzərdə tutulanı anlamaqla bağlı qərar vermə daha uzun vaxt və daha çox səy tələb edir.

Beynin funksional maqnit-rezonans tədqiqatı sayəsində ambiqitiv cümlələrin emalının beyinə əlavə iş və yükə səbəb olduğu aydınlaşıb. Eləcə də, əgər qərar vermə zamanı İnsanın Cümlə Emalı Maşını cümləni yanlış təfsir etdiyini və onu yenidən təhlil etməli olması qənaətinə gəlirsə, bu, Broka nahiyəsində daha çox fəallaşmaya səbəb olur. Digər bir maraqlı məqam ondan ibarətdir ki, cümlənin struktural mürəkkəbliyi və zənginliyi artdıqca, beynin fəaliyyəti də artır. Məsələn, ixtisar olunmuş təyin budaq cümlələri (reduced relative clauses) sözönülü birləşməli (prepositional phrases) cümlələrə nisbətən daha çox beyin aktivliyinə səbəb olur (10). Tədqiqat nəticəsində məlum olan digər bir fakt da budur ki, cümlənin gözlənilən və normalda üstün tutulan formada şərh olunmaması beyni bir az da fəallaşdırır və yeni axtarışlara cəlb edir (10, 1319).

Bütün bu qeyd edilənlər danılmaz faktlar olsa da, linqvistik ambiqitivliyin çözülməsində individual mental, koqnitiv və psixolinqvistik xüsusiyyətlər, bizcə, dominant rol oynamır. Müəyyən bir dildə kifayət qədər səriştəyə sahib olmamaq linqvistik vahidlərdəki ambiqitivlikdən tamamilə bixəbər olmaqla nəticələnir. Bu məsələyə toxunan N. Xomski linqvistik ambiqitivlik məsələsində seperatist yanaşmanın tərəfdarı olaraq linqvistik ambiqitivliklə digər sahələrdəki ambiqitivliyin müqayisəsini düzgün hesab etmir (7, 112).

İnsanın Cümlə Emalı Maşınına təsir edən linqvistik, psixolinqvistik, koqnitiv faktorlarla yanaşı ekstralinqvistik amilləri, məsələn insanların dünya haqqında biliklərinin rolunu da qeyd etmək lazımdır. Dil istifadəçiləri əksər hallarda ambiqitiv linqvistik vahidlərin nəzərdə tutulan mənasını ona görə düzgün anlayırlar ki, onların yaşadıqları ətraf aləm və onun qanunauyğunluqları haqqında düzgün və məntiqi təsəvvürləri və kifayət qədər bilikləri var. Məsələn, "*2 sisters reunited after 18 years at checkout counter"* (1, 146) kimi qəzet başlığı iki cür şərh oluna bilər:

1. Kassada 18 il gözlədikdən sonra iki bacı qovuşdu.
2. 18 illik ayrılıqdan sonra iki bacı kassada qovuşdu.

Bu ambiqitiv cümlə ilə qarşılaşdığımız zaman dünya haqqında biliklərimiz və məntiqimiz sayəsində Cümlə Emalı Maşını birinci yox, ikinci şərhə üstünlük verir və ambiqitiv olsa da cümlənin birinci mənasının qeyri-mümkün olduğu qərarına gələrək onu nəzərdən keçirmir. Sadəcə olaraq, qeyd etmək lazımdır ki, ambiqitivlik fenomeni yumoristik effekt üçün istifadə olunanda bu ekstralinqvistik biliklər və səriştənin köməyi istisna olunur, çünki ambiqitivlik əsasında yaranan yumor nadir sahələrdəndir ki, burada ambiqitivliyin məntiqə əsaslanan mənasına üstünlük verilməsi məqsədəuyğun deyil. Bu mətnlərdə gözlənilməyən və qeyri-mümkün səslənən mənanın seçilməsi yumoristik effektin əldə olunması üçün şərtdir. Aşağıdakı lətifədə bunu aydın müşahidə etmək mümkündür.

A man was eating a hamburger in the park. Next to him sat a lady with a small dog. The dog smelled the man's food and began whining and jumping up at him.
"Do you mind if I throw him a bit?" asked the man.
"Not at all," said the lady, pleased.
So the man picked up the dog and threw it over the wall. (https://upjoke.com/sit-jokes)

Göründüyü kimi, bu lətifədə *"Do you mind if I throw him a bit?"* cümləsi ambiqitivdir. Dinləyən kontekstə və məntiqə əsasən *"itə də bir az yemək atmağıma etiraz etmirsiniz ki"* şərh etdiyi cümləni danışan manipulyasiya edərək *"iti bir az tullamağıma etiraz etmirsiniz ki"* şərh etdiyini göstərir və iti götürüb qırağa atır. Məntiq qanunları çərçivəsindən çıxmaq, dünya haqqında biliklərə məhəl qoymamaq və ambiqitivliyi manipulyativ vasitə kimi istifadə etmək yumoristik mətnlərdə məqsədyönlü şəkildə edilir və hətta qeyd etmək mümkündür ki, İnsanın Cümlə Emalı Maşınının gözlənilən məntiqi qərarı qəbul etməsi yumoristik effekt əldə etməyə xidmət etmir.

Nəticə olaraq qeyd edək ki, ambiqitivlik mürəkkəb bir linqvistik fenomen kimi linqvistik və ekstralinqvistik vasitələrin köməyi ilə çözülür. Ambiqitiv linqvistik vahidlərlə qarşılaşan İnsanın Cümlə Emalı Maşını onların şərhi və açılması zamanı dil səriştəsi, linqvistik təhlil, prosodik vasitələr, kontekst kimi dildaxili elementlərdən istifadə edir. Eyni zamanda kompüterlərdən fərqli olaraq insanlarda fitrən mövcud olan koqnitiv mexanizmlər əksər hallarda İnsanın Cümlə Emalı Maşınının nəzərdə tutulan mənaya üstünlük verməsinə yardım edir. Ambiqitivliyin əksər hallarda dil istifadəçiləri üçün kommunikativ problemlər törətməməsinin digər bir səbəbi də insanların sahib olduqları dünya haqqında biliklər və məntiqi qanunauyğunluqlardır. İnsanın Cümlə Emalı Maşını güclü bir mexanizm olub bəzi müvəqqəti sapmalara yol versə də əksər hallarda qeyd olunan faktorlar sayəsində demək olar ki, düzgün linqvistik qərarlar verməyə kodlanıb.

Ədəbiyyat

1) Altmann G.T.M. Ambiguity in sentence processing // Trends in cognitive sciences, 1998, Vol. 2, No. 4, pp 146-152
2) Bolinger D.L., Gerstman L.J. Disjuncture as a cue to constructs // 1957, Word, 13:2, pp 246- 255.
3) Gibson L., Verbal creativity and ambiguity resolution in the cerebral hemispheres, University of Kansas, PhD thesis, 2013, 112 pp
4) Hirst G. Semantic interpretation and the resolution of ambiguity. Cambridge: Cambridge University Press, 1987, 263 p.
5) Haywood L.S., Pickering J.M., Branigan P.H. Do speakers avoid ambiguities during dialogue // American Psychology and Society, 2005, Vol. 16, No. 5, pp 362-366.

6) January D.,, Trueswell J., and Thompson-Schill Sh., Co-localization of Stroop and Syntactic Ambiguity Resolution in Broca's Area, J Cogn Neurosci. 2009 Dec; 21(12): 2434–2444.
7) Kess J.F., Hoppe R.A. Ambiguity in psycholinguistics. Amsterdam: John Benjamins B.V., 1981, 128 p
8) Lieberman P. Intonation, perception and language. Reviewed by K.Chin-Wu // Language, 1968, Vol. 44, No. 4, pp 830-842.
9) Lefever M. M., Ehri L. C. The relationship between field independence and sentence disambiguation ability // Journal of Psycholinguistic Research, 1976, 5 (2), pp 99–106.
10) Mason, R. A., Just, M. A., Keller, T. A., & Carpenter, P. A. (2003). Ambiguity in the Brain: What Brain Imaging Reveals About the Processing of Syntactically Ambiguous Sentences. Journal of Experimental Psychology: Learning, Memory, and Cognition, 2*9(6), 1319–1338.*
11) Oaks D. Structural ambiguity in English. New York: Continuum, 2010, 539 p.
12) Salvatore A. Linguistic theories of humor. Berlin New York: Mouton de Gruyter, 1994, 449 p.
13) Veysəlli F. Dilçilik ensiklopediyasi, I cild, Bakı: Mütərcim, 2006, 516 s.
14) Zabotkina V., Bottineau D., Boyarskaya E., , Cognitive Mechanisms of Ambiguity Resolution, Advances in Cognitive Research, Artificial Intelligence and Neuroinformatics, 2021, pp 201-212

Rus dilində

15) Владимировна Ю. М. Референциальный контекст и синтаксическое наведение как факторы, влияющие на разрешение синтаксической неоднозначности. Автореф. дис. ... канд. фил. наук. Москва: 2010, 26 с.

Summary

Factors influencing the decisions made by Human Sentence Processing Machine in case of ambiguities

Aydan Tahir Malikzadeh

This article was an attempt to explore the factors behind the decision-making process of Human Sentence Processing Machine in case of ambiguities.

Broadly speaking, ambiguity is the possibility of interpreting one and the same linguistic unit in more than two contradicting ways. The perplexing feature of this phenomenon is that in the majority of cases Human Sentence Processing Machine is hardwired to disambiguate correctly and understand the intended meaning. For achieving this accuracy both linguistic and extra linguistic factors are involved in the disambiguation process.

Linguistic factors that were looked at in this article were language competence, linguistic analysis, semantic and syntactic context, acoustic signals and prosodic means. Linguistic competence proved to be a dominant factor influencing the interpretation of ambiguous units and structures. With sufficient linguistic competence and analysis, it is believed that no ambiguity can perplex HSPM. This factor was even identified as a primary reason why so many non-native speakers fail to understand characteristic English humour and do not laugh at it in many cases. Other linguistic features such as acoustic signals and linguistic context (both syntactic and semantic) also assist HSPM in making decisions in case of ambiguities. Even though the frequency of linguistic structures and syntactic bias can sometimes temporarily mislead HSPM, it ends up revising the decision and concluding accurately, which causes an extra cognitive task.

Cognitive mechanisms humans possess are also of great help because thanks to them we tend to intuitively disambiguate as intended. It is confirmed throughout the article that human cognition is a powerful tool in this process. Thus, humans are revealed to be at a greater advantage in this regard compared to AI processing. Our cognitive abilities, such as working memory, individual features, mindset and creativity are also found to be important for HSPM.

One final aspect that was touched upon was our world knowledge and logic. Upon seeing linguistic items, people tend to ignore the implausible meaning, because otherwise it would sound unreasonable and would not make any sense. Having said that, the article suggests that humour is one of the rare realms where incongruous meaning is prioritized and favored for achieving a humorous effect and causing laughter.

Key words: *ambiguity, Human Sentence Processing Machine, linguistic and extra linguistic factors, language competence, acoustic signals, prosodic means, cognitive mechanisms, syntactic bias, humour.*

Айдан Тахир Меликзаде

Резюме

О факторах, влияющих на решения, принимаемые Машиной Обработки Человеческих Предложений в случае неоднозначности

Эта статья была попыткой исследовать факторы, лежащие в основе процесса принятия решений Машиной Обработки Человеческих Предложений (МОЧП) в случае двусмысленности. В широком смысле двусмысленность — это возможность интерпретации одной и той же языковой единицы более чем двумя противоречащими друг другу способами. Озадачивающая особенность этого явления заключается в том, что в большинстве случаев Машина Обработки Человеческих Предложений запрограммирована на правильное устранение неоднозначности и понимание предполагаемого значения. Для достижения этой точности в процесс вовлекаются как лингвистические, так и

экстралингвистические факторы. Лингвистическими факторами, которые рассматривались в этой статье, были языковая компетенция, лингвистический анализ, семантический и синтаксический контекст, акустические сигналы и просодические средства. Лингвистическая компетентность оказалась доминирующим фактором, влияющим на интерпретацию неоднозначных единиц и структур. Считается, что при достаточной лингвистической компетенции и анализе никакая двусмысленность не может сбить с толку МОЧП. Этот фактор был даже определен как основная причина, по которой так много не носителей языка не понимают характерного английского юмора и во многих случаях не смеются на это. Другие лингвистические особенности, такие как акустические сигналы и лингвистический контекст (как синтаксический, так и семантический), также помогают МОЧП в принятии решений в случае неоднозначности. Несмотря на то, что частота лингвистических структур и синтаксическая предвзятость временно вводят МОЧП в заблуждение, в конечном итоге он пересматривает решение и делает точные выводы, что вызывает дополнительную когнитивную задачу. Когнитивные механизмы, которыми обладают люди, также очень помогают, потому что благодаря им мы склонны интуитивно устранять неоднозначность. На протяжении всей статьи подтверждается, что человеческое познание является мощным инструментом в этом процессе. Таким образом, выяснилось, что люди имеют большее преимущество в этом отношении по сравнению с обработкой ИИ (Искусственный Интеллект). Наши когнитивные способности, такие как рабочая память, индивидуальные особенности, мышление и креативность, также оказались важными для МОЧП.

Последний аспект, который был затронут, касался нашего знания мира и логики. Увидев лингвистические элементы, люди склонны игнорировать неправдоподобное значение, потому что иначе это звучало бы неразумно и не имело бы никакого смысла. Сказав это, в статье предполагается, что юмор является одной из редких областей, где несоответствующее значение имеет приоритет и предпочтение для достижения юмористического эффекта и вызывания смеха.

Ключевые слова: *неоднозначность, Машина Обработки Человеческого Языка, лингвистические и экстралингвистические факторы, языковая компетенция, акустические сигналы, просодические средства, когнитивные механизмы, синтаксическая предвзятость, юмор.*

Redaksiyaya daxil olma tarixi: 18.05.2022
Çapa qəbul olunma tarixi: 07.06.2022
Rəyçi: Rəyçi: f.e.d. dos. L.M.Cəfərova
tərəfindən çapa tövsiyə olunmuşdur

VALİDƏ ABIYEVA
AFƏT SƏFİXANOVA
Azərbaycan Tibb Universiteti
Mərdanov qardaşları küçəsi
asefixanovaamu.edu.az

İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ VİDEO MATERİALLARDAN İSTİFADƏ

XÜLASƏ

Məqalədə orta və ali məktəblərdə ingilis dilinin tədrisində video materialolardan istifadə metodları göstərilir.Kommunikativ yanaşmanın əsas prinsiplərindən biri olan tələbə yönümlülük prinsipi tələbələrin öyrədilməsi deyil daha çox tələblər səviyyəsindən öyrədilməsini nəzərdə tutur.Priotet məqsəd kimi tələbələrin təlimi prosesinə fəal iştirakçı qismində cəlb edilməsi və beləliklə onlarda dilin öyrənilməsinə maraq və motivasiyanın yaradılması irəli sürülür.Bu metod da videomaterillardan istifadəyə zəmin yaradır.İngilis dilinin profesional məqsədlə öyrənən tələbələrə dildaşıyıcıları və dildən kommunikativ məqsədlərdə adekvat şəkildə istifadə edən insanların həm rəsmi həm qeyri-rəsmi formada keçən ünsiyyət prosesində kommunikasiya iştirakçılarının istifadə etdiyi leksik vahidlər,qrammatik və intonasiya strukturları və nitq modelləri onların riayət etdiyi davranış normalarını öyrənməyə xidmət edir.Həm video,həm də audio materiallardan istifadə auditoriyalarda kommunikativ sərištənin formalaşmasında böyük rol oynayır.Əksər hallarda ixtisası dil olan fakültələrdə dili profesional məqsədlərlə öyrənən tələbələr xarici ədəbiyyat nümunələrinə aid olan və dünya ədəbiyyatının xəzinəsinə daxil edilmiş əsərlərlə tanış deyillər.Bu baxımdan xəzinə əlçatan olmalıdır.Bugün yeni təlim texnologiyaları elmin hər bir sahəsinə nüfuz etmişdir.İlk öncə qeyd etmək lazımdır ki,məhz bu sahələrdə təkcə yenilik və texnologiyalar deyil,həm də insnaın fikirlərinin istifadəsinin bu və ya digər formalarının yeni mexanizm və üsulları da gündəmi zəbt edir.Bu zaman audio və video vasitələrdən istifadə vacib sayılır.

Açar sözlər: dil,metod,kommunikasiya,texnologiya.

Bİzə məlumdur ki,xarici dilin mənimsənilmə səviyyəsi dörd bacarıqla ölçülür: oxu,eşitmə,yazı və danışıq yeni texnologiyanın inkişafı ilə bağlı olaraq, bu bacarıqlardan ikisi eşitmə və danışıq ön planda olur.Bu zaman biz audio və video materiallardan istifadə etməliyik.Kommunikasiya interaktiv proses olub,insanların ünsiyyət qurduqda daha mənalı olur.Bu zaman insanlar tək danışmır,həm də qarşısındakını dinləyir.Xarici dili öyrənən tələbələr heç də həmişə dil danışıyıcıları ilə ünsiyyətdə olmaq şansını əldə etmir.Belə olan halda isə məsuliyyətin çox hissəsi müəllimin üstünə düşür və müəllim tələbələrin dinləmə bacarığını inkişaf etdirmək üçün qeyr-rəsmi dilə əsaslanan audio materiallardan daha çox istifadə

etməlidir.Audio materiallar nə qədər qeyri-rəsmi dilə əasalanarsa tələbələr bir o qədər bu dilə yaxın olur.Video materillardan istifadə təkcə tələbələrə dinləmə deyil həm də görmə şansı yaradır.Bu zaman tələbələr bir-birindən yeni informasiyanı qavrama və yadda saxlama üsullarına görə çox fərqlənir.Bəzi tləbələr ancaq informasiyanı yadda saxlayır.Video materiallardan istifadə tləbələrə təkcə eşitmə deyil həmçinin visual şəkildə görmə şəraiti yaradır.(4,səh 7-8)

"The practice of English language teaching" kitabınln "Listening" bəhsində tələbələrin kommunikativ bacarıqlarını inkişaf etdirmək üçün istifadə olunan audio materiallardan və dinləmə bacarığı haqqında geniş məlumat verilmişdir.Tələblərin sadəcə dinlədikləri parçadan zövq almaq və kommunikativ bacarıqları inkişaf etdirmək üçün istifadə etdiyi dinləmə növü ekstensiv dinləmədir.Amma bəzi tələbələrdə dinləmə mətnlərində problem əmələ gəlir.Əgər tələbə dinlədiyi mətnin və ya dialoqun hər hansı hissəsini anlamırsa bu onun demotivasiyasına gətirib çıxarır.Hər bir dil səviyyəsinə uyğun olan qısa mətn lər isə onların tələbələr tərəfindən rahat mənimsənilməsinə kömək edir.Ekstensiv dinləmədən fərqli olaraq intensiv dinləmə əsasən dərs prosesində baş verir və intensiv dinləmə zamanı istifadə olunan mövzular müəllim tərəfindən keçilir.Müəllim hər hansı bir materialı seçərkən bir çox amilləri nəzərə almalıdır.Ən başlıca amil isə tələbələrin dil səviyyəsidir.Hər bir dinləmə mətni tələbələrin dil səviyyəsinə uyğun olmalıdır.Audio materiallardan istifadə tələbələrə müxtəlif danışıq formalarını eşitməyə şərait yaradır.Fərqli danışıq tərzləri ilə yaxından tanış olan tələbə dil daşıyıcıları ünsiyyətdə olarkən heç bir problem yaranmır.Amma problemsiz keçmir.Bəzən auditoriyada akustik problemlər yarana bilər.Bu halda tələbələr audio mətni tam eşitmədiklərinə görə anlaya bilmirlər."The practice of English language teaching" kitabının "film and video" mövzusunda dərs prosesində tələbələrin kommunikativ mövzusunda formalaşdırılması üçün video materialların istifadəsinə dətoxunulmuşdur.Bildiyiniz kimi ünsiyyət verbal və qeyri verbal olaraq iki yerə bölünür.Danışıq zamanı bu ünsiyyət vasitələrinin hər ikisindən eyni zamanda istifadə edirik.Video materialların audio materiallarından fərqi bundadır.Audi materialları dinləyərkən tələbələr ancaq verbal ünsiyyətdən yararlana bilər. (3,səh 18-20)

Video materialların audio materiallardan fərqi odur ki, videomaterialları tələbələr izləyərkən,dil daşıyıcılarının işlətdiyi hər hansı bir ifadənin həmin ifadələrin ifadə etdikləri jestlərlə necə birləşdiyini əyani şəkildə görmə fürsətini əldə edirlər.Məs: I have toothache ifadəsini videomaterillarla göstərmək üçün hər hansı bir jesti nümayiş etdirmək olar.Qeyd etmək lazımdır ki,xarici dilin öyrədilməsində müəllimin rolu çox böyükdür.Müəllimin ən vacib rollarından biri onun özünün informasiya mənbəyi olmasıdır.Bu o deməkdir ki,müəllim tələbələrin dinləmə və anlama bacarıqlarını inkişaf etdirmək, onları video materillarla təmin etmək üçün müxtəlif mənbələrdən, internet resurslarından istifadə edərək xarici dildə olan videoları qısa metrajlı filmlər izləməyi msələhət görə bilər.Fast Formard bu üsuldan istifadə edərək müəllim filmdən bir parçanı və yaxud bir videoroliki sürətlə irəli

çəkir.Video material bitdikdən sonra müəllim tələbələrdən bu videonun nə haqqında olduğunu və persinajların nə dediyi haqqında məlumat alır.Belə üsuldan istifadə tələbələrə videonu izləyərkən diqqətini onun əsas və vacib hissələrinə istiqamətləndirmək və videodan danışılan mövzunun məğzini anlamağa imkan yaradır.Səssiz izləmə üsullarından istifadə edərək müəllim təlbələrə səssiz şəkildə,lakin normal surətdə videonu izləməyə şərait yaradır.Film bitdikdən sonra müəllim tələbələrdən onun haqqında məlumat soruşur. (1,səh 3-5)

Stop-kadr üsulunda müəllim videonun istənilən bir hissəsini dondurur və tələbələrdən növbəti səhnədə baş verəcəyini soruşur.Tələbələr artıq bu situasiyahaqqında məlumat toplayır.Müəllim tələbələrə hər hansı bir audio materialı dinləməkdən əvvəl mütləq həmin materialın dinləmə səbəbini,dinlədikdən sonra hansı informasiyanı əldə etməli olduqlarını tələbəyə əvvələcədən bildirməlidir.Tələbə dinlədiyi parçanın hansı hissəsinə daha çox önəm verməıli olduğunu bilir və artıq bu hissəyə fikrini cəmləyərək informasiya əldə etməyə çalışır.Tələbələr qarşısında qoyulmuş məqsədlər onun motivasiyasını qaldırmağa qadirdir.Kommunikasiya təkcə şəxsin danışıq bacarıqlarını nəzərdə tutmur,həmçinin onun eşitmə və dinləmə bacarıqlarını nəzərdə tutur.Nitqin dinləmə vasitəsilə qəbul edilməsi aktı məqsədyönlü xarakteri ilə fərqlənir.Bu prosesin uğurla başa çatması mürəkkəb fəaliyyətlə bağlıdır.Xarici dil öyrənən hər hansı bir şəxs dinləmə prosesində çox diqqətli olmalıdır.Yeni bir informasiyanın əldə edilməsi diqqət duyğularının köməkliyi ilə yaranır və onların hesabına inkişaf edir.Ancaq insan duyğuları iradə prosesi ilə bağlı olduğundan özünü bu proseslə birlikdə biruzə verir.Dinləmə prosesinin müvəffəqiyyət səviyyəsi tələbələrin yeni bilik əldə etmə tələbatlarından dinlədikləri parçaya olan maraqdan və başqa subyektiv amillərdən asılıdır.Tədris prosesinin mürəkkəb təşkilatı,tədqiqatın dəqiqliyi və tutarlığı daxili motivasiyanı yaratmağa imkan verir.Xarici dillərin təfirində video materiallardan istifadə müxtəlif çətinliklər törədə bilər,müəllimin ən mühüm vəzifəsi bu çətinlikləri görmək və onları aradan qaldırmaqdır.Video və audio materiallardan istifadənin faydalı olmasına baxmayaraq bəzən dərs prosesində bu vasitələrdən istifadə çətinliklərlə şərtlənir.Metodistlərin bəziləri video materiallardan istifadə ilə bağlı çətinlikləri araşdırmış və onların həlli yollarını tapmağa çalışırlar.Dinləmə mətnlərinin daha bir mənfi xüsusiyyəti ondan ibarətdir ki, tələbələr dinlədikləri şəxsin danışıq prosesində meydana çıxan üz cizgiləri,mimikanı görmür və beləliklə də dinlədikləri mətndə bəzi çətinliklər ola bilər.Video materiallarda isə bunun tam əksi ola bilir.(3,səh22-23)

Təbii danışıq prosesində sinlənilən mətnlə audio materiallar vasitəsilə dinlənilən mətn arasında böyük fərq vardır.Real ünsiyyətdə danışanı dinləyərkən anlamadığınız bir ifadə və ya fikir olarsa dərhal onu dayandırıb danışdığı ifadəni izah etməsini xahiş edirik.Video materialların bir neçə mənfi xüsusiyyətləri varsa da dərs prosesində müəllim onlardan istifadə edir.Tələbələrin videonu tam təfsilatı ilə anlamağı çətin olduqda onu təkrar izləmək mümkündür.Video və audio materialların

istifadəsi xüsusi qurğuların və texnikanın köməkliyi ilə meydana gələn bir prosesdir.Texnikanın daha çox dəqiq desək, video materialların izlənilməsi üçün lazım olan proyektor,audio materialların dinlənilməsi üçün istifadə edilən CD disklərinin quraşdırılması və işə salınması xeyli vaxt apara bilər.Metodistlər dərs prosesində vaxta qənaət etmək və tələbələrin diqqətinin yayılmamasını təmin etmək üçün video və audio materiallarının səsləndirilməsi üçün lazım olan bütün işlərin yerinə yetirilməsini təklif etmişlər.Bu həm vaxta qənaət etməyə həm də tələbələrin motivasiyasını qorumağa yardımçı olacaqdır.Başqa bir problem isə akustikanın zəofliyindən ibarət olmuşdur.Bu problemin də aradan qaldırılması yolları vardır.Dinlənilən və seyr edilən materialın başa düşülməsi və eşidilməsi üçün bu prosesin həyata keçirilməsi üçün istifadə olunan qurğunun yerini dəyişdirmək və onun sısi aydın eşidilməsi üçün optimalvəziyyətdə saxlamaqdır.Əgər yenədə bir çətinlik çıxarsa gücləndiricilərdən istifadə etməkdir.Bu vasitələrdən istifadə akustika ilə bağlı olan problemlərin aradan qaldırılmasına kömək etməkdir.(2, səh 36-37)

Dinləmə zamanı daha yaxşı başa düşülməsi və daha çox informasiya əldə edilməsi üçün real ünsiyyət zamanı qarşıya çıxan problemlərdən bu anlaşılmazlıqların, audio materialların dinlənilməsi zamanı çıxan problemlərdən az olması kimi qeyd olunur.Tələbələrin video materiallar vasitəsilə yeni dərsləri və məlumatları isləməsi daha münasib şəkildə qeyd olunur.Bu zaman məlumat görüntülü şəkildə daha yaxşı anlaşılır.Hər hansı bir parçanı bir neçə dəfə dinləyən tələbə bu hissə haqqında daha çox məlumat almaq iqtidarında olacaqdır.Biz buradan anlayırıq ki,səsləndirmə zamanı orataya çıxa biləcək problemlərinöncədən qarşısını ala bilmək üçün müəllimlər tələbələrə dinləmə zamanı bir çox çalışmaları həll etməyi tapşıra bilərlər.Dərslərdə autemtik filmlərdən istifadə etməklə təlim prosesini daha səmərəli şəkildə təşkil etmək və daha yüksək təlim nəticələrini əldə etmək mümkündür.Xarici dil dərslərində əyanilik prinsipi kommunikativ yanaşmanın əsasını təşkil edən kommunikativlik,interaktivlik,tələbə-yönümlülük,funksional yönümlülük prinsiplərini əlaqəli şəkildə tətbiq edilməlidir.Tələblərə təqdim edilən filmlər autentik olmalı,tələbələrin özlərinin də fikirləri nəzərə alınmalıdır.Təlimin baş verdiyi sosio-mədəni kontekstin nəzərə alınması tələbələrin istəyi ilə də ola bilər.Qeyd etməkm lazımdır ki,filmlər həm məzmun,həm də dil baxımından nə həddindən artıq asan, nə də həddindən artıq çətin olmalıdır.Bu istiqamətdə iş tədrisinin ilkin mərhələsindən başlamalı,asandan çətinə sadədən mürəkkəbə prinsiplərinə riayət etməklə məqsədyönlü,sistemli, mərhələli şəkildə həyata keçirilməsidir.Müasir dövrdə audio-video texnikadan istifadə etməklə əyanilik prinsipinə riayət edilməsi təmin oluna bilər.Qeyd etmək istəyirəmki,dinləməyə aid olan sualları əvvəlcədən oxumaq,açar sözləri tapıb onlara daha çox diqqət yetirmək kimi tapşırıqlar aid ola bilər. Metodistlərin fikrinə görə belə tapşırıqları tələbələrin diqqətini düzgün istiqamətə yönləndirməyə imkan yaradır.

Demək olar ki, müntəzəm olaraq ingilis dili dərslərində audio və video materiallardan istifadə etmək mümkündür.Bu üsul interaktiv metodun bir

növüdür.Xüsusilə ingilis dili dərslərində bu metodun tətbiqi vacibdir.Buna görədə kompyuter sahəsindən istifadə etməli, müxtəlif qısa metrajlı filmlərə baxılmalı, müxtəlif mövzulara aid olan mətnlər dinlənilməlidir.Müəllim mövzunu elə seçməlidir ki,həmin mövzu istər audio olsun istər video tələbələrin ixtisaslarını əhatə etməlidir.Ümumiyyətlə ingilis dili dərslərində tələbələrin aktiv olmalarını təşkil etmək elə asan iş deyil,bu da bilavasitə fənni tədris edən müəllimdən asılıdır.Məsələn Tibb universitetinin tələbələrinə tibbə aid mövzular dinləmə və video materiallar daha maraqlı olar.Tələbələr bu dildə hər hansı mövzu haqqında müəyyən məlumatlar əldə edirlər.İnkişaf etmiş ölkələrin təhsil təcrübəsi göstərir ki,müasir tələbələrin dərs prosesində bu metodlar əsas rol oynayır.Bu metodlar həm tələbələr həm müəllimlər üçün əlverişlidir.Auido və video materiallardan istifadə odraki və kommunikativ fəaliyyətin elə formasıdır ki,tədris olunan mövzunun mənimsənilməsinə kömək edir.Bu prosesdə yalnız müəllimlə tələbə deyil, həm də tələbələr öz aralarında dialoq rejimində fəaliyyət göstərirlər.İnteraktiv metodlara aid olan video materiallardan istifadə biliklərin tələbələrə lazım şəkildə verilməsini deyil,bu bilikləri daha çox onların özlərinin birlikdə axtarıb tapmalarına yardımı nəzərdə tutur.Təlim prosesində işgüzar fəaliyyət metodu müəllim və tələbələrin ən çox qiymətləndirdiyi bir üsuldur.İnteraktiv təlim prosesində tələbələrin yaradıcılıq fəaliyyətləri və dünyagörüşləri inkişaf edir.Video materiallardan istifadə edərək hansısa bir dərsin tələbələrə çatdırılması məqsədəuyğundur.Müasir təlim və texnologiyalarının öyrənilməsi istiqamətində təşkil olunan göstərişlər müəllimlər tərəfindən yüksək səviyyədə qiymətləndirilir.Video materiallarla keçilən dərslərdə həm təhsilləndirici həm də inkişafedici, intellektual metod olmaqla təlimin keyfiyyətini yüksəldir.Biliklərin mənimsənilməsi bacarığı tələbənin öyrənəcəyi mövzuları konkret faktlardan bütöv nəzəriyyələrə qədər yadda saxlaması, ifadə edə bilməsidir.Dərketmə bacarığı tələbənin öyrəndiyi materialı şəkil etməsi və müxtəlif məntiqli mülahizələri söyləməsidir.

Ədəbiyyat

1.Bailey K.M and D.Numan, Voices from the language classroom,1993

2.Kruk,B.L,guravleva O.B “Using video in distance learning” house publishing solutions 2017,Moscow

3.” Teaching speaking, listening and writing “Tudy Wallace p 2010

4.Widdowson “community and authenic language” Vol 32Nilu 1998

SAFIKHANOVA AFAT
ABIYEVA VALIDA

SUMMARY
THE USE OF VIDEO MATERIALS IN TEACHING ENGLISH

This articledeals with video materials in developing communicative competence at lessons.Today the main goal of teaching and learning foreign languages in the global world is developing language learners' ability.The proces of teaching English should be based on the communicative functional approach to teaching languages.The whole process of teaching oral speech should be goal oriented systematic.It wil make the proces of teaching oral speech effective.Our approach to using autenic films in teaching English for professional purpose is based on helping language university students to acquire communicative competence in the target language.Video films prodieo students with acces to the visual characteristics of another country.

A film text introduce how the culture represented.This article is also devoted to the audio and video materials in modern methodology.While analyzing great attention was given to the facts.The author emphasizesists role in methodology.Since its emergence this nothion caught the attention.New researches appeared.Falms should be appropriate and relevant.

Key words:communcation,method,technology,language,speech

САФИХАНОВА АФЯТ
АБЫЕВА ВАЛИДА

ИСПОЛЬЗОВАНИЕ ВИДЕОМАТЕРИАЛОВ В ПРЕПОДАВАНИИ АНГЛИЙСКОГО ЯЗЫКА

Резюме

Использование виде материалов в обучения английскому языку.в данной статье рассматриваются вопросы обучения устной речи на английском языке. В обучении английскому языку как иностранному традиционно используем тексты.нам подход к использованно аутентичных фильмов в обучении английскому языку для профессиональных целей.процесс обучения английскому языку в целом в прцесс обучения устной речи должен базироваться коммуникативном принципе.автор пытается раскрыть роль упражнения.ссылаясь на работы учёных исследовавших атакже подчеркивает и важность. В анализе большое внимание обращено на фактом полученные из литератур. Отмечается что это даёт воспоминать смысл во время анализа ещё более ясно а также более разнообразном колорите.

It is noted that Okolnichi, referring to Russian officials and servicemen of the time, including historical documents, memories of himself and his contemporaries, his observations and analysis, sometimes made subjective comments in accordance with the official position of the state, but the facts presented has a serious scientific significance as a whole in terms of understanding. The article also focuses on the interpretation of the doctrine of muridism and its role in socio-political processes. In the work of N. Okolnichi, the characteristics of different ethnic groups of the highlands are of special interest from a special ethnological point of view.

The article notes that many foreign authors have commented on the psychological shades, everyday details of the Turks, Adyghe-Circassians, Avars, Chechens, Lezgians, Kumyks, Nogai, Ossetians, Kabardians, Balkars, Abaza and others. The comparative characterization of N. Okolnichy of the two numerous Caucasian peoples, the Chechens and the Lezgins, who were important forces of aggression in terms of military psychology and habits, as well as his observations and conclusions about the Azerbaijani people and the role of the Azerbaijani language in the Caucasus are of great interest. Observations and opinions on the use of the Azerbaijani language as a common language in the North Caucasus, as a means of international communication and the exceptional importance of Azerbaijan

in general in the political, cultural, spiritual and military processes in this area, cooperation with mountainous peoples are commented.

Keywords: Caucasus, Caucasus War, Dagestan, Sheikh Shamil, Qazavat, Muridism, Azerbaijan, Azerbaijani language.

ДВИЖЕНИЕ ШЕЙХ ШАМИЛЬ И МЁРДИЗМ ОБУЧЕНИЕ ПО ИСТОРИКО-ДОКУМЕНТАЛЬНЫМ ИСТОЧНИКАМ

Резюме:

В статье комментируются военный, идейный, политический характер Кавказской войны, природа и роль мюридизма, воспоминания и аналитические размышления главных участников Кавказской войны, известного русского военного и государственного деятеля Николая Андреевича Окольничи. Генерал-майора Окольничи "Обзор последних военных событий в Дагестане (1843 г.)" (Н. Окольничий. Список последних военных событий в Дагестане (1843 г.)), опубликованный в пяти выпусках "Военного сборника" за 1859 г. // "Военный Сборник», № 1-5, 1859 г.) анализируются богатые факты из истории Кавказа, в том числе Азербайджана, и азербайджано-турецко-российско-дагестанских отношений того периода.

Отмечается, что Окольничий, ссылаясь на российских чиновников и военнослужащих того времени, в том числе на исторические документы, воспоминания о себе и современниках, свои наблюдения и анализ, иногда делал субъективные комментарии в соответствии с официальной позицией государства, но изложенные факты имеет серьезное научное значение в целом с точки зрения понимания. В статье также акцентируется внимание на трактовке учения о мюридизме и его роли в общественно-политических процессах.

В работе Н. Окольничи характеристика разных этносов высокогорий представляет особый интерес с особой этнологической точки зрения. В статье отмечается, что многие зарубежные авторы комментируют психологические оттенки, детали быта тюрков, адыго-черкесов, аварцев, чеченцев, лезгин, кумыков, ногайцев, осетин, кабардинцев, балкарцев, абазин и др.

Сравнительная характеристика Н. Окольничего двух многочисленных кавказских народов, чеченцев и лезгин, являвшихся важными силами агрессии с точки зрения военной психологии и привычек, а также его наблюдения и выводы об азербайджанском народе и роли азербайджанского языка на Кавказе. большой интерес.

Наблюдения и мнения об использовании азербайджанского языка в качестве общего языка на Северном Кавказе, как средства межнационального общения и исключительной значимости Азербайджана в целом в

политических, культурных, духовных и военных процессах в этой области, сотрудничестве с горскими народы прокомментированы.

Ключевые слова: Кавказ, Кавказская война, Дагестан, Шейх Шамиль, Казават, мюридизм, Азербайджан, азербайджанский язык.

Redaksiyaya daxil olma tarixi: 18.05.2022
Çapa qəbul olunma tarixi: 07.06.2022
Rəyçi: professor Asif Hacıyev
tərəfindən çapa tövsiyə olunmuşdur

AYNUR AYDIN qızı FƏRƏCOVA
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Folklor İnstitutunun dissertantı
karimovaaynur@gmail.com

OĞUZ-TÜRK TEOQONİK OBRAZLAR SİSTEMİNDƏ "TANRININ NİŞAN VURDUĞU" QƏHRƏMANLAR: DƏLİ DOMRUL

Məsələnin qoyuluşu. Folklorda teoqonik obrazlar sisteminin araşdırılması tanrıların yaradılışından başlanan epik-transformativ xətlərin müəyyən edilməsini, daha doğrusu, bərpa-rekonstruksiya edilməsini tələb edir. Bu da eyni zamanda tədqiqatçıdan etnik-mədəni düşüncənin iki nəhəng layını – mifologiya və folkloru vahid sistemdə götürməyi tələb edir. Çünki tanrıların yaradılışı mifologiyadan başlanır və həmin yaradılış miflərin əsas məzmununu təşkil edir. Mifologiyada dünyanın, kainatın, varlıq aləminin, eləcə də onları təşkil edən ayrı-ayrı elementlərin yaradılışı ilk əcdadların, ilk insanların, tanrıların yaradılışı ilə birgə, yəni eyni proses şəklində baş verir. İlk əcdadın yaradılışı elə kainatın yaradılışı deməkdir. Çünki türk mifologiyasında Tanrı həm göyü, həm də yaradıcı varlığı (şəxsi, insanı) eyni zamanda nəzərdə tutur. Mahmud Kaşqarlının "Divan"ında müsəlman olmayan türklərin göyə, böyük dağa, böyük ağaca və bu kimi nəhəng, böyük, iri şeylərə Tanrı deyildiyi məlumdur [1, s. 377-378]. Yaxud "Kitabi-Dədə Qorqud"da Oğuz adı həm ulu əcdad Oğuzu xanı, həm Oğuz dövlətini, həm Oğuz xalqını (elini), həm Oğuz insanını, həm də zamanı bildirir:

"Oğuz xanın ilqıçısı gəlüb xəbər gətirdi" [2, s. 98] – Oğuz xan;

"Dədə Qorqud döndi, Oğuza gəldi" [2, s. 99] – Oğuz eli;

"Oğul, Təpəgöz, Oğuz əlində zəbun oldu" [2, s. 99] – Oğuz xalqı;

"Oğuz zəmanında Qanlı qoca derlərdi bir gürbiz ər vardı" [2, s. 85] – Oğuz zamanı.

Göründüyü kimi, tanrılarıın, tanrı oğlu statusunda olan ilk əcdadların yaradılışı dünyanın, kaninatın, bütün məkan zamanın yaradılışını ifadə edir. Bu cəhətdən, folklor, xüsusilə dastanlar tanrılar haqqında teo-kosmoqonik görüşləri özündə yaşadır. "Kitabi-Dədə Qorqud"da bir çox qəhrəmanlar bilavasitə teoqonik görüşləri təmsil edir. Oğuz eposu üzərində apardığımız tədqiqatlar göstərir ki, qəhrəmanların tanrılarla bağlılığı təkcə "Tanrı oğlu" anlayışı ilə ifadə olunmur. Aydınlaşdırılmışdır ki, oğuz eposunda tanrı ilə bağlılığı ifadə edən anlayışlardan biri "Tanrının nişan vurduğu qəhrəman"dır.

İşin məqsədi. Tədqiqatın aparılmasında əsas məqsəd "Tanrının nişan vurduğu qəhrəman" anlayışını "Kitabi-Dədə Qorqud" eposundakı Dəli Domrul obrazı əsasında araşdırmaqdır.

Folklorda hər hansı obrazın teoqonik görüşlərlə bağlılığı, "Tanrı oğlu" xətti ilə müəyyənləşir. Yəni o qəhrəmanlar ki, nəsil şəcərələri Tanrıya (tanrılara) gedib çıxır, onları teoqonik obrazlar hesab etmək olar. Yəni bu obrazlar birmənalı şəkildə teoqonik mənşəyə malikdirlər. Ancaq oğuz epik mətnlərinin öyrənilməsi göstərir ki, teoqonik obrazlar, yəni bilavasitə Tanrı ilə bağlı obrazlar təkcə qohumluq xətti ilə yaranmır. Tanrı öz seçimi ilə müəyyən qəhrəmanları teoqonik sistemə daxil edə bilir. Bunun bir nümunəsinə Mahmud Kaşqarlının "Divan"ında "Kulbak" adının izahında rastlaşırıq.

Kaşqarlı yazır: "Bir Türk tapganının, din ulusunun adıdır. Balasagun dağlarında bulunurdu. Anlattıklarına göre, bir gün bir set kaya üzerine "Tengri kulı Kulbak" yazar; yazı, apak meydana çıkar; bir de bir ak kaya üzerine bu yazıyı yazar; yazı, kara olarak belirir. İzeri bugüne kadar durmakta imiş" [3, I c., s. 474-475]

Mətndə çox aydın şəkildə aşağıdakılar göstərilir:

a) Kulbak adı böyük bir din xadminin ("din ulusının", böyügünün) adıdır;

b) Bu din xadiminə "Kulbak" adını Tanrının öz vermişdir;

c) Tanrı özü qayanın üzərində "Tanrının qulu Kulbak" yazmaqla onu öz dininin (Tanrıçılığın) nümayəndəsi elan etmişdir.

Kulbakın Tanrı tərəfindən seçilməsi onun, bir növ, övliya, peyğəmbər və s. kimi Tanrıçılıq sisteminə, başqa sözlə, teoqonik sistemə daxil edilməsi deməkdir.

Tanrının insanlar içərisindən müəyyən şəxsləri seçməsi təkcə bu faktla məhdudlaşmır. Biz Tanrıçılıqda bu seçimin yayğın hal olduğuna təsdiq edən bir deyimə Oğuz atalar sözlərinin işərisində də rast gəlmişik. Samət Əlizadənin çap etdirdiyi XV-XVI əsrlərə aid olan atalar sözlərindən ibarət "Oğuznamə" məcmuəsində belə bir deyim var:

"Tanrı nişan urduğı quldan qorqmaq gərək" [4, s. 86].

(Tanrının nişan vurduğu quldan qorxmaq lazımdır.)

Bu, çox dərin mənalı deyim bilavasitə teoqonik sistemlə bağlı olduğu üçün onu dərindən təhlil etməyimiz tələb olunur. Deyimin məzmunundan aşağıdakı qənaətlər əldə olunur:

a) Tanrı öz qulları, yəni bəndələri, yaratdıqları içərisində seçim edə bilir.

b) Tanrının seçimi onun öz prinsiplərinə əsaslanır. Yəni Tanrının öz bəndələri içərisində kiminsə əməllərindən, davranışlarından, hərəkətlərindən və s. xoşu gəlir.

c) Tanrı seçdiyi quluna nişan vurur. Yuxarıdakı deyimdən Tanrının öz qulunu necə nişanlaması, yəni onu başqalarından necə fərqləndirməsi aydın olmur. Lakin Mahmud Kaşqarlının Kulbak adına verdiyi izahı yadımıza salsaq, onda mənzərə müəyyən qədər aydınlaşmış olur. Tanrı Kulbakın onun öz tərəfindən seçilmiş qulu, bəndəsi olduğunu bildirmək üçün Kulbak adını qayanın üzərinə yazır. "Oğuznamə"dəki atalar sözündən isə aydın olur ki, kiminsə Tanrı tərəfindən bəyənilməsi, seçilməsi "Tanrının ona nişan vurması" adlanır.

c) Atalar sözündən aydın olur ki, Tanrının öz seçdiyi quluna nişan vurması başqalarının, digər insanların həmin insanı tanıması üçündür. Atalar sözünə görə,

başqa insanlar Tanrının nişan vurduğu bəndədən "qorxmalıdırlar". Burada "qorxmaq" insanların Tanrı nişanını daşıyan adama Tanrının nümayəndəsi, seçimi kimi hörmət etmələri, onun dediklərini əməl etmələri və s. üçündür. Çünki Tanrının nişan vurduğu adam artıq insanlar arasında onun nümayəndəsidir: o, Tanrını təmsil edir və Tanrının qulu kimi onun iradəsini həyata keçirir. Bu, həm də o, deməkdir ki, Tanrının nişan vurduğu adamın Tanrı ilə əlaqəsi var.

ç) "Nişan" sözü həm də "əlamət" mənasındadır. Yəni Tanrının kiməsə nişan vurması onun öz sinəsində hansısa nişanı gəzdirməsi demək deyildir. "Dədə Qorqud" dastanından məlum olur ki, burada Tanrı nişanı/əlaməti müxtəlif şəkillərdə reallaşır. Məsələn, eposda Oğuz elində dörd igidin üzü niqablı gəzməsi göstərilir:

"Qanturalı camal və kamal iyəsi yigit idi. Oğuzda dörd yigit niqabla gəzərdi. Biri Qanturalı, biri Qaracəkur və oğlı Qırqınuq və Boz ayğırlu Beyrək" [2, s. 87].

Bu dörd igidin Oğuz cəmiyyətində üzü niqabla gəzməsi onların fərqləndirilməsindən xəbər verir. Niqab bu adamların fərqləndirici əlamətidir. Təbii ki, bunun Tanrı ilə bir əlaqəsi var. Qanturalı haqqında deyilmiş "Qanturalı camal və kamal iyəsi yigit idi" ifadəsi göstərir ki, bu igidlərin üzü mübarəkdir, yəni bərəkətlidir. Üz təbii ki, öz-özünə mübarək-bərəkətli ola bilməz: bu, həmin igidlərə Tanrıdan bəxş edilmiş keyfiyyətdir. Yəni Tanrı özü bu igidləri bəyəndiyi, seçdiyi üçün onlar Tanrının nişan vurduğu igidlər sayılırlar.

Dastanın ikinci boyunda evi yağmalanmış Salur Qazan evini qarşısına çıxmış qurddan xəbər almaq istəyərkən "Qurd yüzi mübarəkdir, qurdlən xəbərləşəyim" deyir [2, s. 45].

Mübarək üzlü olmaq hansısa gizlin biliklərə sahib olmaq deməkdir. Oğuzdakı dörd igid də "kamal" sahibləri, yəni elm, bilik sahibləri idi. Həmin elm, bilik Tanrıçılıq dininin oğuzlar tərəfindən müqəddəs sayılan bilikləridir.

"Kitabi-Dədə Qorqud" eposunun ""Duxa qoca oğlu Dəli Domrul" boyunda Tanrının öz bəndəsini nə səbəblərdən və necə bəyənməsi, ona necə nişan vurması geniş şəkildə əks olunmuşdur. Bu, eposun yeganə boyudur ki, burada Tanrı özü birbaşa hadisələrdə iştirak edir.

Qeyd edək ki, "Dəli Domrul" boyunun məzmun və forma baxımından digər boylardan bu kimi bir çox fərqli xüsusiyyətlərinə görə mərhum Kamran Əliyev onu "tənha boy" da adlandırmışdır [5, s. 15].

Boyun məzmunu Oğuzda dəlisov davranışları ilə seçilən və elə buna görə də "dəli" ləqəbini daşıyan Domrulun Tanrıya qarşı çıxması, ona savaş elan etməsi, məğlub olması, Tanrıdan aman diləməsi, Tanrının Dəli Domrulun sidqi-ürəkdən ona iman gətirməsini bəyənməsi və ona həyat yoldaşı ilə birgə 140 illik yeni ömür verməsini əhatə edir.

"Dəli Domrul" boyu özünün mifik semantikası, maraqlı məzmunu ilə tədqiqatçıların diqqətini cəlb etmiş ən məşhur boylardandır. Ancaq bizi burada maraqlandıran məsələ qəhrəmanla Tanrının qarşıdurması və nəticədə Tanrıya düşmən olan, ona qarşı vuruşan qəhrəmanın Tanrının sevimlisinə, yəni nişan

vurduğu bəndəsinə çevrilməsidir.

Əvvəlcə Dəli Domrulla Tanrı arasında konfliktin necə yaranmasına diqqət etməliyik. Çünki süjet həmin konflikt üzərində qurulmuşdur. Həmin konflikt əvvəlcə bir-birinə düşmən olan qəhrəman ilə Tanrının sonradan dostlara çevrilməsinin əsasında durur.

Epos Dəli Domrulun dəlisov hərəkətlərini təsviri ilə başlayır. O, bir quru (susuz) çayın üzərində körpü qurdurur və insanları pul müqabilində bu körpüdən keçməyə məcbur edir. Özü də onun aldığı ödəniş də "dəlisayağı" bir ödənişdir. Belə ki, körpüdən keçənlərdən daha çox pul almaq əvəzinə, keçməyənlərdən (özü də döyə-döyə) daha çox pul alır.

Tədqiqatçılar Dəli Domrulun quru çayın üzərində körpü tikdirməsi ilə bağlı müxtəlif fikirlər söyləmişlər. Mirəli Seyidov, Bəhlul Abdulla, Vahid Abdulov (Zahidoğlu) kimi alimlər çayın quru yox, sulu çay olduğunu yazmış, Arif Acalov isə çayı quru çay hesab edərək, onun quruluğunu həyatın kosmik ahənginin pozulması ilə əlaqələndirmişdir [6, s. 230].

Əlbəttə, mifoloji məzmuna malik olan bu boyda "quru çayın", heç şübhəsiz ki, müasir məntiqlə anlaşılmayan mənaları da var və yuxarıdakı müəlliflər məhz həmin mifik mənaları nəzərdə tutaraq müxtəlif qənaətlərə gəlmişlər. Bu cəhətdən, V.N.Toporov dünya miflərində çayların dünyanın yuxarı, orta və aşağı hissələrini birləşdirən kainat "oxu" olduğunu, körpülərin də sakral hesab olunan məkanların müxtəlif hissələrini, o cümlədən şaquli körpülərin yuxarı və aşağı dünyaları birləşdirdiyini yazmış, Rüstəm Kamal isə "Dədə Qorqud"dakı çayın ölümü və həyatı bir-birindən ayıran magik sərhəd olduğunu göstərmişdir [7, s. 58].

Bütün bunlarla bərabər boyun girişindən aydın şəkildə görünür ki, quru bir çayın üzərindən körpü salmaq Dəli Domrulun "dəli hərəkətlərinin" bir hissəsidir.

Bəs Dəli Domrul nəyə görə belə hərəkətlər edir? Boyda bu sual qoyulur və ona belə bir cavab verilir:

"Bunı necün böylə edərdi? Anunçun ki, "Məndən dəli, məndən gücli ər varmıdır ki, çıqa mənümlə savaşa, – deyirdi; mənim ərligim, bəhadirligim, cılasunligim, yigitligim Ruma, Şama gedə cavlana", – derdi" [2, s. 79].

Göründüyü kimi, Dəli Domrul bütün bu hərəkətləri ilə öyünür və özünün "dəliliyini" güclülük, ərlik, bahadırlıq, igidlik, bir sözlə, qəhrəmanlıq hesab edirdi.

Dəli Domrul, heç şübhəsiz ki, bu dəlilikləri ilə insanlara əziyyət verirdi: o adamları incidirdi. Onun davranışları, təbii ki, adlı-sanlı, hörmətli oğuz igidlərinin hərəkətlərinə uyğun deyildi. Muxtar Kazımoğlu bu hərəkətləri birmənalı şəkildə Oğuz elinə məxsus "davranış normalarından kənara çıxmaq" kimi qiymətləndirir [8, s. 121]. Başqa sözlə, Dəli Domrul Tanrı nizamı ilə idarə olunan Oğuz cəmiyyətinin normalarına, adət-ənənələrinə, həyat tərzinə qarşı çıxır: böyüklərə qarşı saymamazlıq edir, heç kəsi nəzərə almır, dünyada özündən başqa güclü bir kəsin olmasına inanmır. Bununla o, əslində, oğuzların müqəddəs saydıqları Tanrıya qarşı da çıxmış olur.

Maraqlıdır ki, Dəli Domrulun sanki Tanrının varlığından ümumiyyətlə yerli-

dibli xəbəri yox imiş və o, Tanrını bir hadisəyə görə tanıyır. Bir gün körpüsünün yanına gələndə görür ki, insanlar vay-şivən edib ağlayırlar. Məlum olur ki, burada bir igid ölüb. Dəli Domrul dərhal həmin igidi kimi öldürdüyü ilə maraqlanır. Burada Domrulla insanlar arasındakı dialoq bu cəhətdən diqqət çəkir:

"Dəli Domrul aydır: "Mərə, yigidinizi kim öldürdi?" Ayıtdılar: "Vallah, bəg yigit, Allah Təaladan buyruq oldı. Al qanatlu Əzrayil ol yigidin canın aldı". Dəli Domrul aydır: "Mərə, Əzrayil dedügüniz nə kişidir kim, adamın canın alur? Ya Qadir Allah, birligin, varlığın haqqıçün, Əzrayili mənim gözümə göstərgil, savaşayım, çəkişəyim, dürişəyim, – yaxşı yigidin canın qurtarayım. Bir dəxi yaxşı yigidin canın almıya", – dedi" [2, s. 79].

Mətndən açıq şəkildə görünür ki, Dəli Domrul cavanın ölümünə görə Allahı (Tanrını) deyil, Əzrayılı günahkar hesab edir. Domrula ölüm əmrinin Allah tərəfindən verildiyi (buyurulduğu) açıq şəkildə deyilsə də, onun qəzəbi ölüm əmrini vermiş Tanrıya deyil, Tanrının əmrini icra etmiş Əzrayıla qarşı yönəlir.

Burada bizi ilk növbədə Dəli Domrulun Allah/Tanrı haqqında təsəvvürləri maraqlandırır. Domrul sanki yer üzündə ölüm deyilən bir anlayışdan xəbərsizdir. Ona görə də vəfat etmiş igidin niyə ölməsi, kim tərəfindən öldürülməsi haqqında sadəlövh suallar verir.

Əlbəttə, burada məsələ ilk növbədə Domrulun dəli şəxsiyyəti, onun öz ətrafında baş verən hadisələri dəlisayağı başa düşməsi ilə bağlıdır. Bizcə, Dəli Domrul Allah/Tanrıya qarşı ona görə çıxmır ki, o, Tanrının göydə olduğunu və bu baxımdan əlçatmaz olduğunu bilir. Demək, belə bir qənaətə gəlmək olar ki, igidin ölməsini təəccüblə qarşılayan Domrulun ölüm, onun necə baş verməsi haqqında suallar verməsi, ən başlıcası, ölümün Allahın əmri-buyruğu ilə baş verməsi haqqında bilə-bilə günahkar axtarması və qəzəbini Əzrayılın üzərinə yönəltməsi onun dəliliyi, dəli ağlı ilə izah olunmalıdır. Çünki Oğuz elində Tanrını tanımayan, ölümün onun əmri ilə baş verdiyini bilməyən yoxdur. Dəli Domrul da oğuzdur, ancaq bütün bunları qəbul etmək istəmir. Bunun bir səbəbi onun dəliliyinin (igidliyinin) aşıb-daşmasıdır.

Dəli Domrul məhz Allahın özünə müraciət edir ki, Əzrayılı onun qarşısına çıxarsın, o da Əzrayılı öldürərək, insanları ölməkdən xilas etsin. Buradan belə bir qənaətə də gəlmək olar ki, Dəli Domrul Allahı qəbul etsə də, Əzrayılın can almasını qəbul etmək istəmir.

Kamal Abdulla Dəli Domrulun Allaha müraciəti haqında yazır: "Bu son sözlərə diqqət çəkmək istərdik. "Bir daha ölüm olmasın – canlar alınmasın" – Oğuz fəlsəfəsi budur və Dəli Domrul məhz bu amal uğrunda mübarizə aparır. Tanımadığı bir igidin vaxtsız ölümü ilə barışmır" [9, s. 269].

Buradan belə bir qənaətə gəlmək olar ki, Dəli Domrul Tanrı/Allaha qarşı deyil, ölümə qarşı çıxır: ölümü isə Əzrayıl icra etdiyi üçün özünün "dəli ağlı" ilə Əzrayıla qələbə çalacağına, onun fəaliyyətinə son qoyacağına ümid edir.

Təbii ki, epos bütün bunları Domrulun dəliliyi ilə izah edir. Yəni Domrulun dəli düşüncəsi ona ölüm, Əzrayıl və Allah arasında məntiqi əlaqəni görməyə imkan

vermir. Çünki o, fiziki gücü aşıb-daşan, ancaq normal ağıla deyil, dəli ağlına malik qəhrəmandır. Belə olmasaydı, bütün oğuzların həyat fəlsəfəsi olan "Əcəl vədə irməyincə kimsə ölməz", "Ölən adam dirilməz, çıxan can geri gəlməz" kimi oğuz həyat qanunlarından [2, s. 31] xəbərsiz olmazdı.

Dəli Domrulun bu cahilliyi Domrul-Əzrayıl konfliktini məntiqi olaraq Domrul-Tanrı konfliktinə çevirir. Dastanda deyilir:

"Həq Təalaya Domrulun sözi xoş gəlmədi: "Baq, baq, mərə dəli qavat. Mənim birligim bilməz, yarligümə şükr qılmaz. Mənim ulu dərgahımda gəzə, mənlik eyləyə?" – dedi. Əzrayilə buyuruq elədi kim, ya Əzrayil, var, ol dəxi dəli qavatın gözinə görungil, bənzini sarartğıl!, – dedi; canını xırlatğıl, alğıl!, – dedi" [2, s. 79].

Göründüyü kimi, Tanrı Dəli Domrulun hərəkətlərini özünə qarşı asilik kimi qəbul edir və onun ölümlə cəzalandırılmasını Əzrayıla əmr edir. Əzrayıl gözə görünmədən Dəli Domrulun öz qırx igidi ilə yeyib-içdiyi məkana gəlir. Domrul onun görkəmindən heyrətə gəlir. Əzrayıl Domrula onu sözlərini xatırladaraq, canını almağa gəldiyini söyləyir:

"Mərə dəli qavat, ogünürdin, deirdin, "al qanatlu Əzrayil mənim əlumə girsə, öldürəydim; yaxşı yigidin canın onun əlindən qurtaraydım" – derdin. İmdi, mərə dəli, gəldim ki, sənin canın alam. Verərmisən, yoxsa mənimlə cəng edərmisən?" – dedi" [2, s. 80].

Beləliklə, Əzrayıl Domrula iki yol təklif edir: ya könüllü olaraq canını təslim etmək, ya da onunla vuruşmaq. Domrul ikinci yolu seçir, qılıncını əlinə alaraq Əzrayıla hücum edir. Lakin o, bir göyərçinə çevrilib pəncərədən uçur. Domrul atına minib onun arxasınca gedir. Bir-iki göyərçin öldürür. Elə bilir ki, Əzrayılı öldürüb. Lakin Əzrayıl birdən onun atının gözünə görünür. At hürkür, Domrul atdan yıxılır və Əzrayıl dərhal onun canını almaq üçün sinəsinə çökür. Maraqlıdır, Əzrayıldan qorxmayan, yer üzündə heç kəsi saya salmayan, hamını öz gücü ilə hədələyən Domrul dərhal ölüm qorxusu qarşısında Əzrayıla yalvarmağa başlayır. Onun Əzrayıla dediklərində bir çox mətləblər vardır:

Mərə Əzrayil, aman!
Tənrnın birliginə yoqdur güman!
Mən səni boylə bilməz idim.
Oğurlayın can alduğın tuymaz idim.
Dugməsi böyuk bizim tağlarımız olur,
Ol tağlarumızda bağlarumız olur,
Ol bağların qara salxımları, üzümi olur.
Ol üzümi sıqırlar, al şərabı olur.
Ol şərabdan icən əsrük olur.
Şərabluydım, tuymadım, nə söylədim, bilmədim.
Bəgligə usanmadım, yigitligə toymadım.
Canım alma, Əzrayil, mədəd! – dedi [2, s. 80].

Dəli Domrulun yalvarışlarından ilk növbədə məlum olur ki, o, Əzrayılın Tanrı tərəfindən gəldiyini yaxşı bilir. Ona görə də dərhal Tanrının birliyinə iman gətirir. Özünün Tanrıya qarşı çıxmasını sərxoş olması ilə izah edir. Domrulun Tanrıya iman gətirməsi nə qədər təqdiredici hərəkətdirsə, öz hərəkətlərini sərxoşluqla izah etməsi onun ölümdən qorxduğunu, acizcəsinə özünü bəhanələrlə xilas etməyə çalışdığını açıq şəkildə göstərir. Yəni burada Dəli Domrulun öz ifigidlikləri haqqında dediklərinin yalançı təriflər olması üzə çıxır. Domrul ölüm qorxusu qarşısında sarsılır və öz dəlicəsinə hərəkət və sözlərinə sərxoşluq bəhanəsi ilə haqq qazandırmağa çalışır.

Bu dialoqdan sonra Domrul-Əzrayıl münasibətlərinin Domrul-Tanrı münasibətləri səviyyəsini keçdiyini görürük. Əzrayıl Domrula buyruq qulu olduğunu söyləyib, Tanrıya müraciət etmək lazım olduğun bildirir:

"Əzrayil aydır: "Mərə dəli qavat, mañа nə yalvararsan, Allah Təalaya yalvar. Mənim də əlümdə nə var. Mən dəxi bir yumuş oğlanıyam", – dedi. Dəli Domrul aydır: "Ya pəs can verən, can alan Allah Təalamıdır?" "Bəli, oldur!" – dedi. Döndi Əzrayilə: "Ya pəs sən nə eyləməkluqdasan? Sən aradan cıqğıl, mən Allah Təala bilə xəbərləşim, – dedi" [2, s. 80-81].

Domrulun Əzrayılla bu dialoqundan incə bir məqam ortaya çıxır: Domrul can verən, can alanın Tanrı olduğunu bilmir. Dialoqa görə, o, insanların ölməyində yalnız Əzrayılı günahkar hesab edir. Səhvini anlayıbmış kimi dərhal Allaha yalvarmağa başlayır:

Yucalardan yucasan,
Kimsə bilməz necəsən.
Görklü Təñri,
Necə cahillər səni
gögdə arar, yerdə istər.
Sən xud möminlər könlindəsən.
Daim turan cəbbar Təñri,
Baqi qalan səttar Təñrı,
Mənim canımı alur olsan, sən alğıl!
Əzrayilə almağa qomağıl! – dedi [2, s. 81].

Domrulun Allaha bu müraciəti mövzumuz baxımından xüsusi əhəmiyyət daşıyır. Belə ki, Domrulun Tanrının qəzəbinə uğramış qəhrəmandan onun rəğbətini qazanmış qəhrəmana çevrilməsi prosesində bu müraciətin həlledici rolu var. Domrul özünün dəlicəsinə etdiyi əməllərindən sidqi-ürəkdən peşman olaraq Tanrıya sadəcə bir fövqəlvarlıq kimi iman gətirmir: onun sözlərindən Domrulun tanrını bütün sakral-ideoloji mahiyyəti ilə qəbul etdiyi aydın olur. Öz bəndəsinin belə kamil şəkildə iman gətirməsi Tanrıda ona qarşı məhəbbət yaradır:

"Allah Təalaya Dəli Domrulun burada sözi xoş gəldi. Əzrayilə nida eylədi kim, cün dəli qavat mənim birligim bildi, birligümə şükr qıldı, ya Əzrayil, Dəli Domrul can yerinə can bulsun. Anuñ canı azad olsun! – dedi. Əzrayil aydır: "Mərə Dəli Domrul, Allah Təalanın əmri böylə oldı kim, Dəli Domrul canı yerinə can bulsun, onun canı azad olsun!" – dedi" [2, s. 81].

Tanrının Domrulu bağışlaması teoqonik görüşlər baxımından çox böyük bir əhəmiyyət kəsb edir. Ona görə də, biz bu məqamı geniş və diqqətlə təhlil etməliyik. Tanrının Domrulu bağışlamasından aşağıdakı qənaətlər hasilə gəlir:

1. Tanrı Dəli Domrulu bəyənir, ona rəğbəti yaranır. Bunun səbəbi Oğuz elində Dəli ləqəbi ilə tanınan və bu ləqəbə uyğun olaraq dəlisayağı hərəkətlər edən Domrulun Tanrı/Allahın birliyinə iman gətirən, Uca Yaradıcını həm könlü, həm də ağlı ilə dərk edən mükəmməl bir bəndəyə (qula) çevrilməsidir.

2. Tanrının Dəli Domrulu bağışlaması, onu yenidən yaratması deməkdir. Çünki Tanrı bir dəfə Dəli Domrula ölüm hökmü vermiş, Əzrayıla onun canını almağı buyurmuşdur. Əzrayılın onun sinəsinə çökməsi, onun canını almağa başlaması Dəli Domrulun ritual-mifoloji mənada ölümü deməkdir. Bu ölüm iki Domrulu bir-birindən ayırır: Dəli Domrul və Ağıllı Domrul. Əzrayılı onun sinəsinə çökməsi Oğuz elindəki Tanrı nizamına qarşı çıxan Dəli Domrulun ömrünün başa çatması, yeni bir Domrulun – Ağıllı Domrulun "anadan olması" deməkdir.

3. Tanrı tərəfindən bağışlanmış Domrul artıq köhnə Domrul deyildir. O, artıq Tanrı tərəfindən seçilmiş, Tanrının nişan vurduğu Domruldur.

Təbii ki, burada tədqiqatın əsas sualı ortaya çıxır: Tanrı Domrula öz seçdiyi qulu – bəndəsi necə nişan vurur?

Ə D Ə B İ Y Y A T

1. Mahmud Kaşqarlı. Düvanü Luğat-it Türk / Çeviren Besim Atalay. Bileştirilmiş birinci Baskı (Cilt I-II-III). – Ankara: Türk Dil Kurumu, – 2013, – III cild, – 452 s.
2. Kitabi-Dədə Qorqud / Müqəddimə, tərtib və transkripsiya F.Zeynalov və S.Əlizadənindir. – Bakı: Yazıçı, – 1988, – 265 s.
3. Mahmud Kaşqarlı. Düvanü Luğat-it Türk / Çeviren Besim Atalay. Bileştirilmiş birinci Baskı (Cilt I-II-III). – Ankara: Türk Dil Kurumu, – 2013, – I cild, – 530 s.
4. Oğuznamə / Çapa hazırlayanı, müqəddimə, lüğət və şərhlərin müəllifi S.Əlizadə. – Bakı: Yazıçı, – 1987, – 223 s.
5. Əliyev, K. "Dəli Domrul" boyu eposun strukturunda təsadüfdür, yoxsa zərurət? // "Dədə Qorqud" jur., – 2002, – № 4, – s. 14-25
6. Acalov, A. Dəli Domrul boyunun kökləri və mifoloji simvolikası / Azərbaycan filologiyası məsələləri. – Bakı: Elm, – 1983, – s. 222-237
7. Kamal, R. "Kitabi-Dədə Qorqud": arxaik ritual semantikası / R.Kamal. – Bakı: Elm, – 1999, – 72 s.

8. Kazımoğlu, M. Gülüşün arxaik kökləri / M.Kazımoğlu. – Bakı: 2005, – 186 s.
9. Abdulla, K. Mifdən Yazıya və yaxud Gizli Dədə Qorqud / K.Abdulla. – Bakı: Mütərcim, – 2009, – 376 s.

Aynur Aydın qızı FƏRƏCOVA

OĞUZ-TÜRK TEOQONİK OBRAZLAR SİSTEMİNDƏ "TANRININ NİŞAN VURDUĞU" QƏHRƏMANLAR: DƏLİ DOMRUL

XÜLASƏ

Folklorda teoqonik obrazlar sisteminin araşdırılması tanrıların yaradılışından başlanan epik-transformativ xətlərin müəyyən edilməsini, daha doğrusu, bərpa-rekonstruksiya edilməsini tələb edir. Bu da eyni zamanda tədqiqatçıdan etnik-mədəni düşüncənin iki nəhəng layını – mifologiya və folkloru vahid sistemdə götürməyi tələb edir. Çünki tanrıların yaradılışı mifologiyadan başlanır və həmin yaradılış miflərin əsas məzmununu təşkil edir. Mifologiyada dünyanın, kainatın, varlıq aləminin, eləcə də onları təşkil edən ayrı-ayrı elementlərin yaradılışı ilk əcdadların, ilk insanların, tanrıların yaradılışı ilə birgə, yəni eyni proses şəklində baş verir. İlk əcdadın yaradılışı elə kainatın yaradılışı deməkdir. Çünki türk mifologiyasında Tanrı həm göyü, həm də yaradıcı varlığı (şəxsi, insanı) eyni zamanda nəzərdə tutur.

Folklor, xüsusilə dastanlar tanrılar haqqında teo-kosmoqonik görüşləri özündə yaşadır. "Kitabi-Dədə Qorqud"da bir çox qəhrəmanlar bilavasitə teoqonik görüşləri təmsil edir. Oğuz eposu üzərində apardığımız tədqiqatlar göstərir ki, qəhrəmanların tanrılarla bağlılığı təkcə "Tanrı oğlu" anlayışı ilə ifadə olunmur. Aydınlaşdırılmışdır ki, oğuz eposunda tanrı ilə bağlılığı ifadə edən anlayışlardan biri "Tanrının nişan vurduğu qəhrəman"dır. Belə qəhrəmanlardan biri Dəli Domruldur. "Kitabi-Dədə Qorqud" eposunun "Duxa qoca oğlu Dəli Domrul" boyunda Tanrının öz bəndəsini nə səbəblərdən və necə bəyənməsi, ona necə nişan vurması geniş şəkildə əks olunmuşdur.

Açar sözlər: Folklor, "Kitabi-Dədə Qorqud", teoqoniya, kosmoqoniya, Tanrı oğlu, Tanrı nişanı, Dəli Domrul

Aynur Farajova

IN THE SYSTEM OF OGUZ-TURKISH EGONIC IMAGES "A HERO TARGETED BY GOD": DELI DOMRUL

SUMMARY

The study of the system of theogonic images in folklore requires the identification of epic-transformative lines, which began with the creation of the gods, or rather, their restoration. At the same time, it requires the researcher to take into account two huge layers of ethno-cultural thought - mythology and folklore in a single system. Because the creation of the gods begins with mythology, and that creation is the main content of myths. In mythology, the creation of the world, the universe, as well as the individual elements that make them up, takes place in the form of the same process as the creation of the first ancestors, the first people, and the gods. The creation of the first ancestor means the creation of the universe. Because in Turkish mythology, God means both the sky and the creative being (personal, human) at the same time.

Folklore, especially epics, contains theo-cosmogonic views on gods. In "Kitabi-Dada Gorgud" many heroes directly represent theological views. Our research on the Oghuz epic shows that the connection of heroes with the gods is not expressed only by the concept of "son of God." It has been clarified that one of the concepts expressing connection with God in the Oghuz epic is "the hero targeted by God". One of such heroes is Deli Domrul. In the epos "Kitabi-Dada Gorgud" within "Dukha goja oglu Deli Domrul" the reasons why God liked his servant and how he targeted him are widely reflected.

Keywords: Folklore, "Kitabi-Dada Gorgud", theogony, cosmogony, son of God, sign of God, Deli Domrul

Айнур Фараджова

В СИСТЕМЕ ОГУЗ-ТУРЕЦКИХ ЭГОНИЧЕСКИХ ОБРАЗОВ «ГЕРОЙ, НА КОТОРОГО НАЦЕЛЕН БОГ»: ДЕЛИ ДОМРУЛ

РЕЗЮМЕ

Изучение системы теогонических образов в фольклоре требует выявления эпико-преобразующих линий, начавшихся с сотворения богов, вернее, их реставрации. В то же время она требует от исследователя учета в единой системе двух огромных пластов этнокультурной мысли - мифологии и фольклора. Потому что творение богов начинается с мифологии, и это творение является основным содержанием мифов. В мифологии сотворение мира, мироздания, а также составляющих их отдельных элементов происходит в виде того же процесса, что и сотворение первопредков, первых людей, богов . Сотворение первого предка означает сотворение вселенной. Потому что в турецкой мифологии Бог означает и небо, и творческое существо (личное, человеческое) одновременно.

Фольклор, особенно эпос, содержит тео-космогонические взгляды на богов. В «Китаби-Даде Горгуд» многие герои непосредственно представляют богословские встречи. Наше исследование огузского эпоса показывает, что связь героев с богами выражается не только понятием «сын божий». Выяснено, что одним из понятий, выражающих связь с богом в огузском эпосе, является «герой, на которого нацелен бог». Одним из таких героев является Дели Домрул. В эпосе «Китаби-Деде Горгуд» «Духа годжа оглы Дели Домрул» широко отражены причины, по которым бог любил своего раба и как он нацеливался на него.

Ключевые слова: Фольклор, «Китаби-Дада Горгуд», теогония, космогония, сын Божий, знак Божий, Дели Домрул.

Redaksiyaya daxil olma tarixi: 18.05.2022
Çapa qəbul olunma tarixi: 07.06.2022
Rəyçi: Filologiya üzrə elmlər doktoru, professor Seyfəddin Rzasoy tərəfindən çapa tövsiyə olunmuşdur

AYTAC ASIF QIZI MƏNSIMOVA
Bakı Dövlət Universiteti -
magistrant

aytacmensimova@gmail.com

CƏNUB MÖVZUSU M.İBRAHIMOVUN "CƏNUB HEKAYƏLƏRI" KONTEKTSINDƏ

Xülasə

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi yazıçı,dramaturq,ictimai xadim,ədəbiyyatşünas Mirzə İbrahimovun yaradıcılığında vətən mövzusu xüsusi əhəmiyyət kəsb edir. M.İbrahimov bədii nəsrə yeni orjinal süjet xətləri,mövzu yeniliyi gətirmişdir.Nəsr yaradıcılığında Cənub mövzusu başlıca yer tutmuşdur. Cənubi Azərbaycan mövzusunu ədəbiyyata gətirən ilk yazarlardandır. "Cənub hekayələr" silsiləsində milli istiqlal hərəkatını və azadlıq ideyalarını təsvir etmişdir. "Cənub hekayələr" silsiləsi 1946-1950 cu illərdə yazılmışdır.Bu silsiləyə beş hekayə daxildir.Bu hekayələr mövzu və problematika baxımından müxtəlifdir.Buna baxmayaraq onları birləşdirən ümumi cəhətlər vardır. Həmin hekayələr obraz zənginliyi ilə də diqqət mərkəzindədir.Hər bir obraz özünün fərdi xüsusiyyətlərinə görə seçilir.Bu məqalədə silsiləyə daxil olan "Azad", " Tonqal başında", "On iki dekabr" və s. hekayələrinin təhlili verilmişdir.Azad,Fərda,Kərimkişi,Minirə və s. obrazların timsalında vətənə münasibət öz əksini tapmışdır.Hekayalərdə obrazlarla yanaşı XX əsr Təbriz mühiti də əks olunmuşdur.Yazıçı hekayələri tarixi aspektdən yazmışdır.Yalnız tarxi hadisələri əks etdirməmiş,ictimai-siyasi problemləri əhatəli yazmışdır.Məqalədə Cənub mövzusunda yazdığı hekayələrdəki vətənpərvərlik ideyalarının təhlili verilmişdir.

Açar sözlər: Azərbaycan,Cənub hekayələri,Mirzə İbrahimov,azadlıq,vətən

Giriş. Vətəninə,millətinə qəlbən bağlı olan M.İbrahimovu xalqın taleyi dərindən düşündürmüş,millətin ağrılı-acılı günlərini, XX əsr Azərbaycan həyatını bədii əsərlərində əks etdirmişdir. Milli ruhlu bir şəxsiyyət olan Mirzə İbrahimovun yaradıcılığında Cənubi Azərbaycan mövzusu xüsusi yer tutur.Bir şeyi də unutmaq olmaz ki,cənub mövzusu müəllifin yaradıcılığında "Cənub hekayələri" silsiləsindən başlamışdır.Hətta belə deyə bilərik ki,bu başlanğıcdan sonra cənub mövzusu,cənubi Azərbaycan məsələsi Mirzə İbrahimov yaradıcılığında qırmızı xətt kimi keçir və cənub mövzusunu ədəbiyyata əhatəli şəkildə gətirən ilk yazıçılardandır. Ədəbiyyatşünas Abbas Hacıyev bu hekayələr haqqında düşüncəsini belə ifadə etmişdir ki,bu əsərlər: "…həm də vətəndaşlıq pafosunun dərinliyi,həyata,gerçəkliyə,təsvir olunan surətlərə milli və xəlqi yanaşmanın üstünlüyü ilə seçilir"(1,s. 24)Cənub hekayələrinin əsas mövzusu xalqın azadlıq,müstəqillik,milli birlik uğrunda verdiyi mübarizələrdən ibarətdir. "Cənub hekayələr" silsiləsində hekayələr zaman olaraq bir – birinin davamı kimi

yazılmışdır.Bununla da M. İbrahimov hadisələri ardıcıl ayrı-ayrı hekayələrdə verməklə hər bir mövzuya toxuna bilmişdir.Hekayələrə hər nə qədər tarixi aspektdən yanaşılmış olsa da, müəllif bu hekayələrdə tarixi hadisələri canlandırmaqla kifayətlənməmişdir,belə ki,bu ictimai-siyasi hadisələrin xalqın yaşayışına,amalına,duyğularına vurduğu zərbəni göstərməyə çalışmışdır.Hər bir hekayəsində eyni vətənpərvərlik,milli birlik duyğusunu fərqli boyalarla əks etdirmişdir.

M.İbrahimovun Cənub mövzusunda yazdığı ilk hekayəsi "Azad" əsəridir. Bu hekayədə ətənin azadlığı uğrunda canını verən gəncləri böyük ustalıqla qələmə almışdır.Azad obrazı sayəsində biz insanın ən əsas amalının nə olmalıdır? sualına sanki cavab tapırıq.M.İbrahimov yazdığı bu hekayələrdə quru obrazlar yaratmamış,insanların daxilinə enərək psixologiyasını,düşüncəsini bizə göstərməyi bacarmışdır.O yalnız qəhrəmanların daxili aləmini deyil,Təbriz mühitini,o illərdə insanların yaşadığı acınacaqlı vəziyyəti,ictimai-siyasi abu-havanı böyük ustalıqla əks etdirməyi bacarmışdır. Azad,Fərda obrazılarının timsalında qəhrəman oğulları,Səlma xala obrazı ilə bütün çətinliklərə dözən,bu cür çətin şəraitdə igid oğul yetişdirə bilən ananın simasını yaratmışdır.Səlma ana atasız tək başına böyütdüyü oğluna qəlbində çəkdiyi ağrı acını əks etdirmədən gülər üzlə,xoş nəvazişlə yanaşır.O,yalnız şikayətlərini bəzən Azad yuxuya gedən zaman laylalarında dilə gətirirdi.Qədim zamanlardan bu yana müqəddəs sayılan laylalar nəticəsində ana və övlad arasında mənəvi bağlılığın bünövrəsi qoyulur.Səlma ana da öz oğluna xoş arzularını laylalarda deməklə yanaşı,həzin sözlərlə onları bu hala qoyanlardan şikayətlənib,sanki uşaqlıqdan öz övladını vətənin xilası üçün çalışmağa səsləyir.Səlma obrazı ilə fədakar ananı görürüksə,Fərda obrazı ilə ailə qədər dəyərli olan yaxın dost necə olmalıdır ona şahid oluruq.Azadın çətin vəziyyətlərinə baxmayraq,dostunu özündən də öncə düşünüb onun üçün əlindən gəldiyi qədər yardım etdiyinə şahid oluruq.Azad sakit təbiətli,dinib-danışmayan biri kimi görünsə də,hekayəni oxuduqca görürük ki,o əslində öz içində özüylə mübarizə aparır,daxilindəki suallara cavab tapmağa çalışır.Bunun ən bariz əksini Fərdanın onun yanında etdiyi danışıqlarda görə bilərik.Fərda Azada tamamilə zidd xarakterə sahibdir,o düşüncələrini daha rahat dilə gətirə bilən,yaşadağı mühitə qarşı öz üsyanını dilə gətirməkdən çəkinməyən insandır.

Bizdən soruşsalar ki,həyat nədir,nə cavab verə bilərik? (7, s.18)

Fərda yalnız həyatın mənasını sorğulamır,həmçinin yaşadığı haqsız şəraiti də dilinə gətirir, bunun üçün üsyan edir.

Sahibi-mənsəblərimizi götür…Onlar yaşayışın mənasını məgər bizdən artıq qanmışlar?Hansı əməl üçün onları öldükdən bir gün sonra yad edəcəklər?Tiryəkə və fahişəliyə rəvac verdikləri üçünmü?(7, s.19)

Fərdanı düşündürən öz vəziyyəti deyil, vətənin,xalqın vəziyyətidir. Vətənə xeyir verə bilməyən övladlar olmasına görə özünü qınayır.Bu qədər danışıqdan sonra Azadın sakitliyi Fərdanı daha da qəzəbləndirir.

Bu hadisələrlə yanaşı M.İbrahimov hekayədə siyasi vəziyyəti təsvir edir,həm də Təbrizdəki həyatın təsvirini verir.Artıq xalqın da göznün açıldığını,Rza şah hakimiyyətinə qarşı çıxaraq azadlıq tələb etməsindən bəhs edir.

Bir xalq ki,azadlıq üçün ayağa durdu,onu yatırmaq asan iş deyil. (7, s.22)

Bu mübarizədə cavan igidlərin necə dəyanətli olduğunu,vətənləri naminə xoş günlərin tez gəlməsi üçün çalışdıqlarını,qərarlar qəbul edib həyata keçirməkdən bir an belə tərəddüd etmədiklərini görürük.Ən əsası isə biz bunu Azad və Fərdanın simasında görmüş oluruq.Hekayənin sonunda sakit təbiətli Azadın yaşamağın mənasını vətənin səadəti üçün çalışmaqda görməsi də, ömrünün son anında belə öz vətəni üçün kifayət qədər fayda vermədiyinə görə heyfislənməsi də onun necə vətən eşqi ilə yanıb tutuşduğuna bariz nümunədir.

Biz yazıçının ilk hekayəsində Azadın qəhrəmanlığını görürdüksə , "Tonqal başında" hekayəsində Kərim kişinin keçmişi yada salaraq fədailəri necə mübarizəyə ümidləndirdiyini görürük. Dahi yazıçının bu keçmiş hekayələri Kərim kişinin dilindən nəql etməkdə məqsədi yalnız vətənin igid oğullarının el üçün göstərdiyi qəhrəmanlığı dilə gətirmək deyil,həmçinin keçmişlə əlaqəli bu günün problemlərini əks etdirməkdir.Eyni zamanda , ədəbiyyatşünas Cəfər Xəndan bu hekayə haqqında belə bir nəticəyə gəlir ki: "Məhz buna görə də əsəri müasir ruhlu tarixi hekayə adlandırmaq olar." (2, s.78)

Düşmənsə hiyləgərdir.Amansızcasıca hücumdadır,bir an olsun xayin planlarından əl çəkmir.

"Qol gücü ilə onlarla bacara bilməyəcəyini gördükdə hiyləyə əl atır…Onların sevdikləri bir şeyi öldürmək fikrinə düşür.Etiqadlarını öldürməyi qərara gəlir."(7, s. 29)

Azərbaycan xalqının igid övladlarından xəbərdar olan düşmən də məhz hiyləyə əl atır.Bir xalqın ən böyük dəyəri onun dilidir.Düşmən də Azərbaycan dilində danışmağa qadağa qoyur və bununla kifayətlənməyib xalqın başına min bir müsibət açır.M.İbrahimov yalnız bu hekayəsində deyil,digərlərində də incə cizgilərlə həqiqətləri nəzərə çatdırır. O, yalnız əsərlərində bu həqiqətləri dilə gətirməklə kifayətlənmir,yaradıcılığı boyu ana dilinin işlədilməsi ilə bağlı mübarizə aparır.

Ədib bu hekayədə Kərim kişinin dilindən üç fərqli hekayə nəql edilir.Birinci hekayədə eli üçün canını belə qurban verən Elcanın qəhrəmanlığından danışılır.Keçmiş yaddaşımızdan gələn el-obanın,torpağın qorunmasın hər bir zaman kəsiyində aktual problem olmuşdur,hansı dövrdə yaşamasından aslı olmayaraq igidlərimizin xalqını,ailəsini qorumaq, onlara xoş güzəran bəxş etmək üçün bu xoşbəxtlikdə gözü olanlarla son nəfəsini verənə qədər mübarizə apardığına hər zaman şahid olmuşuq.Yazıçıda Elcanın timsalında el qədri bilən igidlərimizi yada salaraq tonqal başında yığışan fədailərə situmul olmağa çalışır,bu cür ölümün belə necə şərəfli olduğunu dilə gətirir.

"Vətən yolunda ölmək onların nəzərində müqəddəs sayılarmış." (7, S. 29)

İkinci hekayəsində isə Ruqiyyənin timsalında əcinnələri dilə gətirərək yağı düşmənin fəsadlarını bir növ canlandırır.Düşmən hiyləsinə qurban gedən Ruqiyyədən sonra isə Kərim kişi öz cavanlığından ,başına gələn hadisələrdən danışır.İkinci hekayə ilə bağlı Qəndab Əliyeva belə bir fikiri nəzərə çatdırır ki : "Onu da qeyd etmək lazımdır ki, yazıçı burada tayqulaq dedikdə ola bilsin ki,əli on minlərlə günahsız,dinc insanların qanına bulaşmış türk qatili erməni Androniki nəzərdə tutmuşdur."

Qadın obrazlarının yaradılması M.İbrahimov yaradıcılığında xüsusi mövqedə dayanır.Bu hekayələrdə yalnız mübarizə aparan igid oğullarımızdan deyil,heç də onlardan geri qalmayan, yeri gələndə əlinə silah alıb vuruşan qəhrəman qızlarımızdan da bəhs etmişdir.Qadınlarımızın öz qayğıları ilə yanaşı,ailə qayğılarını da unutmadığını və bütün bu məsuliyyətlərin içərisində birinciliklərinin vətən olduğunu da vurğulamışdır. Mirvarid Dilbazi qeyd edir: "Mirzə İbrahimovun qadın obrazları nikbin və qurucudur.Müəllif mənəvi gözəlliyi zahiri gözəllikdən üstün tutur." (8,s. 121)

Azadın anası Səlma ananın yaşadığı çətinliklər içərisində necə atasız qəhrəman övlad böyütdüyünü,özünün də sonra demokrat olduğunu görürüksə,bu hekayədəki Minirənin də həm sevgidə necə mərd olub Kərimlə qoşulub qaçdığını və bundan sonrakı yolunda da onu yalnız qoymadığının şahidi oluruq.O Kərimə həm bir həyat yoldaşı kimi həmişə dəstək olur,həmçinin vətəni üçün əlindən gələni əsirgəmədən son nəfəsinə qədər mübarizə aparır:

"Minirə bir igid kimi papaq qoymuş,patrondaş bağlayıb beşaçılanı sinəsinə basmışdı" (7,s 42)

Bu qadın surətləri yazıçı təxəyyülünün məhsulu deyil,kerçəkliklə həyatla yoğrulmuş simalardır.Belə ki, Cənubi və ya Şimali olmasından aslı olmayaraq bütöv Azərbaycan qadınları öz igidliyi,mübarizliyi,cəsurluğu ilə seçilmiş istər ictimai-siyasi,istər ailə həyatında dözümlülük simvoluna çevrilmişlər.Dahi Azərbaycan şairi Nizami Gəncəvinin "İsgəndərnamə" poemasında Azərbaycanlı qızı Bərdəli Nüşabəni İsgəndər kimi fatehin qarşısında məğrur və ağıllı hökumdar kimi təsvir etməsi heç də təsadüfi deyildir.Nüşabə də özünü çəkinmədən hökümdara belə təqdim edir:

Erkək tinətliyəm,olsam da qadın,
Hər işi bəllidir mənə dünyanın,
Mən də bir aslanam ,düşünsən bir az,
Aslanın erkəyi dişisi olmaz. (9, s.206)

Bu mübarizə,cəsurluq Azərbaycan qadının mayasında,qayəsindədir.Azərbaycan qadının bu formada təqdimatı qədim dövrlərdən gələrək M.İbrahimovun yaradıcılığında başqa formada öz əksini tapır.Belə ki, müəllifin Səlma ana,Minirə kimi qadın obrazları digər qadın qəhrəmanlardan heç də geridə qalmır.

M.İbrahimovun həqiqətləri dilə gətirməkdən bir an olsun çəkinməmiş,hekayələrdə dövlətin necə idarə olunmasında,baş verən hadisələrin yaratdığı nəticələri hər an dilə gətirmişdir.

“Qanun ki,deyirlər,avamın ayağında zəncirdir.Böyüklərin əlində tələdir.Dövlət ki,deyirlər,rəiyyət üçün qılıncdır,hakimlər üçün bir qara dəmir parçasıdır.” (7, s 40)

“On iki dekabr” hekayəsində də “Azad” hekayəsində olduğu kimi hadisələr baş qəhrəmanın dostu tərəfindən danışılır.Bu hekayədə də biz qəhrəman oğul və qızlarımızın necə çiyin-çiyinə mübarizə apardığını,Azad və Fərda,Kərim və Azər kimi dostuqların digər nümunəsi olan Mahmud və ? görürük.İnsan duyğularını incə notlarla qələmə almağı bacaran yazıçı yalnız mübarizə aparan gəclərin qəhrəmanlıqlarını qələmə almamış,həmçinin saf duyğularla bir-birini sevən obrazlar yaratmışdır.Məlusə və Mahmudun timsalında biz bu saf sevginin şahidi oluruq,buna baxmayaraq onların bir-birinə bəslədiyi duyğu nə qədər dərin olsa da, onların heç bir addım atmadığını ən əsas qayələrinin apardıqları mübarizəyə,xalqına verdiyini görürük.

“Vətənimiz azad olmayınca mənə səadət yoxdur,-deyirdin “(7, s. 47)

M.İbrahimov bununla da bir daha onu vurğulayır ki,məhəbbətdən daha önəmli olan vətən eşqi,onu azad görmək amalının vacibliyidir.

“Elə fəaliyyət ki,vətənin şərəfini artırır…Əsl səadət budur!” (7, s 47)

Məlusə əsl Azərbaycan xanımına xas bir formada həm ağlı ilə həmkarlarına yardım etməyə,həm şəfqətli bir ürəyə sahib olduğu üçün yaralıların dərdinə məlhəm olmaq üçün əlindən gələn hər bir şeyi edir.

Nəhayət,Dekabrın 12-si onlar üçün artıq digər günlərdən daha müqəddəs sayılırdı,çünki bu qədər mübarizənin sonunda məhz o gün onlar qələbə çalmış bir xalq idi.Bununla onlar artıq gələcəyə daha inamlı baxır,amallarına daha da yaxınlaşmağın sevincini yaşayırdılar.

Bundan sonra müəllif silsilənin davamını isə demokratik hərəkatın dağılmasından sonra baş verən hadisələrlə davam etdirmişdir. “İztirabın sonu” hekayəsinin əvvəlində yazıçı vəhşicəsinə qətlə yetirilmiş insanların təsvirini vermişdir.Bu hekayədə ən əsası onu diqqətə çatdırmağa çalışmışdır ki,insanların amansızca öldürülməsinə,evlərinin xaraba qoyulmasına baxmayaraq, onların içərisində olan azadlıq eşqini öldürə bilməmişdilər.Əksinə, insanlar öncəsindən daha da cəsarətli idi,çünki onlar yalnız indi işgal altında olan torpaqlarını deyil,həmçinin ölən ailələrinin,dostlarının,tanışlarının - bir sözlə,xalqının intiqamı üçün mübarizə aparırdılar.Bu intiqam hissini isə “İztirabın sonu” hekayəsində Rəhimin,Xanım Süsənin timsalında görürük. Bizim bu hekayədə rastlaşdığımız qadın obrazı daha fərqlidir,o, xaricən dövrün girdabından xilas ola bilməmiş,pis xislətli insanların qurbanı olmuşdur.Buna baxmayaraq bu qadın əslində qəlbini təmiz saxlamağı bacarmışdır.

“Sizi alçaldan,öz vücudunuzu satmağa sürükləyən mühitə yaxşı aşinayam.”(7,s.59)

Xanım Süsəsin evinə gələn satqınların dilindən yazıçı onların necə Azərbaycanı istədiyini,əldən verməmək üçün dəridən-qabıqdan çıxdıqlarını göstərir.

“Azərbaycan!.. Azərbaycan!.. Azərbaycan bizim gözümüzdür… Bizim ürəyimizdir…Biz onu əlimizdən verə bilmərik.” (7 ,s 60)

Rəhimlə əlbir olan Xanım Susən evinə gələn satqın düşmənlərdən həm vətənin,həm də ölən həmvətənlilərinin intiqamını alır.

M.İbrahimov hekayələrindən görmüş oluruq ki,o öz sözünü çəkinmədən deməyi bacarır,dövrün problemlərini , ictimai-siyasi mühitin təsvirini açıqlıqla qeyd edir.Bütün bunlara baxmayaraq, sovet ideologiyasının təsiri M.İbrahimov yaradıcılığından yan keçməmişdir. “Cənub hekayələri” silsiləsinə daxil olan “Salam sənə Rusiya” hekayəsində “ruslara duyulan hörmət” bariz şəkildə öz ifadəsini tapmışdır.Tədqiqatçı Qəndab Əliyeva isə bu mövzu haqqında belə düşünür : “…yazıçı bunu yazmaqla artıq Cənubi Azərbaycanın arxasından qaçaraq İran irticası ilə dil tapan Moskvanın verdiyi sözü tutmamasını bir daha göstərmiş,beləliklə,onun iç üzünü açmışdır. (5,s.86)

Bütün bu təhlillərdən aydın olur ki,Mirzə İbrahimov yeni orjinal hekayələr qələmə almışdır.Yazıçı qəhrəmanlarını sadə xalqın içərisindən seçmiş, onların vətən eşqini,mübarizə əzmini real boyalarla təsvir etmişdir.Bu qəhrəmanların yalnız vətənin xilası uğrunda keçdiyi mübarizələri deyil, bu ictimai-siyasi mühit dairəsində yaşantılarını,arzularını,duyğularını da qələmə alaraq canlı obrazlar yaratmışdır.M.İbrahimov xalqın istiqlaliyyət mübarizəsini, vətəndaşlıq platformasını canlı planda qələmə almağa bədii sözün qüdrətilə müvəffəq olmuşdur.

Ədəbiyyat siyahısı

1. Abbas Hacıyev,Mirzə İbrahimov,Yazıçı,Bakı,1982, 207 s.

2. Cəfər Xəndan,Mirzə İbrahimovun yaradıcılığında cənub mövzusu, “Azərbaycan”, 1981, N10,s.77-78.

3. İlham Məmmədli,Milli azadlıq ideyaları və Mirzə İbrahimovun hekayə yaradıcılığı, 525-ci qəzet,2017,26 aprel,s. 6.

4.İfrat Əliyeva,Kiçik janrın imkanları,Bakı Universitetinin xəbərləri,2012,N1,s.22-28.

5. Qəndab Əliyeva,Mirzə İbrahimov nəsrində cənub mövzusu,Elm-təhsil,Bakı, 2016,172 s.

6. Qəndab Əliyeva,Mirzə İbrahimovun fəaliyyətində cənubi Azərbaycan faktoru, “Filologiya məsələləri”, 2016,N6,s.341-345

7. Mirzə İbrahimov, Seçilmiş əsərləri, I cild, Şərq-Qərb, Bakı, 2005, 432 s.

8. Mirzə İbrahimov müasirlərinin xatirələrində, Elm, Bakı, 2008, 560 s.

9.Nizami Gəncəvi,İskəndərnamə, “Adiloğlu” nəşriyyat, Bakı, 2011, 662 s.

10. Teymur Əhmədov,Akademik Mirzə İbrahimov, “Nurlar” Nəşriyyat-Poliqrafiya Mərkəzi, Bakı, 2015, 296 s.

AYTAJ MANSIMOVA

THE SOUTHERN THEME IN THE CONTEXT OF M.IBRAHIMOV'S "SOUTHERN STORIES"

SUMMARY

The theme of homeland is of special importance in the works of Mirza Ibrahimov, a prominent representative of Azerbaijani literature, writer, playwright, public figure and literary critic. M.Ibrahimov brought new original plot lines and thematic novelty to fiction. The theme of the South occupies a central place in the work of prose. He is one of the first writers to bring the subject of South Azerbaijan to literature. In the series "Southern Stories" he described the national independence movement and the ideas of freedom. The series "Southern Stories" was written in 1934-1953. This series includes five stories. These stories are different in terms of subject matter and issues. However, there are commonalities that unite them. These stories are also in the center of attention due to the richness of the image. Each image is distinguished by its individual characteristics. an analysis of the stories is given. Azad, Farda, Karimkishi, Minira and others. The attitude to the homeland is reflected in the example of the images. Along with the images, the environment of the XX century Tabriz is also reflected in the stories. The writer wrote the stories from the historical point of view. He did not only reflect historical events, but also wrote comprehensive socio-political problems. The article analyzes the patriotic ideas in his stories on the South.

Keywords: Azerbaijan, Southern stories, Mirza Ibrahimov, freedom, homeland

АЙТАДЖ МАНСИМОВА

ЮЖНАЯ ТЕМА В КОНТЕКСТЕ «ЮЖНЫХ РАССКАЗОВ» М.ИБРАГИМОВА.

РЕЗЮМЕ

Тема Родины занимает особое место в творчестве видного представителя азербайджанской литературы, писателя, драматурга, общественного деятеля и литературоведа Мирзы Ибрагимова. М.Ибрагимов привнес в прозу новые оригинальные сюжетные линии и тематическую новизну, главное место в прозе заняла тема юга. Он один из первых писателей, привнесших в литературу тему Южного Азербайджана. В серии «Южные рассказы» он описал движение за национальную независимость и идеи свободы. Цикл "Южные рассказы" был написан в 1934-1953 годах. В эту серию входят пять рассказов. Эти рассказы разнообразны по тематике и проблемам. Однако есть и общие черты, которые их объединяют. Эти рассказы также находятся в центре внимания благодаря богатству образов. Каждое изображение подбирается по своим индивидуальным характеристикам. В эту статью вошли «Свободные», «У

костра», «Двенадцать декабря» и другие, вошедшие в серию. дается анализ рассказов. Азад, Фарда, Каримкиши, Минира и другие. Отношение к Родине отражено в образах. Наряду с изображениями рассказы также отражают окружающую среду Тебриза 20-го века. Писатель писал рассказы с исторической точки зрения. Он не только отражал исторические события, но и писал комплексные общественно-политические проблемы. В статье анализируются патриотические идеи в его рассказах о Юге.

Ключевые слова: Азербайджан, Южные истории, Мирза Ибрагимов, свобода, родина.

Redaksiyaya daxil olma tarixi: 18.05.2022
Çapa qəbul olunma tarixi: 07.06.2022
Rəyçi: Filologiya elmləri namizədi Sürəyya Sultanova tərəfindən çapa tövsiyə olunmuşdur

SƏLİMƏ ÇINGIZ QIZI HACIYEVA
BDU-nın İngilis dili (humanitar fakültələr üzrə)
kafedrasının müəllimi
salima.haciyeva@gamail.com

CEK LONDONUN ƏSƏRLƏRİNDƏ YAŞAMAQ UĞRUNDA MÜBARİZƏ

Xulasə

Cek London iki yüzdən çox əsər, o cümlədən roman və hekayələr qələmə almışdır. O, bütün dünyada macəra ədəbiyyatı əsərlərinin müəllifi kimi tanınır. Cek Londonun yaradıcılığı ədaləti və həqiqəti müdafiə edən, bəşəriyyətin sosialist gələcəyi üçün mübarizə aparan sosialist yazıçı olmaqla məhdudlaşmırdı, həm də macəra hekayələrinin böyük yaradıcısı idi. Yazıları, inqilabi ideyaları və böyük yaradıcılıq istedadları onu və ideyalarını sıxışdıran ziddiyyətlərə baxmayaraq, ədəbiyyata və fəhlə inqilabına böyük təsir göstərmişdir. Uzun illər dövrünün hakim burjuaziyası onu Amerika demokratiyasına düşmən hesab etmiş, kitablarının dövriyyəsinə qadağa qoyulmuşdur.

Ümumiyyətlə, Cek Londonun əsərləri XIX əsrin sonu və XX əsrin əvvəllərindəki Amerikada həyatın çətinliklərindən, insanların mübarizəsində, yaşamaq yanğısından bəhs edir. London yaradıcılığında Nitsşenin təsiri açıq şəkildə özünü biruzə verir. Cek London karyerası ərzində dəfələrlə plagiatda ittiham olunsa da, bütün bu iddalar əsassız və yersiz idi. Dünya ədəbiyyatı tarixində möhtəşəm və parlaq iz buraxmış Cek Londonun mübarizə dolu yaradıcılığı özünəməxsus və orijinallığı ilə seçilir.

Açar sözlər: *Cek London, yaşamaq uğrunda mübarizə, həyat eşqi, təbiətlə mübarizə, sosial mübarizə.*

Giriş. Macəra romanları və qısa hekayələr müəllifi kimi dünya şöhrəti qazanmış Cek Londonun əsərləri XIX əsrin sonu və XX əsrin əvvəllərində Amerikada həyatın çətinliklərindən bəhs edir. O, canlandırdığı səhnələri öz gözləri ilə görmüş və hekayələrinin qəhrəmanlarının çoxu onun həyatı ilə bağlı olmuşdur. Çarlz Darvin, Herbert Spenser, Karl Marks və Fridrix Nitsşenin düşüncələrinin təsiri Cek Londonun yazılarında aydın görünür. Cek London insanların həyat və ədalət uğrunda mübarizəsini əsərlərində əks etdirən böyük Amerika yazıçılarından biridir. "Azərbaycan oxucusunun ən yaxşı tanıdığı və sevdiyi əcnəbi yazıçılardan biri məhz Cek Londondur. Onun əsərləri insanı həyat eşqinə, mübarizə əzminə, qələbəyə kökləyir." [1, səh. 5] Cəmi 40 il yaşayan yazıçı bu müddət qısa müddət ərzində ədəbiyyat sahəsində böyük işlərə imza atdı. Cek London yaşadığı qırx ilin təxminən iyirmi ilində ədəbi yaradıcılıqla məşğul oldu, yazıçının uğuru heyrətamizdir. C.

Londonun eyniadlı hekayəsi əsasında həyata məhəbbət öz ölkəsində sadə insanların taleyi haqqında yazmışdır. İşsizliyin rüsvayçılığını, ağır əzablarını yaşamış London yaxşı bilirdi ki, şəxsi azadlığı müdafiə edən insan təkcə sərt təbiətlə mübarizə aparmağa məcbur deyil, yazıçı insanlar üçün əsl azadlığa aparan yolu sosial ədalətsizliyə qarşı mübarizədə görüb. Onun əsərlərində əsas diqqət cəmiyyətin aşağı təbəqələrinin, xoşbəxtlik axtarışında olan insanların həyatına yönəldilir. Cek Londonun yaratdığı personajlar müstəsna keyfiyyətlərə malik insanlardır, bu insanlar iradəsi, qeyri-adi zəkası və fiziki dözümlülükləri ilə fərqlənirlər. Yazıçı bizi inandırır ki, insan təbiət qüvvələrinə qarşı təkbaşına mübarizə apararaq, sərt şəraitində belə sağ qala bilirlər.

Təbiət aləmində olduğu situasiyalarda insanlar arasında münasibətlər cəmiyyətin qanunlarına görə deyil, təbiət qanunlarına uyğun qurulur: sərt şimal mənzərəsi fonunda dramatik bir varlıq mübarizəsi baş verir. Cek Londonun yaradıcılığında başqa bir istiqamət sosial roman və xüsusən də "Martin İden" romanıdır. Sosial mübarizədən bəhs edən bu əsər avtobioqrafik səciyyə kəsb edir. O, cəmiyyətin aşağı təbəqələrinə mənsub olan istedadlı insanla sosial nərdivanın daha yüksək pillələrində dayanan insanların qarşıdurmasını təqdim edir.

Cek Londonun həyatı. Amerikalı yazıçı, jurnalist və ictimai xadim Cek London (əsl adı Con Qriffit Çeyni) 12 yanvar 1876-cı ildə Kaliforniya ştatının San-Fransisko şəhərində anadan olub. Yazıçının anası Flora Vellman musiqi müəllimi idi və birlikdə yaşadığı astroloq Uilyam Çeynidən hamilə qalır. Floranın hamiləliyindən xəbər tutan Uilyam onun abort etdirməsini təkid etsə də, ana qəti şəkildə abortdan imtina edir. Körpə dünyaya gəldikdən sonra Flora Çeyni tərk edir. 1876-cı ilin sonunda Flora Amerika Vətəndaş Müharibəsi veteranı Con Londonla evlənir. Uşağı Con London adlandırmağa başlayırlar. London adını ona ögey atası Con London verir. Uşaqlıqdan yoxsulluqdan əziyyət çəkən Cek kiçik yaşlarından müxtəlif işlərdə çalışır. 14 yaşlı Cek London ibtidai məktəbi bitirdikdən sonra ailəsi yoxsulluq həddində yaşadığı üçün təhsilini davam etdirə bilmir. Cek London 20 yaşında sosialist oldu, sosializmə meyl onun ədəbi yaradıcılığında da hiss olunur. London San-Fransiskoda radikal "The Crowd" ədəbi qrupunun bir hissəsi idi və həmkarlar ittifaqı, işçilərin hüquqları, sosializm və yevgenikanın qızğın müdafiəçisi idi. [2; 12]

Cek Londonun nəşr olunan ilk əsəri "Yaponiya sahillərində tayfun" adlanır. 1893-cü ildə bu əsər "San Fransiskonun səsi" qəzetində çap olunanda müəllifin cəmi 17 yaşı var idi. Londonun ilk dəniz səyahəti onda böyük təəssürat yaratdı və bu təəssürat onun dəniz hekayələri və romanlarının əsasını təşkil etdi. Cek bu dəniz səyahətində qasırğaya tutulmuşdu və yazıçının ilk əsəri real hadisələrə əsaslanırdı. London ədəbi karyerasının başlanğıcı olan bu esseyə görə San-Fransisko qəzetlərindən birindən mükafat aldı. C. Lonon çox da uzun olmayan bütün yazıçılıq karyerasında 40-a yaxın kitab yazmağı bacardı.

Yaradıcılığı. Yazıçının qələmə aldığı “Həyat eşqi”, “Qurd oğlu”, “Oyun”, “Meksikalı”, “Dəmir daban”, “Ağ diş”, “Böyük evin kiçik sahibəsi”, “Qırmızı vəba”, “Dəniz canavarı”, “Martin İden” kimi əsərləri ona böyük şöhrət qazandırdı. Yazıçının əsərlərində onun həyat mübarizəsi öz əksini tapmışdır. Cek Londonun heyrətamiz əsərlərini oxuyanda bunu xüsusilə aydın görmək olar. Cek Londonun gənclik illərindəki fəal həyat mövqeyi təkcə onun xarakterinin inkişafına deyil, həm də yaradıcılığının formalaşmasına səbəb olmuşdur. Qısa, lakin keşməkeşli həyatında çox şey görmüş yazıçı qəhrəmanlarını daim sınaqdan keçirir, çətinliklərin öhdəsindən layiqincə gəlir. Cek Londonun yaradıcılığında XIX əsrin sonları - XX əsrin əvvəllərindəki ABŞ ədəbiyyatının mühüm istiqamətləri öz əksini tapmışdır.

Cek Londonun ilk dəfə 1900-cü ildə nəşr olunmuş “Qurd oğlu” qısa hekayələr toplusundakı hadisələr Amerikanın şimalında baş verir. [3,15] Bu topluda 9 hekayə vardı və müəllifin ilk hekayəsi kitabın adını daşıyırdı. 7 aprel 1900-cü ildə Londonun Bessi Maddernlə toyu günündə nəşr olunan macəra hekayələri toplusu idi. İlk ədəbi uğursuzluqlardan sonra, 1897-ci ildə London Kanadanın şimal-şərq sərhəddindəki Klondaykda qızıl axtarırdı. Kanadadakı təcrübəsindən ilhamlanan bu hekayələr silsiləsi jurnallarda nəşr olundu. Bu seriya sonradan bir kitabda toplandı.

“Həyat eşqi” hekayəsi. Cek London tərəfindən 1905-ci ildə yazılan “Həyat eşqi” hekayəsi varlıq mübarizəsidir. Bir-birindən tamamilə fərqli iki qəhrəmanın biri məğlubiyyətə məhkum idi. Əsərin qəhrəmanı vəhşi şimal təbiətinin amansız şəraitində xəstəliyi və aclığı ilə baş-başa qalır, daima sahib olduğu ən qiymətli şey - öz həyatı uğrunda mübarizə aparır. Qızılın özlüyündə heç bir dəyəri olmadığını anlayır və yeri gələndə peşman olmadan ondan ayrılır. “Həyat eşqi” hekayəsinə görə həyat səyahətdir. Müəllif burada həyat yolunda heç vaxt geri çəkilməyən insan ruhunun gücünü göstərib. Əsərin qəhrəmanı adını, məşğuliyyətini, hətta yaşını belə bilmirik naməlum bir insandır. Kanadanın boş torpaqlarını keçərək Hudson körfəzinə doğru gəzir. Qurtuluş hekayəsinin mövzusu sərt şimal təbiətində, həyat eşqində sağ qalmaq uğrunda tək qızıl axtaran adamın mübarizəsidir.

“Həyat eşqi” hekayəsi ilk dəfə 1905-ci ilin dekabrında “McClure's Magazine”də dərc edilmişdir [4, səh.524]. 1907-ci ildə o, "Həyata məhəbbət" və digər hekayələr toplusuna daxil edilmişdir. Hekayə Londonun ən məşhur hekayələrindən biri, onun şah əsərlərindən biri hesab olunur [5, səh 234]. Şimal mövzusu üzərində yazılmış hekayə Londonun “Şimal dövrü” adlandırılan dövrə daxildir. Hekayədə adı çəkilməyən baş qəhrəman qızıl axtaran, səyahət zamanı ayağından zədə alır, silahını və papağını itirir. Klondaykın donmuş ucsuz-bucaqsızlığında yoldaşı tərəfindən tərk edilmiş, yaralı bir adam yenə də irəliləməkdə davam edir. Yoldaşı Bill qəhrəmanı taleyin mərhəmətinə buraxır və o, yaralı bir ayağı ilə Diz çayına çatmaq ümidi ilə Kanada tundrası ilə dolaşır, o, Bill ilə qayığı və təchizat anbarını tərk etdi. Səyahət zamanı baş qəhrəmanın yaralı ayağı şişir, aclıqdan əzab çəkir, istiqamətini itirir, əlindəki qızılı atır, ayıya rast gəlir, paltarı köhnəlir, lakin sağ qalmaq üçün mübarizəyə girir. Canavarların yediyi Billin

qalıqlarını tapır və canavar onu təqib edir. Qəhrəmanın marşrutu Böyük Ayı gölünün şimalındakı ərazidən Mis mədəninin Şimal Buzlu Okeanına qovuşduğu yerə qədər getdi, orada balina ovu gəmisi tərəfindən götürüldü və sonra San-Fransiskoya çatdırıldı.

"Əcdadların harayı" romanı. Cek Londonun yazdığı "Əcdadların harayı" romanı 1903-cü ildə nəşr olunan roman Londonda ən çox oxunan kitab oldu və yazıçının ən yaxşı əsərlərindən biri hesab olunur. Klondayka qızılaxtaranların axını zamanı sahibinin xəbəri olmadan vəhşi təbiətə gətirilməsi, yerli xizək itinin vəhşi təbiətə uyğunlaşması və təbiətdə yaşadığı hadisələrdən bəhs edir. Əsas personaj it olduğu üçün çox vaxt uşaq ədəbiyyatı kimi təsnif edilir. Bununla belə, ideyalarının yetkinliyi və dərinliyi baxımında bu əsər yetkin oxucular üçün də aktualdır. Hekayədə ən güclülərin sağ qalması, sivilizasiya və təbiət , tale , iradə azadlığı və bəzi zorakılıqlar, xüsusən də heyvanlara qarşı zorakılıq kimi mövzulardan bəhs edilir. Müəllif heyvanlar aləmi ilə insanlar dünyası arasında analogiyalar aparır. Sakit ev itindən hiyləgər və amansız yırtıcıya çevrilən Bak kimi, insanlar da mühitə uyğunlaşaraq get-gedə mülayimliklərini itirir, sərt və qəddar olurlar. İnsanlar arasında eyni təbii seçim var: ən güclülər sağ qalır, ən az uyğunlaşan və zəif olanlar isə məhv olur. "Əvvəlki əxlaqi anlayışları sökülüb dağıldı, yaşamaq üçün amansız mübarizədə onlar Bakçün artıq yük idi. Onlar üçün cənub münasib idi. Orada məhəbbət və dostluq qanunu hökm sürürdü, orada başqalarının malına hörmət, özgələrə mərhəmət hissi vardı. Bu sərt şimalda isə dəyənək və diş qanunu hökm sürürdü, yaşamağa və uğur qazanmağa mane olan düzlüyə axmaq riayət edərdi." [6, səh.29]

Ümumiyyətlə, Londonun bir çox əsərlərində insan və heyvanlar (əsasən itlər) yan-yana mübarizə aparır və bütün hallarda bir-birinə kömək edirlər. Bu baxımdan "Ağ diş" əsərinin də baş qəhrəmanı olan eyniadlı personaj yarı it, yarı canavardır. Hekayədə insanla heyvanın dueli həm elmi əsaslandırma, həm də simvolik məna kəsb edir. Heyvanların qavradığı əsas qanun yazıçıya görə "ov qanunu"dur. Tom Feller "Ağ diş" əsərini "bəşəriyyətin təbiətdən sivilizasiyaya doğru irəliləməsinin alleqoriyası" kimi təsvir edir. [9, səh. 2] Əsərin kifayət qədər böyük bir hissəsi heyvanların və xüsusən də Ağ Dişin özünün dili ilə təsvir edilir. Hekayədə insanların heyvanlara qarşı fərqli davranışları və münasibətləri təsvir olunur. Yazıçı bu romanda əxlaqi məsələlərdən, vəhşiliklə bəşər sivilizasiyasının qarşıdurmasından bəhs edir.

"Dəniz canavarı" romanı. Cek Londonun 1904-cü ildə yazdığı "Dəniz canavarı" romanındakı hadisələr 1893-cü ildə Sakit Okeanda baş verir. San-Fransisko sakini və tanınmış ədəbiyyatşünas Hemfri Van-Veyden dostunu ziyarət etmək üçün bərə ilə səfərə çıxır və səyahət əsnasında gəmi qəzasına uğrayır. Onu "Ghost" balıqçı gəmisinin kapitanı Volf Larsen xilas edir. Lakin Larsen zorakılıq edərək Veydeni özünə tabe edir və onu əzab-əziyyətə salır. Ziyalı insan olan Hemfri Van-Veyden kobud xarakterə malik olan Volf Larsenin başçılıq etdiyi bir qrup

dənizçi tərəfindən əsir götürüldükdən sonra gəmi ilə uzaq dənizlərə aparılır. Volf Larsen böyük fiziki gücə malik olan, çoxlu kitablar oxuyan əxlaqsız və kobud bir insandır. Bu roman dənizçilik terminləri ilə doludur və Cek London onu yazmaq üçün öz həyat təcrübəsindən istifadə etmişdir.

Volf Larsen fenomenal gücə və xüsusi fəlsəfəyə malik qəddar bir insandır. Kapitan dənizçilərdən ibarət komandasını dəhşətə gətirir, lakin bu əzazil adam böyük zəkaya malikdir və Darvin nəzəriyyəsi onun qəddar hərəkətlərinə təkan verir. Onun fikirincə, insanlar bioloji qaydalara tabe olan dəyərsiz məxluqlardır, növlər arasında döyüşdə ən güclülər sağ qalır, altruizm cəfəngiyyatdır, zəiflərin uydurduğu bir şeydir. Volf Larsen Hemfri Van-Veyden aşpaz köməkçisi vəzifəsinə qoyaraq alçaltdı, sonra naviqasiya haqqında heç bir məlumatı olmadığı halda onu sükançı adlandırdı. Van Veyden leysan yağışlarını çox sevirdi. Məhz bu vaxt, kapitan dənizçilərin üsyanı ilə ciddi şəkildə cəzalandırılır.

“Oyun” və “Meksikalı” əsərlərində fiziki mübarizə. Cek Londonun yazdığı “Oyun” əsəri boksu tərk etmək qərarına gələn iyirmi yaşlı boksçu Co haqqındadır. Bu əsər ticarət və biznesi tərənnüm edən, idmanda kommersiya ruhunu tənqid edən burjuazaiyay qarşı qələmə alınmışdır. London hekayəni 1904-cü ilin yayında yazmağa başladı və 1905-ci ildə nəşr etdi. İyirmi yaşlı Co on səkkiz yaşlı gözəl Cenevyeva ilə tanış olur və ona aşiq olur. Onların hər ikisi kasıb ailələrdəndir: Co anbarda işləyir, həmçinin anasını və kiçik qardaşlarını saxlamaq üçün pul qarşılığında boks yarışlarında iştirak edir. Cenevyeva valideynsiz qalır və dükanlarında işləyən yaşlı Silverstayn ailəsi ilə yaşamağa məcbur olur. Tədricən gənclər birlikdə daha çox vaxt keçirməyə başlayır və evlənməyə qərar verirlər. Conun boksla məşğul olduğunu öyrənən Cenevyeva ondan bu təhlükəli peşəni tərk etməsini xahiş edir. O, ona söz verir, lakin yeni evini təchiz etmək üçün pula ehtiyacı olduğu üçün yenidən rinqə çıxmaq istəyir. Bu döyüşdən dərhal sonra evlənmək istəyirlər. Boks matçlarına qadınların buraxılmamasına baxmayaraq, Co arxa otaqdakı yarıqdan rinqə baxmaq üçün Cenevyevanı maskalı şəkildə aparır. Conun rəqibi Pont olduqca güclü biri idi. Çətin döyüş zamanı Co təşəbbüsü ələ keçirməyi bacarır və o, artıq həlledici zərbə vurmağa hazırlaşır. “Döyülmüş, əldən düşmüş, ayaq üstə güclə dayanan, boğula-boğula ağzını açıb nəfəs alan, xırıldayan, gözləri şüşəyə dönmüş Ponta rinqdə özünü ora-bura çırpır, hələ də rəqibinə qalib gəlməyə çalışırdı. O gülünc vəziyyətə düşmüşdü, həm də özünü axıradək məğlubedilməz sayaraq, inadla mübarizə aparmaq cəhdinə görə dahi idi.” [6, səh. 80]. Son anda Co sürüşür və Ponta onu nokauta göndərir. Co özünə gəlmir, onu aparırlar və həkimləri çağırırlar. Lakin artıq ona kömək etmək mümkün deyil: başının arxası yerə dəymiş güclü zərbədən Co komaya düşür və ölür. Və beləcə həyatdakı mübarizədə Co məğlub olur.

London boks həvəskarı və həvəskar boksçu idi. Yazıçının 1911-ci ildə qələmə aldığı “Meksikalı” hekayəsi də bu sahəyə həsr olunmuşdu. “Meksikalı” əsərində boksu sosial mövzu ilə birləşdirir, çünki gənc meksikalı inqilaba kömək etmək üçün

pul qazanmaq üçün ədalətsiz mübarizəyə və etnik qərəzlərə dözür. Əsərdəki idmançıların mübarizəsi bədii dillə mükəmməl şəkildə təsvir edilmişdir. “Dalbadal iki raund idi ki, onunla yaxınlaşıb, vuruşmağa cürət etməyən bu uşaqcığazı amansız bir surətdə yumruqlayırdı. Rivera zərbələri dalbadal qəbul edir, onları on-on alırdı, yalnız məhvedici klinçdən yaxasını qurtarmaq istəyirdi. Denninin bu əla həmlələri zamanı camaat ayağa qalxmışdı.” [7, səh. 45].

“Martin İden” romanı. 1909-cu ildə “Martin İden” romanı yazıçı olmaq uğrunda mübarizə aparan gənc Martin İden haqqındadır. Kitabın müəllifi Londondan fərqli olaraq, əsərin qəhrəman sosializmi “qul əxlaqı” kimi rədd edir və bunun əvəzinə Nitsşenin fərdiyyətçiliyinə inanır. Zatən romanının motivlərindən biri də İdenin inandığı fərdiyyətçiliyi tənqid etməkdir. Ruf Morza aşiq olduqdan sonra həyatını dəyişən Martin ona layiq olmaq üçün özünü təkmilləşdirərək yazıçıya çevrilmir. Bilik öyrənmək həvəsi onu bir müddət sonra müxtəlif janrlarda onlarla əsər yaradan müəllifə çevirəcək. Əvvəlcə nəşriyyatlar və jurnallar Martinin işini israrla rədd edərdilər, lakin Martinin işığı oxucular tərəfindən kəşf edildikdə, Martin kifayət qədər zənginləşəcək və ətrafındakı hər kəs birdən onunla maraqlanmağa başlayacaq. Çox çətin yollardan keçdikdən sonra nəhayət istədiyinə, məqsədinə çatdı, amma burjuaziyanın əsl simasını görən Martin bu cəmiyyətə aid olmadığını anladı. “Bu mübarizədə o, sevgilisini itirir, qohumları ondan üz döndərirlər, o hətta get-gedə öz işinin düzgünlüyünə olan inamı itirməyə başlayır və bir daha qələmi əlinə almayacağına söz verir” [8, səh. 10]

İnsanların yalnız yaşadığı zamana və vəziyyətdən asılı olaraq ona maraq göstərdiyini gördükdən sonra, fəhlə sinfindəki insanların onu sırf olduğu üçün sevdiklərini, lakin işçi sinfində özünə yer tapa bilmədiklərini xatırladı. maarifləndirmə səviyyəsinə çatmışdır. Bu fikirlər onu aid olduğu yerə, dənizlərə qaytaracaq, həyatdan uzaqlaşdıracaq. Elitar cəmiyyət Martin İdendən imtina etməkdə israrlıdır, çünki onun daxili azadlığı var. Romanın qəhrəmanı, yazıçı olmaq istəyən Martin İden yüksək cəmiyyətdə tanınmağa can atır, bu çevrədən olan bir qızın sevgisinə nail olmağa çalışır. Eyni zamanda, o, keçilməz çətinliklərlə qarşılaşır: yüksək cəmiyyətdə və qəhrəmanın çıxdığı mühitdə fəaliyyət göstərən ənənələr və qanunlar həddindən artıq fərqlidir.

Romanın kompozisiyası sadəliyi və ahəngdarlığı ilə seçilir, onun mərkəzində Martin İden obrazı dayanır, əsərdə heç bir hadisə onun iştirakı olmadan baş vermir. Qəhrəman şəxsiyyətinin təkamülü süjetin özəyini, onun hərəkətverici qüvvəsini təşkil edir. Maraqlıdır ki, Martin İden obrazı romanda inkişaf edən yeganə obrazdır, bütün digər personajlar süstdür. Martin İdenin faciəsi tənhalıqdan daha çox tənhalığın faciəsidir.

Fəhlə sinfindən çıxan Martin İden Rutun atasının müqaviməti ilə üzləşir. Martin böyük çətinliklərlə uğur qazanır, lakin Rutun sevgisindəki uğursuzluq və burjua cəmiyyətinə məyusluq üzündən özünü öldürür. Cek London Martinin xarakterini inkişaf etdirməkdə öz həyat təcrübələrindən ilhamlansa da, onu (bir

sosialist kimi özündən fərqli olaraq) sosializmə qarşı çıxan bir fərdiyyətçi kimi təsvir edir. Bu kitab yazıçılğa meyl edən insanlar tərəindən müsbət qarşılanıb, çünki bu əsərdə müəllif onlara uğurlu yazıçı olmaq üçün müqavimət və səy göstərməyin yolunu öyrədir. Ümumuyyətlə, "Martin İden" romanı Cek Londonun ideyalarını, sosial həyatdakı mübarizəsini, intellektual və siyasi mövqelərini özündə əks etdirən maarifləndirici kitabdır. Bu romanın birinci yarısı çox avtobioqrafikdir, müəllifin erkən həyat təcrübəsinə və sonradan məşhurlaşma prosesinə əsaslanır. Bu roman Cek Londonun nikbinliyinin və yazmaq həvəsinin son ifadəsidir, eyni zamanda kapitalist cəmiyyətinin amansızlığını və pula pərəstişini ifşa edir.

"Dəmir daban" əsəri. Cek Londonun 1908-ci ildə nəşr etdirdiyi "Dəmir daban" əsəri distopiya romanıdır. Bu antiutopik roman Corc Oruellin yaradıcılığına mühüm təsir göstərmişdir. Süjetə görə, roman XX əsr Amerika inqilabçısı Avis Everhardın avtobioqrafik əlyazmasıdır. XVII əsrdə Entoni Meredit adlı bir alim bir əlyazma tapır. Onun müəllifi Avis Everhardt XX əsrin inqilabçısıdır. Əlyazma onun həyatı, ölkədəki və dünyadakı siyasi vəziyyəti təsvir edir. Gələcəyin alimi bəzən bu qeydlərə öz fikrini də əlavə edir. Bu romanın qəhrəmanları Avis Everhard və həyat yoldaşıdır. Marksizmin klassik təlimlərinə bu kitabda rast gəlmək olar. Kitabın əsas müddəası ABŞ-da milli seçkilərdə qalib gəlmək, hakimiyyətə gəlmək və radikal sosialist rejimi həyata keçirmək üçün real şansa sahib olmaq üçün kifayət qədər güclü olan sosialist kütləvi hərəkatının yüksəlişidir. Müasir distopiyaların ən erkəni hesab edilən bu əsərdə Cek Londonun sosialist baxışlarının ən aydın şəkildə nümayiş olunmuşdur. Roman xüsusilə faşist quruluşunun dünyanı necə vəhşiliyə sürükləyəcəyini və buna qarşı inqilabi mövqeyin necə olması öz əksini tapmışdır. Kitab Cek Londonun dediyi kimi Uçurum xalqından tutmuş burjuaziyaya qədər zalımla məzlum arasındakı münasibətdən bəhs edir. Cek London bu romanında hegemon maliyyə qruplarının cəmiyyətin və dünyanın bütün işlərinə nəzarət etdiyi, öz hökmranlığını təmin etmək üçün müharibədən, qətldən və cinayətdən üz döndərmədiyi Amerikada gələcəyin xəyali cəmiyyətini təsvir edir. Siyasi-fantastik sayıla biləcək bu roman fantastikadan kənara çıxır və müəllifin düzgün proqnozları insanı heyrətə gətirir.

Yazıçını sosialist təmayüllü fəhlələr, zəhmətkeşlər və ziyalılar arasında ən populyar yazıçılardan birinə çevirən "Dəmir daban" əsəri bəşəriyyətin gələcəyinin təsviri, məqsədyönlü romandır, onun hadisələri inqilabı əks etdirir. Amerikada məzlumların və işçilərin qanlı mübarizəsini izah edir və Avropada faşizmin yaxınlaşdığını proqnozlaşdırır. "Dəmir daban" zəhmətkeş təbəqələri od və dəmirlə əzməyə can atan inhisarçı kapitalizmə Cek Londonun verdiyi addır.

"Böyük evin kiçik sahibəsi" romanı. Londonun 1915-ci ildə yazdığı "Böyük evin kiçik sahibəsi" romanı ilk dəfə 1916-cı ildə nəşr olunmuşdur. Faciəvi nəsr janrında yazılmış bu romanın əsas personajları Paula Desten, Dik Forrest və Evan Qrahamdır. Müəllifin həyatının son illərində qələmə aldığı "Böyük evin kiçik sahibəsi" romanı sentimental-faciə motivləri ilə seçilir. Əsər mənəvi cəhətdən kamil

insanların münasibətinə həsr olunub. Romandakı hadisələr Kaliforniya ştatında cərəyan edir. Süjet "sevgi üçbucağı" üzərində qurulub. Roman hiyləgərlik, məhəbbət macəraları ilə doludur. Roman incəliklərlə, məhəbbət intriqaları ilə doludur və eyni zamanda zadəganlıq və şərəf ruhu ilə hopdurulmuşdur. Bu kitab nəşr olunduğu zaman açıq-saçıqlığı ilə ABŞ-da qalmaqala səbəb oldu.

Romanda həmçinin erkən yaşda evi tərk etmək qərarına gələn və dünyanı dolaşmağa başlayan baş qəhrəman Dik Forrestin uşaqlığından bəhs edən ikinci hekayə xətti də var. Romanın süjeti çox qeyri-adidir və gözlənilməz sonluqla bitir. Müəllifin özünün fikrincə, bu vəziyyətdən yeganə mümkün təmiz və nəcib çıxış yolu deyildi. Dik və Paula Forrestin ailəsində həyat öz axarı ilə gedirdi, amma bir gün Dikin çox yaxşı dostu Evan Qrehem onların evinə qonaq gəlir. Evan əvvəldən Paulaya heyran olsa da, bunu ona deməyə cəsarət etmir. Tezliklə Paulanın da onu sevdiyini anlayır. Maraqlıdır ki, Dik onların sevgisi haqqında hər şeyi öyrənir, lakin heç kimə heç nə demir. Düzdür, Paulanın ona qarşı necə biganə olduğunu görür, amma heç nə demir. Paula Evanı sevir, amma o, Diki də sevir. İlk baxışdan belə mümkün deyil, amma Paula hər ikisini eyni dərəcədə sevdiyi üçün aralarında seçim edə bilmir. Nəhayət, Dik Paula hər şeyi danışacaq, hər şeyi başa düşdüyünü deyəcək. Paula seçim qarşısındadır, hər iki kişi ondan cavab tələb edir, lakin o, seçim edə bilmir. Paula seçim edə bilməyəcək və ən yaxşı həll yolunu tapacağını düşünür - intihar edərək həyatına son qoyur. Əsər Paulanın ölümcül güllə yarası ilə bitir. Sevgilisi Qrehemin fikrincə, bunun intihar olub-olmadığı, yoxsa qəza olub-olmadığı aydın deyil. Ölməzdən əvvəl Paula həyatındakı hər iki kişi ilə vidalaşır.

"Qırmızı vəba". Cek Londonun "Qırmızı vəba" romanı ilk dəfə 1912-ci ildə "The London Magazine"də dərc edilmiş və 1915-ci ildə ayrıca kitab kimi Nyu-Yorkda nəşr edilmişdir. Kitabda demək olar ki, bütün bəşəriyyətin ölümünə səbəb olan "Qırmızı vəba" adlanan epidemiyanın törətdiyi fəlakətdən bəhs edilir. [9, 258] 2013-cü ildə bu epidemiyanın dünyanı sarması ucbatından insanlar küütləvi şəkildə məhv olurlar. "Yer kürəsində cəmi 350-400 nəfər qalır. Xilas olunan nəsillər ibtidai həyat tərzi keçirir, ovçuluq və maldarlıq hesabına dolanırlar, oxumaq bacarıqlarını itirirlər." [10,189]

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

Azərbaycan dilində

1.Dünyanı sarsıdan epidemiyalar haqqında 5 məşhur əsər. https: //kulis. az/xeber/senet/ dunyani-sarsidan-epidemiyalar-haqqinda-5-meshur-eser-29996

2.London C. Böyük evin kiçik sahibəsi. Bakı, Əli və Nino Nəşriyyatı və Qanun Nəşriyyatı, 2020, 352 səh.

3.London C. Əcdadların harayı. https://doc-14-1c-docs.googleusercontent. com/ docs/securesc/tki2kjgk9dq3f2fu47106lqc855t6vg0/g1g1ihih2v5oapb6rttmlmmvurp7

p1kk/1650725925000/08812619676413982040/13438216524273620712Z/0B1n5hFtntvnCMllHUkhqaGh5NHc?e=download

4.London C. "Martin İden" romanı / tərc. ed. və ön söz müəl. İ. İbrahimov; red. M.Qarayev; bədii tərtibat və dizayn müəl. T. Qorçu.- Bakı: Şərq-Qərb, 2009.- 397, [3] s.

5.London C. Meksikalı. https://doc-0g-1c-docs.googleusercontent. com/ docs/securesc/tki2kjgk9dq3f2fu47106lqc855t6vg0/161lc885ojanlfiujobg565lk4hvu27r/1650796575000/08812619676413982040/13438216524273620712Z/0B1n5hFtntvnCeUZqdnpybGYtU1U?e=download&nonce=5tafeb17bscsu&user=13438216524273620712Z&hash=i1tu3qetsntb5rptak6mif5kbkf3cl7j

6.London C. Oyun. https://drive.google. com/file/ d/0B1n5h FtntvnCdF9DdzMt WG9hMFU/view?resourcekey=0-Yb8JgkzSLz2IHCA1QQCutQ

7.London C. Seçilmiş əsərləri /Ön sözün müəllifi. Z. Ağayev.- B.: Öndər, 2005.- 512 s.

İngilis dilində

8.Evening Standard. Back to the future again. Northcliffe House, Derry Street, Kensington. London November 10, 2008

9.Feller, Tom (January 2000). Masterplots II: American Fiction Series, Revised Edition. Vol. 6. Salem Press. pp. 2, 975

10. Hensley, John R. "Eugenics and Social Darwinism in Stanley Waterloo's ‘The Story of Ab’ and Jack London's ‘Before Adam.’" Studies in Popular Culture, vol. 25, no. 1, 2002, pp. 23–37.

11. Michael Shelden. Orwell: The Authorized Biography. New York: Harper Collins, 1991. 497 pp.

12. Swift, John N. "Jack London's ‘The Unparalleled Invasion’: Germ Warfare, Eugenics, and Cultural Hygiene." American Literary Realism, vol. 35, no. 1, 2002, pp. 59–71.

Rus dilində

13. Лондон Дж. Собрание сочинений в тринадцати томах / Г. П. Злобин; С. С. Иванько. — М.: Правда, 1976. — Т. 4. — 496 с. — (Библиотека «Огонёк»). — 375 000 экз.

14. Примечания // Лондон Джек. Собрание сочинений в тринадцати томах / Под общей редакцией Р. М. Самарина. — М.: Правда, 1961. — Т. 5. — С. 523—526. — 528 с. — (Библиотека «Огонёк»).

15. Танасейчук А. Б. Джек Лондон: Одиночное плавание. — М.: Молодая гвардия, 2017. — 331 с.

SALİMA HACIYEVA

STRUGGLE FOR SURVİVAL

Summary

Jack London *wr*ote more than two hundred literary works, including novels and stories. He was well-known as a creator of adventurous novels all over the world. His activity was not just limited with the defend for justice and struggle for the socialist future of mankind, he might be also considered as one of the founders of adventurous literature.

Despite the fact that he was oppressed for his great talent and revolutionary ideas ,nevertheless he had a huge influence on the proletarian revolution and literature in general. For long period of time ,the bourgeois authorities considered him an enemy of American Democracy and prevented the distribution of his books. In fact Jack London's works tell about life's difficulties ,about people's struggle and passion for life.

Nietzche's influence can be openly traced in J.London's works. Although throughout his literary career J.London was repeatedly accused of plagiarism, however all these accusations were groundless. J.London's literary works,that left a huge mark in the world literature are distinguished by originality .

Keywords: *Jack London, the struggle for survival, the love of life, the struggle with nature, the social struggle.*

САЛИМА ГАДЖИЕВА

БОРЬБА ЗА ВЫЖИВАНИЕ
РЕЗЮМЕ

Джек Лондон написал более двух ста литературных произведений, включая романы и повести. Он известен по всему миру в качестве создателя приключенческих произведений. Его деятельность не ограничивается только защитой справедливости и борьбой за социалистическое будущее человечества ,но его также можно считать одним из основоположников приключенческого жанра в литературе.

Несмотря на то, что его притесняли за его огромный талант и революционные идеи , тем не менее он имел огромное влияние на пролетарскую революцию ,да и на литературу, в целом. В течение длительного периода времени буржуазная власть считала его врагом американской демократии и препятствовала публикации его книг. На самом деле

произведения Дж.Лондона повествуют о жизненных трудностях, о борьбе людей за выживание и о жажде жизни. Влияние Ницше красной нитью прослежиается в творчестве Дж.Лондона.

Хотя на протяжении своей литературной карьере его неоднакратно обвиняли в плагиате, однако все эти обвинения абсолютно беспочвенны.

Творчество Джека Лондона оставило огромный след в мировой литературе своей своеобразностью и оригинальностью.

Ключевые слова: *Джек Лондон, борьба за выживание, любовь к жизни, борьба с природой, социальная борьба.*

Redaksiyaya daxil olma tarixi: 18.05.2022
Çapa qəbul olunma tarixi: 07.06.2022
Rəyçi: Bəylər Hacıyev Filologiya üzrə fəlsəfə doktoru, dosent tərəfindən çapa tövsiyə olunmuşdur

NOVRUZ AĞAGÜL OĞLU NURİYEV
AMEA Elm Tarixi İnstitutu
Azərbaycan, Bakı, H.Cavid pr. 115
novruznuriyev90@gmail.com

XIX ƏSR AZƏRBAYCAN ƏDƏBİYYATI NÜMUNƏLƏRİNDƏ MƏTNŞÜNASLIĞIN METODOLOJİ ƏSASLARININ TƏTBİQİ

XÜLASƏ

Mətnşünaslıq tədqiqat, şərh, nəşr və digər məqsədlər üçün yazı və ədəbiyyat əsərlərinin tarixini və taleyini öyrənən və bərpa edən filologiya sahəsidir. Mətnşünaslığın əsas vəzifəsi tədqiq olunan yazılı abidənin düzgün mətnini əldə etmək və mətnin ümumi kontekstini anlamaqdır. Müasir dövrdə mətnşünaslığın metodlarından bəhs edərkən əlaqəli elm sahələrinə - psixolinqvistikaya, semiotika və hermenevtikaya da nəzər salmaq vacibdir. Mətnin anlaşılmasında əsas məqamlar bunlardır: Mətnin məzmunu ilə bağlı başlanğıc fikrin irəli sürülməsi, naməlum və anlaşılmayan sözlərin müəyyənləşdirilməsi, mətnin məzmunu ilə bağlı ümumi mülahizənin irəli sürülməsi, terminlərin mənasının aydınlaşdırılması və mətnin ayrı-ayrı fraqmentlərinin ümumi mülahizə əsasında birləşdirilməsi, mətndə olan məlumat yüklü fraqmentlərlə bağlı ümumi fərziyyənin korreksiyası və nəhayət, ümumi mülahizənin qəbulu, yəni formalaşmasıdır.

Mətnşünaslıqda mövcud olan müşahidə, elmi və bədii istilahlar, subyektiv baxış tərzi, mətnin aid olduğu dövrün ümumi ictimai həyat tərzi və s. anlayışlar mətnin komponentlərini təşkil edir və mətnin anlaşılması dedikdə onun semantik strukturunun formalaşması nəzərdə tutulur. Mətnin semantik quruluşu, həmçinin, yazının dil üslubu, mətnin aid olduğu elmi və ya bədii sahəni də özündə ehtiva edir. Mətnşünaslığın metodları konkret bir forma və ya sxemdən ibarət deyil və çox sayda üslubları özündə birləşdirə bilər. Əsas metodlar əlyazmanın aid olduğu sahə ilə bağlı elmi ədəbiyyatın oxunması və təhlili, müəyyən sahə ilə bağlı dərsliklərin öyrənilməsi, üslubların tədqiqidir.

Məqalədə mətnşünaslığın metodoloji əsaslarının XIX əsr Azərbaycan ədəbiyyatında tətbiqi ilə bağlı mülahizələr yer almaqdadır. Məqalədə XIX əsrin ədəbi yazı nümunəsi kimi Mirzə Nəsrullah Didənin yaradıcılığına müraciət olunmuşdur.

Açar sözlər: *mətnşünaslıq, tekstoloji tədqiq, Mirzə Nəsrullah Didə, XIX əsr Azərbaycan ədəbiyyatı*

Ədəbi – tənqidi fikrin formalaşdırdığı mətnşünaslığın günümüzədək davam edən uzun bir inkişaf yolu vardır. Qədim dini mətnlərin, qanunların, tarixi hadisələrin, fəlsəfi görüşlərin qələmə alındığı müxtəlif formalı əlyazma nüsxələrinin

araşdırılması, təhlili və yenidən tərtibi ilə məşğul olan mətnşünaslıq ədəbi irsin tədqiqi sahəsində də müəyyən metod və prinsiplərə malikdir. Orta əsrlər dövründə Yaxın və Orta Şərqdə, Yeni çağda isə Avropada formalaşan ədəbi cərəyanların bir-birilə uzlaşdığı və mükəmməl ədəbiyyat nümunələrinin meydana gəldiyi ölkələrdən biri də Azərbaycandır. Əsrlər boyu İslam ümmətinin bir parçası olan, son iki yüz ildə Qərbin ədəbi janrlarını da klassik ədəbi irsimizlə sintez edən və hər dövrün elmi-yaradıcılıq nümunələrini və ədəbi janrlarını özündə ehtiva edən Azərbaycan elmi və ədəbiyyatı yazı mədəniyyətinin erkən formalaşdığı və geniş inkişaf etdiyi bir ölkədir. Klassik mətnşünaslıqda ədəbi-tənqidi fikir və "şərhlər" əsasında tədqiq olunan Azərbaycanın yazılı abidələri, o cümlədən ədəbiyyat nümunələri XIX əsrdən etibarən bir sıra yeniliklər əsasında araşdırılmaqdadır.

Azərbaycan ədəbiyyatında XIX əsrin özünəməxsus yeri vardır. Maarifçilik hərəkatının geniş vüsət aldığı bu dövrdə Azərbaycan ədəbiyyatı da inkişaf etmiş və klassik Şərq ədəbi üslubu ilə Qərb ədəbi janrlarının paralel olaraq qələmə alındığı və bir-birilə uzlaşdığı bir ədəbiyyat mühiti meydana gəlmişdir. Ölkənin müxtəlif bölgələrində ədəbi məclislərin təşkili, nəşriyyatın formalaşması və inkişafı, Avropa dillərinin öyrənilməsi və s. amillər bu mühiti daha da münbitləşdirmişdir. Mətbəə üsulu ilə çapın ölkəmizdə yeni yayıldığı bu dövr iki fərqli yazı qaynağının mövcud olduğu unikal bir dövrdür. Katib nüsxələri vasitəsilə əl yazısı şəklində yayılan yazılı abidələr, o cümlədən ədəbiyyat nümunələri XIX əsrin II yarısından etibarən çap formasında da yayılmağa başladı. Müasir dövrdə elektron vasitələrlə qələmə alınan yazılarda belə texniki səhvlər varkən əlyazmalarda katib və xəttatlar tərəfindən meydana gələn yazı xətalarını, təhrifləri təsəvvür etmək çətin deyil. Hələ orta əsrlərdən etibarən elmin və yaradıcılığın gələcək nəsillərə müəllifindən olduğu kimi çatdırılmasında qeyrət göstərən bir sıra alimlərimiz və xəttatlarımız əsərləri müəllifin iradəsinə uyğun bir şəkildə bir neçə nüsxədə qələmə alaraq, kənar müdaxilələrdən qorumağa çalışmışlar. Azərbaycanın dəyərli mətnşünasları ötən əsrin əvvəllərindən etibarən klassik ədəbi irsimizin və elmi-yaradıcılıq nümunələrimizin olduğu kimi qorunub saxlanılması və gələcək nəsillərə təqdim olunması üçün böyük səylər göstərmişlər. Əsərlərin elmi-tənqidi mətnlərinin tərtibi zamanı müasir Azərbaycan mətnşünaslığının nəzəri və metodoloji prinsipləri hər dövrün özünəməxsus tələblərinə uyğun bir şəkildə tətbiq edilmişdir. Klassik mətnşünaslıqda əsərlərin şərhində istifadə olunan prinsiplər XIX əsrdə də qorunub saxlanılmışdır. Dünyanın görkəmli şərqşünaslarından biri XIX əsrin elm və yaradıcılıq dahisi Mirzə Kazım bəy (1802-1870) müxtəlif elm sahələri ilə yanaşı, filologiya sahəsində də dərin tədqiqatlar aparmışdır. Mirzə Kazım bəy qələmə aldığı əsərlərə yazdığı müqəddimələrdə elmi-tənqidi yanaşma metodlarından geniş istifadə etmiş, həm tekstoloji, həm də mətnin mövzusu ilə bağlı ətraflı şərhlər vermişdir. Onun 1845-ci ildə Kazanda nəşr olunan "Muxtəsərul-viqayə" əsərində, müsəlman hüquq sisteminin (fiqh) inkişaf parametrlərini ətraflı şəkildə şərh edərək, İslam hüququ ilə bağlı aparılmış araşdırmaları da burada əhatə etmişdir. Yaxud 1851-ci ildə Sankt-

Peterburqda ingilis dilində çap olunan "Derbendnameh or the History of Derbend" kitabında "Dərbəndnamə" əsərinin müəllifi haqqında bioqrafik məlumatlar da yer almaqdadır [1, 246].

Ümumiyyətlə, hər bir yazılı abidə nümunəsi incələndiyi zaman burada tekstoloji araşdırma ilə yanaşı, onun müəllifinin bioqrafik tədqiqatı da mühüm əhəmiyyətə malikdir. Mətnin məzmununun aydın olması üçün onun müəllifinin həyatı və yaşadığı dövrün elmi-ədəbi mühiti, sosial şəraiti də incələnməlidir. Müəllifin yaşadığı coğrafi ərazi, tarixi dövr, dini və milli mənsubiyyəti, həyat şəraiti onun yazdığı əsərə bilavasitə və ya dolayısı ilə təsir göstərir. Müəllifi olmayan əsərlərdə belə bu prinsiplərin böyük qismi əsas götürülərək, mətnin mövzusu araşdırıla bilər.

XIX əsr Azərbaycan ədəbiyyatı nümayəndələri içərisində klassik irsin davamçıları üstünlük təşkil edir. Əsərlərin bir çoxunun ərəb, fars və doğma Azərbaycan türkcəsində qələmə alınması, klassik ədəbi janrlardan və tərtib qaydalarından istifadə olunması, xəttatlıq irsinin davam etdirilməsi bu dövr üçün də səciyyəvidir. Lakin XIX yazılı ədəbiyyatımızda klassik poeziya nümunələrinə xass olan əlamətlərdə bir sıra yeniliklər də müşahidə olunmaqdadır. Bu yeniliklər forma və məzmun etibarilə müxtəlif çalarlara malikdir. Hollandiyanın Leyden Universitetinin kitabxanasında saxlanılan və Azərbaycan dilində ilk yaradıcılıq nümunəsi hesab olunan İzzəddin Həsənoğlunun "Apardı könlümü bir xoş qəməryüz canfəza dilbər" qəzəlindən XIX əsrədək keçən tarixi dövr ərzində dilimizin ədəbi normalarında rast gəlinən dəyişikliklər əsasən Şərq dilləri ilə uzlaşmış şəkildə baş verirdisə, XIX əsdən etibarən Azərbaycan dilinin Qərb dillərindən alınma sözlərlə interpretasiyası daha qabarıq nəzərə çarpmaqdadır [2, f183b-184a]. Rus dilinə keçən Avropa mənşəli sözlərin Şərq dillərinə və xüsusilə Azərbaycan türkcəsinə xass bir şəkildə yazılı ədəbiyyat nümunələrində istifadəsi unikal bir prosesdir. **"Şkola"** (məktəb) sözünün "uşqol", **"general"** sözünün "yanəral", **"naçalnik"** (rəis) sözünün "nəçarnik", **"soldat"** (əsgər) sözünün "saldat", **"uçitel"** (müəllim) sözünün "üçtel" və s. formada ədəbiyyatda istifadəsi, daha çox sadə xalq dilində rus mənşəli sözlərin ifadə şəklini oxucuya çatdırmaq məqsədi daşıyırdı. Burada Azərbaycan dilinin qorunub saxlanılması uğrunda maarifçi ziyalılarımızın bu və ya digər formada apardıqları mübarizəni qeyd etmək vacibdir. Təkcə Cəlil Məmmədquluzadənin 1920-ci ildə Şuşada tamamladığı "Anamın kitabı" adlı məhz milli-mənəvi sərvətimizin qorunması mövzusunda qələmə alınmış bir dram əsərini vurğulamaq kifayətdir.

XIX əsrin ədəbi mühitində əlyazma nüsxələrinin tekstoloji tədqiqi, mətnin məzmunun şərhi, müəllifi haqqında bioqrafik məlumatların verilməsi istiqamətində mətnşünaslığın metodoloji əsaslarının tətbiqi qeyd edilən amillərlə səciyyələnir. Kitab çapının genişlənməsi, dil üslubunda, ədəbi janrlarda baş verən dəyişikliklər, həmçinin, yazının məzmun və formasında mövcud olan yeniliklər demək olar ki, bütün sahələrəd özünü büruzə verməkdədir. XIX əsrdə Şuşa, Bakı, İrəvan, Gəncə, Lənkəran və başqa bölgələrimizdə formalaşan maarifçilik hərəkatı ədəbi mühitə xeyli

təsir göstərmişdir. Bu ədəbi mühitlərdən biri də XIX əsrin Şamaxı ədəbi mühitidir. Azərbaycan ədəbiyyatına Seyid Əzim Şirvani, Abbas Səhhət, Mirzə Ələkbər Sabir kimi nəhənglər qazandıran Şamaxı ədəbi mühitinin klassik irsə sadiq qalan görkəmli nümayəndələrindən biri də Mirzə Nəsrullah bəy Didədir. "Beytüs-səfa" ədəbi məclisinin üzvü olan Mirzə Nəsrullah bəy eyni zamanda öz qüvvə və imkanları daxilində inzibati və pedaqoji fəaliyyətlə də məşğul olmuşdur. XIX əsr Azərbaycan ədəbiyyatı nümunələrində mətnşünaslığın metodoloji əsaslarının tətbiqini məhz Mirzə Nəsrullah Didənin yaradıcılığı fonunda təqdim etməkdə məqsəd dövrün ədəbi mühitində yer alan ədiblərin fərdi yaradıcılıq keyfiyyətlərinə daha dərindən nəzər salmaqdır. Azərbaycanda ədəbi yaradıcılığa təsir göstərən XIX əsrdə yaşamış bir sıra şair və yazıçılarımızın həyat və fəaliyyəti dəfələrlə tədqiq edilmiş və incələnmişdir. Lakin bu ədiblər arasında yer alan elə şəxslər də vardır ki, subyektiv və obyektiv səbəblərdən onların yaradıcılığı geniş ölçüdə araşdırılmamışdır. Subyektiv səbəblərə Azərbaycanın son yüz ildəki mətnşünaslıq tarixində aparılan ilkin tədqiqatların zamanla ideoloji təbliğat sisteminə uyğun olaraq təkqütblü aparılmasını aid etmək olar. Görkəmli filoloqlar Salman Mümtaz, Firidun bəy Köçərli kimi zəhmətkeş alimlərimiz sayəsində geniş vüsət alan mətnşünaslıq elminin inkişafında Azərbaycan ədəbiyyatının bütün potensial və rəngarəngliyinin xalqımızın gələcək nəsilləri üçün aşkarlanıb qorunması ən vacib hədəf olmuşdur. Lakin SSRİ məkanına daxil olan xalqların milli-mənəvi irsinin komunist ideologiyasına xidmət etməsi mexanizmi bir çox sahələrdə olduğu kimi filologiya və onun tərkib hissəsi kimi mətnşünaslıqda da dərin iz buraxmışdır. Totalitar rejimin repressiyalarından möcüzə sayəsində sağ qalan maarifçi ziyalılarımız öz əqidələrindən dönməmiş, imkan düşdükcə böyük iradə və qətiyyətlə milli-mənəvi irsimizin qorunması istiqamətində mühüm addımlar atmışlar. Yüzlərlə, bəlkə də minlərlə qiymətli əlyazma nüsxələrimiz talanmış, dağıdılmış, başqa ölkələrə daşınmış və ya məhv edilmişdir. Obyektiv səbəb olaraq, qeyd edilən ədiblərin yaradıcılıq nümunələrinin az sayda qələmə alınmasını və ya günümüzədək az sayda gəlib çıxmasını göstərmək olar. Misal olaraq, adını çəkdiyimiz Mirzə Nəsrullah Didə yaradıcılığı haqqında məlumatlar kifayət qədər azdır. Seyid Əzim Şirvaninin təzkirəsində, Salman Mümtazın ədəbi nəşrlərində yer alan Mirzə Nəsrullah Didənin yaradıcılığının cəmi bir neçə əlyazma nüsxəsi günümüzədək gəlib çatmışdır. Bunlara ədibin "Kitabun-nəsayeh" və "Rövzətul-əthar" əsərlərini aid etmək olar. Hər iki əsərin mətnşünaslıq baxımından tədqiqi metodlarına qısaca müraciət edək.

Mirzə Nəsrullah bəyin "Kitabun-nəsayeh" əsəri əxlaqi-didaktik məzmunlu əsər olub, Azərbaycan türkcəsində qələmə alınmışdır [3, D-353]. Əsərin dil üslubunda klassik ədəbiyyat nümunələrinə uyğun bir şəkildə bəlağətli ərəb və fars ifadələrindən geniş şəkildə istifadə olunmuşdur. Əsər mətnşünaslıq baxımından unikal dəyərə malikdir, belə ki, özündə klassik üslubla yanaşı, bir sıra yenilikləri də ehtiva edir. Klassik kitab tərtibi ənənələrinin bütün tələblərinə dəqiqliklə riayət olunduğu əsərdə ilk yenilik elə kitabın dibaçə hissəsindən başlayır. Dibaçədə ənənəvi

olaraq, Allahın fəzilətlərindən söz açılır, daha sonra məsnəvi formasında iyirmi iki beytlik tərifnameyi-Xaliq yer alır. Daha sonra isə Rusiya imperatoru II Aleksandra (1855-1881) təşəkkür dilə gətirir və ona iyirmi iki beytlik qəsidə formasında mədhiyyə də təqdim edir. Rus çarının mədh edilməsi Azərbaycan ədəbiyyatşünaslığında artıq XIX əsrə xass bir yenilikdir. Hökmdarların mədh edilməsi kimi klassik ənənəni davam etdirən Didə eyni zamanda yaşadığı məmləkətdən və siyasi mühitdən dolayı ilk dəfə İslam dininə mənsub olmayan bir taxt-tac sahibini mədh etmişdir. Bunun XIX əsrə aid bir xüsusiyyət olmasının əsas səbəbi Azərbaycan torpağının əsrlərdən bəri ilk dəfə (Moğol istilasından bu yana) qeyri-müsəlman bir dövlətə tabe edilməsi idi.

"Kitabun-nəsayeh"in dibaçə hissəsindən sonra əsas məzmunu iki fəsil və "Xatimə" hissələrində verilmişdir. Hər iki fəsil simmetrik olaraq, 12 babdan ibarət olub, birinci fəsil insanda mövcud olan müsbət keyfiyyətlərə, ikinci fəsil isə mənfi xüsusiyyətlərə aid ayrı-ayrılıqda 12 əsas xarakterə həsr edilmişdir.Kitabın bu cür tərtibindəcə qədim Şərq fəlsəfəsinin ruhu hiss olunur; Xeyirlə Şərin mübarizəsinin insan qaynaqlı yönləri müxtəlif rəvayətlərlə təqdim edilir. Bu hekayələrin məzmun müxtəlifliyi, şeir nümunələri ilə zinətləndirilməsi müəllifin necə bir zəngin bilik və savada malik olduğunu aydın şəkildə büruzə verir. Qafiyəli nəsr - səc formasında yazılan bu əsərin hər babının sonunda mövzuya uyğun qitə verilir. Qəliz dil üslubunda yazılan bu kitabda müəllif izafət tərkibli söz birləşmələrindən geniş şəkildə istifadə etmişdir. Kitabda elə nadir mənşəli sözlər vardır ki, lüğətlərdə belə rast gəlmək çətindir. Kitabın yazı üslubuna nəzər salarkən müəllifin klassik ədiblərin əsərlərindən təsirləndiyi aydın şəkildə hiss olunur. Burada dahi Məhəmməd Füzulinin bədii nəsr nümunələrinə müraciət olunduğunu qeyd edə bilərik ki, bu da dövrün təhsil xüsusiyyətləri ilə bilavasitə bağlıdır. Belə ki, uzun müddət Şərqin, o cümlədən Azərbaycanın ibtidai təhsil ocaqlarında dahi Füzulinin yaradıcılığı dərslik kimi istifadə olunurdu. Bu da Didənin yaradıcılığına təsirsiz ötüşməyə bilməzdi. Seyid Əzim Şirvani yazır: ***"Kitabi-məqtəl" kim, cənab Seyyidüş-şühəda əleyhissəlamın[*] məsaibində tərtib qılmışdır, "Məsaibnameyi – məqtəl"i – Cövhəri və "Hədiqeyi –süəda" dər Molla Məhəmməd Bağdadidən kəm degildir."*** Seyid Əzim Şirvaninin bəhs etdiyi bu əsər Mirzə Nəsrullah Didənin "Rövzətul-əthar" əsəridir [4, 1974].

Əsər İslamın ən böyük şəxsiyyətlərindən biri, Kərbəla şəhidi, İslam Peyğəmbəri Həzrəti Məhəmmədin (ə.s.) sevimli nəvəsi İmam Hüseynin (ə.s.) başına gələn müsibətlərdən bəhs edir. Əsər fars dilində qələmə alınıb, ümumilikdə 12 fəsildən ibarətdir. Fəsillərin 12 olması da simvolik xarakter daşıyır və güman ki, müəllifin Əhli-Şiənin müqəddəs hesab etdiyi 12 imama işarəti məqsədilə bu cür tərtib olunmuşdur. Əsərin ilk beş fəsli Məhəmməd Peyğəmbər və onun Əhli-Beyti, qızı Fatimeyi-Zəhra, kürəkəni Həzrəti Əli, nəvələri Həzrəti Həsən və Həzrəti

[*] İslam Peyğəmbəri Məhəmməd (ə.s.) nəvəsi İmam Hüseyn (ə.s.) nəzərdə tutulur.

Hüseynə, onların həyatı ilə bağlı ümumi məlumatlara həsr olunmuşdur. Sonrakı fəsillərdə Kərbəla faciəsi ətrafında baş verən hadisələrdən geniş şəkildə bəhs edilmişdir. Əsər nəsrlə yazılmış və xeyli sayda qəsidələrlə zənginləşdirilmişdir. Əsərdə ərəbcə şeir nümunələri də yer almaqdadır. "Rövzətul-əthar" əsərinin sonunda kitabın h.1240-cı ildə (m.1845) yazıldığı qeyd edilmişdir. Kitabın əlyazma nüsxəsinin kitaba aid hissəsi 216 səhifədən ibarətdir və müasir dövrə yaxın zamanda qurşun qələmlə paqinasiya olunmuşdur.

Ümumilikdə XIX əsr Azərbaycan ədəbiyyatı klassik irsimizin yaşaması və günümüzdə ətraflı şəkildə tədqiqində bir növ körpü rolunu oynamaqdadır. Çünki Mirzə Nəsrullah Didənin timsalında XIX əsr Azərbaycan ədibləri klassik ədəbi üslubunun çalarlarını daşıyan əsərlərin bəlkə də son keçid dövrü nümayəndələridirlər. Bu üslubda əsərlərin XX əsrdə də qələmə alındığı heç kəsdə şübhə doğurmur və günümüzdə olduğu kimi gələcəkdə də bu üsluba müraciət olunacağı ilə bağlı ümidimiz vardır. Lakin mətnşünaslıq etibarilə bütövlükdə XIX əsr - Azərbaycan ədəbiyyatında böyük bir ənənəvi dövrün sonu, yeni bir dövrün başlanğıcıdır.

N. Nuriyev

APPLICATION OF METHODOLOGICAL FOUNDATIONS OF TEXTOLOGY ON THE EXAMPLE OF AZERBAIJANI LITERATURE OF THE XIX CENTURY

SUMMARY

Textual criticism is a branch of philology that studies and reconstructs the history and fate of written and literary works for research, commentary, publications, and other purposes. The main task of textual criticism is to obtain the correct text of the studied monument of writing and to understand the general context of the text. Speaking about the methods of text research in modern times, it is important to look at related areas of science - psycholinguistics, semiotics and hermeneutics. The main points in understanding the text are: to give an initial idea of the content of the text, to identify unknown and incomprehensible words, to give a general idea of the content of the text, to clarify the meaning of terms and to combine individual fragments of the text, this is a correction of the general hypothesis and, finally, acceptance, i.e. formation of a common opinion. Observation, scientific and artistic terms, subjective view, social life of the period to which the text refers, etc. Concepts are components of the text, and understanding the text means the formation of its semantic structure. The semantic structure of the text also includes the language style of the text, the scientific or artistic field to which the text belongs. Textual criticism methods do not consist of a specific form or scheme and can combine many styles. The main methods are the reading and analysis of scientific literature related to the field of the manuscript, the study of textbooks related to a certain field, the study of styles. The article contains considerations on the application of the methodological

foundations of textual criticism in Azerbaijani literature of the 19th century. In the article, we refer to the works of Mirza Nasrullah Dide as an example of literary writing of the 19th century.

Н. Нуриев

ПРИМЕНЕНИЕ МЕТОДОЛОГИЧЕСКИХ ОСНОВ ТЕКСТОЛОГИИ НА ПРИМЕРЕ АЗЕРБАЙДЖАНСКОЙ ЛИТЕРАТУРЫ XIX ВЕКА

РЕЗЮМЕ

Текстология — это область филологии, изучающая и восстанавливающая историю и судьбу письменных и литературных произведений для исследований, комментариев, публикаций и других целей. Основная задача текстологии состоит в том, чтобы получить правильный текст изучаемого памятника письменности и понять общий контекст текста. Говоря о методах исследования текста в Новое время, важно смотреть на смежные области науки - психолингвистику, семиотику и герменевтику. Основными моментами в понимании текста являются: дать первоначальное представление о содержании текста, выявить неизвестные и непонятные слова, дать общее представление о содержании текста, уточнить значение терминов и объединение отдельных фрагментов текста, это исправление общей гипотезы и, наконец, принятие, т. е. формирование, общего мнения. Наблюдение, научные и художественные термины, субъективный взгляд, общественная жизнь периода, к которому относится текст и т. д. Понятия являются компонентами текста, а осмысление текста означает формирование его смысловой структуры. В смысловую структуру текста входит также языковой стиль текста, научная или художественная область, к которой относится текст. Методы текстологии не состоят из определенной формы или схемы и могут сочетать в себе множество стилей. Основными методами являются чтение и анализ научной литературы, относящейся к области рукописи, изучение учебников, относящихся к определенной области, исследование стилей. В статье содержатся соображения о применении методологических основ текстологии в азербайджанской литературе XIX века. В статье мы обращаемся к произведениям Мирзы Насруллаха Диде как к образцу литературного письма XIX века.

ƏDƏBİYYAT

1. Mirza A. Kazem-Beg, Derbend-nameh or the History of Derbend, translated from a select turkish version by Mirza Kazem-Beg, St. Petersburg, 1851, 246 s.
2. "Kitabi-Gülüstani bil-Türki", Universiteit Leiden, Digital Collection, f183b-184a, https://scharrelaar-p3.leidenuniv.nl/view/item/291213
3. Mirzə Nəsrullah Didə, "Kitabun-nəsayeh", AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu, şifrə: D-353/2973
4. Seyid Əzim Şirvani. Əsərləri, üç cilddə, üçüncü cild, Bakı, "Elm", 1974

Redaksiyaya daxil olma tarixi: 18.05.2022
Çapa qəbul olunma tarixi: 07.06.2022
Rəyçi: AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor Möhsün Nağısoylu tərəfindən çapa tövsiyə olunmuşdur

BAXŞƏLIYEVA AYTƏN ƏHƏD QIZI
ADPU-
Üzeyir Hacıbəyli küçəsi, 68
Xarici Dillər Mərkəzinin Müəllimi
mammadli.aytan@mail.ru

DEVID MITÇELİN HEKAYƏ YARADICILIĞI

XÜLASƏ

Devid Mitçel qısa hekayə yazarı kimi oxucuların qəlbinə yol tapa bilmişdir. Devid Mitçel ədəbi etalonu böyük bir epoxanın zirvəsi, nəticəsi və yekunudur. Azərbaycan ədəbiyyatşünaslığında da insan və dünya məsələləri yeni metodoloji yanaşma şəraitində xüsusi əhəmiyyət kəsb edir və bizim bu mənada Devid Mitçelə müraciət etməyimiz onun Okinava, Monqoliya, Yaponiyadan tutmuş bütün dünyada artıq məşhur olan 1999-cu ildə Britaniyanın ən yaxşı kitab mükafatına layiq görülmüş "Ədəbi kabus" əsəri, 2003-cü ildə isə ən yaxşı cavan nasir adına layiq görülməsi, 2007-ci ildə isə Taym jurnalının apardığı tədqiqatlara əsasən dünyanın 100 ən nüfuzlu insan siyahısına adı daxil olunan roman, qisa hekayə, libretto yazarı olması ilə şərtlənir. Devid Mitçel "Etiraflar","Xarakter inkişafı","Yanvar adamı", "Nəhəng siçovul","Sadəlövhlər burada", "Bağban" və s. maraqlı qısa hekayələrini qələmə alıb. Məqalədə yazarın yaradıcılığında əsas yer tutan hekayələrinə toxunulub, bu hekayələrin məzmun, ideya-mövzu xüsusiyyətləri nöqteyi nəzərindən təhlili aparılıb. Gəldiyimiz qənaət ondan ibarətdir ki, bu hekayələrdə çağdaş dövrün əsas sosial-mənəvi məsələlərinə toxunulub. Məqalə Devid Mitçelin hekayələrindən bəhs edir. Devid Mitçel bir hekayə yazıçısı kimi oxucuların qəlbinə yol tapmağı bacarıb. Devid Mitçelin hekayələrinin süjet xülasəsi olduqca maraqlıdır. Devid Mitçel hekayələr yaratmaqda o qədər mahirdir ki, bütün əsərin məzmununu və formasını özündə birləşdirir. Müəllif Devid Mitçel hekayədəki problemi ifşa etməyi və oxucuya məharətlə müraciət etməyi bacaran yazıçılardan biridir. Devid Mitçelin hekayələrində əhatə etdiyi mövzular zəmanəmizin reallıqları haqqındadır. Onun öz sehrli qələmi ilə yaratdığı hekayələr, sadəcə, zəmanəmizin güzgüsüdür. Əsrimizin reallıqlarını aydın şəkildə ortaya qoyur. Bu səbəbdən onun əsərləri böyük dəyərə malikdir.

Açar sözlər: *Ədəbiyyat, roman, Devid Mitçel, Buludlu Atlas, Ədəbi kabus, qısa hekayə*

Giriş. Devid Mitçelin maraqlı, oxunaqlı hekayələrindən biri "Yanvar adamı" ("January man", 2003) adlanır. Burada söhbət kəkələmə qüsuru olan Ceyson Teylordan gedir. Onun bacısı Culiya Keyt ilə dostluq edir, bir yerdə dərslərini hazırlayırlar. Ceysonun dostunun adı isə Morondur. O, dostu ilə göldə buz üstündə sürüşür. Bu hekayədə bir uşağın cəmiyyətdə olan problemi, kəkələmə qüsurundan, ətrafdakıların ona laqeyd münasibəti, onu öz yaşıdlarının saymaması, etinasız

münasibəti, dostlarının onunla oynamaması, cəmiyyətdə yer tapa bilməməsi problemi əks olunur. Hətta usağın valideynləri də onun bu zamanında ona dəstək olmurlar. Beləki atasına zəng gəlir. Məlum olur ki, zəng edən atasının sevgilisi Sintiadır. Onların həyatı sanki alt-üst olur. Ceyson əslində yazıçının, Devid Mitçelin özünün obrazıdır. Bu hekayədə gərgin ailə münasibətləri, ailə münasibətlərindən doğan problemlər, körpə uşağın başına gələnlər və s. kimi hadisələr cərəyan edir.

Devid Mitçelin "Yanvar adamı" adlı qısa hekayəsi 2003-cü ildə Britaniyalı gənc müəlliflərin əsərləri ilə oxucularını tanış etmək fürsəti tapdığı "Gənc İngilis roman yazarlarının ən yaxşısı 3, Granta cild 81" adlı qısa hekayələr toplusunda nəşr olunub." Bu hekayələr toplusunda müxtəlif hekayələr, hətta Nik Hornbinin "Mələklə Danışma" kolleksiyasından hekayələr tapa bilərik - müəlliflər Salman Rüşdidən Kolin Fört və ya Zadi Smitə qədər sıralanır.

Qeyd edək ki, bir çox digər qısa hekayələrdə olduğu kimi, ilk cümlələr çox vacib olur və hekayənin inkişafına və sonuna bir işarə, eyham olur. "Bu günə qədər baş verən ən pis şey, anamın məni Milad ağacını endirməyimə səbəb olmasıdır"-bu fikir oxucunu heç bir giriş, müqəddimə olmadan səhnəyə itələyir, oxucunu sakitcə istehzalı gülümsəməyə məcbur edir və sanki onu gənc bir oğlanın həyatında demək olar ki əhəmiyyətsiz bir hadisə barəsində gülməli bir hekayə gözləyir.

Birinci abzas eyni zamanda protaqonist qəhrəman olan birinci şəxs narrator Ceyson və ailəsinin tərkibi barədə məlumat verir. Hekayənin Miladdan sonra və 12 yanvar tarixindən əvvəl təyin olunmamış bir tarixdə baş verdiyini ("On iki yanvarda olacaq doğum günüm mütləq ləğv ediləcək") və 1980-cı illərdə təyin olunmamış bir ildə baş verdiyi məlum olur. 1969-cu ildə anadan olmuş Devid Mitçel, 1980-ci illərdə də gənc bir oğlan idi və bəlkə də hekayənin quruluşunu və protaqonist qəhrəmanın sosial mənşəyini inkişaf etdirməyə çalışarkən öz vəziyyətini, dinlədiyi orkestr qrupları (İnsan Liqası) və filmləri (Bədən Oğrularının İstilası, Bir gün sonra, Supermen II), o və valideynlərinin izlədiyi televizordakı şouları (Popların Üstü, Həyat budur) xatırlayır. (1,58)

Ceyson üçün "indiyə qədər yaşanan ən pis şey" hər zaman Milad ağacının üstündə olan və məhv etdiyi Venedikdən gələn antik mələyin qəzasıdır, çünki yıxıldı və üzərinə basdı. Birinci abzas Ceysonun qırılmış mələyi necə düzəltmək və ya dəyişdirmək və bunu valideynlərindən necə gizli saxlamağa dair düşüncələrindən bəhs edir. Ceyson, yaşına görə çox ağıllı və dərin düşüncəli bir oğlan kimi görünür ("Böyüklər bir sual verəndə ...", "Təşəkkür məktubları yazmaq ikiqat riyaziyyatdan daha pisdir. Bütün hədiyyələri geri göndərmək istərdim.") və onun əhval-ruhiyyəsi yaxşıdır - əks təqdirdə qırıq Milad ağacı bəzəyi kimi kiçik problemlər barədə o qədər düşünməzdi.

İkinci abzasda Ceyson oxuyaraq özünü Mələk qəzasından yayındırmağa çalışır, ancaq atasının ofisində olan telefon danışığı onu narahat edir. Oxucu Ceysonun atasının çox vaxt evdə olmadığını, çünki bir supermarket üçün ərazi nümayəndəsi olduğunu və Ceysonun ofisə girməsinə icazə verilmədiyini bilir. İşlər

ilk dəfə bir az sirli hiss olunmağa başlayır. Ceysonun atası telesekreteri açmağı unudur, bu səbəbdən telefon uzun dəqiqə çalır və Ceyson dözə bilmir, cavab verir. Dəstəyin qarşı tərəfindəki insan yalnız bir qədər nəfəs alır və Ceyson bir körpənin ağladığını eşidə bilir, ancaq qarşı tərəf (bir qadın - "... özünü kəsmiş kimi" ... körpəsi ağladı ... ") heç nə demir və telefonu bağlayır. Əsəri oxuduğumuz zaman Ceysonun atasının sirrinin, bəlkə də bir qadınla və bəlkə də onunla bir körpə ilə əlaqəsi olduğunu düşünə bilərik. Bu, ofisə girmək üçün ciddi qadağanın səbəbi ola bilər. Telefonu yerə qoyduqdan sonra Ceyson atasının qəzəbi ilə qarşılaşır və bunu edərkən bütün hekayə baxımından qabaqcadan ürəyinə daman düşüncəni, fikri dilə gətirir: "Heç kim hətta daha pis bir şey baş versəydi belə, dəyərli Mələyin itkin düşdüyünü görmürdü. .. "

Müəllif Milad ağacı üstündəki bəzəkli mələk oyuncağının qırılması ilə ailə daxili faciələrin baş verməsinə işarə verir, oyuncaq antik mələyin qırılması ilə Ceysonun atasının ailəsinə xəyanətini və bunun qəlb qırıqlığına səbəb olduğunu, oyuncağın qırılması ilə sanki qırılmış qəlbi bərpa etməyin mümkün olmadığını göstərmək istəyir, həmçinin Ceysonun onu gizli saxlamaq cəhdini təsvir etməklə heç bir yalanın gizli qala bilməyəcəyini vurğulayır.

Növbəti paraqrafda Ceysonun dostu Moron onu meşədəki donmuş gölməçəyə ziyarət etmək üçün gətirir. Ceyson Moronla gedir, ancaq anasına demir, çünki onun getməsinə icazə verməyəcəyini çox yaxşı bilir. Paraqrafın qalan hissəsi bir şüur axını kimi izah edilir, Ceysonun düşüncə dünyası, problemləri və onun yaşında gənc bir oğlanın ağlında olan şeylər haqqında çox ətraflı bir fikir çatdırılır. Ceyson, "qara geyinirsənsə, sanki sərt olduğunu və ya velosipedçi və ya başqa bir şey olduğunu düşünürsən" düşüncəsinə inanır və sinif yoldaşlarının adlarını düşünür ("... adlar sadə deyil"). Əsərdə kişi və ya qadın olmasından asılı olmayaraq, Ceyson ilə əlaqə qura bilirik, çünki onun problemləri yetkinlik yaşındakı hər kəsin əziyyət çəkdiyi ümumi problemlərdir, məsələn, Ceyson böyük bacısı Culiyanı sevmir, cinsiyyət və şəxsiyyətinə dair hələ də əmin deyil, o, 'şair' dir, lakin söhbətlər onu bunu gizli saxlamağa məcbur edir, yaşlı insanların daha xoşbəxt olduqlarına inanır.

Dördüncü paraqrafın birinci hissəsi çox qısa bir şəkildə ümumiləşdirilə bilər. Ceyson, Moron və digər oğlanlar buzda oyun oynayırlar, hər kəs rütbəsinin onu məcbur etdiyi kimi davranır və Ceyson sanki qrupundakı tək qıza Dəun Mədna bir az aşiq görünür. Bu, Mitçelin öz təcrübələrindən istifadə etdiyi bir mənzərə də ola bilər: "Mən liderlərdən biri deyildim və qurbanlardan biri də deyildim. Arada qalan uşaqlardan biri idim, əsla olduqca cahil olmamaq üçün gözdən, nüfuzdan düşməməyə həmişə diqqət yetirməliydim."

Birinci paraqrafdakı qırılan mələk yenidən ortaya çıxır. "Cibimdəki bir şey MakKayın dizinin altında əzildi. Bu, toz halına gələn dəyərli Mələk parçaları idi." Oyundan sonra Ceyson ayaq yoluna getmək məcburiyyətində qalır və başqa oğlanların olmadığı bir yer tapmaq üçün kol hasarından, çəpərdən keçir ("Mən heç oğlan olmayan yerdə olmağı xoşlayıram.") - deyəsən ərazini bilir, "kimsəsiz kottecə"

doğru düz yeriyir. Görünən odur ki, Ceyson tez-tez kimsəsiz kottecə baş çəkir, onu çox yaxşı təsvir edə bilər və tamamilə əmindir ki, tərk edilmiş məkandır ("... heç vaxt tüstü olmur." "... boş kottec heç bir şey vermir.)"

Devid Mitçelin "Daxili iş" ("An inside job", 2009) adlanan hekayəsində Yuboy ilə Bruksinin oğurluğundan danışılır. Bu dövrün özünəməxsus xüsusiyyəti olan oğurluq, kimsənin evinə girib yarmaq, yığdığı pulun hesabına qızıl saatlar almaq, eyş-işrətdə yaşamaq və s. problemlər əks olunur. Yazıçı hekayəni yazmaqla bu dövrdə insanların şərəfsiz yaşadıqlarını təsvir edir.

Devid Mitçelin müxtəlif fərqli üslub, forma, quruluş və mövzulara sahib mükəmməl dəsti-xətti olan yazıçı olduğu aydın hiss olunur. Onun qələmə aldığı "Daxili iş" hekayəsi 900 kəlmədən bir qədər çox, uzun olan bir hekayədir. Bu hekayənin bu qədər qısa bir yerə yığılması onun bacarığının göstəricisi idi.

Yazıçının digər hekayəsi "Nəhəng siçovul"dur ("The massive rat", 2009). Bu hissədə də ailə problemi əks olunur. Beləki burada uşağın adı Fredi, anasının adı Lorna, atasının adı isə Nikdir. Lorna və Nik yola getmirlər. Hətta burada qısqanclıq problemi də əks olunur. Beləki Nik öz yoldaşını Patrik Briman adlı şəxsə qısqanır. Bu hekayədə qısqanclıq zəminində yaranmış ailə problemi təsvir edilir. Beləki bir gün Lorna Niki çağırır. Sobaya siçan düşdüyünü deyir və Nikdən onu çıxartmasını istəyir. Fredinin siçanlara qarşı allergiyasının olduğunu bildirir. Onlar bir yerdə siçanı çıxartmağa çalışırlar. Sanki bu siçan onları yaxınlaşdırır. Hətta bu səhnədə Nik bu siçanın sobadan çıxmamasını istəyirdi, çünki bu siçan onları mehribanlaşdırmışdı, onları bir-birinə yaxınlaşdırmışdı. Yazıçı sican kimi kiçik heyvanı hekayəyə daxil etməklə hekayəyə kalorit verir, əslində siçan hekayəyə rəng qatan köməkçi element olsa da, burada bir ailənin, bir cütlüyün uşağı olmasına baxmayaraq ər-arvad arasındakı problemlər, qısqanclığın ailədə mənfi nəticələri əks olunur.

Müəllif siçan kimi köməkçi elementi əsərdə təsvir etməklə ailədə mehribançılığın, inamın, etibarın, bir-birinə hörmətin, övlad üçün hər iki valideynin birliyinin vacib olduğunu vurğulamaq istəyir. (2,33)

Devid Mitçelin növbəti hekayəsi "Xarakter inkişafı" ("Character development", 2009) diqqəti cəlb edir. Bu hekayə insanın hüquqları haqqında sanki bir bəyannamədir. Bu universal insan haqları bəyannaməsi "Buludlu atlas" ın müəllifi olan Devid Mitçelin, hətta nəinki Devid Mitçel, həmçinin Kennedi, Ceyms Mik, Marina Levika, Coys Karol Ots, Volter Mosli, Ariel Dorfman, Amit Çaudhuri, Petina Qappah, Ali Smit, Keyt Atkinson, Banana Yoşimoto, Helen Dunmor, Paulo Koelyo və Çimanda Nqozi Adiçinin yazdığı kiçik hekayələrində cəmlənmişdi.

"Xarakter inkişafı" adlı hekayədə isə Serjant Baks və Tosləndhəkim Şaribaya işgəncələr verirlər. Çünki Şariba bir gün polisin öldürüldüyünün şahidi olur. Şariba qanlı vəziyyətdə gətirilən polisi xilas edə bilmir. Yaralı polis son anda onu öldürən, öz qatili Devid Bekhamın adını çəkir. Baş verən hadisəni isə zabit nəql edir. Zabit sonda bu qanunsuzluqları ictimaiyyətə çatdırmaq istəyir. Polislər törətdikləri cinayət, etdikləri qanunsuzluqlar açılmasın deyə, Tosləndvə Serjant Baks Şaribanı

öldürmək fikrinə düşürlər, nəticədə onu qətlə yetirirlər. Guya Şariba qaçan zaman arxadan onu vururlar. Özləri onu sərbəst buraxır və arxadan atəş açaraq öldürürlər. Bu zabitlə həkim Şariba mehriban söhbət edirlər, baxmayaraq ki zabit böyüklərdən, Baks və Tosłənddən qorxurdu. Hətta zabit həkimə içməyə su da verir. Müəllif zabitin timsalında insani keyfiyyətləri və Şaribanın qoçaqlığı, mərdliyini göstərərək, Şaribanın ailəsi ilə hədə-qorxu gəlmələrinə rağmən öz sözündən dönmədiyini vurğulayır. Şaribanın cəsarətli addımına görə müəllif onu alqışlayır. Burada müəllif Serjant Baks və Tosłəndin timsalında güc qüvvələrinin qanunsuzluqları, qanuna itaət etməmələri, insanlara hədə-qorxu gələrək, onları qorxudaraq hücrəyə salmaları, öldürmələri və s. qanunsuzluqları əks etdirir.

Xüsusi ordunun həll olunmayan əxlaqi, mənəvi dilemması haqqında qısa hekayə olan "Xarakter inkişafı" ("Character development", 2009) David Mitçelin İnsan Hüquqları Ümumdünya Bəyannaməsinin 60 ilini qeyd edən Beynəlxalq Amnistiya antologiyasına, Azadlığa töhfəsidir. (3, 478)

"Dinomənt" ("Denouement", 2007) adlı hekayədə Qraham Niksondan söhbət gedir. Nikson öz ailəsi ilə, yoldaşı Ceni və oğlu Tom ilə birlikdə aeroporta gələrək Dinomənt adlanan təyyarəyə miniblər. Amma burada Qraham Niksonun təxəyyülü təsvir edilir. O təxəyyülündə canlandırdığını real həyata tətbiq etmək istəyir. Guya burada fundamentalist terrorçu var və o, təyyarəni partlatmaq istəyir. Yazıçı burada sadə insan təxəyyülünü, insanın fikrində olanları necə real həyata tətbiq etməyini və sanki bunun bir xəstəlik olmasını göstərir.

"Yer kürəsi Teyloru çağırır" ("Earth calling Taylor", 2010) adlı qısa hekayənin qəhrəmanı, protaqonist Ryan Teylorun maliyyə sektorunda çalışması təəccüblü deyil. Hekayə Ryanın ümidlə portfel meneceri vəzifəsinə yüksəliş edib-etmədiyini eşitmək üçün gözləməsi ilə başlayır.

Səhnə daha sonra xəstəxanada cərəyan edir, burada Ryan anası və bacı, qardaşı ilə birlikdə zökəmdən sağalan atasını ziyarət edir. Xoşbəxt və bir-birinə dayaq bir ailə təsiri bağışlayır, onlar yataq ətrafında oturub, açıq-aşkar "sağalan" ata ilə Söz oyunu üstündə dalaşırlar. Qardaşı Ceyson, ("yeganə" Ryan deyir) bir nitq terapisti və bacısı insan hüquqları sahəsində müvəffəqiyyətli, uğurlu bir vəkildir, Ryan isə bildiyimiz kimi, daha çox mənfəətpərəst, özünə xidmət edən sənət spektrında işləyir.

Və o, əsəbidir, buna görə də onları Bləkberi telefonundakı mesajları yoxlamaq üçün boş bir bəhanə ilə tərk edir. Çox cəlbedici bir xarakter deyil - liftdəki bir tibb bacısı haqqında açıqca və tövbə etmədən xəyallar qurur, sakitləşməsi üçün bir az sərt içki içərkən bir az kokain qəbul etməyi arzulayır, insanlar haqqında səhv, mənfi düşüncələrə sahib olur, gözlənilən mesaj gəlmədiyi zaman hirslənir və s.

Əsas narrativ arasında müdiri Kalvin Hasavey tərəfindən "kasad" (sözün über-kapitalist mənasında) adlandırılır və Ryanın özünün ulduz olduğu, hardasa bir az istehzaçı, bir az üçüncü şəxs kimi mövzulara dair intonasiyalarına rast gəlmək olur:

Camaat vəhşiləşdi. Kral Ryan məsh olunmuşdur. Olduqca qəhvəyi, eh? BləkBeri mesajlarını oxuduqda və yalnız tamamlanmamış biri qalıb, hələ də ümid etdiyi mesajını almamışdır, "birdən son xoş məqsədim üçün ölə bilərəm " deyə düşünür. Qeyd edək ki, Ryanımız heç də pis deyil. Nisbətən kiçik narahatlıqlarına qarşı qoyulan personajdır, həyatlarında əsl səfalətə düçar olan isə bəzi personajlardır. Əslində xəstəxanadakı yaşlı, xəstə bir qadına, digərlərinə qarşı empati, canyananlıq canlandıra biləcəyini göstərir. "Mən bir gün onun olacağam" deyə düşünür və ona mehribanlıqla cavab verir. Lakin, ona "çox mehriban bir gənc" dedikdə, bunun iş yerində eşitdiyi "ittiham" olmadığını düşünür.

Qərar rəsmi olaraq açıq olsa da, bir qədər proqnozlaşdırıla bilər və buna baxmayaraq, Mitçelin hekayəyə yeritdiyi müxtəlif gizli sətiraltı meyllər səbəbindən, oxuduqdan sonra düşünməyə davam etmək istəyirsən. Onun dəyərlərinin çox əyri olduğunu düşünsək belə Mitçel Ryanı biraz tamamlayaraq, sonunda ona bir az rəğbət hiss etməyə təşviq edir. İroniya ondadır ki, müəllif hekayənin Yeni il ərəfəsində baş verməsini göstərməklə görəsən Ryan nə olursa olsun yeni başlanğıc edərək, yeni həyata qədəm qoyub qoymamasını sual altına salaraq cavabı bizim ixtiyarımıza buraxır.

Hekayə Ryan Teylorun müdiri Kalvin Hasavey ilə əlaqədar planlarının alt-üst olması, Yeni il ərəfəsində ümidsiz şəkildə istədiyi reklamı təsdiqləyən bütün vacib e-poçtları gözlədiyi üçün yaşadığı məyusluqlar üzərində cəmlənir.

Təsadüfən bir Milad ağacı ilə atasının başına gələnlərdən sonra özünü bir xəstəxanada tapır və maraqlı Yeni ili qeyd etmək üçün şampan tapmağa çalışarkən, fərqli insanlarla və ona təsir göstərən xəstələrlə qarşılaşır.

Əsərdə təsvir edilən səhnələr arasında Teylorun xəstəxana damında metal protez əli olan kapüşonlu bir adamla qarşılaşması və Teylorun gözləri ilə gəzdiyi liftdəki iki tibb bacısından həqiqət olduğunu sübut etmək üçün araşdırdığı səhnələr yer alır.

Müəllif həmçinin əsərdə Ryanın palatada yaşlı qadınla söhbət səhnəsini təsvir etməklə yaşlı valideynləri unutmamağı, hər zaman qeydinə qalmağı gənc nəslə məsləhət görür.

“Nəyi bilmirsənsə onu istəyirsən” (“What you do not know you want”, 2004) adlı hekayədə qətl hadisəsi üzrə aparılan tətqiqat məsələsindən söhbət gedir.

Hekayə, görkəmli yapon aktyoru, şair, dramaturq və kinorejissor Yukio Mişimanın seppuku (hara-kiri adlanan bağırsaq, içalatını çıxarma ritual mərasimi ilə sui-qəsd) tərəfindən ölümü, qeyri-real hadisələrdən götürülmüş hadisə ətrafında cərəyan edir. Adını heç vaxt bilmədiyimiz hekayənin narratoru, izahatçısı ezoterik və ekzotik antik əşyaların satıcısıdır və Mişimanın özünü öldürmək üçün istifadə etdiyi xəncərin izindədir. Haqlı olaraq düzgün müştəriyə çox baha başa gələcəyini hesab edir. Ancaq hekayə açıldıqdan sonra narrator Havayda bir oteldə olur və otelin damından atlayaraq özünü öldürən iş ortağının ölümü ilə bağlı ipuçları axtarır.

Satınalınan xəncər də itkin düşür. Onun xəncəri axtarması və bu axtarışın nəticəsi hekayənin qalan hissəsidir.

Narratorun hər kəs üçün ləqəbləri var: iş ortağı "Vultur"(quzğun), nişanlısı (əvvəlcə puluna görə evlənməyi planlaşdırdığı) "Bülbül", Vulturun (quzğunun) öldüyü otelin sahibi isə "Canavar adam" dır. Başqa bir obraz, sahibinin qardaşı qızı olduğu iddia edilən gənc bir Çinli qız Vey adlanır və bu, onun əsl adıdır. Narratorun Vey ilə bir neçə münaqişəli görüşü olur və bir-birləri ilə qarşılıqlı əlaqələrində təhlükə altında olduğunu hiss edirik, amma bunun nə olduğunu tam olaraq başa düşməyəcəyik - çox gec olana qədər.

Bütün hekayə boyunca sanki zorakı, həssaslıqdan məhrum, tərbiyəedici hiss var, hansı ki, narrator xəncəri cox kasıb, çirkli və təhlükəli yerdə tapir. Burada narratorun otağından bir neçə otaq aşağıda birinin hər gecə qışqırığı əks olunur və son dərəcə atmosferli və narahat bir hekayə üçün əlamətlər var. Yeri gəlmişkən, hekayənin başlığı narratorun vizit kartlarındakı ifadədən gəlir.[4, 28]

Nəticə.Tədqiqat işinin "Devid Mitçelin qısa hekayələrinin ideya-mövzu xüsusiyyətləri" adlı birinci fəslin ikinci paraqrafında yazarın yaradıcılığında əsas yer tutan hekayələrinə toxunulub, bu hekayələrin məzmun, ideya-mövzu xüsusiyyətləri nöqteyi nəzərindən təhlili aparılıb. Gəldiyimiz qənaət ondan ibarətdir ki, bu hekayələrdə çağdaş dövrün əsas sosial-mənəvi məsələlərinə toxunulub.

Ədəbiyyat

1. Black Swan Green, random house trade paperbacks, New York 296 pages

2. http://dominicmylroie.blogspot.com/2011/01/financial-times-editorial-earth-calling.html

3. http://dominicmylroie.blogspot.com/2011/01/financial-times-editorial-earth-calling.html

4. https://granta.com/the-january-man/

АЙТЕН БАХШАЛИЕВА АХАД

РАССКАЗ ДЭВИДА МИТЧЕЛЛА

РЕЗЮМЕ

Тезис посвящена рассказов Дэвида Митчелла. Первый роман Митчелла «Литературный призрак» получила премию Джона Луэллина-Риса. Две его следующие работы «Сон № 9» (2001 год) и «Облачный атлас» (2004 год) были включены в шортлист Букеровской премии. В 2003 году Митчелл вошёл в список лучших молодых британских писателей, по версии журнала «Granta». Его следующий роман «Лужок черного лебедя» был опубликован в 2006 году и вошёл в лонглист Букеровской премии. Дэвид Митчелл, как автор коротких рассказов, сумел поразить сердца читателей. Дэвид Митчелл написал интересные рассказы, такие как «Благодарности», «Развитие персонажа»,

«Январь», «Массивная крыса», «Маггинс здесь», «Садовник» и другие. Краткое содержание сюжета рассказов Дэвида Митчелла довольно интересно. Дэвид Митчелл настолько искусен в создании историй, что объединяет содержание и форму всей работы. Автор Дэвид Митчелл - один из тех писателей, который способен рассказать о проблеме и умело обратиться к читателю. Темы, которые Дэвид Митчелл освещает в своих рассказах, касаются реалий нашего времени. Истории, которые он создал своей собственной волшебной ручкой, являются лишь зеркалом нашего времени. Это ясно раскрывает реалии нашего века. По этой причине его работы имеют большое значение.
Ключевые слова: *Литература, роман, Дэвид Митчелл, Облачный атлас, Литературный призрак, рассказ*

AYTAN BAKHSHALIYEVA AHAD

DAVID MITCHELL'S SHORT STORIES

SUMMARY

The thesis deals with the stories of David Mitchell. David Mitchell is an English novelist and screenwriter. He has written nine novels, two of which, number9dream and Cloud Atlas, were shortlisted for the Booker Prize. Mitchell's first novel, Ghostwritten won the John Llewellyn Rhys Prize and was shortlisted for the Guardian First Book Award. His two subsequent novels, number9dream and Cloud Atlas, were both shortlisted for the Man Booker Prize. In 2003, he was selected as one of Granta's Best of Young British Novelists. David Mitchell, as a short story writer, has managed to reach the hearts of readers. David Mitchell wrote interesting short stories such as "Acknowledgements," "Character Development," "January Man," "The Massive Rat," "Muggins Here," "The Gardener," and others. The plot summary of David Mitchell's stories is quite interesting. David Mitchell is so adept at making stories that he combines the content and form of the whole work. Author David Mitchell is one of those writers who is able to expose the problem to the story and skillfully address the reader. The topics that David Mitchell covers in his stories is about the realities of our times. The stories he created with his own magic pen are just a mirror of our time. It clearly reveals the realities of our century. For this reason, his works have a great value.
Key words: *Literature, novel, David Mitchell, Cloud Atlas, Ghostwritten*

Redaksiyaya daxil olma tarixi: 18.05.2022
Çapa qəbul olunma tarixi: 07.06.2022
Rəyçi: filologiya elmləri doktoru,professor Nailə Sadıqova
tərəfindən çapa tövsiyə olunmuşdur

GÜLAY ABDULLA qızı TAHİRLİ
BDU-nun magistrantı
gulay.tahirli99@gmail.com

"BAKIDA" ŞEİRİ "ŞEYDA" PYESİNİN QIĞILCIMI KİMİ

XÜLASƏ

Hüseyn Cavid dramaturgiyasında qoyulan bir çox problemlər başlanğıcını lirikadan götürür. Cavidin dramları bəzi məqamlarda lirikasının davamı və tamamı təsirini bağışlayır. Hətta əsas mövzunun fonunda olan məsələlər belə illər sonra da olsa, mütləq mərkəzə gəlir, yarım nə varsa, tamamlanır. Suallar öz cavabını, problemlər bədii həllini tapır. Cavid daim düşünən şairdir, daim axtarışda olan dramaturqdur. Lirikasından dramaturgiyasına gedən yolda bu düşüncə axınını addımbaddım izləmək mümkündür. Hüseyn Cavid bir çox hallarda nəticəni görür, lirikasında təsvir edir, sual verir. Cavabı, səbəbi isə dramaturgiyasında tapır. Hüseyn Cavid bir çox hallarda nəticəni görür, lirikasında təsvir edir, sual verir, cavabı, səbəbi isə dramaturgiyasında tapır. Hüseyn Cavid heç nəyin yanından ötüb-keçmir, o toxunub keçir, nəsnələrin, varlıqların sonuncu hüceyrəsinə qədər görüb keçir. Həmişə görürmü? Əlbəttə ki, yox! Amma görə bilmədiklərini də içində daşıyır, görənəcən axtarır, sorğulayır... Həyatı, həyatdakıları bir kilidli qutu kimi təsəvvür edək. Şair o qutunun içində nələr olub bitdiyindən xəbərdardır. Amma o qutunu açmayınca, dərininə enib hərtərəfli incələməyincə əlindən buraxan deyil. Hüseyn Cavid lirikası qutunun kilidli halını təsvir edir, qutunun içindəkilərdən xəbər verir. Hüseyn Cavid dramaturgiyası isə qutunun açılmış halıdır, burada şair-dramaturq artıq hər şeyi göz önünə qoyur.

Açar sözlər: Hüseyn Cavid, şeyda, lirika, romantizm, qarşılıqlı əlaqə

Giriş. Hüseyn Cavidin "Bakıda" adlı şeiri dioloq formasında yazılıb, Balaxanı neft mədənlərinə gedərkən Məsudla Şəfiqə arasında keçən söhbəti əks etdirir. Şəfiqə uzaqdan gördüyü mənzərəni ormana - sərvistana bənzədir, mənzərənin gözəlliyinə heyran qalır, hər baxışda qəlbinə bahar sevinci dolur. Məsudun bu şəhərdə çiçəkli bağçadan əsər olmadığını deməsinə təəccüblənir, onu məzəmmət edir. Şəfiqə nə qədər romantik, sevincli olsa da, bir həqiqət var ki, həqiqətin üzü gülümsəməz, ağlayar. Uzaqdan sərv kimi görünənlər, əslində, ətrafa kirli rayihələr saçan sisli abidələr - çamurlu buruqlar imiş. Bu hissə mənə Məmməd Arazın "Qar" şeirini xatırlatdı. Şair deyir:

"Uzaqdan baxıram, ağappaq, təmiz,
Yaxına gəlirəm, qurd düşüb qara".

Mövzu, üslub fərqinə baxmayaraq, hər iki şairin çatdırmaq istədiyi mesaj, demək olar, eynidir. Yaxına gəlib baxırsan ki, uzaqdan tərtəmiz görünən qarı qurd basıb, kənardan şairanə, sevimli görünənlər, əslində, orman deyil, sisli abidələrdir. Bunu həyatda çox şeyə şamil etmək olar: Gözəllik uzaqlıqdadır və ya uzaqlıq gözəllikdir.

Məsud Şəfiqəyə bildirir ki, orada çiçəkdən, sərvdən iz yoxdur, zift axıb hər yeri göl-göl edib, hər tərəf bataqlıqla doludur. Və ən pisi, burada insanlar kor bir ümidə bağlanıb yaşamaq üçün nə qədər zülm çəkirlər. Şəfiqə bu mənzərəni görmək istəmir. Həqiqət xəyalın yanında həmişə çirkin görünür, bəlkə də, bu səbəbdən o, sona qədər getmədi, hələ olanları görməmiş könlündə gizli şüvən baş qaldırmışdı, görməyə tab edərdimi, bəlli deyil... Şəfiqə deyir ki, məişət bəlası həyatı məhv edəcək. Bu cümlə artıq Hüseyn Cavidin gələcəkdə yazılacaq böyük əsərinin qığılcımı idi. "Şeyda" pyesi (1917) məişət bəlasının insanların başına nələr açdığından, hansı faciələrə səbəb olduğundan bəhs edir. "Bakıda" şeirində neftçilərin məşəqqətli həyatının narahatlığı ifadə olunursa, "Şeyda" dramında mühərrirlərin ağır yaşam tərzləri, eyni zamanda mübarizələri əks etdirilir. Fərqli peşələrdə çalışmalarına baxmayaraq, bu insanları birləşdirən əsas ortaq cəhət məişət bəlasıdır. Hər iki əsərdə hadisələr Bakıda baş verir. Şəfiqə kədərli ailələrin, intizar içində qalanların dərdini çəkir, düşünür ki, onlar "sönüb gedər, yaşamaz, cümlə kainata küsər". Biz şeirdə məişət bəlasını onu yaşayanların deyil, izləyənlərin dilindən görürük. "Şeyda" pyesində isə hadisələri birbaşa məişət bəlasının qurbanları danışır. Şəfiqə işçiləri görməməsinə baxmayaraq, düşüncəsində haqlı idi, bu düşüncələr dramda artıq canlanır, elə əsərin baş qəhrəmanı Şeyda cümlə kainata küsmüşdü, hətta özünü dərviş adlandırırdı. Şəfiqə işçilərin həyatını düşünərkən deyir ki, çoxu səqətlənib qoldan, qabırğadan olur, yarım insan, yarım cəsəd qalırlar. Bunlar bəs deyilmiş kimi, ikinci bir zillət də var - zavallıya gülürlər. Şəfiqə bu cümlələri ilə sanki "Şeyda" dramındakı Qara Musadan bəhs edir. Qara Musa mətbəə yolunda qolunu itirib saqat qalmışdı. Hətta yenidən iş üçün mətbəə müdiri Məcid əfəndiyə müraciət edir, lakin müdir "tək əldən səs çıxmaz" - deyə onu rədd edir. O əl ki, mətbəə yolunda əzilmişdi, ona burada iş tapılmasa, başqa harada tapılacaqdı? Şəfiqə deyirdi axı: "...bədbəxt adam nə yapsa gərək..."

Şeirdən bizə məlum olur ki, bu insanlar yas və ümid içində yaşayırlar: "Fəqət yaşar kimi, ya'sü ümid içində yaşar". O yaşayışı "Şeyda"da daha canlı şəkildə, daha dərindən hiss edirik. Mühərrirlər bir tərəfdən özlərini "qanı çəkilmiş cəsəd" adlandırır, digər tərəfdən də sabaha ümid bəsləyirlər, marş yazıb səsləndirirlər, inqilab etmək, oyanmaq istəyirlər. Hər halda ümid olmasaydı, kədərə dözüm də olmazdı. Qara Musanın, Şeydanın timsalında bunu açıq-aydın gördük. Ümidlər bitdiyi an həyatlar da bitdi. Böyük ümidlər böyük faciələrə gətirib-çıxarır...

Hüseyn Cavidin də bəzi qəhrəmanları mühitin qurbanı olur, əzilir, istismar edilir, amma Mirzə Cəlilin bir çox qəhrəmanlarından fərqli olaraq, onlar bunun fərqindədirlər və mübarizə aparırlar. Lakin mübarizə yolları düzgün deyildi. Bu oyanış istəyinin özü belə, bir sözlə ifadə etsək - fərqindəlik o dövr cəmiyyəti üçün böyük, ciddi hadisə idi. Oyanma ehtiyacını obrazın özü hiss edir, haqqı, hüququ üçün çarpışır. Şeydanın yazdığı marşda mühərrirlər özləri özlərinə “Qalq! Oyan!” deyirlər. Həm "Bakıda" şeirində, həm də "Şeyda" pyesində Məsud obrazı var. Aralarında bu qədər parallellik, bənzərlik olan bu iki əsərdə eyniadlı obrazın olması, məncə, təsadüf

deyil. Maraqlıdır ki, fərqli əsərlərdə yer alan bu obrazın xarakteri də, demək olar, eynidir. Şeirdən tanıdığımız qədərilə, Məsud hər şeyin fərqindədir, həm də hər kəsi anlamaq bacarığı var. Məsələn, Şəfiqəyə qarşıda nələr olduğunu, neft buruqlarını, neftçilərin çətin həyatını səbirlə anladır. Ən ağır həqiqətləri dilə gətirərkən belə Məsudun nitqində bir aramlıq hiss olunur. Bu da reallıqları bilib, çətin də olsa, qəbul etməkdən qaynaqlanır. Məsudda həm qayğıkeşlik, narahatlıq, həm də sanki sehrli bir soyuqluq var. Soyuqluq adiləşən bilgidən, narahatlıq ürəyin fəryadından qaynaqlanır. "Şeyda" dramında Məsud "Bakıda" şeirində olduğu kimi, hadisələrə uzaqdan baxıb təhlil edən deyil, birbaşa hadisənin içində olan adamdır. O, baş mürəttib vəzifəsində çalışır. İstər hadisənin içində olsun, istərsə də kənarında, Məsud elə həmin Məsuddur. Şəfiqə uzaqdan neft buruqlarını görüb sevincək, həyəcanla Məsuda göstərirdi. Məsud nə edirdi? Həyəcansız, sakit-sakit Şəfiqəni ilğımın düz yanına gətirirdi. "Şeyda" faciəsində birinci mürəttiblə Məsudun dialoqu Məsudla Şəfiqənin dialoqunu xatırladır. Birinci mürəttib arqadaşlarına üz tutub həyəcanla, təəccüblə Yusifdən danışır: "Allah, Allah, bu nə hal, bu nə qiyafət!?" Məsud isə cavab cümləsinə belə başlayır: "Sən nə zənn etdin, paşam?" Ardınca da Yusifin altı ildir, məhbəsdən fərqi olmayan mətbəədə çalışdığını xatırladır. Yəni o səbəblərdən bu nəticələrin doğulması normaldır. Birinci mürəttibin qeyri-adi şəkildə təqdim etdiyi hadisəni Məsud çox adi qarşılayır... İkinci mürəttib Yusifin heç olmasa bir qədər parası olmasını arzulayır, Məsud laübalı (etinasız) deyir ki, mürəttibdə paramı bulunur? Mürəttiblər Qara Musanın bundan sonrakı halını soruşurlar. Məsud acı təbəssümlə Məcid əfəndinin (mətbəə müdiri) Qara Musanının olub-qalan evini də əlindən alacağını və əsl fəlakətin bundan sonra başlayacağını bıdırır. Doğrudan da, elə olur, Məcid əfəndi Musa kişinin evini zorla əlindən alır. Məsudun acı təbəssümü ətrafındakıların şirin xəyallarına verilən cavabdır. Məsud həqiqətin adamıdır, həqiqətə isə acı təbəssüm etməkdən başqa nə etmək olar ki? Bəli, Məsud həmin Məsuddur, həqiqət isə həmin həqiqət...

Şeirlə faciə arasındakı əlaqələr, paralelliklər bunlarla yekunlaşmır. "Bakıda" şeirinin, demək olar ki, hər misrası "Şeyda" pyesindəki hadisələrin işarəsini verir. Həmin mistik işarələrdən biri - "Onların əcəl qapısı!" Şəfiqə zavallı, bədbəxt adamları düşünür, zift axan quyuları onların əcəl qapısı adlandırır. Keçidlər, bənzətmələr, doğrudan da, möhtəşəmdir. Sərvlər - neft buruqları - məzar daşları... Bu üç birləşmə arasında kədər dayanıb, sərvdən məzar daşına gedən yol... Yaşılın qaraya qayıdışı... Bu qədər bənzərlik və bu qədər ziddiyyət... Cavid burada uçurum adı çəkmir, amma dibinəcən hiss etdirir. Sərv əvvəlcə kirli rayihələr saçan neft buruğuna çevrilir, sonra da qara məzar daşına. Qriqor Zamzanın kədərinin iyi gəlir... Bu təkcə göylərə ucalan sərvin enişi deyil, həm də romantikanın realizmlə görüşündə qırılan qanadlarıdır. O demək deyil ki, romantizm realizmə təslim olur. Əsla! Qırılan qanadın özündə belə bir yüksəliş var. Düşünürəm ki, Cavid bu şeirində onu romantik, modernist, nihilist, dekadans kimi qələmə verib çərçivələrə salanlara cavab verir. Hüseyn Cavidin ümumi yaradıcılığını bir kənara qoyaq, təkcə bu şeiri götürmək kifayət edər. Məsud

realizmin, Şəfiqə romantizmin nümayəndisidir. Və Cavid əfəndi heç bir qəhrəmanını haqsız, zəif çıxarmır. Yeri gələndə Məsud Şəfiqəyə, Şəfiqə də Məsuda haqq verir. Sonunda hər ikisi eyni sual qarşısında cavabsız qalırlar. Bu məqamda Məhəmməd Füzulinin "Rindü-Zahid" əsəri yada düşür. Məscidin öz yeri, meyxanənin öz yeri... Hüseyn Cavidin əsərlərində yuxarıda sadaladığım "izm"lərin hamısı var. Digərlərini görməzdən gəlib, böyüklüyü sadəcə bir "izm"lə çərçivələmək nə dərəcədə düzgündür? Hüseyn Cavid yer üzünü vətən bilən böyük türkdür - azərbaycanlıdır, həm də dünyalıdır. Bir ölkənin sərhədlərinə, bir cəmiyyətin qanunlarına, hətta müqəddəs dinin hüdudlarına sığışmayan şairi hansısa "izm"ə aid etmək sadəcə ədalətsizlikdir! Və illərdir, ədəbiyyatşünaslıq bu tipli suallar üzərində dayanır: "Hüseyn Cavid modernistdir, yoxsa romantik?", "Hüseyn Cavid nihilistdir, yoxsa dekadans" və s. Hüseyn Cavid dahidir, dahilərin isə çərçivələri olmur! "Knyaz" pyesində Antonun dediyi kimi: "Bəncə hər çərçivə dar bir zəncir".

Qayıdaq həmin işarəyə - "onların əcəl qapısı". "Şeyda" əsərində də eyni durumla qarşı-qarşıyayıq. Hadisələr formasını dəyişsə də, mahiyyətini dəyişmir. Neftçilərin əcəl qapısı neft buruqları idisə, mühərrirlərin əcəl qapısı da mətbəə idi. Qara Musanın saqat qalması, altı ilini məhbəsdən fərqi olmayan mənhus mətbəəyə qurban verən qardaşı Yusifin ölümü, Şeydanın həbsxanada (hansı ki, günahsız olduğu halda orada yatırdı) "Roza", "Roza" – deyə sayıqlaraq canını tapşırması – bütün bunların səbəbi həmin insanların iş yerindən – mətbəədən qaynaqlanırdı. O insanlar buraya yaşamağa – çörəkpulu qazanmağa gəlmişdilər, haradan bilərdilər ki, yaşamaq üçün gəldikləri bu idarələr onların ölüm səbəbi olacaq.

Hüseyn Cavid sadəcə bunları əks etdirməklə kifayətlənməyib. Önəmli bir məsələ daha var: Həmin zəhmətkeş adamların cəmiyyətə faydası... Məsələni şeirdə Məsud izah edir. Deyir ki, bu nəşəsiz, müzlim aləmdən evlər ziyalanır, cahan rövşən olur. Zift axan quyular həm də səadət mənbəyidir. Təzada diqqət edək: Şəfiqə quyuları "əcəl qapısı" adlandırır, Məsud isə "mənbəyi-səadət..." Hüseyn Cavid yenə zidd qütbləri qovuşdurur...

Neftçilər olmasaydı, işıq başda olmaqla, bir çox gözəlliklər də olmazdı. Məşəqqətdən gözəllik doğulur... Bu, Hüseyn Cavidin bir çox əsərində belədir. Cavid yaradıcılığının özünəməxsus, bənzərsiz xüsusiyyətlərindən biri də gözlənilməz böyük çevrilmələr, əks qütblərin vəhdətidir. Gözəllik çoxdur, amma kimin üçün? Suala Şəfiqə cavab verir: sərvət içində yaşayıb kədərin nə demək olduğunu bilməyən zənginlər üçün. Fəqirlərsə zəhərli qazlar udur, nəmli yerlərdə çürüyürlər... Şəfiqənin "Haqqü mə'dələt nerdə?" sualı cavabsız qalır...

Dramda isə Şeyda mürəttiblər ilə dialoqunda zəhmətkeş əllərin bəşəriyyət üçün əhəmiyyətindən danışır: "Bu gün yer yüzünün bütün səadət və fəlakəti yalnız o əllərə baqıyor". Yenə ziddiyyətlər - səadət və fəlakət... Eynən "Bakıda" şeirində quyulara münasibət kimi - həm əcəl qapısı, həm də səadət mənbəyi... O əllər çalışmasa, bəşəriyyət şaşırar, bütün dünya hərəkətsiz qalar. Çalışanda da özləri qurbana

çevrilirlər, həyatlarından, rahatlıqlarından məhrum olurlar. Şeyda çıxış yolunu mübarizədə görürdü. Üsulları yanlış olsa da, cəhdin özü belə təqdirə layiqdir.

Hüseyn Cavid "Knyaz" dramında da işçilərin həyatına, onların hansı haqsızlıqlara uğramasına yer ayırır. Həm "Şeyda"nın, həm də "Knyaz"ın işçi qəhrəmanları "Haqq verilməz, alınır" düşüncəsindədirlər və haqlarını almaq üçün mübarizə aparırlar. İşçilər sözünü birbaşa knyaza deyir. Kiminin su problemi var, kimisi zirzəmilərdə nəm havanı sovurmaqdan xəstə olub ("Bakıda" şeirində Şəfiqə də bunu vurğulayır), kimisi də vergilərin ağırlığından şikayət edir.

Məşəqqətdən gözəllik doğulması hadisəsi burada da var. Zövqün, həzzin arxasında ağır əzablar dayanır, amma zənginlərə zövqdən, fəqirlərə əzabdan pay düşür. Altı qız-oğlan atası olan adamı tütün fabrikası məhv edib, o, üzünü ətrafındakılara tutub deyir ki, sizin zevq alıb içdiyiniz o tatlı siqar bu cigərdən süzülən qanla qoqar. Dolayı yolla insanlar başqalarının cigər qanından zövq alırlar. Bu işçinin də əcəl qapısı tütün fabrikasıdır...

Əsərdə birinci işçinin dilindən deyilən aşağıdakı misralar sanki "Bakıda" şeirində, "Şeyda" faciəsində baş verənlərin səbəbinə işıq tutur.

"Yara, başdan-başa hər yer yaradır,
İştə, bunlar, sizi bunlar yaşatır".

"Hərb ilahı qarşısında" adlı şeirində Cavid əfəndi yazırdı ki, hər tanrının qan içməyə hüsn-rəğbəti var. İnsanlar da başqalarının yaralarından güc alıb onlarla yaşayırlar. Tanrının belə qan içməyə hüsn-rəğbəti varkən, insanın insanın yarası ilə yaşaması təəccüb doğurmur. Yenə "İblis" yada düşür: İnsan xisləti..!

Ədəbiyyat:

1. Azərbaycan ədəbiyyatı tarixi, III cild, Bakı, 1957.
2. Hüseyn Cavid. Əsərləri, I cild, II cild və IV cild, Bakı, 2005.
3. Kamal Talıbzadə. XX əsr Azərbaycan tənqidi, Bakı, 1966.
4. Məmməd Araz. Seçilmiş əsərləri, I cild, Bakı, 2004.
5. Yaşar Qarayev. Tarix: Yaxından və uzaqdan. Bakı, 1996.

Gulay Abdulla gizi Tahirli

THE POEM "IN BAKU" IS LIKE THE SPARK OF THE PLAY "SHEYDA"

SUMMARY

Many of the problems posed in Hussein Javid's dramaturgy begin with lyrics. At some points, Javid's dramas continue and fully influence his lyrics. Even after so many years, the issues in the background of the main topic always come to the center, and half of everything is completed. Questions find their answers, problems find artistic solutions. Javid is a poet who always thinks, a playwright who is always in search. On the way from lyrics to drama, it is possible to follow this flow of thought step by step. Hussein Javid often sees the result, describes it in his lyrics and

asks questions. He finds the answer and the reason in his dramaturgy. In many cases, Hussein Javid sees the result, describes it in his lyrics, asks questions, and finds the answer and the reason in his dramaturgy. Hussein Javid does not pass by anything, he touches it, sees it to the last cell of objects and beings. Do you always see? Of course not! But he also carries inside what he can't see, searches and interrogates until he sees ... Let's imagine life, what is in life, like a locked box. The poet is aware of what is in that box. But he doesn't let go until he opens the box, goes deep into it and examines it thoroughly. Hussein Javid's lyrics describe the locked state of the box, telling about the contents of the box. Hussein Javid's dramaturgy is an open box, where the poet-playwright already imagines everything.
Key words: Hussein Javid, sheyda, lyrics, romance, interaction

Гулай Абдулла кызы Тахирли

СТИХОТВОРЕНИЕ «В БАКУ» КАК Искорка спектакля «ШЕЙДА»

РЕЗЮМЕ

Многие проблемы, поставленные в драматургии Хусейна Джавида, начинаются с лирики. В некоторых моментах драмы Джавида продолжаются и полностью влияют на его тексты. Даже по прошествии стольких лет вопросы, лежащие в основе основной темы, всегда выходят в центр, и наполовину все сделано. Вопросы находят ответы, проблемы находят художественные решения. Джавид – поэт, который всегда думает, драматург, который всегда в поиске. На пути от лирики к драме можно шаг за шагом проследить этот поток мысли. Хусейн Джавид часто видит результат, описывает его в своих текстах и задает вопросы. Он находит ответ и причину в своей драматургии. Во многих случаях Хусейн Джавид видит результат, описывает его в своей лирике, задает вопросы и находит ответ и причину в своей драматургии. Гусейн Джавид ничего не проходит мимо, он прикасается к этому, видит до последней клеточки предметов и существ. Вы всегда видите? Конечно, нет! Но и носит то, чего не видит, ищет и допрашивает, пока не увидит... Представим себе жизнь, то, что есть в жизни, как запертый ящик. Поэт знает, что находится в этом ящике. Но не отпускает, пока не откроет коробку, не залезет в нее и не осмотрит досконально. Лирика Хусейна Джавида описывает запертое состояние ящика, рассказывая о содержимом ящика. Драматургия Хусейна Джавида – это открытый ящик, где поэт-драматург уже все воображает.
Ключевые слова: Хусейн Джавид, шейда, лирика, романтика, взаимодействие

Redaksiyaya daxil olma tarixi: 18.05.2022
Çapa qəbul olunma tarixi: 07.06.2022
Rəyçi: professor Elçin Əfəndiyev tərəfindən çapa tövsiyə olunmuşdur.
tərəfindən çapa tövsiyə olunmuşdur

NAZLAR MƏCNUNOVA
BDU-nun magistrantı
nazlarmecnunova@gmail.com

BANİN YARADICILIĞINDA DİNƏ MÜNASİBƏT

Xülasə

Zamanından asılı olmayaraq bütün dövrlərdə xalqın məişəti elmə, mədəniyyətə, ümumiyyətlə, cəmiyyətin inkişafına xüsusi təsir göstərmişdir. Şərq xalqlarının xüsusilə də, Azərbaycanın məişətinə nəzər salsaq, görərik ki, XX əsr özünəməxsusluğu ilə daha çox diqqət çəkir. Həmin dövrdə baş verən hadisələri, mövcud olan adətləri o dövrdə yazıb-yaratmış yazıçı və şairlərin yaradıcılığından ətraflı şəkildə öyrənə bilirik.

XX əsr yazıçı və şairlərimizi dövrün, xalq həyatının ən aktual problemləri – cəhalət, dini fanatizm, xurafat, qadın azadlığı daha çox düşündürmüşdür. Bu problemlərə öz yaradıcılıqlarında geniş yer vermişlər. Bədii əsərlərlə yanaşı qəzet və jurnallarda məqalə və felyetonlarla çıxış etmişlər. Bu çıxışlarında xalqı maariflənməyə, inkişafa səsləmişlər. Bəzən hadisələri yumorla, bəzənsə daha kəskin şəkildə satirayla vermiş insanların özünü özünə tandaraq islah etməyə çalçalışıblar. Hər biri bu yolda bir çox maneələrlə qarşılaşıb. Banin də "Qafqaz günləri" əsərində ətrafındakı insanların və özünün dinə olan münasibətini açıq şəkildə ifadə edir. Yazıçının əsərlərini oxuduqca XX əsr Şərqdə insanların dinə yanaşmalarının hansı şəkildə olduğunu bariz şəkildə görürük. İctimai-siyasi hadisələr də xalqın həyatına xüsusi təsir etmişdir. Bununla yanaşı sosial təbəqələr arasındakı fərqin və onların bir-birlərinə münasibətinin şahidi oluruq. Banin bu hadisələrin hər birinin ya canlı şahidi, ya da iştirakçısıdır. Məqalədə də Banin yaradıcılığında dinə olan münasibətə yer verilib.

Açar sözlər: Banin, din, Azərbaycan, Şərq, islam

Giriş. XX əsrin bir çox yazıçı və şairləri kimi 40-cı illərdən mühacirətdə yazıb-yaratmağa başlayan Banin də öz yaradıcılığında din, cəhalət, xurafat, qadın azadlığı kimi məsələlərə toxunub. Lakin onun yaradıcılığını digərlərindən fərqləndirən xüsusiyyət budur ki, o, əsərlərində bilavasitə ailəsinin, özünün yaşadığı həyatı əks etdirir və bunun timsalında xalq həyatı haqqında təsəvvür yaradır. Banin baş verən hadisələri realist şəkildə qələmə alıb. Yazıçının "Qafqaz günləri" adlı avtobioqrafik əsərində isə buna daha geniş şəkildə yer verilib. Çünki bu əsər təkcə Baninin (Ümmülbanu) deyil, Azərbaycanın, Azərbaycan xalqının avtobioqrafiyasıdır. Banin bu əsərində vətənində yaşadığı 18 illik dövrdə olan hadisələri, insanların həyatını əks etdirir.

Yazıçının əsərlərini oxuduqca XX əsr Şərqdə insanların dinə yanaşmalarının hansı şəkildə olduğunu, ictimai-siyasi hadisələri və onun xalqın həyatına təsirini,

sosial təbəqələr arasındakı fərqi və onların bir-birlərinə münasibətlərinin şahidi oluruq. Banin bu hadisələrin hər birinin ya canlı şahidi, ya da iştirakçısıdır.

Lap qədim dövrlərdən başlayaraq insanları cəhalətdə saxlayıb öz məqsədlərinə çatmaq üçün dindən bir vasitə kimi istifadə olunub. Tarixi qaynaqlardan da öyrəndiyimiz kimi hələ Atropatena, Albaniya dövlətlərinin vaxtından hakimiyyətə gələn hər hökmdarın dinlə bağlı mütləq bir əmri olurdu. Təhsillə, maariflə əlaqəli əmrlərə çox az rast gəlirik. XX əsrdə də əsarətdə olan xalqın inancları "din adamları" tərəfində istismar olunur, Çar Rusiyası isə əhalini işğal altında saxlamaq üçün buna qarşı çıxmırdı. Bu, ziyalı azərbaycanlıları narahat edir, "Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım!" deyərək xalqın gözünü açmağa, zülmətdən aydınlığa çıxarmağa çalışır, bu geridəqalmışlıqla, insanları cəhalətə sürükləyən "din xadimlərilə" "döyüşürdülər" . Bu təkcə islam dinində yaşanan bir hadisə deyildi. Bu təkcə islam dinində deyil digər dinlərdən də siyasi məqsədlər üçün istifadə olunduğunu dünya ədəbiyyatına.aid əsərləri oxuyarkən görürük. Umberto Eko "Qızılgülün adı" əsrində kilsədəki din xadimlərinin iç üzünü bu sözlərlə açır: "Baş keşiş monastırdakı kitapları yandırır və belə deyir: "İnsanlar oxuyarsa öyrənər, öyrənərsə içindəki qorxunu öldürər. O zaman da kilsə ölər." Göründüyü kimi kilsədən də qazanc məqsədi ilə istifadə olunmuşdur. Xristianlıqda da xalqın inancından öz məqsədləri üçün istifadə edən din xadimləri mövcud olub.

Digər sənətkarların yaradıcılıqlarında da gördüyümüz kimi bu dövrdə İslam daha çox iki şəkildə özünü göstərirdi ya dinə fanatiklik dərəcəsində tapınanlar, ya da din adı altında özünü gizlətmiş yalançı müsəlmanlar. Banin də ətrafında olan insanların dinə münasibətini vermişdir. Yazıçının dinlə bağlı verdiyi hissələrin "qəhrəman"ı daha çox nənəsidir. Əsəri oxuduqca orada nənəsinin xristianlara necə lənət oxumasını, nəvələrinə xristian qadın- freyleyn Annanın tərbiyə verməsinə qarşı olduğunu görürük. "Əgər qab-qaşığına müsəlman olmayan bir şəxsin əlləri toxunsa artıq onlardan bir daha istifadə etməz və onları kasıb-kusuba paylayardı" [1, s.18] ifadəsi isə ilk başda bizə Mirzə Cəlilin "Usta Zeynal" əsərini xatırladır. Usta Zeynal müsəlman olmayanların əşyalarına toxunmağı günah sayır və öz fəhləsi Qurban da daxil olmaqla heç bir müsəlmanın toxunmağını qəbul etmir. Ancaq burada nənə özü əşyalara toxunmasa da, bunu kasıb müsəlmanlara rəva görür. Əgər xristianların toxunduğu əşyaları mundar hesab edirdisə nə üçün onlardan kasıb müsəlmanların istifadə etməsinə qarşı deyildi? Kasıb müsəlmanlar kasıb olduqları üçün mundar əşyalara toxunmalıdırlarmı? Burada qadının dini dəyərləri yerinə yetirməsi deyil də, özünü başqalarından üstün görməsi, eqosunu bəsləməsi kimi anlaşılır. Və ya "Yad bir kişi yaxınlığından keçsə, yerə tüpürüb söyüş söyərdi" [1, s.18]. Yad bir kişinin yanından keçməsini günah sayır, amma söyüş söyməyi normal qəbul edir. Yazıçı ramazan ayında da kasıb və varlı təbəqə arasında fərq oluduğunu qeyd edir: "Bizim kimi "mədəni" adamlar oruc tutmur, yalnız hərdən ramazan ayının son günlərini ac qalırdılar" [1, s.27] . İslam dinində hər bir müsəlman üçün oruc tutmaq şərtdir, amma

bu ifadədən görürük ki, dinə bu qədər "bağlı" olan varlı "müsəlmanlar" onu da öz istəklərinə uyğunlaşdırıblar.

Nənəsi oğlanlarının rus qadınla evlənməsinə də qarşıdır. Yazıçı yaşlı qadının dini əqidəsinə görə belə evliliklərə nifrət etdiyini qeyd edir. Oğlu Əminəylə evlənərkən qayınatasının tacir deyil adi bir mühəndis olması böyük "eyib" olsa da ən azından müsəlman olması nənəsinə təskinlik verirdi. Burada yenə də İslami dəyərlərin yalnız başına müdafiəsini görmürük, pulla, var-dövlətlə yanaşı verilmişdir. Az qala ailənin gözündə imkanlı olmaqla, müsəlman olmaq eyni dərəcədədir, birbirlərilə müqayisə olunurlar.

İnsanların dinə bu cür zahiri yanaşmaları ilə əsəri oxuduqca daha çox qarşılaşırıq. Məhərrəmlik ayında baş verən hadisəni xatırlayan yazıçını, qadınların bir dəqiqə içində dəyişən halları, molla qadının Kərbəla faciəsindən danışmağa başlayarkən qadınların necə ağlaşmağa başlaması, dil boğaza qoymamaqları, elə ki molla söhbəti bitirdi həmin anda da əvvəlki məişət söhbətlərinə başlamaları düşündürür. Və elə o anlarda uşaqların çarşab altında gülmələrini, böyüklərinsə bunu ağlamaq olduğunu düşünmələrini verir. Bir oxucu olaraq bu hissəni oxuyarkən məni düşündürən bir məsələ oldu: bu iki ağlama arasında fərq varmı? Çünki hər iki "ağlamaq" yalandan, heç nə anlamadan, mənası olmayan bir "ağlamaqdır". Əgər balaca Ümmülbanunun gülüşü yumordusa, artıq yazıçı Baninin gülüşü satiradır. Çünki həmin kiçikyaşlı qızın böyüdükdən sonra da cavabını tapa bilmədiyi bir sual var: " Görəsən, bu arvadlar göstərişlə ağlamağı necə bacarırdılar?" (29) . Amma Vəzirovun "Ağıçı" hekayəsindən də bilirik ki, belə məclislərdə ağlatmağı bacaran "peşəkar", "məharətli" ağıçılar fəaliyyət göstərirdi. Həmin ağıçı qadınlar yanıqlı, ağılar deyib, saxta gözyaşı tökməklə camaatı ağladırdılar. Yəni tək məqsəd molla danışarkən, quran oxunarkən ağlamaqdır, nəyisə dərk edib, anlamaq heç kəs üçün maraqlı deyil.

Əsərdə görürük ki, insanlar dinə uyğun yaşadıqlarını düşünürlər, amma realda isə tam əksinə dini yaşayışlarına uyğunlaşdırıblar. "Quran qumar oynamağı qadağan etməmişdimi? Bütün Bakı qumar oynayırdı. Peyğəmbər şərabı qadağan etməmişdimi? Hamı tünd içki içir və deyirdilər ki, bunlar şərab sayılmır" (102).

Tanrısı, peyğəmbəri, kitabı bir olan insanlar şiə və sünni deyə iki qrupa ayrılıb və bu "müsəlman"lar bir-birlərinə düşməndirlər. Bugünkü gündə də mövcud olan bu ayrım XX əsrin əvvəllərində Güneydə daha kəskin şəkildə özünü göstərirdi. Hətta ailə üzvlərindən birinin sünni olması belə həmin ailəyə utanc verirdi. İnqilab zamanı ailəsi ilə birlikdə Güney Azərbaycanda olan yazıçı orada da dinə qarşı olan münasibəti verir: "İranın baş ağrıdan cəhətlərindən biri də şiəlik idi. Əminə sünni idi və bu məsələyə İranda çox pis baxırdılar. Əminənin bu cəhətini ayıb bir xəstəlik kimi gizlətmək lazım idi" [1, s.161].

Banin Faransada mühacirət həyatı yaşayarkən dinini dəyişir və xristianlığı qəbul edir. Onun bu seçimi etməsinin səbəbi, bələkə də, uşaq olarkən özlərinə müsəlman deyən insanların islam dininə qarşı olan münasibətdir. İslama bu cür zahiri yanaşma,

əslində gerçəkdən dini inanclı şəxslər deyil də xurafat təmsilçilərinin ətrafında olmaq, islamın qaydalarından sadəcə göstəriş üçün istifadə etmək balaca qızda islam haqqında qəbuledilməz bir təəssürat yaratdı , özünə yad hesab etdi ki, dininini dəyişdi. "Paris günləri" əsərində Quran haqqında dediyi ifədə də bunu təsdiq edir "Naxışlı gümüş üzlük çəkilmiş kiçik Quranı əlimdə tutur, onu müqəddəs kitabdan daha çox, bir cadu vasitəsi saysam da Allaha yalvarırdım ki, boşanmağıma imkan yaratsın". Deməli o Qurandan dua oxumaqdan, ibadət etməkdən daha çox cadu üçün istifadə olunduğunu görübmüş.

Hələ XIX əsrdə yaşamış maarifçilərimizdən olan Mirzə Kazımbəy də öz dinini dəyişmişdi və bunun səbəbini atasına yazdığı məktubunda izah etmişdi: "Sənə əvvəl də dediyim kimi mən dindən imtina etmişəm. İslam dinindən üz döndərməklə mən sığınacaq axtarmamışam, yox, bu sığınacaq deyil, mənim üçün mübarizə vasitəsidir. Mən xalqı aldadan, xalqın hesabına varlanan mollalardan üz döndərmişəm. Onların məclislərdə danışdıqlar cəfəngiyatdan, əfsanələrdən üz döndərmişəm". Elə, bəlkə də, Banin də Kazımbəy kimi əslində bu cəfəngiyyatlardan üz döndərmişdi, ancaq Kazımbəy mollaların danışığının dinlə əlaqəsiz cəfəngiyyatlar olduğunu anlayırdısa, Banin islam dinin özünün bu cəfəngiyatlardan ibarət olduğunu düşünürdü. "Paris günləri" əsərində isə dinlə bağlı düşüncələrini bu şəkildə ifadə edir: "Bəs mən özüm? Mən dinə necə münasibət bəsləyirdim? Mənim dindarlığım da dumanlı idi. Əsas dini nişanəm həmişə özüm ilə gəzdirdiyim kiçik Quran idi. Əslində bu mənim bəxt duam idi və dinə bir xidmətim olmasa da, bütün arzularımın bu dua vasitəsilə həyata keçəcəyinə ümid edirdim. Heç bir bağlılığım olmayan Allaha mən necə ümid edə bilərdim? Ərəbistanda dünyaya gəlmiş Məhəmməd peyğəm bərə də bağlılığım yox idi. O, qadınları çarşab altında sax lamağı tövsiyə edib. Deyilənə görə, onun sözlərini düzgün şərh etməyiblər. Ola bilsin ki, belədir, amma çarşab öz işini görür və Allaha minnətdaram ki, məni çarşab qaranlığından azad edib" [2, s.18]. Lakin Banin dinini dəyişmə səbəbini bir müsahibəsində belə izah edir: " Mənim yaşadığım yerə yaxın bir kilsə varıdı və mən də ibadət etmək istəyirdim ona görə də dinimi dəyişdim" buradan da anlaşıldığı kimi Banin xristianlıq və ya islam dini arasında böyük fərqlər gördüyü üçün deyil sadəcə Allaha ibadət üçün kilsəyə gedir. Güman ki, müəllif islamın qaydalarını qəbul edə bilmədiyi, bu qanunların öz həyatına yeri olmadığını anlayır və öz həyatına daha yaxın, qanunlarını qəbul edə biləcəyi bir din olaraq gördüyü xristianlığı qəbul edir.

Ədəbiyyat

1. Banin. "Qafqaz günləri". Bakı, Qanun Nəşriyyatı, 2019, 336 səh
2. Banin. "Paris günləri". Bakı. "Nurlan", 2006, 207 səh
3. Cəlil Məmmədquluzadə. Seçilmiş əsərləri. Bakı, Şərq-Qərb, 2004, 663 səh
4. Umberto Eko. "Qızılgülün adı". Bakı, Şərq-Qərb, 2013, 680 səh

NAZLAR MAJNUNOVA YUSIF

ATTITUDE TO RELIGION IN BANY'S CREATIVITY

SUMMARY

Regardless of the time, the life of the people has always had a special impact on science, culture and the development of society in general. If we look at the life of the peoples of the East, especially Azerbaijan, we see that the twentieth century attracts more attention with its originality. We can learn in detail about the events that took place at that time, the existing customs from the works of writers and poets who wrote and created at that time.

Our writers and poets of the twentieth century have thought more about the most pressing problems of the time, the life of the people – ignorance, religious fanaticism, superstition, women's freedom. They have given wide space to these problems in their works. In addition to works of art, he has published articles and columns in newspapers and magazines. In their speeches, they called on the people to enlighten and develop. Sometimes they tried to correct themselves by choosing people who told the events with humor and sometimes with more satire. Each has encountered many obstacles along the way. In The Caucasus Days, Ban also openly expresses the attitude of the people around him and his religion. As we read the author's works, we can clearly see how people approached religion in the 20th century in the East. Socio-political events also had a special impact on the lives of the people. At the same time, we are witnessing the differences between the social classes and their relationship to each other. Ban is either a living witness or a participant in each of these events. The article also covers the attitude towards religion in Ban's work.

Keywords: Banin, religion, Azerbaijan, East, Islam

НАЗЛАР МАДЖНУНОВА ЮСИФ

ОТНОШЕНИЕ К РЕЛИГИИ В ТВОРЧЕСТВЕ БАНИ

РЕЗЮМЕ

Независимо от времени жизнь народа всегда оказывала особое влияние на науку, культуру и развитие общества в целом. Если мы посмотрим на жизнь народов Востока, особенно Азербайджана, то увидим, что XX век привлекает больше внимания своей самобытностью. Подробно о событиях, происходивших в то время, о существовавших обычаях мы можем узнать из произведений писателей и поэтов, писавших и творивших в то время.

Наши писатели и поэты XX века больше думали о самых насущных проблемах времени, жизни народа – невежестве, религиозном фанатизме, суеверии, женской свободе. Этим проблемам они уделили большое внимание в своих работах. Помимо произведений искусства, он публиковал статьи и колонки в газетах и журналах. В своих выступлениях они призывали народ

просвещаться и развиваться. Иногда они пытались исправиться, выбирая людей, которые рассказывали о событиях с юмором, а иногда и с большей долей сатиры. Каждый встречал множество препятствий на своем пути. В «Днях Кавказа» Бан также открыто выражает отношение окружающих к нему людей и свою религию. Читая произведения автора, мы ясно видим, как люди относились к религии в 20 веке на Востоке. Общественно-политические события также оказали особое влияние на жизнь народа. В то же время мы наблюдаем различия между социальными классами и их отношением друг к другу. Бан является либо живым свидетелем, либо участником каждого из этих событий. В статье также освещается отношение к религии в творчестве Бана.

Ключевые слова: Банин, религия, Азербайджан, Восток, Ислам

Redaksiyaya daxil olma tarixi: 18.05.2022
Çapa qəbul olunma tarixi: 07.06.2022
Rəyçi: professor Elçin Əfəndiyev
tərəfindən çapa tövsiyə olunmuşdur

FİDAN İLQAR qızı HƏSƏNOVA
BDU-nun magistrantı
fidan.hesenzadeh99@gmail.com

ORTA ƏSRLƏR ANADİLLİ POEMALARDA MİFİK QADIN OBRAZLARI

XÜLASƏ

Məqalədə Azərbaycan orta dövr ədəbiyyatına nəzər salınır. Burada rəngarəng qadın obrazları ilə tanış oluruq. Bu qadın obrazları fərdi xüsusiyyətləri və eyni zamanda, əsərdə tutduğu mövqeyə görə fərqlənmişdir. Dövrün dahi sənətkarlarının əsərlərində canlandırdığı qadın obrazları bəzi məqamlarda adi insan deyildir. Məhz onlar fərqli xarakterli bir məxluqu təmsil edirdilər. Bunu nəzərə alaraq qeyd etmək lazımdır ki, bu fərqli qadın obrazlarının təsvir edildiyi əsərlər də digərlərindən fərqlənir.

Qeyd edilir ki, bu dövrdə yazıb-yaratmış şairlərimizdən Şah İsmayıl Xətai və Hamidin əsərlərində belə qadın obrazlarına rast gəlirik. Xətainin "Dəhnamə" və Hamidinin "Seyfəlmüluk" poemaları buna bariz nümunədir. Bu qadın obrazları adi insandan fərqlənir. Çünki Xətai və Hamidinin yaratdığı qadınlar pərilər idi.

Məqalədə diqqəti çəkən məqamlardan biri də bu pərilərin daxili aləmi ilə zahiri görünüşünün təzad təşkil etməsidir. Bu qadınlar çox gözəldir. Lakin Xətainin "Dəhnamə" əsərinin qadın surəti olan pəri fərdi xarakterində tamamilə başqa bir obraz sərgiləyir. Eynilə Hamidin "Seyfəlmüluk" əsərinin pəri qadın qəhrəmanı Bədiəlcamalın da fərqləndiyini görürük.

Sonda onu da qeyd etmək yerinə düşərdi ki, bu qadın obrazlarının zahiri görkəminə də nəzər saldıqda pərilərə məxsus bir gözəlliklə qarşı-qarşıya dururuq. Sənətkarların həmin qadın obrazlarının zahiri görünüşü ilə bağlı işlətdiyi epitet və bənzətmələr bir növ pərilərin daxili aləmi ilə də vəhdət təşkil edirdi.

Açar sözlər: qadın, mifologiya, pəri, məşuqə, sevgi

Giriş. Azərbaycan yazılı ədəbiyyat nümunələrində tez – tez şifahi xalq ədəbiyyatına aid olan mövzu və obrazlara rast gəlinir. Bu əsərlərdə mifologiyasının, mifoloji obrazların da rolu az deyildir. Mifologiyada elə obrazlar var ki, onlar qədim dövrlərdə, orta əsrlər ədəbiyyatında öz müstəsna yerini almışdır. Belə mifoloji obrazlardan biri də pəridir. Pəri obrazı adətən, Azərbaycan ədəbiyyatında orta əsr ədəbiyyatında xüsusi rol oynamışdır. Xüsusilə də, aşiq – məşuq obrazlar sisteminin qadın obrazı olan pəri aşiqin xəyalındakı gözəldir. “Pəri” fars sözdür, mənası isə görünməyən, gizli gücdür. Mifoloji təsəvvürlərdə pərilər istədikləri anda görünməyə da bilirlər, onlarda sehrli güc, tilsim olur. “Avesta”ya görə onlar “parika” kimi verilir və bu obrazlar əksər hallarda qadın cinsinə mənsub olurlar. Pəri çox gözəl olur, öz gözəllikləri ilə hətta insanın ağlını başından alırlar. Bəzi alim və araşdırmacılar belə

əlaqələndirirlər ki, məhz pərilərin insanın ağlını başından alması çin vurmaq, dəli olmaqla birbaşa uyğunluq təşkil edir. Onlar cinlərin məhz qadın kimi təşəkkül tapmış variasiyalarıdırlar. Həçminin bu qadın obrazlarının belə fəaliyyəti də elə şaman – sufi kompleksinə yaxındır. Ağlın başından alınması məsələsi bir növ təsəvvüfi fikirlərin qovşağında özünü göstərir. Orta əsrlər ədəbiyyatımızda pəri obrazının yüksək sənətkarlıqla qələmə alındığı əsərlərdən biri də Şah İsmayıl Xətainin "Dəhnamə" poemasıdır. Əsərdə həqiqi eşqlə məcazi eşqin qovuşağında aşiq və məşuqənin təkamülünü göstərilir. Bunu daha çox aşiqin simasında görmüş olsaq da, Məşuqə də bir sıra xüsusiyyətləri ilə diqqət çəkməkdədir. Ilk növbədə, mifik - əfsanəvi obraz olan məşuqə pəridir. Məkanı cinlər gülzarı, pərilər bağı olduğu halda əsərdə Xətai onu aşiqin vurulduğu adi bir qız kimi qələmə almışdır. Digər tərəfdən məşuqənin pəri olması onun məhəbbətin gücü ilə aşiqi ram etməsi əsərdə mifoloji elementlərin artmasında yol açır. Pəri obrazının bütün süjet boyu aid bir məşuqə kimi görünməsi isə bir növ ilahi eşqin inkişafını arxa planda qoyur. Biz qızın pəri deyil də, adi insan kimi davrandığını görürük. Aşiqin göndərdiyi 10 məktubun demək olar ki, çoxundan əsəbləşərək rədd edir. Onun bu ədaları, işvə - nazı, tənələri, tənqidləri hurilər bağındakı pərinin edəcəyi işdən adi, lakin son dərəcə gözəl bir qızın davranışlarına bənzəyir. Məşuqənin – pərinin sonradan yumşalması isə artıq ilahi eşqdə təkamülə çatma idi. Bundan sonra pəri ilə aşiq vüsala çatıb ayrılər. Çünki Göz yaşının – "Əşk"-in məktubundan sonra Məşuqə səbanı azad edir və eşqini Aşiqə çatdırmağı tapşırır. Burada Məşuqənin bir növ xarakteri ortaya qoyulur. Hər nə qədər pəri olub sehrli gücü ilə buta verilib aşiqi ram etsə də, onun bu sadiq xüsusiyyətini təqdir edir. Ümumiyyətlə, bir pəri obrazı kimi məşuqənin xarakterindən sırf bir insana daha dəqiq desək, bir qadına bənzədilməyinə baxmayaraq, zahiri əlamətlərinə görə tamamilə fərqli bir obrazdır. Ilk növbədə onu qeyd etmək lazımdır ki, pəri obrazı Azərbaycan ədəbiyyatında elə də yüksək işlənilməmişdir. Lakin Xətai bu obrazı yaratmaqla bir növ mifoloji obraza insan libası geyindirmişdi. Burada da şairi Aşiqi sırf xarakter baxımından əhəmiyyət versə də, Məşuqəni – pərini zahiri əlamətlərinə görə ön plana çəkir. Aşiqin əyilmiş qəddini Məşuqənin qıvrım telləri ilə, qanlı göz yaşlarını pərinin al dodaqları ilə müqayisə edir:

Ləlin təki çeşmi gövhərəfşan,
Zülfün kimi fikridir pərişan. (5, s. 103)

Pəri olduğuna görə aydın məsələdir ki, müəllif əsərdə məşuqə obrazı ilə bağlı diqqəti daha çox onun təqdimatında zahiri əlamətlərə çəkir. Ilk növbədə qeyd etmək lazımdır ki, Xətainin bizə təqdim etdiyi pəri – məşuqə obrazı son dərəcə mənəviyyatca zəngin, ləyaqətlidir. Müəllif bununla da obrazın gözəl bir qız təsiri bağışlayır.

Şairin qeyd etdiyi "türki – tənnaz" ifadəsi isə pərinin zahiri əlamətləri ilə onun bir türk gözəli olduğuna işarə edir. Həmçinin pəri öz gözəlliyi ilə öyünəndir, onun

məğrurluğu bir daha insana aid xüsusiyyətlərinin xalis sübutudur. Onu da qeyd etmək yerinə düşərdi ki, Xətainin məşuqənin – pəri obrazının gözəlliyi – zahiri əlamətlərini təsvir etməkdə əsas məqsədi də məhz Aşiqin ona vurulma səbəbinin ortaya qoymasıdır. Son dərəcə gözəl bir qız adi insanı bu qədər məftun edə bilməzdi. Pərinin sehrli gücü isə buna imkan verirdi. Hər nə qədər əsər boyu məşuqənin pərilər bağından olan pəri olduğu qeyd edilsə də, adi insan xüsusiyyətləri daha qabarıq verilsə də, nəticədə pəri sehrli, mifoloji bir obrazdır.

Mifoloji surətlər də adından da bəlli olduğu üzrə mifologiya ilə bağlıdır və Xətainin pərisi də bu obrazlar silsiləsinə aiddir. Buna görə də onun gözəlliyi – son məftunediciliyi ilə aşiqi ram etməsi həqiqətə uyğundur. Xətainin "Dəhnamə" poemasının qəhrəmanı haqqında yazılanların hamısını nəzərə alaraq demək olar ki, buradakı pəri obrazı daha çox insani keyfiyyətlərə malikdir. Bəlkə də Xətai bunu – poemanı qələmə alarkən real insan surəti üzərinə mifoloji obraz rəngini də qataraq gözəlliyi ilə hər kəsi cəlb edən mükəmməl qadın – pəri obrazı yaratmışdır.

Xətainin " Dəhnamə" poemasından sonrakı dövrlərdə də belə fantastik, mifoloji xarakterli əsərlər qələmə alınmışdır. Xüsusilə də, XVIII əsr ədəbiyyatında sehrli qüvvələrin yer aldığı əsərlərə daha çox təsadüf olunur. Belə əsərlərdən biri də Hamidinin "Seyfəlmüluk" poemasındır. Hamidinin əsərindən çıxış edən mifoloji obraz da pəridir. Lakin buradakı pəri obrazı Xətainin məşuqəsindən bəzi xüsusiyyətlərinə görə fərqlənir. Ilk növbədə aşiq məşuqəyə vurulanda onun bir pəri olduğunu bilmir. Xətainin aşiqi pəriyə buta vasitəsilə aşiq olduğu halda Seyfəlmüluk məşuqəsini Misir şahının bağışladığı donun xələtin üzərində görür. Yəni Seyfəmülukun qiyabi sevdiyi gözəl adi insan deyildi, o, əfsanəvi bir pəri idi. Insan – pəri məhəbbət sujeti də ən qədim motivlərdən sayılır. Burada insanın pəriyə xüsusilə də onu gözəlliyinə vurulması bir növ gözəlliyə pərəstiş anlamını verir. Xətai nə qədər əsərin daxilində bu sehrli qüvvəni hopdursa da, pəri obrazı bəzi məqamlarda özünü biruzə verirdi. Lakin Hamidinin qadın qəhrəmanının pəri olması heç bir məqamda duyulmur.

Əsərdə Siyasan hökmdarı Şahbal xanını qızı Bədiəlcamalın sadəcə mənşəcə pəri olduğu qeyd olunur. Lakin pəri əsərdə adi insan kimi göstərilir. O, insanlar kimi yaşayır, sevir, düşünür. Hər nə qədər bu sevgi fantastika təsiri bağışlasa da, Seyfəlmüluk ilə Bədiəlcamalın qarışması da adi insanlar kimi baş tutur. Hər şeydən əvvəl Hamidinin bu qadın qəhrəmanı müstəqilliyə can atan bir obrazdır. Əsərdə də qeyd edilir ki, sərbəst hərəkət və davranışları ilə bir növ qəhrəman və cəngavər nağıl, dastanlarımızda yer alan qadınları xatırladır. O, büt kimi yaşamaq istəmir, hərəmxanada da özünə yer tuta bilmir.yaşadığı dövr onu məhdudlaşdırmırdı, o, Leyli, Gülşa kimi talesiz deyildi, öz müqəddaratını özü həll etmək hüququna malik idi. Əsərin bu hissələrində Bədiəlcamalın timsalında pərilər dünyası nəzər də tutulurdu və şairin yaşadığı dövrə bir növ qarşı qoyulurdu.

Normal olaraq pərilər dünyasından yazan şair Bədiəlcamalı haqsızlığa qarşı qoymur. Onu azad, sərbəst qadın kimi görmək istəyir. Hətta əsərin bir hissəsində

Bədiəlcamalın Məlikənin yanına gəlməsi təsvir olunur. Məlikəni divlər arasından xilas edən gəncin kim olduğunu öyrənmək istəyir. O, cəsarətini toplayaraq Seyfəlmülukun çadırına gəlir. O da Seyfəlmüluka vurulur və huşunu itirir. Eyni vəziyyəti Seyfəlmüluk da yaşayır. Ayılanda aşiqlərin görüşündə də Bədiəlcamal elçiliyi, öz taleyi ilə bağlı məsələni özü həll edir və sonradan atası ilə danışıb razı salır:

Dedi: - Şəhbali-Siyasan oğludur yar,
Siyasan sözünü eyləməz inkar. (3,s.74)

Bu hadisələrdən sonra Bədiəlcamalın daha bir insana məxsus olan xarakterik xüsusiyyətini görmək olar. Divlərin Seyfəlmüluku oğurladıqlarını eşidəndə ah – fəğan edir. Bununla da onun necə vəfalı, sadiq olduğunu görmək mümkündür.

Nəticə. Ümumiyyətlə, pəri obrazını timsalında Hamidin göstərmək istədiyi məhz ideal dünya modeli idi. Bədiəlcamalın azad olduğu bir dünya ancaq pərilər məkanı ola bilərdi. Hər iki sənətkarın qadın obrazını müqayisə etdikdə romantikanı açıq şəkildə duymaq olar. Həmçinin hər iki pəri obrazı məşuqə rolundadır və muradlarına çatırlar. Xətainin qadın obrazı nazlı, tənəli olsa da, Hamidinin Bədiəlcamal obrazı bir o qədər cəsurdur. Bu mifoloji obrazlar zərif duyğular sahibi, ürəkdən sevən qadın obrazlarıdır.

ƏDƏBİYYAT

1.Azərbaycan ədəbiyyat tarixi. Altı cilddə. lll cild, Bakı: “Elm”, 2009.
2. Babayev Y.M. Azərbaycan ədəbiyyat tarixi (XIII-XVIII əsrlər). Dərslik. Bakı, “Elm və təhsil”, 2014.
3. Məhcur Şirvani. Qisseyi-Şirzad. Hamid. Seyfəlmüluk. Bakı, Gənclik, 1985.
4. Səfərli.Ə., X.Yusifli. “Azərbaycan ədəbiyyat tarixi (qədim və orta əsrlər)”, Bakı, “Ozan”, 2008.
5. Şah İsmayıl Xətayi. Əsərləri. Bakı, "Şərq-Qərb", 2005.

Fidan İlqar gizi Hasanova

MYTHİCAL FEMALE CHARACTERS İN MEDİEVAL NATİVE POEMS

SUMMARY

The article looks at Azerbaijani medieval literature. Here we get acquainted with colorful images of women. These female characters differed in their individual characteristics and, at the same time, in their position in the work. The images of women portrayed in the works of genius artists of the time are sometimes not ordinary people. They were a different creature. Given this, it should be noted that the works depicting these different images of women are also different from others.

It is noted that we come across such female images in the works of our poets Shah Ismail Khatai and Hamid, who wrote and created during this period. Khatai's "Dahnama" and Hamidi's "Seyfalmuluk" poems are clear examples of this. These female characters are different from ordinary people. Because the women created by Khatai and Hamidi were fairies.

One of the highlights of the article is the contrast between the inner world of these fairies and their appearance. These women are very beautiful. However, the fairy, a female copy of Khatai's "Dahnama", has a completely different image in her individual character. Similarly, we see that Bedieljamal, the fairy-tale heroine of Hamid's "Seyfalmuluk", is also different.

In the end, it should be noted that when we look at the appearance of these female figures, we are confronted with a beauty of fairies. The epithets and parables used by the artists in connection with the appearance of these female images were a kind of unity with the inner world of fairies.

Key words:woman, mythology, fairy, mistress, love

Фидан Илгар кызы Гасанова

МИФИЧЕСКИЕ ЖЕНСКИЕ ОБРАЗЫ В СРЕДНЕВЕКОВЫХ ТУЗЕМНЫХ ПОЕМАХ

РЕЗЮМЕ

В статье рассматривается азербайджанская средневековая литература. Здесь мы знакомимся с красочными образами женщин. Эти женские персонажи различались своими индивидуальными особенностями и в то же время своим положением в произведении. Образы женщин, изображаемых в произведениях гениальных художников того времени, порой непростые люди. Они были другим существом. Учитывая это, следует отметить, что произведения, изображающие эти разные образы женщин, также отличаются от других.

Отмечается, что такие женские образы мы встречаем в произведениях наших поэтов Шаха Исмаила Хатаи и Хамида, писавших и творивших в этот период. Яркими примерами этого являются поэмы Хатаи «Дахнама» и Хамиди «Сейфальмулук». Эти женские персонажи отличаются от обычных людей. Потому что женщины, созданные Хатаи и Хамиди, были феями.

Одним из ярких моментов статьи является контраст между внутренним миром этих фей и их внешностью. Эти женщины очень красивы. Однако фея, женская копия «Дахнамы» Хатаи, имеет в индивидуальном характере совершенно иной образ. Точно так же мы видим, что Бедиэлджамал, сказочная героиня хамидовского «Сейфальмулук», тоже другая.

В заключение следует отметить, что когда мы смотрим на внешний вид этих женских фигур, мы сталкиваемся с красотой фей. Эпитеты и притчи,

используемые художниками в связи с появлением этих женских образов, представляли собой некое единение с внутренним миром фей.

Ключевые слова: женщина, мифология, фея, любовница, любовь

Redaksiyaya daxil olma tarixi: 18.05.2022
Çapa qəbul olunma tarixi: 07.06.2022
Rəyçi: ***dosent Məhərrəm Vəliyev***
tərəfindən çapa tövsiyə olunmuşdur

ADIGÖZƏLLİ LAÇIN FİRDOVSİ
BAAU-nun Ümumi filologiya
kafedrasının magistrantı
lacinadigozelli@mail.ru
Əlaqə nömrəsi: +994705984143

MİXAİL BULQAKOVUN YARADICILIĞINDA TƏBİƏTƏ QARŞI DAYANAN İNQİLABİ TƏCRÜBƏ MOTİVİ.

Xülasə

XX əsr ədəbiyyatı bir çox ədəbi cərəyan və üslubların yaranması ilə xarakterizə olunur ki, bu sırada elmi-fantastika ayrıca janr səciyyəsi baxımından fərqlənir. Ayrı-ayrı yazıçıların yaradıcılığında müxtəlif forma və şəkillərdə özünü göstərən elmi fantastika ədəbi yöndə kor-koranə şəkildə deyil, insan zəkasını qabaqlayan ideya, hadisələrin məzmununa bağlı yaranmışdır. Elmi-fantastik üslub hər şeydən öncə zamana, yarandığı dövrün elmi nailiyyətləri və düşüncəsində fikir olaraq formalaşmış, nəticədə incəsənətin müxtəlif sahələrini əhatə etmişdir. Məqalədə bu kontekstdə elmi–fantastikanın yaranması, ideya-fikir qaynaqları, janr xüsusiyyətləri və ayrıca dünya ədəbiyyatında nümayəndələri haqqında məlumat verilmişdir. Elmi–fantastik görüşlərin ibtidai təsəvvürlərdən qaynaqlanması və yazılı mədəniyyətə transformasiyası da ayrıca diqqət mərkəzində saxlanılmışdır. Xüsusilə, XIX əsr ingilis ədəbiyyatının görkəmli nümayəndəsi Herbert Corc Uellsin " Doktor Moronun adası" əsəri və XX əsr rus ədəbiyyatının məşhur yazıçısı Mixail Bulqakovun " İt ürəyi" və " Ölümcül yumurtalar" əsərləri təhlil edilmişdir. Qeyd olunan əsərlərdə elmi–fantastikanın mahiyyəti araşdırılmış, təkamül və inkişafa qarşı dayanma motivi üzərindən əsərlərin satirik məzmunu, fəlsəfi düşüncə, məna istiqamətləri ortaq xüsusiyyətlər əsasında müqayisə edilmişdir. Həmçinin məqalədə M. Bulqakovun siyasi baxışları, müasir Moskvanın timsalında cəmiyyət, hadisələrə, konkret olaraq Sovet Rusiyasına münasibəti "İt ürəyi" və "Ölümcül yumurtalar" əsərlərinin mətn simvolikasında aşkar edilmişdir.

Açar sözlər : elmi-fantastika, satira, M. Bulqakov "İt ürəyi", M.Bulqakov "Ölümcül yumurtalar", H.C. Uells " Doktor Moronun adası".

Giriş

XX əsr ədəbiyyatında böyük əks-səda doğuran ədəbi hadisələrdən biri də elmi-fantastika janrının yaranıb inkişaf etməsi idi. Bu tarixi mərhələdə elm və texnologiyanın yüksək şəkildə inkişafı birbaşa ədəbiyyata da təsir etmiş və müxtəlif yazıçılar tərəfindən insan zəkasını aşan əsərlər yaranmasına səbəb olmuşdur. " Elmi-fantastika" termini ilk dəfə Hüqo Gernsback adlı amerikan elektrik mühəndisi tərəfindən istifadə edilmişdir. Hüqo Gernsback populyar elmi jurnalların məzmununu mücərrəd və darıxdırıcılıqdan xilas etmək məqsədilə yazdığı hekayələri " scientific

fiction (elmi fantastika) və ya " scientification" (elmləşdirmə) kimi adlandırıb. Bu adlandırma sonralar qısaldılaraq " science-fiction"-a (elmi-fantastik) çevrildi"[3, s. 262]. Fantastik janr və üsluba Corc Herbert Uells, Ayzek Azimov, Rey Bredberi , Aleksandr Belyayev, Pyer Bul, Artur Klark , Fred Tomas Saberhagen, Con Kristofer, Vatslav Kaydoş, Sinitsi Xosi, Robert Haynlayn, Robert Şekli, Stiven Kinq, Deymon Nayt, Roman Podolnı, Dmitri Bilenkin , Edmond Hamilton, Endrü Norton , Alfred Van Voqt, Mişel Demüt, Yanuş Şablitski , Nils Nilsen və s. ədiblər öz yaradıcılıqlarında daha çox istinad etmişdilər. " Elmi-fantastika janrı Avropada ortaya çıxıb və Amerikada inkişafını davam etdirib. Bugünkü nöqteyi-nəzərdən elmi-fantastika bütün xüsusiyyətlərinə görə təhlil edildikdə 1962-ci ildə Nyu Yorkda öz təsirini göstərməyə başlayıb, lakin bu o demək deyil ki, daha əvvəllər yazıçılar elmi-fantastika yazmayıblar və ya insanlar onu oxuyub dəyərləndirməyiblər. Burada , xüsusilə, Ernst Teodor Amadeus Hoffmanm və Edqar Alan Ponun 19-cu əsrin birinci yarısında baş verən maraqlı hadisələr və robotlar barədə elm və texnologiyadan istifadə etməklə inandırıcı əsərlər yazdıqlarını qeyd etmək olar" [5, s.16-17] . Bu gün ədəbiyyatşünaslıqda da mübahisə doğuran məqamlardan biri də məhz fantastikanın nə vaxt yaranmasıdır. Əvvəldə qeyd etdiyimiz kimi 19 və 20-ci əsrləri fantastika janrının ən yüksək mərhələsi hesab edilir, ancaq nağıllarda, əfsanələrdə, dastanlarda rast gəldiyimiz fantastik elementləri də unutmamalıyıq. Eləcə də antik dövrdən ta 19-cu əsrə qədər olan dövrdə yaranan ayrı-ayrı əsərlərdə də fantastik elementlərə rast gəlirik. "Empirik fikrin və empirizm hərəkatının yayılması nəticəsində antik dövrdə filosoflar və xəyalpərəstlər fantaziyalarına əsaslanaraq dünyanı izah etməyə çalışmışsa da, elm də dünyanı izah etmək üçün nəzəriyyələr ortaya atmağa başladı. Bədii ədəbiyyat isə təbiət və insanlarla bağlı mümkün senarilər formalaşdıraraq gələcəyi görməyə çalışmışdır. Texnologiyanın inkişafı ilə reallıq təxəyyülü üstələməyə başlayanda alimlə yazıçının yolları bir daha kəsişdi : yazıçı xəyal edir, alim isə icad edir" [6, s.17]. Məhz XX əsr fantastika janrı yazıçıları da həm icad edirdilər, həm də bunu qələmə alırdılar.

1.Mixail Bulqakovun " İt ürəyi" əsərində satirik elmi-fantastika

XX əsr ədəbiyyatının görkəmli nümayəndələrindən olan Mixail Bulqakovun yaradıcılığında da elmi-fantastika janrı "İt ürəyi", "Ölümcül yumurtalar" əsərlərində yazıçıya məxsus şəkildə özünü göstərir. Hər iki əsərdə yazıçı insan təkamülünə müdaxilə etməkdən bəhs edir, bununla yanaşı hər iki əsər sovet ideyalogiyasına qarşı kəskin satirası ilə də seçilir. "İt ürəyi", eləcə də "Ölümcül yumurtalar" povestində fantastik situasiyaların yaradılmasının əsasında o illərin elmi həyatına aid olan real hadisələr yox, yazıçının öz dövrünə aid edilən bir sıra elmi eksperimentlər dayanır [10, s.51]. " İt ürəyi" əsəri 1925-ci ildə yazılmasına baxmayaraq uzun müddət Sovet Rusiyasında qadağan edilmiş , yalnız 1987-ci ildən oxuculara təqdim olunmuşdur. Əsərdə 1924-cü ildə Moskvada məşhur olan professor Filip Filippoviç Preobrajenskinin Şarik adlı bir it üzərində apardığı uğursuz eksperimentdən bəhs edilir. "Professor Preobrajenski cavanlaşdırma problemi ilə məşğul olur. Onun

məqsədi zamana qalib gəlməkdir, yəni insanda qocalmaya səbəb olan orqanlara qalib gəlməkdən ibarətdir. Cavanlaşma problemi ilə əlaqədar olaraq əsas mərkəzi düşüncə müxalifəti təzə-köhnə hesab edilir ki, bu da öz növbəsində həyat-ölüm ziddiyətinə çevrilir. Yenilənməyə yönəldilmiş bioloji eksperiment sosial eksperiment ilə konfliktə girir. Hansı ki, bu sosial eksperiment də yeni insan yaradılmasına xidmət edən bir eksperimentdir" [16, s.3] . Professor yaratdığı yeni insan tipi ilə öz dövrünə etiraz etməklə yanaşı insan təkamülünü yaxşılaşdırmağa çalışırdı. Eksperimentin uğursuz alınmasının səbəbi isə professorun günahı yox, Şarikova köçürdüyü orqanların Klim Çuqunov kimi içki düşgünü, oğru bir insana məxsus olması idi. Professor özü də qeyd edir ki, o yevgenika- insan nəslini bioloji yolla yaxşılaşdırmaq barəsində fikirləşirdi, ancaq o insanı cavanlaşdırmağa layiq oldu. Bu fikrin doğruluğunu professorun köməkçisi Bormentalla dialoqunda açıq-aydın şəkildə görə bilərik. Eksperimentləri uğursuz olduqdan sonra Bormentl Filip Filipoviçə sual verir ki, Şarikə köçürülən beyin Spinozanın beyni olsaydı, eksperiment uğurlu olardı mı? Filip Filipoviç isə cavab verir : "Spinozanı, ya da başqa bir qulyabanını calaq eləyib, itdən yüksək varlıq düzəlmək olar. Ancaq soruşan lazımdır – bu kimə gərəkdir? Məni başa salın görüm, hər bir qadın lazım gələndə onu doğa bilirsə, süni surətdə Spinoza yaratmağın nə mənası? Məgər madam Lomonosova Xolmoqorda öz məşhur övladını doğub dünyaya gətirmədi ?! Doktor, bəşəriyyət özü bunun qayğısına qalır, təkamül yoluyla hər il inadla alçaq kütlə içərisindən yer üzünü bəzəyən onlarca dahi ayırıb yetişdirir. İndi aydındırmı ki, doktor, Şarikovun xəstəlik tarixçəsi ilə bağlı sizin çıxardığınız nəticəni nə üçün mən alt-üst etdim? Mənim kəşfim-onu lənətə gəlsin, bilirəm ki, siz onunla yaşayırsınız-bir qara qəpiyə dəyməz...Nəzəri cəhətdən maraqlıdır. Di yaxşı! Fizioloqlar heyran qalacaqlar. Bütün Moskva dəli olacaq...Bəs təcrübi baxımdan? Sizin qarşınızdakı kimdir axı ?- Preobrajenski barmağı ilə Şarikov yatan müayinə otağına işarə elədi" [1, s.109] . Buradan da belə nəticəyə gəlirik ki, professor sadəcə bir iti insana çevirməklə bir elmi yenilik etmək istəmir, o həm də bəşəriyyətin qayğısına qalmağa çalışır. Romanda yevgenika məsələsi ilə yanaşı sovet dövrünə etiraz, yeni yaranan cəmiyyətin əslində insanları necə bir uçuruma apardığı məsələsi də qoyulmuşdur. Bu özünü Poliqraf Poliqrafoviç Şarikovun simasında açıq-aydın şəkildə göstərir. "Qəhrəmanın mədəni səviyyəsinin aşağı olması səbəbindən seçdiyi ad professoru və onun şagirdi Bormentalı əsəbiləşdirir. Povestin inkişaf etmək səviyyəsi hər bir şeydə, hətta adın seçilməsində də özünü göstərir. Təsadüfi deyil ki, bir müddət ötəndən sonra hakimiyyət sturukturlarına yol tapmış Şarikov həyasız və təhsilsiz bir insan olaraq təqdim edilir, həm də unutmaq lazım deyil ki, köpəyə köçürülmüş orqanlar elə eyni səviyyəli bir insanın orqanları idi. Klim Çuqunovdan normal, yüksək təhsilli insan olacağına inam az idi" [8, s.177]. Əsər boyu professorla Şarikovun dialoqlarında da onların siyasi baxışları özünü göstərir. Şarikov Bormental və professorla söhbət zamanı Engels və Kautskinin yazışmasını oxuduğunu dedikdə hər ikisi donub qalır. Şarikov bildirir ki, onlarla razı deyil. İnsanlar arasında mülkiyyətin bərabər şəkildə bölünməsinin tərəfdarı olduğunu qeyd

edir və mənzil probleminə toxunur. Bir faktı da qeyd etmək lazımdır ki, " Master və Marqarita" romanında həmin dövrdə Moskva cəmiyyətində mövcud olan mənzil problemi, yeni yaranan cəmiyyətin insanları necə məhv etdiyi " İt ürəyi" povestində də özünü göstərir. Professor Preobrajenski mənzili ilə bağlı tez-tez problemlər yaşayır. Bununla yanaşı Li Na " M. Bulqakovun " Moskva trilogiyası"nda Moskva haqqında mif (" İblis", "Ölümcül yumurtalar", "İt ürəyi")" dissetasiyasında Volandla Preobrajenski arasında olan oxşarlıqlarla bağlı maraqlı bir faktı qeyd edir : " Xatırladaq ki, Voland da özünü ağıllı, zəhmətkeş cənab kimi " qara magiya" nın professoru kimi tədqim edirdi, onun zahiri görünüşü isə Berliozu və İvan Bezdomnını onu xarici vətəndaş kimi qəbul etməyə vadar etmişdir. Fransız cəngavərləri ilə bəzi oxşarlıqları olan Preobrajenski isə fransız kraliçasının nəslindən özünü hesab edirdi, hansı ki, həmin kraliçanın ulu nəticəsi Marqarita idi" [9, s. 108]. Qəhrəmanlar arasında oxşarlıqlarla yanaşı hər iki əsərin taleyində də ortaq cəhətlər tapmaq mümkündür. Belə ki, hər iki əsər öz dövründə böyük əks-səda doğurmuş və uzun müddət qadağan edilmişdir, çünki hər iki əsər birbaşa olaraq XX əsr cəmiyyətini tənqid etmişdir. " " İt ürəyi" kolliziyası açıq-aydın şəkildə 20-ci illərin ideyalarını parodiya edirdi, hansı ki bu ideyalar da yeni insanın doğuluşunu, yeni insanın yaradılmasını özündə birləşdirirdi. Bu cür əsərlər isə sovet ədəbiyyatında " sosial sifarişlə" yazılmış ədəbiyyatlar hesab olunurdu" [15, s.11].

2. M. Bulqakov və Herbert Corc Uellsin " Doktor Moronun adası" romanında elmi-fantastik təcrübə

"İt ürəyi" povestindən danışırıqsa, mütləq şəkildə ingilis ədəbiyyatından Herbert Corc Uellsin də adını qeyd etməliyik. İngilis ədəbiyyatında elmi-fantastikanın atası hesab olunan Herbert Corc Uells " Vaxt maşını" , " Görünməz adam", " Dünyaların müharibəsi", " Yatan oyananda", "Azad edilmiş dünya" və s. kimi məşhur romanların müəllifidir. M. Bulqakov povestin fabulasını yazıçının məşhur " Doktor Moronun adası" əsərindən götürmüşdür. 1896-cı ildə yazılmış romanda Sakit okeanda gəmi qəzası nəticəsində bir adaya düşmüş Edvard Prendikin 10 ay ərzində bu adada başına gələn hadisələrdən bəhs olunur. Əsərin giriş hissəsində hadisəni danışan şəxs dayısı Edvard Prendikin qeydlərini tapdığını və onu çap etdirdiyini bildirir. Bundan sonra əsər Prendikin dilindən nəql olunur. Heyvan-insan yaradan Doktor Moronun adasında gördüyü dəhşətlər onun psixologiyasına uzun müddət təsir edir. Viviseksiya ilə məşğul olan Doktor Moro bir vaxtlar heyvanlar üzərində apardığı qəddar eksperimentlərinə görə İngiltərədən qovulmuşdu və bundan sonra öz fəaliyyətini bu adada davam etdirmişdir. Doktor Moro adada olduğu müddətdə meymun-adam, ərincək-adam, kaftar-donuz, satir-adam, camış-adam, insan-it, puma-adam, canavar-adam, insan-it kimi heyvan-adamlar yaradır. " İnsanlar dahiləri nadir hallarda başa düşə bilirlər, ancaq onların ölümündən sonra dahilərin böyüklüyünü anlaya bilirlər. Dahilərin müasirləri isə onları qəbir evinə göndərmək üçün sanki hər şey edirlər. Bir zamanlar insanlar tərəfindən anlaşılmayan Nitsşe özü də deyirdi ki, bu cür münasibət insanlara xas olan münasibətdir. Moro deyirdi ki,

təbiətin öyrənilməsi sonda insanı təbiətin özü qədər amansız edir. Bu ifadə istedadlı alimin xarakterini başa düşmək üçün əsas açardır" [7, s.27]. Heyvanlar üzərində apardığı təcrübələr Doktor Moronu həqiqətən də qəddar birinə çevirmişdi. Bir şeyi də qeyd etmək lazımdır ki, Doktor Moro özünü yaratdığı canlıların Tanrısı hesab edirdi. Onun yaratdığı heyvan-insanlar bir növ ibtiadi insanları xatırladırdı. Doktor Moro onların beynində özünü ilahiləşdirən bir inam yaratmışdı. Əsərin "Qanun carçıları" başlığında Prendik mağarada heyvan-insanlarla qarşılaşır və onlar mahnı şəklində bu cümlələri təkrar edirlər : " Dörd ayaq üstündə gəzmək olmaz – bu qanundur" , " Suyu dillə yalamaq olmaz – bu qanundur" , " Nə ət, nə balıq yemək olmaz – bu qanundur. Bəyəm biz insan deyilik ? ", "Caynaqlarla ağacın qabığını soymaq olmaz – bu qanundur", "Başqa adamları ovlamaq olmaz – bu qanundur. Bəyəm biz insan deyilik? Və sair belə müdhiş qadağalar" [2, s.70] . Bu deyilənləri Prendik anlamağa çalışarkən heyvan-insanlar yeni formulanı oxumağa başlayırlar. " Əzablar evi ona məxsusdur" , " Onun əli yaradandır", " Onun əli şəfa verəndir", " İldırım onundur", " Dərin, duzlu dəniz onundur", " Göydəki bütün ulduzlar ona məxsusdur" [2, s. 70 -71]. Bu cümlələrdəki "O" məhz doktor Moro idi. Moro onların tanrısı idi, hətta Moro onlar üçün özünəməxsus şəkildə bir din də yaratmışdı , desək, daha doğru olar, çünki Moro bir gün yaratdığı canlıların ona qarşı çıxacağından qorxurdu. Qeyd edək ki, əsər yazıldığı dönəmdə Darvinin nəzəriyyəsi cəmiyyət arasında populyar idi və H.C. Uells də bu nəzəriyyəni gündəmə gətirirdi. Təkcə Darvin deyil, onun yaxın dostu Tomas Hakslinin dünyada gedən 2 proses haqqında təlimi də əsərin fəlsəfi əsasını təşkil edir. Əsərdə yaradılan heyvan-insanlardan biri də məhz meymun-insan idi və H. C. Uells 1895-ci ildə yazdığı " İndividual plastikliyin sərhədləri" adlı qısa essesində qeyd etmişdir ki, viviseksiya təcrübələri nə vaxtsa elmi-fantastikanın sərhədlərindən çıxsa, romanda təsvir olunanların reallaşması mümkündür, ancaq hələ elm buna nail ola bilməmişdir. "Doktor Moronun izahatları" başlığının özünəməxsus tezisləri 19 yanvar 1895-ci ildə «Tez baxış» da imzasız çap edilmişdir. Bu romanın nəzərdə tutulan çapından bir il əvvəl baş vermişdir və bu plastik əməliyyatların istifadə edilməmiş imkanları haqqında elmi-populyar oçerk şəklində çap edilmişdir. Buna görə də romanın həmin başlığını təkcə müəllifin fantastik düşüncələr toplusu kimi qəbul etmək düzgün deyil. Orada yazılan nə vardırsa, Uells tam ciddi şəkildə qəbul edirdi və beləliklə bir çox alimlər onu başa düşürdülər , o alimlər ki , köçürülmüş orqanları inkar edirdilər, yəni belə demək daha doğru olardı ki, həmin alimlərin fantaziyalarının uçuşu dayandırılmış oldu. Bəzi hallarda alimlərin yaranmış maneələri aşmaq cəhdləri uğur da qazana bilirdi. Beləliklə də, əslində Uellsin düşüncələri bəzi alimlər tərəfindən qəbul edilirdi, hansı ki həmin alimlər bunları romanın çapından bir neçə on il ərzində dəyərləndirirlər" [11,s.158-159]. Prendik gördüklərindən sonra özünün də qurbana çevriləcəyindən qorxub qaçır , doktor Moro və Montqomeri tərəfindən tapıldıqdan sonra Moro ona təcrübələrini izah edir. Prendik onlara əzab verdiyini dedikdə isə onu materialist adlandırır və əzab barədə deyir : " Ah, bu, o qədər cüzi, əhəmiyyətsizdir

ki! Həqiqi mənada elmi idrak onun nə qədər cüzi olduğunu başa düşməlidir ! Bəlkə də, bizim bu balaca dünyamızı, bu kosmik tozcuq yumağını çıxmaq şərti ilə , heç bir başqa dünnyada, heç bir planetdə " əzab" adlandırdığımız məhfum yoxdur...Hətta bizim yaşadığımız bu dünyanın özündə belə , hətta canlılar arasında – axı " əzab" əslində nədir" [2,s.89]. Doktor Moro bununla da qeyd edir ki, əslində əzab anlayışı yoxdur , o , bu canlıları Allahın yaratdıqları kimi yox, tapmaca kimi qəbul edir. Özünün də qeyd etdiyi kimi Moro artıq amansız, rəhmsiz birinə çevrilmişdi. Sonda isə Moro və Montqomeri heyvan-insanların qurbanına çevrilirlər və bundan sonra Prendik sağ qalmaq üçün heyvan-insanları özünə tabe edir , sonda isə həmin heyvan-insanlar yavaş-yavaş heyvan instinktlərinə geri qayıdırlar. Prendik xilas olduqdan sonra bir müddət insanlardan uzaq bir kənddə yaşayır və həyatını kimyəvi təcrübələrə həsr edir.

3. Mixail Bulqakovun " Ölümcül yumurtalar" povestində təbiətə qarşı dayanma motivi

XX əsrdə böyük əks-səda doğuran əsərlərdən biri də M. Bulqakovun "Ölümcül yumurtalar" əsəri idi. Əsər 1924-cü ildə yazılmışdır və " İt ürəyi" povestində olduğu kimi hadisələr Moskvda cərəyan edir. Zoologiya professsoru Vladimir İpatyeviç Persikov amöblər üzərində təcrübə aparır və professor Preobrajenskinin təcrübəsi kimi onun nəticələri , təəssüf ki, uğursuz olur, ancaq onu da qeyd etməliyik ki, professor Persikov öz dövrünün məşhur alimlərindən idi . Hətta əsərdə onun köməkçisi İvanov professorun təcrübəsini H. C. Uellsin əsərləri ilə müqayisə edir və deyir : " H. C. Uellsin qəhrəmanları belə sizinlə qarşılaşdırıla bilməz. Onun qəhrəmanlarının xəyalın məhsulu olduğunu düşünürdüm" [4, s. 20]. Bu müqayisəni İvanov professorun yeni kəşfindən sonra deyir. " Ölümcül yumurtalar" əsərində də yazıçı təkamülə müdaxilə problemini diqqət mərkəzinə çəkir. "Sivilizasiyanın təkamülü ideyasının Homo sapiensin təkamülü ilə əlaqələndirilməsi M. Bulqakovun bu məsələyə baxışına uyğundur. Əslində "Ölümcül yumurtalar" povestinin müəllifi oxucunun diqqətini sivilizasiyanın təkamülü prosesinə dünyəvi proses olaraq yönəldir ki, bu prosesdə də insanlar şüurlu və şüursuz şəkildə iştirak edirlər. " İt ürəyi" povestində Homo sapiensin təkamülü prosesi qoyulur. Qeyd etmək lazımdır ki, professor Preobrajenskinin tədqiqatları işığında o vaxtki buzlaşma dövründən sonra yer üzərində insan mövcud olmuşdur, o zaman yaşamaq uğrunda mübarizədən yaxşı inkişaf etmiş beyinlər çıxarmışdır" [17]. Professor Persikovun kəşfi canlının tez böyüməsinə və həddən artıq böyük olmasına səbəb olurdu. Həmin dövrdə Moskvada toyuq vəbası xəstəliyindən ölkədəki bütün toyuqlar ölür və professor xaricdən toyuq yumurtaları gətizdirərək onlar üzərində təcrübə aparmaq qərarına gəlir, amma toyuq yumurtaları əvəzinə ilan və timsah yumurtaları göndərilir və fəlakət də bundan sonra başlayır. Nəhəng varlıqlar insanları məhv edir. Əsərin sonunda da Persikov dolayı yolla da olsa, iştirak etdiyi fəlakətin qurbanına çevrilir.

" İt ürəyi" əsəri kimi " Ölümcül yumurtalar" povesti də birbaşa Sovet Rusiyasına qarşı yazılmış bir satirik əsər idi. Əsərdə qırmızı ışının kəşf olunması ilə

əslində 1917-ci il bolşevik inqilabından sonra qırmızılar və ağlar arasında gedən mübarizə zamanı yaranan vəziyyət öz əksini tapmışdır. Əsərdə təsvir olunan nəhəng ilan və timsahlar əslində simlovik xarakter daşıyır, bununla yazıçı əslində öz dövrünün " canavarları" nın cəmiyyəti necə məhv etdiyini göstərməyə çalışdığını desək, yanılmarıq. " Persikovun obrazı da Lenini çox xatırladırdı: gözəl baş, yanlara çıxmış sarı saçlar. Persikovun simasında həmişə şıltaq bir ifadə olurdu. Onun qırmızı burnunda köhnə dəbli, balaca gümüşü eynəyi olurdu. Balaca parıldayan gözləri, hündür boyu var idi. O, nazik, xırıltılı səslə danışırdı və digər qəribəlikləri arasında belə bir xüsusiyyəti də var idi : Hansısa ciddi və inamlı bir məsələ barəsində danışanda sağ əlinin şəhadət barmağını qarmağa çevirirdi və gözlərini ovuşdururdu. Həmişə əminliklə danışdığından və öz sahəsindəki erodusiyası tamamilə fenomenal olduğundan həmin barmaq Persikovun həmsöhbətlərinin gözü qarşısında tez-tez peyda olurdu. Burada Leninlə oxşarlıq təşkil edən cəhətlər aşağıdakılar idi : xarakterik sarı saçlı keçəl baş, natiqlik jesti, danışıq manerası və nəhayət Lenin haqqında miflərə daxil olmuş göz qıyması" [13]. Həmçinin onu da qeyd etmək lazımdır ki, Persikov və Lenin təkcə xarici görünüş baxımından bənzəmirdilər, həm də hər ikisi bir növ Rusiyanın məhv olmasına səbəb olmuşdular. M. Bulqakovun alleqoriyası daha açıq-aşkar olur. Nəzəriyyəçi alimin praktikada yüngül qəbul olunan kəşfləri ağır və faciəvi nəticələrə gətirib çıxardı. Professor Persikovun laboratoriya eksperimentləri və kəşfləri M. Bulqakovun analogiyasında bolşeviklərin Rusiyanın üzərində apardığı eksperimentlər kimi oldu [14].

" " Ölümcül yumurtalar" povesti ilə M. Bulqakov sosial-mədəni inqilabi konsepsiya ilə polemikaya girdi ki, həmin konsepsiyada müasir Sovet Rusiyasında dövlət xilaskar proqramı kimi təsdiq edilmişdir. Povest yazmanı konkret tarixi illuziyalarla zənginləşdirən yazıçı oxucu assosiyasını müasir inqilabi hərəkətlərlə zənginləşdirmiş oldu. Bununla da o , satirik utopiyaya pamflet xarakter vermiş oldu. Nəticədə utopik reallığın şərtiliyi bir qədər aşkarlanmış oldu və bu elmi-fantastik düşünülmüş aləm daha konkret satira xarakteri almış oldu. Bu öz-özlüyündə Rusiyanı inqilabi dəyişikliklərə aparmaq istəyən doktrinaya və hakimiyyət daşıyıcılarına yönəlik bir satira idi ki, həmin o hakimiyyət orqanları ölkəni məhvə doğru aparırdılar" [12, s. 30]. Beləliklə də, M. Bulqakov təkamülə qarşı dayanma motivini satirik şəkildə qələmə almaqla öz dövrü,cəmiyyətini fəlakətə sürükləyən problemləri tənqid hədəfinə çevirmişdi.

Nəticə : Sonda gəldiyimiz nəticə isə ondan ibarətdir ki, həm H. C. Uells, həm də M. Bulqakov əsərlərində təkamülə qarşı çıxış etməklə əslində bəşəriyyəti yaxşılaşdırmağa çalışırdılar. Hər üç əsərin qəhrəmanının eksperimentlərinin uğursuz nəticələnməsi isə dolayı yolla onların günahı yox, elm və texnologiyanın təbiətə qarşı etiraz etmək gücündə inkifaş edə bilməməsində idi. Öz zəkaları ilə dövrlərinə üstün gələn yazıçılar müxtəlif fəlsəfi konsepsiyaları, satiranı da diqqət mərkəzində saxlamışlar. Xüsusilə də, M. Bulqakov Sovet Rusiyasına olan münasibətini, yaşadığı dövrün ziddiyyətlərini vurğulamağa çalışmışdı.

MOTIVATION OF THE REVOLUTIONARY EXPERIENCE AGAINST NATURE IN THE CREATIVITY OF MIKHAIL BULGAKOV.

Summary

. Twentieth-century literature is characterized by the emergence of many literary trends and styles, in which science fiction differs in terms of individual genre characteristics. Science fiction, which manifests itself in various forms and images in the works of individual writers, is not blindly created in the literary direction, but the idea that precedes the human mind, the content of events. The science fiction style was formed, first of all, as an idea in time, in the scientific achievements and thinking of the period in which it was created, and as a result, it covered various fields of art. The article provides information about the emergence of science fiction in this context, sources of ideas, genre features and their representatives in the world literature. Special attention was paid to the origin of science fiction meetings from primitive ideas and their transformation into written culture. In particular, "The Island of Dr. Moro" by Herbert George Wells, a prominent representative of 19th century English literature, and "Heart of a Dog" and "Deadly Eggs" by Mikhail Bulgakov, a famous writer of 20th century Russian literature, were analyzed. The essence of science fiction was studied in the mentioned works, the satirical content, philosophical thinking, meaning directions of the works were compared on the basis of common features on the motive of standing against evolution and development. The article also reveals M. Bulgakov's political views, society in the example of modern Moscow, attitude to events, specifically to Soviet Russia, in the text symbolism of the works "Heart of a Dog" and "Deadly Eggs".

Keywords: science fiction, thought, satire, genre, style, M. Bulgakov "Dog's heart", M. Bulgakov "Deadly eggs", H.C. Wells "Dr. Moro's Island"

МОТИВАЦИЯ РЕВОЛЮЦИОННОГО ОПЫТА ПРОТИВ ПРИРОДЫ В ТВОРЧЕСТВЕ МИХАИЛА БУЛГАКОВА.

Резюме

Для литературы XX века характерно появление многих литературных направлений и стилей, в которых научная фантастика различается по жанровому признаку**.** Научная фантастика, проявляющаяся в различных формах и образах в произведениях отдельных писателей, создавалась не слепо в литературном направлении, а в связи с идеей, содержанием событий, предшествовавших человеческому разуму. Стиль научной фантастики формировался, прежде всего, как представление о времени, научных достижениях и мышлении периода, в который он создавался, и в результате охватывал различные области искусства. В статье представлена информация о возникновении научной фантастики в этом контексте, источниках идей, жанровых особенностях и их представителях в мировой литературе. В центре

внимания также происхождение научно-фантастических собраний от первобытных идей и их превращение в письменную культуру. В частности, «Остров доктора Моро» Герберта Джорджа Уэллса, видного представителя английской литературы XIX века, «Собачье сердце» и «Мертвые яйца» Михаила Булгакова, известного писателя русской литературы XX века, были проанализированы. В названных произведениях исследована сущность научной фантастики, сопоставлены сатирическое содержание, философское мышление, смысловые направления произведений на основе общих признаков по мотиву противостояния эволюции и развития. В статье также раскрываются политические взгляды М. Булгакова, общество на примере современной Москвы, отношение к событиям, конкретно к Советской России, в текстовой символике произведений «Собачье сердце» и «Мертвые яйца».

Ключевые слова: фантастика, мысль, сатира, жанр, стиль, М. Булгаков «Собачье сердце», М. Булгаков «Мертвые яйца», Х.К. Уэллс "Остров доктора Моро"

İstifadə olunmuş ədəbiyyat :

Azərbaycan dilində :

1. Bulqakov M. İt ürəyi. Bakı, “ Qanun” nəşriyyatı, 2019, 128 s.
2. Uells H.C. Doktor Moronun adası. Bakı, “ Qanun” nəşriyyatı, 2013, 162 s.

Türk dilində :

3. Alperen. A. Bilimkurgu romanlarindaki zaman ötesi dünya, Bilig-2/Yaz, 96, 261-265 s.
4. Bulgakov M. Ölümcül yumurtalar. İstanbul : “ Zeplin kitap” yayınları, 2020, 96 s.
5. Dağ. Ü. Geleceği geçmişle kurgulamak : bilim kurgu romanları ve çağcıllaştırılmış mitler. Doktora tezi, Eskişehir, 2019, 284
6. Edman T.B. Antik Mitlerden Bilim Kurguya ve Sinema Perdesine Bir Kahramanın Yolculuğu,

Aydın Türklük Bilgisi Dergisi, 2017, 11-22 s.

Rus dilində :

7. Горохов П.А. Философские идеи в фантастике Герберта Уэллса, Вестник огу №7 (126)/июль`2011.
8. Конышева Н.Ю. Ономастика в повестях М. Булгакова «Собачье сердце» и «Роковые яйца». Уральский филологический вестник № 5, 2015, 174-181 с.
9. Ли На. Миф о Москве в «Московской трилогии» М.А. Булгакова («Дьяволиада», «Роковые яйца», «Собачье сердце»), Москва, 2015, 189 с.
10. Садыхова С. А. Творчество М. Булгакова – Сатирика, Баку, «Адильоглу» , 2007, 133 с.
11. Ю. И. Кагарлицкий вглядываясь в грядущее . Книга о Герберте Уэллсе, Москва «Книга», 1989, 353 с.

İnternet qaynağı :

12.https://cyberleninka.ru/article/n/sotsialno-filosofskaya-satira-v-povesti-m-a-bulgakova-rokovye-yaytsa/viewer

13.https://englishyz.ru/reference/razmyshleniya-m-bulgakova-v-povesti-rokovye-yaica-rokovye-yaica/

14. https://lit.1sept.ru/article.php?ID=200403811

15.https://journals.kantiana.ru/upload/iblock/a9a/%D0%91%D0%B5%D1%80%D0%B4%D1%8F%D0%B5%D0%B2%D0%B0_105-115.pdf

16..https://cyberleninka.ru/article/n/traditsii-svyatochnogo-karnavala-v-poetike-m-a-bulgakova-zoykina-kvartira-sobachie-serdtse/viewe

17. http://bulgakov.lit-info.ru/bulgakov/kritika/hudzinska-parkosadze-fantasticheskie-povesti.htm

Redaksiyaya daxil olma tarixi: 18.05.2022
Çapa qəbul olunma tarixi: 07.06.2022
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Mətanət Abbasova tərəfindən çapa tövsiyə olunmuşdur

LALƏ ƏLIYEVA
Azərbaycan Turizm və Menecment Universiteti,
Bakı, Azərbaycan
lalaaliyeva830@mail.ru

"BEOVULF" POEMASININ ƏLYAZMASINA KONSEPTUAL BAXIŞ

XÜLASƏ

Bu araşdırmada anqlo-sakson və erkən dönəm latın ədəbiyyatının mükəmməl, kompleks və heyranedici əsərlərindən biri hesab edilən qədim ingiliscə yazılmış "Beovulf" poemasının əsas əlyazması təhlil edilir. Həmçinin, qədim ingilis dilinin ədəbi mənada təsdiqi prosesindəki rolu araşdırılır. "Beovulf" epik əsərin əsas əsəri hesab olunurdu. Epos döyüşçülərin və qəhrəmanların əməlləri haqqında geniş miqyasda uzun və yüksək üslublu poemadır. Bu, mif, əfsanə, xalq nağılı və tarixi özündə birləşdirən çox bucaqlı "qəhrəmanlıq" hekayəsidir. Həmçinin, poemanın ingilis dilində yazılmış ilk folklor nümunəsi kimi əhəmiyyəti də vurğulanır. Tədqiqatda həm də mötəbər və nüfuzlu tədqiqatçıların kitablarına istinadən şeirin quruluşu və mətn forması təhlil edilir. Üslub forması ilə sənətkarlıq arasındakı əlaqənin tədqiqi şifahi-formula nəzəriyyəsi elmə daxil edilməzdən əvvəl qədim ingilis dili araşdırmalarında əsas məsələ kimi götürülmüşdür. Bir neçə bu sahədə tədqiqatçıların fikirləri göstərilib. Bundan əlavə, qədim ingilis dilində yazılmış şeirlərinin tədqiqi zamanı belə bir yanaşma kənar baxışlar arasında əsas fikir kimi qəbul edilir. Məqalədə daha sonra qədim ingilis poeziyasının geniş linqvistik vasitələrə malik olduğundan bəhs edilir. Nəticə olaraq o qeyd olunur ki, poemanın yaranmasına bir sıra nüsxələrin töhfəsi olsa da, araşdırmada şeirin bir şəxs tərəfindən yazılması və sonra məzmuna əlavələr olunub. "Beovulf" dastanı kağıza köçürülməmişdən iki yüz və daha çox il əvvəl dəyişdirilsə də, folklor ənənəsi dəyişiklikləri məhdudlaşdırmışdır. Nəticədə, "Beovulf" poemasının yazılması tarixinin ehtimal kimi göstərilən vaxtı qeyd olunur. Bir neçə alimlərin iddia etdiyi "Beovulf" poeması qədim ingilis dili ədəbiyyatında ilk və ən böyük qəhrəmanlıq dastanı hesab edilir.

Açar sözlər: ədəbiyyat, qədim ingilis dili, Beovulf, poema, epos, folklor

Giriş

Anqlo-sakson və erkən dönəm latın ədəbiyyatının ən möhtəşəm, kompleks və heyranedici əsərlərindən biri olan "Beovulf" qədim ingiliscə yazılmış, müəllifi naməlum olan ən köklü eposlardan (folklor nümunələrindən) biridir. "Beovulf" poemasının əlyazmaları İngiltərədə yerləşən Britaniya muzeyində saxlanılır. Bu poema alliterativ sətrdən ibarətdir. Yəni eyni samit səslərin təkrarlanmasına yol

verilmişdir. Qədim ingilis dilində yazılmış qəhrəmanlıq epik poema hesab edilir. "Beovulf" poeması Anqlo-sakson ədəbiyyatının ən mühüm əsərlərindən biridir, və bir çox elmi araşdırma, nəzəriyyə, fərziyyə və diskurs mövzusu olmuşdur. Poema zəngin süjet xətti ilə yanaşı, obrazlar arasındakı əlaqələri göstərmək tez-tez istifadə olunan üçün təzadlar, paralellər və mətndaxili mənalarla doludur. Məhz bu səbəbdən də, poema ingilis ədəbiyyatı tarixində məzmun baxımından ən zəngin, ən mürəkkəb ədəbi konfiqurasiyaya malik əsərlərdən biri hesab olunur. Onun əlyazması günümüzə qədər qorunub saxlanmış və araşdırmalar üçün əsas istinad rolunda çıxış etmişdir. Poemada əsas personaj fövqəltəbii iblislərə və heyvanlara qarşı qeyri-mümkün ehtimallarla öz gücünü sübut etmək üçün böyük məsafələr qət edən bir qəhrəmandır. Qeyd olunduğu kimi, "Beovulf"un epik qəhrəman kimi ən mühüm xüsusiyyətlərindən bəziləri cəsarət, sədaqət, şərəf, fövqəlbəşəri fiziki güc və daha böyük xeyir üçün həyatını riskə atmağa hazır olmaqdır. Bu xüsusiyyətlər Beovulfun epik əməllərində, o cümlədən Grendel və Grendelin anasını öldürməkdə nümunə göstərilmişdir. "Beovulf"un narrativində 3 əsas hissə var: ilk hissədə Beovulf Heorot zalında Grendeli öldürür. İkinci hissənin süjet xətti isə bədheybət Grendelin anasının intiqamı üzərində qurulur və bu hissədə o da müstəqil bir qəhrəman kimi təsvir olunur. Geatas torpaqlarını ələ keçirmək uğrunda 50 illik müharibədən sonra əzəmətli Beovulf öz əhalisini dəhşətli əjdaha təhdidindən qorumaq üçün vətənə çağırılır [1, s.47].

Böyük mübarizənin nəticəsində həm Beovulf, həm də əjdaha həlak olur və daha sonra poemanın son sətirlərində Beovulfun qəhrəmanlıq və şücaəti tərənnüm olunur. Əvvəla onu qeyd edək ki, "Beovulf" poemasının ortaya çıxmasının tarixi 7-ci əsrin ikinci yarısına təsadüf edir. Bununla birlikdə, araşdırmaçılar arasında kəskin fikir ayrılıqları və müzakirələr mövcuddur. Şikinq və Uaytlokun (1951) araşdırmalarına görə, poemanın tarixi ən tezi 8-ci əsrin əvvəllərindən başlayır [2, s.55]. İstənilən halda, "Beovulf"un xronologiyasında yalnız bir neçə hadisəni tarixi faktlarla uzlaşdırmaq mümkündür. "Beovulf"un ilk əl yazmasının tarixi eramızın 1000-ci illərinin əvvəllərinə təsadüf edir. Sonrakı bütün əlyazmalar bu ilkin əlyazmalar əsasında hazırlanmış və ya ona əlavələr edilmişdir. "Beovulf"un günümüzə qədər gəlib çatmış ilk və yeganə həqiqi əlyazması "Cotton Vittellius A" hesab edilir, bu isə Londonda Britaniya Kitabxanasının "Nowell Codex"ində saxlanılır. İlk əlyazma 1000-ci ildə, Kral Æthelred-in hakimiyyəti dönəmində yazılmışdır. Bu zaman Danes xalqı ölkə üçün böyük təhdid təşkil edirdi və bütün xalq vahid düşmən ətrafında birləşmişdi [2, s.60]. 1751-ci ildə Britaniya Kitabxanasında yanğın çıxdı, əlyazma xoşbəxt bir təsadüf nəticəsində xilas edildi. Lakin bu yanğından sonra əlyazmanın olduğu kimi qalması məsələsi ətrafında da bir sıra spekulyasiyalar günümüzədək qalmaqdadır. Bugün anqlo-sakson tələbələri və araşdırmaçıları arasında belə bir fikir var ki, "Beovulf" əlyazması orijinal deyildir və sonrakı əsrlərlə dəyişdirilmiş və ya manipulyasiya olunmuşdur, nəticədə əsərə orijinalında olmayan xristian elementləri əlavə edilmişdir.

Bu məqalədə “Beovulf” poemasının əsas əlyazması əsasında təhlil aparılır və onun qədim ingilis dilinin ədəbi anlamda təsdiqi prosesində oynadığı rol tədqiq olunur. Araşdırmada, həmçinin, poemanın mətndaxili struktur və forması da təhlil olunur və bu zaman nüfuzlu və etibarlı tədqiqatçıların kitablarına istinad edilir.

1. “Beovulf” poeması qədim ingiliscə ilk yazılı folklor nümunəsi kimi

XIX əsrdən etibarən “Beovulf” poemasının tədqiqinə dair alovlu müzakirələr başlamışdır. Bu zamana qədər o qədər də yaxşı tədqiq olunmamış ilkin əlyazmaya XIX əsrin ikinci yarısında maraq daha da çoxalır. Poemanı folklor nümunəsi kimi təqdim edən bu ilk tədqiqatlar təqribən 1923-cü ildən sonra daha da intensivləşir. Şifahi xalq ədəbiyyatının mətn-üslub xüsusiyyətlərinin öyrənilməsində və qədim ingilis dilinin xarakterik özəlliklərinin araşdırılmasında “Beovulf” poeması əsas vasitə kimi çıxış etmişdir. Yazılı folklor nümunələrinin tədqiqi bundan əvvəl əsasən Antik Yunan ədəbiyyatı və Homerin əsərləri ilə məhdudlaşırdı. Lakin məhz bu dövrdə qədim ingilis dilinin folklor xüsusiyyətləri daha çox araşdırılmağa başlandı. Araşdırmaçı Lordun “The Singer of Tales” əsəri 1960-cı illərdən sonra ingilis dilinin yazılı folklorunu araşdıran mütəxəssislər arasında olduqca populyar olmuşdur. Onun irəli sürdüyü nəzəriyyələr əsasında araşdırmaçılar qədim ingilis dilində yazılan digər əsərləri də araşdırmış və onların sintaktik, qrammatik, metrik və digər xüsusiyyətlərini öyrənmişlər. Bu zaman ingilis dilindəki qədim yunan, cənubi slavyan və qədim ingilis ənənəvi söz və ifadələrinə istinad edilmişdir [3, s.35].

Araşdırmaçılar arasında D.Frayın qədim ingilis dilindəki poeziya ilə bağlı nüfuzlu məqalələrini xüsusilə qeyd etmək lazımdır. 1981-ci ildə çap olunan məqaləsində Fray qeyd edir ki, qədim ingilis dilində olan mətnlərdə təkrar və assonans əsas ədəbi priyomlardan hesab edilirdi, lakin bununla belə, müəllif vurğulayır ki, qədim ingilis dilindəki poeziya statistik texnikalar baxımından analiz oluna bilmək üçün həddən ziyadə “mürəkkəb”dir.

Üslub forması ilə sənətkarlıq arasındakı əlaqənin tədqiqi şifahi-formula nəzəriyyəsi elmə daxil edilməzdən əvvəl qədim ingilis dili tədqiqatlarında əsas məsələ hesab edilirdi. S.B.Qrinfild poeziyada sənətkarlıqla düstur uyğunluğuna diqqət yetirən ilk anqlo-saksonistlərdən biri idi və anqlo-saksonistlər sadəcə formullaşdırılmış cihazları sadalamaqdansa, diqqəti mətn sənətinə cəlb edirdilər. Nəhayət, qədim ingilisdilli şeirlərinin tədqiqi zamanı bu yanaşma kənar baxışlar arasında əsas fikirdir [3, s.42].

Qədim ingilis poeziyası latın, yunan və ya digər Hind-Avropa dilləri kimi digər ənənələrdən fərqlənməyən geniş linqvistik vasitələrə malikdir. Qədim ingilis dilinin flektiv təbiəti bu dilin qeyri-müstəsna xüsusiyyətinin nümunəsidir, çünki bir çox digər dillərdə yaranan poeziyaya janrlar da təsir göstərir. Buna baxmayaraq, “Beovulf”un sintaktik quruluşunda Latın izləri də var, xüsusilə də, poemanın ilk əlli misrasında təsvirlərdə bu izlər görünür [4, s. 67].

"Beovulf"da hadisələr üçüncü şəxsin dilindən nəql olunur. Onun hər şeydən xəbəri var, çünki baş verəcək hər şeylə maraqlanır və obraz kimi görünmədiyi üçün üçüncü şəxsdən istifadə edir. Şair birinci misranı "biz" sözü ilə başlayır və 38, 62, 74, 1011, 1027, 1196 və digər misralarda da bu ardıcıllıq gözlənilir. Bu dəyişikliyi başa düşmək olar: oxucuların diqqətini cəlb etməklə, onlarla ümumi fikir əldə etdikdən sonra hekayəçi hekayəni izah etmək üçün fərdi üslubundan istifadə edir daşıyır [5, s.79].

2. "Beovulf" əlyazmasının məzmun və konteksti

Əlyazmanın mətnləri oxucuların istənilən yeni hekayə ilə bağ qura biləcəyi "gözləntilər üfüqü" yarada biləcək intertekstlərin bir hissəsidir. Beləliklə, onlar təbii olaraq bu auditoriyanın Beovulfun qəbul edəcəyi mətnlərarası şəbəkənin bir hissəsini təşkil edəcəklər. Ehtimal ki, hətta hipotetik auditoriya daxilində belə Beovulf haqqında heç vaxt vahid, ümumi qəbul edilmiş bir oxu və ya anlayış olmamışdır. Buna baxmayaraq, poemanı əhatə edən mətnlər "Beovulf"da son dərəcə dərindən işlənmiş motivlər, təsvirlər və mövzuları ehtiva edir [1, s.132]. Bu mətnlər anqlo-saksonların özlərini (german dilində danışsalar da) Yaxın Şərqin və Hindistanın uzaq, möcüzəvi dünyasını xatırladan dünya xəritəsindən həm hərfi, həm də real olaraq məkan duyğusu baxımından necə ayırdıqlarını aşkar şəkildə göstərir. Beləliklə, onlar bir çox araşdırmaçının iddia etdiyi kimi, qütbləşə və ya bölgüyə işarə edirlər: poemada bir tərəfdən, yeni kəşflər və yeni, ekzotik torpaqlara olan maraq təsvir olunur və bu zaman fantastik elementlərə üstünlük verilir. Lakin digər tərəfdən, hadisələrin mərkəzi kontinental Avropa, Yaxın Şərq və ya Asiya deyil, bunların hamısıdır, bu zaman artıq İngiltərənin coğrafi mövqeyi insanların təsəvvüründə daya aydın olur və kollektiv "biz" şüuru daha yaxşı formalaşır [6, s.98].

Anqlo-Sakson ədəbiyyatının ilk folklor nümunələrindən hesab olunan "Beovulf"un nə vaxt yazılması, necə yaradılması və ya tam olaraq nə vaxt ortaya çıxması məlum deyil. Bu zaman istinad edə biləcəyimiz əsas mənbələr – nüfuzlu alimlərin iki əsrə yaxın müddəti əhatə edən araşdırmalarıdır.

"Beovulf"un günümüzə qədər gəlib çatmış yeganə əlyazması qədim ingiliscə (anqlo-sakson dilində) yazılmışdır. Poema müəyyən bir zamanda yazılmamış, çox güman ki, müxtəlif dövrlərdə toplanmış, xüsusən də xalq nağılları və ənənələrindəki motivlərdən faydalanaraq hazırlanmışdır. Onun hissələri əvvəlcə saray şairləri və ya səyahət edən bardlar (anqlo-sakson dilində "ozan" mənasına gəlir) tərəfindən ifa edilmiş ola bilər, belə ki, bəzi müəlliflərə görə, onlar şeirlərini arfa kimi musiqi alətinin müşayiəti ilə oxuyardılar. Beləliklə, belə bir nəticəyə gələ bilərik ki, əsər məşhur sənət nümunələri əsasında yaranıb, müxtəlif təsirlər nəticəsində hekayələr formalaşaraq inkişaf edib və "Beovulf" bugünkü şəklini alıb [6, s.102].

Əsasən, paqan (bütpərəst) ədəbi nümunəsi hesab olunsa da, "Beovulf"a sonradan xristian dini inancları ilə bağlı motivlər də əlavə olunmuşdur.

“Beovulf”da İsa haqqında heç bir qeyd yoxdur və Tanrıya istinadlar Əhdi-Cədidə yox, Əhdi-Ətiqə əsaslanır. Lakin poema boyunca Kral Hrothgar və Beovulf bəzən özlərinə, “hər şeyə qadir olan Tanrı”ya istinad edirlər və poemada Beovulf Grendelin anasını məğlub etdikdən sonra növbəti hissələrdə “anidən peyda olur”, bu isə simvolik yenidən doğulma məsələsinə eyhamdır. Poemanın sonlarında əjdaha ilə döyüş səhnələrində xristian çalarları xüsusilə seçilir. Poemada Beovulfun 12 əsas dostu (tərəfdaşı) olur və onu daim müşayiət edir, sonda isə əksəriyyəti onu tərk edir (Bu motiv bizə Məsihin həvarilərini xatırladır). Həmçinin, poemanın narrativində qeyd olunur ki, Beovulf “Tanrının iradəsini yerinə yetirir” [8, s.235].

Nəticə

Beləliklə, “Beovulf” əlyazmasının ortaya çıxması və poemanın yaradılması haqqında nə nəticəyə gələ bilərik? İlk növbədə, onu qeyd etmək olar ki, əsər xalq nağıllarına və ənənələrə əsaslanaraq şifahi-formula üslubunda yaradılmış və çox güman ki, bütövlükdə VIII əsrdə (700-800-cü illər) İngiltərədə qələmə alınmışdır. Eposdakı hadisələrin məkanı demək olar ki, beşinci və ya altıncı əsrlərdə Danimarka və İsveçdir, lakin şeir üslubu, ehtimal ki, sonrakı oxucuları (cari dövrün oxucularını) cəlb etmək üçün dəyişdirilib. Poemanın ərsəyə gəlməsində bir sıra nüsxələrin töhfəsi olsa da, bizim versiyamız ondan ibarətdir ki, poema bir şəxs tərəfindən qələmə alınmış və daha sonra məzmununa əlavələr edilmişdir. “Beovulf” eposu kağıza köçürülməzdən əvvəl 200 və ya daha çox il ərzində dəyişdirilmiş olsa da, folklor ənənəsi dəyişiklikləri məhdudlaşdırmışdır. Belə hesab olunur ki, əlyazma XI əsrin ilk illərində (təxminən eramızın 1000-ci ili) Xristian monastırında təhsil almış bir katib tərəfindən yazılmışdır (ya özü yazmış, ya da ona diktə edilərək yazdırılmışdır).

“Beovulf” bəzi alimlərin iddia etdiyi kimi qədim ingilisdilli ədəbiyyatda ilk böyük qəhrəmanlıq dastanı ola bilər. Bəlkə də, ondan başqa eposlar da mövcud olmuşdur, lakin istənilən halda, günümüzə qədər gəlib çıxan yeganə epos məhz “Beovulf” əlyazmasıdır və bu da onun əhəmiyyətini həmişə aktual edir. Qədim ingilis dilinin sağ qalmış ən qədim epik poemasıdır və buna görədə anqlo-sakson ədəbiyyatının ən mühüm əsərlərindən biri kimi xatırlanır və həm də mübahisəsiz olaraq ən qədim ingilis ədəbiyyatıdır.

Ədəbiyyat

1. Headley, M.D. (2020). Beowulf: A New Translation. FSG Translation Edition, 176 p.

2. Brunning, S. (2020). The Sword in Early Medieval Northern Europe: Experience, Identity, Representation (Anglo-Saxon Studies Book 36). Boydell Press, 233 p.

3.Fulk, R.D. (2010). The Beowulf Manuscript: Complete Texts and The Flight at Finnsburg (Dumbarton Oaks Medieval Library). Harvard University Press, 400 p.

4. Donoghue, D. (2019). Beowulf: A New Translation. W. W. Norton & Company, 344 p.

5. Gummere, R. (2018). Beowulf. Wilder Publications, 104 p.

6. Hall, J.L. (2017). Beowulf: An Anglo-Saxon Epic Poem. CreateSpace Independent Publishing Platform, 178 p.

7.Heaney, S. (2000). Beowulf: A New Verse Translation. Farrar, Straus and Giroux Publishing, 256 p.

8.Tolkien, J.R.R. (2015). Beowulf: A Translation and Commentary. William Morrow Paperbacks, 448 p.

LALA ALIYEVA

CONCEPTUAL OVERVIEW OF THE "BEOWULF" MANUSCRIPT

This study analyzes the main manuscript of the ancient English poem "Beowulf". It is considered one of the perfect, complex and fascinating works of Anglo-Saxon and early Latin literature. The role of the ancient English language in the process of literary affirmation is also explored. The epic is a large-scale long and high-style poem about the deeds of warriors and heroes. It is a multi-faceted "heroic" story that combines myth, legend, folk tale and history. The importance of this poem as the first example of folklore written in English is also emphasized. The study also analyzes the structure and textual form of the poem, referring to the books of authoritative and reliable researchers. The study of the relationship between style and craftsmanship was a major issue in the study of ancient English before the introduction of oral formula theory into science. The views of several researchers in this area are presented. In addition, in the study of poems written in ancient English, such an approach is accepted as the main idea among outsiders. The article goes on to say that ancient English poetry had a wide range of linguistic tools. As a result, it is noted that although a number of copies contributed to the creation of the poem, the research concluded that the poem was written by one person and then added to the content. Although the "Beowulf" epic was modified two hundred or more years before it was transferred to paper. The folklore tradition has limited the changes and is considered the greatest heroic saga.

Key words: literature, ancient English language, Beowulf, poem, epos, folklore

ЛАЛА АЛИЕВА

КОНЦЕПТУАЛЬНЫЙ ОБЗОР РУКОПИСИ ПОЭМЫ «БЕОВУЛЬФ»

В данном исследовании анализируется основная рукопись древнеанглийской поэмы «Беовульф», которая считается одним из совершенных, сложных и увлекательных произведений англо-саксонской и ранней латинской литературы. Также исследуется роль древнеанглийского языка в процессе литературного утверждения. «Беовульф» считался главным произведением эпоса. Эпос представляет собой масштабную длинную и высокого стиля поэму о подвигах воинов и богатырей. Это многогранная «героическая» история, сочетающая в себе миф, легенду, народную сказку и историю. Также подчеркивается важность этого стихотворения как первого образца фольклора, написанного на английском языке. В исследовании также анализируются структура и текстовая форма стихотворения, обращаясь к книгам авторитетных и надежных исследователей. Изучение взаимосвязи между стилем и мастерством было главной проблемой древнеанглийского языка до введения в науку теории устных формул. Представлены взгляды ряда исследователей в этой области. Кроме того, при изучении стихов, написанных на древнеанглийском языке, такой подход принимается в качестве основного среди посторонних. Далее в статье говорится, что у древней английской поэзии был широкий спектр языковых средств. В результате отмечается, что, хотя создание стихотворения способствовало ряду копий, исследование было написано одним человеком и затем дополнено содержанием. Хотя сага о Беовульфе была изменена за двести или более лет до того, как она была записана, фольклорная традиция ограничила изменения и считается величайшей героической сагой.

Ключевые слова: литература, древний английский язык, Беовульф, поэма, эпос, фольклор

Redaksiyaya daxil olma tarixi: 18.05.2022
Çapa qəbul olunma tarixi: 07.06.2022
Rəyçi: fil.ü.e.d., prof. İlham Mikayıl oğlu Tahirov tərəfindən çapa tövsiyə olunmuşdur

QULIYEVA PƏRVANƏ ELMAR QIZI
Gəncə Dövlət Universiteti

NƏBİ XƏZRİ LİRİKASININ MƏZMUN DAİRƏSİ

Xülasə

N.Xəzrinin qəhrəmanları əsrimizin əmək, zəhmət adamları olub, sədaqət, hörmət, səmimiyyət kimi nəcib və ülvi hisslərlə yaşayan, ümumbəşəri ideyalarla qovuşan, yeni və müasir insanlardır.

N.Xəzrini əsərləri janr kimi müəyyən dialektik inkişaf prosesi keçmişdir. Bu poemalar mövzu cəhətdən zəngin olduğu kimi, forma etibarilə də əlvandır. N.Xəzri epik və lirik növün müxtəlif janrlarında əsərlər yarada bilmişdir.

N.Xəzri həm şəxsiyyət, həm də yaradıcılığı etibarilə ciddi şairdir. Onun poeziyası sevilən, təqdir olunan, Öyrənilən poeziyadır. O, şerin ən kamil poetik vasitələrindən istifadə edərək yaratdığı insanların psixologiyasına dərindən nüfuz edir, onlarda yeni əxlaqi keyfiyyətləri toplayır, ümumiləşdirir və canlı həyat tablosu yaradır.

Şairin dili sadə, obrazlı və səmimidir. Onun poemalarının dili aydın, səlisdir. Burada xalq dilinin ruhu, canlı və ifadəli güclü poetik hiss, həyəcan, oxucunun qəlbini riqqətə gətirir. Ümumiyyətlə, bu xüsusiyyət N.Xəzri yaradıcılığına xas olan əsas məziyyətlərdəndir.

Şairin poemalarını tədqiq edərkən, biz belə nəticəyə gəldik ki, poema janrının bütün incəliklərinə yaxşı bələd olmuş, onu yeni forma və məzmunla daha da zənginləşdirmişdir.

Açar sözləri: yaradıcılıq, məhəbbət, Vətən, poeziya, xalq şairi, sənətkar, qəhrəman, lirik

Nəbi Xəzrinin poeziyası klassik Azərbaycan ədəbiyyatının mütərəqqi ənənələri üzərində qurulmuş, sovet ədəbiyyatından bəhrələnmiş, böyük rus ədəbiyyatından qidalanaraq yeni forma, üslub, məzmun və ideya cəhətdən daha da zənginləşmişdir. Onun yaradıcılığında mənəvi ucalıq, yaradıcılıq hünəri, böyük ideallar tərənnüm edilir. Bütün bunlar N.Xəzrinin poemalarında özünü aydın biruzə verir.

Nəbi Xəzri yaradıcılığı istər Azərbaycanda, istərsə də Ümumittifaq ədəbiyyatşünaslığında monoqrafik tədqiqat prinsipi ilə, sistemli elmi-nəzəri ümumiləşdirmələr yolu ilə ən az öyrənilən sənətkarlardandır. Y.İdaşkinin «Nəbi Xəzrinin yaradıcılığı haqqında» kitabı, demək olar ki, şair haqqında hələlik ilk və sonuncu nisbətən iri həcmli əsərdir. Yuxarıda şərh etdiyimiz bu amillər bizim Nəbi Xəzri yaradıcılığına müraciətimizin səbəbini izah edir. Azərbaycan ədəbiyyatı 60-cı illərdən başlayaran özündən əvvəlki dövrün aparıcı ənənələrinə arxalanaraq yeni keyfiyyətlərlə zənginləşmişdi. Xüsusən, epik şerin inkişafında bir daxili təkamül baş

verdi və bu təkamül daxilində orijinal bədii təmayüllər, dəsti-xətlər, üslublar özünü göstərdi. Şübhəsiz bu keyfiyyət dəyişkənliyi Nəbi Xəzrinin də poetik aləmində müşahidə olunurdu. Başlıca məqsədimiz Nəbi Xəzrinin poemaları əsasında 60-70- ci illər epik poeziyamızda baş vermiş keyfiyyət dəyişmələrini, onun dinamik inkişaf prosesini, müvəffəqiyyətlərini, bu prosesdə özünü göstərən yaradıcılıq çətinliklərini tədqiq etmək, Nəbi Xəzrinin poema yaradıcılığının təşəkkül yolunu, onun inkişaf mərhələlərini izləmək, səciyyəvi xüsusiyyətlərini göstərməkdir. Bununla yanaşı, şairin poemalarının Azərbaycan və Ümumittifaq prosesində mövqeyini açmaq, N.Xəzrinin poema yaradıcılığı əsas götürülsə də, biz onun epik əsərlərini ümumi ədəbi prosesdən və lirik şer yaradıcılığından təcrid olunmuş şəkildə almamış, şairin poemalarını ümumi ədəbi kontelcsdə tədqiq etməyə çalışmışıq. N.Xəzrinin poemaları mövzu, qəhrəman, sənətkarlıq cəhətdən Azərbaycan ədəbiyyatında orijinal ədəbi hadisə kimi meydana çıxmışdır. Nəbi Xəzri poeziyasına məxsus olan zəriflik, rəvanlıq, aydın dil, həzin, lirik təhkiyə, təbiətə, insanlara işıqlı inam, böyük arzularla çırpınan ürəklərin nəbzini tutmaq, müasir qəhrəmanlarımızın, əmək adamlarımızın səsinə həssa şair əks-sədası ilə səs vermək və bəlkə də sayılmağa ehtiyac olmayan başqa cəhətlər "Heykəlsiz abidə" əsərində eyniylə qüvvədə qalır. Bura, sənətkar üçün çox böyük məziyyət sayılan yığcamlığı hökmən əlavə edək. Məhz Nəbinin lirik şeir və poemalarmdakı yığcamlıq, ölçü hissi həmən nəsr əsərində də görünür. [1, 245]

Nəbi bir neçə poema müəllifidir.Şairin poemalarını oxuyanda,görürsən ki,burada da o öz şeir nəfəsinə sadiq qalıb,poemanın yeni bədii keyfiyyətlərlə zəngin nümunələrini yaratmışdır.Şair poemalarında lirikasının xüsusiyyətlərini davam etdirir.Bəzən sənə elə gəlir ki,Nəbinin həcmcə böyük lirik şeirini oxuyursan. Demək, qələmə alman mövzunun genişliyi və məhdudluğundan asılı olmayaraq şair onu sənət dilinə, şeir dilinə çevirə bilmişdir. "Tənə"də də, "Ana"da da belədir. Bu cəhətdən ədəbi ictimaiyyətin yüksək qiymət verdiyi "Günəşin bacısı" poeması səciyyəvidir. Bu, sözün əsl mənasında lirik poemadır. Sevil Qazıyevanın faciəsinə,onun əmək qələbələrinə,mənalı həyatına həsr olunmuş bu poetik əsər həqiqi şeir nümunəsidir. Poema əvvəldən axıra heç bir maniəyə, ziq-zaqa rast gəlmədən su kimi sakitcə axıb gedir, şairin fikirləri hissləri ilə ideyası həyacanları ilə, kədər və sevinci ilə möhkəm birləşib vahid bir axma çevrilir.

"Heykəlsiz abidə" həm qeyri adi, həm də obrazlı sərlövhədir. Yüz əlli il özündən uzaq düşüb yad ellərdə dərd biləni,dil anlayanı tapılmayan,hücrələr küncündə keçən təvazölü, kimsəsiz, faciəli həyatı, Ölməz məhəbbət və əbədiyyət nəğmələri Mirzə Şəfinin abidəsinə çevrildi. Şairin Özü üçün acı olan taleyi xalqımızın, ədəbiyyatımızın fikir və zəkamızın, işıqlı ideallarımızın uğurlu taleyinə çökdü. Görünür abidə yalnız və yalnız daşdan, gildən, tuncdan, qranitdən, mərmərdən olmur. Gözündən heç bir şey yayınmayan ağsaçlı tarix Mirzə Şəfi Vazehə mənəvi abidə ucaltdı. Nəbi Xəzri də bu abidəyə bir çələng hördü, bir çələng yaraşdırdı. Mənsur poema çələngi. Yolub-yoluşdurulmuşdan çələng olmaz. Çələng bircə-bircə, əsib titrəyə-titrəyə seçilmişdən,dərilmişdən olar. Çələngin ətri həzin olar,

çələng xışıldayar, çələng çiçəklərinin ləçəkləri pıçıldaşar, hekayət danışar, -həzin, yanıqlı hekayət... [2,185]

Nağıl və dastanlarımızda nəsrlə şeir,hekayətlə nəzm bir vəhdətdə olub,bir-birinə qaynayıb-qarışdığı kimi bu əsərdə də şair fəhmi,yaradıcılıq stixiyası, proza və poeziya qanada çevrilmişdir.

Nəbi Xəzrinin yaradıcılığı müasir Azərbaycan poeziyasının parlaq səhifələrindən birini təşkil edir. Altmış ildən artıq ədəbiyyatımıza xidmət etmiş şairin əsərləri mövzu dairəsinin genişliyi və rəngarəngliyi ilə səciyyələnir. İnsanın mənəvi aləmini, düşüncə və axtarışlarını yüksək bədiiliklə əks etdirən və bəşəriliklə milliliyi üzvi şəkildə birləşdirən Nəbi Xəzri poeziyası dünya, insan və təbiət haqqında fəlsəfi *məzmunu*, yüksək humanizmi, böyük vətəndaşlıq qayəsi və milli koloriti sayəsində geniş oxucu kütləsinin rəğbətini qazanmışdır. Şairin müasirlərimizin, eləcə də tarixi şəxsiyyətlərin həyatından bəhs edən, lirik-epik lövhələrlə zəngin poemaları özünün dərin lirizmi, emosionallığı, orijinal üslubu və obrazlılığı ilə seçilir.

Şair dilimizin poetik imkanlarından ustalıqla bəhrələnərək, poeziyanın gözəl nümunələrini yaratmaqla ədəbi dilimizin inkişafına töhfələr vermişdir. Poeziyasının dilinə xas olan şeriyyət, rəvanlıq və axıcılıq Nəbi Xəzri şeirlərinə bəstəkarların müraciət etmələri üçün zəmin yaratmışdır. Xalqımızın tanınmış sənət ustalarının repertuarında mühüm yer tutan bu əsərlər Azərbaycan musiqi mədəniyyətinin inciləri sırasına daxil olmuşdur

Nəbi Xəzrinin şeir və poemaları dünya xalqlarının dillərinə tərcümə edilərək nəşr olunmuş, onun bədii tərcümələri sayəsində isə Azərbaycan oxucusu dünya poeziyası nümunələri ilə tanış olmaq imkanı əldə etmişdir. Nəbi Xəzri qələminin məhsulu olan dram əsərləri Azərbaycan teatrlarında uğurla tamaşaya qoyulmuş, müəllifinə dramaturq kimi də şöhrət qazandırmışdır.

Nəbi Xəzri ictimai xadim kimi səmərəli fəaliyyət göstərmiş, tutduğu bütün vəzifələrdə xalqımızın mədəniyyətinin inkişafı, milli sənət nümunələrinin dünyada tanıdılması naminə qüvvə və bacarığını əsirgəməmişdir. O, otuz ildən artıq Azərbaycan ədəbiyyatı və incəsənətinin xarici ölkələrdə təbliği istiqamətində təqdirəlayiq xidmətlər göstərmişdir.

Nəbi Xəzrinin ədəbi və ictimai fəaliyyəti yüksək qiymətləndirilmişdir. O, bir sıra orden və medallara, o cümlədən Azərbaycan Respublikasının ali dövlət təltiflərinə — "Şöhrət" və "İstiqlal" ordenlərinə layiq görülmüşdür.

«İllər və sahillər» (1969), «Uldaz karvanı» (1979), «Nəsillər-əsirlər» (1985), «Ağ şimşəklər» (1986), «Torpaq sənə and içirəm» (1989), «Ömür çinarından yarpaqlar» (1995), «Əsrin qanlı laləsi» (1996) və s. kitabların müəllifidir.

Şeirimiz haqqında düşünəndə, onun zəngin tarixinə nəzər salanda,həm fərəhlənir, həm də təlaş keçiririk. Fərəhlənirik, ona görə ki, Nizami, Füzuli, Sabir, Vurğun kimi poeziya dünyalarımız vardır. Onların adı şeiri,şöhrəti Azərbaycan sənətini dünya ədəbiyyatı meydanına çıxarmışdır. Təlaş keçirik,ona görə ki, belə

böyük söz ustaları olan bir poeziyanın meydanında söz deyib, sənət nümayiş etdirmək çətinliyi məsuliyyəti hiss edirik.

Ancaq bugünkü şeirimizin ideya-bədii sürəti, məna, fikir dərinliyi, forma zənginliyi belə tələş üçün əsas vermir. Müasir şeirimiz bəzi yaradıcılıq çətinliklərinə baxmayaraq böyük bir irsin həqiqi varisi kimi irəliləyir, novatorluğu, rəngarəngliyi, müxtəlifliyi ilə xoş təsir bağışlayır. Bu rəngarəng, çoxsəsli ansamblın görkəmli, orijinal nümayəndələrindən biri də Nəbi Xəzridir. O,bir şair kimi klassik Azərbaycan şeirinin ənənələri qoynunda yetişib yüksəlmiş, həm də müasir ədəbi prosesin tələblərini duyaraq öz sözünü deyə bilmişdir.

Nəbi Xəzri lirik şairdir. Lirika onun şeirinin camdır, ruhudur. Ancaq bu lirikanın məzmunu, mündəricəsi, başqa sözlə, şairin poetik "məni", lirik qəhrəmanı mürəkkəb təlatümlü bir aləmdir, bu aləmə nüfuz etmək, onu hiss etmək, açmaq, əyaniləşdirmək, lirikanı tənqid dilinə çevirmək o qədərdə asan deyil.

Nəbi Xəzri rübabının tərənnüm etdiyi sədaların mündəricəsini müəyyənləşdirmək istəsək, bunu bircə sözlə də ifadə etmək olar - İnsan! Şairi düşündürən həyatproblemləri yoxdur.Ancaq müasir insan bu pribl emi ərin mərkəzində durur - Öz məhəbbəti, arzulan, vətən eşqi, sevgi və nifrəti ilə, ümid və inamı ilə, sevinc və kədəri ilə, təbiətə vurğunluğu ilə, nəhayət humanizmi ilə.

Nəbi lirikasını məhəbbətsiz təsəvvür etmək mümkün deyil. Şairin tərənnüm etdiyi insan, hər şeydən əvvəl, sevən insandır. Məhəbbət - ən alı, ülvi hissidir. Məhəbbətsiz, özüdə həqiqi, sədaqət və etibarla yoğrulmuş məhəbbətsiz insan daxilən boşdur, mənasızdır.

Məhəbbət əbədi məfhumdir, əbədi hissdir. Müasir insanın məhəbbəti isə yeni keyfiyyətlərlə zənginləşmişdir. Nəbinin lirik qəhrəmanının məhəbbəti sadəcə aşiq-məşuq məhəbbəti deyil, yüksək insanı hisslərlə qidalanan bu sevgi vətən məhəbbətinə, təbiət vurğunluğuna, ümumən humanizm idealarma çevrilir.

Təbiəti təsvir Nəbi Xəzri lirikasının ayrılmaz bir keyfiyyətidir. Ancaq o, təbiəti tərənnümdə də heç kəsə bənzəmir. Şair təbiətdən öz poetik məqsədləri üçün ustalıqla istifadə edir,onları mənalandırır.

Min dəfə zirvəyə baxmaq yerinə,
Bircə yol zirvədən baxmaq yaxşıdır.

Zirvə və buna bənzər təbiət məfhumları Nəbinin lirikasında çox zaman məcazi mənada işlənir.Çox sevdiyi və işlətdiyi "zirvə" isə ideal,məslək,məqsəd uğrunda mübarizə rəmzidir.

Özün dağlar üstdə,
Dağlar sinəndə.
Sonsuz dəniz sənə bir qətrə gəlsin!
Yay günü zirvədən yerə enəndə
Səndən duman ətri,
Qar ətri gəlsin. [3, 98]

Şair təbiətin dili ilə, təbiət obrazlarının dili ilə danışır, fikri birbaşa, ritorik şəkildə demir - sən gərək həmişə əsrin tələbləri səviyyəsində dayanasan, şeirindən gərək zamanın ən uca, ən alifıkirlərinin ətri gəlsin.

Vətən torpağının tərənnümü Nəbi şeirinə genişlik, ənginlik verir. "Sakit sətirlərim"də şair əslində o qədər də sakit olmayan duyğularını, fikirlərini ifadə edir, şəhərlərlə planetlər arasındakı məsafələri zaman və illərin necə sürətlə yaxınlaşdırdığını bildirir.

Nəbi bəzən ən adi, Ötəri hadisələri qələmə alır. Ancaq şair üçün böyük-kiçik həyat hadisəsi yoxdur, kiçik bir detal, müşahidə olunan ani hadisə müəyyən bir həqiqəti, fikri poeziya dilinə çevirmək, ümumiləşdirmək üçün kifayət edir.

Müasir insanı məşğul edən problemlər baxımından Nəbi lirikasının məzmun dairəsinin daha geniş olmasını arzu edirsən. Çünki yeni insanın mənəviyyatı bir də siyasi kəskinliyi, hərtərəfliliyi ilə seçilir. Şairin burjua əxlaq normalarım, meşşanlığı, kapital dünyasının ziddiyyətlərinin tənqid və təsvir edən şeirləri çox xoş təsir bağışlayır, ancaq onların azlığı təəssüf doğurur.

İdeya, fikir sənətin bütün növləri üçün əsasdır. Fikirsiz sənət olmayıb, indi də mövcud deyil. Lakin fikri, ideyanı necə, hansı şəkildə təqdim etməkdə sənətkar üçün mühüm amildir. Şeirlə deyilən fikir dərhal hissə, ürəyə keçmirsə, yalnız sənin beynini hərəkətə gətirirsə, o, şeir deyildir. Nəbi təkcə öz beynini yox, ürəyini də, hisslərini də birlikdə, onları bir-birindən ayırmadan dinləməyi bacaran şairdir.

N.Xəzri lirikasının qəhrəmanı ilə onun poemalarmm qəhrəmanı arasında dərin hissi bağlılıq və daxili bir vəhdət vardır. Onun poemalarındakı epik obrazlardan fərqli olaraq, lirik qəhrəmanı varlığa daha dərin, dünya hadisələrinə, dövrün ümumi fəlsəfi qanunauyğunluqlarına daha güclü nüfuz etməklə seçilir. Lakin hər iki qəhrəman fədakarlıq, dostluq, vətənpərvərlik kimi keyfiyyətlərlə zəngindir. Həmin hisslər onların ideyalarına çevrilmişdir.

N.Xəzri poemalarmm qəhrəmanları yüksələn xətt üzrə inkişaf edir, cəmiyyətin, xalqm, vətənin inkişaf meyllərini, onun ictimai-siyasi, sosial-psixoloji bəşəri problemlərini özündə əks etdirirlər. Onlar əməyə, vətənə, dostluqa, təbiəti çox incə və həssas münasibət bəsləyən nikbin ruhlu adamlardır. Burada hər bir qəhrəmanın ictimai və mənəvi hissləri bir-birini tamamlayır və çoxcəhətli xüsusiyyətləri ilə bir vəhdət təşkil edir. [4, 267]

N.Xəzrinin qəhrəmanları əsrimizin əmək, zəhmət adamları olub, sədaqət, hörmət, səmimiyyət kimi nəcib və ülvi hisslərlə yaşayan, ümumbəşəri ideyalarla qovuşan, yeni və müasir insanlardır.

Şair poemalarında lirikasının xüsusiyyətlərini davam etdirir. Bəzən sənə elə gəlir ki, Nəbinin həcmcə böyük lirik şeirini oxuyursan. Demək, qələmə alman mövzunun genişliyi və məhdudluğundan asılı olmayaraq şair onu sənət dilinə, şeir dilinə çevirə bilmişdir. "Tənə"də də, "Ana"da da belədir. Bu cəhətdən ədəbi ictimaiyyətin yüksək qiymət verdiyi "Günəşin bacısı" poeması səciyyəvidir. Bu, sözün əsl mənasında lirik poemadır. Sevil Qazıyevanın faciəsinə, onun əmək

qələbələrinə, mənalı həyatına həsr olunmuş bu poetik əsər həqiqi şeir nümunəsidir. Poema əvvəldən axıra heç bir maniəyə, ziq-zaqa rast gəlmədən su kimi sakitcə axıb gedir, şairin fikirləri hissləri ilə ideyası həyaçanları ilə,kədər və sevinci ilə möhkəm birləşib vahid bir axma çevrilir.

Şair xüsusi, qondarma süjet qurmaq haqqında fikirləşməyib. O,öz qəhrəmanını tərənnüm edib, tərifləyib, göylərə qalxızıb. Ancaq şair kimi tərənnüm edib, tərənnüm yolu ilə poema yaratmağa nail olub. Bu tərənnümdə ritorika yoxdur, şüar, həyacansız çağırış yoxdur, bədii ümuləşdirmə, isti şüar ürəyi, vətəndaş həyəcanı və kədəri, xalqının gələcəyinə ümidlə baxan vətənpərvər bir sənətkarın inamı, tələşı vardır. Sevil - Azərbaycan xalqının ənənəvi qəhrəman qızıdır. O,nə zaman doğulsa idi, həyatda öz izini qoyacaqdı.

Dünən doğulsaydı Həcər olardı,
Bu gün Sevil kimi gəldi dünyaya,
...O yazdı yurdunda öz əlləriylə
İllərin təzə bir səhifəsini. [5, 206]

Lirik ricətlər Nəbinin poemalarıüçün səciyyəvidir. Bu ricətlər şairə öz həyəcanlarını, mövzu ilə əlaqədar onu düçündürən mətləbləri, cəmiyyətə, insanlara, təbiətə öz münasibətini bildirməyə imkan verir. Ancaq onlar poemanın ümumi ahəngindən doğur, üzvi şəkildə ona bağlanır.

N.Xəzrini əsərləri janr kimi müəyyən dialektik inkişaf prosesi keçmişdir. Bu poemalar mövzu cəhətdən zəngin olduğu kimi, forma etibarilə də əlvandır. N.Xəzri epik və lirik növün müxtəlif janrlarında əsərlər yarada bilmişdir.

N.Xəzri həm şəxsiyyət, həm də yaradıcılığı etibarilə ciddi şairdir. Onun poeziyası sevilən, təqdir olunan, Öyrənilən poeziyadır. O, şerin ən kamil poetik vasitələrindən istifadə edərək yaratdığı insanların psixologiyasına dərindən nüfuz edir, onlarda yeni əxlaqi keyfiyyətləri toplayır, ümumiləşdirir və canlı həyat tablosu yaradır.

Şairin dili sadə, obrazlı və səmimidir. Onun poemalarının dili aydın, səlisdir. Burada xalq dilinin ruhu, canlı və ifadəli güclü poetik hiss, həyəcan, oxucunun qəlbini riqqətə gətirir. Ümumiyyətlə, bu xüsusiyyət N.Xəzri yaradıcılığına xas olan əsas məziyyətlərdəndir.

Şairin poemalarını tədqiq edərkən, biz belə nəticəyə gəldik ki, poema janrının bütün incəliklərinə yaxşı bələd olmuş, onu yeni forma və məzmunla daha da zənginləşdirmişdir.

Ədəbiyyat:

1. H.Ə.Əliyev. Ədəbiyyat və incəsənət haqqında. Bakı, 2004.
2. N. Xəzri, Seçilmiş əsərləri 2 cilddə, Bakı, «Şərq-Qərb», 2004
3. N. Xəzri, «Sərhədlərin o tayında», Bakı, «Elm», 1987.
4. XX əsr Azərbaycan ədəbiyyatı məsələləri. Bakı, «Elm», 2006.
5. N. Xəzri, «Nəsillər əsillər», Bakı, «Gənclik», 1985.

Summary

Hd.tch.P.E.Quliyeva

CONTENTS OF NABI KHAZRI'S LYRICS

N.Khazri's heroes are the people of our century, hard-working people, living with noble and sublime feelings such as loyalty, respect, sincerity, united with universal ideas, new and modern people. His works have undergone a certain dialectical development process as a genre. These poems are as rich in subject matter as they are colorful in form. N. Khazri was able to create works in various genres of epic and lyrical genres.

N. Khazri is a serious poet both in terms of personality and creativity. His poetry is loved, appreciated, studied poetry. Using the most perfect poetic means of poetry, he penetrates deeply into the psychology of the people he creates, collects and summarizes in them new moral qualities and creates a picture of living life.

The language of the poet is simple, figurative and sincere. The language of his poems is clear and fluent. Here, the spirit of the vernacular, a lively and expressive strong poetic feeling, excitement, brings pity to the heart of the reader. In general, this feature is one of the main advantages of N. Khazri's work.

While studying the poet's poems, we came to the conclusion that he was well acquainted with all the subtleties of the poem genre, enriched it with a new form and content.

Key words: creativity, love, homeland, poetry, folk poet, artist, hero, lyrics

Резюме

Ст.пр.П.Е.Кулиева

СОДЕРЖАНИЕ ЛИРИКИ НАБИ ХАЗРИ

Герои Н.Хазри – это люди нашего века, трудолюбивые люди, живущие благородными и возвышенными чувствами, такими как верность, уважение, искренность, объединенные общечеловеческими идеями, новые и современные люди. Его произведения прошли определенный процесс диалектического развития как жанр. Эти стихи столь же богаты по содержанию, сколь и красочны по форме. Н. Хазри умел создавать произведения в различных жанрах эпического и лирического жанров.

Н. Хазри - серьезный поэт как в плане личности, так и творчества. Его поэзию любят, ценят, изучают поэзию. Используя наиболее совершенные поэтические средства поэзии, он глубоко проникает в психологию создаваемых им людей, собирает и обобщает в них новые нравственные качества и создает картину живой жизни.

Язык поэта прост, образен и искренен. Язык его стихов ясен и беглый. Здесь дух просторечия, живое и выразительное сильное поэтическое чувство, волнение вызывает жалость в сердце читателя. В целом эта особенность является одним из главных достоинств работы Н. Хазри.

Изучая стихи поэта, мы пришли к выводу, что он хорошо знал все тонкости жанра стихотворения, обогатил его новой формой и содержанием.

Ключевые слова: творчество, любовь, Родина, поэзия, народный поэт, мастер, герой, лирический

Redaksiyaya daxil olma tarixi: 18.05.2022
Çapa qəbul olunma tarixi: 07.06.2022
Rəyçi: dos. N.M.Axundova
tərəfindən çapa tövsiyə olunmuşdur

ALLAHVERDIYEVA AYŞƏN BƏYLƏR QIZI
Gəncə Dövlət Universiteti
Allahverdiyeva_2020@bk.ru

KULTUR DES LEHRENS UND LERNENS

SUMMARY

The author noted that the teaching and learning of a foreign language has a number of cultural features. In fact, a foreign language learning place is an intercultural meeting place where at least two languages meet in complex cultures and students from different cultures can also participate in the class. The author emphasizes Beckmann's views on the three dimensions of intercultural communication in general foreign language teaching, namely, intercultural learning, the strengthening of intercultural communication in the learning process, intercultural experience, and, accordingly, the study of intercultural communication.

An example of this is the German teacher's teaching of Vietnamese. Here, the teacher brings his cultural past and experience to the lesson by choosing the methods, forms of work and exercises, teaching materials, media, and even homework that he knows from his methodological and didactic training. In the classroom, the teacher expects a certain role from the student and, as a result, a certain behavior. He will prefer appropriate expected behavior and reject deviations in the foreign student's behavior. Students also bring their cultural learning experiences to class. They also expect certain role behaviors from their teachers, as well as from the course, teaching materials, tools and forms of work, and exams. In addition, they have many years of experience in school socialization in terms of academic success and educational documentation. According to Thomas, a person “becomes a culture in the process of socialization, learns and experiences socially important behaviors in his group. Individual behavior is the result of the actions of a person who uses the options available to him as a representative of a particular culture. As a rule, it will follow the limits of activity (norms, commands, traditions, habits) defined by the relevant culture and will regulate its actions in accordance with the orientation system adopted in the culture. The overlap of these two cultures can lead to misunderstandings, inappropriate expectations and inconsistencies, but it should not. However, there may be similarities and parallels in teaching and learning behavior, which makes teaching and learning more effective and enjoyable for both parties.

Key words: teaching, learning, culture, foreign language lesson, further development, outcome, teaching material, experience, acquisition

Nach Barkowski/ Eßer sind Prozesse des Lehrens und Lernens ihrer Funktion nach Prozesse der Tradierung von Wissen (im Interesse der Sicherung der

Überlebensfähigkeit von gesellschaftlichen Strukturen und ihrer Individuen) und als solche in zweierlei Hinsicht kulturhaft. Sollte der empirische Nachweis der Wirksamkeit von kulturellen Prägungen gelingen, argumentieren Barkowski und Eßer, so beeinflussen die Ergebnisse die wesentlichen Inhalte der Methodik und Didaktik des jeweiligen Fremdsprachenunterrichts. Denn Lehren und Lernen sind Vorgänge der Reproduktion und Weiterentwicklung von Kulturen und sie sind geprägt von den in einer Kultur entwickelten Stilen des Lehrens und Lernens.

Für die hier vorliegende Studie ist vor allem der zweite Punkt von Bedeutung, der in der Frage kumuliert: Welche kulturell entwickelten Stile prägen das Lehren und Lernen in Vietnam? Für die Beantwortung dieser Frage müssen wir die Begriffe Lehr- und Lernkultur weiter konkretisieren.[1.S.83]

1. Das Lehren und Lernen einer Fremdsprache weist eine Reihe kultureller Merkmale auf. Tatsächlich ist der Lernort Fremdsprachenunterricht ein Ort der interkulturellen Begegnung, wobei sich zumindest zwei Sprachen in ihrer komplexen Kulturhaftigkeit begegnen und auch Anwesende im Unterricht unterschiedlicher kultureller Herkunft sein können. Boeckmann spricht von insgesamt drei Dimensionen von Interkulturalität im Fremdsprachenunterricht, nämlich vom interkulturellen Lernen, wobei Interkulturalität im Lernprozess verankert ist, von der interkulturellen Kompetenz, wobei Interkulturalität das Lernziel darstellt, und letztlich von der Interkulturalität als Bedingung bzw. Voraussetzung von Lehr- und Lernprozessen.

Letzteres trifft zum Beispiel zu, wenn eine deutsche Lehrerin eine vietnamesische Klasse unterrichtet. Die Lehrerin bringt dabei ihre eigenkulturelle Ausbildung und Erfahrung mit in den Unterricht, dabei wählt sie Methoden, Arbeits- und Übungsformen, Lehrmittel, Medien und sogar Hausaugaben aus, die sie von ihrer methodisch-didaktischen Ausbildung her kennt. Im Unterricht erwartet sie – bewusst oder unbewusst – eine bestimmte Schülerrolle und damit einhergehend ein bestimmtes Verhalten. Sie wird entsprechendes, erwartetes Benehmen begünstigen und abweichendes fremdes Lernerverhalten ablehnen. Auch die Schüler bringen ihre eigenkulturell geformten Lernerfahrungen mit in den Unterricht. Auch sie erwarten ein bestimmtes Rollenverhalten ihrer Lehrer, genauso wie sie Erwartungen an den Unterrichtsverlauf, Lehrmaterialien, Medien und Arbeits- und Prüfungsformen haben. Darüber hinaus haben sie in langen Jahren Schulsozialisation bestimmte Erfahrungen hinsichtlich Lernerfolge und Lerndokumentationen. Nach Thomas wächst das Individuum „über den Prozess der Sozialisation in eine Kultur hinein, indem es die in seiner Gruppe sozial relevanten Verhaltensweisen erlernt und damit Erfahrungen macht. (…) Individuelles Verhalten ist das Resultat einer handelnden Person, die als Mitglied einer bestimmten Kultur die ihr verfügbaren Handlungsmöglichkeiten nutzt. *In der Regel wird sie dabei die von der jeweiligen Kultur gesetzten Handlungsgrenzen (Normen, Gebote, Traditionen, Gewohnheiten) respektieren und ihr Handeln nach*

dem in der Kultur üblichen Orientierungssystem regulieren“ (Hervorhebung T.T.L.) Das Zusammentreffen dieser beiden Eigenkulturen kann – muss aber nicht – zu Missverständnissen, aneinander vorbeigehenden Erwartungshaltungen und Inkompatibilitäten führen. Es kann aber auch zu Ähnlichkeiten und Parallelen im Lehr- und Lernverhalten kommen und das Lehren respektive Lernen für beide Seiten effektiver und angenehmer machen. [2. S.355]

Sprachunterricht findet in Institutionen statt, die kulturspezifisch eingebettet und strukturiert sind. Betrachtet man die Institution der Schule, so sind Faktoren wie Dauer der Schulzeit, die Strukturierung des Schulsystems, Bedeutung der Schule in der Gesellschaft, Ausbildungsdauer und -bedingungen von Lehrern, das Ansehen der Lehrerschaft bis hin zur Klassengröße von Land zu Land verschieden. Knapp-Potthoff versteht unter Lernkultur die „Vorstellungen über Schule und Lernen, die den Mitgliedern dieser Gesellschaft überwiegend bekannt sind, die innerhalb dieser Gesellschaft diskutiert und prinzipiell akzeptiert, jedoch von Individuen mit unterschiedlichen Präferenzen versehen werden“. Fragen nach der Leistung der Schule, ihrer Rolle in der Gesellschaft, die Bedeutung und Definition von Lernzielen (vom Wissenserwerb über Entwicklung von Problemlösungskompetenz bis hin zu Abstraktionsfähigkeiten) und Gewichtungen und Inhalten in Curricula werden in verschiedenen Gesellschaften und Kulturen anders gestellt und anders beantwortet. Auch die Rolle von Fremdsprachen, ihre Beliebtheit und der Grad ihrer Beherrschung, variiert von Land zu Land, so spielt die chinesische Sprache für Deutsche eine andere Rolle als für Vietnamesen – denn eine Sprache trägt mit sich kulturelle, soziale, wirtschaftliche und historische Konnotationen. Es bleibt also festzuhalten, dass Vorgaben der Institutionen (Curricula, Klassengröße, Anzahl der Unterrichtsstunden für ein bestimmtes Fach etc.) und die Ausbildung und Unterrichtsweise der Lehrenden den Rahmen des Fremdsprachenunterrichts maßgeblich und entscheidend beeinflussen, und dass alle diese Faktoren kulturelle Symbole sind. Zusammenfassend lässt sich feststellen, dass die Struktur des Sprachunterrichts aus der Relation von universellen, individuellen und kulturellen Faktoren besteht und für den einzelnen Lernenden höchst individuelle Konstellationen von sprachlichen Vorkenntnissen, Motivationsstrukturen, Lernstilen und -strategien bestimmend sind. [3.S.867]

Pyesdə Mirzə Fətəli və Kruzenştern arasında keçən dialoqda Axundzadə obrazının öz xalqına və milli məsələlərə münasibətinə diqqət edək. Axundzadə xalqının milli mənsubiyyəti və sahibi olduğu dəyərlərlə fəxr etdiyini, zəngin folklora malik olduğunu deyir. Digər tərəfdən Mirzə Fətəli Azərbaycan xalqının teatra yad olmadığını deyir. General Kruzenşternə ozanları, xanəndələri xatırladır.

Kruzenşterin Mirzə Fətəlidən nə üçün "tatar" kəlməsini sevmədiyini soruşur. Mirzə Fətəli cavabında deyir: "Doğrudur, xoşlamıram. Ona görə ki, biz tatar deyilik. Mənim tatarlara hörmətim var. Lakin bizim millət türkdür, azəri türkü" (4, s. 39). Mirzə Fətəli Rusiya imperiyası ərazisində bütün müsəlmanlara tatar deyildiyini və bunun təhqir olduğunu deyir. Tatarlarla türklərin fərqindən danışan Mirzə Fətəli Türk millətinin qədimliyindən söz açır. Zərdüştdən, Nizamidən, Məhsətidən, Xaqanidən söhbət açır, Nəsrəddin Tusini XIII əsrin ən böyük filosof alimi sayır.

Çingiz Hüseynovun "Fətəli fəthi" əsərində də Axundzadə obrazının azərbaycançılıqla bağlı düşüncələrinə rast gəlirik. Nisbətən qapalı formada təqdim olunan bu fikirlər onun monarxiyaya və mövcud despot çar rejiminə və bu rejim altında inləyən Azərbaycan və digər xalqlara qarşı düşüncələrini ortaya qoyur. Axundzadə imperializmə qarşı bütün millətlərin güclənməsini zəruri sayır. Hətta dağınıq şəkildə aparılan mübarizələri pisləyir. "Qiyamlar mənasızdır, dağlıların mübarizəsi də boş şeydir, nə qədər tez sussalar (susdurulacaqlar) o qədər yaxşıdır, çünki, hamıya dinclik lazımdır. Həm də qoy millətlər yetişib bərkisinlər, inkişaf edib elmə-mədəniyyətə yiyələnsinlər" (5, s. 208). Ancaq mübarizə labüddür və Fətəli illər keçdikcə bunu daha yaxşı anlayır. Müəyyən zaman sonra bu haqda belə deyir: "Necə desin ki, onunla qəti razılaşa bilməyəcək? Mübarizə lazımdır,axı tapdalanan ləyaqətini necə qoruyasan?! Zülmlərə necə tab gətirmək olar? Yalvar-yaxarla iş keçərmi? xahişləri eşidən varmı?" (6, s. 292).

Əlisa Nicatın "Gəncəli müdrik" əsərində də qısa da olsa Axundzadənin azərbaycançılıqla bağlı fikirlərinə rast gəlirik. Axundzadə öz millətinin gücünə qüdrətinə inanır və inanır ki, Təbrizilər, Şirvanilər doğan, yetişdirən xalq qısır deyil. Yenə də doğacaq, törəyəcək (7, s. 208).

Axundzadə obrazının yaradıldığı bütün bədii əsərlərdə onun dini fanatizmə qarşı mübarizəsi daim ön plandadır. Bu əsərlərin əksəriyyətində mübarizə daha çox sovet ideologiyasına uyğun gəlir, Doğrudur Axundzadənin istər elmi, istər bədii əsərlərində, istərsə də məktublarında da bu mübarizə açıq aydın təsvir olunur ancaq bu mübarizə mahiyyət etibarı ilə fərqlidir. Bədii əsərlərdə Axundzadənin ateist kimi təqdim olunması, Şeyxülislama qarşı çıxması bəzən həqiqəti əks etdirmir. Onun öz

yazılarında dinə qarşı çıxmasının əsas səbəbi kimi xalqın fanatizm qaydaları altında tərəqqidən, elmdən kənarda qalması kimi göstərilsə də, bədii əsərlərdə bu mübarizə sırf dinə qarşıdır.

İstər Axundzadənin elmi və bədii əsərləri, istərsə də görkəmli mütəfəkkirin obrazının yaradıldığı əsərlər Axundzadənin azərbaycançılıq ideologiyasının öyrənilməsi baxımından olduqca önəmlidirlər. Unutmaq olmaz ki, Axundzadə bu ideologiyanın ilk nümayəndələrindəndir və onun fikirləri ideologiyanın formalaşmasında qaynaq rolunu oynayır.

Zamin Babazade

SUMMARY
AKHUNDZADE'S AZERBAIJANI IDEAS AND THE ARTISTIC WORKS CREATED BY AKHUNDZADE'S IMAGE

Although the period of MFAkhundzadeh's life was extremely contradictory, he always stood by the people with his works and works, worked for their education, growth of their worldview, development of national thinking and finally formation as a single nation. Akhundzade can be considered one of the founders of the Azerbaijani ideology. The article briefly covers Akhundzadeh's views based on the ideology of Azerbaijanism and the description of these ideas in the works of art written about him. Akhundzadeh's views and the differences in the descriptions of these thoughts in the works are also briefly shown. The article briefly describes the attitude of the image of Akhundzadeh to national issues, and the reflection of his thoughts on this topic in the works of art is compared with real facts. Throughout his life, Akhundzadeh remained faithful to the national ideology in his works and works. The alphabet project became the main rock of Akhundzadeh's life. The works written by Akhundzadeh in the Azerbaijani language also serve this purpose. In general, the main purpose of Akhundzadeh's enlightenment activity is to form a nation, to prove the existence of the people, to bring up the people as a cultured, educated nation with its own language, culture, world culture, human thought and values. The article reflects the novels "Fatali Fathi" (Chingiz Huseynov), "Ganjali Mudrik" (Alisa Nijat), "Khayalat" (A. Hagverdiyev), "Mirza Fatali" and Akhundzadeh's views on the ideology of Azerbaijanism.

Both Akhundzadeh's scientific and artistic works, as well as the works that created the image of a prominent thinker, are very important in terms of studying Akhundzadeh's Azerbaijani ideology. We must not forget that Akhundzadeh is one of the first representatives of this ideology, and his ideas play a key role in the formation of ideology.

Keywords: ideology of Azerbaijanism, Akhundzade, image, work of art, national thought

Замин Бабазаде

Резюме

АЗЕРБАЙДЖАНСКИЕ ИДЕИ АХУНДЗАДЕ И ХУДОЖЕСТВЕННЫЕ ПРОИЗВЕДЕНИЯ, СОЗДАННЫЕ ПО ОБРАЗУ АХУНДЗАДЕ

Хотя период жизни М.Ф.Ахундзаде был крайне противоречивым, он всегда стоял рядом с народом своими делами и делами, работал на его образование, рост его мировоззрения, развитие национального мышления и, наконец, становление как единой нации. Ахундзаде можно считать одним из основоположников азербайджанской идеологии. В статье кратко освещаются взгляды Ахундзаде, основанные на идеологии азербайджанства, и описание этих идей в художественных произведениях, написанных о нем. Также кратко показаны взгляды Ахундзаде и различия в описании этих мыслей в произведениях. В статье кратко описывается отношение образа Ахундзаде к национальной проблематике, а отражение его мыслей на эту тему в художественных произведениях сопоставляется с реальными фактами. На протяжении всей жизни Ахундзаде оставался верен национальной идеологии в своих произведениях и произведениях. Алфавитный проект стал главным камнем жизни Ахундзаде. Этой цели служат и произведения, написанные Ахундзаде на азербайджанском языке. В целом основной целью просветительской деятельности Ахундзаде является формирование нации, доказательство существования народа, воспитание народа как культурной, образованной нации со своим языком, культурой, мировой культурой, человеческим мышлением и ценностями. В статье отражены романы «Фатали Фатхи» (Чингиз Гусейнов), «Гянджали Мудрик» (Алиса Ниджат), «Хаялат» (А. Хагвердиев), «Мирза Фатали» и взгляды Ахундзаде на идеологию азербайджанства.

Как научные, так и художественные труды Ахундзаде, а также произведения, создавшие образ выдающегося мыслителя, очень важны с точки зрения изучения азербайджанской идеологии Ахундзаде. Нельзя забывать, что Ахундзаде является одним из первых представителей этой идеологии, и его идеи играют ключевую роль в формировании идеологии.

Ключевые слова: идеология азербайджанства, Ахундзаде, образ, произведение искусства, национальная мысль.

Ключевые слова: идеология азербайджанства, Ахундзаде, образ, произведение искусства, национальная мысль

Ədəbiyyat.

1. Axundzadə Əsərləri II cild Şərq –Qərb 2005 376 s. s. 206
2. Haqverdiyev Ə.Ə. Seçilmiş əsərləri: [2 cilddə] / Ə. Haqverdiyev.−Bakı: Lider,−c. 1.−2005.−504 s. 52, c.1, s. 227
3. Ömərov Vahid M.F.Axundzadənin əsərlərində azərbaycançılıq ideyaları/ Səs 2012 8 mart. S. 13
4. Mehdiyev Ş.F. Ərk qalası / Mehdiyev Ş. − Bakı: Elm və təhsil,− 2012.−399 s.90, s. 39
5. Hüseynov Ç.H. Fətəli fəthi / Hüseynov Ç.−Bakı: Yazıçı, −1986.−709 s.].
6. Hüseynov Ə.Q. Mirzə Şəfi / Əlisa Nicat.− Bakı: −Gənclik,−1984.−276 s.66, s. 208].

Redaksiyaya daxil olma tarixi: 18.05.2022
Çapa qəbul olunma tarixi: 07.06.2022
Rəyçi: fiologiya üzrə fəlsəfə doktoru, dosent, Əli Həşimov tərəfindən çapa tövsiyə olunmuşdur

AİDƏ CƏLILZADƏ MƏHƏMMƏD QIZI
Naxçıvan Dövlət Universiteti, dissertant
jalilzadehaida@yahoo.com

ABREVİASIYANIN TƏDQİQİNİN ƏSAS MƏSƏLƏLƏRİ

XÜLASƏ

Məqalədə abreviasiyanın mahiyyəti, sözyaradıcı xüsusiyyəti, abreviaturların tədqiqat istiqamətlərindən, onların təsnifi və tipologiyasından, müxtəlif qruplara və növlərə ayrılmasından bəhs olunur. Qeyd olunur ki, müasir dövrümüzdə istifadəsi genişlənsə də əslində abreviasiya yeni hadisə deyil. Abreviaturların istifadəsinin ilkin məqsədinin söz və söz birləşmələrini qısaltmaq olmasına baxmayaraq XX əsrin sonlarında müxtəlif elm və peşə sahələrinə aid yeni qısaltmalar yaranmışdır. Həmçinin, burada vurğulanır ki, abreviaturların son zaman aktual tədqiqat mövzusuna çevrilmiş qeyri-morfoloji yolla sözdüzəltmə xüsusiyyəti də vardır.

Abreviaturların təsnifi və tipologiyasının tədqiqata cəlb olunmasına və bir sıra təsniflərin olmasına baxmayaraq məqalədə bu məsələnin tam həllini tapmadığı və bu sahədə daha geniş tədqiqata ehtiyac olduğu qeyd olunur.

Məqalədə göstərilir ki, abreviaturlar təkrar nominasiyanın məhsuldar leksik vasitələrindən biridir. Bu səbədəndir ki, dildəki abreviasiya prosesinin müxtəlif diskurslarda tədqiqata cəlb olunması aktuallaşmışdır və bu istiqamətdə yerinə yertirilən elmi araşdırmaların sayı günbəgün artmaqdadır. Abreviasiyanın tədqiqinin 10 əsas istiqaməti məqalədə vurğulanmış və qeyd olunmuşdur ki, başqa istiqamətlərdə də abreviaturlar tədqiqata cəlb olunmuşdur.

Açar sözlər: *abreviasiya, təsnif, sözdüzəltmə, təkrar nominasiya, diskurs*

Abreviasiya dildə sonradan əmələ gəlmiş linqvistik hadisə olub daha çox qənaət prinsipi ilə izah olunur. Onun dildə söz yaradıcılığı üsulu kimi qəbul edilməsi elmi mübahisələrə səbəb olsa da, müasir dövrdə bu fikirlə razılaşanların sayı xeyli artmışdır. Eyni zamanda abreviasiya da dilin fərqli sferalarına nüfuz edir, dillərin əksəriyyətində ixtisarların sürətli artımı müşahidə olunur. *"Eramızın əvvəlindən başlayaraq XIX əsrin ortalarına qədər yalnız bir neçə abreviatur meydana gəlmişdir. XIX əsrin sonlarında isə bu miqdar onlarla ölçülmüşdür. XX əsrin son 25 illiyində bu cür vahidlər o qədər çoxalmışdır ki, inkişaf etmiş dillərdə tərkibinə bir neçə mindən artıq ixtisarlar daxil edilmiş lüğət tərtib edilmişdir"* [18, s.7]. V. Leyçikin sözlərindəki həqiqət ilkin dövrlərdə ixtisarların müəyyən mənbə və əlyazmalar, yaxud digər məqsədlər üçün nəzərdə tutulmasına istinadla təsdiqini tapır. Çünki abreviasiya hadisəsi və ixtisarların meydana gəlməsi heç də yeni hadisə deyildir. Bizim eraya qədər II-III əsrlərdə qədim Yunanıstanda dil vasitələrinin nitqdə ixtisarı baş vermişdir. Qədim Romada xüsusi isimlərin, vəzifə və titul, eləcə də ölçü, çəki bildirən sözlərin ixtisarla yazılışından istifadə edilmişdir. Məsələn, *Imperator – Imp/imp; consul – c/cos; libra – lb/lib* və s. Hüquq və təbabətdə də ixtisarlar geniş

istifadə olunmuşdur [5, s.15-22]. Göründüyü kimi, ilk ixtisarlar işlək söz və söz birləşmələrini qısaltmaq məqsədilə yaradılmışdır, onlar konkret sahələrə aidliyi ilə diqqəti cəlb edirlər.

Qədim və orta ingilis dilində bir sıra ixtisarlardan istifadə edilmişdir. *Mr, Mrs, a.m. (latın ante meridiem)* ingilis dilinin qədim ixtisarları sırasına daxildir. XIX əsrin ikinci yarısından ingilis dilində inisial tipli ixtisarlar artmağa başlamışdır. Məhz bu dövrdə ingilis dilinin birinci ixtisarlar lüğəti tərtib edilmişdir. Həmin lüğətdə 2500 ixtisar əksini tapmışdır [Bax: 11, s.26]. Qeyd edilənlər ixtisarların tarixi, onların yaranma səbəbləri, ilk ixtisarların sahəyə mənsubluğu ilə əlaqədardır. Aydın olur ki, abreviaturların birinci tədqiqat istiqaməti onların yaranma tarixi, səbəbləri, ilkin formaları və dil sistemində tarixi yayılma ardıcıllığını əhatə edir. Müasir dövrdə abreviasiya və abreviatur tarixinin ayrı-ayrı dillərin materialları əsasında öyrənilməsinə aid tədqiqatlar aparılır. Bir çox hallarda bəzi dillər üçün bu məsələ abreviaturlar haqqında ümumi planlı araşdırma çərçivəsində yerinə yetirilir. Məsələn, M.Adilov "Azərbaycan dilində abreviasiya və abreviaturlar" monoqrafiyasında "Abreviasiyanın Azərbaycan dilinə siraəti və tədqiqi tarixindən" paraqrafı yer almışdır. Müəllif Azərbaycan dilində abreviasiya hadisəsinin tarixini üç mərhələyə bölmüşdür: 1) birinci mərhələ – ərəb qrafikası dövrünün ixtisarları (IX-XIII əsrdən XX əsrin birinci yarısına qədər olan dövr); 2) ikinci mərhələ – latın qrafikası dövrü ixtisarları (1928-1940-cı illər); 3) III mərhələ – leksik ixtisarlar dövrü (rus qrafikası ixtisarları dövrü) 1940-cı ildən sonrakı dövrü əhatə edir [1, s.9-34].

Abreviaturların tədqiqinin ikinci istiqaməti onların düzəlmə formaları və strukturu ilə bağlıdır. İlk abreviaturlar, demək olar ki, inisializm əsasında düzəlmişdir. Məntiqi baxımdan bunun izahı sadədir. İxtisar edilən sözün ilk hərfi tam forma əvəzinə işlədilmişdir. Söz birləşməsinin ixtisarı tələb olunduqda tərkibdəki sözlərin birinci hərflərindən istifadə edilmiş, bu inisial hərflər böyük yazılmış, çox zaman onlardan sonra nöqtə qoyulmuşdur. Təbii ki, inisial ixtisarın kiçik hərflə verilməsi də istisna edilə bilməz. İngilis dilinin ilk ixtisarlarından sayılan latın *"ante meridiem"* birləşməsinin abreviaturu olan *"a.m."* bu prinsiplə düzəldilmişdir. İlkin ixtisarların başqa yolla formalaşdırılması da ilkin dövrlər üçün səciyyəvidir. Məsələn, ingilis dilindəki *Mister – Mr, Mistress – Mrs* bu qəbildəndir. Burada birinci sözün ilk və son hərflərin birləşməsi şəklində qısaldılması şübhə doğurmur. İkinci ixtisar, zənnimizcə, kişi cinsi üçün qəbul edilmiş formaya *"s"* artırılması yolu ilə formalaşmışdır: *Mr + s = Mrs. Mistress*-dən *Mrs* ixtisarının düzəldilməsi üçün ümumi qanunauyğunluq tapmaq çətindir. Yəni niyə birinci *"M"* qrafemindən sonra *"r"* və ondan sonra da sonuncu, yaxud sonuncudan əvvəlki *"s"* qrafeminin seçilməsini aydınlaşdırmaq olmur. Ona görə də, biz bunu cinslə bağlayırıq.

İlk ixtisarların inisial hərflərlə düzəldilməsi, sonradan fərqli formaların tapılması, yəni sözün birinci hecasının, sözün bir hissəsinin və s. ixtisarda istifadə edilməsi özlüyündə müəyyən məntiqi ardıcıllıqla baş verməmişdir. Təbii ki, ixtisarların tam kortəbii şəkildə düzəldilməsi fikrini də irəli sürmək olmaz. Şübhəsiz

ki, bu prosesdə bəzi mülahizələrə, meyarlara istinad olunmuşdur. Belə hesab etmək olar ki, yaradılan ixtisarın sadəliyi, ahəngdarlığı, tələffüz xüsusiyyətləri, sözə oxşarlığı, heca tamlığı və s. nəzərə alınmışdır. Hələlik bu meyarlardan və yaxud prinsiplərdən necə, hansı ardıcıllıqla istifadə olunması bəlli deyildir. Ona görə də, abreviasiya və abreviaturların tədqiqinin ikinci istiqaməti bu məsələlərin həllinə yönəlmişdir. Tədqiqatlar ilk abreviaturların hansı prinsiplər, meyarlar əsasında düzəldilməsi, onların düzəlmə yollarının necə inkişaf etməsi və müxtəlif dillərdə bu prinsiplərin eyniliyi, yaxud fərqliliyini öyrənməyə yönəlmişdir. Belə tədqiqatlar müasir dövrdə abreviasiyanın ümumi prinsiplər əsasında reallaşdırılmasının mümkün olub-olmamasını aydınlaşdırmaqda əsaslı rol oynayacaqdır.

Abreviaturların tədqiqində, üçüncü istiqamət bu sahəyə aid termin və anlayışların dəqiqləşdirilməsi və nizama salınmasını əhatə edir. Bu istiqamət, əslində, abreviaturların təsnifi və tipologiyası ilə kəsişir, onların müştərək şəkildə araşdırılması diqqəti özünə çəkir.

İ. A. Dyujikova göstərir ki, *"ingilis dilində leksik vahidlərin ixtisarı və ya ixtisarla bağlı problemə aid işlərdə çoxsaylı, müxtəlif tərif və terminlərdən istifadə olunur".* Müəllif 19 terminin adını çəkir və bununla kifayətlənməyərək sonda "və başqaları" ifadəsini də işlədir. Onun sadaladığı terminlər aşağıdakılardır: *abbreviation, abecedism, abridgement, acronym, alphabetic word, anagram, blend, clipping, contraction, curtailment, elliptical word, incomplete compound, initialism, logogram, protogram, shortening, stump-word, telescope, trunk-word* [11, s.36]. Oxşar vəziyyət alman, fransız, rus dilçiliyində və demək olar ki, ümumiyyətlə dilçilikdə özünü göstərir. Abreviasiya və abreviaturlara aid tədqiqatların əksəriyyətində bu məsələ qaldırılır, lakin həllini tapmır. Nəticədə abreviasiya terminologiyasının nizama salınması abreviaturaya dair tədqiqatlarda əsas istiqamətlərdən biri olaraq qalmaqdadır.

Abreviaturların tədqiqinin ilk dövrlərində də, indi də mövcud abreviaturlar əsasında onun növlərinin təyin edilməsi həmişə dominant olmuşdur. Bunun səbəbi aydındır. Əldə olan material eyni struktura malik vahidləri qruplaşdırıb ayırmağa əsaslı imkan verir. Mövcud abreviaturların yaranma formalarına görə qruplaşdırılması təsnifat prosesini sadələşdirir.

Abreviaturların təsnifi və tipologiyası XX əsrin ikinci yarısından tədqiqatçıların diqqətini özünə cəlb etmişdir. Buna baxmayaraq, müxtəlif prinsiplərə əsaslanan təsniflər çox olsa da, bu problem həllini tapmamışdır. Abreviaturların təsnifi müəyyən meyarlara əsaslanır. İstifadə olunma sahələrinə görə abreviaturlar iki böyük qrupa ayrılır: 1) mətn ixtisarları; 2) terminoloji ixtisarlar. Mətn ixtisarları geniş yayılmamışdır. İxtisar mətnə daxil edildikdə ondan sonra onun izahı ya mətndə, ya da qeydlərdə verilir. İzah olmadıqda ixtisarın mənası oxucuya aydın olmur. Belə ixtisarlar müəllif ixtisarları adlandırılır. Müəllif ixtisarların mənasını özü müəyyənləşdirir. Böyük Britaniyanın, ABŞ-ın iri şirkətlərinin hesabatlarında müəllif ixtisarlarından çox istifadə olunur. Belə abreviaturların bir qismi dildə əvvəl mövcud

olan ixtisarlarla eyniliyə də malik olur. Müəllif abreviaturları bu və ya digər dil universallığına münasibətdə standartlaşma mərhələsini keçdikdən sonra ümumişləklik qazanır.

Terminoloji abreviaturlar sahə mütəxəssislərinin qəbul etdiyi, mənasını bildiyi ixtisarlar hesab olunur. Müəllif ixtisarları müxtəlif müəlliflərin əsərlərində işlənərək ümumişləklik qazanır, sonradan terminoloji ixtisarlar sırasına daxil ola bilir.

Abreviaturların qrafik və leksik olmaqla iki qrupa bölünməsi də geniş yayılmışdır [Bax: 2; 4; 6; 14; 15; 16; 25]. Bəzi müəlliflər leksikoqrafik ixtisarları da ayırırlar [13]. Qrafik abreviaturlar yalnız yazılı nitqdə istifadə olunur. Şifahi nitqdə bu ixtisarlar tam formalarında canlandırılır [7, s.139; 21, s.176].

Qrafik abreviaturların hərfli-rəqəmli və rəqəmli növləri vardır [13]. Leksik abreviaturlar müstəqil sözlərdir [21, s.176]. Bəzi tədqiqatçılar onları xüsusi qrafik forması və mənası olan ünsiyyət vahidi kimi qəbul edirlər [20, s.40]. Leksik abreviaturların müxtəlif növləri qeyd olunur. Məsələn, N. N. Alekseyeva retrospektiv prinsipi əsas götürərək kəsilmə, ellipsis, inisial vahidləri ayırır [3]. M. A. Hasenova bu abreviaturların qısaltma, heca ixtisarları, inisial heca ixtisarları, qismən ixtisar edilib kombinə olunmuş ixtisar, inisial ixtisar növlərinin olduğunu yazmışdır [23, s.9]. V. V. Borisov abreviaturların 5 növünü fərqləndirmişdir: 1) bilavasitə abreviaturlar; 2) akronimlər; 3) ixtisar edilmiş kod adları; 4) konstrukturlar- bəzi hərfləri və hecaları buraxılmış ixtisarlar; 5) komanda, vəzifə və coğrafi adların ixtisarları [6, s.130]. V. V. Lopatin və İ. S. Uluxanov abreviaturların altı növünü ayırmışlar: 1) inisial tipli abrevialar; 2) heca abreviaturları; 3) qarışıq abrevialar; 4) sözün başlanğıc hissəsi ilə tam sözün birləşdirilməsi ilə alınan ixtisarlar; 5) sözün birinci hissəsi və ikinci sözün qrammatik formasının birləşməsi ilə əmələ gələnlər; 6) birinci sözün inisial hecası ilə ikinci sözün bir hissəsi və ya sonluğu ilə düzələn abreviaturlar [19, s.3].

Abreviaturların təsnifi haqqında verilmiş qısa xülasə bu cür araşdırmaların çox az bir hissəsidir. Təsnifat və tipologiya ilə bağlı araşdırmalar, demək olar ki, bütün dillərin materialları üzrə aparılmışdır. Lakin yuxarıdakı məlumatlardan da göründüyü kimi, bu problemlə bağlı yekdil fikir formalaşmamışdır. Eyni zamanda istər rus, istərsə qərb dilçiliyində abreviaturların təsnifinə aid yeni-yeni tədqiqatlar yerinə yetirilməkdədir. Bu cəhət təsdiq edir ki, abreviaturların öyrənilməsinin əsas istiqamətlərindən biri yenə də onların təsnifi və tipologiyasıdır. Son dövrlərdə göstərilən istiqamətdə tədqiqatlarda məsələyə yanaşmada diqqəti cəlb edən aspekt abreviasiyada iştirak edən parametr və elementləri müəyyənləşdirməklə bağlı ortaya atılan yeni ideyalardır. Hər bir abreviatur tam forma əsasında düzəldilir. Belə olan halda, ilk əvvəl, ilkin, tam formanın xüsusiyyətlərini aydınlaşdırmaq xüsusi əhəmiyyət kəsb edir. İxtisar edilən tam formanın müəyyən tipi olur. Bu ilkin forma ya söz, ya söz birləşməsi, ya da sözlər toplusudur. İlkin adda müəyyən sayda komponent olur və onlar hansısa ardıcıllıqla düzülürlər. Belə birləşmənin sintaktik normalara uyğunluğu

da nəzərə alınmalıdır. Deməli, abreviaturun strukturu tam formadan, komponentlərin sayından, onların dilin sintaktik normalara uyğunluğundan asılı olacaqdır.

İkinci, parametr olaraq tam formanın dildə işləklik dərəcəsi ilə bağlıdır. Terminoloji bir müvafiq sahə mətnləri üçün səciyyəvidir və onların işləkliyi bu sahəyə aid mətnlərə görə müəyyənləşdirilməlidir.

Abreviasiya prosesinin nəticəsi kimi meydana çıxan abreviaturda tam formanın elementləri yer alır. Bu elementlərin hər biri iz adlanır. Deməli, abreviaturda tam formanın müəyyən sayda izi olur və bu izlər də hansısa ardıcıllıqla ixtisarda yerləşir. İz heca, inisial qrafem, sözün bir hissəsi, qrafem birləşməsi, söz ola bilər. Əgər bu cəhət nəzərə alınarsa abreviaturlar əsasında modelləşdirmə aparmaq, onların struktur modellərini qurmaq mümkündür.

Abreviaturu təşkil edən sözlərin ilkin variantda tutduqları mövqe də (başlanğıc, orta, son) struktur xüsusiyyətlərin, eləcə də təsnif prinsiplərinin müəyyənləşdirilməsində əhəmiyyətlidir. Qeyd edilən istiqamətdə Z.A.Xaritonçik tədqiqat aparmışdır [Bax: 22, s.168].

Müasir ingilis dilində abreviasiya linqvistik proses kimi qəbul olunur, onu sözdüzəltmə üsulu hesab edirlər, qeyri-morfoloji üsulla sözdüzəltmənin bir növü adlandırırlar. Qeyri-morfoloji üsul adı sözdüzəltmədə iştirak edən vasitələrin morfem olmamasından irəli gəlir. Tam formanın tərkib komponentlərindən götürülmüş inisial qrafemlər, hecalar, qrafem birləşmələri, sözlərin hissələri abreviaturun düzəldilməsində istifadə olunur. Bu elementlərin heç biri morfem deyildir. Germanşünaslıqda abreviaturların qeyd edilən istiqamətdən tədqiqinə son dövrlərdə xüsusi maraq göstərilir.

Abreviaturlar təkrar nominasiyanın məhsuldar leksik vasitələrindən biridir. Elm və texnikanın tərəqqisi bir sıra sahələrdə terminlərin determinləşməsini sürətləndirmişdir. Həmin sahələrdən ümumişlək leksik qatı sözlərin keçidi sürətlənir. Bu sözlərin az olmayan bir qismi abreviaturlardır. Kompüter terminologiyasının abreviaturlarının çoxu indi hər bir dilin ümumişlək leksik qatına daxil olmuşdur. Terminoloji ixtisarların dilin əsas, daha dəqiq desək, aktiv lüğət fonduna keçidi məsələlərini öyrənmək də son dövrlərdə abreviaturların yeni tədqiqat istiqaməti kimi dəyərləndirilir. Bu istiqamətdə aparılan araşdırmaların nəticələri daha bir tədqiqat istiqamətini müəyyənləşdirmişdir. İndi müxtəlif diskurslarda abreviaturların işlənmə xüsusiyyətlərini öyrənmək aktuallaşmışdır. Kompüter diskursunda, siyasi diskursda, media diskursda, hərbi diskursda, tibbi diskursda abreviaturların leksik-semantik xüsusiyyətlərinin tədqiqi ilə bağlı müxtəlif dillərin materialları əsasında elmi araşdırmaların sayı xeyli çoxalmışdır.

Antroposentrik elmi paradiqma abreviaturların koqnitiv dilçilik prizmasından öyrənilməsinə də təkan vermişdir. T.Harmanın fikrinə görə, dil koqnitivistikanın əsas mövzusudur. Dil təfəkkürü əks etdirir, fikrin ifadə olunmasının əsas vasitəsi kimi çıxış edir. Dili öyrənmək dərketmə prosesini, dərketməni öyrənməkdir. Dil eyni zamanda dərketməyə təsir edən vasitədir [26, s. 259]. Bu mövqedən çıxış etdikdə,

dilin və nitqin vasitə və vahidlərini onun ilkin əsaslarını qəbul etmədən öyrənməyin mümkün olmadığını etiraf etmək olar. Dilin daha geniş yayılmış fenomenlərindən olan abreviasiyanı koqnitiv amillərsiz öyrənmək də düzgün deyildir. Müasir linqvistikada abreviasiya insanın dünya haqqındakı müəyyən biliklərinin verbal ifadəsi kimi təsəvvür olunur. Xarici formasına görə, dilin sadə vahidlərindən olan abreviaturlar mürəkkəb struktur birləşmələrin əvəzedicisi, təsviri nominantıdır.

Abreviaturlar insanın gerçəklik haqqındakı təcrübə, bilik və qiymətləndirməsini əks etdirir. Mürəkkəb adların canlandırılmasının çətinliyi onların sadə abreviaturlarla əvəz edilməsinə zəmin yaradır və bu zaman tam formanın nə məzmunu, nə də qrammatik strukturu dəyişmir. Dildə əvvəlki mürəkkəb forma qalır, bununla bərabər həmin formanı məzmun planında eynilə əvəz edən sadə forma nitqdə istifadə olunur. Bundan başqa abreviasiya, sözdüzəltmə prosesinin nəticəsi, məhsulu olan abreviaturlar adlandırmada fəal iştirak edirlər. Abreviaturların mahiyyətlərinə görə koqnitivliyini tədqiqatçıların əksəriyyəti qəbul edir [Bax: 8; 9; 12; 10].

Abreviaturla adlandırma, ümumiyyətlə nominasiya mürəkkəb prosesdir. Bu prosesdə dildənkənar gerçəkliyin hadisələri dil vahidlərindən istifadə olunmaqla müəyyən quruluşda əksini tapır [17, s.87]. M.V.Xolodilova bu fikri bir qədər də genişləndirərək yazmışdır: *"Nominasiya yalnız adlandırma deyil, həm də dərketmə prosesidir. Sözün, verbal quruluşunun mənasında real gerçəkliyin fraqmentlərinin, onların mahiyyətinin ictimai qavramı inikasını tapır"* [24, s.63]. Deyilənlər abreviasiya və abreviaturların koqnitiv mövqedən öyrənilməsinin vacibliyini aşkar şəkildə təsdiq edir. Beləliklə, aparılmış təhlildən aydın olur ki, müasir dövrdə abreviaturların aşağıdakı tədqiqat istiqamətləri vardır: 1) abreviasiya və abreviaturların tarixinin öyrənilməsi; 2) abreviaturların yaranma səbəblərinin aydınlaşdırılması; 3) abreviasiyanın inkişaf meyillərinin təyin olunması; 4) abreviasiya sisteminin anlayış və terminlərinin nizama salınması; 5) abreviaturların təsnifi və tipologiyasının aparılması; 6) abreviaturların struktur-semantik, eləcə də fonetik xüsusiyyətlərinin öyrənilməsi; 7) mümkün abreviatur modellərinin təyin edilməsi və onların müxtəlif dillərin abreviatur sistemində iştirak etməsinin aydınlaşdırılması; 8) abreviasiyanın qeyri-morfoloji üsulla söz yaradıcılığı üsulu kimi inkişaf meyillərinin aydınlaşdırılması; 9) abreviaturların, müxtəlif tipli diskurslarda işlənmə xüsusiyyətlərinin öyrənilməsi; 10) abreviaturların koqnitivistikasının öyrənilməsi.

Fikrimizcə, sadalananlar abreviaturların tədqiqinin yalnız əsas istiqamətlərini əhatə edir. Abreviasiya və abreviaturla bağlı başqa istiqamətlərdə də araşdırmalar aparılır.

Abreviaturların hazırda ən aktual olan praktik məsələləri onların toplanması, izahlı, ikidilli və çoxdilli abreviatur lüğətlərinin hazırlanması, abreviaturların orfoqrafiya və orfoepiya normalarının işlənməsi, abreviaturların unifikasiyası, standartlaşdırılması və beynəlmiləl abreviatur fondunun yaradılması kimi işləri əhatə edir.

ƏDƏBİYYAT SİYAHISI

1. Adilov, M.M. Azərbaycan dilində abreviasiya və abreviaturlar/ M.M.Adilov. – Bakı: Elm, 2010. – 168 s (s. 9-34).

2. Алексеев, Д.И. Сокращение слова в русском языке/ Д.И. Алексеев. – Саратов: Изд-во СГУ, 1979. – 328 с.

3. Алексеева, Н.Н. Типология сокращенных лексических единиц современного английского языка: дис. ... канд. филол. наук / Н.Н. Алексеева. – М., 1984. – 224 с.

4. Арнольд, И.В. Лексикология современного английского языка/ И.В. Арнольд. – Москва: Высшая школа, 1986. – 295 с.

5. Бирюкова, Е.А. Функционирование аббревиатур в современной речи: дис. … канд. филол. наук / Е.А. Бирюкова. – Москва: МПГУ, 2007. – 309 с.

6. Борисов, В.В. Аббревиация и акронимия. Военные и научные технические сокращения в иностранных языках / В.В. Борисов. – Москва: Военное изд-во МО СССР, 1972. – 320 с.

7. Воробьева, О.И. Англоязычные сокращения чата как явление межкультурной коммуникации / О.И. Воробьева // Ученые записки. – 2013. – Т. 16. – С. 136-143.

8. Воронина, Л.В. Категоризация мира в словообразовании немецкого языка / Л.В. Воронина // Вестник Московского гос. областного ун-та. – Серия: Лингвистика. – 2010. – № 6. – С. 103-108.

9. Газизова, Р.Ф. Словообразование с позиций когнитивизма/ Р.Ф. Газизова // Вестник Башкирского ун-та. – 2012. – Т. 17, № 1 (1). – С. 456-459.

10. Голованова, Е.И. Когнитивное терминоведение/ Е.И. Голованова. – Челябинск: Энциклопедия, 2008. – 177 с.

11. Дюжикова, Е.А. Аббревиация сравнительно со словосложением: Структура английского языка: дис. … докт. филол. наук / Е.А. Дюжикова. – Москва, 1997. – 340 с.

12. Дроздова, Т.В. Терминообразование с позиций когнитивной лингвистики/ Г.В. Дроздова // Вестник Челябинского гос. ун-та. – Филология. Искусствоведение. – Челябинск, 2013. – Вып. 84, № 31 (322). – С. 32-34.

13. Дубинец, Э.М. Лексикология современного английского языка: лекции и семинары/ Э.М. Дубинец. – Москва: Глосса-Пресс, 2002. – 192 с.

14. Елдышев, А.Н. Строение и мотивированность сокращенных слов: дис. … канд. филол. наук / А.Н. Елдышев. – Москва, 1995. – 175 с.

15. Зубова, Л.Ю. К вопросу об особенностях и трудностях перевода английских сокращений / Л.Ю. Зубова // Вестник Воронежского гос. ун-та. – Серия: Лингвистика и межкультурная коммуникация. – 2005. – № 2. – С. 121-125

16. Косарева, О.Г. Аббревиация в языке современной прессы (на материале французского, английского и русского языков): дис. ... канд. филол. наук / О.Г. Косарева. – Тверь, 2003. – 203 с.

17. Коваленко, А.Н. Когнитивные механизмы номинации в современном английском языке/ А.Н. Коваленко // Филологические науки. Вопросы теории и практики. – 2013. – № 4-1 (22). – С. 126-130.

18. Лейчик, В.М. Люди и слова / В.М.Лейчик. – Москва: Знание, 1982. – 177 с.

19. Мустафинова, Э.Р. Аббревиация в русском языке: когнитивный аспект: автореф. … канд. филол. наук / Э.Р. Мустафинова. – Барнаул, 2001. – 20 с.

20. Нелюбин, Л.Л. Перевод боевых документов армии США / Л.Л. Нелюбин. – Москва: Воениздат, 1989. – 270 с.

21. Сергеева Т.С. Аббревиатура в системе лексических сокращений // Филологические науки. Вопросы теории и практики. 2013. № 6. Ч. 2. С. 174-179.

22. Харитончик, З.А. Лексикология английского языка. – Минск.: Вышэйшая школа, 1992. – 197 с.

23. Хасенова, М.А. Семиотическая и лингвистическая природа аббревиации: автореф. дис. ... канд. филол. наук / М.А. Хасенова. – М., 1986. – 23 с.

24. Холодилова, М.В. Профессиональная картина мира как результат когнитивной деятельности/ М.В. Холодилова // Языки профессиональной коммуникации. – Челябинск: ООО «Энциклопедия», 2009. – С. 61-64.

25. Ярмашевич, М.А. Аббревиация в современных европейских языках: структурный, семантический и функциональный аспекты: дис. … докт. филол. наук / М.А. Ярмашевич. – Саратов, 2004. – 481 с.

26. Harman, G. Cognitive science? / G. Harman // The making of cognitive science: essays in honor of George A. Miller. – Cambridge (Mass), 1988. – P. 258-268.

Aida Jalilzada Mahammad

THE MAIN ISSUES OF THE STUDY OF ABBREVIATIONS

Summary

The article deals with the essence of abbreviations, their word-formation features, research areas of abbreviations, classification and typology, division into different groups and types. It is noted that although the use of abbreviation is expanding in modern times, in fact, it is not a new phenomenon. Although the original purpose of the use of abbreviations was to shorten words and phrases, in the late twentieth century, new abbreviations appeared in various fields of science and profession.

It is also emphasized that abbreviations have a non-morphological word formation feature, which has recently become a topic of research. Despite the fact that the classification and typology of abbreviations are involved in research, the

article notes that this issue has not been fully resolved and more research is needed in this area. The article denotes that abbreviations are one of the most productive lexical means of re-nomination. For this reason, the process of abbreviation in the language has become relevant in research of various discourses, and the number of scientific research in this area is growing day by day. The article analyses 10 main directions of abbreviation research and notes that abbreviations are also involved in other research areas.

Key words: abbreviation, classification, word-building, re-nomination, discourse

Аида Джалилзаде Магомед кызы

ОСНОВНЫЕ ВОПРОСЫ ИССЛЕДОВАНИЯ АБРЕВИАЦИИ

Резюме

В статье рассказывается о сущности аббревиатур, их словообразовательном характере, направлениях исследования аббревиатур, их классификации и типологии, выделении их в различные группы и виды. Отмечается, что, хотя его использование расширяется в наше современное время, на самом деле абревиация не является новым явлением. Несмотря на то, что первоначальной целью использования аббревиатур было сокращение слов и словосочетаний, в конце XX века появились новые аббревиатуры, относящиеся к различным отраслям науки и профессии. Также здесь подчеркивается, что аббревиатуры имеют неморфологический характер словоизменения, который в последнее время стал актуальным предметом исследований. Несмотря на то, что классификация и типология аббревиатур вовлечены в исследование и существует ряд классификаций, в статье отмечается, что данный вопрос не получил полного решения и нуждается в более широких исследованиях в этой области. В статье показано, что аббревиатуры являются одним из продуктивных лексических средств многократной номинации. Это связано с тем, что привлечение процесса абревиации в языке к исследованиям в различных дискурсах стало актуальным, и число научных исследований в этом направлении растет с каждым днем. В статье были выделены и отмечены 10 основных направлений исследования аббревиатур, а также были привлечены к исследованию другие направления.

Ключевые слова: аббревиация, классификация, словообразование, повторное назначение, дискурс

Redaksiyaya daxil olma tarixi: 18.05.2022
Çapa qəbul olunma tarixi: 07.06.2022
Rəyçi: filologiya elmləri doktoru, professor İlham Tahirov tərəfindən çapa tövsiyə olunmuşdur

QƏRİBƏ XƏLİLOVA
Gəncə Dövlət Universiteti
Azərbaycan və dünya ədəbiyyatı kafedrası

CƏLİL MƏMMƏDQULUZADƏNİN ƏDƏBİ-İCTİMAİ FİKİR TARİXİNDƏ YERİ

Xülasə

Cəlil Məmmədquluzadə Azərbaycan ədəbi-ictimai fikir tarixində sözün geniş mənasında milli istiqlal, demokratiya və Vətən azadlığı uğrunda mübarizənin ön cərgəsində dayanır. Onun yaradıcılığı gələn hər yeni nəsil üçün müstəqillik, azərbaycançılıq, millilik və vətəndaşlıq tərbiyəsi məktəbidir.

XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri Cəlil Məmmədquluzadə Azərbaycan ədəbi, bədii, ictimai fikrinin inkişafında mühüm rol oynamış, tənqidi realist ədəbiyyatın yaradıcısı olmuşdur. Ədəbi, ictimai fəaliyyəti ilə azadlıq yolunda mübarizəyə, demokratik hərəkata kömək edən böyük ədib, dramaturq, mühərrir Cəlil Məmmədquluzadə (Molla Nəsrəddin) XX əsr Azərbaycan ədəbiyyatında tənqidi realist ədəbi cərəyanın başçısı kimi məşhurdur.

Cəlil Məmmədquluzadə XX əsr Azərbaycan ədəbiyyatının ən nəhəng nümayəndələrindəndir. Onun əsərləri Azərbaycan ədəbiyyatının parlaq incilərindəndir. Cəlil Məmmədquluzadə irsinin görkəmli tədqiqatçısı, akademik İsa Həbibbəyli haqlı olaraq Cəlil Məmmədquluzadəni "Azərbaycan milli istiqlal ədəbiyyatının sərkərdəsi" adlandırır.

Canlı xalq dilinin varlığını qoruyub saxlamağı təbliğ edən böyük ədib bütün yaradıcılığı dövründə dil məsələsinə həssaslıqla yanaşmışdır. Cəlil Məmmədquluzadənin əsərlərinin dili xalq danışıq dilinə çox yaxındır.

Açar sözlər: ədəbiyyat, sənətkar, milli, tarixi proses, ədəbi-inkişaf, mətbuat, tədqiqatçı, yaradıcılıq.

Cəlil Məmmədquluzadə – bənzərsiz nasir, kiçik hekayənin böyük ustadı, qüdrətli dramaturq, vətəndaş-publisist, azərbaycançılıq ideologiyasının yaradıcılarından biri, Azərbaycan ədəbiyyatında “Molla Nəsrəddin” ədəbi məktəbinin, tənqidi realizmin banisi kimi geniş şöhrət qazanmış görkəmli yazıçı və tanınmış ictimai xadimdir.

Molla Nəsrəddin – yazıçının əsas gizli imzalarından biridir. Az sonra bu ad Mirzə Cəlilin ədəbi təxəllüsünə çevrilmişdir. Nəinki Azərbaycanda, bütün Şərqdə ilk satirik və rəngli karikaturalı mətbuat orqanı olan məşhur “Molla Nəsrəddin” jurnalının redaktoru və naşiri olması bu adı böyük sənətkar üçün daha da doğmalaşdırmışdır.

Cəlil Məmmədquluzadə Azərbaycan ədəbi-ictimai fikir tarixində sözün geniş mənasında milli istiqlal, demokratiya və Vətən azadlığı uğrunda mübarizənin ön

cərgəsində dayanır. Onun yaradıcılığı gələn hər yeni nəsil üçün müstəqillik, azərbaycançılıq, millilik və vətəndaşlıq tərbiyəsi məktəbidir.

XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri Cəlil Məmmədquluzadə (1869-1932) Azərbaycan ədəbi, bədii, ictimai fikrinin inkişafında mühüm rol oynamış, tənqidi realist ədəbiyyatın yaradıcısı olmuşdur. Ədəbi, ictimai fəaliyyəti ilə azadlıq yolunda mübarizəyə, demokratik hərəkata kömək edən böyük ədib, dramaturq, mühərrir Cəlil Məmmədquluzadə (Molla Nəsrəddin) XX əsr Azərbaycan ədəbiyyatında tənqidi realist ədəbi cərəyanın başçısı kimi məşhurdur.[1, 180]

Cəlil Məmmədquluzadə XX əsr Azərbaycan ədəbiyyatının ən nəhəng nümayəndələrindəndir. Onun əsərləri Azərbaycan ədəbiyyatının parlaq incilərindəndir. Cəlil Məmmədquluzadə irsinin görkəmli tədqiqatçısı, akademik İsa Həbibbəyli haqlı olaraq Cəlil Məmmədquluzadəni "Azərbaycan milli istiqlal ədəbiyyatının sərkərdəsi" adlandırır.

XX əsrin əvvəllərində milli mətbuatda Ömər Faiq Nemanzadə, Nəriman Nərimanov, Cəlil Məmmədquluzadə, Yusif Vəzir Çəmənzəminli, Firudin bəy Köçərli, Əhməd Cavad, Üzeyir Hacıbəyli və digər ziyalılar ana dilinin müdafiəsinə qalxmışdılar. Çünki həmin dövrdə Azərbaycan ədəbi dilinin statusu dəqiq müəyyənləşdirilməmişdi. Bir çox ziyalılar osmanlı türkcəsini ədəbi dil statusunda görürdülər.

"Molla Nəsrəddin" jurnalının əsas mövzularından biri məhz ana dilinin saflığı problemi idi. XX əsrin əvvəllərində Azərbaycanda ədəbi dil məsələsi ən aktual problemlərdən birinə çevrilmişdi. O dövrün ziyalıları arasında hansı dilin ədəbi dil olması uğrunda kəskin mübarizə gedirdi. Bəziləri osmanlı türkcəsini ədəbi dil kimi qəbul edir, bəziləri isə digər dillərə meyl etməklə doğma ana dilinə ögey münasibət bəsləyirdilər.

Cəlil Məmmədquluzadənin yaradıcılığında ortaq türk ədəbi dili, ana dilinin saflığı, əlifba məsələsi aparıcı mövzular idi. Cəlil Məmmədquluzadə cəmiyyətdə sözün rolunu, dilin əhəmiyyətini yüksək qiymətləndirirdi. Təsadüfi deyil ki, böyük demokrat ədib yazırdı: "Dünyada hər bir kəs üçün sözdən böyük yadigar yoxdur. Zira ki, mal-mülk tələf gedir, amma söz qalır". [2, 217]

Yazıçı janrından asılı olmayaraq müxtəlif ədəbi növlərdə yazdığı əsərlərində ana dilinin saflığı probleminə toxunmuşdur. Ana dili məsələsi Cəlil Məmmədquluzadənin dram əsərlərində də həssas mövzulardan biri idi. "Anamın kitabı" tragikomediyasında məhz bu problemin əks olunduğunu görürük. Bu əsərdə rus dilinə meylli Rüstəm bəy, fars dilinə meylli Mirzə Məhəmmədəli, türk dilinə meylli Səməd Vahid obrazlarının timsalında ədib XX əsrin əvvəllərində bəzi ziyalıların ana dilinə biganə münasibətini ürək yanğısı ilə təsvir etmişdir. Ədib bu əsərdə Gülbaharın, çobanların, Zəhrabəyimin danışıqlarının timsalında sadə xalq danışıq dilinə olan məhəbbətini ifadə etmişdir. Yazıçı "Dəli yığıncağı" tragikomediyasında xalqın dilində danışa bilməyən Doktor Lalbyuz, Həzrət Əşrəf

kimi insanları tənqid edirdi. Əsərdə Hacı Nayib deyir: "Hacılar, burada bir vacib məsələ var ki, öndan ötəri də həzrət Əşrəf sizi buraya dəvət edib, amma and verirəm sizi qollu Həzrət Abbasa, burada, əgər mümkünsə türkcə danışmayaq, çünki Həzrət Əşrəfin mənə qeyzi tutar". Müəllif Hacı Cəfər Kompaninin dili ilə də Hacı Əşrəf kimi ana dilində danışmağı özünə ayıb bilən məmurları ifşa edir: "Doğrusu, Hacı ağa, peyğəmbərə and olsun, Həzrət Əşrəfin dilini biz başa düşmürük. Bəs buna görə biz əhd edirik ki, Həzrət Əşrəfin xidmətinə bundan sonra heç danışmayaq, heç danışmayaq".

XX əsrin əvvəllərində əlifba məsələsi də böyük önəm daşıyan mövzulardan biri idi. Ziyalılar arasında həm ərəb əlifbasının, həm də latın əlifbasının tərəfdarları var idi. Cəlil Məmmədquluzadə yenilikçi ziyalı kimi latın qrafikasının tərəfdarlarından idi. O, ərəb əlifbasının yazıda bir çox problemlər yaratdığını öz felyetonlarında tez-tez qeyd edirdi. "Molla Nəsrəddin" jurnalının 1908-ci il, 19-cu sayında "Dil" adlı felyetonda ərəb qrafikası ilə yazılmış məktubda bir hərf yanlışlığının nə qədər faciə yaratdığı göstərilir: "Mən indiyə kimi inciyirdim o müsəlmanlardan ki, öz dillərini bilə-bilə bir-birinə rus dilində məktub yazırlar. Amma indi incimərəm. Darülfünu qurtarmış cavanlarımızın hamısı rus dilində yazı-pozu eləyirlər - müsəlmanca savadı olanlar da eləyir, olmayanlar da eləyir. Əvvəla mən buna razı olmazdım, amma indi razıyam. Hətta qəzetə müdirlərimizdən bizə indiyədək bir neçə kağız gəlib. Bunların hamısı rusca yazılıb. Müəllim rəfiqlərimiz də rusca kağız yazırlar. Az qalıb mollalarımız da rus dilində irsal-mərsul edərlər, amma eləmirlər, məhz ondan ötür ki, rusca bilmirlər. Bu işlərə əvvəllər mən də təəccüb edirdim, amma indi eləmirəm. Səbəbi var....." Felyetonda qeyd olunur ki, ərəb əlifbası ilə Molla Cəfərə göndərilən məktubda yazılan "Anama de ki, Fatmanın oğlu oldu" xəbəri "Anama de ki, Fatmanın oğlu öldü" şəklində anlaşılmışdır.

XX əsrin 20-ci illərində yeni latın əlifbası ilə nəşr olunan əsas qəzetlərdən biri "Yeni yol" qəzeti idi. Qəzetdə latın əlifbası təbliğ olunurdu. Həmin qəzetin baş redaktoru Cəlil Məmmədquluzadə idi. Bu qəzetin ilk sayı 22 sentyabr 1922-ci ildə nəşr olunmuşdu. "Molla Nəsrəddin" jurnalının 1924-cü il tarixli, 6-cı sayında "Hazırın naziri" imzası ilə yazılan "Təzə əlifba" felyetonunda bəzi ziyalıların vaxtilə latın əlifbasının əleyhinə çıxdıqları, sonra isə ona tərəfdar olduqları göstərilir. 1926-cı ildə Bakıda keçirilən I Türkoloji Qurultayın nümayəndələri arasında Cəlil Məmmədquluzadə də vardı.

XX əsrin əvvəllərində türk xalqları arasında ortaq bir ədəbi dilin zəruriliyini böyük ədib çox yaxşı başa düşürdü. Cəlil Məmmədquluzadə yazırdı: "Həm tək bircə Qafqaz türkləri üçün ümumi bir dil məsələsinin həlli hələ səhvdir, pəs Osmanlı türkləri, pəs Krım və Qazan tatarları, pəs Türküstan və Özbəkistan, pəs İran azərbaycanlıları... Pəs biz bunu etiraf edirik ki, əvvəl-axır türk kütlələri üçün ədəbi dilə və ümumi imlaya çox böyük ehtiyac vardır. Və etiqadımız da bundadır ki, bir belə dil gec-tez vücuda gələcəkdir". [3, 198]

Ədibin felyetonlarının bir qismində öz ana dilində danışmağı ar bilən ziyalılar tənqid olunurdu. Təsadüfi deyil ki, Mirzə Cəlil "Molla Nəsrəddin" jurnalının ilk nömrəsində (Tiflis, 1906, 7 aprel) "Sizi deyib gəlmişəm" adlı felyetonunda ana dili məsələsinə toxunmuşdu: "Məni gərək bağışlayasınız, ey mənim türk qardaşlarım ki, mən sizlə türkün açıq ana dili ilə danışıram. Mən onu bilirəm ki, türk dilində danışmaq eyibdir və şəxsin elminin azlığına dəlalət edir. Amma hərdənbir keçmiş günləri yad etmək lazımdır...

Hərdənbir ana dilində danışmaqla keçmişdəki gözəl günləri yad etməyin nə eybi var?"

Cəlil Məmmədquluzadə bir sıra hekayələrində də ana dili məsələsinə toxunmuşdur. Onun "Şeir bülbülləri", "Sirkə" hekayələri dil mövzusundadır. "Şeir bülbülləri" hekayəsində evində farsca "nadir kitablar" kolleksiyası yığan bir ziyalının ailəsində nə xanımının, nə də oğlunun anlamadığı qəzəllər oxuması tənqid atəşinə tutulur. Halbuki həmin evdə bir qız uşağına sadə ana dilində nağıl söyləyən Zeynəb arvadın danışığı hamı tərəfindən çox rahat başa düşülür. Yəni bu müqayisəni verməklə böyük ədib öz ana dilinə xor baxan üzdəniraq "ziyalıları" tənqid edirdi. "Sirkə" hekayəsində isə balıq sözünü düzgün tələffüz edə bilməyən ziyalılar tənqid olunur. Burada müəllif göstərir ki, balıq sözünü balıx deyil, balık kimi yanlış tələffüz etməyə cəhd edən ziyalılar osmanlı türkcəsinin tərəfdarlarıdır. Hekayədə Əhməd Fitrət kimi milli sözlərimizi süni olaraq osmanlı türkcəsinin tələffüzünə uyğun olaraq yanlış tələffüz edənlər əsas tənqid hədəfidir: "Mən üzümü Əhməd Fitrətə tutub dedim:

- Necə yəni nəyin səbəbi? Axı səndən soruşurlar ki, biz ki, dörd Azərbaycan balaları ki, oturub burada balıx yeyirik, nə səbəbə biz balığa "balıq" deyək, "balıx" deməyək?"

Yazıçının müxtəlif əsərlərində gah rus, gah fars, gah ərəb, gah da osmanlı türkcəsinə aid sözlərin yersiz işlənməsi tez-tez tənqid olunur. Ədib "Danabaş kəndinin əhvalatları" povestinin "Bir yüngülvari müqəddimə" adlanan hissəsində ərəb sözləri ilə nitq söyləyən axundu tənqid atəşinə tutaraq Lağlağı Sadığın dili ilə ərəb mənşəli ləqəb sözünü deyil, xalq danışıq dilinə aid ayama sözünü işlətməklə ana dilinə sonsuz sevgisini ifadə edir. Halbuki axund ayama sözünü avam sözü hesab edir, ləqəb sözünün işlənməsini təşviq edir: "Sadıq bir az duruxub cavab verdi ki, lağlağı onun ayamasıdı. Axund təəccüblə dübarə soruşdu:

- Olan, ayama nədi, qəribə avam adamsınız!

Sadıq səbəbini soruşanda axund bizi başa saldı ki, lağlağı Sadığın ayaması deyil, ləqəbidi. Amma avam sözüdür, ləqəb ərəb sözüdür. Axırda axund bərkdə-bərk bizə tapşırdı ki, ayama ləfzini dilimizə gətirməyək, ləqəb deyək". [4, 253]

Canlı xalq dilinin varlığını qoruyub saxlamağı təbliğ edən böyük ədib bütün yaradıcılığı dövründə dil məsələsinə həssaslıqla yanaşmışdır. Cəlil Məmmədquluzadənin əsərlərinin dili xalq danışıq dilinə çox yaxındır. Onun əsərlərində kötək yemək, dəmə qoymaq, ləzzət aparmaq, əlində maya tutmaq, başını

girləndirmək, ovutmaq, quylamaq, yavıqlaşmaq, qısnamaq, dılğır, ləyən, pəyə, çömbəlmək, sin, dadaş, ayama tipli xalq danışıq dilinə məxsus ifadə və sözlər, frazeologizmlər onlarladır.

Cəlil Məmməduquluzadə şəxsiyyətinə qarşı son zamanlar aparılan ədalətsiz kampaniyalar qeyri-sağlam düşüncənin təzahürüdür. Cəlil Məmmədquluzadənin əsərləri Azərbaycan xalqının dünya ədəbiyyatına bəxş etdiyi misilsiz bədii sənət nümunələridir. Bütün varlığı ilə Azərbaycan xalqına xidmət edən, Azərbaycan ədəbiyyatına yeni janrlar bəxş edən, yeni ədəbi məktəb yaradan, tənqidi realizmin banisi olan Cəlil Məmmədquluzadə ruhuna ehtiram və sevgi hər bir ziyalının mənəvi borcudur. "Vətən, vətən, vətən! Dil, dil, dil! Millət, millət, millət! Dəxi bu dairələrdən kənar bəni-noi bəşər üçün özgə nicat yolu yoxdur" - deyən Cəlil Məmmədquluzadə doğma xalqının rifahı və istiqlalı üçün çalışmışdır. Əsərlərində daima Azərbaycan xalqının maariflənməsini təbliğ edən Cəlil Məmmədquluzadə irsi hər zaman millətimizin gələcəyinə işıq salacaqdır. Cəlil Məmmədquluzadə Azərbaycan ədəbiyyatının yeni mərhələyə yüksəlməsində müstəsna rol oynamış və bütöv bir ədəbi məktəb formalaşdırmış qüdrətli şəxsiyyətdir. Vətəndaş yazıçının bədii nailiyyətlərlə zəngin irsində azərbaycançılıq məfkurəsi dövrün ictimai-siyasi fikrinin aparıcı amili kimi dolğun ifadəsini tapmışdır. Sənətkar həyat həqiqətlərini, ictimai mühiti hərtərəfli əks etdirən və bədii-estetik dəyər daşıyıcısına çevrilən rəngarəng obrazlar qalereyası yaratmışdır. Ana dilinin saflığı uğrunda daim mübarizə aparmış Cəlil Məmmədquluzadənin meydana gətirdiyi qiymətli dram və nəsr əsərləri, parlaq publisistika dərin humanist məzmuna malik olub, özündə milli və ümumbəşəri dəyərlərin vəhdətini ehtiva edir. Azərbaycanda və onun hüdudlarından kənarda geniş yayılaraq milli oyanışa, yeniləşmə hərəkatına yol açan və azadlıq ideyalarının inkişafına qüvvətli təsir göstərən "Molla Nəsrəddin" jurnalı məhz Mirzə Cəlil dühasının məhsuludur.Tarixə dünya müharibələri, inqilabi çevrilişlər, qanlı repressiyalar, siyasi qalmaqallarla daxil olmuş XX əsr Azərbaycan ədəbiyyatına böyük şəxsiyyətlər bəxş etdi: M.Ə.Sabir, Ü.Hacıbəyli, Ə.Hüseynzadə, H.Cavid, C.Cabbarlı... Bu böyüklər sırasında birinci yeri C.Məmmədquluzadə tutur. Yalnız bu böyüklər arasındamı?! Ədəbi-tarixi fikrimizin dəqiq meyarı, tənqidçi Yaşar Qarayev ölümündən bir qədər əvvəl yazırdı: "Bizim ədəbiyyatda ağlın dastanına zirvə Nizamidir; eşqin və qəmin faciəsinə meyar Füzulidir; qeyrətin ağrısına timsal - Sabirdir; həm eşq, həm ağıl, həm də qeyrət üçün borcun, cavabdehliyin ölçüsünə əmsal - Cəlil Məmmədquluzadədir!

... XX əsrdə onu "zəmanə özü, təbiət özü yaradır", üstəlik, tarixi və keçmiş də, orta əsrlər də, XIX yüz il də Məmmədquluzadə özünü yenidən dərk edir. Hətta bu gün də - XXI yüzilliyin astanasında da "Nə etməli?", "Necə etməli?" suallarına ən yaxşı cavabı Mirzə Cəlilin əsərlərində tapırıq". [5, 260]

Azərbaycan dramaturgiyasının tarixini Mirzə Cəlilin əsərləri olmadan bütöv təsəvvür etmək çətindir. O, yaradıcılığa dram əsəri ilə başladı: ədəbiyyatımızda ilk mənzum dram olan "Çay dəstgahı" və "Kişmiş oyunu" pyeslərini yazdı. Fəqət Mirzə

Cəlilə Azərbaycan dramaturgiyasında mövqe qazandıran üç böyük əsər oldu: "Ölülər" (1909), "Anamın kitabı" (1920) və "Dəli yığıncağı" (1926).

"Ölülər" 1916-cı ildə səhnəyə gəldi, bəlkə də onun təsiri altında iki il sonra xalq ayılıb öz Milli dövlətini yaratdı. Əsərin ilk tamaşasından sonra Nəriman Nərimanov ona böyük qiymət verərək yazırdı: "Artıq dərəcədə məharətlə yazılmış, məzmunu eynən həyatımızdan götürülmüş, ideyası inqilabi bu drama müsəlmanların həyatında böyük rol oynayacaqdır: paslanmış beyinləri pasdan təmizləyib, ölmüş ruhlara can verəcəkdir". Həqiqətən də "Ölülər" dünya ədəbiyyatının dramatik şedevrlərilə bir səviyyədə durmağa layiq dram əsəridir. Tragikomediyanın müvəffəqiyyəti bir çox baxımdan Kefli İskəndər surəti ilə bağlıdır. Görkəmli tənqidçi Mikayıl Rəfili yazırdı: "Əgər Məmmədquluzadə tək bir İskəndər obrazını yaratmış olsaydı belə, yenə unudulmazdı, təkcə bir "Ölülər" onu dünya ədəbiyyatının böyük realistləri sırasına daxil edə bilərdi". Həqiqətən də Kefli İskəndər tarixi kökləri olan epoxial obraz idi. Bu surətin prototipi Kəngərli nəslindən olan maarifçi-hüquqşünas, Fransada universitet bitirmiş Paşa Ağa Sultanov-Kəngərlidir. Paşa Ağa Sultanov Parisdə təhsilini başa vurub qayıdır Naxçıvana. Bir səhər minbərə çıxıb başlayır fransız dilində azan verməyə. Camaat onu qınayır və deyirlər ki, biz sənin nə dediyini başa düşmədik. Onda Paşa ağa sual verir: məyər mollanın ərəbcə nə dediyini başa düşürsünüzmü?! Beləliklə də Paşa ağa Sultanov öz hərəkətlərilə Mirzə Cəlilə Kefli İskəndər obrazını yaratmağa imkan verir. Kefli İskəndər Mirzə Fətəli Axundzadənin misi qızıla çevirən Kimyagərinin nadanı insana çevirən varisi idi. Mirzə Cəlil "Nuxuluları", "Ölülər" səviyyəsinə qaldırmışdı. Belə ölülər qızdırmaya qarpız suyu ilə dərman edən Nuxululardan daha mənalı idi. Çünki bu ölülərə elə indi də əsl müsəlman qaydası ilə "Allah sizə rəhmət eləsin ölülər" deyə bilirsən. Cəlil Məmmədquluzadənin irsi milli varlığımızın aynasıdır. Zaman-zaman o, milli özünüdərkə xidmət edir. Tarix Mirzə Cəlildən uzaqlaşdıqca, o, bizə yaxınlaşır, doğmalaşır. Və əslində, Azərbaycan tarixi Mirzə Cəlilin ədəbiyyatımızın milli vicdanı kimi təsdiqinə xidmət edir.İllər, əsrlər keçəcək, Mirzə Cəlilin milli vicdanımızın fəryadı olan əsərləri hər gələn nəslin yaddaşında əməl ağacı kimi çiçək açıb bar gətirəcək. Çünki bu əsərlərdəki fəryad xalqın içindən gəlir, yenidən xalqın özünə qayıdır, ona kimliyini başa salır.Əslində, bu yerdə nöqtəni qoymaq olar. Adama elə gəlir ki, bu sözlərlə Mirzə Cəlil haqqında hər şey deyilib. Yaşar Qarayev düz deyir: Mirzə Cəlil ədəbiyyatımızın "Ağrı yaddaşı"dır. Lakin klassikin böyüklüyü məhz ondadır ki, o, bir zamana, təkcə müasiri olduğu nəslə mənsub deyil, o, hər yeni nəsillə birlikdə yenidən doğulur, hər yeni gələn nəsillə müasir olmağı bacarır, hər yeni nəslin və onun zəmanəsinin suallarına cavab verə bilir. Klassikin əbədiliyi və müasirliyi məhz bundadır.Ədəbiyyatın böyüklüyü xalq ruhunu, xalqın həyat tərzini hansı səviyyədə əks etdirməsi ilə ölçülür. Xalq həyatı isə olduqca zəngindir, ən böyük nəhrlər, okeanlar kimi xalq həyatının da öz təbiəti var. O, təkcə mövcud adət-ənənələrdə, baş verən olaylarda, məişəti səciyyələndirən predmetlərdə bərqərar olmur, daha çox xalqın psixologiyasında əksini tapır. Xalqın psixologiyasını onun

içindən çıxmış insanların obrazlarında əks etdirə bilməsi sözün həqiqi mənasında yazıçının hünəridir. Xüsusilə əsrlərin və eraların bir-birində ayrıldığı dövrlərdə - "zamanın nehrə kimi çalxalandığı", "millətin istedadının qarışdığı" (M.Ə.Sabir) dövrlərdə xalq həyatını pozulmağa qoymamaq, xalqın təşkili ədəbiyyatın qarşısına əsas problem kimi çıxır. Xalqın tarixi taleyində baş verən təbəddülatların məna və mahiyyətini öncə bədii ədəbiyyat bəyan-şərh etməlidir. Bu ədəbiyyat mürgüləyən xalqda milli mənlik şüurunu oyatdı, hər bir fərdə onun vətəndaş hüququnu başa saldı, yaxasından tutub silkələyə-silkələyə yuxulu gözlərini açdı, "Atılan toplara diksin" deyə fəryad çəkdi. Xoşbəxtlikdən başıbəlalı XX əsrin önlərində Tanrı və Tarix Azərbaycan xalqına belə bir ədəbiyyat - xəlqi ədəbiyyat bəxş etdi.

Ədəbiyyat:

1. Mir Cəlal. Firidun Hüseynov. XX əsr Azərbaycan ədəbiyyatı. Bakı, 1982
2. İsa Həbibbəyli. Cəlil Məmmədquluzadə: mühiti və müasirləri. Bakı, 2009
3. Məmməd Məmmədov. Sabir və mətbuat. Bakı, 1974
4. Alxan Bayramoğlu. Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi oçerki. Bakı, 2013
5. Alxan Bayramoğlu. Azərbaycan jurnalistika məktəbləri. Bakı, 2014

Преп.Халилова Гариба Я

Резюме

МЕСТО ДЖАЛИЛА МАМЕДГУЛУЗАДЕ В ИСТОРИИ ЛИТЕРАТУРНОЙ И ОБЩЕСТВЕННОЙ МЫСЛИ

.

Джалил Мамедгулузаде стоит в первых рядах борьбы за национальную независимость, демократию и свободу Родины в самом широком смысле этого слова в истории азербайджанской литературной и общественной мысли. Его творчество – это школа воспитания независимости, азербайджанства, национализма и гражданственности для каждого нового поколения.

Один из видных представителей азербайджанской литературы XX века Джалил Мамедгулузаде сыграл важную роль в развитии азербайджанского литературного, художественного, общественного мнения, был создателем критической реалистической литературы. Великий писатель, драматург, редактор Джалил Мамедгулузаде (Молла Насреддин), помогавший своей литературной и общественной деятельностью борьбе за свободу и демократическому движению, известен в азербайджанской литературе XX века как лидер литературно-критического реалистического течения.

Джалил Мамедгулузаде является одним из крупнейших представителей азербайджанской литературы XX века. Его произведения – одна из ярчайших жемчужин азербайджанской литературы. Академик Иса Габиббейли, видный исследователь наследия Джалила Мамедгулузаде, справедливо называет Джалила Мамедгулузаде «лидером азербайджанской литературы о

национальной независимости».Великий писатель, выступавший за сохранение живого языка народа, на протяжении всей своей творческой деятельности щепетильно относился к языковому вопросу. Язык произведений Джалила Мамедкулизаде очень близок к просторечию.

Ключевые слова: литература, мастер, национальный, исторический процесс, литературное развитие, пресса, исследователь, культура, творчество.

Tch. Khalilova Qariba Y.

Summary

THE PLACE OF JALIL MAMMADGULUZADEH IN THE HISTORY OF LITERARY AND SOCIAL THOUGHT

Jalil Mammadguluzadeh stands at the forefront of the struggle for national independence, democracy and freedom of the homeland in the broadest sense of the word in the history of Azerbaijani literary and social thought. His work is a school of education of independence, Azerbaijanism, nationalism and citizenship for each new generation.One of the prominent representatives of XX century Azerbaijani literature Jalil Mammadguluzadeh played an important role in the development of Azerbaijani literary, artistic, public opinion, was the creator of critical realist literature. The great writer, playwright, editor Jalil Mammadguluzadeh (Molla Nasreddin), who helped the struggle for freedom and the democratic movement through his literary and public activities, is known in twentieth-century Azerbaijani literature as the leader of the critical realist literary movement.Jalil Mammadguluzadeh is one of the greatest representatives of XX century Azerbaijani literature. His works are one of the brightest pearls of Azerbaijani literature. Academician Isa Habibbayli, a prominent researcher of Jalil Mammadguluzadeh's legacy, rightly calls Jalil Mammadguluzadeh "the leader of Azerbaijan's national independence literature."

The great writer, who advocated the preservation of the living language of the people, was sensitive to the language issue throughout his career. The language of Jalil Mammadguluzadeh's works is very close to the vernacular.

Key words: literature, craftsman, national, historical process, literary-development, press, researcher, culture, creativity.

Redaksiyaya daxil olma tarixi: 18.05.2022
Çapa qəbul olunma tarixi: 07.06.2022
Rəyçi: dos.N.M.Axundova tərəfindən
çapa tövsiyə olunmuşdur

ADGÖZƏLOVA GÜLCAHAN İSMAYIL
BAAU
Həsən Əliyev 73
E-mail : adigozelova90@mail.ru

BƏDİİ ƏSƏRDƏ PSİXOLOJİ PORTRET: M.F.DOSTOYEVSKİNİN "CİNAYƏT VƏ CƏZA" ROMANINDA RASKOLNİKOV OBRAZI

XÜLASƏ

Məqalə Dostoyevskinin ən çox oxunan romanı "Cinayət və cəza"nın baş qəhrəmanı Raskolnikovun daxili psixoloji xarakterinin təhlilinə həsr olunub.

Əsərin təhlilində obrazların daxili psixoloji xarakteri ilə yanaşı, bir sıra sosial-siyasi məsələlərə, XIX əsr rus gəncliyinin acınacaqlı vəziyyətinə də toxunulmuşdur. Qəhrəmanın psixoloji vəziyyətini anlamaq üçün müxtəlif bədii detalların təhlilinə çalışmışıq: Raskolnikovun şlyapası, Raskolnikovun baltası, Raskolnikovun yuxusu, sarı rəngin simvolikası müxtəlif bədii detallar təhlil olunmuşdur. Məqalədə əsərin baş qəhrəmanı Raskolnikovun daxili psixoloji dünyasını açmaq üçün Raskolnikovla digər obrazların münasibətlərinə diqqət yetirilmiş, qəhrəmanın hər bir obrazla olan dialoqunda fərqli psixoloji analizlərin ortaya çıxdığı aşkar edilmişdir. Marmelodovu qəlbən dinləməsi, Svidriqaylova qarşı olmasına baxmayaraq, ona mənəvi bir yaxınlıq duyması, Sonyanın kədərinin qarşısında diz çökməsi Raskolnikovun psixoloji xarakterini anlamağa şərait yaratmışdır.

Yazıçı hər bir obrazın həm fərdi xarakterini təsvir etmiş, həm də bu obrazlar vasitəsilə baş qəhrəmanın xarakterinin açılmasına diqqət göstərmişdir. Romandakı Porfiri obrazı Raskolnikova qarşı qoyulmuş, onu cinayəti etiraf etməyə sövq etmişdir. Sonya obrazı isə Raskolnikova ən yaxın mənəvi xarakterdir. Sonyanın mənəvi dünyası və sevgisi Raskolnikova qaranlıqdan çıxmağa və işığı görməyə kömək edir.

Məqalədə Raskolnikovun daxili psixoloji xarakteri və daxili ziddiyyətləri digər obrazlarla paralel və qarşılıqlı şəkildə işlənmişdir.

Açar sözlər: Dostoyevski, Raskolnikov, psixoloji xarakter, ziddiyyət

Giriş: "Cinayət və cəza" əsəri ən çox müzakirə olunan, ən çox şərhlər deyilən və bir çox altmənaları özündə birləşdirən bir şah əsərdir. Bu əsər Dostoyevskiyə böyük şöhrət gətirmiş,onu bütün dünyada tanıtmışdır. Əsər bu gün tədqiqatlara cəlb olunaraq qaranlıq qalan məqamlara aydınlıq gətirilməsinə baxmayaraq tam mənada açıqlana bilməmiş, oxucuları və tədqiqatçıları daima düşündürmüşdür. Bu bölmədə Raskolnikovun xarakterindəki daxili ziddiyyətləri, psixoloji məqamları açmağa çalışmaqla bərabər əsərdəki müxtəlif simvolik məqamlara və onlarla mətnaltı mənaların bir neçəsinə aydınlıq gətirməyə çalışacağıq. Əgər biz Dostoyevskinin həyatını və yaradıcılığını iki mərhələyə ayırsaq (sürgündən öncə və sürgündən

sonra), bu əsəri məhz ikinci mərhələyə aid etməli olarıq. Həm yazıldığı xronoloji zaman, həm yazıçının inkişaf etmiş qələm təcrübəsi, həm də obrazların daxili psixoloji aləmindəki ziddiyyətlər bizə bunu deməyə imkan verir. Ümumiyyətlə, Dostoyevski istər əsərlərində baş verən hadisələri, istər yaratdığı obrazları ya həyatda şahidi olduğu hadisələrdən və ya şəxsən tanıdığı insanlardan bəhrələnərk yaratmış, ya da öz yaratdığı obrazları həyatının bir parçası olaraq görmüş, onlarla özü arasında mənəvi bir bağ qurmuşdur. Çünki, bu obrazların heç birini Dostoyevskidən qopuq, ona yad insanlar kimi düşünə bilmirik. Hər biri yazıçının ya həyatının bir dönəmini, ya xarakterindəki hər hansı bir cəhəti və ya tanıdığı insanların xarakterindəki məqamları əks etdirirlər. Yəni obrazların hər biri Dostoyevskinin bir parçasıdır. Yazıçı, xüsusilə, "Cinayət və cəza" əsərində bu obrazları (özünü əks etdirən parçaları) bir yerə toplamış və öz daxili dünyasını, psixoloji vəziyyətini, siyasi düşüncələrini bir bütün şəkilində bizə təqdim etmişdir. Lakin bu bütünün içində yazıçının özünə saxladığı, bizə tam şəkildə açıqlamadığı bir sıra parçalar da vardır. Zənnimcə, əsərin bu qədər araşdırılmasına, tədqiq olunmasına baxmayaraq, yenə də qəribə bir anlaşılmazlıqda qalmasının səbəbi də elə budur.

Raskolnikov obrazının psixoloji portreti: Yazıçı bütün səmimiyyətini ortaya qoysa da (Raskolnikov bütün səmimiyyəti ilə cinayəti nə üçün işlədiyini anlatmağa çalışsa da, səbəb daima qaranlıq qalır), insanın özünün özünə belə tamimilə səmimi ola bilmədiyini göstərmiş olur.

"Cinayət və cəza" əsərinin meydana gəlməsi də məhz yazıçının həbsxana həyatı ilə bağlıdır. Həbsxanada tanış olduğu və psixoloji cəhətdən incələdiyi insanları bir obraz kimi bu əsərdə görmək mümkündür. Əsərin yazılmasından bir müddət öncəki dövr Dostoyevskinin həyatının ən acınaqlı və yoxsulluqla dolu bir dövr idi. Həm qardaşını, həm həyat yoldaşını, həm də ən yaxın dostunu 1864-cü ildə itirmişdir. Bununla bərabər qardaşının borclarını öz üzərinə götürmüş, alacaqlıların əlindən təngə gəlmişdir. Yaşadığı bütün bu çətin məqamlar və daxili psixoloji vəziyyəti "Cinayət və cəza"nın yazılmasını sürətləndirir. "Ağır və uğursuz 1864-cü il Dostoyevskiyə əsas ideya üçün bol material verdi. Qardaşı öləndən sonra Dostoyevski böyük bir səylə pul axtarmağa davam edirdi, ədib maddi fəlakətin uçuntuları altından xilas olmaq üçün veksellər imzalayır, borc verənləri razı salaraq, özünü notarial protestlərdən qoruyur, əmlakının qeydə alınmasından canını qurtarırdı. O hər dəqiqə borclular həbsxanasına düşmək təhlükəsi duyurdu". (2, 447) Göründüyü kimi romanın yazıldığı ərəfələrdə Dostoyevski yoxsulluq və pul ehtiyacının əsiri olmuşdur. Romanın qəhrəmanı Raskolnikov kimi gənclər həmin dövrdə Rusiyanın sosial-ictimai həyatı ilə əlaqədar olaraq çoxluq təşkil edirdilər. Əsərin qəhrəmanının daxili psixoloji dünyası Dostoyevskinin ruh halına yaxın olsa da, düşündükləri və etdikləri ondan uzaq idi. Çünki Raskolnikovdan fərqli olaraq yazıçı həbsxana və sürgün həyatını yaşamış, həyata başqa bir pəncərədən baxmağa başlamış və ümidi kəşf etdmişdir. Dostoyevski Raskolnikovun gedəcəyi yolun sonunda idi. Romanın qəhrəmanı bir növ yazıçının gənclik illərinin prototipidir.

Raskolnikov iyirmi üç-iyirmi dörd yaşlarında keçmiç hüquq tələbəsidir. Onun ilk məqaləsi elə bu yaşlarında – Dostoyevski "Yoxsul insanlar" əsərini məhz bu yaşlarında yazmış və çap etdirmişdir – çap olunur. Lakin Raskolnikovun yaşadığı həyat tərzi, qarşılaşdığı səfillik və yoxsulluq Dostoyevskinin əsəri yazdığı zamanla üst-üstlə düşür. Fikrimcə, Raskolnikov Dostoyevski əsərlərinin ən ziddiyyətli obrazıdır. Bu ziddiyyət nəinki onun daxili dünyasında baş verir, hətta Xarici görkəmində, hərəkətlərində, insanlarla münasibətində, həyata baxışında, özünə olan inamında, özünü qiymətləndirməsində belə özünü göstərir. Elə əsərin ilk səhifələrində bu ziddiyyətləri duymaq mümkündür. Yazıçı qəhrəmanını yaraşıqlı və səfil geyimli bir gənc kimi təsvir edir. Qəhrəman şkafa bənzədilən mənzilindən çıxarkən böyük bir cinayəti düşündüyü halda aylardır kirayə pulunu ödəmədiyi üçün ev sahibəsi ilə qarşılaşmaqdan çəkinir. Özünün bu çəkingənliyinə kinayə ilə gülür. Uzun müddətdir planladığı cinayəti son dəfə ölçüb-biçmək üçün qoca qarının evinə yollanarkən fikirlərinin qarışdığını, qismən zəiflədiyini hiss edir. Belə tələtümlü fikirlər içində gedərkən başındakı cırıx-cındır şlyapası yoldan ötən bir sərxoşun diqqətini cəlb edir. O, isə şlyapasının köhnəliyindən utanmır, əksinə belə bir şlyapanın diqqət cəlb edə biləcəyi üçün narahatlıq keçirir. Bu şlyapa Raskolnikovun düşüncələrinin də dağınıq və işə yaramaz olduğunun bir simvolu kimi diqqəti cəlb edir. Cinayəti törətdikdən sonra dostu Razumihin ona yeni paltarlarla yanaşı yeni şlyapa da gətirir. Raskolnikovun köhnə şlyapasını yenisi ilə əvəzləməsini istəyir. "Nastenka, bax bu iki baş örtüyünə, bu palmerstondur (Raskolnikovun küncə atılmış girdə, əzilmiş şlyapasını götürdü: buna o nə üçün palmerston deyirdi – məlum deyil), bu da ki elə bil zərgər əlindən çıxıb!" (1, 135) Dostoyevskinin bütün təsvirlərinin qəhrəmanın psixloji vəziyyətinin açılmasına xidmət etdiyini düşünsək, bu iki şlyapanın da qəhrəmanın düşüncələrini əks etdirdiyini qəbul etmək mümkündür. Romanda təsvir olunmuş bütün obrazlar və nəsnələr yalnız bir məqsədə - əsərin əsas ideyasının müəyyən edilməsinə və anlaşılmasına xidmət edir. Belə ki, roman boyunca sarı rəng qabarıq şəkildə nəzərə çarpır. Həm qəhrəmanın otağının təsvirində, həm qoca qarının evinin təsvirində, həm də Sonyanın otağının tsəvirində sarı və ya sarımtıl divar kağızları görmək mümkündür. Qoca qarının evini son dəfə gözdən keçirtməyə getdiyi səhnədə qarının evi belə təsvir edilmişdir: "Raskolnikov sarı divar kağızı çəkilmiş və ətirşah dibçəkləri qoyulmuş, pəncərələrindən kisəyi pərdə asılmış kiçik bir otağa girdi..." (1, 13) Yaxud da Raskolnikov ilk dəfə Sonyanın evinə gedərkən nəzərinə çarpan sarımtıl rəngin təsvirinə nəzər salaq: "Sarımtıl divar kağızları ləkə-ləkə olmuş, qarın vermişdi, bütün bucaqlar qaralmışdı". (1, 325) Verilmiş bu nümunələrin sayını artırmaq mümkündür. Onu da qeyd etmək lazımdır ki, bu təsvirlər qəhrəmanların heç birinin dilindən verilmir, müəllifin özünün təhkiyəçi kimi iştirak etdiyi məqamlarda meydana çıxır. Buradan belə bir nəticəyə gəlmək olar ki, yazıçı personajlarını təsadüfən sarı rəngli divarları olan otaqlarda yaşatmır. Prixologiyaya da nəzər saldıqda sarı rəngin bir tərəfdən gələcəyə inam, ümid rəngi olduğu halda, digər tərəfdən hüznün, kədərin, xəstəliyin

rəngi olduğunu görürük. Yazıçının qəhrəmanla tez-tez qarşılaşdırdığı rəngdə belə müəyyən ziddiyyətlər görmək mümkündür: "Psixoloji mənası – Sarı sevincin, çoxluğun, rahatlığın, həzzin, ünsiyyətcilliyin, enerjililiyin mənası olduğu qədər də, hüzün və payız mənası da daşıyır". (18)

Raskolnikov xarakterindəki psixoloji ziddiyyətlərin açılmasına cinayətdən öncə gördüyü yuxuya nəzər salmaq kömək edə bilər. Otun üstündə yxuya gedən qəhrəman qorxunc bir yuxu görür, yuxuda yeddi yaşında olduğunu, atası ilə bərabər qəbristanlığa getdiklərini görür. Bu zaman onlar sərxoşlarla dolu bir içki dükanının qarşısından keçməli olurlar. Mikolka adlı bir şəxs öz arıq yabısının hamını apara biləciyini iddia edir. Camaatın gülüşməsindən qəzəblənən Mikolka onları at arabasına mindirir və yabını döyməyə başlayır. Mikolka döyüdükcə at haldan düşür, bəzən canlanıb yerindən tərpənmək istəyir, lakin Mikolkanın çoxsaylı zərbələri qarşısında yerə yıxılır Getdikcə daha da qəzəblənən Mikolka lom ilə atın belinə vururaq onu öldürür. Bütün bunlara kənardan sarsıntı keçirərək baxan Raskolnikov sonda özünü saxlaya bilmir. Qaçaraq atın yanına gedib onun üzündən, gözündən öpür. Sonra isə qəfildən ayağa qalxıb Mikolkanın üzəriə atladığı anda atası onu çəkib oradan uzaqlaşdırır. Elə bu vaxt Raskolnikov yuxudan ayılır. (bax: 1, 61-67)

Raskolnikovun belə bir yuxu görməsinə səbəb həmin vaxtdakı psixoloji vəziyyəti idi. Qəhrəman qarışıq fikirlər içərisində yalnız cinayəti düşünür, bunu etməli olduğuna özünü inandırırdı. Lakin bir tərəfdən də öhdəsindən gələcəyinə əmin olduğu vicdan hissini basdırmağa çalışırdı. Raskolnikov gerçəkdə özünü məhz yuxuda gördüyü at kimi hiss edir. Daşıdığı yük sahib olduğu gücdən qat-qat ağırdır. Nə qədər çapalasa, tər töksə də, bir addım belə irəliləyə bilmir, Bütün gücünü toplayıb addım atmağa cəhd etmək istədikdə isə kürəyinə dəyən zərbələrdən yerə yıxılır. Yuxuya gedərkən Raskolnikov daxili böhranla, mənəvi çöküşlə otların arasına yıxılıb yatmışdı. Öz elmi nəzəriyyəsini yaradarkən Dostoyevskinin əsərlərindən də bəhrələnmiş psixoanalizin görkəmli nümayəndəsi Ziqmund Freud "Yuxu yozmaları" kitabında insanın gördüyü yuxuların onun şüuraltısının məhsulu olduğunu, sadəcə zaman və məkan cəhətdən fərqləndiyini qeyd edir: "Əgər yuxuda və ayıq həyatda psixofiziki fəaliyyətin sahəsi eyni olsaydı, o zman, məncə, yuxugörmə sadəcə ayıq həyatın adi, bir qədər intensiv olmayan davamı olar, məzmun və formasını onunla paylaşmalı olardı". (Freud, 2020: 86)

Bu yuxu Raskolnikovun daxilən cinayətə meyilli olmadığının, əxlaqi keyfiyyətlərinin yüksək olduğunun bir sübutudur. Freyd qeyd edir ki, fəzilətli bir şəxs yuxuda da bu keyfiyyətinə sadiq qalır, yuxuda da öz mənəvi keyfiyyətlərini nümayiş etdirir. Raskolnikovun əzab çəkmiş atın üzündən-gözündən öpməsi onun bu cinayəti sırf birisini öldürmək üçün törətmədiyinin göstəricisidir. Yenə Freud həmin kitabında Haffnerdən gətirdiyi nümunəyə nəzər salaq: "Bəzi nadir istisnaları saymasay, hər bir xeyirxah insan yuxugörmə zamanı da xeyirxahdır; o, nəfsilə, nifrətlə, paxıllıqla, qəzəblə, bütün mümkün qüsurlarla mübarizə aparır; ancaq əxlaqi

dəyərlərdən məhrum insan yuxuda da ayıq halda gördüyü obraz və səhnələri görür". (Freud, 2020: 104)

Raskolnikov yuxudan oyandıqdan sonra cinayəti törətməkdən əl çəkir, hər şey plandığı kimi getsə belə, buna tab gətirə bilməyəcəyini başa düşür, içində bir rahatlıq duyaraq evinə doğru addımlamağa başlayır. Lakin evinə kəsmə, qısa yoldan gedə bilcəyi halda yolunu dəyişdirərək Sennaya meydanından hərlənərək getməyi qət edir. Bu hadisənin bütün təfərrüatlarını sonradan bir-bir xatırlasa da, bunu nə üçün etdiyini anlaya bilmir. Raskolnikovun evə dönüş yolunu uzatmasını onun özünə dönüşünü uzatması kimi dəyərləndirmək olar. Bu yolda o Lizaverta İvanovna ilə qarşılaşır və tamimilə yayındığı cinayətin həyata keçməsi üçün böyük bir fürsət ələ keçdikdə isə az öncə içində duyduğu rahatlıq bir anda undulur. Raskolnikov keçirtdiyi bu daxili rahatlığı bir də Sonyaya qarşı məhəbbət duyduğu anda yaşayır. Lizaverta ilə qarşılaşma onun bütün həyatını dəyişir, evə dönüşünü – özünə dönüşünü gecikdirir: "O, həmişə öz-özündən soruşardı: bəs niyə axı, bəs niyə axı Sennaya meydanında (o meydana getmək mənə heç lazım deyildi) mənim üçün belə mühüm, belə həlledici bir anda, elə bir dəqiqədə, elə bir əhval-ruhiyyədə oduğum zaman baş verdi ki, ancaq belə bir əhval-ruhiyyədə, belə bir vəziyyətdə bu təsadüf mənim bütün taleyimə həlledici və qəti bir təsir bağışlaya bilərdi. Sanki Lizaverta İvanovna qəsdən məni orada gözləyirdi!" (1, 68)

Qəhrəmanın psixoloji xarakterini açan bədii detallardan biri də cinayəti törətməkçün istifadə etdiyi baltadır. Raskolnikov cinayəti bütün təfərrüatlarına qədər incə-inəc plansa da, cinayəti törədərkən əllərinin əsəcəyindən, qollarının gücünün çatmayacağından qorxurdu. Onun qoca qarını öldürməkçün bıçağı deyil, baltanı seçməsi də daxilindəki vicdan duyğusunun qolunun gücünə qalib gələcəyindən qorxması ilə bağlı idi. Raskolnikov baltanı bir dəfə qaldırıb Alena İvanovnanının başına endirdikdən sonra digər zərbələri də endirməkdən çəkinmir, hətta günahsız Lizavertanı belə öldürərkən tərəddüd etmir. Alena İvanovna və Lizaverta arasındakı xarakter fərqini yazıçı mükəmməl şəkildə işləmişdir. Belə ki Lizaverta Alenanın balaca ögey bacısı idi, daima onun buyuruqlarına əməl edir, ondan çəkinirdi. Raskolnikov baltanı endirərkən insanlarçün daima nifrət mənbəyi olmuş Alena İvanovna Raskolnikovun baltasının qarşısında son anında əllərini başına sarı qaldıra bilir, hətta Raskolnikovun gətirdiyi "girov"u belə əlindən buraxmır. Raskolnikov Lizavertanın üzərinə balta ilə gəldikdə isə bu müti qadın səsini belə çıxara bilmir, hətta balta onun başına enərkən əllərini belə qaldırmağa cəsarəti çatmır. Yaşadığı bu səhnəni Raskolnikov unuda bilmir: "Raskolnikov əlində balta onun üstünə cumdu. Lizavertanın dodaqları yazıq-yazıq büzüldü: körpə uşaqlar bir şeydən qorxanda və gözlərini qorxduqları şeyə zilləyərək çığırmaq istəyəndə dodaqlarını belə büzürlər. Bu bədbəxt Lizaverta o qədər sadə, o qədər cəsarətsiz və məzlum idi ki, hətta heç üzünü qorumaq üçün əllərini də qaldırmadı: lakin bu anda belə bir hərəkət ən zəruri və ən təbii bir hərəkətdi, çünki balta onun üzərinə qaldırılmışdı". (1, 87) Göründüyü kimi bu iki tamamilə fərqli xarakterli qadının ölümü Raskolnikova ayrı-ayrı təsirini

göstərir. Raskolnikov Lizavertanın ölümündən təəssüfləndiyi və əzab çəkdiyi halda qoca qarını bir "bit" adlandırır. Əsərin irəliləyən hissələrində Raskonikov cinayəti etiraf edərkən belə "mən bir bit öldürdüm" deyir. (bax: 1,428)

Cinayəti törətdikdən sonra qəhrəmanın daxili ziddiyyəti daha da artır. Gözlənilmədən polis bölməsinə çağırılması onu qorxuya salır. İçində baş qaldıran böyük bir kədərlə oraya gedir, özünü hər şeydən xəbərsiz kimi aparmağa çalışır. Burada isə onu köhnə bir borc məsələsinə görə çağırdıqlarını öyrəndikdə içində müdhiş bir sevinc duyur. Lazım olan sənədləri imzalayıb tez idarədən çıxmaq istəyir. Lakin getmək vaxtı gələndə qəhrəmanın daxilində digər bir mən baş qaldırır. Nikodim Fomiçin yanına gedib ona hər şeyi etiraf etmək, daşıdığı ağır yükdən qurtulmaq istəyir. Elə bu vaxt Nikodim Fomiçlə İlya Petroviçin dünənki cinayətdən danışdıqlarını eşidir. Az əvvəl hər şeyi etiraf etmək fikrinə düşən adamdan əsər-əlamət qalmır. O gərginləşir, əlləri əsməyə başlayır, qapıya doğru gedib buradan tez çıxmaq istəyir, lakin gərilmiş əsəbləri, halsızlığı ona imkan vermir, qəhrəman huşunu itirərək yerə yıxılır. Raskolnikovun daxili ziddiyyəti bu kiçicik səhnədə təsirli bir dillə təsvir olunmuşdur. Qəhrəman tez bir zamanda bütün dəlilləri yox etmək qərarına gəlir. Dəlilləri yox etdikdən sonra isə özü-özünə istehza ilə gülür. Çünki bütün dəlillər yox olsa belə, qəhrəmanın psixoloji narahatlığı böyük bir sübut kimi göz önündə idi. Raskolnikov bütün addımlarını ağlının gücü ilə atsa da, özündən, öz daxili çəkişməsindən qurtula bilmir. Onu ələ verən məhz psixloji xarakteri və daxili ziddiyyəti olur. Henry Troyat Dostoyevskinin bioqrafiyası ilə əsərlərinin təhlililni paralel işlədiyi kitabında Raskolnikovun ikili xarakteri məsələsinə belə münasibət bildirmişdir: "Cəsarətini göstərmək üçün işlədiyi bu müdhiş cinayəti gecə-gündüz beynində həm ittiham edir, həm müdafiə edirdi. Gecə-gündüz eyni dəlillər, eyni ittihamlar onu rahat buraxmırdı. İkiyə bölünürdü. Həm özünün vəkili, həm də qurbanının vəkili olurdu. Bir şəxsiyyət deyildi artıq, bir məhkəmə yeriydi o". (Troyat, 2020:263)

Dostoyevskinin bir çox əsər qəhrəmanları kimi Raskolnikov da xəstə düşür. Qəhrəmanla yazıçı arasında paralel xüsusiyyətlərdən biri kimi görə biləcəyimiz bu xəstəlik məsələsi Raskolnikovda daha fərqli şəkildə meydana çıxır. Belə ki yazıçının "Cinayət və cəza"dan öncə yazılmış əsərlərinə nəzər saldıqda Qolyadkin ("Oxşar"), yeraltı adamı ("Yeraltından qeydlər") kimi obrazların da müəyyən dövrdə xəstə düşdükərini görürük. Bu fərqli olaraq Raskolnikov hərəkət edən, davamlı sorğulayan, suallarının cavablandırılmasını istəyən, xəstə yatağından özünü küçəyə atan, bir "bit" olmaq istəməyən xəstədir. Raskolnikov özündən əvvəlki obrazların mənəvi böhranlarının yekunudur. O, cinayəti törədib addım atmaqla, cəmiyyətin qanunlarını çeynəməklə həm cənab Qolyadkinin, həm yeraltı adamının istəklərini bir baxımdan həyata keçirmiş olur.

Raskolnikov və Marmelodov

Raskolnikov cinayətə sürükləyən düşüncələrlə çarpışarkən o dövrün sərxoşluq həyatının rəmzi olaraq təsvir edilmiş Marmelodovla qarşılaşır. Marmelodov obrazı Raskolnikovu daha yaxından tanımadığımıza və müşahidə etməyimizə kömək edən ilk obrazdır. Dostoyevski yaşadığı cəmiyyətdəki əyyaşlığı, meşşan həyatı müşahidə etdiyi bir dövrdə rus insanının bəlasına çevrilmiş sərxoşluq haqqında əsər yazmaq qərarına gəlir, lakin bu əsəri alıb çap etdirməyə naşirin maddi vəsaiti çatmadığı üçün əsər çap olunmur: "Artıq 1865-ci ilin iyunun 8-də o, "Sərxoşcığazlar" adlı romanını "Oteçestvennıye zapiski"nin redaktoru A.A.Krayevskiyə təklif edərək göstərir ki, həmin əsər "hazırkı vaxtda sərxoşluq haqqındakı məsələ ilə əlaqədar olacaqdır (ailələrin vəziyyəti, bu şəraitdə uşaqların tərbiyəsi və s.)". Marmelodovlar ailəsinin ölməz ümumi portreti beləliklə yaranmışdır". (2, 447)

Marmelodov obrazı nə qədər cəmiyyətin meşşan həyatının nümayəndələrini simvolizə etsə də, eyni zamanda müflisləşmiş və dəyər görməmiş ziyalıların da ümümiləşmiş obrazı kimi nəzərə çarpır. Bu obrazın özündə də ikili xüsusiyyəti, keçirtdiyi psixoloji sarsıntıları görmək mümkündür. İşlədiyi birinci idarədən haqsız yerə işdən çıxarılmışdır. Bu onun mənəvi cəsrətini sındırmış, əlinə düşən ikinci şansı dəyərləndirməsinə fürsət verməmişdir. Çünki Marmelodov itirdiyi cəsarətini yalnız içkinin təsiri ilə əldə etməkdədir. Sərxoş olduqdan sonra meyxanada bəlağətli nitqi ilə diqqəti üzərinə çəkməyə çalışır. Özünün də fərqində olduğu zəifliyini gizlətməyə çalışması ona əzab verir. Çünki Marmelodovu bundan sonra qurtara biəcək heç bir çıxış yolu yoxdur, gedə biləcəyi son qapı çoxdan bağlanmışdır: "Axı hər bir adam heç olmasa gərək bir yerə gedə bilsin. Bəli, elə vaxt olur ki, adam mütləq gərək bir yerə getsin – hara olur-olsun!" (1, 20) Katerina ivanovna və Sonya haqqında ilk dəfə Marmelodovun dilindən eşidirik. Burada yazıçının ustalığını gözdən qaçırtmamalıyıq. Marmelodov "sarı vəsiqə" ilə işləyən qızı Sonyanı müqəddəslik simvolu kimi təqdim edir. Elə buradaca Sonya Raskolnikovun diqqətini cəlb edir. əsərin qəhrəmanının ruh halını oxucuya çatdırmaqda Marmelodov ən uğurlu personajdır. İlk baxışdan onun kədərini hiss edir, ona ata qayğıkeşliyi ilə öz dərdini açıb danışır, məhz Raskolnikovun da onun kədərini anlaya biləcəyinə inanır: "Cavan oğlan, sizin üzünüzdə mən bir kədər ifadəsi oxuyuram. Siz içər girən kimi mən bu kədəri sizin üzünüzdə oxudum, ona görə də dərhal sizə müraciət etdim". (1, 22)

Marmelodov ikinci dəfə Raskolnikov cinayəti törətdikdən sonra meydana çıxır. İndi qəhrəmanın ruh halı tamam başqa bir hal almışdır. Cinayət planı istədiyi şəkildə həyata keçsə də, gözlənilməz bir manea ilə üzləşmişdir: daxilində baş qaldıran, onu rahat buraxmayan duyğunun məchulluğu içindədir. Hərəkət etməyə belə halı yoxdur. Xəstə yatağından çıxıb hər kəsdən qaçaraq küçəyə çıxmışdır. Özünü həm mənəvi, həm də fiziki olduqca gücsüz hiss etdiyi bir vaxtda küçədə bir qəzanın baş verdiyini görür, oraya yaxınlaşdıqda isə at arabasının altında bir adamın qaldığını eşidir. Ətrafdan kimisi bunun bir qəza olduğunu, kimisi isə bu yazıq adamın özünü at arabasının altına atdığını deyir. Bu adam meyxanada kədər dolu bəlağətli nitqi ilə

Raskolnikovun yadında qalmış Marmelodov idi. Bütün yorğunluğuna, tükənmişliyinə baxmayaraq Raskolnikov Marmelodova öz atasıymış kimi qayğı göstərir. Onu evinə aparmağa yardım edir, son dəqiqələrində onun yanında olur. Marmelodov ölüm səhnəsində sərxoşluğuna baxmayaraq övladları üçün nə qədər əzab çəkdiyini oxuyucuya hiss etdirir. Öz qızı olmamasına baxmayaraq körpə uşağın ayaqlarının yalın olmasına ölüm ayağında diqqət etməsi Marmelodovun niyə sərxoşluğa meyil etməsini açıq-aşkar göstərir: "Marmelodov dəli bir nəzərlə qızın ayaqlarını göstərib mızıldandı: Ayaqları yalındır! Yalındır!" (1, 190)

Marmelodovun əsərdəki rolu onun ölümüylə yekunlaşsa da, romanın növbəti bölümlərində obrazlar tərəfindən xatırlanır. Onun ölümündən sonra Katerina İvanovna çarəsiz qalır, Tanrıya, insanlara qarşı nifrət duymağa başlayır. Belə bir vaxtda Raskolnikov Katerinaya əlində olan bütün pulunu verməkdən çəkinmir. Küçəyə çıxdıqdan sonra Marmelodovun kiçik qızı Polenkanı onun ardıyca yollayırlar. Balaca qız ona təşəkkür edərək zərif əlləri ilə onun boynunu qucaqlayır. Bu kiçik qızla olan söhbətində Raskolnikovun daxilində gizlənib qalmış, çoxdandır ki toxunulmamış qalan duyğular baş qaldırır.

O bu kiçik qızın təbəssümündə bircə anlıq belə olsa Tanrını görür. Həyata, yaşamağa qarşı daxilində qəribə duyğular baş qaldırır, o, yenidən yaşamaq, həyatla döyüşmək və xoşbəxt olmaq istəyir: "Daha bəsdir! Rədd olsun boş xulyalar, rədd olsun uydurma qorxular, rədd olsun gözə görünməyən xəyalat!... Mən yaşayacağam... Mən indicə yaşayırdımmı? Mənim həyatım hələ o qoca qarı ilə bərabər ölüb getməmişdir!...İndi şüur və işıq səltənətidir! Bir də... iradə, qüvvət səltənəti... indi baxarıq! İndi gücümüzü sınayarıq! – Bu son sözləri o, hansı bir qara qüvvəyə isə müraciət edirmiş kimi, o qüvvəyə meydan oxuyurmuş kimi dikbaşlıqla dedi". (1, 196) Daxili ziddiyyətlərlə dolu qəhrəmanın ruh halının daima dəyişdiyini bu nümunələrdən aydınca görmək mümkündür.

Raskolnikov və Sonya

Dostoyevskinin əsərlərində unudulmaz və şəhvətli eşq, demək olar ki, görmək mümkün deyil. O, qadın və kişi qəhrəmanlarını bir araya gətirərkən onları müqəddəs bir yolda birləşdirir. Onun yaratdığı qadın obrazlarının daxili duyğuları da ikili xarakter daşıyır. Bu baxımdan Sonya digər qadın qəhrəmanlardan fərqlənir. Sonya əsər boyunca bir düz üzrə hərəkət edir. Arzuları, istəkləri, hardasa, dəyişməz qalır. Raskolnikov Sonya və Katerina İvanovna haqqında ilk dəfə Marmelodovla söhbətində məlumat alır.

Elə həmin andan etibarən bu məsu fahişəni özünə sirr yoldaşı seçir. Danışdığı ağır yükü bölüşə biləcəyi yeganə insan olaraq Sonyanı görür. Onunla, demək olar ki, eyni iztirabları çəkməsinə baxmayaraq, Sonyanın daxilindəki rahatlıq, günahını etiraf etdiyi andakı anlayış və qayğıkeşlik Raskolnikovu sarsıdır. Hətta bəzi anlarda Sonyaya qarşı içində nifrət hissi də duyur. Lakin bu nifrət hissi ani olaraq keçib gedir. Qəhrəman öz günahını Sonyaya yüklədiyi üçün bəzən özünə qarşı nifrət hiss

edir. Raskolnikovun psixologiyasındakı bu ani dəyişikliklərdən Sonya bəzən qorxur, onun dəli olub-olmadığını düşünməyə başlayır. Lakin Sonya onu dinlədikcə onu dəli olmadığını, böyük bir kədərin içinə batdığını hiss edir: "Sonya ona dərin bir kədərlə baxaraq: Ah, necə də əzab çəkirsiniz!...-dedi". (5, 511) Sonyanın evinə ilk dəfə gedəndə ona Lizavertanı kimin öldürdüyünü deyəcəyini vəd edir. Sonya bəzi şübhələrə qapılsa da, bu fikirləri özündən uzaqlaşdırmağa çalışır. Sonyanın məruz qaldığı haqsızlıqdan sonra isə Raskolnikov daha əmin addımlarla Sonyanın evinə doğru gedir və öz etirafını etməyə hazırlaşır. Əsərin əvvəllərində yazıçı Lizavertanı təsvir edərkən onunla Sonyanın dostluğu haqqında bir kəlmə belə söhbət açmır. Sonyanın Lizaverta ilə olan səmimi münasibəti Raskolnikovla Sonyanın söhbətindən öyrənirik. Raskonikov Sonyaya İşlədiyi cinayəti etiraf edərkən Sonya sarsılır, o, Sonaynın simasına baxarkən daha öncə keçirtdiyi dəhşətli hissə qapılır: "Raskolnikov bunu deyən kimi ona tanış olan bir hiss yenə də onun bütün qəlbini doldurdu; o, sonyaya baxırdı, birdən onun üzündə Lizavertanın üzünü gördü. O, əlində balta Lizavertaya yaxınlaşanda, Lizaverta da əlini qabağa uzadaraq geri çəkiləndə onun üzündəki ifadə Raskonikovun yadında yaxşı qalmışdı". (1, 422)

Raskolnikov Sonyaya cinayəti törətməsinin səbəblərini açıqlamağa çalışır. Lakin Sonyanın qəlbi yalnız Tanrıya bağlı olduğu üçün Raskolnikovun danışdığı fəlsəfi sözləri başa düşə bilmir. Sonya onun fikirlərindəki qəribəliyi anlaya bilmir. Raskolnikov qoca qarının onsuz bir işə yaramadığını, bir bitdən fərqlənmədiyini deyəndə Sonya heyrətə düşür: "Mən yalnız bir bit öldürmüşəm, Sonya, yararsız, iyrənc, hər kəsə zərər verən bir bit! – Amma bu bit bir insandır!" (8, 520) Sonya və Raskolnikovu yaxınlaşdıran hər ikisinin günahkar olduqları halda, saf bir mənliyə, dərin mənəvi əxlaqa sahib olmalarıdır.

Raskolnikov Sonyanın saflığını duyur, onun daxili əzabını öz qəlbində hiss edir, onun qarşısında diz çökür, lakin bu diz çökmə yalnız Sonyaya edilən təzim deyildi, özünün də dediyi kimi Raskolnikov "insanların çəkdiyi əzablara təzim edir". (bax: 1, 332) Raskolnikov Sonyanın bu qədər fədakar olmasını qəbul edə bilmir, ona acı həqiqəti söyləyir. Bacı-qardaşlarına və Katerina İvanovnaya həyatını qurban verməməsini istəyir. Raskolnikovun Sonyaya yanaşmasında qəhrəmanın daxili xarakteri daha aydın şəkildə anlaşılır. Belə ki, o, Lujinlə söhbətində Lujinin Sonyanı təhqir etməsinə icazə vermir, "Sonyanın çeçələ barmağına belə dəyməyəcəyini" söyləyir. Bir əxlaq mücəssəməsi olan bacısı Dunya ilə Sonyanı yanaşı əyləşdirir, onları eyni saflıqda görür.

Raskolnikovun psixoloji xarakteririnin açılmasında və daxili zidiyyətinin anlaşılmasında Sonya vacib bir obrazdır.

Raskolnikov və Svidriqaylov

Raskolnikovdan sonra əsərin ən çox diqqət çəkən obrazı məhz Svidriqaylovdur. Raskolnikov obrazının yaranması kimi Svidriqaylov obrazının yaranması da Dostoyevskinin həbsxana həyatı ilə bağlıdır. Dostoyevski hər iki obrazı cinayətdən sonra qarşılaşdırır. Svidriqaylov müəyyən bir iş üçün (Raskolnikovun bacısı Dunya ilə bağlı) Raskolnikovu axtarıb tapır. Lakin onun Raskolnikovla görüşməsinə digər bir səbəb də vardır. O, Raskolnikovu tanımaq istəyir, özüylə Raskolnikov arasında müəyyən bənzərliklər sezir. Bu bənzərliklər isə təsadüfi deyildir. Dostoyevski bu bənzərliyi bilərəkdən ortaya qoymuşdur. Lakin Raskolnikovu Svidriqaylovdan fərqləndirən əsas amil onun daha duyğulu, daha həssas olması idi. Svidriqaylovun da duyğulardan tamimilə qopmuş, insanlıqdan uzaqlaşmış bir obraz kimi düşünmək də yanlışdır. Ona görə ki, Katerinanın yetim qalmış uşaqlarına məhz o sahib çıxır. Bundan əlavə isə Raskolnikov içindəki ağır yükü Sonya ilə bölüşdüyü halda, və ya xəstə düşərək özünü ifşa etdiyi halda, Svidriqaylov öz içində daşıdığı vicdan əzabının yükünü kimsəyə yükləmək istəmir Bu haqda heç bir şey danışmır. Bəlkə də, Svidriqaylovu belə sərt və qəddar birisi kimi göstərən məhz bu xüsusuiyyətləridir. O özünü bir zövq düşkünü kimi qələmə verir, Raskolnikov onu əxlaqdan uzaq birisi kimi dəyərləndirsə də, yenə də ona getmək, onunla danışmaq istəyir. Sonyaya etirafını divarın o biri tərəfindən eşitdikdək sonra Rasklnikovla qarşılaşdıqlarında hər şeydən xəbəri olduğunu Raskolnikova sezdirir. Bütün bunlardan sarsılan qəhərəman Svidriqalyova daha da yaxınlaşma ehtiyacı duyur.

Raskolnikovun ikili xaraterini onun üz tutduğu insanların da tamamilə iki fərqli qütbdə dayanmasında da görmək olar. Belə ki, qəhrəmanın üz tutduğu insanlardan ilki olan Sonya saf bir mənəviyyata maliksə, ikincisi – Svidriqaylov isə öncə azyaşlı qızın ölümündə, daha sonra isə arvadının ölümündə günahlandırılan bir şəhvət düşkünüdür. Lakin bütün bunlara baxmayaraq o, Raskolnikovun narahatlığını elə görüşdən duyur, onun qəribə bir ruh halı içində olduğunu hiss edir: “Rodion Romanoviç bir söz deyəcəyəm, acıqlanmayın: nədənsə, siz özünüz mənə çox qəribə görünürsünüz. Nə deyirsiniz deyin, hər halda sizdə nəsə var; özü də indi var, yəni bu anda yox, ümümuiyyətlə indi...” (1, 291) Bu obrazın romana sonradan (əsərin tam ortasında) daxil olması da təsadüfi deyildir. Dostoyevski əsəri yazdığı müddətdə qəhrəmanın psixoloji xarakterini daha dolğun əks etdirmək üçün məhz bu obrazı əsərə gətirmişdir: “Aydın görünür ki “Cinayət və cəza”nın yazılışında Svidriqaylov obrazı sonradan düşünülmüşdür. Dostoyevskinin Katkova göndərdiyi iki nüsxədə və bugünə qədər saxlanılan əlyazmaların heç birində Svidriqaylov obrazına rast gəlinmir”.(5, 190) Svidriqaylov obrazının yaranmasında əsas məqsəd yenə də əsərin qəhrəmanını daha yaxından tanıtmaqdır: “Svidriqaylov surəti heç də müstəqil əlavə epizod deyildir, o baş qəhrəmanın tale və şəxsiyyətini çox gözəl işıqlandırır”. (2, 460)

Svidriqaylov və Raskolnikovu birləşdirən digər cəhət isə hər ikisinin bir çıxış yolu tapa bilməməsi, intiharı düşünməsi idi. Belə ki, Raskolnikovun intiharı düşündüyünü yazıçı bizə hiss etdirsə də, Svidriqaylovun intihar haqqında düşüncələrini görmürük. Qəhrəman qəfil ölümü ilə əsərdən anidən çıxır. Raskolnikovun isə digər bir yolu var idi:

Təslim olmaqla günahlarını təmizləyə, vicdanını rahatlaşdıra bilərdi. İkinci yolu seçmək üçün Raskolnikova kömək edən vasitə Sonya idisə, Svidriqaylov üçün bu qadın Dunya ola bilərdi. Maraqlısı burasındadır ki, Raskolnikov Sonyadan belə bir fədakarlıq istəmədiyi halda, Sonya onun ardıyca sürgünə belə gedir. Svidriqaylov isə Dunyanın onun qurtuluşu olmasını, onunla gəlməsini ürəkdən istəyir. Bu ikili münasibətlərdə Raskolnikovla Dunyanın bir-birinə olduqca yaxın xarakterlər olduğunu da görmək mümkündür.

Raskolnikov və Porfiri Petroviç

Porfiri Petroviç əsərdəki ən güclü xarakterlərdən olmasına baxmayaraq, o da daxili ziddiyyətləri olan, xarakteri başqaları tərəfindən anlaşılmaz qalan, Raskolnikovun psixoloji xarakterinin açılmasına ən çox yardım edən obrazdır. Əsər boyu Porfiri haqqında dolğun məlamat verilmir. Yazıçı onu bəzən olduqca sərt, bəzənsə məzəli zarafatlar edən bir məmur kimi təqdim edir. Porfiri və Raskolnikovu bir-biriləri ilə tanış edən Razumihindir. Hər iki obraz Razumihindən istifadə edərək bir-birilərinin düşüncələrini aşkarlamağa çalışırlar. Raskolnikov Porfirinin evinə getməyi özü istəyir, onun şübhələnib-şübhələnmədiyini dəqiqləşdirmək istəyir. Lakin Porfirinin evinə girərkən elə bir vəziyyət yaradır ki, sanki heç bir şeydən xəbəri yoxdur və danışacaqları "qoca qarının ölümü" mövzusunun onunla heç bir əlaqəsi yoxdur. Porfiri Raskolnikovla söhbətində onun məqaləsindən söz açır. Məqaləsində dilə gətirdiyi fikirləri açıqlamasını istəyir. Porfiri məqalədə ən çox diqqətini çəkən hissəni dilə gətirir: "Bütün məsələ burasındadır ki, bunun məqaləsində bütün insanlar – "adi" və "qeyri-adi" deyə iki yerə bölünür, "adi" insanlar gərək itaət etsinlər, onların qanundan kənara çıxmağa ixtiyarı yoxdur, çünki onlar "adi"dir. Amma "qeyri-adi" insanların hər cinayət etməyə, qanundan hər cür kənara çıxmağa ixtiyarları vardır, çünki onlar "qeyri-adi"dir". (1, 267)

Raskolnikov onun məqsədini başa düşür və özünü ələ vermir, hətta Porfinin ona meydan oxuduğunu gördükdə meydandan çəkilməməyi qərara alır. Bu iki zəkalı şıxsiyyətin arasında gedən fəlsəfi mükaliməyə Rahumizin təəccüblə qulaq asır, bəzənsə səbirsizliklə müdaxilə edir. Raskolnikov fikirlərini izah edərkən əsəbləri gərginləşir, Porfiri ondan gözünü ayırmır, hər sözünü, hər hərəkətini addım-addım izləyir. Raskolnikov Porfirinin ondan şübhələndiyini anlayır, ancaq əlində heç bir dəlilin olmaması qismən onu rahatlaşdırır. Lakin oradan çıxdıqdan sonra qəhrəmanın həyəcanı artır, getdikcə daha çox narahatlıq keçirtməyə başlayır.

Porfiri ilk olaraq Raskolnikovun polis bölməsində huşunu itirməsindən şübhələnir, öz evində olan söhbətdən sonra şübhəsi daha da artmağa başlayır,

Raskolnikovun cinayətdən sonra təkrar qoca qarının evinə getdiyini öyrəndikdə isə onun geridə heç bir iz buraxmamasına baxmayaraq zəkası və psixoloji analiz etmə qabilliyyəti sayəsində Raskolnikovun qatil olduğunu anlayır. Raskolnikov isə son ana qədər özünü çoxdan ələ verdiyindən xəbəri olmadan mübarizəni davam etdirir: "Qətldən sonra dərhal Raskolnikovun öz ideyası, öz nəzəriyyəsi, öz vicdanı ilə psixoloji dramatizminə görə ən mürəkkəb daxili mübarizəsi və Porfiri Petroviçin ən gücülü düşməni və qismən polis məmurunun simasındakı hakimiyyətlə ən mürəkkəb xarici mübarizəsi başlanır". (2, 459) Porfiri və Raskolnikov Dostoyevskinin düşüncələrini əks etdirir. Bu iki obrazın biri (Raskolnikov) Dostoyevskinin sürgün həyatından öncəki xarakterini və düşüncələrini əks etdirirsə, digəri isə müəllifin sürgündən sonrakı həyat haqqında qənaətlərinin inikasıdır.

Porfiri Petroviç bu mübarizədə son dəqiqəyə qədər Raskolnikovu intizarda saxlayır. Raskolnikov Porfirinin hər şeyi bilib-bilmədiyini daim götür-qoy edir, anlamağa çalışır. Sonda isə Porfiri Raskolnikovun heç gözləmədiyi anda onu ifşa edir: "Necə kim öldürüb?... Rodion Romanoviç, siz öldürmüsünüz! – Sonra o lap astadan, həm də əmniyyət duyulan bir səslə əlavə etdi: - Bəli, siz öldürmüsünüz..." (1, 468) Bütün bunlardan sonra Raskolnikov öz fəlsəfinə olan inamını itirir, artıq deməyə bir sözü qalmır. Raskolnikovu həbsxanaya doğru aparan müəllif bu yolda Porfiri və Sonya obrazlarından məharətlə istifadə etmişdir: "Qətldən sonrakı ilk günlərdən etibarən, dialektikada Raskolnikovun dəfedilməz rəqibinin onun ətrafında gözə görünmədən və inamla cızdığı dəqiq "psixoloji" dairə onların başlanğıcda son dərəcə təskinlikverici axırıncı söhbətin davam etdiyi axşamçağı tamamlanır. Porfirinin məntiqi və Sonyanın mənəvi təsirinə Raskolnikovun tabe olmaqdan başqa əlacı qalmır". (2, 459)

Nəticə

Bütün bu təhlillərdən və araşdırmalardan sonra belə bir qənaətə gəlmək olar ki, Raskolnikov Dostoyevskinin ən ziddiyyətli və pxisoloji gərginliyi ən yüksək olan obrazıdır. Raskolnikov yazıçının həyatının həm erkən dönəmini, həm də yetkinlik dönəmini özündə birləşdirir. Yazıçı bu obrazla özünün, dolayısıyla insanın necə dəyişdiyini, cəfa və kədərlə necə yetkinliyə çatdığını və düşüncələrinin, dünyagörüşünün necə formalaşdığını göz önünə sərmişdir. Qəhrəmanının törətdiyi cinayət onu mənəvi saflığa, ümidə, işığa və sevgiyə doğru aparmışdır. Yazıçının həyatla bağlı təməl fəlsəfəsi *sevgi və uca gözəllik* üzərində qurulduğundan Raskolnikovun da məhz bu fəlsəfəyə doğru getməsi labüd idi. Dostoyevski qəhrəmanının və demək olar ki, bütün insanlığın qurtuluşunu elə bu *sevgi və uca gözəllikdə* görmüş, "Cinayət və cəza"dan sonrakı əsərlərində bu sevgi və uca gözəlliyi duyan, bu duyğularla yaşayan obrazlar yaratmışdır.

ПСИХОЛОГИЧЕСКИЙ ПОРТРЕТ В ХУДОЖЕСТВЕННОМ ПРОИЗВЕДЕНИИ: ОБРАЗ РАСКОЛЬНИКОВА В РОМАНЕ М. Ф. ДОСТОЕВСКОГО "ПРЕСТУПЛЕНИЕ И НАКАЗАНИЕ"

РЕЗЮМЕ

Статья посвящена анализу внутреннего психологического характера Раскольникова, главного героя самого читаемого романа Достоевского «Преступление и наказание».

При анализе произведения, наряду с внутренней психологической природой образов, затрагивался ряд общественно-политических вопросов и бедственное положение русской молодежи XIX века. Чтобы понять психологическое состояние героя, мы попытались проанализировать различные художественные детали: шляпу Раскольникова, топор Раскольникова, сон Раскольникова, символику желтого цвета. С целью раскрытия внутреннего психологического мира главного героя Раскольникова в статье акцентируется внимание на взаимоотношениях Раскольникова с другими персонажами, а также выявляется, что в диалоге главного героя с каждым персонажем появляются разные психологические анализы. Душевное слушание Мармелодова, чувство духовной близости к нему, несмотря на его противодействие Свидригайлову, и преклонение колен перед горем Сони позволили ему понять психологическую природу Раскольникова.

Писатель описал индивидуальный характер каждого образа, а также сосредоточил внимание на раскрытии через эти образы характера главного героя. Портрет Порфирия в романе был настроен против Раскольникова, что побудило его сознаться в преступлении. Образ Сони – наиболее близкий Раскольниковой духовный персонаж. Духовный мир и любовь Сони помогают Раскольниковой выбраться из тьмы и увидеть свет.

В статье внутренний психологический характер и внутренние противоречия Раскольникова развиваются параллельно и во взаимодействии с другими образами.

Ключевые слова: Достоевский, Раскольников, психологический персонаж, противоречие

PSYCHOLOGICAL PORTRAIT IN THE WORK OF ART: IMAGE OF RASKOLNIKOV IN MF DOSTOYEVSKY'S NOVEL "CRIME AND PUNISHMENT"

SUMMARY

The article is devoted to the analysis of the inner psychological character of Raskolnikov, the protagonist of Dostoevsky's most widely read novel "Crime and Punishment".

In the analysis of the work, along with the internal psychological nature of the images, a number of socio-political issues and the plight of the Russian youth of the XIX century were touched upon. To understand the psychological state of the hero, we tried to analyze various artistic details: Raskolnikov's hat, Raskolnikov's ax, Raskolnikov's dream, the symbolism of the yellow color. In order to reveal the inner psychological world of the protagonist Raskolnikov, the article focuses on the relationship between Raskolnikov and other characters, and it is revealed that different psychological analyzes appear in the dialogue of the protagonist with each character. Listening to Marmelodov in his heart, feeling a spiritual closeness to him, despite his opposition to Svidrigaylov, and kneeling in front of Sonya's grief allowed him to understand the psychological nature of Raskolnikov.

The writer described the individual character of each image, as well as focused on revealing the character of the protagonist through these images. The portrait of Porphyry in the novel was set against Raskolnikov, prompting him to confess to the crime. The image of Sonya is the closest spiritual character to Raskolnikova. Sonya's spiritual world and love help Raskolnikova get out of the darkness and see the light.

In the article, Raskolnikov's internal psychological character and internal contradictions are developed in parallel and in interaction with other images.

Keywords: Dostoevsky, Raskolnikov, psychological character, contradiction

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. Dostoyevski M.F. Cinayət və cəza. Bakı, Azərnəşr, 2004, 557 s
2. Qrossman L. Dostoyevski. Bakı, Qanun nəşriyyatı, 2015, 784 s
3. Sigmund F. Psixoanalizlə ilkin tanışlıq. Bakı, Qanun nəşriyyatı, 2018, 320 s
4. Bahtin M.M. Dostoyevski poetikasının sorunları, İstanbul, Metis yayıncılık, 2015, 393 s
5. Carr E.H. Dostoyevski. İstanbul, İletişim, 2020, 323 s
6. Dostoyevski A. Fyodor Mihayloviç Dostoyevski. İstanbul, Mayakitap, 2020, 271 s

7. Dostoyevski M.F. Bir yazarın günlüğü. I, II cilt, Yapı kredi yayınları, 2020, 1210s
8. Dostoyevski M.F. Suç ve ceza. İstanbul, Kültür yayınları, 2018, 687 s
9. Dostoyevski M.F. Mektuplar. Ankara, Hece yayınları, 2013, 331 s
10. Frank J. Dostoyevski çağının bir yazarı. İstanbul, Everest yayınları, 2017, 995 s
11. Karaca B. Dostoyevski okumaları. Ankara, Hece yayınları, 2018, 302 s
12. Sigmund F. Rüyaların yorumu. İstanbul, Say, 2020, 648 s
13. Sigmund F. Seçme yazılar. Ankara, Alter, 2019, 94 s
14. Solovyev Y. Dostoyevski hayatı ve edebi çalışmaları. Eskişehir, Dorlion, 2020, 128 s
15. Terras V. Dostoyevskiyi okumak. İstanbul, Kırmızı kedi, 2017, 223 s
16. Troyat H. Dostoyevski. İstanbul, İletişim, 2020, 443 s
17. Özügül O. Dostoyevskinin mirası. İstanbul, Pencere yayınları, 1994, 142 s
18. Zweig S. Dostoyevski yalnızlığın keşfi, İstanbul, Zeplin, 2019, 190 s
19. https://tibb-dunyasi.com/r%C9%99ngl%C9%99rin-psixologiyasi/

Redaksiyaya daxil olma tarixi: 18.05.2022
Çapa qəbul olunma tarixi: 07.06.2022
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru,
dosent Maral Yaqubova
tərəfindən çapa tövsiyə olunmuşdur

SONAXANIM İMAMOVA QURBAN QIZI
Azərbaycan Texniki Universiteti
“Humanitar fənnlər” kafedrasının baş müəllimi
H.Cavid pr.25
Bakı Slavyan Universiteti,Bakı Şəhəri
E-mail: sonakhanum@gmail.ru

II DÜNYA MÜHARİBƏSİNDƏ AZƏRBAYCANIN ROLU VƏ VERDİYİ TÖHFƏ

İkinci dünya müharibəsində faşizm üzərində qələbədə Azərbaycanın rolu həddindən artıq böyük və genişmiqyaslı olmuşdur.Azərbaycan xalqı bu müharibədə böyük və rəşadətli qəhrəmanlıqlar göstərmiş,adlı-sanlı sərkərdələr meydana gəlmişdir. Azərbaycan neftinin əhəmiyyəti İkinci dünya müharibəsi illərində xüsusi əhəmiyyət kəsb etmiş və həlledici rola malik olmuşdur..

Azərbaycan xalqının bu müharibədə göstərdiyi əzmkarlıq və qəhrəmanlıqları açıqlamaq ciddi elmi-nəzəri, siyasi və əməli əhəmiyyətə malikdir.Azərbaycanın ümumilli lideri Heydər Əliyev demişdir: "Azərbaycan xalqı İkinci dünya müharibəsində həm döyüş meydanlarında, həm də arxa cəbhədə əsl şücaət və əzmkarlıq nümunələri göstərmişdir. Müharibə başlanandan keçən qısa müddət ərzində Azərbaycan Respublikası ərazisində 87 qırıcı batalyon, 1124 özünümüdafiə dəstəsi təşkil edilmişdir. 1941–1945-ci illərdə respublikanın 600 mindən çox oğlan və qızları cəbhəyə getmişdir**".(1.s.123).** Almaniya Sovet İttifaqına qarşı müharibəyə 22 iyun 1941-ci ildə başladı. Alman komandanlığı Bakı neftinə xüsusi önəm verirdi və Qafqaz uğrunda vuruşlarda onun əsas məqsədi Bakı üzərində nəzarəti ələ keçirmək olmuşdur.

Açar sözlər: II dünya müharibəsi,Azərbaycan,qələbə,faşist Almaniya-sı,verdiyi töhfə.

Türk mətbuatında,qəzet və jurnallarda II Dünya müharibəsi haqqında yazılırdı:

“ İkinci Dünya Savaşında İtalya, Almanya ve Japonya aralarında anlaşmış ve "Üçlü Mihver" grubunu oluşturmuşlardır.Almanyada iktidara gelmiş olan Nazi yönetimi, Alman ırkının üstünlüğünü savunmuştur.

Bunun neticesi olarak da Versay Barış Antlaşması’nı tanımadığını ilan ederek işgaller gerçekleştirmeye başlamıştır. Çekoslovakya ve Avusturya devletleri Alman işgaline uğramıştır.Mihver Grubuna karşı, Fransa ve İngiltere "Müttefik Devletler" grubunu oluşturmuştur.

Oluşturulan Müttefik Devletler gurubuna daha sonra Rusya ve ABD'de katılmıştır. Almanya, Rusya ile tarafsızlık anlaşmasına imza atmış ve 1939 yılında

Polonya'ya karşı savaş açmıştır.Fransa ve İngiltere, Polonya'ya teminat vermişlerdir. Bunun sonucunda Polonya da Almanyaya savaş açmıştır.

Tüm bu gelişmelerin neticesinde ise insanlık tarihinin en büyük felaketlerinden olan İkinci Dünya Savaşı başlamıştır.İkinci Dünya Savaşı'nın başlamasıyla birlikte Almanya işgal etmiş olduğu Polonya topraklarını Ruslarla paylaşmıştır. İlerleyen süreçte ise Almanlar; Norveç, Danimarka, Fransa ve Hollanda topraklarını işgal etmiştir.Bu süreçte İtalya ise Arnavutluk topraklarını işgal etmiştir. Sonrasında Yunanistan'a saldırmış ancak bu girişiminde başarı elde edememiştir. Bu gelişmeler üzerine Almanya Balkanlara yönelerek Macaristan, Yunanistan ve Romanya topraklarını ele geçirmiştir.Almanların Balkanlar için tehdit oluşturması üzerine Rusya müttefik devletler grubuna dâhil olmuştur. Japonların, Amerika'nın Pearl Harbor üssüne saldırmasından dolayı Amerika da Müttefik Devletler Grubu'nda yer alarak savaşa katılmıştır.(Türk mənbələrinə istinadən).

İsmayıl Şıxlı əv Əbülhəsən Ələkbərzadə "II Dünya müharibəsinin başlanğıcı"əsərində yazırlar: ""1939-cu il sentyabrın 1-də başlanan İkinci dünya müharibəsi iki imperialist ittifaq arasında aparılsa belə, Sovet İttifaqına da ciddi təhlükə yaranmışdı. İlk gündən alman qoşunlarının SSRİ sərhədlərinə yaxınlaşması ölkənin qərb istiqamətində mövqeyini möhkəmlətməyi tələb etdi. Xüsusilə, 1920-ci ildə Polşanın işğal etdiyi Qərbi Belorusiya və Qərbi Ukrayna torpaqlarını Sovet dövləti yenidən öz tərkibinə qatdı. Bununla Sovet İttifaqının qərb sərhədləri bir qədər möhkəmləndirildi"**.(2.s.44-54)**

Adolf Hitler 1940-cı ilin iyulunda SSRİ-yə qarşı müharibənin qaçılmaz olması və müddəti barədə demişdi: "Rusiya gərək məhv edilsin! Müddəti – 1941-ci ilin yazı!"

İyunun 22-də faşist Almaniyası Sovet İttifaqına hücum etdi. Bununla da sovet xalqları İkinci dünya müharibəsinə qatıldı. SSRİ-nin müharibəyə girməsi ilə İkinci dünya müharibəsinin gedişində yeni mərhələ başlandı. Müharibə sovet xalqları tərəfindən xilaskar, ədalətli, vətən müharibəsinə çevrildi. Müharibə ümumxalq xarakteri daşıyırdı. Sovet İttifaqının bütün xalqları, o cümlədən Azərbaycan xalqı vətən uğrunda müharibəyə başladı.

Bu müharibdəAzərbaycanın işğalı mərkəzi yer tuturdu və faşist Almaniyası bunu öz qarşılarında xüsusi məqsəd qoymuşdular.Faşist Almaniyasının Şərq siyasətində Qafqaza, o cümlədən Azərbaycana xüsusi diqqət yetirilirdi.

Rozenberqin başçılığı ilə təşkil edilən Şərq İşləri üzrə Nazirliyin nəzdində olan strukturlardan biri Qafqaz Komissarlığı idi. Hələ 1941-ci il aprelin 29-da yaradılan Oleburq iqtisadi qərargahı tərəfindən təsis edilmiş planda Qafqazın, ələlxüsus Bakının işğalı mərkəzi yer tuturdu.

Qafqazın işğalı üçün tərtib edilmiş planın (Edelveyus planının) həyata keçirilməsi faşistlərin "A" qrupu ordusuna həvalə edilmişdi. Həmin planda Qafqaz beş işğal rayonuna bölünməli idi və onlardan biri Azərbaycan ələhiddə rayonu idi.

"Ost" planına görə, Bakı 1941-ci il sentyabrın axırına qədər işğal olunmalı idi. Faşistlər Bakını işğal edib, onun neftini alman şirkətlərinin sərəncamına verməli idilər. Onlar, eyni zamanda Azərbaycandakı iri sənaye müəssisələrinə rəhbərlər də təyin etmişdilər.

Hitler hələ 1941-ci il iyulun 16-da hökumət üzvlərinin yığıncağında bildirmişdi ki, Bakı alındıqdan sonra o, hərbi məntəqəyə çevriləcəkdir. Hitler hələ bundan xeyli əvvəl "Mənim mübarizəm" adlı kitabında yazırdı ki, "*Müsəlman monqoloidlər dağıdıcı qüvvədir. Buna görə onlar ali irqin qulları olmalıdırlar*".

Azərbaycan faşizmə qarşı müharibədə

"Azərbaycan hərbi əməliyyat meydanına çevrilməsə də müharibənin əvvəlindən axırınadək fəal iştirak etmişdi. Azərbaycanın bütün maddi və mənəvi sərvətləri, insan qüvvəsi faşizmə qarşı müharibəyə cəlb edildi.

Müharibənin ilk günlərində Azərbaycanda 4 mindən çox oğlan və qız faşizmə qarşı vuruşmaq üçün könüllü surətdə cəbhəyə getməkdən ötrü hərbi komissarlıqlara müraciət etmişdi. Avqust ayına qədər təxminən 123 min nəfər "Xalq qoşunu" dəstələrinə yazıldı1941-ci ilin sonunda xalq qoşunu dəstələrində 187 min nəfər döyüşçü vardı. Onlardan 30 min nəfərdən çoxu qadınlar idi.

1941–1945-ci illərdə Azərbaycanda Sovet Ordusu sıralarına 640 min nəfərədək səfərbər edilib cəbhəyə göndərildi. Onlar da sabiq SSRİ məkanında yaşayan digər xalqların nümayəndələri ilə çiyin-çiyinə faşizmə qarşı savaşda iştirak etdilər.

Müharibənin ən ağır illərində azərbaycanlı əsgər və zabitlər od, alov içərisindən keçərək Pribaltika respublikaları uğrunda döyüşlərdə cəsarətlə vuruşmuş, faşist ordu hissələrinə mətanətlə müqavimət göstərmiş, onların hərbi texnikasını və canlı qüvvəsini məhv etmiş, işğal edilmiş yaşayış məntəqələrində, cəbhələrdə,kənd və çəhərlərimizdə,o cümlədən,Moskva,Stalingrad,Kiyev,Belarusiyanın,Pribaltikanın azad edilməsində,həmçinin Berlinin süqutunda fəal iştirak etmiş, bu yolda çoxları ölümləri ilə ölümsüzlüyə, əbədiyyətə qovuşmuşlar.

Ənvər Əlibəyli, Böyükağa Qasımzadə, İslam Səfərli,"Sülh nəğmələri"kitabında yazırlar:" Azərbaycan əsgərləri 1941-ci ilin payızında Leninqrad şəhərinin müdafiəsi uğrunda döyüşlərdə ön cəbhədə dayanmış, bütün ölkə vətəndaşları ilə çiyin-çiyinə faşist ordusuna cəsarətlə müqavimət göstərmiş, əhalinin təhlükəsizliyini qorumuşlar.

Təyyarəçi Hüseynbala Əliyev Leninqradı düşmənin hava hücumundan qoruyarkən 17 ölümcül yara alsa da, təyyarəsini yerə endirə bilmişdi. Göstərdiyi şücaətə görə ölümündən sonra o,döyüş ordeninə layiq görüldü. Moskva, Leninqrad və Stalinqrad ətrafında döyüşlərdə azərbaycanlılar düşmənin çoxsaylı canlı qüvvə və güclü hərbi texnikası ilə üz-üzə dayanmış, faşist ordusuna qarşı irimiqyaslı və dağıdıcı hərbi əməliyyatlar keçirmişdilər**."(3.s.66—70)**

Moskvanın müdafiəsində döyüşlərin ən ağır günlərindən biri olan 8 dekabr 1941-ci ildə paytaxtın şimalında yerləşən Novqorod vilayətinin Pustinka kəndi yaxınlığında döyüşlərdə İsrafil Məmmədov komandir olduğu dəstənin 20 nəfər

döyüşçüsü ilə 400 nəfərdən çox düşmən qüvvəsinin 9–10 saat ərzində aramsız hücumlarını dəf edərək mövqelərini daha da möhkəmləndirmişdi. Bu döyüşdə İsrafil Məmmədov özü 70-dən çox faşisti məhv etdiyi üçün ona dekabrın 11-də Sovet İttifaqı Qəhrəmanı fəxri adı verildi. *İsrafil Məmmədov bu yüksək ada layiq görülmüş ilk azərbaycanlı idi.*

1941-ci ilin noyabrında Moskvanın müdafiəsinə göndərilən Bakı zenit artileriyası alayı düşmənin 40-a qədər təyyarəsinin yarıdan çoxunu məhv etmiş, qalanlarını isə Moskva səmasına çatmadan geriyə dönməyə məcbur etmişdi. Moskva uğrunda döyüşlərdə 1000 nəfərdən çox Azərbaycan vətəndaşı iştirak etmiş və "Moskvanın müdafiəsinə görə" medalı ilə təltif edilmişdir.

Bunların arasında tank alayı komandiri Həzi Aslanov, polkovnik Yaqub Quliyev, mayor Muxtar Suleymanov, kapitan İsrafil İsmayılov, mayor Əhəd Şəmsizadə, leytenant Müseyib Allahverdiyev, leytenant Məmmədrəsul Paşayev, kiçik leyntenant Pərviz Tağızadə, serjant Camal Sədrəddinov, pulemyotçu İdris Vəliyev, sıravi Rəhim Kərimov, snayper Ziba Qəniyeva, tibb bacısı Aliyə Rüstəmbəyova və digərləri olmuşdur.

Stalinqradın müdafiəsində Baloğlan Abbasovun snayperlər dəstəsi və Həzi Aslanovun tank alayı xüsusi fəallıq göstərmiş və düşmənə ağır zərbələr endirmişdilər. Döyüşlərdə böyük qəhrəmanlıq göstərdiklərinə görə hər iki azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı fəxri adına layiq görülmüşdülər.

Həzi Aslanov Brezna çayını keçərək Pleseni şəhərinin və 508 yaşayış məntəqəsinin azad edilməsində xüsusi xidmətlərinə görə ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü.

Azərbaycanlı əsgər və zabitlər 1942-ci ildə Şimali Qafqazın və 1943-cü ildə Ukraynanın azad edilməsi uğnrunda döyüşlərdə fəal iştirak etmiş və nasist ordusunun darmadağın edilməsində sovet silahlı qüvvələrinə yaxından köməklik göstərmişdilər.

Şimali Qafqaz uğrunda döyüşlərdə **alman komandanlığı xeyli miqdarda canlı qüvvə və texnika** itirməsinə baxmayaraq Bakının işğalı planından əl çəkmirdi. Hitler Berlindən "Birinci" tank ordusu qərargahına teleqram göndərib Bakının işğalının sürətlənməsini tələb etmişdi.

"Birinci" tank ordusu qərargahı Bakıya ediləcək hücumun planını tərtib edib, "A" qrup ordusu qərargahına göndərmişdi. Həmin plana görə alman ordusu sentyabrın 6-da Qroznıdan və sentyabrın 16-da Mahaçqaladan hücuma keçib, sentyabrın 25-də Bakıda olmalı idi.

1942-ci il sentyabrın 9-da Zaqafqaziya respublikalarında hərbi vəziyyət elan edildi. Mühüm sənaye mərkəzlərində müdafiə rayonları yaradıldı. Bunlar — Bakı xüsusi müdafiə rayonu, Qroznı və Orconokidze müdafiə rayonları idi. Dövlət Müdafiə Komitəsi 1942-ci il sentyabrın 16-da Mahaçqala, Dərbənd və Bakı

rayonlarında müdafiə-istehkam tikintiləri üçün hər gün 90 mindən çox adamın səfərbər olunması haqqında qərar qəbul etdi.

Zaqafqaziya hərbi şurasının " Zaqafqaziya cəbhəsinin mühəndis itsehkam xətləri" haqqındakı qərarına görə, Azərbaycan ərazisində 551 kilometr tank əleyhinə xəndək qazılmalı, 7098 uzunmüddətli atəş nöqtəsi və uzunmüddətli torpaq atəş nöqtəsi tikilməli, 1245 kilometr səngərlərarası əlaqə xətti qurulmalı, 34920 müxtəlif qurğu düzəldilməli idi.

1942-ci ilin avqust ayına kimi müdafiə istehkam tikintisi ləng gedirdi. Bunun başlıca səbəbi istehkam tikintisi üçün lazım olan avadanlıqların olmaması idi. 1942-ci il avqustun 25-də Azərbaycan K(b)P MK və Azərbaycan XKS respublikada müdafiə-istehkam xətləri tikintisi üçün qərar qəbul etdi.

Qərarda israrla tələb olunurdu:

Balakən, Zaqatala, Qax, Oğuz, Qəbələ rayonlarında Baş Qafqaz aşırımlarını mühafizə edən qoşun hissələri, Bakı müdafiə istehkam xətlərinin tikintisi üçün həmin rayonlardan meşə materiallarının hazırlanıb gətirilməsinə cəlb edilsinlər və hər rayon tikinti materialının daşınması üçün daxili imkanlar hesabına maşınlar ayırsınlar. Azərbaycan, Bakı zonasında müdafiə-istehkam tikintisinə beş min inşaatçı cəlb etmişdi.Şimali Qafqaz uğrunda döyüşdə Qafur Məmmədov və İdris Süleymanov göstərdikləri igidliyə görə Sovet İttifaqı Qəhrəmanı fəxri adına layiq görülmüşdülər.

Ukraynanın azad edilməsində böyük xidmətlərinə görə M.Məhərrəmova, M.Ələkbərova, Ə.Məmmədova və F.Səfərova Sofet İttifaqı Qəhrəmanı fəxri adı verilmişdi.Azərbaycanlılardan ibarət milli diviziyalar yaradılmış vəonlar Simferepolun, Odessanın və digər şəhərlərin azad olunmasında fəal iştirak etmişdilər.Azərbasycanlılardan ibarət yenicə təşkil edilmiş 77-ci Diviziya Polşa və Çexoslovakiyanın,223-cü diviziya Yuqoslaviyanın azad olunmasında fəal iştirak etmiş,Həzi Aslanovun rəhbərlik etdiyi 416-cı diviziya isə Qafqazdan Berlinə qədər böyük döyüş yolu keçmiş, Berlinin süquta yetirilməsində xüsusi fəallıq göstərmişdir. Polşa və Çexoslovakiyanın faşistlərdən azad edilməsi uğrundakı döyüşlərdə göstərdikləri qəhrəmanlıqlara görə Ziya Bünyadov və digər 20 nəfər azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü.[

Azərbaycanın 77-ci milli atıcı diviziyası müharibəyə 1941-ci ilin dekabrında 51-ci ordunun tərkibində Kerç-Feodosiya desant əməliyyatı ilə başladı., Azərbaycanlılar Mineralni vodı uğrunda gedən döyüşlərdə fərqlənmiş, Simferopolun azad edilməsində göstərdiyi qəhrəmanlığa görə Suvorov ordeni ilə təltif edilmişdilərH. Sevastopolun azad edilməsi uğrunda Sapun-qaradan başlanan döyüşlər 10 gün davam etdi, qələbə bayrağını 1943-cü ilin 7 mayında serjant Əbduləziz Qurbanov sancdı.

ƏDƏBİYYAT:

1.Heydər Əliyev: "ıı Dünya müharibəsinin yekunları"1975 il.səh:123.
2.İsmayıl Şıxlı, Əbülhəsən Ələkbərzadə "II Dünya müharibəsinin başlanğıcı.1941-1945 illər." səh: 44-54.
3.Ənvər Əlibəyli, Böyükağa Qasımzadə, İslam Səfərli,"Sülh nəğmələri"1954-1958-ci illər.səh:66-70.

S.Imamova

THE ROLE AND CONTRIBUTION OF AZERBAIJAN IN WORLD WAR II

SUMMARY

Azerbaijan The role of Azerbaijan in the victory over fascism in the Second World War, the great heroism of the Azerbaijani people, the importance of Azerbaijani oil. The years of the Second World War were the most difficult and terrible period faced by mankind in the twentieth century.

It is of great scientific-theoretical, political and practical importance to reveal the determination and heroism of the Azerbaijani people in this war.

The role of Azerbaijan in the victory over fascism in World War II was extremely large and large-scale, the Azerbaijani people were great and courageous in this war showed heroism, famous commanders appeared. Importance of Azerbaijani oil during World War II was of particular importance and played a decisive role.

Despite the loss of a large number of manpower and equipment in the battles for the North Caucasus, the German command did not give up its plan to occupy Baku. Hitler sent a telegram from Berlin to the headquarters of the First Tank Army, demanding that the occupation of Baku be accelerated.

The headquarters of the First Tank Army drew up a plan for the attack on Baku and sent it to the headquarters of the Group A Army. According to this plan, the German army attacked from Grozny on September 6 and Makhachkala on September 16, and was to be in Baku on September 25.

Key words: World War II, Azerbaijan, victory, Nazi Germany, contribution.

С.Имамова

РОЛЬ И ВКЛАД АЗЕРБАЙДЖАНА ВО ВТОРОЙ МИРОВОЙ ВОЙНЕ

РЕЗЮМЕ

Роль Азербайджана в победе над фашизмом во Второй мировой войне, великий героизм азербайджанского народа, значение азербайджанской нефти. Годы Второй мировой войны были самым тяжелым и страшным периодом, с которым столкнулось человечество в XX веке. Имеет большое научно-теоретическое, политическое и практическое значение,раскрыть решимость и героизм азербайджанского народа в этой войне.

Роль Азербайджана в победе над фашизмом во Второй мировой войне была чрезвычайно велика и масштабна, азербайджанский народ был великим и мужественным в этой войне проявили героизм, появились известные полководцы. Значение азербайджанской нефти в годы Второй мировой войны имело особое значение и сыграло решающую роль.

В самые тяжелые годы войны азербайджанские солдаты и офицеры мужественно сражались в боях за Прибалтику, оказывали решительное сопротивление частям немецко-фашистской армии, уничтожали их боевую технику и живую силу, занимали оккупированные населенные пункты, фронты, села и города, в том числе Москва.,

Принимал активное участие в освобождении Сталинграда, Киева, Белоруссии, Прибалтики, а также в падении Берлина, в пути которого многие были увековечены на бессмертие.

Ключевые слова: Вторая мировая война, Азербайджан, победа, нацистская Германия, вклад.

Redaksiyaya daxil olma tarixi: 18.05.2022
Çapa qəbul olunma tarixi: 07.06.2022
RƏYÇİ: filologiya üzrə fəlsəfə doktoru,
dosent Adilə Zeynalova tərəfindən
çapa tövsiyə olunmuşdur

ÜLKƏR YUSİFOVA
Bakı Slavyan Universiteti
Bakı ş, S.Rüstəm 33
Azərbaycan Milli Elmlər Akademiyası
Folklor İnstitutunun doktorantı
ulkaryusifsoy88@gmail.com

DƏRVİŞLƏRİN AD QOYMASI VƏ ONUN KÖKLƏRİ

XÜLASƏ

Dərvişlərin ortaya çıxması islam dininin yaranması, yayılması ilə bağlıdır. Onlar islamın müxtəlif təriqətlərinə mənsubdur və bu adı almaq üçün özləri də müəyyən mərhələlərdən keçməli olurlar. Xristian missionerlərinə bənzər dini yaymaq və təbliğ etmək funksiyası olsa da, dərvişlərin bir çox funksiyaları onu türk inanc sistemi olan şamanizmə yaxınlaşdırır.

Bu məqalədə nağıl və dastanlarda dərvişlərin adqoyma funksiyasından danışılacaq. Nağıl və dastanlardan nümunələr gətirilməklə dərvişlərin ad qoyduğu qəhrəmanların sonrakı taleyi, çətinliklərlə mübarizəsi və bu mübarizədə adın və ad qoyan dərvişin ona köməyi təhlil olunacaq. Dərvişlər nağıl və dastanlarda övladı olmayanlara alma payı verir, dərviş xeyir-duası ilə doğulan qəhrəman bütün çətinliklərdə onun köməyinə çatır.

Eyni zamanda adqoymanın türk xalqlarında tarixi köklərinə toxunulacaq. Qədim türk tayfalarında yeni doğulan uşaq adsız gəzir və ya müvəqqəti adla yaşadıqdan sonra göstərdiyi hünərə görə ad qoyulur. Ad qoyan şəxslər müdrik qoca, nurani kişi, ixtiyar dərviş, Xızır şəklində ortaya çıxır. Ad qoyduqdan sonra birdən-birə yoxa çıxan şəxsin ardınca heç bir iz qalmır, ondan sonra otağa xoş bir rayihə yayılır. Yeni ad almış qəhrəmanın qeyr-adi gücü olur, ya haqq aşığına çevrilir, ya da həddindən artıq fiziki gücə malik olur. Bu ad bir növ qəhrəmana çətinlikliklərlə baş etməyin açarı olur, qoruyucu funksiya daşıyır. Ad almış şəxs bütün folklor janrlarının sonunda qalib gəlir.

Nağıllarda adqoyma türklərin daha əvvəlki inanc sistemi olan şamanizmdən qaynaqlanır. Həmin şəxslər şaman kimi xeyir-dua da verir. İslam dini yayıldıqdan sonra daha çox dini adlara üstünlük verilməsi həmin şəxslərin ad sahibini qoruyacağı inancı yaranır.

Açar sözlər: dərviş, adqoyma, müqəddəslər, inanc, qəhrəman

Müasir dövrdə ad qoyulması ya nənə-baba tərəfindən və ya bölgənin ağsaqqalı, seyidi və ya inanclı şəxs tərəfindən həyata keçirilir. Hazırda statistikanın da göstərdiyi kimi daha çox dini adlar qoyulur ki, bu da adın ad sahibini qoruyacağı inamını yaradır. “Adın Məhəmməd səni qorusun” kimi deyimin ortaya çıxması islamdan sonra baş versə də, bu nağıl və dastanlarda qəhrəmana ad qoyulması ilə birbaşa əlaqələnir.

Hamilə qadınların özünün və ya ailə üzvlərinin bəzən yuxuda uşağının adının nə qoyulacağını görməsi hallarına da rast gəlinir. Yuxunu görən şəxs uşağın adının elə həmin ad qoyulmasında israrlı olur, onu dəyişdirməklə günah işlədiləcəyinə inanır.

Türklərin yaşadıqları yerlərdə islam yayıldıqdan sonra əski türk inanc sistemi olan şamanizm müəyyən qədər də olsa özünü qoruyub saxlamışdır. Türk folklorunda (daha çox nağıl və dastanlarda) rast gəlinən dərviş obrazının kökləri şaman arxetipinə dayanır. Dərviş sözünün mənası farsca "qapı qapı dolaşan" mənasına gəlsə də, İslam dünyasında "təriqət mənsubu" anlamındadır. Onlar bu statusa malik olmaq üçün müxtəlif mərhələlərdən keçməklə yanaşı öz nəfslərinə də hakim olmağı bacarmalı idilər. Bu söz daha əvvəl vaxtlarda Avestada "driqu" "ehtiyacı olan", "kasıb" mənalarında işlənmişdir.

Dərvişin ad qoyma funksiyasına nəzər yetirməzdən əvvəl adqoymanın semantikası, qədimliyi və türk xalqları arasında əhəmiyyətli sayılması tarixinə nəzər yetirək.

"Əski türkcədə "ad qoymaq, adlandırmaq" anlamında işlənmiş "ata" sözü də diqqəti çəkir. Çünki advermə inisiasiya mərasiminin başda gələn elementlərindən olub "əcdad" məzmunlu "ata" ilə eyni semantik sahədə birləşir. Axirətlə bağlandığından "əcada" inisiasiya aktındakı (hami) şaman ruhunun eynidir. əcdad ruhu olan "ata" bəlalardan qoruyudu. Qalın Oğuz elində əcdad ruhunu daşıyıcı Ər Qorqut, Qorqut Ata və ya Dədə Qorqut idi." (6,224)

Adqoymanın bütün türk xalqlarında olduğunu vurğulayan müəllif qəhrəmanın ad almaq üçün müxtəlif cəhdlər göstərdiyini deyir: "Şor dastanlarında adsız yaşamaq istəməyən, yəni sosial düzümdə öz yerini istəyən qəhrəman əlində bir kasa dolusu qımız uca dağ başına çıxır, ona ad verilməsini tələb eləyir. Yakut dastanlarına görə də ikinci həqiqi ad yay çəkib ox atmağa başlayarkən verilirdi. Xakas türklərinin dastanlarında isə advermə aktı (və ya motivi) Dədə Qorqut oğuznamələrindəki advermə hadisəsiylə çox yaxından səsləşir." (6,225)

Professor Cəlal Bəydili ad vermə funksiyasını yerinə yetirməyin özünün də yalnız biliciyə məxsus olduğunu deyir. KDQ dastanında Dədə Qorqudun ad qoymasını onun həm də heyvanların, quşların dilini anladığından, bu funksiyanı əcdadlardan aldığını vurğulayır. "Bu fakt Qorqut Ata obrazıınn mifoliji simvolikasını anlamaq baxımından da olduqca əhəmiyyətlidir. İnisiasiya mərasimlərindəki başlıca simvollardan biri ad vermək idi. İnisiasiya mərasimindən keşərək quşların, heyvanların dilini bilmək və ad almaq simvolik olaraq neofitin gözünün açılmağı, ətrafı tanımağı, anlamağı və bilmədiyini öyrənməyi mənasına gəlirdi. Neofit bütün bu bilgiləri (qoruycu) hami şaman və ya əcdad tərəfindən alırdı." (6,226)

Mirəli Seyidov qeyd edir ki, ad qoyma insanların ilkin dünyagörüşünə dayanır. "Bu onların həyat tərzi və məişəti ilə əlaqəli idi, ov zamanı, digər təbiət hadisələri qarşısında qəbilə üzvlərinin davranış tərzi, sərgilədiyi davranışlar onları bir-birindən ayırmağı, fərqləndirməyi və nəticədə onların hərəsinin öz adının

olmasını labüd edirdi" (9,75). Qəbilədə doğulanların ilkin olaraq valideynləri tərəfindən verilən adlarla yaşadığını və yalnız müəyyən şücaət göstərdikləri təqdirdə ada layiq görüldüyü vurğulayan müəllif bunun xüsusən Altay və Yenisey türkdilli qəbilə birləşmələrində yayğın olduğunu qeyd edir. KDQ-da Buğac (buğaya qalib gəldiyinə görə), Basat (at basan, at yenən) Dədə Qorqud tərəfindən göstərdikləri igidliyə görə qəhrəmanlara verilən adlardır. "Dədə Qorqud" boylarında Amran-İmran, Bəkil və bir çox obrazların adı onların göstərdikləri şücaətlə bağlıdır. Amran oğuzların əmin-amanlığını qoruduğuna görə, ("Amran-əmin aman" deməkdir), Bəkil isə ölkənin qüdrətinin möhkəmlənməsinə, bərkidilməsinə xidmət etdiyinə görə bu adı almışdır." (8,205)

"Altun Taycu adlı Altay əfsanəsində Ağ xanın oğlu dünyaya gəlir və Tanrıdan tez böyüyür. Oğlan böyüyəndə ad istəyir. Xalq toplanır. Bir ağ paltarlı ixtiyar çıxır və oğlanın adını Altun Taycu qoyur." (5,90)

"Manas" dastanında da qəhrəmana ad qoyulması ixtiyar bir kişi tərəfindən həyata keçirilir. "Manas Bakay üçün "Tanrı tərəfindən bizə verilmiş bir dost" söz edərkən, Semeteyin yanında olan və qırx igin başçısı olan Kırqının ağ saqqalı ixtiyar, Tanrı tərəfindən göndərilmiş adam olduğu vurğulanır. Yenə Manas dastanında Semeteyin oğlu Seytəkə ad verən əfsanəvi bir varlıqdan söz edilir. Bu əfsanəvi şəxsiyyət göydən enərək uşağa Seytek adını verərək yox olur. (5,4)

"Soltan İbrahim" nağılında Ənuşirəvan padşahın övladı olmadığını görən abid ona alma verir və övladı olarkən onu gözləməsini, adın özü qoyacağını deyir. Uşaq dünyaya gəlir, ancaq abid yaddan çıxır. Abid özünü yetirir və ona Nuşapəri adını qoyur. Eyni zamanda onun 12, 14, 16 yaşlarında ən təhlükəli anlar keçirəcəyini deyir. Burada abid həm də gələcəyi görür. Nağılın sonrakı gedişatında qızı div aparanda İbrahimə yol göstərən də həmin abid olur. (1, 248)

Nağıl və dastanlarımızda ad qoyan şəxs daha çox yaşlı, ağ və ya göy paltarlı (bu səmadan gəlmə ilə əlaqələndirilir), saçı, saqqalı ağarmış biri kimi təsvir olunur. Bahəddin Ögəlin bəhs etdiyi bu şəxslər onların şamanlarla daha çox bağlılığına işarədir : "Ağ Qoca, Göy Qoca, Ağ saqqalı Göy Qoca, Altın saqqalı Ay Qoca, Ayaz Ata, Muz Ata, Ağ sarıqlı kimi anılan və ilahi bir qaynağa dayanan, uşağı olmayanlara uşaq bəxş edən, doğulan uşağa ad qoyan, yardım edən, kəndlilərə bol məhsul verən, qismət açan, yolçulara yol göstərən, fövqəladə funksiya, görünüş və davranışlara sahib olan bu şəxsiyyətlər türk mif və əfsanələrində önəmli yer tutmaqdadır." (5,4)

Bəzən folklor nümunələrində ad qoyanlar dərviş libasını geyinən islam müqəddəsləridir. Qəhrəman həyatının müəyyən məqamında onun Xızır və ya Şahi-Mərdan (Həzrət Əli) olduğunun fərqinə varır.

Nağıl və dastanlarımızda ortaya çıxan dərvişlər bəzi hallarda həmin qəhrəmanın doğulması üçün vasitə olur, övladı olmayanlara alma verir. Vaxt-vədə yetişdikdə alma yeyənlərin övladı olur, həmin bəxt verən müqəddəsin özü bəzən elə qəhrəmana ad verən olur. "Bu cəhətdən dərviş ad vasitəsi ilə qəhrəmanı adın

olmadığı qeyri-müəyyənlikdən , xaosdan kosmosa keçirir. Advermə ilə övladvermə eyni semiotik vahidlərdir. Yəni övladvermə xaos situasiyasının aradan qalxmasına xidmət etdiyi kimi, advermə də yoxluqdan varlığa, qeyri-müəyyənlikdən müəyyənliyə keçidi təmin edir. Bunlardan hamısının mahiyyətində kişi başlanğıcının yaradıcı ata enerjisi dayanır."(7, 119)

"Şahzadə Bəhram" dastanında Cəlal adlı padşahın övladı olmur. Onun qapısına gələn dərviş ona alma verib deyir:

- Bu almanı yarı bölərsən, arvadın ilə yeyərsən. Bir oğlun olacaq, adını Bəhram qoyarsan. Bəhram böyüyər, başı çox bəlalar çəkər, ancaq axırda muradına, mətləbinə çatar . (4, 69)

Bu dastanda dərviş alma payı verməklə qalmır, eyni zamanda doğulacaq qəhrəmanın gələcək taleyini də deyir. Oğlan dünyaya gələndə üç qarı gəlir ki, uşağa ad qoysun. Lakin nə kötək, nə də köpək qarının dediyi kimi ad qoyulmur, ipək qarının fikri ilə ata adı elə dərvişin dediyi adı qoyur. Mənfi qarı obrazları bir çox folklor nümunələrində xeyirxah dərvişlərlə əks qütbdə dayanır.

"Şah İsmayıl" dastanında da dərvişin alma payı ilə şahın övladı dünyaya gəlir. Dərviş dünyaya gələcək oğlanın adını Şah İsmayıl qoyulmasının istəyir. Onun gələcək atının padşahın öz atının balasınından alma payı ilə dünyaya gələcəyini, adının da Qəmərday olmasını söyləyir. Həmin at qeyri-adi gücə malik Şah İsmayılı daşımağa qadirdir və çətinliklərdən onu yel kimi uzaqlaşdıra bilir.

Digər xalq dastanı olan "Qul Mahmud" dastanında isə uşaq doğulanda ortaya çıxır və uşağa Qul Mahmud adını qoyur. Bu dastanda öz sevdiyi qıza qovuşmaq üçün çətinliklərdən keçən Qul Mahmudun saz-söz sahibi olması və igidliyi onu mətləbinə çatdırır.

"Lətif şah" dastanında dərviş padşaha alma payı ilə oğlunun olacağını deyir, amma tapşırır ki, uşağa ad qoyulmasın. Uşaq bir müddət adsız qalır. Vəzir bunun. Doğru olmadığını israrla söyləyir, bir müddət etiraz edən padşah sonra razı olur. Ad qoyma üçün məclis qurulanda dərviş ortaya çıxır. "Bu qalmaqal içində birdən bir yaşıl abalı nurani, ağsaqqal dərviş içəri girib salam verdi, ayaq üstə şahzadənin adını Lətif şah qoyuram – deyib, yox oldu. Aşağı, yuxarı dərviş, dərvişi tapmadılar. Bütün məclis mat qaldı ki, bu nə hikmətdir. Bu zaman padşah barmağını dişləyib başa düşdü ki, bu haman bağda alma verən dərviş imiş". (3, 234)

Bu dastanda müşahidə etdiyimiz məqamlardan biri də odur ki, padşah dərvişin sözündən çıxmağa çəkinir. Ad qoymağı ləngidir, müqəddəsin ad qoyacağını gözləyir. Dastanın sonrakı gedişatında da Lətif şahın dərvişlə qarşılaşmasını görürük. Belə ki, Lətif şah yuxuda olarkən eşq badəsini ona içirir, Hindistan padşahın qızı Mehriban Soltanı ona buta verir. Həmin qızın da yuxusuna gələrək Lətif şahın onun qisməti olacağını deyir. Sonda ad sahibi çətinliklərdən keçərək öz butasına qovuşur.

XVII əsr dastanı olan Koroğlu dastanında Rövşən (işıqlı) adından imtina edərək atasının vəziyyəti ilə əlaqədar ad götürdüyünün şahidi oluruq. Kor oğlu

olması onu digər Koroğlu dastanının qəhrəmanları Koroğlulardan fərqləndirir. Ad mifiklikdən çıxıb dünyəvi mahiyyət daşıyır. Koroğlunun Azərbaycan variantında qəhrəman qeyr-adi qüvvəyə malik olmağına Qoşabulaq səbəb olur ki, bu da yenə səma ilə - iki ulduzun birləşməsi ilə baş verir.

Folklor nümunələrinin əksəriyyətində ad qoymaqla işi bitməyən müqəddəslər qəhrəmanlar atının rəngini, hansı atı seçməli olduğunu da özləri seçirlər. Qəhrəmana ad qoyulduqdan sonra sanki onun gücünə güc qatılır, qeyri-adi hadisələrlə -yel kimi gedən at, gözünü bir anda yumub açmaqla uzaq məsafəni yaxın etmək, zəhər quyusunda ölməmək kimi güclərə sahib olur.

Müqəddəslər tərəfindən ad qoyulmuş qəhrəmanın hamıdan seçildiyini cəmiyyət qəbul edir. O ya fiziki görünüşü, ya da sazlı-sözlü olması ilə diqqət çəkir.

Ədəbiyyat siyahısı

1. Azərbaycan nağılları. V cilddə, III cild. Şərq-Qərb, 2005, 360 s.
2. Azərbaycan dastanları V cilddə, I cild, Bakı, Lider nəşriyyatı, 392 s.
3. Azərbaycan dastanları V cilddə, III cild, Bakı, Lider nəşriyyatı, 328 s.
4. Azərbaycan dastanları V cilddə, V cild, Bakı, Lider nəşriyyatı, 344 s.
5. Bahəddin Ögəl "Türk mitolojisi" II. Ankara 1995, s.90
6. Cəlal Bəydili. İstiqbal xalq ədəbiyyatınındır. Bakı. Folklor İnstitutu, 2015, 312 s.
7. Hikmət Quliyev. Müdrik qoca arxetipinin semantik strukturu və paradiqmaları. Bakı, "Elm və təhsil" 2016, 216 s.
8. M.Seyidov Dədə Qorqud boylarının mənşəyinə dair. "Azərbaycan" jurnalı, 1968, N6. S.201-208
9. Mirəli Seyidov . Bəzi abidələrdə və xalq yaradıcılığı nümunələrində adqoyma adətinin qalıqları haqqında mülahizələr. S.47. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. V kitab. "Elm" nəşriyyatı. Bakı - 1977.195 s.

УЛЬКАР ЮСИФОВА

ИМЕНОВАНИЕ ОТ ДЕРВИШЕЙ И ЕГО КОРНИ

РЕЗЮМЕ

Существование дервишей связано с распространением ислама. Они принадлежат к разным течениям ислама и должны пройти определенные этапы, чтобы получить это звание. Хотя у него есть функция распространения и пропаганды религии, подобной христианским миссионерам, многие функции дервишей сближают его с шаманизмом, турецкой системой верований.

В данной статье пойдет речь о функции дервишей в сказках и дастанах. Будут разобраны примеры из сказок и былин, проанализирована дальнейшая

судьба героев, названных дервишем, их борьба с трудностями и помощь дервиша, давшего имя герою. Дервиши в сказках и дастанах дарят яблоки тем, у кого нет детей, а герой, рожденный по благословению дервиша, помогает во всех трудностях.

При этом будут затронуты исторические корни адгоймы у тюркских народов. У древних тюркских племен новорожденного ребенка называют анонимно или под временным именем. Имена даны в виде мудрого старика, просветленного человека, старого дервиша и Хыдыра. После произнесения имени от человека не остается следа, он внезапно исчезает, после него в комнате распространяется приятный аромат. Новоназванный герой обладает необычайной силой, либо станет ашугом, либо имеет чрезмерную физическую силу. Это имя является своеобразным ключом героя к трудностям, имеет защитную функцию. Герой побеждает в конце всех фольклорных жанров.

Именование в сказках восходит к шаманизму, более ранней системе верований тюрков. Эти люди тоже благословляют, как шаманы. После распространения ислама предпочтение более религиозным именам предполагает, что они будут защищать владельца имени.

Ключевые слова: дервиш, именование, святые, вера, герой

ULKAR YUSIFOVA

NAMING FROM DERVISHES AND ITS ROOTS

SUMMARY

The existing of dervishes is associated with the spread of Islam. They belong to different sects of Islam and have to go through certain stages in order to receive this title. Although it has the function of spreading and propagating a religion similar to Christian missionaries, many functions of dervishes bring it closer to shamanism, the Turkish belief system.

This article will discuss the function of dervishes in fairy tales and epics. Examples from fairy tales and epics will be analyzed, the future fate of the heroes named by the dervish, their struggle with difficulties and the help of the dervish who gaves the name to the hero will be analyzed. Dervishes in fairy tales and epics give apples to those who have no children, and the hero, born with the blessing of the dervish, help in all difficulties.

At the same time, the historical roots of naming in the Turkic peoples will be touched upon. In the ancient Turkic tribes, a newborn child is named anonymously or named after his skill after living under a temporary name. The names are given in the form of a wise old man, an old dervish, or Khidr. After the name is given, there is no trace of the person who suddenly disappears and a pleasant scent spreads in the room. The newly-named hero has extraordinary strength, or becomes ashug, or has

excessive physical strength. This name is the key to the hero to face difficulties, has a protective function. The hero wins at the end of all folklore genres.

Naming in fairy tales stems from shamanism, the earlier belief system of the Turks. These people also bless like shamans. After the spread of Islam, the preference for more religious names suggests that they will protect the owner of the name.

Keywords: dervish, naming, saints, faith, hero

Redaksiyaya daxil olma tarixi: 18.05.2022
Çapa qəbul olunma tarixi: 07.06.2022
Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru, dosent Fərrux Məmmədov
dos.N.M.Axundova tərəfindən
çapa tövsiyə olunmuşdur

İçindəkilər:

İLHAMƏ HƏBİB QIZI HACIYEVA
ŞƏLALƏ ABDULLA QIZI ABASOVA,
İNFORMASİYA-KOMMUNİKASİYA
TEXNOLOGİYALARININ(İKT) CƏMİYYƏTDƏ ROLU 3

ALIYEVA GÜLÇÖHRƏ BABAƏLİ
MÜASİR DİLÇİLİKDƏ FUNKSİONAL İSTİQAMƏTİN
ONTOLOJİ VƏ QNOSEOLOJİ ASPEKTLƏRİ 11

HƏQİQƏT MEHDİYEVA
ALMAN DİLİNİN TƏDRİSİNDƏ DİLLƏR ARASINDA
İNTERFERENSİYA EHTİMAL OLUNAN TƏZADLARIN TƏHLİLİ 20

БУНЯДОВА ВАФА ШАХЗАДЕ КЫЗЫ
О НЕКОТОРЫХ АСПЕКТАХ РАЗВИТИЯ ТЕОРИИ ПЕРЕВОДА В
СОВРЕМЕННОМ РУССКОМ ЯЗЫКЕ 29

MƏMMƏDOVA GÜNEL ƏFLATUN QIZI
YARADICI YAZILARDA MƏNTİQİ-ÜSLUBİ ƏLAQƏ FORMALARI..... 36

AYTƏN ARZULLA QIZI ƏHMƏDOVA
"DASTANİ- ƏHMƏD HƏRAMİ" ƏSƏRİNDƏ İŞLƏDİLMİŞ
BƏZİ ARXAİZMLƏR HAQQINDA..... 43

VÜSALƏ HƏSƏNOVA
KVK HECA MODELİNDƏ KOMPONENTLƏRİN ZAMAN
PARAMETRİNİN EKSPERİMENTAL-FONETİK TƏHLİLİ..... 54

BAHAR İSMAYILOVA RAMİN
"KİTABİ-DƏDƏ QORQUD"DA İŞLƏNƏN FEİLİ BAĞLAMA
ŞƏKİLÇİLƏRİNİN MÜASİR AZƏRBAYCAN DİLİNDƏ MÜQAYİSƏSİ..... 63

MAHMUDAĞA QASIMOV
CƏLİLABAD RAYONU ŞİVƏLƏRİNDƏ SAİT ƏVƏZLƏNMƏLƏRİ..... 70

AYGÜN ABDULLAYEVA
MÜRƏKKƏB CÜMLƏDƏ PREDİKATİVLİK
VƏ ONUN İFADƏ VASİTƏLƏRİ 78

İMANOV SƏNAN VAZEH OĞLU
MÜRƏKKƏB CÜMLƏ ANLAYIŞININ TƏDRİSİ ÜSULLARI 87

İMANOVA KƏMALƏ XALİD QIZI
MODERNISM IN ENGLISH LITERATURE.
WHAT IS MODERNISM? 96

SEIDOVA EMMA RAFAIL KIZI,
ROLE AND IMPORTANCE OF THE SOCIOCULTURAL
FACTORS FOR FOREIGN LANGUAGE LEARNERS 107

SEVİNC ŞÜKÜRLÜ
İNGİLİS VƏ AZƏRBAYCAN PAREMİOLOJİ VAHİDLƏRİ "YAXŞI"
KONSEPTİ PRIZMASINDA 113

ARZU AĞANƏHMƏD QIZI MİRZƏYEVA
RƏVAYƏTLƏR ƏSASINDA YARANAN İDİOMLAR 120

RAHIMA MAMMADOVA
DADASHOVA AYBENİZ
TECHNICAL TRANSLATION 127

TÜRKAN ƏSGƏROVA
XIII-XVI ƏSR AZƏRBAYCAN ƏDƏBİ
DİLİNDƏ SİNKRETİZM HADİSƏSİ..... 135

AYNUR MƏMMƏD QIZI MƏMMƏDOVA
THE NECESSITY OF IDIOMS TO ENGLISH
LANGUAGE LEARNERS 148

AYTAC NƏBIYEVA RUSLAN Q
XARİCİ DİLİN TƏDRİSİNDƏ
KOMMUNİKATİV YANAŞMA 155

KÖNÜL HƏSƏNOVA KAMRAN QIZI
TİFLİS ƏYALƏTİNİN MÜFƏSSƏL DƏFTƏRİNDƏ ETNONİM
ƏSASLI TOPONİMLƏR..... 161

QÖNÇƏ KƏRİMOVA ,
KÖNÜL QOCAYEVA
İNGİLİS DİLİNDƏ QRAMMATİK ZAMAN

KATEQORİYALARIN TƏDRİSİ METODİKASI 168

LEYLA MƏZAHİR QIZI PIRIYEVA
AŞIQ ŞEIRINDƏ GEYİM ADLARINI
ÜSLUBI İMKANLARI 175

MƏLİKZADƏ AYDAN TAHİR QIZI
SİNTAKTİK AMBİQİTİVLİKLƏ QARŞILAŞAN İNSANIN CÜMLƏ EMALI
MAŞININ QƏRARINA TƏSİR EDƏN FAKTORLAR HAQQINDA 183

VALİDƏ ABIYEVA
AFƏT SƏFİXANOVA
İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ VİDEO
MATERİALLARDAN İSTİFADƏ 193

АЛИЕВА СЕВДА ДЖАЛАЛ КЫЗЫ
АХМЕДОВА КЯМАЛЯ ГЕЛЕНДАР КЫЗЫ
СОВРЕМЕННЫЕ МЕТОДЫ ИНТЕРАКТИВНОГО
И ДИСТАНЦИОННОГО (ON-LINE)
ОБУЧЕНИЯ В РУССКОМ ЯЗЫКЕ 200

РЕНА РАФИК гызы ШИХАМИРОВА
О ДЕРИВАТОЛОГИЧЕСКИХ ВОЗМОЖНОСТЯХ СОЧЕТАНИЯ
ОТРИЦАТЕЛЬНОЙ ЧАСТИЦЫ *НЕ* С ТРЕТИЧНЫМ ИМПЕРАТИВОМ 208

ƏDƏBİYYATŞÜNASLIQ

TAMİLLA ƏLİYEVA
ŞEYX ŞAMIL HƏRƏKATI VƏ MÜRIDIZM
TƏLIMI TARIXI-SƏNƏDLI MƏNBƏLƏRDƏ
(N.Okolniçi. Dağıstandakı son hərbi hadisələrin icmalı (1843) 216

AYNUR AYDIN qızı FƏRƏCOVA
OĞUZ-TÜRK TEOQONİK OBRAZLAR SİSTEMİNDƏ
“TANRININ NİŞAN VURDUĞU” QƏHRƏMANLAR:
DƏLİ DOMRUL 223

AYTAC ASIF QIZI MƏNSIMOVA
CƏNUB MÖVZUSU M.İBRAHIMOVUN “CƏNUB HEKAYƏLƏRI”
KONTEKTSINDƏ 234

SƏLİMƏ ÇINGIZ QIZI HACIYEVA
CEK LONDONUN ƏSƏRLƏRİNDƏ YAŞAMAQ
UĞRUNDA MÜBARİZƏ 242

NOVRUZ AĞAGÜL OĞLU NURİYEV
XIX ƏSR AZƏRBAYCAN ƏDƏBİYYATI NÜMUNƏLƏRİNDƏ
MƏTNŞÜNASLIĞIN METODOLOJİ ƏSASLARININ TƏTBİQİ 253

BAXŞƏLIYEVA AYTƏN ƏHƏD QIZI
DEVID MITÇELİN HEKAYƏ YARADICILIĞI 261

GÜLAY ABDULLA qızı TAHİRLİ
"BAKIDA" ŞEİRİ "ŞEYDA" PYESİNİN QIĞILCIMI KİMİ 269

NAZLAR MƏCNUNOVA
BANİN YARADICILIĞINDA DİNƏ MÜNASİBƏT 275

FİDAN İLQAR qızı HƏSƏNOVA
ORTA ƏSRLƏR ANADİLLİ POEMALARDA
MİFİK QADIN OBRAZLARI 281

ADIGÖZƏLLİ LAÇIN FİRDOVSİ
MİXAİL BULQAKOVUN YARADICILIĞINDA TƏBİƏTƏ
QARŞI DAYANAN İNQİLABİ TƏCRÜBƏ MOTİVİ 287
LALƏ ƏLIYEVA
"BEOVULF" POEMASININ ƏLYAZMASINA KONSEPTUAL BAXIŞ 297

QULIYEVA PƏRVANƏ ELMAR QIZI
NƏBİ XƏZRİ LİRİKASININ MƏZMUN DAİRƏSİ 304

ALLAHVERDIYEVA AYŞƏN BƏYLƏR QIZI
KULTUR DES LEHRENS UND LERNENS 312

NİGAR İBRAHİMOVA FƏRMAN QIZI
J.W.GOETHE – DER BESTE ANHÄNGER DER
IDEEN DES STURM UND DRANG 321

ZAMİN BABAZADƏ
AXUNDZADƏNİN AZƏRBAYCANÇILIQ İDEYALARI
VƏ AXUNDZADƏ OBRAZININ YARADILDIĞI

BƏDİİ ƏSƏRLƏRDƏ BU İDEYALARIN ƏKSİ 331

AİDƏ CƏLILZADƏ MƏHƏMMƏD QIZI
ABREVİASIYANIN TƏDQİQİNİN ƏSAS MƏSƏLƏLƏRİ..... 338

QƏRİBƏ XƏLİLOVA
CƏLİL MƏMMƏDQULUZADƏNİN ƏDƏBİ-İCTİMAİ
FİKİR TARİXİNDƏ YERİ 347

ADGÖZƏLOVA GÜLCAHAN İSMAYIL
BƏDİİ ƏSƏRDƏ PSİXOLOJİ PORTRET: M.F.DOSTOYEVSKİNİN
“CİNAYƏT VƏ CƏZA” ROMANINDA RASKOLNİKOV OBRAZI 355

SONAXANIM İMAMOVA QURBAN QIZI
II DÜNYA MÜHARİBƏSİNDƏ AZƏRBAYCANIN
ROLU VƏ VERDİYİ TÖHFƏ..... 370

ÜLKƏR YUSİFOVA
DƏRVİŞLƏRİN AD QOYMASI VƏ ONUN KÖKLƏRİ 377

“Elm və təhsil” nəşriyyatının direktoru:
N.MƏMMƏDLİ

Dizayner: Kamran İbrahimov
Texniki redaktor: Rövşanə Nizamiqızı

Çapa imzalanmış 12.06.2022
Şərti çap vərəqi 24,5. Sifariş № 158
Kağız formatı 60x84 1/8. Tiraj 500

Jurnal “Elm və təhsil” nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib, çap olunmuşdur
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4